**LEV QUMİLYOV**

# QƏDİM TÜRKLƏR

**BAKI – GƏNCLİK – 1993**

**Az$^2$**
**Q 83**

Tərcümə edənlər: *Vilayət Quliyev, Vəli Həbiboğlu*

İxtisas redaktoru: Filologiya elmləri doktoru *Elməddin Əlibəyzadə*

Nəşriyyat redaktoru: fəlsəfə elmləri namizədi *Vəli Həbiboğlu*

**Qumilyov L. N.**

**Q 83** Qədim türklər. B: Gənclik, 1993, — 536 səh.

*Kitabda qədim türk dövlətinin yaranması, inkişafı və süqutu tarixi tədqiq edilir. Müəllif türklərin siyasi həyatını, onların məişətini, dini görüşlərini və mədəniyyətini zəngin materiallar əsasında araşdırır, iki dövrün qovşağında — qədim və orta əsrlərdə Orta Asiyada köçərilərin həyat tərzini işıqlandırır.*

**Q 63030202 100-93** **Az$^2$**
**M-653(07)-93**

© «Наука»,1967.
© «Gənclik», Azərbaycan dilinə tərcümə, 1993.

## *«QƏDİM TÜRKLƏR» ÜZƏRİNDƏ DÜŞÜNCƏLƏR*

*Bəşəriyyət tarixində elə xalqlar mövcuddur ki, onların təşəkkül və inkişaf tarixi, dünya sivilizasiyasında tutduğu qanuni mövqe başqa xalqların, dövlətlərin, qədim mədəniyyətlərin tarixinin araşdırılması ilə müqayisədə çox az öyrənilmişdir:*

*Tarixi ədəbiyyata dərin marağın artdığı və gücləndiyi bir dövrdə qədim xalqların təşəkkül və inkişaf tarixini tədqiq edib oxuculara çatdırmaq, hər bir xalqın dünya xalqları ailəsində mənsub olduğu layiqli obyektiv mövqeyi açıb göstərmək, nəhayət, xalqların, dövlətlərin, mədəniyyətlərin ümumdünya sivilizasiyasına əsl təsirini üzə çıxarmaq, hamının malı etmək bütövlükdə keçmişin düzgün, təhrif olunmadan öyrənilməsində böyük əhəmiyyət kəsb edir.*

*Çox təəssüf ki, müxtəlif subyektiv mülahizələr əsasında az öyrənilmiş xalqlardan biri də qədim dövlətçilik və mədəniyyət tarixinə malik olan türk xalqlarının tarixidir:*

*Əslində, vaxtilə nəhəng bir əraziyə malik olan qədim türk xalqlarının tarixinin öyrənilməsinin müəyyən obyektiv səbəbləri vardır. Türk xalqlarını bir-birindən təcrid etmək, onların qədim dövlətə, mədəniyyətə malik olduğunu göstərməmək, yeni yaranmış nəslin dünyagörüşündə bu qədim xalqın qədimliyinin tarixi köklərinə aid baxışların dərin kök atmasına yol verməmək Sovet milli siyasətinin başlıca tendensiyalarından biri idi. Çünki vaxtilə çox böyük ərazidə yaşayan və əsrlər boyu bu ərazilərdə türk mədəniyyəti və tarixinin qalıqlarını sübut edən xalqın böyüklüyünü, mənəvi zənginliyini qəbul etmək imperiyanın milli siyasətinə qətiyyən uyğun gəlmirdi. Lap yaxın vaxtlara qədər, əgər mütəxəssisləri nəzərə almasaq, əhalinin böyük əksəriyyəti türk xalqlarının qədim tarix və mədəniyyəti, dövlət quruluşu ilə, keçmiş SSRİ ərazisində xeyli türkdilli xalqın yaşadığını və onlar ilə azərbaycan türkləri arasında tarixən mənəvi yaxınlıq olduğunu yəqin ki, bilmirdilər. Başqa xalqlar öz qədim tarixlərini qondarma üsullarla sübuta yetirmək üçün dəridən-qabıqdan çıxdıqları halda, bütün dünyaya car çəkib «biz qədim xalqıq» deyib hay-həşir saldıqları halda türk xalqlarının başı elə qarışdırılmış, hakim milli siyasətin qurduğu tor elə möhkəm toxunmuşdu ki, biz öz tariximizi, dövlətçilik qurumumuzu gah farslarla bağlayır, uzun illər boyu, elə bu günün özündə də bu siyasətə xidmət edən tarixi ədəbiyyatı təbliğ etməklə məşğul olur, gah da öz milli tariximizin köklərini ümumtürk dünyası tarixindən təcrid olunmuş şəkildə öyrənir və araşdırırıq. Bu isə, məlum olduğu kimi, əleyhdarımızın türk xalqlarının, tarixinin təhrif olunmasını, vahid öyrənilmə məcrasından uzaqlaşdırılmasını güdən, yetmiş il ərzində bu siyasəti yeritməklə türk övladlarının mənəviyyatını dəyişdirməyə çalışan qüvvələrin başlıca qayəsidir. Məhz bu tendensiyanı əsas götürərək ittifaqda çapdan buraxılmış külli miqdarda tarixə aid dərslik və tədqiqatlarda gah türk xalqlarının tarixən təşəkkül tapdığı ərazilər, arxeoloji qazıntılar, daş salnamələr, qədim mədəniyyət nümunələri, dünyanı lərzəyə gətirən güclü axınları barədə danışılmır, gah da başqa xalqlara, dünya*

*tarixində dövlət qurumu türklərə nisbətən çox az qədim olan xalqlara daha geniş yer ayrılır. Çoxcildli «Vsemirnaya istoriya», «İstoriya drevneqo mira» (3 cilddə), «İstoriya srednix vekov» (2 cilddə), «Sovetskiy ensiklopediçeskiy slovar», habelə yüzlərlə dərslik və tədqiqat əsərlərinin adını sadalamaq olar ki, bu kitablarda türk xalqlarının qədim tarixi oxucu diqqətindən kənarda qalır, bəzən də ona çox səthi məlumat verilir.*

*Beləliklə, başqa xalqların tarixi yaxşı tədqiq olunduğu, şişirdildiyi, dünyaya ən qədim bir xalq, tarix kimi tanıdıldığı halda, süni maneələr tətbiq etməklə türk xalqlarının ümumi tarixi arasında qəsdən uçurumlar yaradılır, bir-birindən təcrid olunmuş halda tədqiqat məcrasına yönəldilir, öz kökündən uzaqlaşdırılaraq başqa xalqların tarixinə calaq edilir, eyniləşdirilir, bu məkrli, uzaqgörən siyasətdən baş çıxardıqda isə mövcud tədqiqatların nəşri, üzə çıxarılması və yayılmasını qadağan edirdi.*

*Ümumtürk tarixindən təcrid olunmuş şəkildə araşdırılan Azərbaycan tarixi də bu vəziyyətdədir. Buna görə də qədim dövrdən başlayaraq əsrimizin iyirminci illərinə qədər Azərbaycan tarixində ağ səhifələr, təhriflər çoxdur. Ümumtürk tarixindən ayrı təsəvvür edilməyən Azərbaycan tarixinin düşdüyü vəziyyəti Ə. Əliyev çox yaxşı səciyyələndirir: «Uzun illərlə ya hökm edilib, ya da milyonlar buraxılıb ki, Azərbaycan tarixində nədən danışırsan, danış, yazırsan yaz, söy, dağıt... ancaq elə et ki, bu Dərbənddən Həmədana, Qəzvindən Trabzona qədər olan bir ölkədə türk adı çəkilməsin, çəkilsə də «gəlmə» olsun, «talançı», «düşmən», «vəhşi», «başkəsən», daha nə cür mümkünsə.:: dalğalar hazırlansın! Azərbaycan tarixini yaradan biz türklər qələm əlində olan düşmənlərimiz tərəfindən nə qədər ki, yazılardan çıxarılırıq və danılırıq — Azərbaycan tarixi düzgün yazılmayacaq».*

*Buna görə də biz qəti bilməliyik: ümumi qədim türk tarixi öyrənilməyincə, Azərbaycan tarixi düzgün araşdırıla bilməz:*

*Lakin müxtəlif vaxtlarda imperiyanın bu bədnam milli siyasətinə qarşı çıxan elə şəxslər olmuşdur ki, onlar heç bir maneəyə, çətinliklərə baxmayaraq, bütün məhrumiyyətlərə öz zəkaları, fiziki imkanları hesabına sinə gərmiş və keçmiş Sovetlər birliyinin nəhəng ərazisində vaxtilə qədim türk xalqlarının məskunlaşdıqlarını geniş oxucuya çatdırmış, bu sahədə samballı tədqiqat əsərləri yazıb ortaya çıxarmışdır.*

*Belə görkəmli şəxslərdən biri də türk xalqlarının yaxın dostu sayılan Lev Nikolayeviç Qumilyovdur. Əsrimizin iki böyük tanınmış şairinin — N. S. Qumilyovun və A. A. Axmatovanın övladı olan bu böyük tarixçi insan bütün həyatını türk xalqlarının qədim dövr tarixinin araşdırılmasına həsr etmişdir. Onun elm aləmində böyük əks-səda doğuran monoqrafiyaları, tədqiqat xarakterli məqalələri, bu məcrada elmi fəaliyyəti türk xalqlarının tarixinin öyrənilməsi və təbliği sahəsində mühüm addım kimi qiymətləndirilməlidir. Çünki bu faydalı fəaliyyət ölkədə türk xalqlarının tarixinin öyrənilməsi sahəsində mövcud olan*

*boşluğun doldurulmasına, bütövlükdə həm oxucu, həm də geniş ictimaiyyətin bu problemə nəzər-diqqətinin cəlb edilməsinə zəruri imkan yaratmış və sonrakı mərhələlərdə yeni tədqiqatların yaranmasına cığır açmışdır. Bu böyük və qədim xalqın soykökünün, tarixinin araşdırılmasına icazə verilmədiyi bir vaxtda, o bu gün belə əhəmiyyətini itirməyən, bir çox tədqiqatçıların dönə-dönə oxuyub bəhrələndiyi, gündəlik stolüstü kitabına çevrildiyi iri həcmli, elmi-kütləvi səpkidə yazdığı «Qədim türklər» kitabını ortaya çıxarmışdır.*

*Bu kitab həqiqətən elm aləmində çox böyük əks-səda doğurdu. Ömrünün otuz iki ilini yalnız bu kitabın — son dərəcə dəyərli tədqiqat əsərinin yaranmasına həsr etmiş müəllif, əsərin adından göründüyü kimi, qədim türklərin dövlətinin yaranması, inkişafı və süqutu qanunauyğunluqlarını zəngin tarixi faktlar əsasında araşdırır.*

*Onu da qeyd edək ki, kitabda qədim türklərin V—IX əsrlərdə inkişaf tarixi öz əksini tapmışdır. Bu dövr türk tarixinin ən maraqlı və zəngin dövrlərindən biri olsa da, bütövlükdə türk xalqlarının ən qədim dövrü haqqında heç də təsəvvür yaratmır. Türklərin hələ eradan əvvəl dövlət qurumlarının mövcudluğu, Sibir və Altay çöllərində, Çin ətrafında, habelə müxtəlif vaxtlarda zəfərli yürüşlər zamanı Asiyanın və Avropanın bir çox regionlarına geniş yayılması, məskunlaşması, zəngin mədəniyyət və məişətə malik olmaları bu kitabda tədqiqatdan kənarda qalmışdır.*

*Bundan əlavə, əsərdə yalnız Şərqdə, Sibir və Altay, habelə müasir Asiyanın ərazilərində yaşayan qədim türklər barədə danışılır. Qərb regionunda, o cümlədən Qafqaz, İran, müasir Azərbaycan ərazisində qədim dövrlərdən bəri məskunlaşmış, daha doğrusu, aborigen əhali olmuş türklərin tarixi, həyat tərzi, mədəniyyəti və dünyagörüşü məsələlərinə toxunulmur.*

*Bu da təbiidir. Çünki müəllif yalnız müəyyən bir dövrdə, həm də özünün qeyd etdiyi kimi Şərq regionunda yaşayan türk xalqlarının tarixini araşdırmağı qarşısına məqsəd qoymuşdur.*

*Təəssüf ki, hələ bu günə qədər Azərbaycan ərazisində yaşayan, ümumiyyətlə Şərq regionunda məskunlaşmış qədim türk xalqlarının tarixi lazımi səviyyədə araşdırılmayıb. Qədim türk xalqlarının hələ lap qədim zamanlarda, eramızdan çox-çox qabaq yaratdığı mədəniyyət nümunələri, onların dünyagörüşü, məişəti, bütövlükdə tarixi qədim İrana aid yazılmış tədqiqatlarda farsların adına çıxılır. İran tarixindən danışan tədqiqatçıların əksəriyyəti bu ərazidə türk xalqlarının məskunlaşmasının üzərindən çox vaxt sükutla keçirlər. Tarixi saxtalaşdıraraq başqa xalqları, o cümlədən türk xalqlarını da fars xalqı kimi qələmə verirlər. Halbuki İran tarixinə nəzər saldıqda, aydın görünür ki, bu möhtəşəm dövlətin başında duran şahların əksəriyyəti milliyyətcə türk olmuşdur. Deməli, bu adi həqiqətə göz yumulması, qəsdən tarixin qeyri-düzgün məcrada yazılması göz qabağındadır.*

*Tarixi saxtalaşdıran bir çox tədqiqatçılar elmdə öz istədiklərinə qismən, müəyyən nəslin dünyagörüşünü, ictimai fikri əsl həqiqətdən azdırmağa, uzaqlaşdırmağa nail olmuşlar. Buna görə də Azərbaycan xalqının etnogenezi, yəni soy kökü ilə əlaqədar yazılmış tarixi araşdırmalarda bu günün oxucusu itib batır, ona lazım olan məlumatları tam, müfəssəl ala bilmir. Bəzi araşdırmalarda isə ictimai fikir başqa məcraya yönəldildiyindən milli zəmindən uzaq düşür.*

*Bu əsəri oxuyan hər bir şəxs dərin mənəvi zövq alacaq, eyni zamanda oxucuda belə bir yanlış fikir yarana bilər ki, müasir Azərbaycan, eləcə də İran ərazisində yaşayan türk xalqı L. Qumilyovun böyük məhəbbətlə tədqiq etdiyi türklərin varisləridir, başqa sözlə desək, Sibir və Altayda yaşayan türklər tarixin sonrakı çağlarında köçüb bu ərazidə, yəni Azərbaycan və İranda məskunlaşmışlar.*

*Əlbəttə, belə düşünmək kökündən səhvdir. Azərbaycan, eləcə də İran ərazisində, ümumiyyətlə Şərq regionunda türklər hələ lap qədim zamanlardan yaşayırlar. Tarixin atası hesab olunan Heradot 2500 il bundan əvvəl bu ərazidə türklərin yaşamasından xəbər verirsə, deməli bu xalq hələ çox-çox əvvəl Azərbaycanda yaşayıb məskunlaşmışdır. Görkəmli tarixçi Z. Yampolski də bu fikirdədir. O, «Azərbaycandakı türklər barəsində — qədim mənbələr» adlı tədqiqat əsərində bu haqda yazır: «Mixi yazıların, habelə ilk mənbələrin məzmunu bunu deməyə əsas verir ki, türk dili Azərbaycanda eramızdan əvvəlki dövrlərdə peyda olmuşdur». VII əsr ərəb tarixçisi Cürhumi isə qətiyyətlə bildirir ki, Azərbaycan lap qədim çağlardan türklərin vətəni sayılır. Türklər çoxdan bu ərazidə məskunlaşmışdır.*

*Türklərin bu ərazidə lap qədim çağlardan yaşamasına aid tarixi mənbələri çox gətirmək olar. Bir neçə tarixi fakta müraciət etməklə fikrimizi tamamlayaq. Tarixi mənbələrdə belə bir məlumat vardır ki, xəlifə Müaviyə bir dəfə qədim tarixin mahir bilicisi yəmənli Abid ibn Şoriyədən soruşur: «Türklər və Azərbaycan nə deməkdir?» Abid cavab verir: «Azərbaycan qədimdən burada məskunlaşmış türklərin ölkəsidir».*

*Eyni fikrə 1126-cı ildə fars tarixinə aid bir mənbədə də rast gəlmək mümkündür: «Azərbaycan — lap qədimdən türklərin əlində olan bir ölkədir...*

*Beləliklə, tam qətiyyətlə belə bir fikrə gəlmək olar ki, Azərbaycan tarixində adları çəkilən Manna, Midiya, Atropaten, Albaniya, Arran dövlətlərinin ərazisindəki tayfa ittifaqları arasında türk-mənşəli etnoslar həmişə aparıcı mövqedə durmuşlar.*

*Bu tarixi həqiqəti danmaq mümkün olmadığı kimi, Azərbaycan tarixini də ümumtürk tarixindən, kontekstindən ayırmaq onu saxtalaşdırmaq, milyonlarla insanın ictimai fikrini azdırmaq deməkdir.*

*Bu cəhətdən L. Qumilyovun «Qədim türklər» əsərinin çox böyük əhəmiyyəti vardır. Azərbaycan oxucuları öz ərazimizdə yaşamış qədim türklər haqqında burada heç bir məlumat almasalar da, bütövlükdə ümumtürk tarixində böyük bir*

*dövrü əhatə edən, tarixdə nəhəng əraziyə öz qəhrəmanlıq yürüşləri ilə yiyələnmiş qərb türkləri haqqında ətraflı məlumata yiyələnə biləcəklər.*

*Lev Qumilyovu belə ağır, çox zəhmət tələb edən bir əsəri yazmağa, saysız-hesabsız tarixi məlumatları, tədqiqatları araşdırmağa sövq edən hansı fövqəl-təbii hisslər, qüvvələr olmuşdur? O, «Xəzərətrafı xalqların minillik tarixi» əsərinin əvvəlində bu suala özü cavab verir. Görkəmli tarixçi bildirir ki, Avropa tarixçilərinin elmi fikri uzun müddət monomərkəzin dəmir halqası tərəfindən sıxılmışdır. Hələ Fridrix Hegelin dövründən məlum idi ki, sivilizasiyanın inkişafı qədim İudey, Ellada, Romadan keçmiş və «qeyri-tarixi» yaxud «geridə qalmış xalqlar»la əhatə olunmuş Qərbi roma-alman Avropası ilə başa çatmışdır. Çin tarixçiləri də qismən belə fikirləşirdilər, lakin onlar istisna kimi sivilizasiyanın mərkəzini Böyük çölün ayırdığı «Orta düzəngahı» hesab edirdilər.*

*Lev Qumilyov tarixçilərin müxtəlif konsepsiyalarını təhlil edərək bu qənaətə gəlir ki, Qərbi Avropa və Çin arasındakı nəhəng ərazi tarixçilərin diqqətini cəlb etməmiş, buna görə də tədqiqat mərkəzindən kənarda qalmışdır. Bu ərazini qədim dövrlərdə yunanlar Skifistan, farslar Turan, çinlilər isə «şimal barbarları» adlandırmışlar.*

*Göründüyü kimi, böyük bir ərazinin, müxtəlif xalqların və dünya ictimaiyyətinin xəbəri olmadığı orijinal mədəniyyətin mühüm tədqiqat mərkəzindən uzaqda qalması müəllifi dərindən düşündürmüş, belə bir əsərin yazılmasına başlamağa zəmin olmuşdur.*

*Müəllif kitabın əvvəlində haqlı olaraq göstərir ki, bu əsərin uzun illər müddətində yazılmasına baxmayaraq, heç də onu düşünməyə əsas vermir ki, burada qədim türklərin tarixinə aid bütün materiallardan istifadə edilmiş, bu mövzu, xalqın tarixi daha tədqiq olunmamalıdır. O, bu mühüm tədqiqatın bundan sonra da davam etdirilməsini çox zəruri hesab edir. Müəllif göstərir ki, bəşəriyyət tarixində çox böyük rolu olan bu xalqın tarixinin lazımi səviyyədə öyrənilməməsi yalnız təəssüf hissi doğurur.*

*«Qədim türklər»in yazılıb oxucuya çatdırılmasından keçən dövr ərzində bu mövzuya aid bir sıra tədqiqat əsərləri meydana çıxsa da, açıq etiraf etmək lazımdır ki, bu faydalı monoqrafiya indiyədək türk tarixindən bəhs edən əsərlər arasında özünəməxsus əhəmiyyətli yer tutur.*

*Kitabda türk xaqanlıqlarının yaranması, inkişafı, qonşu dövlətlər və tayfalarla münasibəti, mədəniyyəti və dünyagörüşü, ümumdünya tarixinin inkişafı fonunda bu qəhrəman xalqın rolu, məskunlaşdıqları ərazinin tarixi, coğrafi mühiti, təsərrüfat, məişət həyatı çox geniş faktiki materiallar, salnamələr, sənədlər əsasında işıqlandırılır. Müəllif kitabın yazılmasında külli miqdarda onomastika, toponimika, dilçilik materiallarından da geniş istifadə etmişdir. Ayrı-ayrı tayfaların həyat və mübarizəsi, bir-birinə qaynayıb-qarışması, Çin əsarəti altında yaşamaları və yeni xaqanlıqda birləşmək meylləri tədqiqatda inandırıcı şəkildə açılıb göstərilir. Müəllifin bu tarixi sənədlər və tədqiqatlarla bərabər Orxon-*

*Yenisey abidələrindən də geniş istifadə etməsi əsərin tarixi əhəmiyyətini daha da artırır. Oxucular bu kitabda türk tarixində çox böyük xidmətləri olan Qapağan xan, Qütlü, Kültigin, Bilgə xaqan kimi sərkərdə və hökmdarların həyat yolu, mübarizəsi ilə yaxından tanış olurlar.*

*Türklərin lap qədim zamanlardan başlayaraq eramızın V—VII əsrlərinə qədər ən çox müharibə apardıqları dövlətlərdən biri Çin olmuşdur. Hələ Mete dövründə Çin üzərinə edilən hərbi yürüşlər hər iki xalqı, dövləti bir-birinə qarşı ən qorxulu düşmən səviyyəsinə qaldırmışdı. Əslində Çin imperatorları azlıqda yaşayan türk tayfalarının üzərinə hücumlar təşkil etməklə onların bir xalq kimi Çində yaşayan bir çox tayfaların arasında itib-batmasına, əriyib-yox olmasına geniş imkan və şərait yaradırdı. Bu soyqırımı xüsusilə eramızın V—VI əsrlərində daha da güclənmişdi. Hətta türklərin adı belə dəyişdirilib çinliləşdirilmişdi. Bu mənfur siyasəti dərk edən qüdrətli türk oğulları azadlığa çıxmaq, müstəqil xaqanlıqlarını yaratmaq məqsədilə mübarizəyə ayağa qalxdılar. Çox güclü müqavimətə, dəhşətli, amansız soy qırğınlarına baxmayaraq öz xaqanlıqlarını, türk dövlətlərini qurub türkün əvvəlki şan-şöhrətini, adını özünə qaytardılar, bir çox tayfaları özlərinə birləşdirdilər.*

*Görkəmli tədqiqatçı alimin zəngin tarixi məlumatlar əsasında oxucuya təqdim etdiyi bu qiymətli monoqrafiyada türklərin əsarət buxovundan azad olunmaq üçün qurtuluş uğrunda apardıqları mübarizə çox gözəl öz əksini tapmışdır. Kitabı mütaliə edib vərəqlədikcə tarix meydanında türk xalqlarının nə qədər qovğalara, əsarətə, soy qırğınlarına düçar olduğunu, həm də kənardan heç bir kömək olmadan öz qüvvəsi ilə, böyük qırğınlar hesabına azadlığa can atdıqlarının, qüdrətli bir xalq kimi, daim qonşu dövlətlər tərəfindən təhlükəli bir düşmən kimi qəbul edildiklərinin şahidi oluruq.*

*Kitabda türk anlayışının yaranması, bu ifadənin formalaşmasında mühüm rolu olan türk tayfalarının ictimai-iqtisadi vəziyyəti, bir çox türkdilli tayfalar arasında tutduqları mövqe də diqqəti cəlb edir. Qədim türk tayfaları olan türkyutlar, doqquz-oğuzlar, türkeşlər, karluklar, kidanlar, uyğurlar, qırğızların və Altay, Sibir çöllərində yaşayan bir çox türk tayfalarının ictimai vəziyyəti, bir-birilərinə qarşı apardıqları bədnam siyasətləri də tədqiq edilib göstərilir.*

*Müəllif öz tədqiqatında qədim türklərin dünyagörüşünün formalaşmasına təsir göstərən amillər üzərində də ayrıca dayanmışdır. Orxon-Yenisey abidələri, habelə qədim Çin salnaməçilərinin, şairlərinin şerləri əsasında qədim türklərin ideologiyasını, əski baxışlarını araşdıran tədqiqatçı bu qənaətə gəlir ki, Tibetdə, Çində, Altayda və böyük Sibir çöllərində yaşayan türklərin dini dünyagörüşü arasında böyük fərqlər vardır.*

*VII əsrin ortalarından başlayaraq qədim türk xaqanlıqlarının zəifləyib parçalanmalara məruz qalması onun süqutunu daha da sürətləndirdi. Türk xaqanlığı süquta uğrasa da, bu heç də türk xalqının məhv olması demək deyildi. Türklərin yenidən əsarət altına düşməsi, ayrı-ayrı vaxtlarda Çin sərhəd*

*qoşunlarına qarşı üsyana qalxmaları onların kütləvi surətdə qırılmasına gətirib çıxartdı. Türklər artıq möhtəşəm bir xalq kimi deyil, ölüm pəncəsindən qurtulmaq üçün hara gəldi başını götürüb qaçmış bir köçəri zəif tayfa kimi Sibirin, Tibetin, Altayın düzəngahlarına səpələnməyə başladılar.*

*Yenidən başqa xalqlara qaynayıb-qarışmaq, içlərində ərimək təhlükəsi yarandı. Lakin artıq bu elə bir dövr idi ki, tarix meydanına yeni dövlətlər çıxmışdı. Onların güclü axınları qarşısında dayanmaq üçün isə nə türklərin, nə də qonşu dövlətlərin lazımi qüvvələri var idi. Ərəb xilafətinin qoşunları müsəlmanlığı yaymaq üçün hər tərəfə güclü axınlar təşkil etmişdilər. Orta Asiyada, Sibir və Altayətrafı regionlarda köçəri tayfalarla qarşılaşan ərəblər bu xalqların mübarizliyini, döyüş meydanında göstərdikləri şücaəti görüb valeh olurdular. Onlar türklərin qəhrəman xalq olduğunu yüksək qiymətləndirirdilər. Elə buna görə də bütün köçəri tayfalara türk adı verərək, daha doğrusu bu tayfaların türk olduğunu bilərək onların şücaət və qəhrəmanlıqlarını vəsf edirdilər. Beləliklə, vaxtilə türk xaqanlığına daxil olmayan bir çox köçəri tayfalar həmin vaxtdan etibarən türk adı ilə tarixdə tanınmağa başlandı.*

*Görkəmli türkoloq, tarixçi alim Lev Qumilyov bu məsələləri öz qiymətli tədqiqatında elə bir incəliklə araşdırır və fikir yürüdür ki, onun elmi, ensiklopedik təfəkkürünə heyran qalmamaq olmur. Bu kitabı oxuyan hər bir şəxs türk xalqının böyüklüyünü, həm də onun özü qədər tarixdə ikinci başı bəlalı bir xalqın olmadığını aydın görür.*

*Lakin tarix, həyat mübarizə meydanıdır. Təbiətin amansız qanunları cəmiyyət həyatında da özünü göstərir. Hansı xalq bu qanunların mahiyyətini dərk edib dünya meydanında həmin qanunlara qarşı öz qarşılıqlı tədbirini görürsə, onun məhv edilməsindən ötrü min cür fitnə-fəsadlara, soyqırğınına qarşı çıxırsa, mübarizə aparırsa o xalq ölməzdir, əbədidir.*

*Müxtəlif dövrlərdə bir xalq kimi başının üstünü ölüm, yox olmaq təhlükəsi almış türklər sanki silkinib qəflət yuxusundan oyanaraq ağlayıb-sızlamaqdan, yadelli xalqların kəramətinə, insanpərvərliyinə bel bağlamaqdan bezikərək ayağa qalxmış və türkün əzəmətli adını və bayrağını göylərə qaldırmış, öz azadlığını, müstəqilliyini böyük itkilər hesabına olsa da təmin etmişdir.*

*Bir neçə əsr sonra türklər yenidən dirçələcək, əsarətdə olduqları xalqların pəncəsindən qurtulub yeni türk imperiyasını yaradacaq və bütün dünyada türk adını əbədi yaşadan tarixi işlər görəcəklər.*

*VƏLİ HƏBİBOĞLU*
*Fəlsəfə elmləri namizədi*

# G İ R İ Ş

*Mövzu və onun əhəmiyyəti.* Bəşəriyyətin tarixi son dərəcə qeyri-bərabər öyrənilib. Avropa və Yaxın Şərqdə hadisələrin ardıcıllığı və ictimai formasiyaların bir-birini əvəz etməsi hələ XIX əsrin sonlarında ümumun başa düşdüyü əsrlərdə öz əksini tapdığı, Çin və Hindistanın isə XX əsrin əvvəllərində təsvir edildiyi halda, Avrasiya çöllərinin böyük bir ərazisi hələ də öz tədqiqatçısını gözləməkdədir. Bu, xüsusən Çingiz xanın tarix səhnəsinə gəlməsindən əvvəlki dövrə aiddir. Həmin dövrdə Mərkəzi Asiya çölündə iki diqqətəlayiq xalq — hunlar və qədim türklər, habelə adlarını şöhrətləndirməyə imkan tapmayan bir sıra digər xalqlar yaranmış və məhv olmuşlar.

Onların hamısının bir-birini təkrar etdiklərini düşünmək səhv olardı. Doğrudur, bu xalqların istehsal üsulu — köçəri heyvandarlıq, həqiqətən də heç bir təkmilləşdirməyə uyuşmayan ən sabit təsərrüfat formasıdır. Lakin məişət xüsusiyyətləri, təsisatlar, siyasət və dünya tarixində yerləri baxımından hunlar və qədim türklər tamamilə fərqlənirdilər. Onların taleləri də eyni dərəcədə fərqli olmuşdu.

Dünya tarixi fonunda qədim türk xalqının və onun yaratdığı dövlətin tarixi belə bir sual doğurur: türklər necə meydana gəlmişdilər və adlarını əslində onların varisləri olmayan bir sıra xalqlara verərək necə yoxa çıxdılar? Bu problemi yalnız siyasi tarixin təhlili, yaxud ictimai münasibətlərin araşdırılması yolu ilə həll etməyə dəfələrlə təşəbbüs göstərilib, lakin həmin təşəbbüslər heç bir bəhrə verməyib. Bəşər tarixindəki cahanşümul əhəmiyyətlərinə baxmayaraq, qədim türklər azsaylı xalq idilər, Çin və İranla yaxın qonşuluq onların daxili işlərində əz əksini tapmaya bilməzdi. Başqa sözlə desək, bu ölkələrin ictimai və siyasi tarixi bir-biri ilə sıx çulğalaşmışdı və hadisələrin gedişini bərpa etmək üçün biz həm bu, həm də digər tərəfi diqqətdən qaçırmamalıyıq. İqtisadi konyukturanın dəyişməsi, xüsusən də Çin mallarının daşınmasının yüksək, yaxud aşağı səviyyədə olması, habelə İran hökumətinin maneçilik xarakterli tədbirləri də burada az rol oynamamışdır.

Türk xaqanlığının sərhədləri VI əsrin sonlarında qərbdə Bizans, cənubda İran və hətta Hindistanla, şərqdə isə Çinlə kəsişdiyinə görə bu ölkələrin tarixindəki gözlənilməz dəyişikliklər nəzərdən keçirilən dövrdə türk dövlətinin taleyi ilə bağlı idi. Həmin dövlətin yaranması müəyyən mənada bəşər tarixində dönüş nöqtəsi oldu. Çünki o vaxta qədər bir-birinin mövcudluğundan xəbərdar olsalar da, Aralıq dənizi və Uzaq Şərq mədəniyyətləri əslində ayrı düşmüşdülər. Ucsuz-bucaqsız çöllər və dağ silsilələri Şərqlə Qərbin əlaqələrinə mane olurdu. Yalnız çox qoşqularının kəşfi karvanlara dağ zirvələrini və sonralar metal üzəngilərin və arabanı əvəz edən yük düzənləri nisbətən asan keçməyə imkan yaratdı. Buna görə də VI əsrdən etibarən çinlilər Konstantinopol bazarlarındakı qiymətlə

hesablaşmağa, bizanslılar isə Çin imperatoru nizəçilərinin sayını öyrənməyə məcbur oldular.

Belə bir vəziyyətdə türklər nəinki vasitəçi rolunu oynayır, həm də Çin, Hindistan, İran, Bizans mədəniyyətləri ilə qarşı-qarşıya qoymağa layiq bildikləri spesifik mədəniyyətlərini yaradırdılar. Bu özünəməxsus çöl mədəniyyətinin qədim ənənələri və dərin kökləri vardı, lakin oturaq xalqların mədəniyyəti ilə müqayisədə o, bizə çox cüzi məlumdur. Bunun səbəbi türklərin və digər köçəri tayfaların qonşularla müqayisədə az istedadlı olmasında deyildi; səbəb onların maddi mədəniyyət qalıqlarının keçə, dəri, ağac və xəzin daşa nisbətən pis qorunub saxlanmasındadır; elə buna görə də Qərbi Avropa alimləri arasında belə bir səhv fikir yaranmışdır ki, köçərilər «bəşəriyyətin eşşək arılarıdır» (Violle de-Lyuk). Cənubi Sibirdə, Monqolustanda, Orta Asiyadakı arxeoloji qazıntılar bu fikri təkzib edir və tezliklə elə vaxt gələcək ki, biz qədim türklərin mədəniyyəti, incəsənəti haqqında danışmaq imkanına malik olacağıq. Lakin tədqiqatını maddi mədəniyyətdən daha çox türklərin sosial təsisatlarının və ictimai mövcudluq formalarının mürəkkəbliyi heyrətə salır — el, qohumluq bölgüsü sistemi, rütbə ierarxiyası, hərbi intizam, diplomatiya, habelə qonşu ölkələrin ideoloji sistemlərinə qarşı qoyulan dəqiq işlənmiş dünyagörüşünün mövcudluğu bu qəbildəndir.

Lakin bütün bunlara baxmayaraq qədim türk cəmiyyətinin qədəm basdığı yol məhvə aparırdı, çünki çöldə və onun sərhədlərində baş verən ziddiyyətləri dəf etmək mümkün olmamışdı. Böhran məqamlarında çöl əhalisinin böyük əksəriyyəti xanlara yardımdan boyun qaçırırdı, bu isə 604-cü ildə xaqanlığın Şərq və Qərb hissələrinə parçalanması, 630 və 659-cu illərdə isə müstəqilliyini itirməsinə (doğrudur, həmin müstəqillik 679-cu ildə qaytarıldı) və 745-ci ildə qədim türk xalqının məhvinə gətirib çıxardı. Əlbəttə, xalqın məhvi onu təşkil edən adamların hamısının aradan götürülməsi demək deyildi. Onların bir hissəsi çöldəki hakimiyyətin varisi kimi çıxış edən uyğurlara tabe oldular, böyük əksəriyyəti isə Çinin sərhəd qoşunlarında özlərinə sığınacaq tapdılar. 756-cı ildə bu sonuncular Tan sülaləsi imperatoruna qarşı üsyan qaldırdılar. Türklərin qalıqları bu üsyanda çox fəal iştirak edirdilər. Onlar da üsyanın digər iştirakçıları ilə birlikdə parça-parça edildilər. Bu artıq xalqın və epoxanın (eləcə də bizim mövzunun) həqiqi sonu idi.

Lakin «türk» adı tarix səhnəsindən silinmədi. Əksinə, o, Asiyanın tən yarısına yayıldı. Ərəblər Soqdianadan şimalda yaşayan bütün döyüşkən köçəriləri türk adlandırmağa başladılar. Onlar bu adı qəbul etdilər, çünki həmin adın ilkin daşıyıcıları tarix səhnəsindən getdikdən sonra çöllülər üçün igidlik və qəhrəmanlıq simvoluna çevrilmişdilər. Sonralar bu termin bir daha dəyişikliyə məruz qaldı və dil ailəsinin adına çevrildi. Beləliklə, VI—VII əsrlərdə böyük xaqanlığa daxil olmayan bir çox xalqlar «türkə» çevrildilər. Onların bəziləri — məsələn, türkmənlər, osmanlılar, azərbaycanlılar hətta monqoloid deyildilər. Başqaları — yakutların əcdadları kurıkanlar və xakasların əcdadları kırqızlar xaqanlığın ən

qəddar düşmənləri olmuşdular. Üçüncülər — məsələn, balkarlar və çuvaşlar türklərin özündən əvvəl formalaşmışdılar. Lakin hətta indi «türk» termininə verilən geniş yayılmış linqvistik şərh də müəyyən əsasa malikdir: qədim türklər çöl mədəniyyətinin hələ hun dövründə yetişən və III—V əsrlərin çətin şəraitində anabioz[*] vəziyyətində qalan başlanğıclarını parlaq şəkildə həyata keçirdilər.

Bir sözlə, bəşər tarixində qədim türklərin əhəmiyyəti cahanşümuldur, lakin indiyə qədər bu xalqın tarixi yazılmayıb. Həmin tarix ötəri və müxtəsər şərh olunub, bu isə mənbəşünaslıq, onomastik, etnonimik və toponomik xarakterli çətinliklərdən yan keçməyə imkan yaradıb. Həmin çətinliklər o qədər böyükdür ki, təqdim olunan əsər tamamilə dürüst şərhlər vermək iddiasında deyil. Müəllif ümid edir ki, o, problemin həllində yalnız növbəti pillə rolunu oynayacaq. Kitab tarixi analiz və sintez metodlarının uyğunlaşdırılması təcrübəsi kimi düşünülüb. Qədim türklərin, onlarla bağlı olan, yaxud onlardan əvvəl gələn xalqların tarixinin ayrı-ayrı hadisələri təhlilə cəlb edilib. Mənbələrə tənqidi baxış, onomastika və etnogenez problemləri də bura daxildir. Türkyutların[1], göytürklərin[2] və uyğurların[3] tarixinin vahid proses kimi dərki (dövrləşdirmə baxımından burada bir bütövlük yaranır), habelə təsvir edilən hadisənin dünya tarixi məcrasına salınması isə əsərin sintez xüsusiyyəti kimi üzə çıxmışdır.

---

[*] Xarici şəraitin təsiri ilə orqanizmdə həyat fəaliyyətinin müvəqqəti olaraq dayanması və ya ağırlaşması.
[1] Birinci xaqanlığın (546-658-ci illər) türkləri.
[2] İkinci xaqanlığın (678-747-ci illər) türkləri.
[3] Yalnız köçəri uyğurların (747-847-ci illər) xanlıqları nəzərdə tutulur, sonrakı dövrlərin oturaq uyğurları burada nəzərdən keçirilmir.

# BİRİNCİ HİSSƏ

# BÖYÜK TÜRK XAQANLIĞI

## I f ə s i l

## ƏRƏFƏ

***(420—546-cı illər)***

**Sarı çay üzərində dəyişikliklər.** V əsrdə əprimiş Romanın süqutuna gətirib çıxaran xalqların Avropadakı böyük hicrəti Şərqi Asiyada yüz il əvvəl baş vermişdi. Çin tarixində «beş barbar tayfanın epoxası» adlandırılan dövrdə (304—399-cu illər) Şimali Çin hunlar və syanbiylilər tərəfindən tutulmuş və itaət altına alınmışdı. Onlar burada qotların, burqundların və vandalların barbar krallıqlarını xatırladan bir sıra qısa ömürlü dövlətlər yaratmışdılar. Avropada, Balkan yarımadasında Şərqi Roma imperiyası zərbələrə davam gətirdiyi kimi Çində də böyük Yantszı çayının sahillərində Xan imperiyasının varisi olan müstəqil Çin imperiyası möhkəmləndi. Erkən Bizans çiçəklənmə vaxtındakı Romaya oxşadığı kimi bu imperiya da öz böyük sələfinə bənzəyirdi. O da Şərqi Roma imperiyası kimi özündə yalnız şimaldan və qərbdən üstünə gələn barbarlardan qorunmaq üçün qüvvət tapa bilirdi. Tez-tez bir-birini əvəz eləyən sülalələrin zəif və bacarıqsız imperatorları «Orta düzənliyin» (həmin dövrdə Xuanxe vadisi belə adlanırdı) Çin əhalisini vəhşi tayfa başçılarının talanına vermişdilər. Lakin yadellilərin amansız zülmünə və fasiləsiz ara müharibələrində çoxlu qan axıdılmasına baxmayaraq, çinlilər Şərqi Çində say etibarı ilə onlara qalib gələn xalqlardan çox idilər və bu da VI əsrdə Çinin dirçəlişini şərtləndirdi.

Özünün bütün rəqibləri üzərində qələbə çalan Toba tayfası Çin mədəniyyətinin sehrinə düşdü. Tobalıların yaratdıqları ilkin feodal dövləti 420-ci ilə qədər artıq bütün Şimali Çini bir imperiyada birləşdirirdi. Bu dövlət Çin adı ilə Vey (386-cı il) adlandırılırdı. Həmin ad toba xanının təbəələrinin böyük əksəriyyətini təşkil edən çinli əhali ilə kompromisi yolunda ilk addım idi. Köçərilərin tədrisi assimilyasiya prosesi ona gətirib çıxardı ki, V əsrin sonlarına doğru artıq tobalıların xələfləri hörüklərini kəsirdilər, itaətə gətirdikləri xalqla ünsiyyət isə onların güc və ənənələrini zəiflətmişdi. Tobalılar hətta ana dillərini də yaddan çıxarmış və Çin dilində danışmağa başlamışdılar. Dilləri və geyimləri ilə yanaşı onlar bir zaman qələbələr qazanmağa imkan verən cəsurluqlarını və birlik hissini də qeyb etmişdilər. Lakin buna baxmayaraq tobalılar inadla öz dövlətlərini yaratmağa can atan çinlilərin içərisində əriyib itməmişdilər.

Saray çevrilişləri və bunun ardınca gələn cəza tədbirləri Vey sülaləsini zəiflədən kimi Syanbi imperatorlarının xidmətindəki Çin sərkərdələri öz

ağalarından daha güclü və cəsarətli olduqlarını göstərdilər. 531-ci ildə şimal-şərqdə Qao Xuan üsyan qaldırdı, toba qoşunlarını darmadağın edib paytaxtı — Loyanı ələ keçirdi. Əvvəlcə o, guya imperiyanın mənafelərinə uyğun hərəkət edirdi. Buna görə də devrilmiş imperatorun oğullarından biri yeni imperator elan olundu. Lakin yeni hökmdar öz sərkərdəsindən qorxaraq Çanana qaçdı və burada başqa bir qoşun başçısı — çinliləşmiş syanbi Yuyvının himayəsinə sığındı. Qao Xuan Vey sülaləsindən olan başqa bir prinsi taxta çıxardı. Beləliklə imperiya Qərbi Vey və Şərqi Vey olmaqla iki hissəyə parçalandı, lakin onun hər iki hissəsində faktiki hökmdarlar syanbi imperatorlarını hələlik şirma kimi saxlayan Çin sərkərdələri idilər. Bu vəziyyət uzun müddət davam edə bilməzdi. Syanbilərin sərt hökmranlığı çinliləri o qədər amansızlaşdırmışdı ki, hakimiyyət əllərinə keçən kimi onlar məğlubların nazı ilə oynamaq fikrini başlarından çıxardılar. Yuyvın Tay bir neçə yapma imperatoru zəhərlədi, onun oğlu isə 557-ci ildə artıq özünü o qədər qüdrətli sayırdı ki, hamının nifrət bəslədiyi sülaləni ləğv etdi və yeni — Bey-Çjou[4] sülaləsinin əsasını qoydu.

Şimali-Şərqi Çində syanbilərlə daha amansız rəftar etdilər. 550-ci ildə Qao Xuanın varisi — Qao Yan axırıncı syanbi imperatorunu taxt-tacdan öz xeyrinə əl çəkməyə məcbur etdi və onu zəhərlədi. İmperatorun 721 nəfər qohumu öldürüldü, dəfn mərasimi keçirilməməsi üçün hamısının cəsədi çaya atıldı. Yeni sülalə Bey-Tsi adını aldı.

Hər iki şimal hökmdarlığı həm iqtisadi, həm də siyasi cəhətdən kifayət qədər güclü idi. Yadellilərin ağalığından azad olmuş çinlilər öz mədəniyyətlərini dirçəltmək üçün coşqun fəaliyyət göstərirdilər. Lakin Bey-Çjou ilə Bey-Tsi arasında başlanan rəqabət onların əl-qolunu bağlayır və fəal siyasət yürütməyə imkan vermirdi.

Cənubda Lyan imperiyasının son hökmdarları hakimiyyət özbaşınalıqları və cinayətlərlə ad çıxarmışdılar, onları əvəz edən Çen sülaləsi də bu ənənələri davam etdirirdi. 557-ci ildəki saray çevrilişi və sonuncu Lyan imperatorunun edamı süquta uğrayan sülalə tərəfdarlarını silahlı üsyana vadar etdi. Üsyançılar Çen qoşunlarını dəf edərək Çinin mərkəzində Xou-Lyan adlı kiçik dövlət yaratmağa müvəffəq oldular.

Çin bir-biri ilə düşmənçilik aparan dörd dövlətə parçalandı. Ölkənin əl-qolunu bağlayan bu gərgin vəziyyət iki kiçik və nisbətən zəif köçəri dövlət — Jujan ordası və Toqon (Tu-yu-xun) çarlığı üçün xilas yoluna çevrildi. Şimaldan təzyiqin zəifləməsi nəticəsində onlar Şərqi Asiyanın aparıcı dövlətləri sırasına çıxdılar. IV əsrin ortalarında yaranan çöl xanlığı Jujan VI əsrin əvvəllərində az qala onun məhvi ilə nəticələnən böhran keçirirdi.

Lakin bu haqda bir qədər sonra.

[4] Şimali Çjou deməkdir.

Toqon hökmdarlığı Tsaydamın düzən ətəklərində yerləşirdi. Hələ 312-ci ildə kiçik syanbi tayfası Muyun nəslindən olan knyazlarla Cənubi Mancuriyadan qərbə köçmüş və Kukunor gölü yaxınlığında məskən salmışdı. Burada syanbilər bir-birindən təcrid olunmuş Tibet tayfaları ilə müvəffəqiyyətlə döyüşürdülər, lakin onların tobalılarla mübarizəsi tam uğursuzluğa düçar olmuşdu. Nəticədə Toqon Vey imperiyasının vassalına çevrildi, lakin həmin imperiyanın süqutu toqonluların azadlığını yenidən özünə qaytardı. VI əsrin ikinci rübündə knyaz Kualyuy özünü xan elan etdi, 540-cı ildə isə Qao Xuanın yanına elçilər göndərərək əslində Yuyvın Tayın düşməninə çevrildi. Bu fakt Toqonun sonrakı xarici siyasətini müəyyənləşdirdi. Həmin xarici siyasətlə biz yenə üzləşəcəyik. Toqonun hətta şəhərlər yerləşən (aydın məsələdir ki, söhbət möhkəmləndirilmiş yaşayış məskənlərindən gedir) böyük ərazi tutmasına və çox güman ki, tobalılardan götürülmüş mütəşəkkil idarə sisteminə malik olmasına baxmayaraq, o, güclü dövlət deyildi. Silah gücünə itaətə gətirilmiş Tibet tayfaları azadlıq və intiqam haqqında düşünürdülər, iqtisadiyyat ekstensiv heyvandarlıq təsərrüfatı əsasında qurulmuşdu; mədəniyyətin səviyyəsi aşağı idi, xanların özbaşınalığı daim sui-qəsdlərin, xəyanətlərin və cəza tədbirlərinin rəvasına imkan yaradır və beləliklə də, elə bil, alovun üstünə yağ tökürdü. Bütün bunlar öz növbəsində Toqonun imkanlarını məhdudlaşdırırdı və sonralar onun şərəfsiz aqibətinə səbəb oldu.

**Jujanlar və teleutlar.** Jujan xalqının mənşəyi ilə bağlı məsələ dəfələrlə qaldırılsa da, özünün qəti həllini tapmayıb. Güman ki, burada problemin qoyuluşu düzgün deyil, çünki həmin xalqın mənşəyi deyil, formalaşması haqqında danışmaq lazımdır. Bir xalq kimi jujanların vahid etnik kökü yox idi. Onun mənşəyi bir qədər özünəməxsus xarakter daşıyırdı. Qarışıq dövrlərdə həmişə yəhərdən salınan və nüfuzlarını itirən çoxlu adamlara təsadüf edilir. VI əsrin ortalarında da belələri az deyildi. Toba xanının düşərgəsində, yaxud hun şanyuyunun paytaxtında qala bilməyənlərin hamısı çölə qaçırdı. Qullar amansız ağalardan, başıpozuqlar — ordudan müflisləşmiş kəndlilər xaraba kəndlərdən çölə üz tuturdular. Onların mənşəyi, dili, dini deyil, hamısını dilənçi həyatına məhkum etmiş taleləri eyni idi. Elə həmin tale də onları birləşməyə məcbur edirdi.

IV əsrin 50-ci illərində əvvəllər Syanbi süvarisində xidmət etmiş Yuqyulyuy adlı keçmiş qul edama məhkum olunmuşdu. Lakin o, dağlara qaça bildi, tezliklə başına yüzə yaxın özü kimi qaçqın topladı. Qaçqınlar yaxınlıqdakı köçərilərlə dil tapdılar və onlarla birlikdə yaşamağa başladılar.

Yuqyulyuyun xələfi Qyulyuxoy Toba xanları ilə əlaqə yaratdı. Qyulyuxoy hər il onlara at, samur və dələ xəzindən ibarət xərac verirdi. Onun ordası Jujan adlanırdı. Jujanlar Xalxudan Xinqana qədər köç edirdilər, xanın düşərgəsi isə Xanqay yaxınlığında idi. Jujanların məişəti və təşkili həm son dərəcə primitiv, həm də tayfa quruluşundan çox uzaq idi. Min nəfərlik alay, döyüş və inzibati vahid sayılırdı. Alay xanın təyin etdiyi başçıya tabe idi. Alayda ətrafına yüz adam toplaşan on bayraq vardı. Hər bayrağın da öz başçısı olurdu. Jujanlarda yazı yerli-

dibli yox idi, hesab aparmaq üçün qoyun qığından, yaxud üzərində kəsiklər çərtilən ağac parçalarından istifadə olunurdu. Qanunlar müharibə və soyğunçuluğun tələblərinə müvafiq idi: qənimətin çox hissəsini cəsurlara verir, qorxaqları isə kötəkləyirdilər. 200 illik mövcudluğu ərzində Jujan ordasında tərəqqidən heç bir əsər-əlamət görünməmişdi, onların bütün qüvvələri qonşular üzərinə soyğunçu basqınlara sərf edilirdi.

Jujanlar öz aralarında hansı dildə danışırdılar? Çin mənbələri bu barədə tamamilə fərqli məlumatlar verirlər: «Veyşu» jujanların dunxu qoluna mənsubluğunu bildirir. «Sunşu», «Lyanşu» və «Nanşu» onları hunlara qohum tayfa sayır, nəhayət, Bey-şi (?) Yuqulyuyun qaoqyuy mənşəli olduğunu göstərir. Cənubi Çin tarixçilərinin məlumatları dolayısı mənbələrdən götürülmüşdür, Yuqyulyuyun mənşəyinin isə burada heç bir əhəmiyyəti yoxdur. Aydın məsələdir ki, onun başına toplaşanlar həmtayfaları deyildilər. Çox ola bilsin ki, jujanlar syanbi ləhcisində, yəni monqol dilinin dialektlərindən birində danışırdılar, çünki jujan xanlarının titularını Çin dilinə tərcümə edən Çin tarixçisi həmin titulların orijinalda — «Vey dövlətinin dilində», yəni syanbi ləhcəsində necə səsləndiyini də göstərir. Jujanlar özlərini tobalılarla eyni kökdən sayırdılar, lakin jujan xalqının müxtəlif tayfalardan ibarət olduğunu nəzərə alsaq, düşünmək lazımdır ki, bu cür qənaət üçün əsası onların dumanlı şəcərəsi deyil, dillərinin bənzərliyi verirdi.

Jujan xanlığının əsas qüvvəsi teles tayfalarını itaət altında saxlamağı bacarmasında idi. Öz tarixlərinin başlanğıcında, yəni bizim eranın III əsrində teleslər Ordosdan qərbdəki çöllərdə yaşayırdılar. 338-ci ildə onlar Tobas xanına tabe oldular və IV əsrin sonlarında şimala, Cunqariyaya köçüb Selenqa çayına qədər bütün Qərbi Monqolustana yayıldılar. Dağınıq yaşadıqlarından teleslər jujanlara müqavimət göstərə bilmir və buna görə xərac verməli olurdular.

Teles tayfaları jujanlara çox lazım idi, jujan ordası isə əksinə, teleslərə gərək deyildi. Jujanlar elə adamlar idilər ki, hər vasitə ilə yorucu əməkdən qaçırdılar, onların övladları isə, ümumiyyətlə xərac almağı işləməkdən daha üstün tuturdular.

Teleslər isə heyvandarlıqla məşğul olurdular, onlar mal-qaraları otarır və heç kimə bac-xərac vermək istəmirdilər.

Hər iki xalqın siyasi sistemləri də bu meyllərə uyğun surətdə formalaşmışdı: jujanlar hərbi güc sayəsində qonşuların hesabına yaşamaq üçün ordularda birləşirdilər; teleslər isə tayfaların zəif əlaqələndirilmiş konfederasiyası kimi qalmaqda davam edir, lakin bütün qüvvə və bacarıqları ilə müstəqilliklərini qoruyurdular.

Teleslər jujanlarla qonşuluqda yaşayır, lakin heç bir cəhətdən onlara bənzəmirdilər. Onlar öz patriarxal quruluş və köçəri məişətlərini saxlamaqla Xunnu imperiyasının tərkibindən erkən çıxmışdılar. Çinliləşdirmə uzaq çöllərdə yaşayan sadə köçərilərə toxunmamışdı. Çinlilərin özlərini də həmin çöllərdə cəlb edən elə bir şey yox idi. Teleslərin ümumi təşkilati strukturu mövcud deyildi. 12

nəslin hər biri başçı — ağsaqqal tərəfindən idarə olunurdu, həm də «qohumlar sülh və sakitlik şəraitində yaşayırdılar».[5]

Teleslər hündür təkərli arabalarla çöldə bir yerdən o biri yerə köçürdülər. Onlar təbiətcə döyüşkən və azadlıqsevər adamlar idilər, heç bir mütəşəkkilliyə meyl göstərmirdilər. Onlar özlərini «tele» adlandırırdılar, bu ad «telsut» şəklində indiyə qədər Altay etnonimində yaşamaqdadır. Teleslərin nəsilləri yakutlar, telenqutlar, uyğurlar və başqalarıdır. Onlardan çoxu dövrümüzə qədər gəlib çatmamışlar.

**Jujan xanlığı.** V əsrin əvvəllərində Xinqandan tutmuş Altaya qədər bütün çöllərdə jujanların xanı, Deuday — «at çapa-çapa ox atan» ləqəbli Şelun təkbaşına hökmranlıq edirdi. O tele köçlərini özünə tabe edib İl çayı boyunca məskən salmış Orta Asiya hunları ilə qarşılaşdı. Hunların başçısı Jibaeqi adlı bir nəfər idi. Onqin çayı üzərindəki inadlı vuruşda Jibaeqi Şelunun qoşunlarını darmadağın etdi, lakin buna baxmayaraq jujan dövləti ilə bacarmadı və «tabe olmaqla sülh qazandı.»[6]

Şelunun əsas vəzifəsi Toba-Vey imperiyasının güclənməsinin qarşısını almaq idi. Bu imperiyanın gücü jujan xanlarının gücündən qat-qat artıq idi. Yalnız Çinin cənubundakı aramsız müharibələr Toba-Vey imperatoruna itaətdən çıxmış təbəələrinə divan tutmağa mane olurdu, ona görə də Şelun Tobanın bütün düşmənlərinə kömək edirdi. 410-cu ildə Şelun öldü, xanlıq taxtına onun qardaşı Xulyuy çıxdı.

Xulyuy Tobanı sakit buraxdı. O, öz nəzərlərini şimala çevirdi. Burada Yenisey qırğızlarını (iequ) və xeveyləri (naməlum Sibir tayfası) özünə tabe etdi. 414-cü ildə o, sui-qəsdin qurbanı oldu, lakin qəsdçilərin başçısı Buluçjen də həmin il həyatla vidalaşdı. Xanlıq Şelunun əmisi oğlu Datana keçdi. Onun hakimiyyətinin başlanğıcı çinlilərə qarşı yürüşlə tarixə düşdü, lakin istər jujanların yürüşü, istərsə də onlara qarşı göndərilən cəza dəstələrinin səfəri nəticəsiz qaldı. Vəziyyətdə heç bir dəyişiklik baş vermədi.

418—419-cu illərdə jujanlarla Orta Asiya hunları və yueçjalar arasında müharibə təzələndi.[7] Jujanlar Tarbataqaya soxuldular və hamının canına elə qorxu saldılar ki, yueçjaların başçısı Tsidolo (Kidara) təhlükəli qonşuluqdan uzaqlaşmaq niyyəti ilə cənuba keçdi və Karşı vadisindəki Bolo şəhərini tutdu.[8] Burada o, farslar

---

[5] [1] Н. Я. Бичурин. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена, т. I, М. — Л. 1950, с. 215.

[6] Н. Я. Бичурин. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена, т. I, М. — Л. 1950, с. 249.

[7] Bu müharibənin tarixi belə müəyyən edilir: Yuebanla vuruşan Datan taxta 414-cü ildə çıxmışdı. 415-ci ildə, Çinə yürüş etmişdi. Deməli, başı Şərqdə qarışmışdı. Çinə növbəti yürüş 424-cü ildə keçirilmişdi. Deməli, Yuebanla müharibə bu iki tarix arasındakı dövrə təsadüf edir. Numizmatikaya dair məlumatlar həmin tarixi daha da dəqiqləşdirməyə imkan verir. 417-ci ildə üzərində Kidaranın adı həkk edilmiş sikkə buraxılmışdı.

[8] Kidaritlərin paytaxtının Bəlxdə yerləşməsi haqqında R. M. Qirşmanın ehtimalı özünü doğrultmadı.

və eftalitlərlə toqquşmalı oldu. Kidaranın silahdaşları — kidaritlər tarixə öz etnik adları ilə deyil, rəhbərlərinin adları ilə düşdülər.

## II f ə s i l

## ƏCDADLAR

**Jujan xanlığının Vey imperiyası ilə müharibəsi.** 420-ci il jujanların qüdrətinin zirvəsi idi. Şimal və qərb tayfaları üzərində asan qələbələr jujanları Böyük Çölün hegemon qüvvəsinə çevirdi, lakin bu qətiyyən xanlığın sakitliyini və çiçəklənməsini təmin etmədi. Jujanların başlıca düşməni Toba-Vey imperiyası idi və jujan xanı Datan öz təbii rəqibinin qüvvətlənməsinin qarşısını almaq üçün əlindən gələni əsirgəmirdi.

424-cü ildə Datan 60 min atlı ilə Çinə soxuldu, paytaxta qədər gedib çıxdı və imperatorun şəhər kənarındakı sarayını dağıtdı. Toba qoşunlarının səfərbərliyə alınması və jujanlar arasında intizamsızlıq onu döyüşə girmədən geri qayıtmağa məcbur etdi. 425-ci ildə tobalılar jujanları Qobinin o biri tərəfinə qovdular. 430-cu ildə imperator Tay-u-di (Toba Dao) Cənubi Çində əl-qol açmaq üçün jujanları aradan götürmək qərarına gəldi. Böyük qoşun Çölə hücum etdi, jujanlar qaçıb dağıldılar. Datan özü qərbə tərəf qaçdı və xəbərsiz itkin düşdü. Teleslər onun adamlarını öldürürdülər. Datanın oğlu Udi mübarizəni davam etdirməkdən əl çəkdi və Vey imperiyasına xərac verməyə başladı. Lakin bu sülhü 437-ci ildə imperiyaya qarşı yürüşə çıxan Udinin özü pozdu. Görünür, jujanlar öz həyatlarını qarətsiz təsəvvür edə bilmirdilər. Toba imperatorunun 439-cu ildəki cavab yürüşü heç bir nəticə vermədi, qoşun dərələrdə gizlənmiş jujanlarla qarşılaşmadan geri dönməli oldu.

440-cı ildə Tobanın Xesiyə qarşı müharibəsindən istifadə edən Udi yenə sərhəddə hücuma keçdi, lakin pusquda durmuş dəstələr onun qoşununun ön hissələrini əsir götürdülər. Jujanlar yenə qaçmalı oldular. Eyni hadisə 445-ci ildə də təkrar olundu. Bundan sonra Udi öldü və taxta oğlu Tuxeçjen (445—464) çıxdı.

İndi rollar dəyişilmişdi. Toba-Vey imperiyası öz inkişafının zirvəsinə çatmışdı, onun qoşunları tez-tez Çölə hüçuma keçir, jujanları dağlarda gizlənməyə məcbur edirdilər. Əslində bu müharibə yox, cəza yürüşləri idi.

Tuxeçjenin oğlu və varisi Yuyçen (464-485) mübarizəni davam etdirməyə çalışdı. Lakin 470-ci ildə darmadağın edildi və xərac vermək şərti ilə sülh xahiş etməli oldu. Jujan zəiflədi, artıq Çin üzərinə yürüşlər qeyri-mümkün idi. İndi qarət obyekti kimi daha kasıb və zəif olan Qərb ölkəsi seçildi. 460-cı ildə jujanlar Turfan vahəsini ələ keçirdilər və qalib tobalıların əlindən burada sığınacaq tapmış keçmiş müttəfiqlərinə — cənub hunlarına divan tutdular. 470-ci ildə jujanlar Xotanı çapıb-taladılar, lakin eftalitlərin qüvvətlənməkdə olan dövləti jujan işğalına son qoydu. Tyan-Şan Jujanın sərhədinə çevrildi.

Jujanların yeni xanı Doulun (485—492) «qətllərə meylli olan amansız adam»[9] idi. O, taxta çıxmasını əyanlardan birini bütün nəsli ilə birlikdə qırmaqla «tarixə saldı». Bu, ölkədə böyük qəzəb doğurdu. Xanın Çinə hücum etmək cəhdi daha böyük narazılıqla qarşılandı. Hamı yaxşı başa düşürdü, hətta ən uğurlu talandan sonra da, Çin ordusunun yürüşü başlanacaq. Onun qarşısını almaq isə imkan xaricində idi.

Tele ağsaqqalı Afuçjilo xana təkidlə məsləhət görürdü ki, Çinlə müharibəyə başlamasın. Lakin dəlillərinin təsirsiz qaldığını gördükdən sonra o, öz xalqı ilə birlikdə üsyana çıxdı. Həmin dövrdə telelər sayca o qədər də az deyildilər (Çin məlumatlarına görə onlar 100 min araba idilər). Afuçjilo köçünü qərbə, İrtış çayı vadisinə çəkdi. O, burada «Səmanın Böyük oğlu» titulunu qəbul etdi. Bu özünü Jujan xanı ilə eyni səviyyəyə qoymaq idi. Müharibə odu yenidən alovlandı.

490-cı ildə Çin qoşunları Çölə şərq tərəfdən hücuma keçdilər və telelərlə birlikdə jujanları iki tərəfdən sıxışdırmağa başladılar. Jujan əyanları bütün məsuliyyəti fərasətsiz xanın üzərinə yıxdılar və onu öldürdülər.

Telelərin qərbə keçməsi fövqəladə əhəmiyyətə malik hadisə idi — qərbdə bu dağınıq köçərilər öz dövlətlərini yaratdılar.* Asiyada yenidən etnogenez prosesi başlandı. Eyni dövrdə Altay dağlarında türk xalqı, Braxmaputra vadisində tibet xalqı formalaşırdı, Çində isə Suy və Tan sülalələrinə əzəmətli orta əsrlər mədəniyyəti bəxş edən dirçəliş başlanmışdı. Şərqi Asiya tarixinin antik dövrü başa çatırdı, bu dövrün eybəcər qalığı olan Jujan dövləti məhvə məhkum idi.

**Teleut xanlığı — Qaoqyuy.** Teleutların ayrılması və 492-ci ildəki dövlət çevrilişi Jujanın tarixində dönüş nöqtəsinə çevrildi. O, Mərkəzi Asiyada öz hegemon rolunu itirmişdi və artıq hakimiyyət yox idi, mövcudluq uğrunda vuruşmağa məcbur idi. Öldürülmüş Doulanı əvəz edən Naqay yalnız bir il hakimiyyət sürdü. Onun hakimiyyət devizi belə idi: «Tam sakitlik». Başqa sözlə desək, Naqay öz sələfinin hərbi niyyətlərindən əl çəkmişdi. Naqayın oğlu Futu da imkan daxilində atasının siyasətini davam etdirirdi.

Bu müddətdə teleutlar öz yeni vətənlərinə uyğunlaşırdılar və hun epoxasının sonuncu qalığı olan Yuebanı aradan götürdülər. Teleutlar köçüb gəldikləri yerdə öz dövlətlərini yaratmaq istəyirdilər. Bu məqsədlə də onlar xalqı iki yerə ayırdılar — şimal hakimi Afuçjilo «Böyük imperator», cənub hakimi isə «Varis hökmdar» titullarını qəbul etdi. Onların öz dövlətlərini necə adlandırdıqları məlum deyil, çinlilər isə bu dövlətə Qaoqyuy deyirdilər. Çin dilindən tərcümədə bu sözün mənası «hündür araba» deməkdir. Teleutların dövləti elə bu ad altında da tarixə daxil olmuşdur.

---

[9] Н. Я. Бичурин. Собрание сведений… т I, с 196.

* Qərbi teleləri teleut adlandırmaq daha rahat və düzgündür, çünki Altay teleutları onların varisləridir. Dağınıq Şərqi tele tayfalarını isə sovet tarixşünaslığında qəbul edildiyi kimi teleslər adlandırmaq lazımdır.

Siyasi baxımdan Qaoqyuy Çinə meyl edirdi. Bu meylin arxasında Çindən ipək almaq niyyəti gizlənirdi. Lakin həmin ipək Qaoqyuya heç bir fayda gətirmədi. 494-cü ildə eftalitlər İranla haqq-hesablarını çürütdülər və arxalarını bərkitdikdən sonra üzlərini şimala çevirdilər. Qaoqyuy dövlətinin cənub hissəsi ildırım sürəti ilə darmadağın edildi, «Varis hökmdar» öldürüldü, onun ailəsi əsir götürüldü, xalq isə qaçıb dağıldı. Qaçqınların bir hissəsi jujanlara tabe oldu, bir hissəsi isə Çinə üz tutdu. Növbəti 496-cı ildə şimal dövləti də eyni sürət və asanlıqla işğal edildi. Eftalitlər əsirlərin içərisindən knyaz Mivotunu ayırıb onu sağ qalan teleutlara başçı təyin etdilər. Beləliklə, Qaoqyuy jujanların düşməni və Çinin müttəfiqi (bu ittifaqa görə çinlilər 60 topa ipək parça verirdilər) olan eftalitlərin vassalına çevrildilər. Görünür, elə həmin dövrdə (497-ci il) eftalitlər Karaşarı tutmuşdular, Turfan vahəsindəki Qaoçan knyazlığının hakimi çinli Ju onun təbəələrini qəbul etməyi və Çin ərazisinə köçürməyi Çin hökumətindən xahiş etmişdi. Jujanın ətrafında polad dairə yaranırdı. Lakin qaoçanlılar abad yerlərini tərk etmək istəmirdilər, ona görə də öz hakimlərini öldürüb Jujana birləşdilər. Bu iqtisadi gərginliyi bir qədər zəiflətdi; əkinçiliklə məşğul olan Qaoçan Jujanı taxıl, meyvə və parça ilə təmin edirdi. Lakin əvəzində siyasi gərginlik gücləndi, çünki qaoçanlıların hərəkəti Çin imperatoru Syuandini bərk qəzəbləndirmişdi. Xan Futunun sülh xahişi müqabilində imperator bildirdi ki, o, yalnız Cənubi Çinin fəthi ilə məşğul olduğuna görə hələlik şimala diqqət yetirmir, ümumilikdə isə Futunu və jujanları üsyankar təbəələr sayır, həmin dövrdə (500-cü il) Qaoçandakı çinpərəst qüvvələr bayram edirdilər. Jujanla bağlanmış ittifaq pozulmuşdu.

Qərb ölkəsində Çin mənafeyinin müdafiəsinə yardım məqsədi ilə ora Mın Veyin komandanlığı altında üç min nəfərlik nizami ordu dəstəsi göndərildi. Mın Vey Xamidə möhkəmlənərək jujanları sıxışdırmağa başladı. Futunun Çinə göndərdiyi yeni səfirlik heç nəyə nail ola bilmədi. Teleutlar da jujanların əleyhinə qaldırıldı. Onlar çinlilərdən aldıqları 60 top ipəyin dəyərini qanları ilə ödəməli idilər. Puley gölü yaxınlığında Mivotu jujanları əzdi. Onlar cənuba qaçdılar, lakin Beyşen dağlarında Mın Veyin çinli dəstələri ilə üzləşdilər. Vahimə içərisində geriyə dönən jujanlar bu dəfə teleutlarla qarşılaşdılar və yenidən darmadağın edildilər. Bəxti gətirməyən xan Futu bu qırğında da həlak oldu. Mivotu onun başının dərisini Mın Veyə göndərdi. Bunun müqabilində çinlilər Mivotuya musiqi alətlərinin tam dəstəsini 80 nəfər musiqiçi, 10 parça al-qırmızı qumaş və altmış top güllü ipək parça hədiyyə verdilər.

Həlak olmuş Futunun varisi Çeunu iki dəfə Çinlə razılığa gəlməyə təşəbbüs göstərdi, lakin tezliklə başa düşdü ki, onu yalnız qüvvə xilas edə bilər. 516-cı ildə o, Qaoqyuya hücum edib Mivotunun dəstəsini əzdi, dəstə başçısını isə əsir götürüb özünəməxsus üsulla öldürdü. Onun ayaqlarını yabının qarnının altına sarıyıb Mivotu ölənə qədər atı o yan bu yana qovdular. Kəllə sümüyündən isə qədəh düzəltdirdilər. Jujanlardan xilas olmuş teleutlar eftalitlərlə yaxınlaşdılar. Bundan sonra Jujan xanının səfirliyini imperator Vey Syaomin-di qəbul etdi (518-ci il).

Vassal təəhüdlərin dəqiq yerinə yetirmədiklərinə görə onları məzəmmətlədilər. Bu cür münasibət istənilən güzəştə yol açırdı və elə görünürdü ki, Jujan düşdüyü ümidsiz vəziyyətdən çıxacaq.

**Jujanda çəkişmələr.** Çeunu, Jujanın xilası üçün mümkün olan hər şeyi elədi. Teleutları əzdikdən sonra o, qərbdə müharibəni davam etdirmədi, eftalitlərlə sülh bağladı. İttifaq Jujan şahzadə qızlarının eftalit əyanları ilə nigahı nəticəsində daha da möhkəmləndirildi.* Şərqdə jujanlar Koreya (Qao-Qyuili) ilə dil tapıb onunla birlikdə mancur tayfalarından olan dideuqanları əzmək və bununla da Mancuriyada Bey sülaləsinin mövqelərini zəiflətmək istəyirdilər. Turfan məsələsi də eyni dərəcədə uğurla həll olundu. 518-ci ildə Çin hökuməti Turfan vahəsinin əhalisini Daxili Çinə köçürmək fikrindən rəsmi şəkildə imtina etdi və Qaoçan knyazlığını tanıdı. Ehtimal ki, turfanlıların jujanlarla ticarət əlaqələri kəsilməmişdi. Onlar fasiləsiz surətdə buğda və parça ilə təchiz edilirdilər. Dəmir məmulatlarını jujanlara Altaydakı vassalları - türkyutlar (türk-tukyu) gətirirdilər.

Lakin ortadakı birlik pozulmuşdu. Buddizm Jujana nüfuz etmişdi. Bir qayda olaraq buddist missionerləri ilk növbədə xanı öz tərəfinə çəkirdilər. Düşərgədə «şamanlar» — budist ruhaniləri və «ni»lər – rahibələr peyda olmuşdular. Yeni şəraitdə buddizm fantastik formalar kəsb edirdi; məsələn, rahibələrin qanuni ərləri var idi, lakin, görünür, bu xanı o qədər də narahat etmirdi. Məlumatların kasadlığına baxmayaraq, təsdiq etmək olar ki, buddizm heç də hamının xoşuna gəlmirdi. Xanın öz ailəsində və qoşunda da müxalifət meydana çıxmışdı. Jujan ona indi hər zamankından daha artıq lazım olan birliyi itirmişdi. 513-cü ildə Çindəki Jujan səfirliyinə «mirvari bəzəkli büt» gətirən şaman Xuiqyuan başçılıq edirdi. Bu köçərilərin tarixində ilk təsadüf idi ki, dini şəxs dünyəvi missiya ilə çıxış edirdi.

Aşağıdakı epizod daha səciyyəvidir. Jujanların düşərgəsində Deu-xun divan adlı gənc şaman qız yaşayırdı. Onun təxəllüsünün fars mənşəli olması («divanə») diqqəti cəlb edir. «O, müalicə edir və cadugərliklə məşğul olurdu (yəni ruhların köməyi ilə şamanlıq eləyirdi) və Çeunu həmişə şaman qıza inanırdı».[10] Çin salnaməçisi onu şarlatan sayır və Deu-xunun fırıldaqçılığı haqqında bir epizod da gətirir. Lakin bizi maraqlandıran bu deyil. «Çeunu ona çox ehtiram göstərir və sevirdi, şaman qızın məsləhətlərinə əməl edərək dövlətin idarə olunmasını tamamilə dolaşdırmışdı».2[11] Orduda Çeunun məşuqəsinə qarşı müxalifət yarandı və 520-ci ildə xan yürüşdə olanda onun anasının əmri ilə Deu-xunu boğub öldürdülər. Çeounu qayıdanda əyanlarla birlikdə qəsd hazırlayan ananın əmri ilə onu da öldürdülər, taxt-tacı isə qadın özünün o biri oğlu Anaxuanyuya verdi.

* Aydındır ki, jujan-eftalit ittifaqının bağlanması eftalit hökmdarlığı ilə Vey imperiyasının dostluq əlaqələrinə son qoydu. 516-520 və 526-cı ildə eftalit elçiləri artıq Cənubi Çinə deyil, Lyan imperiyasına gedirdilər. Onların apardıqları danışıqların Toba əleyhinə koalisiya yaratmaq olduğunu güman etmək mümkündür.

[10] Н. Я. Бичурин. Собрание сведений… т. с: 196.

[11] Orada, s. 197.

On gündən sonra Çeunun intiqamı alındı. Xanın qohumu olan Şifa adlı birisi düşərgəyə hücum edib onu dağıtdı. Anaxuan Çinə qaçdı, anası və qardaşları isə öldürüldülər. Anaxuan Çində mərhəmət axtardığı dövrdə dayısı Polomın öz tərəfdarlarını topladı və Şifanın dəstəsini dağıtdı. Şifa Mancuriyaya, dideuqan tayfasının yanına qaçdı və orada öldürüldü. Polomın xan titulu qəbul etdi. 521-ci ildə o, üsyana qalxan teteutlar tərəfindən basıldı və təbəələrinin bir hissəsi ilə Çinə köçdü. Jujan yenidən məhv olmağın astanasında idi.

Nəhayət, Çin istədiyinə nail oldu: hər iki jujan xanı özlərini ona təslim etdilər. Şimaldan gələnlər danışırdılar ki, «dövlətdə böyük həyəcan başlanıb. Hər tayfa ayrılıqda yaşayır və növbə ilə bir-birilərini qarət edirlər».[12]

Teleutlar münaqişələrdən faydalandılar: işgəncə ilə öldürülən Mivotunun qardaşı İfu Qaoqyuy dövlətini bərpa etdi və 521-ci ilə Polomının jujanlarını məğlubiyyətə uğradaraq Çinə qovdu. Həmin ilin payızında Anaxuanın qardaşı, taxt-tacda onu əvəz edən Sinifa qaoqyuyların əlindən Çinə qaçdı. Çin hökuməti qazanılmış müvəffəqiyyəti daha da möhkəmləndirmək qərarına gəldi. Polomını və onun tərəfdarlarını Çinin içərilərində, Kukunor gölü yaxınlığında yerləşdirdilər, daha çox etimad qazanmış Anaxuana isə sərhəddən xaricdə, Dunxanın şimalında yer verdilər. Polomın dərhal eftalitlərin yanına qaçmağa cəhd göstərdi, çünki onun üç bacısı eftalit hökmdarında ərdə idi. Lakin Polomını tutdular və o ömrünü həbsxanada başa vurdu. Anaxuan daha dözümlü idi. 522-ci ildə o, səpmək üçün 10 min kisə darı aldı, lakin çox güman ki, jujanlar toxumluq darını yemişdilər. Odur ki, növbəti il onların arasında aclıq başlandı. Bu isə Çin əhalisini yeni hücuma məruz qoydu. Anaxuan təhqiqat üçün göndərilən Çin məmurunu həbs etdirdi, ətrafda nə mümkündüsə, hamısını çapıb-taladı və ordusu ilə birlikdə şimala köçdü. Çin məmuru yalnız burada azad edildi. Anaxuanın dalınca göndərilən atlılar əliboş qayıtdılar. Bu başgicəlləndirici macəra jujanları xilas etdi.

Vey imperiyası heyrətamiz sürətlə iflasa uğrayırdı, hər il yeni siyasi situasiya yaranırdı. Artıq 496-cı ildə xilərin (tatabların) üsyan qaldırdıqları Qərbi Mancuriya itirilmişdi, Cənubi Çində Lyan imperiyası fəallaşmışdı, nəhayət 524-cü ildə ölkənin ən şimal nöqtəsində Voye qalasında qiyam başlandı və tezliklə o, geniş miqyas aldı. Anaxuan bu qiyamı yatırmağı öz öhdəsinə götürdü və 525-ci ilin baharında qiyamçıları darmadağın etdi. Həmin xidmətinə görə o, «müxtəlif şeylərdən» ibarət mükafat aldı, günahı isə tamamilə bağışlandı. İndi Qaoqyayın növbəsi çatmışdı. Teleutlarla təkbətək qalan jujanlar onları son nəfərinə qədər qırdılar. İfu öz balaca qardaşı Yueqyunun əmri ilə öldürüldü. Yueqyu müharibəni davam etdirmək istəyirdi, lakin 534—537-ci illərdə məğlubiyyətə uğradı. İfunun oğlu Bidi öz əmisini öldürdü və müqavimət hərəkatına rəhbərlik etməyə başladı. 540-cı ildə jujanlar Bidinin dəstələrini darmadağın etdilər və beləliklə, Qaoqyuy dövlətinin mövcudluğuna son qoyuldu. Həmin müddətdə Çindəki Vey imperiyası

[12] Н. Я. Бичурин. Собрание сведений… s.202.

öz aralarında mübarizə aparan şərq və qərb hissələrinə parçalandı. Bundan sonra Anaxuan artıq hegemon qüvvə kimi çıxış edirdi, çünki hər iki tərəf ondan qorxurdu.

Bu qanlı Jujan şöhrətinin son şəfəqi idi.

**Dişi canavarın nəsli.** Şəcərələrə bələdlik və məxsusi öyrənilməsi ən qədim zamanlardan Mərkəzi Asiya xalqları üçün səciyyəvi idi. Həm də maraqlıdır ki, şəcərələrini müəyyənləşdirərkən həmin xalqlar bu və ya digər vəhşi heyvanı öz nəsillərinin banisi adlandırırdılar. Məsələn, tibetlilər erkək meymunu və dişi rakşası (meşə ruhu), monqollar boz qurdu və maralı, telelər canavarı və hun şanyuyunun qızını, türklər isə hun şahzadəsini və dişi canavarı öz əcdadları sayırdılar. Son iki əfsanə yəqin lap çoxdan, ehtimal ki, bu xalqların böyük Qobi səhrasının cənub qurtaracağında yaşadığı dövrdə meydana çıxmışdı; çünki mifologiya müəyyən dərəcədə siyasi tarixin və etnogenezin faktları ilə düzəlişə məruz qalır.

Tobalıların Şimali Çinin fəthi zamanı məğlub etdikləri tayfaların içərisində «beş yüz Aşina ailəsi» də var.[13] Bu «beş yüz ailə» IV əsrdə hunların və syanbilərin çinlilərdən aldıqları Şensi əyalətinin qərb hissəsində məskunlaşan «müxtəlif tayfaların qaynayıb-qarışmasından» yaranmışdı.[14] Aşina Ordosdan qərbdə, Xuanxe və Nanşan çayları arasında yerləşən Xesinin hakimi, hun knyazı Muğana tabe idi. 439-cu ildə tobalar hunlara qalib gələrək Xesini Vey imperiyasına birləşdirəndə knyaz Aşina «beş yüz ailə ilə jujanların yanına qaçdı və Altay dağlarının cənubunda məskunlaşaraq jujanlar üçün dəmir-emal etməyə başladı».[15]

Mətn bütün qədim türk xalqının deyil, hakimiyyət başında olan dəstənin mənşəyi barəsində məlumat verir. Qədim türklərin mənşəyi ilə bağlı bu versiyada əfsanəvi heç bir şey yoxdur. Çox güman ki, Aşina bu və ya digər səbəblərə görə çoxsaylı syanbi və hunq knyazlıqlarında yola getməyən qoçaq adamlardan ibarət drujinanın başçısı idi. Dövlət adlandırılması qeyri-mümkün olan bu cür xırda hərbi vahidlər qarmaqarışıq V əsrdə aramsız meydana çıxır və heç bir iz qoymadan məhv olurdu.

Çinlilər Aşina xanlarının təbəələrini Tu-kyu adlandırırdılar. Bu söz Pelyo tərəfindən «türkyut» — yəni «türklər» kimi uğurlu şəkildə açılmışdır. Lakin sözün sonundakı çoxluq bildirən şəkilçi türk deyil, monqol mənşəlidir. Qədim türk dilində bütün siyasi terminlər monqol cəm şəkilçisi ilə yaranırdı. Bu isə güman etməyə əsas verir ki, həmin sözlər türk dil mühitinə kənardan gətirilirdi.

«Türk» sözünün mənası «güclü», «möhkəm» deməkdir. A. N. Kononovun fikrincə bu söz sonralar tayfa birləşməsinin etnik adına çevrilmiş məcmu anlayışdır. Həmin tayfa birləşməsi ilkin dilinin necəliyindən asılı olmayaraq V

[13] «Beş yüz ailə» — üslubi ifadədir, əslində «azsaylı» deməkdir.
[14] Çin tarixşünaslığında bu epoxa U-xu, yəni «beş barbar tayfa» adını daşıyır.
[15] Н. Я. Бичурин. Собрание сведений… т. 1 с: 221.

əsrdə o, tarix səhnəsinə qədəm qoyanda dövrün tayfalararası ünsiyyət vasitəsi olan syanbi — yəni qədim monqol dili tayfaların hamısı üçün anlaşıqlı idi. Bu komanda, bazar, diplomatiya dili idi. Bu dillə Aşina nəsli 439-cu ildə Qobinin şimal həndəvərinə köçmüşdü. «Aşina» sözünün mənası «canavar» deməkdir. Türk dilində canavara buri, yaxud kaskır, monqol dilində isə şono//çino deyirdilər. «A» Çin dilində hörmət prefiksidir. Başqa sözlə, «Aşina» — «nəcib canavar» deməkdir. Sözün Çin təsirinə məruz qalmayan ərəb variantı «Şane» kimi yazıya alınmışdır.

Aşina xanlarını totemist adlandırmağın həqiqətə uyarlığı məsələsi bizim müasir bilgilərimiz hüdudunda həll edilə bilməz. Lakin aydındır ki, VI əsrdə «canavar» adının türklər üçün böyük əhəmiyyəti vardı. Çin tarixçiləri «türk xanı» və «qurd» anlayışlarını sinonim sayır və bu vaxt çox güman ki, türk xanlarının fikirlərinə istinad edirdilər. Təsadüfi deyil ki, syanbi xanının arvadı əri Şabolio haqqında deyirdi: «xan öz xüsusiyyətlərilə qurddur», türklərə hücum təlimatında isə bildirilirdi: «bu tədbirləri görmək lazımdır: köçərilərə hücum etmək və qurdları qovmaq». Türk bayraqlarında qızılı rəngli qurd başı çəkilmişdi. Nəhayət, türklərin mənşəyi haqqında iki əfsanədə birinci yer dişi canavar — əcdadla bağlı versiyaya verilmişdir. Bir-birindən azacıq fərqlənən əfsanələrin ikisi üçün də səciyyəvi cəhət onlarda tarixi hadisəyə — Aşina ordasının Qansudan köçməsinə kiçicik bir işarə də olmamasıdır. Ona görə də əfsanələrin Altayda meydana çıxdığını, bəlkə də gəlmələrin müstəsnalıq hüququnu əsaslandırmaq üçün məxsusi olaraq yaradıldığını düşünmək mümkündür.

Birinci əfsanənin maraqlı cəhəti «Qərb ölkəsindən qərbdə yaşayan hunlar evinin nəsli», yəni Attilanın dövləti haqqında məlumatdır. Qonşular bu nəsli qırmışdılar, yalnız doqquz yaşlı bir oğlan xilas ola bilmişdi. Düşmənlər onun əllərini və ayaqlarını kəsmiş, bədənini isə bataqlığa atmışdılar. Burada dişi qurd həmin oğlandan hamilə olmuşdu. Oğlanı sonra öldürmüşdülər, dişi qurd isə Altaya qaçıb orada on oğul doğmuşdu. Onlar artıb-çoxalmış və «bir neçə nəsildən sonra Asyan-şe adlı birisi bütün aymağı ilə mağaradan çıxaraq özünün Jujan xanının vassalı olduğunu etiraf etmişdi». Beləliklə, bu əfsanəyə görə Altay türkləri-tukyular (türkyutlar) mənşəcə Qərb hunlarından törəmişlər, lakin mənşə birliyi birbaşa deyil, mistik xarakterlidir, ana qurdun iştirakı ilə baş verib. Üstəlik nəzərə alsaq ki, Qərb hunları 468-ci ildə məhv edilib, türklər isə xalq kimi artıq 545-ci ildə tarix səhnəsinə gəliblər, onların artım sürətinə və nəsillərin bir-birini əvəzləməsinə yalnız heyrətlənmək olar.

İkinci əfsanə türklərin mənşəyini yerli So tayfası və yenə dişi canavarla bağlayır. Əfsanəyə görə So nəslinin bütün nümayəndələri «öz səfehlikləri ucbatından» (bu səfehliyin nədə təzahür etdiyi göstərilmir) məhv olmuş, yalnız qurdun dörd nəvəsi canlarını qurtara bilmişdilər. Onlardan birincisi qu quşuna çevrilmiş, ikincisi Tsiqu adı ilə Abu və Qyan çaylarının arasında, üçüncü və dördüncüsü isə Cənubi Altayda, Çusi çayının sahilində məskən salmışdılar. Bu əfsanəni N. A. Aristov izah etmişdir. O, əfsanədəki So nəslini kumandinlər — Bie

çayı üzərindəki Cənubi Altay tayfası So ilə müqayisə etmiş, birinci nəvəni lebedinlilər — ku-kiji, ikincini Abakan (Abu) və Yenisey (Qyan-Kem) arasında yaşayan qırğızlarla əlaqələndirmişdi. Böyük oğlun nəvəsi birinci əfsanədə təsadüf etdiyimiz Asyan-şedir. Burada hər iki əfsanə bir-biri ilə səsləşir.

Qaçqınların gəlib çıxdıqları Monqolustan Altayının ətəkləri hunlardan törəyən və türk dilində danışan tayfalarla məskunlaşmışdı. Knyaz Aşinanın drujinası da həmin aborigenlərlə qaynayıb-qarışdılar və onlara «türk», yaxud «türkyut» adı verdilər.

«Türk» sözünün taleyi tədqiqatımız üçün o qədər əhəmiyyətli və vacibdir ki, onunla bağlı süjetə xüsusi diqqət yetirmək lazımdır. 1500 il ərzində «türk» sözü bir neçə dəfə mənasını dəyişib. Göründüyü kimi, türk adı altında V əsrdə knyaz Aşinanın ətrafında birləşən, VI—VIII əsrlərdə isə xalq kimi formalaşan və türk dilində danışan orda nəzərdə tutulurdu. Lakin eyni dildə danışan qonşu xalqlar qətiyyən türk hesab olunmurdu. Ərəblər dillərini nəzərə almadan Orta və Mərkəzi Asiyanın bütün köçəri tayfalarını türk adlandırırdılar. Rəşidəddin ehtimal ki, dil əlamətinə görə türkləri və monqolları fərqləndirirdi. İndiki mərhələdə isə «türk» etnoqrafiyanı, hətta mənşəyi nəzərə almadan istisnasız olaraq linqvistik anlayışdır. Çünki bir sıra türkdilli xalqlar türk dilini qonşularla ünsiyyət prosesində əxz ediblər. Termindən istifadənin bu müxtəlifliyi müqabilində müəyyən dəqiqləşdirmə aparmaq zəruridir. Dolaşıqlıqdan qaçmaq üçün tarixini təsvir etdiyimiz xalqı jujanların və çinlilərin VI əsrdə çağırdıqları kimi türkyutlar* adlandıracağıq.

Aşinanın adı ilə birləşən həmin «beş yüz ailə» mənşəyindən asılı olmayaraq hərbi müvəffəqiyyətin dəyişkənliyi onları Çindən Altaya atana qədər öz aralarında monqol dilində danışırdılar. Lakin türkdilli mühitdə yüz il qalmaları, təbiidir ki, danışıq dilinin tezliklə dəyişməsinə gətirib çıxarmalı idi. Onu da nəzərə almaq lazımdır ki, «Aşinanın beş yüz ailəsi» türk dənizində bir damla idi. Güman ki, VI əsrin ortalarına doğru Aşina nəslinin üzvləri tamamilə türkləşmiş, monqoldilliliyinin əlamətlərini yalnız özləri ilə gətirdikləri titullar sistemində saxlamışdılar.

Yuxarıdakı şərhimizdən göründüyü kimi, türkdilliliyin mənşəyi və özünü «türk-türkyut» adlandıran xalqın meydana gəlməsi tamamilə fərqli hadisələrdir. İndi türk dilləri adlanan dillər ən qədim zamanlarda meydana gəlmişdi, türkyut xalqı isə V əsrdə, Altay və onun ətəkləri üçün səciyyəvi olan meşə-düzən landşaftı şəraitində tayfaların qarışması nəticəsində yaranmışdı. Gəlmələrin yerli əhali ilə qaynayıb-qarışması prosesi o qədər güclü olmuşdu ki, artıq yüz il sonra — 546-cı ildə onlar qədim türk xalqı, yaxud türkyut adlandırılan vahidə çevrilmişdilər.

* Bu şərti termini biz 1959-cu ildə təklif etmişik.

Türk dili mühitinin özü isə həmin dövrdə artıq Altaydan qərbə doğru uzaqlara—quzların, kanqlıların, yaxud peçeneqlərin, qədim bolqarların və hunların yaşadıqları ərazilərə yayılmışdı.

## III f ə s i l

## AŞİNA NƏSLİNİN BÖYÜK DÖVLƏTİNİN YARANMASI

### *(545-581-ci illər)*

**Qədim türklərin (türkyutların) tarixinin başlanğıcı.** Hər bir xalqın tarixi köklərinin ən qədim dövrlərə gedib çıxmasına baxmayaraq, tarixçilər bütün bu epoxaları xalqın yaranmasını müəyyənləşdirən (onların fikrincə) vaxtdan başlamağı üstün tuturlar. Məsələn, romalıların ifrat şərti tarixi — Romanın meydana gəlməsini, ərəblər tamamilə real tarixi — Məhəmmədin Məkkədən Mədinəyə hicrətini öz tarixlərinin başlanğıcı sayırlar. Rus salnaməçiləri 862-ci ili seçmiş və rus tarixinin «başlanğıcını» həmin ilə uyğunlaşdırmışlar. Fransız xronikaçıları «başlanğıcı» Xlodvinq Merovinqdən götürürdülər, tarixçilər isə Oqyüsten Tyerinin təşəbbüsü ilə 843-cü ili — Karl imperiyasının parçalanmasını fransız tarixinin ibtidası kimi qəbul etdilər və s. Türkyutlar üçün belə bir tarix 545-ci il idi.

Şimali Çində yeni müharibə başlanmışdı. Şərqi Vey imperiyasının hakimi Qao Xuan Jujan xanı Anaxuan və Toqon hökmdarı Kualyuyla ittifaq bağlayaraq Qərbi Vey imperiyasına hücum etdi və rəqibi Yuyvın Tayı bərk sıxışdırdı. Lakin müttəfiqlər həlledici qələbə qazana bilmədilər. Özünə tərəfdarlar axtaran Qərbi Vey imperatoru Ven-di An Nopanto[16] adlı bir nəfəri dostluq əlaqələri yaratmaq üçün türk knyazı Bumının[17] yanına göndərdi.

545-ci ildə[18] türkyutların düşərgəsinə gələn səfir böyük sevinclə qarşılandı. «Orada hamı biri-birini təbrik edərək deyirdi: indi yanımıza böyük dövlətin elçisi gəlib, tezliklə öz dövlətimiz də yüksələr». Bu ötəri və ilk baxışdan əhəmiyyətsiz görünən faktın özü də göstərir ki, jujapların hakimiyyəti türkyutlar üçün dözülməz idi və azadlıq uğrunda mübarizənin zəruriliyi onları qorxutmurdu.

---

[16] Anna Nopanto «Tezyu-Tsyundan (yəni Xesidən) olan yadelli köçəri» adlandırılır (b a x Н. Я. Бичурин. Собрание сведений… т. 1 с 228). Aşinanın ordası 100 il əvvəl həmin yerdən çıxmışdı. İlkin mənbədə onun mənşəyi təsadüfi göstərilmir. Türkyut knyazının yanına türkyut dilini bilən adam göndərilmişdi. Bu isə Aşina ordasının öz ilkin vətənləri ilə əlaqələrini itirmədiyini göstərir.

[17] Orxon kitabələrində o, Bumın-xaqan adlandırılır. V. Bartold və P. M. Meleqoranski onu İstemi xanla bir şəxsdə eyniləşdirməyə çalışıblar. Lakin Tomson, Markvart, Aristov və Qrum-Qrjimaylo parlaq surətdə onların Çin mənbələrindəki İl-xan Qumına və Şetemiyə uyğun gələn iki qardaş olduqlarını sübut etmişlər.

[18] N.İ.Biçurin bu tarixi 535-ci il kimi göstərir. Lakin bu tarix ehtimala az uyğundur, çünki imperiya yenicə dağılmışdı və qüvvələr düzümü hələ məlum deyildi.

Xalqın əhvali-ruhiyyəsinə uyğun hərəkət edən Bumın süzereninə — Jujan xanına loyallıq göstərərək Qərbi Vey imperiyasının paytaxtı Çanyana hədiyyələrlə birlikdə cavab elçiliyi göndərdi və bununla da ağası — düşməni ilə ittifaqı möhkəmləndirdi. Lakin, bu jujanlarla əlaqələrin qırılmasına gətirib çıxarmadı, çox güman ki, danışıqlar son dərəcə məxfi şəraitdə aparılırdı. Bu elçilik dörddə bir əsr ərzində Qərbi Vey və onun varisi olan Bey-Çjou imperiyalarının müttəfiqi kimi türkyut dövlətinin şərq siyasətini müəyyənləşdirdi. 550-ci ildən başlayaraq həmin siyasət Bey-Tsi sülaləsinin hakim olduğu Şimal-Şərqi Çinə qarşı yönəldilmişdi. Bumın töycü ödədiyi jujanlarla mübarizə aparmaq üçün həddindən artıq zəif olduğunu yaxşı başa düşürdü. O, müttəfiq və vassal borcunu vicdanla yerinə yetirmək qərarına gəlmişdi. Elə həmin il bu qətiyyəti nümayiş etdirmək üçün müvafiq təsadüf də düşdü.

Qərbi tele tayfaları jujan əsarətinə çətinliklə dözürdülər. Nəhayət səbir kasası daşdı — onlar üsyan qaldırdılar və jujanlara həlledici zərbə endirmək üçün Qərbi Cunqariyadan Xalxaya doğru hərəkət etdilər. Yürüş elə pis təşkil edilmiş və elə namünasib vaxt seçilmişdi ki, burada qabaqcadan düşünülmüş müharibədən daha çox xalq qəzəbinin kortəbii partlayışından danışmaq daha düzgün olardı. Tarix hətta üsyan başçılarının adlarını da qoruyub saxlamayıb. Telelər yolun yarısında olanda Qobi Altayının dərələrindən harın döyüş atları minmiş, çoxqatlı zirehli paltar geymiş və uzun nizələrlə silahlanmış nizamlı türkyut dəstələri çıxdılar. Telelər cinahdan zərbə gözləmirdilər, digər tərəfdən onlar heç vaxt, heç bir pislik görmədikləri türkyutlarla deyil, nifrət bəslədikləri jujanlarla vuruşmaq istəyirdilər. Ona görə də telelər dərhal Bumına tam itaətlərini bildirdilər, türkyut hökmdarı isə bu itaətkarlığı qəbul edərək Jujana münasibətdə ikinci qeyri-loyal addım atdı.

İtaətkarlıq çöldə qarşılıqlı təhəddüd ifadə edən anlayışdır. Təbəəliyində əlli min[19] alaçığı yalnız alaçıq sahiblərinin istədiyini eləmək şərtilə saxlamaq olar, əks-təqdirdə hökmdar həm təbəələrini, həm də başını itirə bilər. Telelər yalnız bir şey — jujanların məhvini istəyirdilər. Onları öz ordasına qəbul edəndə Bumın da çox güman ki, bundan xəbərdar idi. Bumının həmtayfaları da eyni niyyətdə olduqlarından müharibə labüd idi. Xan təbəələrinin arzusuna uyğun iş görürdü. Ona görə də hadisələr daha sürətlə inkişaf etməyə başladı.

**Jujanın darmadağın edilməsi.** Jujanlarla münaqişə yaratmaq, eyni zamanda incikliyin səbəbkarı kimi görünməmək üçün Bumın fitnəkarlığa əl atdı.

---

[19] Н. Я. Бичурин. Собрание сведений… т. 1 с. 228: Qrum-Qrjimaylo jujanlara qarşı «parpurumların çıxdığına güman edir («Западная Монголия и Урянхайский край, т. 2, Л., с. 220), lakin arabaların sayı Mərkəzi Asiyanın tele tayfalarının sayına uyğun gəlir (В а х: Д. Лозднев. Исторический очерк уйгуров, СРб, 1899, с. 38—89). Odur ki, Bumının həmin vaxta qədər Cunqariyada yaşayan və jujanların məhvindən sonra Baykala və Kerulenə qədər bütün Şərqə yayılmış tele tayfaları konfederasiyasını itaət altına gətirdiyini düşünmək lazımdır.

O, qızını ona ərə vermək xahişi ilə Jujan xanı Anaxuana müraciət elədi. Çöl adət-ənənələrinə görə bu, türkyut hökmdarını Jujan xanına bərabərləşdirmək deməkdi. Anaxuan nüfuzunu itirmək istəmirdisə, buna razı ola bilməzdi. Qəzəblənmiş xan Bumına kobud cavab verdi: «Sən mənim xidmətçimsən (türkyutlar jujanlar üçün metal əridirdilər), nə hədlə mənə belə təkliflə müraciət edirsən?». Anaxuanın etirazı Bumını təhqir olunmuş adam vəziyyətində qoyurdu. Türkyut hökmdarına da elə bu lazım idi. Barışığa gedən yolu əvvəlcədən kəsmək üçün o, Jujan səfirinin edam olunmasını əmr etdi. Qərbi Vey imperiyası ilə ittifaq bu şəraitdə onun üçün çox sərfəli idi. Bumın dərhal Ven-di ilə danışıqları təzələdi və 551-ci ildə Çin şahzadə qızı Çanle ilə evləndi. Bu izdivac köçərilər arasında onun nüfuzunu qaldırdı. Qəfil hücumun üstünlüklərindən istifadə etməyə çalışan Bumın 552-ci ilin qışında yürüşə çıxıb jujanları tam məğlubiyyətə uğratdı. Anaxuan intihar etdi, oğlu Yanloçen isə müttəfiqləri olan tsistlərin yanına qaçdı.[20]

Bumın İl-xan titulu qəbul elədi. Lakin 552-ci ilin sonunda o öldü. Taxta Qara İssık-xan (yəni Qara Qızmar xan) titulu qəbul etmiş oğlu çıxdı.

Türkyutların qəfil darmadağın etdikləri jujanlar həlak olmuş xanın əmisi Dınşutszanı başçı seçib mübarizəni davam etdirməyə başladılar. Lakin Layşan dağı yaxınlığındakı döyüşdə onlar yenidən tam məğlubiyyətə uğradılar. Jujanların xoşbəxtliyindən (lakin bu xoşbəxtlik uzun sürmədi) Qara İssık xan sirli şəraitdə öldü, oğlu Şetu hakimiyyətdən uzaqlaşdırıldı, taxta Muğan xan titulu ilə Kara İssık xanın kiçik qardaşı Kuşu çıxdı[21].

Yeni xan sərt təbiətli, amansız və ağıllı idi. Onu müharibədən başqa heç nə maraqlandırmırdı. 553-cü il payızın sonlarında Qara İssık-xan jujanları yenidən məğlub etdi. Tsits imperatoru öz uğursuz müttəfiqlərini qəbul etdi və onları türkyutların təqibindən qurtardı. Lakin jujanlar Çində özlərinə yer tapa bilmirdilər. Sürülərini və əmlaklarını itirən, zəhmətə öyrənməyən jujanlar yenidən quldurçuluğa qurşandılar. Artıq 554-cü ilin baharında Tsits hökuməti onlara qarşı qoşun göndərməli oldu. Jujanlar məğlub edildilər. Lakin bu onların əxlaqını dəyişdirmədi. 555-ci ilin yayında Tsits imperatoru jujanları öz torpaqlarından Çölə qovdu, burada isə türkyutlar və kidanlar onlara dərhal divan tutdular.

Dınşutszı sığınacaq tapmaq ümidi ilə ordasının qalıqları ilə Qərbi Veyə üz tutdu, lakin burada Tsi imperiyasına qarşı mübarizədə müttəfiq kimi türkyutlara böyük ehtiyac duyulurdu. Odur ki, üç min nəfər əl-qolu bağlı jujan əsirini türkyut səfirinə verdilər. Səfir bütün yaşlıların boynunu vurmaq əmri verdi, onun yalnız uşaqlara və «knyazları müşayiət edən» xidmətçilərə rəhmi gəldi. Jujanlarla haqq-

[20] S. Julyen bu xəbərin verildiyi mənbəni başqa cür tərcümə edir: Anaxuan özü öz əli ilə oğlu Yaploçeni öldürmüş və Tsiyə qaçmışdı. Lakin N. Y. Biçurinin tərcümə etdiyi Çin salnaməsi «Qan-mu» Anaxuanın intiharı haqqında məlumat verir.

[21] Bu xanın aşağıdakı adları vardı: vəhşi heyvan adı – Tszuşu (yəni kuşu – quş), nəsil adı Sıqin (yəni nəvə, qardaş oğlu), ləqəbi - yandı (yəni qalib), titulu – Muyuy, yaxud Muğan. Biz elmi ədəbiyyatda daha çox işlədilən sonuncu addan istifadə edirik.

hesab çürüdüldü, türkyutlar Böyük çölün bütün şərq hissəsinin sahibi oldular. Jujanların məhvində göstərdiyi köməyə görə türkyutlar elə həmin 556-cı ildə Qərbi Vey imperiyasının xəcalətindən çıxdılar. Jujan döyüşçülərinin kəsilən başları Çanyanın Şərq qapıları yanında yerə düşəndə birləşmiş türkyut—Çin dəstələri Toqona hücum etdilər. Şəhərin bütün əhalisi Nanşyan dağlarında sığınacaq axtarmalı oldu. Qaliblər xanın iqamətgahının yerləşdiyi Kukunor yaxınlığındakı Şudun şəhərciyini, habelə Xömçeni ələ keçirdilər. O biri il toqonlular Çin yürüşünə qarşı yürüşlə cavab vermək istədilər, lakin möhkəmləndirilmiş qalaları ala bilmədiklərindən geri çəkilməli oldular. Tsi imperiyası məhvə doğru gedən müttəfiqinə heç bir kömək göstərə bilmədi, çünki bundan əvvəl bütün qüvvələr kidanların şimaldan (553-cü il) və Lyan hökmdarlığının cənubdan (555-ci il) hücumlarının dəf olunmasına göndərilmişdi. Yuyvın Tayın qələbələrdən ruhlanan oğlu Yuyvın Tszyu legitimizm[*] pərdəsini bir yana ataraq Vey imperiyasının axırıncı hökmdarını taxt-tacdan əl çəkməyə məcbur etdi və 557-ci ildə özü taxta çıxdı. O, banisi olduğu sülaləni Bey-Çjou adlandırdı.

**Şərqdə müharibə.** Jujanlara divan tutduqdan sonra türkyutlar köçəri qonşularına qarşı fəal hərəkata başladılar. 554-cü il knyazlığın imperiyaya çevrilməsi ili idi. Şimalda Tsiqu dövləti fəth olundu. Çinlilərin Tsiqu adı altında qırğızları, yaxud çikləri nəzərdə tutduqları aydın deyil. Lakin buna baxmayaraq həmin dövrdə Sayan dağlarını aşmaq türkyutlara müyəssər olmasa da, Muğan xan artıq öz şimal sərhədlərini möhkəmləndirmişdi.[22]

Şərqdə həmin dövrdə üç xalq: çinlilərin xi adlandırdığı tatablar, kidanlar və Çin coğrafiyaşünaslarının əsərlərində Şivey adını daşıyan Otuz tatar tayfası yaşayırdı. Hər üç xalq monqol dilinin dialektində danışırdı, məişət və mədəniyyətcə yaxın idi, lakin bununla belə, həmişə bir-biriləri ilə düşmənçilik aparırdı. Tatablar Xinqanın qərb yamaclarında yaşayırdılar və Bey-Tsi imperiyasının müttəfiqi idilər. Kidanlar Mancuriyanın düzən hissəsini, Lyaoxe çayından şimal tərəfi tutmuşdular. Onlar daim tatablarla vuruşurdular və aydın məsələdir ki, Bey-Tsi sülaləsi ilə də münaqişəyə girirdilər. 553-cü ildə Bey-Tsi imperatoru Veydi Kidan xalqını əzib onun əksər hissəsini özünə tabe etdi. Qalanlar ya Koquriyaya (Koreya) qaçdılar, ya da artıq Sarı dəniz hövzəsinə çıxmış tatarlara tabe oldular.

Kidanlar üzərində qələbə nəticəsində Bey-Tsi dövləti özünün xarici siyasi vəziyyətini gücləndirmək əvəzinə daha da pisləşdirdi, çünki şimalda o, artıq

---

[*] İnqilabın devrilişi olduğu padşah sülaləsinə tərəfdar çıxan irticaçı monarxist cərəyan.

[22] Tibet mətnindəki Zama-xaqan, yaxud Zama-moğan Pelyonun təxmini ehtimalına görə Muğan xandır. «Zama» adı «azmış» ola bilməz, çünki göy türklərin sonuncu hökmdarı Ozmış xan hakimiyyət başında olduğu iki il müddətində (742—744) Şimala yürüşə çıxmamışdı. Ehtimal ki, «Zama»nı «Azma» («az» felinin inkarı) kimi oxumaq lazımdır. Türk xanlarının titullarında bu cür epitetlərə tez-tez təsadüf olunur.

türkyutlarla həmsərhəd idi. Syanbilərin qalıqlarına amansız divan tutulması və dövlətin hədsiz vəsaitini udan buddizmə açıq himayədarlıq xarici düşmənlərə müqaviməti zəiflədirdi. Həmin dövrdə Bey-Çjou bir tərəfdən türkyutlarla ittifaq sayəsində, o biri tərəfdən isə sülalə hakimlərinin xidmətkar silklərə arxalanması, buddist və daoçu rahiblərə vəsait xərcləməməsi nəticəsində genişlənir və möhkəmlənirdi. 579-cu ildə imperator U-di buddizmin və daosizmin yasaq olunması haqqında fərman imzaladı. Bu Çin VIII Henrixi «Səma başlanğıcı» titulunu qəbul etmiş, Buddanın və Lao-tszının bütlərini taxtının sağ və sol tərəfinə qoymaq əmrini vermişdi. O, həmin bütlərin əhatəsində oturaraq açıq sitayişi qəbul edir və bununla da dini gözdən salmağa çalışırdı. Çjou imperiyası hətta Qərbi Asiyada da şöhrətlənməyə başladı. Burada müxtəlif səviyyəli hakimlər imperiya ilə əlaqə yaratmağa çalışırdılar. Məsələn, 553-cü ildə eftalitlərdən, 555-ci ildə isə İrandan səfirliklər gəlmişdi. Toqonların yenidən, yalnız Çjou imperiyasının qüvvələri ilə darmadağın edilməsindən sonra 559-cu ildə Qaoçan (Turfan), 561-ci ildə Kuça, 564-cü ildə Karaşar öz səfirliklərini göndərmişlər.

Bay-Çjou imperiyasının əsas məqsədi şərqi imperiyanın — Bey-Tsizinin məhvi idi. Lakin düzgün istifadə olunacağı təqdirdə Bey-Tsizinin müstəqilliyini qoruyub saxlamağa imkan verən zəngin daxili ehtiyatları vardı. Hər şey türkyut xanının kimin tərəfində dayanmasından asılı idi.

561-ci ildə hər iki imperator Muğan xanın qızına elçilik üçün səfirlər göndərdilər. Zəngin Bey-Tsidən gətirilən hədiyyələr az qalmışdı ki, məsələni onların xeyrinə həll etsin, lakin Çjou səfirliyinin diplomatik çevikliyi Muğan xanı ittifaq haqqında müqaviləyə sadiq qalmağa məcbur etdi. O, hədiyyə itkisinin yerini hərbi qənimətlə doldurmaq qərarına gəldi.

563-cü ildə müttəfiqlər Tsinzyanı mühasirəyə aldılar, lakin qələbə qazana bilmədilər. Türkyutlar isə ölkəni çapıb taladıqdan sonra doğma çöllərə qayıtdılar. O biri il yürüş yenə təkrar olundu, lakin tsistlərin Loyan altında Çjou ordularından birini tam şəkildə əzmələri Muğan xanı qoşunlarını geri çəkməyə məcbur etdi. Lakin uğursuzluğa baxmayaraq Muğan xan Tsi imperiyasının ittifaq bağlamaq təklifini yenidən rədd etdi. Bu müttəfiqlik müqaviləsinə uyğun olaraq Çjou imperiyası hər il türkyutlara 100 min top ipək parça verməsi ilə izah edilir.

572-ci ildə Muğan xan öldü. Onun qardaşı və varisi Toba xan Çjou imperiyası ilə əlaqələrini kəsmədən Tsi imperiyası ilə sülh bağladı. Çjou dövləti xəracdan boyun qaçırmağa cəsarət göstərəndə ilkin vəziyyətin bərpası üçün türkyutların bir hərbi qüvvə nümayişi kifayət etdi. Türkyut yürüşlərindən qorxan Tsi imperiyası sülhün xatirinə xərac verərək öz xəzinəsini ilbəil boşaldırdı. Tobo xan deyirdi: «cənubda iki oğlan (Çjou və Tsi) bizə itaət etsə, kasıbçılıqdan qorxmağa dəyməz».

Tsi imperiyası ilə müttəfiqlik türkyutların Çinlə mədəni ünsiyyətinə imkan yaratdı. Xanın düşərgəsində buddist rahiblər görünməyə başladı. Tobo xan özü buddizmi qəbul etdi. Buddist missioner öz dininin gücünü buddizmə tapınmış Tsi

imperiyasının qüdrəti və zənginliyi ilə sübuta yetirməyə çalışırdı. Lakin tezliklə Tsi imperiyasının darmadağın edilməsi türkyutların bu dini təlimə inamlarını itirdi və 581-ci ildə Suy sülaləsi hakimiyyət başına gələndən sonra buddistlər Çinə dönməli oldular.

576-cı ildə çjoulular tsistləri məğlub edib Pxinyan şəhərini ələ keçirə bildilər. Tsistlərin Pxinyanı geri almaq təşəbbüsləri baş tutmadı və Eçen şəhərində mühasirədə olan Tsi imperatoru şəhəri təhvil verməmişdən əvvəl knyaz Qao Yuan Tszunun xeyrinə taxtdan imtina etdi. Qao Yuan Tszu isə 577-ci ildə əsir düşdü.

Darmadağın edilməsinə baxmayaraq süquta uğrayan sülalə Tayyuan şəhərinin sakini Qao Bao-ninin simasında bacarıqlı müdafiəçi tapdı. Hələ məğlubiyyətdən əvvəl, 576-cı ildə o, indiki Çaxarda yerləşən İnçjou sərhəd qalasının komendantı təyin olunmuş və qısa müddət ərzində təkcə çinlilərin deyil, köçərilərin də hörmətini qazanmışdı. Sülalənin süqutundan sonra yaranan vəziyyət Qao Bao-ninin müstəqilliyini təmin etmişdi. Qao Bao-nini prinsipsiz siyasi şöhrətpərəst deyildi; onun simasında ilk növbədə Şimali Çinin dirçəlişinə təkan verən mənəvi qüvvələr — borca sədaqət, vətənpərvərlik və mübarizədə əzmkarlıq hissləri öz təcəssümünü tapmışdı. O, qalib tərəfin fəxri təslim təklifini qətiyyətlə rədd etdi və özünün türkyutların yanına qaçmış Tsi sülaləsinin sonuncu nümayəndəsinin — knyaz Qao Şao-inin tərəfdarı olduğunu bildirdi. Bu hərəkətinə görə Qao-Bao-ninə kansler (əlbəttə, həmin vəzifəni tutmaq imkanı yox idi) rütbəsi verildi.

Türkyut xanı Bey-Çjounun hədsiz güclənməsindən ehtiyat edərək məğlub sülalənin tərəfini saxladı. Öz imperatoruna qarşı üsyan qaldıran və Fanyanda (indiki Pekin yaxınlığında) möhkəmlənən sərkərdə Lyuy Çjan-tszı da bu ittifaqa qoşuldu.

Qao Bao-nin dərhal sərəncamındakı bütün qüvvələri səfərbərliyə alıb Qao Şao-inin mövqeyinə keçdi. Lakin o, gecikmişdi. Qoşunlar Lyaoxe çayının sahillərinə çatanda Fanyanın dağıldığı və üsyanın yatırıldığı xəbəri gəldi. Qao Şao-i türkyutların yanına qayıtdı, Qao Bao-i isə öz əyalətində möhkəmləndi.

Bey-Çjou üçün ən qorxulu düşmən türkyutlar idi. 578-ci ildə Tobo xan Çinə soxuldu və Çjou ordusunu qılıncdan keçirdi. 579-cu ildə başlanan danışıqlar kəsildi, hərbi əməliyyatlar isə türkyutların tam üstünlüyü ilə davam edirdi. Lakin Çin elçisi Tobo xanı hədiyyələrlə şirnikləndirə bildi və 580-ci ildə sülh bağlandı. Bu sülh müqaviləsinə görə Qao Şao-i çinlilərə verildi və Çjou dövlətinin paytaxtı Çanyana aparıldı. O, Sıçuanda sürgündə öldü.

580-ci il türkyut qüdrətinin zirvəsi idi. 581-ci ildə Tobo xan öldü, Çjou sülaləsi isə türkyutların qəddar düşməni, Suy sülaləsinin banisi sərkərdə Yan Tszyan tərəfindən devrildi. Bu, siyasi vəziyyəti əsaslı şəkildə dəyişdi. Qao-Baoi isə öz düşmənlərindən çox yaşadı, o, Çaxardakı xırda knyazlığın hakimi idi. Bu knyazlıq türkyutların müttəfiqi sayılırdı.

**Qərbdə müharibə.** Şərq sərhədində fəal olan türkyutlar eyni vaxtda qərbə də yürüşlər edirdilər. Təəssüf ki, bu fövqəladə əhəmiyyətə malik hadisə tarixçilərin əsərlərində natamam əks olunur. Lakin bütövlükdə hadisələrin ümumi gedişini müəyyənləşdirmək mümkündür.

Qərb yürüşünə Bumının kiçik qardaşı İstemi-xaqan başçılıq edirdi. İstemi xaqan əvvəllər də Bumınla yürüşə çıxmış və ehtimal ki, on tayfa başçısına rəhbərlik etmişdi. Güman ki, həmin on nəfər uqor mənşəli Şimali Altay tayfalarının başçıları idilər. Onların indi türkləşmiş xələfləri şorlar, kumandinlər, lebedinlər və başqalarıdır. Təsadüfi deyil ki, İstemi xaqanın adı türk yox, uqor mənşəlidir və çox güman ki, ruh-əcdadın adıdır. Çinlilər onun qoşunlarının sayını 100 min nəfər göstərirlər, lakin bu rəqəm döyüşçülərin həqiqi sayına deyil, sərkərdənin rütbəsinə işarədir. İstemi xanın «Bahadır-cabqu»[23] tituluna uyğun gələn bu rütbə orduda ən yüksək hərbi rütbə sayılırdı. İstemi öz yürüşünə 552-ci ildən sonra başlamışdı. Çünki həmin il abarlar hələ müstəqil tayfa idilər. Bumının dəfninə hədiyyələr göndərmişdilər[24] və çox güman ki, bunu 553-cü ilin payızında, jujanların qəti məğlubiyyətindən sonra etmişdilər. Yürüşün ən çox ehtimal olunan vaxtı 554-cü ilin baharıdır. Həmin dövrdə jujanlarla haqq-hesab çürüdülmüşdü, otun bol vaxtı idi. Təbiidir ki, bu sonuncu amilin süvarilər üçün mühüm əhəmiyyəti vardı.

Hərəkət sürətindən göründüyü kimi türkyutlar güclü müqavimətə rast gəlməmişdilər. 555-ci ildə qoşunlar «Qərb dənizinə» çatmışdılar. Bu ad altında Xəzər deyil, Aral dənizini nəzərdə tutmaq lazımdır. Çünki Firdovsi İranın sərhədlərini aşağıdakı şəkildə göstərirdi: «Çindən Ceyhunun (Amu-Dəryanın) sahillərinə və Çaçanın (Daşkəndin) o tayından Gül-zariuna (Sır-Dəryaya) qədər».

Bu sitat əsasında biz 555-ci ilin dəqiq sərhədlərini müəyyənləşdirə bilərik. O, Daşkəndin şimalından gedir, sonra Sır-Dəryanı şimala dönən yerdə kəsib keçir və get-gedə genişlənərək Amu-Dəryanın aşağılarına və Aral dənizinin cənub sahillərinə çatırdı. Soqdiana və Buxara həmin dövrdə eftalitlərin hakimiyyəti

---

[23] Bahadır — hələ VI əsrdə türk dilinə daxil olmuş monqon sözüdür, «yabqu» isə «xaqanın müavini» deməkdir.

[24] Şavani səhvən Qərbə yürüşdə İsteminin öz qardaşını müşayiət etdiyi qənaətinə gəlmişdir. Lakin Şavannın dövründə «araç» etnominin mənası hələ açılmamışdı və o «apurim» adı ikinci etnonimlə birlikdə «apar-apurim» (Tomson), yaxud «parpurum» (P. M. Melioranski) kimi oxunurdu. Həm də Radlov bu etnik qrupu tele tayfası olan fufolo ilə eyniləşdirirdi. Məsələni türk alimi Bəhaəddin Ögel həll etdi. Türk alimi öz tədqiqatı ilə sübut etdi ki, «apurim» — Rum, yəni Bizansdan başqa bir şey deyildir. Bu və başqa tədqiqatların sayəsində qərb yürüşünün vaxtını müəyyənləşdirmək mümkün oldu, həmin düzəliş isə Şavannın türk xalqının iki qərb və şərq qolunun paralel mövcudluğu haqqındakı ehtimalını gündəlikdən çıxardı. İstemi Şərqin fəth olunmasına öz qardaşı oğlu Muğan xanın yabqusu kimi getmişdi. Hər iki qardaşın «Gül-tiginin böyük kitabəsində» şərqi turklərin əcdadı kimi xatırlanması ən qədim dövrdə bu xalqın iki qolu olması fikrini istisna edir. Ayrılma prosesi VII əsrdə, bizim aşağıda nəzərdən keçirəcəyimiz şəraitdə baş vermişdi.

altında idi. Türkyutlar onlarla qarşılaşmışdılar.[25] Beləliklə, il yarım ərzində türkyutlar bütün Mərkəzi Qazaxıstanı, Yeddisuyu[*] və Xarəzmi[*] özlərinə tabe etmişdilər.

Lakin getdikcə vəziyyət daha da çətinləşdi. Aral dənizinin şimal sahillərində türkyutlar xuni (xio-nit)[26], var[27] və oqor[28] tayfalarının müqavimətinə rast gəldilər. Yalnız 558-ci ildə bu tayfalar məğlub edildi və türkyutlar itaətdən boyun qaçıranları da qabaqlarına qatıb qova-qova Volqa sahillərinə çıxdılar. Qovulanlar var və xun tayfalarının qalıqları idilər. Sayları təxminən 20 min nəfərə çatırdı. Sonralar bu tayfalar vahid xalq—avar xalqı[*] kimi formalaşdılar.

Türkyutlar Volqanı keçmədilər, yalnız Uralyanı düzənlikləri itaət altına almaqla kifayətləndilər. Bununla da İsteminin qərb yürüşü başa çatdı. Dörd il ərzində əldə olunanlar xaqanlığın qarşısında yeni siyasi vəzifələr qoydu.

Bütün Asiya düzənliyini tutan vahid dövlətin meydana gəlməsi Çin, Bizans və İran diplomatiyası üçün mühüm əhəmiyyətə malik amil idi.

VI əsrin 50-ci illərinin sonunda Qara dəniz sahillərindəki siyasi vəziyyət çox gərgin və mürəkkəb idi. Bu da Bizansın uzaqgörən və incə siyasəti sayəsində mümkün olmuşdu. Dnepr və Donun aşağı hissələrini kuturqur adlı bolqar xalqı tuturdu. Onlarla qohum olan uturqurlar isə Kubanda yaşayırdılar. Kuturqurların Frakiyaya basqınlarından zərər çəkən Bizans hədiyyələr və səfirliklər vasitəsi ilə uturqurları onlara qohum olan kuturqurların üzərinə qaldırırdılar. Yustininanın hiyləgər siyasəti bu iki qohum tayfanı az qala biri-birini son nəfərə qədər qırmağa gətirib çıxardı.

Uturqurlardan şərqdə, Kuma rayonunda və Dağıstanda çox döyüşkən sabir tayfası yaşayırdı. Sabirlər Bizans-İran müharibəsində əvvəlcə İranın tərəfində, sonra isə ona qarşı fəal iştirak edirdilər. 552-ci ildə onlar Aqvaniyanı tutdular, lakin 554-cü ildə artıq farslara məğlub oldular.

---

[25] Bu fakt yalnız «Qan-mu»da qeyd olunmuşdur.

[*] Burada məskunlaşan çu qrupuna məxsus tayfalar —dulu və nuşibilər türkyutlarla eyni adət-ənənələrə malik idilər. Onlar dil baxımından da az fərqlənirdilər.

[*] Turkyut xanının itaətində olan tayfalar sırasında xoliatların da adı çəkilir. Onları rus salnamələrində adları çəkilən xvalislər və buradan da çıxış edərək xarəzmlilərlə eyniləşdirirlər.

[26] Xionitlər — sarmat-alan tayfalarının nəsilləri. S. P. Tolstovun Sır-Dəryanın aşağı axarında kəşf etdiyi «bataqlıq şəhərlərinin» sakinləri.

[27] Var, yaxud uar — xionitlərin qonşuları, uqor qrupuna daxil olan tayfa.

[28] Oqorlar, yaxud uqrlar — macarların əcdadları. VI əsrdə onlar Başqırdıstan ərazisində, Volqa və Ural çayları arasındakı düzənliklərdə yaşayırdılar. Rubrukun yazdığına görə XIII əsrdə Başqırdıstanın əhalisi macarlar üçün də anlaşıqlı olan dillərini qoruyub saxlayırdılar.

[*] Feofilat Simokatta xüsusi olaraq oxucunu xəbərdar edir ki, bu «psevdoavarları» heç vəchlə «əsil avarlarla», yəni Orta Asiyada yaşayan abarlarla qarışdırmaq olmaz. Bu problem uzunmüddətli polemikaya səbəb olmuşdur.

Kuban sahillərində Bizansın sadiq müttəfiqi olan alanlar yaşayırdılar. Yunanlar yeni barbar xalqın — avarların meydana çıxdığını ilk dəfə onlardan eşitdilər.

**Avarlar Qara dəniz sahillərində.** Türkyut basqınlarından qaçan avarların vəziyyəti ilk baxışdan ümidsiz görünürdü. Arxadan onları güclü düşmən təqib edirdi, qabaqlarını isə müharibələrə öyrəşmiş, qələbənin sirlərini bilən güclü, varlı və çoxsaylı xalqlar kəsmişdilər. Avarlar öz sürülərini və doğma ölkələrini itirmiş qaçqın dilənçilər idilər. Onların necə və nəyə görə həm xilas olmağının, həm də qalib gəlməyinin səbəbini dövrün siyasi şəraitini diqqətlə nəzərdən keçirməklə müəyyənləşdirmək olar.

Avarların ilk vəzifəsi düşməndən uzaqlaşmaq idi. Həmin dövrdə Orta Asiyada eftalitlərin fəallaşması və İsteminin diqqətini yayındırmaları (İstemi deyirdi: «Avarlar quş deyillər ki, havaya uçub türk qılıncından canlarını qurtarsınlar, avarlar balıq deyillər ki, suya baş vurub dənizin dərinliklərində gizlənsinlər. Onlar da başqaları kimi yerin üstündə yaşayırlar. Eftalitlərlə qurtaran kimi avarların üzərinə gedəcəyəm, onlar əlimdən qaçıb qurtara bilməzlər») avarlar üçün xilas yoluna çevrildi.

İstemi eftalitlərə qarşı fəal mübarizəyə yalnız 561-ci ildə — Xosroy Ənuşirvan Yustinianla sülh bağlayıb diqqətini şərqə yönəldəndən sonra başladı. Orta Asiyada həlledici sülh yalnız 571-ci ildə bağlandı və yalnız bundan sonra türkyutlar təzədən qərbə üz çevirə bildilər. Lakin yaranmış fasilədən çox bacarıqla istifadə edən avarlar artıq İstemi üçün əlçatmaz idilər.

Türkyutlardan uzaqlaşan avarlar özlərinə müttəfiq axtarmağa başladılar. Onlar alanların başçısı Sarosiydən* Bizansla yaxınlaşmaqda kömək göstərməyi xahiş etdilər. Sarosiy avarlara yardım əli uzatmaq qərarına gəldi və onların elçisinin Lazikə gətirilməsini təmin etdi. Buradan isə həmin elçi Konstantinopola göndərildi, lakin Bizans sarayında onu könülsüz və inamsız qəbul etdilər. Lakin buna baxmayaraq Yustinian Vladimirin başçılığı ilə cavab elçiliyi göndərdi. Vladimir avarlara hədiyyələr gətirdi və onlara imperiyanın düşmənlərinə qarşı (həmin dövrdə əsas düşmən İran sayılırdı) birlikdə mübarizə aparmağı təklif etdi. İttifaq 558-ci ildə bağlandı. Lakin avarlar Bizansın düşmənləri əvəzinə müttəfiqləri üzərinə hücuma keçdilər.

Onların ilk qurbanları sabirlər oldu. Sabirlər yeni «var» xalqını hələ V əsrdə məğlub olduqları həqiqi Asiya avarları (abar) kimi qəbul etdilər. Bu anlaşılmazlıq onların sıralarında başı pozuqluq yaratdı və avarların qələbəsini təmin etdi. Beləcə kiçik linqvistik səhv məlum rol oynadı. Sabirlərin ardınca Bizans imperiyasının sadiq müttəfiqləri olan uturqurlar və Donun aşağı sol sahillərində yaşayan zallar da

* Q. V. Vernadski ehtimal edir ki, bu da yox, tituldur, farsca «Sərnos», yəni «osların başçısı» deməkdir.

avarların əlinin suyunu daddılar. Sonra Donu keçən avarlar antlara basqın etdilər və bu xalqı soyub quru yerdə qoydular.

Avarları Qafqazda bir müddət alanlar müdafiə etmişdilər. Qara dəniz sahillərində isə həmin vəzifə kuturqurların üzərinə düşdü. Mənbələr avarlarla kuturqur arasında ittifaq haqqında birbaşa məlumat verməsələr də, hadisələrin gedişi və dolayısı mənbələr onların müttəfiqliyini ehtimal etməyə əsas verir.

551-ci ildən 558-ci ilə qədər kuturqurlar Bizans imperiyasının sərhədlərinə yaxınlaşmağa cürət etmirlər. Səbəb məlumdur: incə Bizans diplomatiyası sayəsində kurutqurların şərq sərhədləri kuturqurların təhlükəsinə məruz qalmışdı, qərb sərhədlərini isə Qara dənizyanı çöllərdən şimala doğru meşəli-düzən zolaqda yaşayan çoxsaylı ant tayfaları hədələyirdilər. Menandr yazır ki, «avarlar uturqurlarla müharibəyə başladılar», bunun ardınca isə öz yürüşləri ilə antların yurduna süpürgə çəkdilər. «Ant hakimləri müflis vəziyyətə salındı və ümidlərini itirdilər». Təəssüf ki, Menandr antların məhz hansı ümidləri itirdiklərini göstərmir, digər tərəfdən onun hekayətində o qədər məsələlərin üzərindən sükutla keçilir ki, bu antik tarixçinin avar-Bizans danışıqlarının nəticələri haqqındakı məlumatına tənqidi yanaşmaq zərurəti meydana çıxır.

Valentinin elçiliyindən sonra avarlar məhz Bizansın müttəfiqlərini — sabirləri, uturqurları və antları əzdilər. Bütün bunlar Bizansın mənafeləri ilə bir araya sığmadığından təbiidir ki, nəticədə İran tərəfi udurdu.

Əslində belə bir fikir qətiyyən yolverilməzdir ki, avarlar yalnız Konstantinopola üz tutmuşdular və hətta danışıqların müvəffəqiyyət qazanacağı təqdirdə Ktezifonu qətiyyən nəzərə almırdılar. Əgər avarlarla farsların öz aralarında ittifaq bağlamaları ehtimalını qəbul etsək, onda avarların nəyə görə Qafqazdan uzaqlaşmaq məcburiyyəti qarşısında qaldıqları məlum olar. Bizansın sadiq müttəfiqi olan Alan knyazı Sarosiy bu şəraitdə avarlara kömək göstərə bilməzdi. Yardımdan məhrum olan avarlar isə qazandıqları qələbələrə baxmayaraq Ön Qafqazda möhkəmlənə bilmədilər. Üstəlik də onların arxasında türkyutların qüdrətli hərbi qüvvəsi dayanırdı.

Lakin yunanların düşməni kimi tanınan kuturqur başçısı Zaberqan şübhəsiz, avarların simasında Bizans və onun dostları — antlar və uturqurlarla mübarizə üçün zəruri olan yeni müttəfiq tapmasına şad idi. Doğrudan da avarlar uturqurları məğlubiyyətə uğradıb arxadan kuturqurların təhlükəsizliyini təmin etdikdən sonra Zaberqan Balkanlara yeni yürüşə çıxdı və Konstantinopol divarlarına qədər çatdı. Eyni dövrdə avar səfirliyindən dərhal sonra türkyut elçiliyi də Konstantinopola gəldi (iyul, 558-ci il) və burada yaxşı qarşılandı. Çox ehtimal ki, bu elçilik də Bizans-avar münasibətlərinin soyumasında müəyyən rol oynadı.

Beləliklə, 558-ci ildə İran diplomatiyası Bizansa qarşı güclü düşmən yaratmaq və təhlükəli qonşuları öz sərhədlərindən Balkanlara yönəltmək baxımından mühüm qələbə qazandı. Sonradan görəcəyimiz kimi fars-avar ittifaqı 628-ci ilə qədər davam etdi və az qalmışdı ki, Bizans imperiyasının axırına çıxsın.

Antlar avarlarla razılığa gəlməyə cəhd edirdilər. Bu məqsədlə də səfir Mizamiri onların yanına göndərmişdilər. Onun əsas vəzifəsi əsirlərin satın alınması idi. Lakin avarların yanına gələn Mizamir özünü elə lovğa və kobud apardı ki, elçi toxunulmazlığına baxmayaraq öldürüldü. Səfirə divan tutduqdan sonra da avarlar antları soymağı və kölə vəziyyətinə salmağı davam etdirirdilər.

Belə bacarıqlı müttəfiqin köməyinə arxalanan kuturqur knyazı Zaberqan artıq Şərqdən heç bir təhlükə gözlənilmədiyi qərarına gəldi və sklavinlərlə ittifaq bağlayıb Bizansa hücum etdi. 559-cu ilin martında o, buzun üstü ilə Dunay çayından keçib qoşununu üç dəstəyə böldü — birinci dəstə Makedoniyadan Elladaya girdi və Fermopilama daxil oldu, ikinci dəstə Frakiya Xersonunu qoruyan müdafiə qurğularını hədələyirdi, Zaberqanın özünün başçılıq etdiyi üçüncü dəstə isə zəlzələdən dağılan və cinayətkar laqeydlik ucundan bərpa edilməyən Uzun divarın yarıqlarından şəhərə girdi.

Konstantinopolda qarmaqarışıqlıq başlandı: qoca sərkərdə Velizari unutqanlıq dumanından tapılıb üzə çıxarıldı və düşmənləri paytaxtdan qovdu. Lakin buna baxmayaraq Zaberqan Frakiyada düşərgə salmışdı və istədiyi böyük məbləği almayınca soyğunçuluq və qarətçilikdən əl çəkmirdi. Uturqurlara da «hədiyyələr» vəd edildi. Yalnız bundan sonra kuturqurlar Frakiyanı tərk etdilər.

Yustinian dərhal uturqurların başçısı Sandilxlə dil tapdı. Onlar dərhal Zaberqanın Frakiyadan geri dönən dəstələrinin birinə hücum edib hamını qırdılar, əldə edilən qəniməti Sandilx yunanlara qaytardı. Bunun ardınca başlanan müharibə hər iki xalqı elə taqətdən saldı ki, həmin savaşdan yalnız avarlar qazandı.

565-ci ildə imperiyanı kifayət qədər qüdrətli sayan Yustinian avarlara hədiyyələr verilməsini dayandırdı. Lakin avarların gücü artmışdı. 565-ci ildə onlar artıq Tyurinqiyanı yerlə yeksan etmişdilər və firəng kralı Sigerberqlə uğurla döyüşürdülər. 567-ci ildə avarlar lanqobardlarla ittifaqda Bizansa yardım göstərən lepidləri darmadağın edib Tissa vadisini ələ keçirdilər.

Bir il sonra lanqobordlar İtaliyaya çəkildikdə avarlar bütün Pannoniyanın sahibi və Mərkəzi Avropanın qənimi oldular. Onların əsas qüvvəsini tamamilə avar xanına tabe olan uturqurlardan, antlardan, qərbi slavyan və kuturqurlardan ibarət köməkçi qoşun dəstələri təşkil edirdilər. İlk avar xanı Bayan 558-ci ildə Bizansı təhdid edərək ikiüzlülüklə deyirdi: «Roma torpağına elə adamlar göndərəcəyəm ki, hamısı qırılsa da, bu itki vecimə gəlməyəcək». Və bunun ardınca yürüşə 10 min nəfər kuturqur göndərdi.

Hadisələrin təsviri VI əsrin 60-cı illərində beynəlxalq siyasətin əsas hərəkətverici qüvvəsini üzə çıxarmağa imkan verir. İran və Bizans barışmaz düşmənlər idilər. Bizansın əleyhdarları kimi avarlara İranla müttəfiqlik lazım idi. Avarların düşməni olan türkyutlar isə bizanslılarla ən yaxın dostluq əlaqələri saxlaya bilərdilər.

Lakin eftalitlərin İran və türkyutlarla düşmənçilik edən dövlətinin mövcudluğu bu qüvvələr düzümünü mürəkkəbləşdirirdi. Ona görə İstemi xan üçün

Xosroy Ənuşirvanla ittifaq Yustinianla danışıqlardan daha cəlbedici idi. Təxminən 560-cı ildə farslar və türkyutlar hücum ittifaqı bağladılar — birincilər «şah Perozun ölümünün intiqamını almaq», ikincilər isə Soqdiananın çiçəklənən şəhərlərini ələ keçirmək üçün müttəfiq olmaq qərarına gəlmişdilər.

Eftalitlər iki, hətta üç cəbhədə vuruşmalı oldular, çünki eftalit hökmdarı Mixirakula Kəşmiri və Pəncabı əldə saxlayaraq hindlilərlə inadlı döyüşlər aparırdı.

**Eftalitlərin darmadağın edilməsi.** Sasani İranının şərq siyasəti kifayət qədər öyrənilməyib. Lakin mənbələrdə qorunub saxlanan yarımçıq məlumatlar da həmin siyasətin çox çevik və ağıllı olduğunu aydın göstərir. Məsələn, Şimal-Qərbi Çinin güclənməsi İranda dərhal diqqəti cəlb etmişdi və 555-ci ildə Çanyana fars səfirliyi gəlmişdi. Eyni vaxtda türkyutların da yanına səfirlik göndərilmişdi (aydın məsələdir ki, həmin səfirlik mənzil başına daha əvvəl çatmışdı). İran şahı ilə İsteminin qızı arasındakı nigah türkyutlarla farslar arasındakı ittifaqı daha da möhkəmləndirdi.*

Öz müttəfiqlərini — jujanları itirən eftalitlər qorxuya düşdülər və 553-cü ildə onlar da Çinlə əlaqə yaratmağa təşəbbüs göstərdilər. Lakin Qərbi Vey imperiyasının hökmdarı Yuyvın Tay türkyutlarla müttəfiq idi və çox güman, elə buna görə də eftalitlərin arzusu burada rəğbətlə qarşılanmadı. Eftalitlərin öz aralarında da birlik yox idi. Katulf adlı əyan hökmdar Qatfarı müharibədən çəkindirirdi, lakin hökmdar tərəfindən təhqir olunduqdan sonra o, həmtayfalarına xəyanət etdi və İran şahının yanına qaçdı.

Fəal hərbi əməliyyatlar 560-cı ildə, Qatfarın təşəbbüsü ilə başlandı. Şahənşahla xaqanın əlaqələrindən narahat olan Qatfar bu yaxınlaşmaya mane olmaq üçün əlindən gələni əsirgəmirdi. Soqddan keçib gedən türkyut səfirliyi bir nəfər istisna edilməklə qılıncdan keçirildi. Xilas olan atlı kədərli xəbəri İstemi xana çatdırdı. Müharibə labüd idi. İstemi bütün qoşunlarını səfərbərliyə aldı. Onların arasında həmin dövrə qədər eftalitlərin təbəəsi olan xotanlılar da vardı. Xosroy Ənuşirvan öz rəqibini qabaqladı və 562-ci ildə eftalitləri ilk məğlubiyyətə uğratdı. Lakin müharibə bununla başa çatmadı.

Türk qoşunun öncül dəstələrinin ilk qurbanı Çaç şəhəri oldu. Türkyutlar burada bütün əhalini qılıncdan keçirdi. Sonra onların əsas qüvvələri Çirçik çayını keçərək Maymurqada* öz avanqardları ilə birləşdilər. Eftalitlər Buxara

---

* Firdovsi bu nigahın eftalitlərin darmadağın edilməsindən sonra, yəni 569-cu ildə bağlandığını güman edir. Lakin türk qızından doğulan şahzadə — Hörmüz 579-cu ildə taxta çıxmış, 590-cı il fevralın 6-da isə devrilmişdi. Bu zaman artıq onun yeniyetmə oğlu vardı. Artıq Şavani bu tarixi qəbul etmirdi. Lakin Təbərinin versiyasına görə nigah və ittifaq eftalitlərlə müharibədən çıxış etdikdə Hörmüzün yaşı da heç bir şübhə doğurmur, həlak görə 555-ci ildə başlanmışdı. Çox güman ki, çinlilər bu məlumatı İran elçiliyindən almışdılar. Həmin tarix (555-ci il) İsteminin qərb yürüşünün başlanğıcı ilə eyni vaxta düşür. Bu tarixdən çıxış etdikdə Hörmüzün yaşı da heç bir şübhə doğurmur, həlak olanda onun 36, oğlunun isə 16—18 yaşı vardı. İran elçiliyi Belazuri və İbn Xerdadbehin əsərlərində də xatırladılır, lakin onların şərhi son dərəcə təhrif olunub və həqiqətə uyğun gəlmir.

* M a y m u r q — Səmərqənd əyalətində, Zərəfşandan cənub tərəfdə knyazlıq.

yaxınlığında cəmləşmişdilər, lakin mahir türk süvarilərinin üstünlüyə malik olduğu düzən yerdə döyüşə girmək istəməyən Qatfar dağlara çəkildi və Nesef (Karşı) yaxınlığında döyüşə başladı.

Firdovsinin yazdığına görə türkyutların hücumu zamanı soqdiyalılar çox ağlayırdılar, ancaq eftalitlərin tərəfində vuruşmaq istəmirdilər. Nesef yaxınlığındakı döyüş səkkiz gün davam etdi və eftalitlərin tam məğlubiyyəti ilə başa çatdı (565-ci il). Xilas olanlar müstəqil eftalit dövlətinin sonunun çatdığını görüb Qatfarı taxtdan saldılar və Çaqanian knyazı Faqonişi çar seçdilər. Həm də onların fikrincə, türkyutlara müqavimət göstərə biləcək Xosroy Ənuşirvana tabe olmağı Faqonişə tapşırdılar.

Eyni vaxtda həm xaqanın məktubunu, həm də Faqonişin itaətkarlıq təklifini alan Xosroy onların heç birinə cavab vermədi. Qərb sərhədlərini boş qoymaqdan qorxan əyanlarla hesablaşmadan o, bütün qoşunun başında Xorasana tərəf hərəkət etdi.

Ümumi düşmən əzildikdən sonra müttəfiqlər özləri düşmənə çevrildilər. Xaqanlıqla İran arasında mövcud olan və ümumi düşmənlə haqq-hesabı çürütmək zərurətindən arxa plana keçən münaqişə fikir ayrılığı indi bütün çılpaqlığı ilə aşkara çıxdı. Məlum oldu ki, münaqişə kifayət qədər dərindir, hətta tərəflər barışmaz mövqe tuta bilərlər. Lakin biz növbəti fəsli həmin münaqişəyə həsr edəcəyik. Hələlik isə evtalitlərin üzərinə qayıdaq.

Silah və qəddarlıq gücünə Orta Asiyada hegemonluğu ələ alan eftalitlər fəth etdikləri ölkələrdə populyarlıq qazana bilməmişdilər.

VI əsr Orta Asiya üçün iqtisadi və mədəni yüksəliş dövrü idi. Şəhərlər böyüyür və zənginləşir, əkinçilik, sənətkarlıq və ticarət tərəqqi edirdi. Soqdiyalılar həmin dövrdə təcrübəli və bacarıqlı tacir-dəllallar kimi tanınmışdılar. Onlar qədim karvan yollarından istifadə edərək İranla Aralıq dənizi arasında daimi əlaqə yaratmışdılar. Lakin jujanların yolkəsənliyi və eftalitlərin arasıkəsilməz müharibələri ticarət əlaqələrinə mane olurdular. Çölü və Soqdiananı birləşdirən türkyutlar ticarət üçün geniş imkanlar açmışdılar. Bunun müqabilində Soqdiya tacirləri türkyut xanlarının təbəəliyini qəbul etmişdi. Belə loyal təbəələr onlara sərfəli idi. Bu yolla Orta Asiya xaqanlığın ayrılmaz tərkib hissəsinə çevrilirdi. Yaranmış vəziyyət eftalitlərin qisas cəhdlərinin qarşısını kəsdi və onları dağlara çəkilməyə məcbur etdi. Eftalitlərin qalıqları bizim zəmanəyə qədər həmin yerlərdə yaşamaqdadırlar.

## IV f ə s i l

## İPƏK VƏ KARVAN YOLU

**Karvan ticarəti.** Eftalitləri və Şimali Çin hökmdarlıqlarını darmadağın etdikdən sonra türkyutlar yalnız siyasi deyil, həm də iqtisadi qüdrətə nail oldular. Çünki Qərblə Şərqi birləşdirən böyük karvan yolu onların əlinə keçdi.

Bu yol Çanyandan başlanır və Nanşyanın ətəkləri ilə zirvələrdən gələn sellərin suvardığı çoxsaylı vadilərdən keçirdi. Yolun bu hissəsi asan idi. Lakin bunun ardınca səhradan Xami vadisinə qədər, oradan isə Turfandakı Lyukçun çökəyinə qədər davam edən çətin keçid başlanırdı. Hər iki vadi və yaxınlıqdakı ərazilər müstəqil Qaoçan knyazlığının tərkibinə daxil idi. Burada çinli hərbi köçkünlərin ailələri yaşayırdılar. Onlar özlərinin yeni vətənlərinə tamamilə uyğunlaşmışdılar.

Qaoçanda karvan yolu iki yerə ayrılırdı. Onun bir qolu Tyan-Şanın cənub yamacı boyunca Qaraşardan, Kuçu və Aksudan keçir, sonra isə Çu və Talas vadiləri ilə gedib İsfara çatırdı. O biri — şimal qol da Qaoçanda başlayır və Urumçudan, Manasdan, Kurkara-usudan və İren-Şabiqan dağlarından keçərək Cənubi Cunqariya ilə İli çayının vadisinə və oradan da cənuba, Orta Asiyaya gedirdi. Bundan əlavə Tyan-Şanda aşırımlardan keçərək, Qaraşardan Yulduz vadisi vasitəsi ilə İli vadisinə çıxan başqa bir karvan yolu da vardı, lakin çətinliyinə görə ondan nadir hallarda istifadə edirdilər.[29]

Orta Asiyada karvanlar dincəlirdilər. Ən böyük düşərgələrdən biri Paykənd şəhəri idi. Buradan yol Xorasandan keçib Rey və Həmədana, habelə Bizans qalası Neseviyyədən (Nizib) keçib Suriya və Konstantinopola gedirdi. Çin dənizinin sahillərindən İran sərhədlərinə qədər məsafəni qət etmək 150 gün çəkirdi, buradan Roma sərhəddindəki İizibə qədər yolu keçmək üçün isə 80 gün vaxt lazım idi.

Ticarət olduqca gur və gəlirli idi, lakin o, natural təsərrüfat şəraitində yaşayan xalq kütlələrinə deyil, zinət şeylərinə daha çox ehtiyac duyan yuxarı təbəqəyə xidmət edirdi. Çinlilər İrandan istisnasız olaraq öz imperatriçələri üçün qiyməti çox baha olan məşhur sürmə alırdılar. Babilistan xalıları da nadir mal sayılırdı. Nəhayət, Çinə əsil və süni Suriya daş-qaşları Qırmızı dənizdən çıxarılmış mərcan, mirvari, Suriya və Misirdən parçalar, Kiçik Asiyadan narkotik maddələr gətirilirdi. Lakin ən mühüm ticarət malı ipək idi. O, Avropaya Avqustun hakimiyyəti illərindən gətirilməyə başlamışdı. Bizansın ipəyə ehtiyacı hədsiz idi, sarayın və əsilzadələrin ehtiyaclarından başqa barbarlarla əlaqələrdə, ən başlıcası isə muzdlu qoşun tutulmasında ipəkdən valyuta kimi istifadə olunurdu.

---

[29] Üçüncü yolla Qırğızıstandan Qaraşara gedən ilk avropalı V. İ. Roborovski (1893-cü il) olmuşdur.

Yustinianın dünya hakimiyyəti iddiası Bizans hökumətini anqlo-saks krallığı da daxil olmaqla bütün Avropa dövlətləri ilə diplomatik əlaqələr saxlamağa məcbur edirdi. Hədiyyə verməyə, lazımi adamları ələ almağa, muzdlu qoşun tutmağa hədsiz miqdarda ipək tələb olunurdu. Ticarət sayəsində Yustinian az qala bütün Aralıq dənizi hövzəsini onun hakimiyyətinə tabe edən dünya siyasəti aparmağa nail olmuşdu. İpək Bizansda qızıl və bahalı daşlarla eyni səviyyədə qiymətləndirilirdi.

Lakin Bizansı bu son dərəcə qiymətli malla təchiz edən yol Şimali İrandan keçirdi, Sasani hökuməti isə karvan ticarəti üzərində nəzarəti qətiyyən əldən buraxmaq istəmirdi. Xam ipəyin böyük bir hissəsini istehsal üçün özlərində saxlayan iranlılar hazırladıqları məmulatları istədikləri vaxt özləri qoyduqları qiymətə Qərbi Avropa ölkələrinə sata bilirdilər.

Bizans imperiyasının tənəzzülünə can atan farslar, təbii ki, onun mal dövriyyəsinin artmasına deyil, ipəyin qiymətinin bahalaşmasına çalışırdılar ki, bu vasitə ilə Bizansdan daha çox pul qoparsınlar, onu siyasi və hərbi baxımdan zəiflətsinlər. Mal dövriyyəsinin artması İran üçün sərfəli deyildi, çünki qiymətlər nə qədər yüksək olsa da Bizans ipəyi Avropa bazarında satmaqla ziyanını ödəyirdi, əldə edilən gəlir isə hərbi potensialı artırmağa imkan verirdi. Ona görə də farslar ipək ticarətinə ciddi məhdudiyyət qoyur, həm də buna yalnız yüksək qiymətlər vasitəsi ilə deyil, Qərbə aparılan ipəyin miqdarının məhdudlaşdırılması yolu ilə nail olurdu.

Təbii ki, Bizans bu şəraitlə barışa bilməzdi, çünki ipəyə dəyərindən artıq pul verməklə o, düşmən İranın güclənməsinə imkan yaradırdı. Müharibələr arası fasilələrdə Konstantinopol sarayı kədər hissi ilə nə qədər qızılının düşmənin cibinə axdığını hesablamalı olurdu. Lakin iqtisadi asılılıqdan qurtarmaq təşəbbüsləri faydasız qalırdı. Təxminən 531-ci ildə Yustinian Afrika tacirlərinin vasitəçi rolunu öz öhdələrinə götürmələri və ipəyin Bizansa Hind okeanından gətirilməsi haqqında Efiopiya kralı ilə razılığa gəlmək istədi. Lakin iranlılar Hindistan limanlarında elə nüfuza malik idilər ki, efiopiyalıların ipək inhisarını onların əllərindən almaq cəhdi səmərəsiz qaldı. 532-ci ildə bağlanan sülh isə ipək ticarətinin əvvəlki qaydalarını bərpa etdi.

İranla 540-cı ildə başlanan yeni müharibə Yustinianı xüsusi fərmanla ipəyin qiymətini aşağı salmağa vadar etdi, lakin fars tacirlərindən ipəyi həmin qiymətə almaq qətiyyən mümkün deyildi. Nəticədə xammal olmadığından Suriyadakı ipəktoxuma manufakturaları iflasa uğradı. 570-ci ildə Yəməni ələ keçirən Xosroy Ənuşirvan bizanslıların Qırmızı dəniz və Hind okeanı vasitəsi ilə şərqə çıxan yollarını qəti olaraq kəsdi. Elə həmin dövrdə də tarixi oyuna yeni oyundaş — türkyut xaqanlığı qoşuldu. Yuxarıda qeyd olunduğu kimi, türkyutlar Çindən xərac şəklində hər il xeyli ipək qoparırdılar. Çadırlarını bahalı ipəklərlə bəzəmələrinə baxmayaraq xanlar aldıqları parçanın hamısından istifadə edə bilmirdilər.

Eftalitlərin məğlubiyyətindən sonra soqdiyalılar türkyutların təbəəliyinə keçdilər. Onlar ən qədim zamanlardan həm Qərbdə, həm də Şərqdə zirək tacirlər kimi tanınırdılar. Eftalit ağalarını türkyutlarla əvəz etməklə soqdiyalılar yalnız qazanırdılar, çünki onların qarşısında Asiyanın daxili vilayətlərinə maneəsiz və təhlükəsiz yol açılırdı. İpək ticarətinin maksimum genişlənməsi həm soqdiyalıların, həm də izafi ipək parçaları üçün bazar axtaran türkyutların xeyrinə idi.

**Soqdiyalı Maniax.** Beləliklə, soqdiyalı tacirlər tam haqlı olaraq eftalitlərin darmadağın edilməsini öz tərəqqilərinin başlanğıcı sayırdılar. Həqiqətən də, Çinə gedən yol açıq və təhlükəsiz idi, türkyutlar özləri soyub-taladıqları, yaxud xərac kimi aldıqları ipəyi nə edəcəklərini bilmirdilər. Belə şəraitdə vasitəçi görünməmiş şəkildə varlana bilərdi. Məsələ yalnız ipəyi Bizansa çatdırmaqda idi, lakin bunun üçün Sasani şahı ilə razılığa gəlmək lazımdı. İstemi xan öz tərəfindən yeni təbəələrinin arzularına zidd getmirdi, üstəlik tacirlərin istəyi yaxın adamlarının mənafeləri ilə üst-üstə düşürdü. Ona görə də xan soqdiyalılarda toplanmış ipəyi İran ərazisindən daşımaq üçün soqdiyalı Maniaxı səlahiyyətli səfir kimi Sasani şahı ilə danışıqlara göndərməyə həvəslə razı oldu. Səfir hətta İran şahına ticarətə qoşulmaq —yəni ipək alıb Qərbdə baha qiymətə satmaq təklifi ilə müraciət etdi. Belə olduqda soqdiyalılar qiymətdə bir qədər uduzsalar da, mal dövriyyəsini artırmaqla xeyli qazana bilərdilər.

Aydın məsələdir ki, İran hökuməti razılıq verə bilməzdi. Çünki o, ipəyin hamısının Bizansa aparılmasına imkan versəydi, bir neçə ildən sonra Dəclə çayının sahillərində bütün İranın qarşısına çıxa bilməyəcəyi güclü muzdlu ordu dayanardı. İran əhalisinin alıcılıq qabiliyyətinin aşağı olması isə ipəyin daxili bazarlarda satılmasına imkan vermirdi. İpək almaqla şah qızıl itirə bilərdi. Bizans imperatoruna ipək lazım olduğu kimi bu qızıl da ona öz Şərq siyasətini həyata keçirmək üçün çox lazım idi.

Xosroy müttəfiqi olan xanın yaratdığı çətin vəziyyətdən çıxış yolu tapdı. Eftalit Katullun təklifi ilə gətirilmiş ipəyin haqqı ödənildi və o, səfirlərin gözü qarşısında yandırıldı. Bununla da soqdiyalılara bildirildi ki, iranlılar mövcud vəziyyətin dəyişməsinə dözməyəcəklər. Soqdiyalılar dərhal xana şikayət etdilər, o da öz növbəsində münaqişəni aradan qaldırmaq qərarına gəldi. Xan İrana türkyutlardan ibarət yeni səfirlik göndərdi. Lakin bu səfirlik də heç nəyə nail ola bilmədi. Bütün bunlar az imiş kimi, türkyut elçilərinin əksəriyyəti naməlum xəstəlikdən öldü, vətənə üç, yaxud dörd nəfər dönə bildi.

Bu müddət Maniax xanı İranla ittifaqı pozub Bizansla əlaqə yaratmağa razı sala bildi. Lakin Xəzər dənizi boyunca Qafqazdan ipək daşımaq həm bahalı, həm də qorxulu idi; türkyut nizəçilərinin qabağında duruş gətirə bilməyən uqrlar ticarət karvanını asanlıqla soyub tacirlərin özlərini də qılıncdan keçirə bilərdilər. İrandan keçən yol isə həm qısa, həm də asan idi. Ona görə də İstemi xan mübahisəni silah

gücünə həll etmək qərarına gəldi. O, elçilərinin zəhərləndiyini iddia etdi və qisas alacağını bildirdi.*

Başladığı müharibənin ciddiliyini dərk edən xan müttəfiqlər tapmağa tələsirdi. O, adı çəkilən Maniax başda olmaqla Konstantinopola nümayəndə heyəti göndərdi. Bu heyətə yalnız imperator Yustinlə ticarət müqaviləsi deyil, həm də İrana qarşı hərbi ittifaq bağlamaq tapşırılmışdı. Maniax Qafqaz vasitəsi ilə Konstantinopola çatdı. O, lap vaxtında gəlmişdi. 568-ci ildə lanqbordlar İtaliyaya soxuldular. İmperator II Yustin öz sələfi Yustinianın hakimiyyəti illərində imperiya xəzinəsinin axırına çıxan Qərb siyasətindən ağıllı şəkildə əl çəkdi. Digər tərəfdən, İran əleyhinə müharibənin təzələnməsi zərurət idi və qüdrətli müttəfiqdən imtina etmək düzgün olmazdı. Ona görə də imperator türkyut nümayəndəliyini hədsiz xeyirxahlıqla qəbul etdi və bağlanmış ittifaqı bir daha təsdiqi üçün 568-ci ilin avqustunda geriyə dönən Maniaxla birlikdə Şərq şəhərlərinin sərkərdəsi Zemarx Kilikiyalını da türkyutların yanına göndərdi. İstemi xan Bizans sərkərdəsini mehribanlıqla qarşıladı, niyyətlərinin səmimiliyinə sübut olaraq ona İran üzərinə göndərilən orduya qoşulmağı təklif etdi.

Xosroy müharibə istəmirdi. Talas çayı vadisində türkyut qoşunu İran elçiliyi ilə üzləşdi. Lakin ziyafət məclisi zamanı xan nümayişkaranə şəkildə Zemarxı İran səfirlərindən daha fəxri yerdə oturtdu və Bizans elçisinin yanında onları məzəmmətlədi. Səfirlər İrana müharibə xəbəri ilə döndülər. Bundan sonra xan Zemarxı buraxdı. O, Maniaxın oğlunun və səlahiyyətli səfir, türkyut Taqma

---

* N. V. Piqulevskaya bu hadisəni başqa şəkildə, həm də mənim fikrimcə, qeyri-inandırıcı şəkildə izah edir. O, belə hesab edir ki, «hələlik yarımköçəri (? — L. Q.) vəziyyətdən çıxmayan türklər geniş ticarət mübadiləsinə meyl göstərmirdilər, yalnız öz təbəələrinin - soqdiyalıların təzyiqi ilə onlar İrana Maniaxın başçılığı ilə səfirlik göndərməyə razı oldular. Əslində isə məhz köçəri türkyutlar Çindən ipək qoparmağı bacarırdılar və həmin parça ilə soqdiyalıları təchiz edirdilər. Çünki çinlilər müharibəsiz lazımi miqdarda ipək vermirdilər. Hətta onlar ipəyi satmağa razı olsaydılar belə, ona soqdiyalılar və iranlılar satıb qazanc götürmək nədir, heç özləri ala bilməzdilər. Türkyutlar Çin ipəyini xərac və hərbi qənimət şəklində aldıqlarından onu soqdiyalılara dəyər-dəyməzinə satırdılar, buna görə də onların ticarəti gəlirli olurdu. Daha sonra, itaət altına alınmış adamların fatehlərə təzyiq göstərməsinə inanmaq çətindir; nəhayət, Maniax xanın yaxın adamı idi, diplomatik nümayəndə səlahiyyətini ona xan vermişdi. Maniax özbaşına İran şahı ilə danışıqlar aparmağa yollanmamışdı. Menandrın işlətdiyi «İstemi xan soqdiyalılara səfirlik göndərməyə icazə verdi» ifadəsini yalnız belə başa düşmək lazımdır ki, soqdiyalılar diplomatik danışıqlarda təcrübəsi olmayan türkyut bəylərinin işin öhdəsindən gələ bilməyəcəklərini nəzərə alaraq məsuliyyəti öz üzərlərinə götürdülər. N. B. Piqulevskaya belə hesab edir ki, «soqdiyalılar İran dövlətində onlara maneəsiz ipək ticarəti aparmağa icazə verilməsini» xahiş edirdilər. Lakin Menandr birbaşa göstərir ki, onların xahişi ipəyin hətta İranın vasitəçiliyi ilə olsa da qərbə—Bizansa buraxılması haqqında idi. Daha sonra N. V. Piqulevskaya bildirir ki, şahın ipək buraxmaqdan imtina etməsi onun rəqabətdən qorxması ilə bağlı idi. Lakin məsələ burasındadır ki, VI əsrdə sərbəst ipək ticarəti yox idi, deməli, rəqabət də ola bilməzdi. Onun gəldiyi nəticə ilə də razılaşmaq olmaz: «İran üçün türklər arzuolunan müttəfiqlər deyildilər». Ölkənin bir başında gərgin mübarizə aparan ölkə onun o biri başında dinclik olmasını neçə arzulamaya bilərdi? Lakin hadisələrin məntiqi türkyutları və farsları onların hər ikisi üçün arzu olunmayan müharibəyə sövq edirdi.

Tarxanın müşayiəti ilə Bizansa qayıtdı. Bu vaxt Maniax artıq ölmüşdü, lakin Bizansla türkyut xanlığının ittifaqı öz banisindən daha çox yaşadı və irsən Xəzər xaqanlığına keçdi. Eyni sözləri İranla düşmənçilik haqqında da demək olar. Hətta İran şahlarını ərəb xəlifələri əvəz etdikdən sonra da bu düşmənçilik aradan qalxmamışdı.

**Eftalit vərəsəsinin bölünməsi.** Başlanan müharibənin rəsmi bəhanəsi İstemi xanın farslardan əvvəllər eftalitlərə ödədikləri xəracı indi ona vermək tələbi idi. Rədd cavabı labüd idi. Xan nə etdiyini çox gözəl bilirdi. Türkyut süvariləri dərhal Amu-Dərya çayını keçib Cürcanda «sirlərin* əvvəllər farsların əlində olmuş ticarət şəhərlərini və limanlarını» tutdular. Lakin farsların hələ V əsrdə eftalitlər əleyhinə ucaldılmış sərhəd qalaları türkyutlar üçün alınmaz idi. Hücum dayandı, 569-cu ildə türkyutlar Soqdianaya qayıtdılar. Bununla da hərbi əməliyyatlar başa çatdı, çünki İstemi xan qətiyyən şahənşahın yaxşı təlim görmüş nizami ordusu ilə üzləşmək istəmirdi. Bizansın tezliklə Mesopotamiyada müharibəyə başlayacağını və İran qoşunlarının diqqətinin ora cəlb olunacağını bilən İstemi xan hələlik eftalit vərəsəsinin bölünməsi məsələsini həll etməyi qərara aldı. 571-ci il müqaviləsinə görə Xosroy Ənuşirvan Sindi, Bostu, Ər-Roxacı (Araxoziya), Zabulistanı, Toharistanı, Dardistanı və Kabulistanı aldı. Bundan əlavə eftalit knyazı Faqonişin irsi ölkəsi olan Çaqaniyan da iranlıların ixtiyarına keçdi. Türkyutlar Soqdiana ilə kifayətlənməli oldular.

Sülh bağlanması Xosroy Ənuşirvan üçün böyük uğur idi. Əvvəla, o, öz şahlığının sərhədlərini şərqə tərəf sələflərinin heç birinin nail olmadığı həddə qədər uzatdı; ikincisi ermənilərin üsyan qaldırdığı, gürcülərin bizanslılara satıldığı qərbdə, efiopların fəallaşdığı Ərəbistanda, nəhayət 572-ci ildə hücum edib Nizibi mühasirəyə almış bizanslılara qarşı vuruşmaq üçün hərbi qüvvələrini sərbəstləşdirdi. Yaxşı təlim görmüş qoşunlarını qərbə atan Xosroy tezliklə burada hərbi əməliyyatların gedişində dönüşə nail oldu və 573-cü ildə Darunu aldı. Əslində öz qələbələri ilə o, türkyut xanının məcburi fəaliyyətsizliyinə borclu idi. Türkyutların barışmaz düşməni olan avarlar Savadan Dona qədər bütün çölü tutmuşdular və bunun da nəticəsində İstemi xan hücumu cənubdan qərbə keçirməli olmuşdu. 567—571-ci illər ərzində türkyutlar bütün Şimali Qafqazı ələ keçirdilər və Bospor yaxınlığında onların artıq Bizansla bitişik ərazisi vardı. Çox ehtimal ki, türkyutlar bu ərazidən dostları və məsləhətçiləri olan Soqdiya tacirləri üçün yeni karvan yolu salmaq istəyirdilər.

Farsların və avarların məngənə arasında sıxdıqları Bizans xanla ittifaqdan dördəlli yapışmışdı. Bir neçə ilin içərisində dalbadal türkyutların yanına Evtixizanın, İoridonun, Kilikiyalı Pavlın və Ananqastın elçilikləri göndərildi. Elə görünürdü ki, ittifaq möhkəmlənəcək və Şərqlə Qərb arasında körpü yaranacaq. Lakin hadisələr tamamilə başqa məcrada hərəkət etməyə başladı.

---

* «Sirlər» dedikdə Çinlə ipək ticarətində iştirak edən tacir-dəllallar nəzərdə tutulur.

**Bizansla müharibə.** 553-cü ildə Bizans özünün ipəkçilik sənayesini işə saldı. Kesariyalı Prokopinin yazdığına görə, ipək qurdunun sürfəsini Konstantinopola iki xristian rahib gətirmişdi. Bizanslı Feofan isə sürfələri içi oyulmuş əl ağacında bir nəfər farsın gətirdiyini yazır. N. V. Piqulevskaya sürfələrin Soqdiya şəhərlərinin birindən gətirilməsini ehtimal edir, Feofanın hekayətinə istinad edən Massonun fikrincə isə, sürfələr Cürcandan gətirilmişdi. İpəkçilik Konstantinopolda, Beyrut, Tir və Antioxiyada geniş yayılmağa başladı. VI əsrin sonlarına yaxın artıq ipək idxalı Bizans üçün əvvəlki əhəmiyyətə malik deyildi. Türkyutların ipək inhisarını ələ almaq təşəbbüsü boşa çıxdı. Rəqabət onları ipək məmulatının qiymətləri aşağı salmağa məcbur etməyə bilməzdi, bu isə ticarətdən əldə olunan gəlirin xeyli azalmasına gətirib çıxardı.

İpək ticarətindəki rəqabətdən əlavə avar məsələsi də Bizans-türkyut münasibətlərinin soyumasına təkan verirdi. 568-ci il müqaviləsinə görə Bizans avarlarla sülh və ittifaq bağlamaq təəhhüdü götürmüşdü. Odur ki, avar elçiliyi sülh xahişi və Pannoniyanı tutmaq icazəsi üçün Yustinin yanına gəldikdə ona rədd cavabı verildi. Lakin buna baxmayaraq avarlar Pannoniyada möhkəmlənərək bizanslılar üzərində qələbə çaldılar. Bu isə onları 570-ci ildə sülh bağlamağa məcbur etdi.

Yeni siyasi qruplaşmaların meydana çıxması üçün bu iki amil kifayət idi. Volqa üzərindəki türkyutlar yenicə itaət altına alınmış tayfalar arasında yaşayırdılar. Yalnız ağır türkyut süvarilərinin misilsizliyi sayəsində bu tayfalar tabeçilik boyunduruğuna girmişdilər. Avarların qəfil güclənməsi türkyut xaqanlığının bütün düşmənləri, ilk növbədə isə kuturqurlar üçün cazibə mərkəzi yaradırdı. Bu ilk növbədə türkyutların özləri üçün təhlükəli idi. Lakin hələlik avarlar qepidlər və yunanlarla nəticəsi bəlli olmayan müharibə apardıqlarından türkyutlar zəif düşməni saya salmaya bilərdilər. Ancaq avarlar qüdrətli dövlət yaratdıqdan və Bizansla sülh müqaviləsi bağlayaraq təhlükəsizliklərini təmin etdikdən sonra türkyutlar qorxuya düşməyə bilməzdilər. Doğrudan da Valentinin 576-cı ildə gələn elçiliyi əvvəlkilərdən tamamilə fərqli şəkildə qarşılandı.

Elçini səkkiz bölgə knyazından (həmin dövrdə türkyut dövləti böyük xana tabe olan səkkiz bölgə knyazlığından ibarət idi) biri olan Türksanf qəbul etdi. Valentinin təntənəli salamının cavabında o dedi: «Siz on dildən və bir yalandan istifadə edən həmin o romalılar deyilsinizmi?» Bundan sonra o, barmağının sonu ilə ağzını tutub sözünə davam etdi: «İndi mənim ağzımda on barmaq olduğu kimi siz romalıların da çoxlu dili var. Bu dillərin biri ilə siz məni, o biri ilə sadiq təbəələrim olan varxonitləri aldadırsınız. Sizin hökmdarınız mənimlə dostluq haqqında danışıqlar apara-apara mənim qullarımla, öz ağalarının yanından qaçmış varxonitlərlə (o, avarları nəzərdə tuturdu — L. Q.) müqavilə bağladığına görə vaxtı çatanda cəzasını alacaq. Lakin varxonitlər türklərin (türkyutların — L. Q.) təbəələri kimi istədiyim vaxt mənim yanıma qayıdacaqlar. Niyə siz, romalılar, mənim Bizansa gedən elçilərimi Qafqazdan aparırsınız, həm də məni inandırırsınız ki,

başqa yol yoxdur? Siz bunu ona görə edirsiniz ki, mən yolların çətinliyini görüb Roma vilayətləri üzərinə hücum niyyətimdən əl çəkim? Lakin Danapr çayının harada olduğu, İstrin hara töküldüyü, Evrin haradan axdığı və kölələrim olan varxonitlərin Roma imperiyasına hansı yollarla gedib çıxdıqları mənə dəqiq məlumdur. Sizin qüvvələrinizdən də bixəbər deyiləm. Günəşin ilk şəfəqlərindən tutmuş Qərbin hüdudlarına qədər bütün yer mənə tabedir. Ey bədbəxtlər, siz bir alan xalqlarına və utiqur tayfalarına baxın. Onlar hədsiz harınlıqlarından ruhlandılar, qüvvələrinə arxalandılar və məğlubedilməz türk xalqına qarşı çıxmağa cəsarət etdilər. Lakin onlar ümidlərində aldandılar. Əvəzində isə bizim təbəəliyimizin altına düşdülər, bizim kölələrimiz oldular».

Bu mətn türkyut xarici siyasətindəki dönüşü aydınlaşdırır, lakin Menandrın şərhində Türksanfın dəlil-sübutu tam yarımçıqdır. Geniş məlumata malik Türksanf Bizansın avarlarla bağladığı sülhün yunanların Dunay çayı üzərindəki ağır məğlubiyyətinin nəticəsi olduğundan xəbərsiz qala bilməzdi. Sözün qısası, o, özünü günahkar kimi aparır. Bunun səbəblərini ərəb tarixçiləri Təbəri və Səəlibi aydınlaşdırırlar. Bu tarixçilər Xosroy Ənuşirvanın müharibələrini təsvir edərkən göstərirlər ki, bizanslılara qarşı yürüşdən qayıdan Xosroy xəzərlərə (qərbi türkyutlara — L.Q.) hücuma keçdi və onlarla haqq-hesabını çürütdü. Səələbinin əsərində həmin məlumatın dəqiq tarixi göstərilmir, lakin o, Antioxiyanın fəthindən sonra verilir. Təbəri isə həmin hadisələri xronoloji ardıcıllıqdan kənar təsvir etmişdir. Həqiqətən də 575-ci ilə qədər türkyutlar Bizans elçilərini böyük səmimiyyətlə qarşılayırdılar, lakin 575-ci ildə İranla Bizans arasında barışıq bağlandı və Xosroy sərbəstləşmiş qoşunla düşmənlərinin müttəfiqi ilə haqq-hesabı çürüdə bilərdi. Türkyutlar isə 570-ci ildən 576-cı ilə qədər Şimali Qafqazın fəthi ilə məşğul idilər. Onların köməyi sayəsində bizanslıların əlaltısı Quaram Baqratid Kartlinin taxtı-tacının sahibi oldu (575-ci il Bizansa bel bağlayan türkyutlar arxadan zərbə gözləmirdilər.

Belə bir şəraitdə Türksanfın əsəbiləşməsinin səbəbləri aydınlaşır. Nifaqın nəticələri özünü dərhal göstərdi. 576-cı ildə türkyutlar uturqurların köməyi ilə Bosforu ələ keçirdilər və bununla da «türklərin (türkyutların) romalılara qarşı mübarizə apardıqları aydın oldu». Lakin türkyutlar bununla hücumlarını dayandırmadılar. Onlar Krıma da soxuldular, lakin çox güman ki, oradan sıxışdırılıb çıxarıldılar. Daha sonra türkyutlar Bizansı Qərbi Qafqaz vasitəsi ilə ələ keçirməyə cəhd göstərdilər, ancaq şimal sərhədləri Qafqaz zirvələrindən keçən Eqrisi hökmdarlığının müqaviməti ilə üzləşdilər. Zaqafqaziyaya nüfuz edə bilməyən türkyutlar 80-ci illərin əvvəllərində geri çəkilməli oldular. Bu zaman çoxlu hərbi əsirə divan tutuldu. Türkyutlar yalnız Şimali Qafqazın düzənliklərində, Dağıstanın Dərbəndə qədərki dağətəyi rayonlarında möhkəmlənə bildilər. Türkyut təhlükəsi Bizans üzərindən sovuşdu.

**Çin və karvan yolu.** İndi isə ipəyin vətəni Çinin türkyutlar, soqdiyalılar, farslar və yunanlar üçün belə gəlirli olan ipək ticarətindən nə qazandığına baxaq.

Zəhmətsevər Çin kəndliləri bu qiymətli malı hazırlayır, lakin özləri ondan, demək olar ki, istifadə etmirdilər, çünki vergilər çox böyük idi və qeyd-şərtsiz toplanırdı. İpək satışından əldə edilən zinət şeyləri adətən sarayın tələbatını ödəyir və daxili bazarda heç bir rol oynamırdı. Bundan əlavə həmin zinət şeyləri Çindən ixrac edilən ipəklə müqayisədə çox ucuz idi və bütövlükdə ticarət ölkəyə yalnız ziyan gətirirdi. Lakin Bey-Çjou hökuməti vəziyyəti dəyişə bilməzdi, daha doğrusu, buna cəsarət etməzdi, çünki onun siyasi uğurları yalnız türkyut xanlarının davranışından asılı idi: «Bey-Tsi və Toqon yalnız türkyut xanlarının yardımı sayəsində darmadağın edilmişdi, bundan əlavə qarşıda Cənubi Çinin fəthi vəzifəsi dayanırdı. Etibarlı arxa olmadan həmin işin öhdəsindən gəlmək mümkün deyildi. Bununla yanaşı yadda saxlamaq zəruridir ki, Bey-Çjou sülaləsi Çin yox, syanbi mənşəli idi və Şimali Çində iri tornaq sahiblərinə çevrilən çinliləşmiş syanbilərə arxalanırdı. Toba «hörüklülərinin» dillərini və adət-ənənələrini unutmalarına ehtiyac yox idi, çünki əsil çinlilər üçün onlar işğalçıların xələfləri və nifrətəlayiq barbarlar idilər. Bey-Çjou hökumətinin xarici siyasət xətti isə çinlilər üçün eyni dərəcədə xoşagəlməz idi. Türkyutlarla olduqca baha qiymətə başa gələn dostluq bu sülalənin öz çöl ənənələri ilə əlaqələrini kəsmədiyini göstərirdi. Bundan əlavə, daosizm və buddizmin təqib edilməsi bu nüfuzlu cərəyanların müxalifət sıralarına keçməsinə təkan vermişdi. Nəhayət, əhalisi çox Bey-Tsi hökmdarlığının Bey-Çjou dövlətinin tərkibinə qatılması imperiyada Çin ünsürünün güclənməsinə gətirib çıxarmışdı. Lakin yetişməkdə olan hadisələrdə həlledici rolu Quanlun qruplaşması deyilən dəstə oynadı.

Bey sülaləsinin süquta uğradığı amansız dövrdə çoxlu varlı çinli Şandundan Şensiyə, Yuyvın Tayın yanına köçüb Quaiçjun və Lunsi əyalətlərində məskunlaşdılar. Burada onlar yerli Çin mülkədarları və məmurları ilə birləşdilər, qonşuluq, etnik birlik və qohumluq əlaqələri sayəsində adi yaşayış yerinə görə müəyyənləşən (Quan-çjun və Lun-sinin birləşməsindən Quanlun alındı) dəstə düzəltdilər. Sonuncu Bey-Çjou hokmdarlarının zamanında «quanlunluların» başçısı ana tərəfdən azyaşlı imperatorun babası olan sərkərdə Yan Tszyan idi.

Yan Tszyan «qəzəbli və heç kəsə inanmayan adam idi, kitabları sevmirdi, hiyləgərlikdə ad çıxarmışdı, adamları qorxmağa məcbur edə bilirdi, buna görə də əmrləri tez və dəqiq yerinə yetirilirdi. O, yorulmaq bilmədən səhər açılandan gecəyə qədər dövlət işləri ilə məşğul olurdu». Yan Tszyanın siyasi rəğbəti və nifrəti əsaslandığı kütlə ilə müəyyənləşirdi. Ölkə daxilində o, sosial ziddiyyətlərin ütülənməsinə yönəldilən tədbirlər həyata keçirirdi, qonşulara gəldikdə isə onlarla münasibətlərin daha da kəskinləşdirilməsinə üstünlük verirdi.

563-cü ildə Yan Tszyan türkyutlarla münaqişəyə girərək öz siyasətinin istiqamətini dəyişməyə çalışdı. O, öz niyyətini belə əsaslandırırdı: «Türkyut döyüşçüləri nə mükafat, nə də cəzaya əhəmiyyət verirlər, öz rəislərinə lazımınca hörmət göstərmirlər, əksəriyyəti qayda-qanunu gözləmir. Onları idarə etmək çox çətindir. Buradan da aydın görünür ki, türkyutların qüdrəti haqqında danışılanların

çoxu əsassızdır. Bu yolla yalnız türkyut elçilərinin hökumət tərəfindən səxavətlə mükafatlandırılmasına nail olmaq istəyirlər. Bunu da o ümidlə edirlər ki, türkyutların yanına yolları düşsə, öz muzdlarını alsınlar. Saray yalan məlumatlar alır, hərbi rəislər isə ilk şaiyələri eşidən kimi qorxuya düşürlər. Düşmənlərimiz yalnız zahirən cəsarətli görünürlər, əslində isə onların öhdəsindən gəlmək o qədər də çətin deyil. İndi isə mənim fikrimcə, həm köhnə, həm də təzə elçilərin hamısının boynunu vurmaq lazımdır».

Lakin bu sözlər real həqiqəti deyil, «Quanlun qruplaşmasının» proqramını əks etdirir. Türkyutların ağır süvariləri nəinki Çin piyadalarından daha sürətli manevr etmək qabiliyyətinə malik idi, həm də ilkin köçərilərdən fərqli olaraq birbaşa zərbə endirmək səriştəsi qazanmışdı. 578—579-cu illərin toqquşmaları türkyutların hərbi üstünlüyünü bütün aşkarlığı ilə göstərir. Çöl orientasiyası tərəfdarları ilə polemikaya girən Yan Tszyan onları satqın rüşvətxorlar kimi qələmə verməyə çalışır, bu fikrin həqiqətə uyğunluğu inandırıcı görünmür. Lakin onun ən əhəmiyyətli təklifi türkyutlara hədiyyələr — yəni ipək verməmək barəsində idi. Bu tədbirin həyata keçirilməsi həqiqətən də türkyut xanlarının iqtisadi qüdrətini zəiflədər, eyni zamanda Çinin özündə vergilərin aşağı düşməsinə imkan verərdi.

Beləliklə, «Quanlun qruplaşması» ölkənin iqtisadi və siyasi baxımdan təcrid olunması planını irəli sürürdü. İmperator həmin planı rədd etdi, lakin Yan Tszyan gözləməyi bacarırdı. Vaxt isə onun xeyrinə işləyirdi. Türkyutların tələbləri və çinlilərin gücü Bey-Çjou sülaləsinə loyal münasibət bəsləyən syanbi ünsürünün zəifləməsi ilə proporsional şəkildə artırdı. 581-ci ilin baharında Çin zadəganları hökumət əleyhinə üsyan bayrağı qaldırdılar, xalq kütlələri də onlara qoşuldu. Yan Tszyan bu fürsətdən istifadə edərək sonuncu imperatoru — doqquz yaşlı oğlan uşağını taxt-tacdan onun xeyrinə əl çəkməyə məcbur etdi. Bədbəxt oğlan tezliklə öldürüldü, Yuyvın nəslinin bütün nümayəndələri edam edildi. Üsyan yalnız bundan sonra səngidi. Yeni sülalə Suy adını aldı.

«Çin» partiyasının asanlıqla qələbə qazanmasına baxmayaraq, Yan Tszyan çoxsaylı syanbi aristokratiyasını tam ümidsiz vəziyyətə salmağa cürət etmədi. O, xüsusi fərmanla bildirdi ki, «əvvəlki sülalənin bütün dərəcə və titulları köhnə qaydada olduğu kimi öz qüvvəsində qalır». Çinliləşmiş syanbi aristokratiyası salamat qaldı, bu isə həm Çinin özünün, həm də Asiyanın orta hissələrinin sonrakı tarixini müəyyənləşdirdi. Yan Tszyan vətəndaş müharibəsinə gedə bilməzdi. Əgər həmin fərman verilməsəydi belə bir müharibəyə başlaya bilərdi. Onun qarşısında iki əhəmiyyətli siyasi vəzifə dayanırdı: Şimali Çinin fəthi (yeni imperator bu vəzifənin öhdəsindən 589-cu ildə asanlıqla gəldi) və türkyutların darmadağın edilməsi. İkinci vəzifənin icrası «Quanlun qruplaşmasının» güman etdiyindən qat-qat çətin idi.

## V f ə s i l

## XAQANLIĞIN DAXİLİNDƏ

**Hakimiyyət və xalq.** Çin mənbələrinin məlumatına görə xan elan edilməsi mürəkkəb təntənəli mərasimlə müşayiət olunurdu: xidmətçilər onu keçə üzərində əyləşdirir və doqquz dəfə iştirakçıların alqış sədaları altında günəş istiqamətində dövrə vururdular. Sonra onu ata mindirir, boğazına ipək parça dolayır və düyünü bir anlığa boşaldaraq neçə il xan olmaq istədiyini soruşurlar. Hakimiyyət müddətinin müıyyənləşdirilməsində bu cavabların hər hansı bir rol oynaması haqda türkyut tarixində elə bir məlumata təsadüf edilmir. Çox güman ki, həmin adət xanın seçkili tayfa başçısı olduğu dövrün qalığı kimi yaşamaqdaydı.

Dövlətdə xandan sonra birinci şəxs yabqu sayılırdı. Əslində yabqu vitse-kral idi və bu vəzifəyə bir qayda olaraq hakimiyyətdəki nəslin nümayəndələri təyin edilirdilər. Məsələn, İl-xan Bumının vaxtında onun doğma qardaşı İstemi yabqu idi. Lakin bununla birlikdə yabqu taxt-tacın varisi deyildi, vəliəhd vəzifəsindən asılı olmayaraq «tigin» adlanırdı. İxtiyarında bölgələrin hakimiyyəti olan və xana qan qohumluqları çatan şahzadələr «şad» çağrılırdılar. Sonralar xan rütbəsinə yüksəlmiş Sımo qeyri-qanuni doğulduğu ehtimal edildiyindən «şad» rütbəsi ala bilməmişdi.

Aşina nəslinə mənsub olmayanlara ikinci dərəcəli rütbələr verilirdi, lakin bütün vəzifələr irsi idi. Buna əsaslanaraq türkyut cəmiyyətinin aristokratik xarakteri haqqında danışmaq olar. Lakin bivaxt nəticələrə çox da aludə olmayaq.

Azad adamlar və əsilzadələrlə birlikdə türkyut cəmiyyəti hərbi əsirlərdən ibarət qulların da mövcudluğundan xəbərdar idi. Bunlar əsas etibarı ilə qadınlar idilər. 569-cu ildə İstemi xan Zemarxa qırğız xalqından olan bir kəniz bağışlamışdı. Müvəffəqiyyətli hərbi yürüşlər zamanı Çindən minlərlə kəniz gətirilirdi. Məsələn, 619-cu ildə Bin-çjounu ələ keçirən Çulo xan «şəhərdəki bütün qadınları və qızları əsir götürmüşdü», Atrpatakanda adamların ovlanması (628-ci il) isə bütün Yaxın Şərqə bəlli idi. Nəhayət, əsirlərin bölünməsi zamanı dava saldığına görə Yuyqu şad taxt-tacdan məhrum edilmişdi. Beləliklə, köləliyin türkyutlara məlum olması faktı etiraf edilməlidir. Lakin ortaya belə bir sual çıxır: köçəri təsərrüfatında qul əməyindən necə istifadə oluna bilərdi? Qul, əgər şikəst deyildisə, həmişə sahibinin atını minib aradan çıxa bilərdi, ona qoyulan xərc də özünü doğrultmazdı. Göründüyü kimi, türkyutlar arasında qulların vəziyyəti o qədər də pis deyildi. Bunu sübut edən sənəd də mövcuddur: 486-cı ildə Şabolio xana Suy sülaləsinin vassallığı təklif olunmuşdu. Şabolio soruşmuşdu: «Vassal» nə deməkdir?» ona cavab vermişdilər: «Suy sülaləsində «vassal» bizdəki «qul» sözü ilə eynidir». Xan cavab vermişdi: «Mən səma oğlunun qulu olmaqla özümü xoşbəxt sayıram». Və sevincini səfirə hədiyyə verməklə bildirmişdi. Bu dialoq düşünməyə vadar edir — kiminsə qulu olmaq adama necə sevinc gətirə bilər?

Aydındır ki, Çin imperatorunun «die»u sayıldığını eşidən Şabolio tamamilə başqa şey nəzərdə tuturdu. Biz «qul» sözünü «rab» kimi tərcümə edərkən onun həqiqi adekvatını ifadə edirikmi? Əlbəttə, bu iki anlayış arasında müəyyən qarşılıqlı əlaqə var. Təsadüfi deyil ki, çinlilər «qul» sözünün ekvivalentini «pi» deyil, «tch`in» sayırdılar. Bu sözü N. Y. Biçurin «vassal» St. Jülyen isə «sujet» təbəə kimi tərcümə edir. Xoşbəxtlikdən Orxon kitabələrinin bəzi mətnləri «qul» sözünün mənasını dəqiqləşdirməyə və problemə aydınlıq gətirməyə imkan verir. Kül-Tigin abidəsinin «Böyük kitabəsində deyilir: «...tabqaç budunka bəglik urı oqlın kul boltı, silik kız oqlın gunq boltı», yəni «onlar (türklər) tabğaç xalqına öz möhkəm bəy nəsilləri qul, əsilzadə qızları günü oldular». Lakin həmin dövrdə türklər Qobidən cənub tərəfdəki düzənliklərdə ənənəvi məişətlərinə uyğun həyat sürür, Tan imperiyasının Çin əhalisi ilə müqayisədə bir sıra güzəştlərdən istifadə edirdilər. Onlar yürüşlərdə iştirak edərək hərbi mənsəb qazanır, yurdlarına xeyli qənimət gətirirdilər. Hər hansı bir sosial zülmdən azad şəkildə yad dövlətə tabelik faktı göz qarşısındadır.

Başqa mətn götürək:

[«İltərik xan] öz elini və öz xalqını itirən qul və kənizə çevrilən, türk qanunlarını qeyb edən xalq arasında qayda-qanun yaratdı, onları mənim əcdadlarımın qoyduğu qaydalara uyğun şəkildə düz yola saldı». Yenə də yalnız yadelliyə tabelik faktı nəzərə çarpdırılır, lakin öz azadlığını itirməkdən söhbət getmir.

Bars bəyin həlak olmasının, onun xalqının «qullara və kənizlərə çevrilməsinin» təsvir edildiyi üçüncü təsadüfdə də qul bazarında əsirlərin satılmasından deyil, sadəcə fütuhatdan söhbət gedir.

Beləliklə, «qul» sözünün əsas mənası başqasına tabe olmaqdır. Bu çalar XIX əsrə qədər qorunub saxlanıb, lakin sonrakı türklər qul alverinin səciyyəvi yayıldığı müsəlman mədəniyyəti sisteminə daxil olduqlarından, «qul» termini satılan kölələrə şamil edilməyə başladı. Əvvəlki dövrlərdə qul alveri mövcud deyildi. VI—VIII əsrlərdə qullardan istifadə qaydası tamamilə başqa idi: türkyutlar onları öz ərazilərinə gətirir, müəyyən yerdə məskunlaşdırır və vergi almağa başlayırdılar. Bundan əlavə, qadınlardan ev qulluqçuları və cariyə kimi də istifadə edirdilər. Türkyut qulları təxminən Roma kolonlarına bənzəyirdilər, lakin indi işlətdiyimiz mənada «rab» anlayışı onları səciyyələndirmək üçün qətiyyən məqsədəuyğun deyil. S. P. Tolstov yalnız əsirlərdən ibarət olan və türkyutlara sənətkarlıq və əkinçilik ilə töycü verən qəsəbələrin mövcudluğunu göstərir. Lakin türk xaqanlığında təbəələrə vergi qoyulması sisteminin klassik təsvirini Moisey Kaqankavatsi vermişdir: «Şimal knyazı bütün yer üzünə qorxu və dəhşət yaymışdı. O, qızıl yumaqda, gümüş və dəmir çıxarmaqda, mis əritməkdə səriştəsi olan sənətkarların hamısının üzərinə nəzarətçi qoymuşdu. O, həmçinin böyük Kür və Araz çaylarının vətəgələrindəki mallardan və balıqçılardan gömrük haqqı tələb edir, fars hökmdarlığının siyahıları əsasında hərədən bir didraxma da alınırdı».

Sitatdan göründüyü kimi, türkyut xanları İran şahlarından qat-qat çox vergi alırdılar və aydındır ki, hər yeni fəthdən sonra xanların və əyanlarının sərvətləri xeyli artırdı. Xalxi və Cunqariyanın teles tayfaları, Cənubi Mancuriyadakı kidanlar və xilər, Soqdiananın şəhər-dövlətləri, Toharistan knyazlıqları, Asiyanın taxıl anbarı Turfan, Ural ətəyində yaşayan uqrlar, Kuban boyunca məskunlaşan uturqurlar və Sayan — Altayın cənub yamaclarının meşə tayfaları bu ardıcıl və sistemli soyğunçuluğa məruz qalırdılar. Əlbəttə, həmin sərvətin müəyyən hissəsi sıravi əsgərlərə çatırdı. Təbiidir ki, yalnız onların sadiqliyi itaət altına alınmış xalqların amansız istismarına imkan verirdi. Lakin gəlirin əksəriyyətini hakim yuxarı təbəqə, xüsusən də xanın özü mənimsəyirdi.

Bu yolla toplanan sərvət çox böyük ola bilərdi. Menandrın əsərində türkyut xanının Bizans səfiri üçün düzəltdiyi cah-cəlallı qəbulun təsviri qalmışdır: «Onlar nahar etdilər və bütün günü həmin çadırdakı ziyafət məclisində keçirdilər. Çadır müxtəlif rənglərin məharətlə biri-birinə qarışdırıldığı ipək parçalardan düzəldilmişdi. Onlar şərab içirdilər, lakin həmin şərab bizdəki kimi üzümdən sıxılmamışdı.* Onların istifadə etdikləri içki hansısa bir barbar içkisidir. Ertəsi gün onlar (romalılar) başqa çadıra keçirildi. Bu çadır da əvvəlki kimi ipək parçalardan düzəldilmişdi. Burada müxtəlif görünüşlü bütlər də vardı. Dizavul (İstemi xan) başdan ayağa kimi qızıldan düzəldilən taxtda oturmuşdu. Çadırın içərisindəki qablar, bardaqlar, həmçinin çəllək də qızıldan idi. Onlar yenə ziyafət məclisinə əyləşdilər, yeyib-içdilər, içki masası arxasında lazım olan məsələləri müzakirə edib dağılışdılar. Ertəsi gün başqa otağa gəldilər. Həmin çadırda üzərinə qızıl təbəqə çəkilmiş ağac dirəklər, dörd qızıl tovuzquşu üstündə dayanmış qızıl suyuna salınmış taxt vardı. Otağın qarşısında genişlikdə uzununa iri arabalar saxlanmışdı, onların içi çoxlu gümüş, bahalı qablar, zənbillər, dördayaqlıların gümüşdən düzəldilmiş fiqurları vardı. Bu fiqurlar heç bir cəhətdən bizimkilərdən geri qalmır. Türkyut knyazının cah-cəlalı da özünü elə bunda göstərir».

Əlbəttə, bu var-dövlətin hamısı soyğunçuluq və talançılıq nəticəsində əldə edilmişdi. Lakin türkyutların dünyanın yarısına sahib olmasına imkan verən hərbi qələbələri təsadüfi deyildi. Onlar ümumi köçəri səviyyəsindən yüksəkdə dayanan elə bir ordu yaratmışdılar ki, tam əminliklə demək olar: türkyutlar bu qələbələrə layiq idilər.

*Qohumluq — bölgə sistem.* Böyük türk xaqanlığının daxilində — radikallıq baxımından xaricdəkindən geri qalmayan dəyişikliklər gedirdi. Həmin dəyişikliklərin öz əksini tapdığı ilk amil taxt-taca varislik qaydası idi.

Yuxarıda da qeyd edildiyi kimi, İlxan Bumının oğlu və vəliəhdi Qara İssık xan 553-cü ilin əvvəlində, atasından yarım il sonra öldü. Oğlu Şetu hakimiyyətdən uzaqlaşdırıldı. Xanlıq Bumının ikinci oğlu — Muğan adı ilə hakimiyyətə başlayan

* Çinlilərin düyü arağı nəzərdə tutulur.

Kuşunun əlinə keçdi.* Onun vaxtında nəinki türk xaqanlığının qüdrətli xarici siyasətinin əsası qoyuldu, həm də qohumluq — bölgə sistem bərqərar oldu ki, bunun da nəticəsində türk dövləti yüz ildən artıq bir dövrdə Asiyada hakim vəziyyəti öz əlində saxladı və VI—VII əsrin böyük dövlətləri ilə rəqabət apardı.

Həmin sistemin mahiyyəti belədir. Türkyut dövləti «uzun qılınc və uzun cida» gücünə yaradılmışdı. On il ərzində (550—560) türkyutlar Sarı dənizdən Volqaboyuna qədər bütün köçəri tayfaları itaət altına aldılar, bundan sonra hələ 20 il də öz işğalçılıq siyasətlərini davam etdirdilər. Lakin belə böyük ərazini tutmaq az idi, onu əldə saxlamağı da bacarmaq lazım idi. Dövlətin süqutuna qədər Aşina nəslinin hakimiyyəti əleyhinə gah orada, gah da burada üsyan qalxırdı.

Muğan xanı düşündürən ən kəskin daxili siyasi problemlərdən biri ucqarların itaətdən çıxmasının qarşısını almaq idi. İtaətə gətirilən tayfalar yalnız üzərində qurd başı çəkilmiş bayraq gəzdirən zirehli süvarilər yaxınlıqda olanda sadiq idilər. Yalnız kifayət qədər hərbi qüvvəyə malik canişin narazılıqların separatçılıq cəhdlərinin qarşısını ala bilərdi. Lakin həm hakimiyyət, həm də qoşun canişinin əlində olanda və onu xan düşərgəsindən böyük məsafə ayıranda, hansı qüvvə itaətdən çıxmağın qarşısını ala bilərdi? Doğrudur, canişini qohumlardan da təyin etmək olardı. Lakin bunun da köməyi dəymirdi. Qohumlar arasında müharibəyə az təsadüf olunmurdu. Elə bu şəraitdə də qohumluq-bölgə sistem qəbul edildi. Bu sistemin ideyası son dərəcə sadə idi: bir halda ki, canişinin xeyirxah hissləri və şəxsi keyfiyyətləri sadiqlik üçün zəmanət vermirdisə, onu mərkəzi hakimiyyətə bağlayan maraq dairəsi yaratmaq lazım idi. Qohumluq-bölgə sistemi taxt-taca varisliyin növbəliliyini müəyyənləşdirmişdi. Muğan xanın qanununa görə ata oğulun deyil, kiçik qardaş böyük qardaşın və böyük qardaş oğlu kiçik əminin varisi idi. Taxta çıxan xana qan qohumluğu çatan şahzadələr bölgələrin hakimləri təyin olunurdular.

568-ci ildə türkyut dövləti dörd, 576-cı ildə isə səkkiz bölgəyə ayrılmışdı. Həmin bölgələrin Qərbi Avropadakı feodlara bənzədiyini zənn etmək düzgün olmazdı. Burada daha çox hərbi qüvvələrin bölünməsinə, onların bu və ya digər ərazinin hərbi rəisinə tabeçiliyi prinsipinə üstünlük verilmişdi. Türkyutların baş

* Qədim türklərin daxili tarixini başa düşmək üçün belə bir cəhətə diqqət yetirmək zəruridir ki, hər bir knyazın xüsusi («vəhşi heyvan») adından başqa titulu vardı. Bu titul onun tutduğu vəzifədən asılı şəkildə dəyişirdi. Bəzi türkyut xanları tarixə iki, yaxud üç ad altında daxil olublar. Məsələn, Şetu-xanın şəxsi adı ilə (Biçurin onu Netu adlandırır). Erfu xan - ölkənin şərqində bölgə knyazı olan vaxt daşıdığı addır, xaqan olduqdan sonra o, İliqyuylu Şö Moxe Şabolo xan titulunu qəbul etmişdi. Bu xan daha çox çinlilərin ona verdikləri Şabolio (soyğunçu) ləqəbi ilə tanınır. Bəzi xanların yalnız titulları, yaxud yalnız «vəhşi» adları məlumdur. Şetu-yetən (hakimiyyətə) deməkdir. Erfu-ər-bəy deməkdir, İliqyuylu Şe Moxe Şabolo İl Kyulyuq-şad Baqa Işbara qədim türkcədən tərcümədə «Ölkənin şərəfli şadı, ilahi qüdrətli xan» mənasını verir. Bütün adların və titulların mənasını açmaq mümkün olmamışdır, ona görə də bəziləri ilkin variantda saxlanmışdır.

xanını Menandr Arsila adlandırır. Arsilanın təhrifə uğramış və türk dilində «şir» mənasını verən Arslan olduğunu fəhm etmək o qədər də çətin deyil. Muğan xanın 572-ci ildə öldüyünü, yeni qanuna müvafiq surətdə taxta onun kiçik qardaşı Tobo xanın* çıxdığını nəzərə alsaq, Arslanın Tobonun — xanın xüsusi («vəhşi heyvan») adı olduğunu güman etmək olar.

Tobo xan 572-ci ildə bölgələri ayırdı — şərqdəkiləri qardaşı oğlu Şetuya, qərbdəkiləri isə kiçik qardaşına verdi. Lakin həmin qardaş tezliklə öldüyündən bölgə onun Buri-xan* titulu ilə hakimiyyətə keçən oğluna qaldı. Muğan xanın oğlu Törəmən* şimalda — ehtimal ki, qırğızların və çiklərin torpağında idi. Təzəcə ölmüş İsteminin övladlarının da öz bölgələri vardı: Qara Çurin* Yeddi — suda, Türksanf isə Aşağı Volqada* və Uralda bölgələrə malik idilər. Böyük xanın düşərgəsi Altay yaxınlığında — həqiqi türk torpaqlarında yerləşirdi. Qalan iki bölgə isə onun oğlanlarına — Amraka və Teqin-şada məxsus idi.

Bölgə sisteminin bütün mürəkkəbliyinə və dolaşıqlığına baxmayaraq taxt-taca pilləvari sahiblik haqqındakı qanun ilk vaxtlar çox müsbət rol oynadı. İki dəfə həddi-buluğa çatmayan və dövləti təhlükə qarşısında qoya biləcək şahzadənin taxta çıxmasının qarşısı alındı. Hakimiyyət həmişə təcrübəli adamların əlində olurdu. Bölgə knyazları tez-gec mərkəzi hakimiyyəti ələ almağa ümid bəslədiklərindən hərc-mərclik və qarma-qarışıqlıq törətmirdilər. Dövlət bütün istiqamətlərdə inkişaf edirdi. Bölgə sisteminin prototipi çox güman ki, II əsrdə cənubi hunlar arasında mövcud olmuş taxt-tac varisliyi idi; V əsrdə Aşina nəsli knyazlarının əcdadları onlarla ünsiyyət saxlamışdılar. Lakin türkyutlarda həmin sistemin mənası və tətbiqi tamamilə fərqli idi. Mənbələr VI əsrdə «böyük ailənin» mövcudluğunu xəbər vermir, açıq bildirilir ki, bu qayda-qanun türkyutlar üçün tamamilə yeni idi. Necə olursa-olsun, yeni sistemin nəticələri həm müsbət, həm də mənfi planda türkyutların tarixində ləngimədən özünü büruzə verdi.

Həqiqətdə də sistemin mükəmməlliyinə və ölçülüb-biçilməsinə baxmayaraq türkyut cəmiyyəti monolit ola bilməzdi. Çünki hərbi aristokratiyanın fərqləndirilməsi hətta ümumxalq mənafelərinin mövcudluğu şəraitində də izsiz-soraqsız ötüb-keçə bilməzdi. Bu özünəməxsusluq məhsuldar qüvvələrin aşağı səviyyəsi və tayfa məişətinin yaşamasına imkan verən köçəri heyvandarlıq təsərrüfatı ilə bağlı idi.

---

* Türkcə Tabaq xan (yəni ləyən, yaxud tabaq tutan). Bu xanın buddizmlə maraqlanmasına işarə idi. Bu dövrdə xan həmişə buddist rahib kimi əlində patra (nəzir yığmaq üçün kasa, ləyən) gəzdirirdi.

* Buri — canavar. Menandr bu knyazı Bo-xan adlandırır. 576-cı ildə kuturqurlar Bosporu ələ keçirəndə onlara Bo-xan başçılıq edirdi. Buradan da onun düşərgəsinin Kuban üzərində olduğunu güman etmək mümkündür.

* Töremen—titul xarakterli türk adı. Çin mənşəli Dalobyan və yunan mənşəli Turum adlarından bərpa edilmişdir. Bundan başqa, onun Apa (böyük) titulu vardı.

* Onun titulu Tarduş xan idi.

* Ehtimal ki, onun düşərgəsi Şimali Qafqaz yaxınlığında idi, çünki o, Bizans ərazisinə buradan hücum etmişdi.

Türkyutların daxili çəkişmələrini araşdırarkən biz sıravi döyüşçülərin Aşina xanları nəslinə qarşı bircə dəfə də olsun üsyan cəhdində olmaları barəsində heç bir məlumat əldə etmədik. Bütün üsyanların başında şahzadələr, yaxud xanla qan qohumluğu olan knyazlar dayanırdılar.

Türkyutlar hərbçi olduqlarından hamısı Aşina nəslinə mənsub bu və ya digər knyazın dəstəsində xidmət edirdilər. Knyazlar öz döyüşçülərinin əhvali-ruhiyyəsi ilə hesablaşmalıydılar, çünki sonuncular onların yeganə ümidi və arxası idi. Əks-təqdirdə döyüşçülər knyazlarını ya özlərinin istədiyi hərəkətə məcbur edər, ya da onu atıb gedə bilərdilər. Ancaq dövlət daxilində toqquşmalar zəruri idi. Lakin döyüşçülərin əyanlar əleyhinə mübarizəsi əvəzinə hərbçi və əyanlardan ibarət ayrı-ayrı qruplar arasında mübarizə meydana çıxdı. Bu qruplar isə yalnız ümumi mənafe ilə deyil, həm də nəsil ümumiliyi ilə bağlı idilər. Belə şəraitdə sülaləni devirməyin türkyutlar üçün heç bir mənası yox idi; çünki istənilən vaxt istənilən hərəkata rəhbərlik edə bilən şahzadə tapmaq mümkündü. Lakin bununla bir sırada xarici təhlükə də mövcud idi: bir tərəfdən Çin həmişə hücuma hazır dayanmışdı, o biri tərəfdən isə tele tayfaları üsyan qaldırmaq üçün əlverişli məqam gözləyirdilər. Vəziyyətin gərginliyi türkyutları birləşməyə məcbur edirdi, odur ki, hərbçilər xan və şadlar əleyhinə bir dəfə də üsyan qaldırmamışdılar.

Lakin xaqanlıq artıq məhvə məhkum idi. Hadisələrin şərhini qabaqlayaraq göstərmək lazımdır ki, türkyut cəmiyyətində sinif yaranması prosesi onların dörd bir tərəfində güclü sinifli dövlətlərin (Çin, İran, Qaoçan, Soqdiya) mövcudluğu şəraitində başlanmışdı. Cəsurluq və gücün qarşısına hiyləgərlik və pul çıxırdı, yaxşı təlim görmüş, texniki baxımdan təchiz edilmiş muzdlu ordular isə döyüşdə çöllü süvarilərdən heç də geri qalmırdılar. Bu şəraiti nəzərə alarkən türkyut dövlətinin süqutuna yox, onun yüz ildən artıq mövcudluğuna təəccüblənmək lazımdır.

**Orda.** Türkyut şahzadələrinin ətrafında türyutlardan başqa məğlub jujanlar, habelə bu və ya digər səbəbə görə öz doğma yurdunda, yaxud Çin xidmətində yola getməyən müxtəlif qrup adamlar toplaşmışdılar. Onların etnik mənşəyi müxtəlif idi, lakin öz aralarında hamısı kiçik tələffüz fərqi olan ümumi türk dilində danışırdılar. Onlar bir «budun» — xalq təşkil edirdilər, lakin bu söz «etnos» deyil, daha çox «demos» anlayışına yaxın bir mənada işlənirdi. Çünki «budun» «bəylər»ə qarşı qoyulurdu. Bu aşağıdakı ifadənin kontekstində də aydın görünür: «türk bəklər budun», həmin ifadəni «türk bəyləri və xalqı», «habelə türk bəylərinin xalqı» kimi tərcümə etmək olar. Digər tərəfdən bu ifadə «türk qara budun» ifadəsinə qarşı qoyulur. Həm də «qara budun» — «qara camaat» ifadəsi kütlə mənasında işlənir və onun heç bir təhqiramiz çaları yoxdur. Bundan əlavə «altı bək budun» — «altı bəyin xalqı» ifadəsinə də təsadüf edilir. Buradan da aydın olur ki, «budun» ordanın sıravi üzvləridir, bəylər isə hakim qüvvədirlər. Başqa sözlə desək, bütövlükdə orda etnik yox, hərbi-təşkilati anlayışdır. VI əsrdə türkyut ordası tayfaya daha çox

uyğun gəlirdi, sonra isə genişlənərək dövlətə çevrildi. Orda hərbi həyat tərzini ailə həyatından daha üstün tutan könüllülərin hesabına genişlənirdi.

Ordanın qoşun kimi adi təşkili sağ və sol cinahların mövcudluğunu nəzərdə tutur. Tolos-şərq və tarduş-qərb cinahı belə idi. İ. N. Kalyakinin «Tolos» və «Tarduş» terminləri ilə bağlı təfərrüatlı şərhindən sonra hərbi-inzibati terminlərin müəyyən tayfalarla eyniləşdirilməsi ətrafında polemika tamamilə yersizdir.

E. Pritsak «budun» terminini ulusun bir hissəsi kimi başa düşür və onu qədim monqol termini «irqeklə» müqayisə edir. Lakin yalnız bəylərlə budunun yuxarıdakı müqayisəsi deyil, A. N. Kononovun «irgen» (ir-ər; + kin — çoxluq şəkilçisi) termini ətrafındakı araşdırması göstərir ki, «erkin-irqin» (hərfi mənada kişilər yığnağı) müstəqil anlayışdır. «Budun» isə relyativ anlayışdır, başqa sözlə desək, xana, bəyə münasibətdə budun olmaq mümkündür, xalq isə bir etnos kimi «gün» adlanırdı: «budun» və «bukün» (hərfi mənada bu xalq») anlayışlarını Pritsak kimi müqayisə etmək isə nə tarixi, nə də filoloji baxımdan inandırıcıdır.

Tayfa vahidinin öz termini vardı — «oğuz». E. Pritsak bu termini gah «ok» (ox) sözünün tələffüz variantı, gah da tayfanın əsas nüvəsinin şaxələnməsi kimi mənalandırır. İndi isə bu məsələnin şərhinə keçək.

**Tayfa.** Əvvəllər yalnız dövlət təsisatı kimi fəaliyyət göstərən qohumluq bölgə sistemi tədricən şəxsi həyata da nüfuz etməyə başladı. O, ailə münasibətlərini formalaşdırmağa əmlakın dağılmasının qarşısını almağa və çoxüzvlü ailə icmalarının təşəkkülünə kömək etməyə başladı.

Xaqanlıq dövründə çöl əhalisi xeyli varlanmışdı. Əvvəla, var-dövlət hər tərəfdən axıb gəlirdi, ikincisi xəracın bir hissəsi xan vasitəsi ilə onun yaxın adamlarına ötürülürdü, nəhayət, çöldə əmin-amanlığın bərqərar olması və daimi soyğunçuluğa son qoyulması heyvandarlığın inkişafına faydalı təsir göstərirdi. Sərvətin ələ keçirilməsi ilə yanaşı onun toplanması prosesi də gedirdi: yığılan sərvət xərclənmirdi, bölünmürdü, yalnız böyük ailələrin varidatı kimi qorunub saxlanırdı. Bu yalnız tayfa ittifaqının mövcudluğu şəraitində mümkün idi. Nəhəng ölkəni şərikli idarə edən Aşina nəslinə mənsub xanlar belə bir ittifaqın nümunəsini göstərmişdilər. Böyük ailələrin başçıları xanları yamsılayaraq həm yaxın, həm də uzaq qohumlarını idarə edirdilər. Ailələr böyüyərək tayfalara çevrilirdilər, lakin onlar özlərinin ərazi və təşkilatı bütövlüyünü saxlayırdılar. Ağsaqqallar nüfuzlarından istifadə edir, bir sıra hallarda hətta xan, yaxud idıkut titulunu qəbul etməyə çalışırdılar.

Beləliklə, sonralar xaqanlığın xarabalıqları üzərində uyğunlar, qarluqlar, dilular və nişubilər formalaşdılar, şərqdə kidanlar, qərbdə isə quzlar və komanlar (onlar həm də polovestlər adlandırılırdılar) eyni yolla getdilər. Tayfaların başlıca düşməni ordalar idi; onların maraqları bir-biri ilə tam əkslik və barışmazlıq təşkil edirdi. Tayfaların ağsaqqalları sakitcə mal-qaralarını otarmaq, neytrallığın qorunması və muzdlu əsgərlər verilməsi müqabilində Çindən hədiyyələr almaq istəyirdilər. Orda xanları isə bütün gəncləri hərbi dəstələrə cəlb etmək, onları

orduda xidmət etməyən təbəələrin hesabına yedirib-içirtmək və müharibə təhdidi ilə Çindən xərac şəklində əkinçilik və sənətkarlıq məhsulları qoparmaq istəyirdilər. Güzəşt üçün yer qalmırdı.

Qonşuların sıxışdırdığı kiçik tayfalar (onları qəbilələrlə eyniləşdirmək olmaz) ittifaq yaratmağa başladılar. Həm də bu cür icmaların adı «oğuz» termini ilə ifadə olunurdu. Doqquz oğuzlar — uyğurlar və üç oğuzlar — karluklar etnonimləri də buradan yaranmışdır. Dulu və nuşibilərin oxşar tipli ittifaqları oğuz adlanmırdı. Səbəb onların fərqli şəraitdə meydana çıxması, başqa sözlə desək, təbii şəkildə deyil, türkyut xanının fərmanı ilə formalaşması idi. Buna görə də dulu və nuşibilər əvvəlki kimi «budun» olaraq qalırdılar və «On ok budun» — «on ox xalqı» adlanırdılar. «Budun» və «oğuz» terminləri arasındakı nisbət aşağıdakı şəkildə müəyyənləşir: türklərin tabeliyindəki uyğurlar onlara münasibətdə «budun» sayılırdılar, lakin öz daxili quruluşlarını saxladıqlarından həm də oğuz olaraq qalırdılar. Ona görə də Bilgə xanın bu sözləri deməyə əsası vardı: «Doqquz — oğuz xalqı mənim öz xalqım idi». Başqa sözlə desək, doqquz oğuzlar ona-tarduşların şadına münasibətdə budun idilər, yəni bilavasitə tabe vəziyyətdəydilər.

Bu məsələyə dair mövcud ədəbiyyatı tənqidi öyrənən A. N. Kononov da «oğuz» termininin şərhində analoji nəticəyə gəlmişdir. O, yazır: «Oğuz məcmu etnik adının əsasını «qəbilə», «tayfa» mənasında işlənən «ok» təşkil edir, bu anlayış isə öz növbəsində qədim türk sözü olan «oğ» — «ana» ilə birbaşa bağlıdır. «Oğul», «nəsil» mənasında işlənən «oğul» və «qohum» mənası verən «oğuş» sözləri də həmin kökdən yaranmışlar».

Beləliklə, «oğuz» sözü ilk vaxtlar sadəcə «tayfa», yaxud «tayfa ittifaqı» anlamında işlənə bilərdi. Sonralar isə bu söz məcmu mənalı etnik ada çevrildi. Məlum təsadüflərdə isə həmin etnonim artıq zəruri determinativ kimi müəyyənləşirdi. Məsələn, «doqquz oğuz» — yəni doqquz (müxtəlif) tayfa, üç oğuz» — yəni üç (müxtəlif) tayfa.

Sonralar «oğuz» (eləcə də budun») termini özünün ilkin mənasını itirdi və müsəlman peyğəmbərləri sırasına daxil edilən türkmənlərin əfsanəvi əcdadı Oğuzun adına çevrildi.

Hadisələrin təklif olunan şəkildə gedişinə xeyrinə danışan əsas arqument dili — qaoqyuylarda IV—V əsrlərdə tayfa, telelərdə isə VII—VIII əsrlərdə qəbilə adlarının uyğun gəlməməsidir. Telelərin şəksiz əcdadları olan qaoqyuylar 12 patriarxal qəbiləyə, onların sələfləri telelər isə 15 qəbiləyə — Yuanqe (uyğurlar), seyanto (sirlərdən və yantolardan təşkil olunmuş qəbilə), Kibi, Dobo (tofalar), Quliqan (kurıkanlar, yakutların əcdadları), Dolanqe (telenqitlər), Buqu, Bayequ — Bayırku, Tunlo tonqra, Xun, Sıqye, Xusye, Xiqye, Adye (edizlər), Baysi bölünmüşdülər. Dabo qəbiləsi ilə eyniləşdirilməsi mümkün olan tobaları istisna etmək şərti ilə qalan adların müqayisəsi qeyri mümkündür. Onların bu şəkildə dəyişikliyə uğraması yalnız tayfadakı patriarxal qohumluq sisteminin pozulması və köhnə tayfaların yerində yeni birliklərin yaranması şəraitində mümkün ola bilərdi.

Belə yenidənqurulma üçün əsas vardı: türkfutlar 100 il telelər üzərində ağalıq etmiş və onların «qüvvələri sayəsində şimal düzənliklərində qəhrəmanlıqlar göstərmişdilər». Deməli, telelər budun sayılırdılar və ordanın, habelə onun tolistarduş qanadının tərkibinə daxil idilər. Ehtimal ki, elə həmin dövrdə də yeni həyatın şərtlərinə cavab verə bilməyən qəbilə sistemi ərazi-təsərrüfat birlikləri — tayfalarla əvəz olunmağa başlamışdı. Bu dəyişikliklər çinlilərin diqqətindən yayınmamışdı. Onlar qaoqyuy soyunu «sin» — familiya, teles tayfasını isə «bu» (Biçurinin tərcüməsində «nəsil») adlandırırdılar.

Beləliklə, Aşina nəsli xaqanlığının sosial strukturunun əsas səciyyəvi əlaməti hərbi və tayfa quruluşlarının uyğunlaşdırılması idi. Türkyutlar belə bir uyğunlaşmanı təcrübədə həyata keçirən ilk köçəri Orta Asiya xalqı oldu. Onlar özləri də bunu başa düşür və dövlətlərini «əbədi el» adlandırırdılar. Bununla da telelərin qəbilə ittifaqı və jujanların vəhşi ordalarının özbaşınalığı ilə müqayisədə həmin dövlətin davamlılığını və sabitliyini nəzərə çarpdırırdılar.

«El/il» sözü müxtəlif alimlərin şərhində müxtəlif cür tərcümə edilir və anlaşılır. (Lakin bu barədə bir qədər sonra). Bu anlayışda əsas məsələ az qala hakim tayfaya çevrilən orda ilə sülh şəraitində yaşamağa məcbur olan tabe tayfaların mövcudluğudur.

Türkyutların yaratdıqları sosial-siyasi sistem VI əsr üçün vaxtı çatmış siyasi məsələlərin mütləq də olmasa, ən yaxşı həlli üsulu idi: Bu sistem türkyutların bir neçə nəslinin çöldəki hakimiyyətini təmin etdi, digər tərəfdən, sonra görünəcəyi kimi, həmin sistem eyni zamanda onların məhvinə gətirib çıxardı.

**İnkişaf mərhələsi.** Türkyut xaqanlığına daxil olan köçəri tayfaların ictimai inkişaf mərhələsi ilə bağlı problem çox mürəkkəbdir. Bir tərəfdən türkyutlar, o biri tərəfdən isə onların tabeliyindəki çoxsaylı tayfalar arasında dəqiq bölgü aparılmasa, bu məsələni təxmini şəkildə həll etmək mümkün deyildir. Eyni zamanda onu da nəzərə almaq zəruridir ki, 110 illik müstəqil mövcudluğu ərzində xaqanlıq əhəmiyyətli təkamül prosesi keçmişdi və VII əsr türkyut cəmiyyətindəki münasibətlər VI əsrdəki qarşılıqlı münasibətlərdən tamamilə fərqlənirdi.

A. N. Bernştam belə bir nəticəyə gəlmişdir ki, qədim türklərin ictimai quruluşu «ibtidai feodal münasibətlərinin bərqərar olmasının ilkin formasıdır». Bu fikir həm faktiki məlumatlarla, həm də barbarlığın ən yüksək inkişaf mərhələsində hərbi demokratiyanın təşəkkülü haqqında F. Engelsin aydın və qəti mülahizələri ilə ziddiyyət təşkil edir. F. Engels yazırdı: «Ən yüksək mərhələ. Dəmir filizinin əridilməsindən başlanır, hərfli yazı sisteminin kəşf olunması və bu yolla şifahi xalq yaradıcılığının yazıya alınması ilə sivilizasiyaya çevrilir. Artıq deyildiyi kimi, yalnız Şərq yarımkürəsində müstəqil keçilən bu mərhələ bütün əvvəlki mərhələlərin cəmi ilə müqayisədə istehsaldakı müvəffəqiyyətlərlə daha zəngindir. Qəhrəmanlıq epoxasının yunanları, Romanın banisi qoyulmamışdan əvvəlki dövrün İtaliya tayfaları, Tatsitin germanları, vikinqlər dövrünün normaları həmin

mərhələyə aiddirlər». Bütün yuxarıda deyilənlər türkyutları da eyni mərhələyə daxil etməyə tam əsas verir.

Barbarlığın ən yüksək inkişaf mərhələsini səciyyələndirən Engels onun aşağıdakı xüsusiyyətlərini qeyd edir: «Bütün mədəni xalqlar öz qəhrəmanlıq epoxasını — dəmir qılınc epoxasını yaşayırlar». Bu fikir dəmir əridilməsi və dəmir məmulatlarının istehsalı ilə məşğul olmuş türkyutlara da şamil edilə bilər. «Sərvət sürətlə artırdı, lakin ayrı-ayrı adamların sərvəti kimi...». Həmin proses də yuxarıda təsvir olunmuşdur. «Köləlik... indi ictimai sistemin vacib tərkib hissəsinə çevrilir». Köləlik türkyutlar arasında da məhz bu inkişaf mərhələsini yaşamışdı.

«Əkinə yararlı torpaqlar əvvəlcə müvəqqəti, sonralar isə birdəfəlik ayrı-ayrı ailələrin istifadəsinə verilir, onun tam şəxsi mülkiyyətə çevrilməsi prosesi tədricən, həm də qoşa nigahın monoqamiyaya keçməsi ilə paralel şəkildə gedir. Ayrılıqda götürülmüş ailə cəmiyyətin təsərrüfat vahidinə çevrilir». Türkyut cəmiyyətində biz bu keçid mərhələsini də müşahidə etmişdik.

Nəhayət, hakimiyyət təsisatı. «Xalqın hərbi rəhbəri —rex, basile us thiudans[30] zəruri, daimi vəzifəli şəxs olur... müharibə və müharibə üçün təsisatlar indi xalq həyatının daimi funksiyalarından birinə çevrilir. Əvvəllər yalnız hücuma görə qisas almaq məqsədi güdən, yaxud ərazini genişləndirmək üçün aparılan müharibə indi yalnız soyğunçuluq xarakteri daşıyır və başlıca məşğuliyyət sahələrindən biri olur».

Mənbələr türkyutların müharibə və yürüşlərinin səbəbləri kimi məhz bunları göstərirlər, məhz müharibə məqsədi ilə öz əllərində hərbi və mülki səlahiyyətləri birləşdirən əzəmətli məmurlar sistemi — yabqular, şadlar, tutuqlar və s. yaradılmışdı. Onların rütbə və vəzifələri irsi idi. Yeri gəlmişkən, bu amil də Engelsin qeyd etdiyi xüsusiyyətlərdən biridir. O yazır: «Soyğunçu müharibələr ali hərbi rəislərin, eləcə də onların tabeliyində olan qoşun başçılarının hakimiyyətini gücləndirir... irsi kral hakimiyyətinin və irsi zadəganlığın əsası qoyulur».

Aşina soyunun dövləti də belə bir dövlət idi. O, tayfa quruluşunu öz daxilində əritmiş hərbi demokratiya mərhələsində idi və bütün gücü, bütün qüdrəti ilə istismar obyekti olan qonşulara qarşı yönəldilmişdi. Antoqonist münasibətlər soyğunçularla soyulanların münasibətlərində öz əksini tapmışdı. Aşina nəslinin dövləti müəyyən mənada Spartanı xatırladırdı, lakin ondan qat-qat güclü və böyük idi.

Belə soyğunçu dövlətin əsas qüvvələri onun ordusu və idarə sistemi idi. Ona görə də diqqətimizi bu siyasi təsisatların üzərində cəmləşdirək.

[30] Biz də əlavə edə bilərik — xan (L. Q.).

## VI f ə s i l

# TÜRKYUTLAR ÖZ EVLƏRİNDƏ

**Hərbi iş.** Tarix səhnəsinə qədəm qoyarkən türkyutların yiyələndikləri ilk ixtisas dəmir filizi istehsalı idi. Onların şimala qaçan əfsanəvi əcdadı Aşina «jujanlar üçün dəmir çıxarırdı». 546-cı ildə Jujan xaqanı Anaxuan türkyutların başçısı haqqında belə deyirdi: «mənim dəmir əridici köləm». Bununla da türkyutların əsas məşğuliyyət sahəsi göstərilirdi.

Arxeoloji kəşfiyyat nəticəsində V—IX əsrlər türkyut metallurgiyası abidələri üzə çıxarılmışdır. Altayda dəmir filizi istehsalının izləri aşkar edilmişdir. Buradakı o qədər də dərin olmayan şurflar və şaxtalar da həmin dövrə aiddir. Dəmir bilavasitə filizdən emal olunurdu. Qızardılıb döyülən dəmirin keyfiyyəti hətta indi də domna sobasında əridilən dəmirin keyfiyyətindən üstün sayılır.

Altay dəmirçiləri yüksək keyfiyyətli dəmirdən birtiyəli bıçaqlar, yonucu baltalar, üzəngilər, cilovlar, düz, azca maili və geniş tiyəli qılınclar, ox və cida ucluqları, habelə iki cür — dəyirmi, asma qazanlar və üçayaq üstündə duran qazanlar hazırlayırdılar. Bu dövrdə metal çıxarılması və emalı işləri indiki Tuva ərazisində də aparılırdı. Burada yalnız dəmir deyil, qızıl, gümüş, mis, qalay da istehsal edilirdi.

Qırğız xanlığının nüvəsini təşkil edən Xakasiyada metal çox yerlərdə çıxarılırdı. Demək olar ki, bütün küknar meşələrində qədim dəmir əridilən yerlərin izinə rast gəlmək mümkündür. Altayda olduğu kimi burada da əmək alətləri və silahlar — qılınc, xəncər, habelə qoşqu ləvazimatı düzəldilirdi.

Türkyutların müasirlərinin — Anqara yaxınlığında yaşayan kurıkanların mədəniyyəti mühümdür. İlk dəfə, 1912—1914-cü illərdə aparılan qazıntılar nəticəsində bu mədəniyyətin yaradıcıları «kurumçu dəmirçilər» adını almışdılar, lakin A. P. Okladnikov həmin mədəniyyətin başqalarına yox, məhz kurıkanlara mənsub olduğunu inandırıcı şəkildə sübut etmişdi. Kurıkanların soyuq üsulla emal etdikləri dəmirin tərkibində 99,45 faiz metal vardı. Buna görə də həmin dəmir asan döyülürdü və çox möhkəm idi. Kurıkanlar bıçaq, ox və cida ucluqları düzəldir, partlamış qazanları dəmir yamaq qoyma üsulu ilə təmir edirdilər. Onlar eyni zamanda heyvandarlıqla, hətta süni suvarmanın tətbiq edildiyi əkinçiliklə də məşğul olurdular.

Təəssüf ki, ilkin orta əsr köçərilərinin dağ-mədən işləri hələlik sistemli tədqiq edilməyib, lakin malik olduğumuz faktlar bizi yalnız yazılı mənbələrin verdiyi belə bir məlumata inandıra bilir ki, türkyutlar dəmirin sənaye üsulu ilə istehsalını Mərkəzi Asiyada mənimsəyən ilk xalq kimi tarix səhnəsinə çıxıblar. Bunun da nəticəsində onlar Çin və Tibetə münasibətdə müstəqillik qazanmışdılar. Çünki o dövrə qədər köçərilər müharibə üçün son dərəcə zəruri olan dəmir məlumatını həmin ölkələrdən alırdılar və ona görə də asılı vəziyyətdə idilər. Dəmir

köçərilərə əvvəllər də məlum idi, lakin yalnız türkyutlar onu birinci olaraq kütləvi istifadəyə cəlb etdilər. Zemarx dəmir satmaq təklifi ilə yaxınlaşan türkyutları gördükdə bərk təəccüblənmiş və bu işin onu azdırmaq üçün oyun olduğunu güman etmişdi: «çünki deyirlər ki, onlarda dəmir çox çətinliklə tapılır».

Metallurgiyanın inkişafı türkyut xanlarına öz ordularını yenidən silahlandırmağa və Çin mənbələrinin «fuli» (canavar mənasını verən «buri» sözündən götürülüb; türklər ulu əcdadları saydıqları dişi canavarın şərəfinə bu adı götürmüşdülər) adlandırdıqları seçmə, güclü zərbə qüvvəsinə malik zirehli süvari dəstələri yaratmağa imkan verdi. Onların silah cəbbəxanasında buynuz oxlar, zirehlər, cidalar, qılınclar və kordalar vardı. Xoşbəxtlikdən yazılı mənbələrin verdiyi çox cüzi məlumatı arxeoloji materialların köməyi ilə tamamlamaq mümkündür.

Ermitajda türkyut qvardiyaçılarını təsvir edən gil heykəlciklər saxlanmaqdadır. Onların tarixinin nisbətən sonrakı dövrlərə aid edilməsinə baxmayaraq (VII əsrin sonu, yaxud VIII əsrin əvvəlləri), burada təsvir olunan silahların VI əsrin sonlarından etibarən elə bir dəyişikliyə məruz qalmadığını düşünmək olar. Çünki həmin müddət ərzində mədəni ənənənin dəyişilməsi baş verməmişdi. Heykəlciklər Çin əyanının Turfan yaxınlığındakı (Tüyük məzar, Tüyük dərəsindəki sərdabə) dəfn yerindən tapılmışdır. Oxşar tapıntıları Turfan yaxınlığındakı Astara kəndində qazıntı aparan A. Steyndə aşkara çıxarmışdır. Atlılar və piyadalar eyni cür — at minməyə uyğunlaşdırılan paltar geyinmişlər. Bu da türkyutlar arasında piyadaların xüsusi qoşun növü kimi mövcud olmadığını göstərir. Döyüş paltarı baş geyimindən və zirehdən ibarət idi. Baş geyimi qazaxların müasir malaxayını xatırladır, metal lövhəciklərlə örtülüb, qəhvəyi-qırmızı rənglidir, çox güman ki, xəzdən haşiyəsi var. Döyüşçülər hündür, yaxalığı çənələrinə çatan xalatlar geyiniblər. Xalat aşağıdan onların baldırlarının yarısına qədər çatır və sağ tərəfdən düymələnir. Ona görə də sol ətək bir qədər yuxarıda qalır. Xalatın üstündən metal lövhəciklərdən düzəldilən zireh geyilmişdir, o, qəhvəyi-qırmızı rəngli köbə ilə haşiyələnmişdir. Zireh dizə çatır, beldən nazik kəmərlə bağlanır, qolları qısadır, dirsəkdən yuxarıdır. Çox güman ki, bu cür zirehi başdan geyinirmişlər. Bu zirehli paltar sarmatların katafraktına bənzəyir və ağır süvarilər üçün daha səciyyəvidir. Oxşar zirehdən son vaxtlara qədər Tibetdə istifadə olunurdu. Həm də dəmir lövhəciklər bir-biri ilə nazik qayış vasitəsi ilə bərkidilirdi. Güman ki, ilk vaxtlarda daha mükəmməl, yüngül və halqalardan ibarət zirehli köynəklərlə əvəz olunana qədər bu hərbi ləvazimat tipi geniş yayılmışdı. Döyüşçülərin əynində qara ləkəli sarı şalvarlar (çox güman ki, pələng dərisindəndir) var. Çəkmələri qara və yumşaqdır, ehtimal ki, keçədən düzəldilib, son vaxtlara qədər Tibetdə və Şərqi Türküstanda geyilən çəkmələrə bənzəyir. Döyüşçülərin qarderobunun Tibet geyimlərinə bənzəməsinə baxmayaraq bir sıra fərqlər də müşahidə olunur. Tibet üçün səciyyəvi olan paltarın kəmərdən aşağı buraxılmasına burada təsadüf edilmir.

Silah təsviri yalnız piyada döyüşçünün geyimindən nəzərə çarpır. Bu yalnız süvari döyüşünə yarayan uzun (qamış gövdəli) və yüngül nizədir.

Təsvirlərdən də göründüyü kimi, türkyutların atları hündürdür, nazik ayaqları, iri sağrıları var, boyunları qısa, başları isə iridir. Qırxılmış və daranmış yalları bu atlara çox yaxşı qulluq edildiyini göstərir. Onlarla monqol atları arasında heç bir yaxınlıq yoxdur, lakin türkyut atları Samanilər epoxasının, xüsusən də Xenan heykəlciyindəki atlara çox bənzəyirlər.

Təsvirlərdəki at ləvazimatına xüsusi diqqət yetirmək lazımdır. Qabaq tərəfdən nazik qaşı olan yastıqsız enli yəhər iki qara tərliyin üstünə qoyulub. Həm də aşağıdakı tərliyə ağ köbə vurulub. Yəhər açıq-sarı rəngdədir, çox güman ki, ağacdan düzəldilib. Onun dəyirmi üzəngiləri, quyruqaltısı, sinəbəndi və beş qayışı var. Müasir yəhərlərdən fərqli olaraq sinəbənddən, yəhərin qabağından atın bütün beli boyunca əlavə döş qayışı gedir. Çox güman ki, o, üzü eninə gedəndə atın hərəkətini yüngülləşdirmək üçün nəzərdə tutulub. Yəhər də bu məqsədə uyğunlaşdırılıb. Qoşqu ləvazimatı ağ, dairəvi lövhəciklərlə (onların gümüşdən düzəldildiyini də ehtimal etmək olar), habelə sinəbənddən, quyruqaltıdan və cilovdan asılmış ürəkşəkilli tünd-qırmızı, yaxud çəhrayı rəngli salxımcıqlarla bəzədilib. Atlar çox sərbəst dayanıblar. Bu da onların yaxşı öyrədildiyini göstərir. Qısa vurulmuş yalları da atların yaxşı təlim keçdiyinə dəlalət edir. Belə atları çox sevir və çətin məqamda onların köməyinə arxalanırlar. Süvarilər yəhərdə bir qədər sola meylli (kazakvari) oturublar. Bu da onların ömürlərinin çoxunu yəhərdə keçirdiklərini göstərir. Köçərilərin üzəngiləri indikilərdən fərqli olaraq çox aşağı buraxılıb. Analogiyaların olmaması belə bir güman üçün əsas verir ki, üzəngilərin bu vəziyyəti müəyyən təcrübə ilə bağlıdır; yuxarıda dayanan üzəngi ox atmaq və erkən tullamaq üçün sərfəlidir, çünki ağırlığı dizləriňg salan döyüşçü diz əzələlərinin vasitəsi ilə silkələnmənin qarşısını alır, aşağı salınmış üzəngi isə ona qılınc çalmaq və uzun nizə ilə hücuma keçmək üçün ayaq üstündə mahmızlara dayaqlanaraq ayaq üstündə durmağa imkan verirdi. Qayışların çoxluğu süvarilərin uzaq məsafə qət etməyə də hazır olduqlarını göstərir, başqa sözlə desək, onlar qarnizon şəraitində yaşayan döyüşçülər yox, səhra qoşunlarının əsgərləridir.

Beləliklə, türkyut qvardiyası yalnız sələfləri kimi çöl şəraitində deyil, həm də dağlarda hərbi əməliyyatlar aparmağa uyğunlaşdırılmış nizami süvari hissələrindən ibarət idi. Şübhəsiz, çölçü — uyğurlar onlarla heç cür bacara bilməzdilər. Bu sonuncular haqqında çinlilər gizlədilməyən nifrətlə yazırlar: «Döyüşlərdə sıraya düzülmürlər, əsas dəstədən ayrılaraq hücuma keçirlər. Qəflətən həmlə edirlər, qəflətən geri çəkilirlər, daimi ardıcıllıqla döyüşə bilmirlər». Türkyut zirehliləri həm çinlilərin piyada nizəçiləri, həm də iranlıların süvari oxatanları üçün eyni dərəcədə ləyaqətli rəqib idilər. Lakin bu barədə bir qədər sonra danışacağıq.

Turfan heykəlciklərindən başqa türkyut döyüşçülərinin qayaüstü təsvirlərinə Sulekdə (yuxarı Yenisey) təsadüf olunur. Səciyyəvi əyrisinə görə süvarinin buynuzdan düzəldilmiş kamanla silahlandığını müəyyənləşdirmək olar. Başqa bir

təsvir daha maraqlıdır: «... boğazından tutmuş budlarına qədər lövhəcikli zireh geymiş, qolunun yarısına çatan əlcək taxmış, sinəsində xırda, dəyirmi qalxan olan, qurşağına qılınc və oxdan bağlanmış, sağ əlində döyüş daşı tutmuş ağır silahlı atlı xırda bayraqla bəzədilmiş cidanı dizi üstə çöküb ox atan döyüşçüyə — Sayan meşə sakininə — dağlıya tullayır». Lakin zirehli süvarilərdən başqa türkyutlarda yüngül silahlanmış süvari atıcılar da vardı. Belələri bir qayda olaraq itaət altına alınmış xalqlar arasından seçilirdi. 1939-cu ildə Kopenı kəndi yaxınlığında aparılan qazıntılar zamanı S. V. Kiselev belə döyüşçünün bürünc lövhəcik üzərində çəkilmiş təsvirini aşkara çıxarmışdır. Onun uzun saçları küləkdə yellənir. Atlının başında papaq yoxdur. Saçını arxadan düyünlənmiş sarğı saxlayır. Orta uzunluqlu kaftanı beldən kəmərlə bağlanıb. Çəkmələri dabansız və yumşaqdır. Sağ böyründən aşağıya tərəf enliləşən ox qabı asılıb. Oxların ucluqları M şəkillidir. At çöl cinsindəndir, enli sinəlidir, yalı qısa vurulub, quyruğu isə hörülüb. Onun belində tam yəhər ləvazimatı var — yəhərin qabaq qaşı alçaqdır, yəhərin altından saçaqlı çul salınıb. Quyruqaltı və sinəbənd qayışlarından salxımcıqlar asılıb, üzəngilər enli və qövsşəkillidir, yüyən və cilov toxunmadır. Yəhərin arxasından hər iki tərəfə qayışlar sallanır. Lövhəciyin dəqiq tarixi VII əsrdir.

Beləliklə, arxeoloji material yazılı mənbələrdəki boşluğu doldurur. Türkyutlarda zirehli süvarilərin mövcudluğu onların sürətli qələbələrinin səbəbini aydınlaşdırır. Türkyutlara qədərki dövrdə döyüşlərin taleyini süvari oxçular həll edirdilər. Zirehlilərin meydana çıxması onların lüzumunu heçə endirir. Yüngül silahlanmış düşmənlə əlbəyaxa döyüşdə türkyut süvariləri tam üstünlüyə malik idilər. Süvari sıralarını da ilk dəfə türkyutların yaratdığını xüsusi qeyd etmək lazımdır. Çöl müharibəsində misli-bərabəri olmayan türkyut ordusu mühasirələr üçün demək olar ki, yaramırdı; çünki atdan enən zirehli əsgərin döyüş qabiliyyəti qat-qat azalırdı. Şəhər divarları türkyut dövlətinin genişlənməsinin qarşısında səddə çevrildi, Çinin və İranın müstəqilliyinin qorunub saxlanmasına kömək etdi. Lakin çöl şəraitində uzun müddət türkyut süvarilərinin qarşısına çıxan qüvvə yox idi.

**Dinc məşğuliyyətlər.** Türkyutların əsas məşğuliyyəti (hərbi işdən sonra) köçəri heyvandarlıq idi, iri, otyeyən heyvanların ovlanması da onların başlıca peşələrindən sayıla bilərdi. Həmin dövrdə belə çoxsaylı heyvan sürüləri böyük çöldə sərbəst otlayırdılar. İndi Qobi Altayı demək olar ki, qeyri-məskun yarımdüzənliklərdir, həmin dövrdə isə burada çoxlu vəhşi heyvan vardı və onları ovlamaqda az qala bütün tayfa iştirak edirdi. Pusqu xarakterli ov ovçulardan və heyvanları qovub gətirən adamlardan xüsusi səriştə və məharət tələb edir. Türkyutlar üçün bu işlə məşğul olmaq hər cəhətdən sərfəli idi. Çünki ov özünəməxsus hərbi manevrə, hərbi şücaətə hazırlıq mərhələsinə çevrilirdi. Dövrələmə çoxlu ət əldə etməyə imkan verirdi. Ət türkyutların başlıca qidası idi. Hətta müharibə vaxtı da onlar tükənən ehtiyatların yerini doldurmaq üçün ova çıxırdılar.

Vəhşi heyvanların və ev heyvanlarının dərisi paltara və çadır örtüyünə sərf olunurdu. Bununla bir sırada türkyutlar keçə və yun parçalar hazırlamağı da bacarırdılar.

Türkyutlarda heyvandarlığın ən geniş yayılan növü qoyunçuluq idi; türkyut qəbirlərinin qazıntısı zamanı oradan çoxlu qoyun sümükləri tapılır. Onlarda atçılıq da kifayət qədər geniş yayılmışdı, kumıs türkyutlar üçün şərabı əvəz edirdi. Hissələrə bölünmüş ərazi şəraitində köçəri heyvandarlıqda böyük sürülər saxlanması ciddi çətinliklər törədirdi, ona görə də köçərilər adətən heyvanlarını otlaqlara ayrıca aparır, hər ailənin məxsus qışlaq və yaylaq yerləri olurdu. VI—VIII əsrlərdə də eyni vəziyyət davam edirdi. Bunu ilkin mənbədən gətirilən aşağıdakı qısa, lakin son dərəcə konkret mətndən də görmək mümkündür: «Daimi qalmaq üçün yer yoxdur, lakin hərənin öz torpaq sahəsi var».

Belə aul təsərrüfatı sistemində hər qoşa ailə müstəqil iqtisadi vahiddir.* Bundan başqa kuren sistemi də mövcud idi; kurenlərdə bütöv ailə qrupu bir yerdə köç edir və gecələr düşərgələrini arabalar və keşikçi dəstələri ilə qoruyurdular. Əsrlər boyu bu sistemlər bir-birini əvəz etmişdi; onlar qətiyyən tayfa quruluşunun inkişafı, yaxud tənəzzülü ilə bağlı deyildi. «Çjoşou»da gətirilən faktlar «Tanşu»dakı analoji məlumatlarla tamamlanır. Burada oxuyuruq ki, 641-ci ildə türkyutlar Alaşana keçəndə bu yerlərdə «geniş örüşlər və ən yaxşı torpaqlar vardı, ona görə də türkyutlar həmin yerləri öz aralarında mübahisə ilə bölürdülər». Mənim 1948-ci ildə Altayda apardığım arxeoloji qazıntılar da göstərdi ki, türkyut abidələri ayrı-ayrı talalarda və çay vadilərində elə qruplaşıblar ki, bu torpaqdan istifadənin aul sistemindən başqa hər hansı bir formasını tam istisna edir. B. Y. Vladimirtsev göstərir ki, kuren sistemi təhlükəsizliyin təmin olunması məqsədini güdürdü. Buradan da aydın görünür ki, aul sistemi çöldə möhkəm və güclü hakimiyyətin mövcud olduğu, hər cür soyğunçuluğun, tayfalararası ədavətin qarşısının alındığı şəraitdə mümkün idi. Türkyut xanları da əslində belə bir hakimiyyət yarada bilmişdilər. Bu mənada aul köçündə və torpaqdan fərqi istifadədə qeyri-mümkün heç bir şey yoxdur.

Bizim dövrdə də ailələrin köçü müvafiq ərazilərlə qəti məhdudlaşdırılıb. Məsələn, Tyan-Şandakı hər dağ vadisi müəyyən ailəyə mənsubdur və həmin ailənin başçısı istənilən gəlməyə onun «vadisindən» keçib dağlara qalxmağa icazə verməyə bilər. Torpaqdan istifadənin bu sistemi köçəri maldarlığın təbiətindən irəli gəlir; örüş və otlaqların məhdudluğu, ən başlıcası isə suyun çatışmaması köçəriləri və sürülərini bölməyə məcbur edirdi. Nəticədə köçəri həyat keçirən ailələr də bölünməli olurdular. Otlaqların bölünməsi və onların sərhədlərinə ciddi nəzarət köçərilərin örüş, suvat və ov yerləri üçün qaldırdıqları amansız qardaş qırğınının

* Qadınlara daha böyük hörməti istisna etmək şərti ilə türkyut ailələrinin XIX əsr qazax ailələrindən fərqləndiyini düşünməyə elə bir əsas yoxdur.

qarşısını almaqdan ötrü yeganə vasitə idi. Lakin aydındır ki, torpaqdan istifadənin bu üsulunun xüsusi mülkiyyətə heç bir dəxli yoxdur. Çünki həmin torpaq sahələri alınıb-satılmırdı.

**Yaşayış məskənləri.** Tarixçi başqa xalqın mədəniyyətində özü üçün əhəmiyyətli görünən cəhətlər axtarmaq, onlar tapılmadıqda isə bu xalqı primitiv saymaq kimi olduqca təhlükəli metodoloji yayıntılardan qaçmalıdır. Məsələn, Avropa və Ön Asiyanın xalqları sivilizasiya mərhələsinə keçərkən arxitekturası təəccüb və heyrət doğuran şəhərlər tikmişdilər. Türkyutlar ev tikmir, bağ salmırdılar, çünki yaxınlıqdakı meşənin axırıncı ağacları yandırılan kimi soyuq iqlim onları həmin şəhərdən getməyə məcbur edirdi. Digər tərəfdən, daş evin, yaxud gil daxmanın isti, yüngül, daşınması heç bir çətinlik törətməyən keçə çadırla müqayisədə yaşayış məskəninin ən yüksək forması olduğu sübuta yetirilməmişdir. Təbiətlə sıx təmasda olan köçərilər üçün belə çadırlarda yaşamaq əyləncə yox, zərurət idi. Yayda çölün otları yanıb külə dönürdü. Mal-qara Tyan-Şanın, Altayın, Xanqayın, Xenteyin ətəklərindəki yaylaqda, Alp çəmənliklərində otlamalı idi. Qışda dağ ətəklərinə çoxlu qar düşdüyündən mal-qara qar örtüyünün nazik olduğu və yem tapmağın çətinlik törətmədiyi düzənliklərə qayıdırdı.

Bu cür həyat şəraitində səyyar yaşayış məskənləri daha sərfəli idi.

Çin şairi orta həyat səviyyəli köçərinin yaşadığı adi bir yurtu təsvir etmişdir. Xan yurtu isə hətta Vlaxeri sarayının dəbdəbəli salonlarını görmüş Menandr Protektoru — Bizans imperatorunun əsilzadəsini də heyrətləndirmişdi. O, içərisində qızıl taxt-tac olan çadırın təsvirini vermişdir — bu çadır o qədər yüngül imiş ki, onu bir at da apara bilərmiş. İkinci çadır içəridən başdan-başa ipək parçalarla örtülübmüş, üçüncü çadırda isə qızıl suyuna çəkilmiş sütunlar və xanın taxtını öz üzərində saxlayan qızıl tovuzquşu fiqurları varmış. Bütün bu zəngin zinət şeyləri müasir dövrə gəlib çata bilməzdi — ağac və xəz çürümüş, qızıl və gümüş təzədən əridilmiş, silah isə paslanıb dəmir tozuna çevrilmişdi. Lakin yazılı mənbələr əsrlər arxasından türkyutların qədim mədəniyyəti haqqında məlumat gətirmişdir. Bu mənbələr azsaylı arxitektura tapıntılarından daha qiymətlidir.

**Qadınların vəziyyəti.** Ayrıca ailənin çoban təsərrüfatı bir qayda olaraq patriarxal münasibətlərə əsaslanırdı. Çox güman ki, bu mənada türkyutlar da istisna təşkil etmirdilər. Elçilik təşəbbüsü kişilərin əlində idi və onlar «atanın, böyük qardaşların, əminin ölümündən sonra ögey analara, qardaş arvadlarına və əmi arvadlarına evlənirdilər». Bu məlumat faktlarla təsdiq edilir: məsələn, Nili xanın ölümündən sonra onun qardaşı Noşin-tigin taxt-tacla birlikdə mərhumun arvadına — Çin mələkəsi Syan-şiyə də sahib olmuşdu. Arvadların irsən keçməsi köçərilərdə ikili məna daşıyırdı. Əvvələ, evə, daha dəqiq desək, yurta ikinci işçi gəlirdi. Türkyutların həyat şəraitində bu çox vacib amil idi. İkinci tərəfdən, adət-ənənə dul qadınların hüquqlarını qorumağı tələb edirdi, başqa sözlə desək, yeni ər onun qayğısına qalmalı və öz arvadı kimi qorumalı idi. Ola bilsin ki, nigah həmişə

faktiki xarakter daşımırdı, lakin bununla belə dul qadın hamı tərəfindən tərk edilərək taleyin ümidinə buraxılmırdı.

Qadına münasibət nəzərə çarpacaq dərəcədə ehtiramlı, cəngavər səciyyəli idi. Yurta daxil olan oğul əvvəlcə anasına, yalnız bundan sonra atasına təzim edirdi. Orxon kitabələrində Kültiginin qadın qohumlarının ölüm təhlükəsi qarşısında qaldığı Ordanı necə müdafiə etməsi böyük pafosla təsvir olunur. Qadınların hüquqsuz vəziyyətdə olduqları xalqlarda — məsələn, Hindiquşdakı patanlarda düşmənlər onlara əl qaldırmırdılar.

Qadınların irsən bir kişidən başqasına keçməsi və kitabələrin mətni türkyutlar arasında poliqamiyanın mövcudluğunu ehtimal etməyə əsas verir. Lakin bu amil də türkyut qadınını hüquqsuz məxluqa çevirmirdi. Hətta qadının vəziyyətində nisbi asılılıq olsa da, onun ərinə təsiri kifayət qədər güclü idi. Bu cəhətə diqqəti cəlb edən Təbərinin yazdığı kimi, «türklərdə qadının vasitəsi ilə hər şeyə nail olmaq mümkündür». Ana tərəfin əsil-kök məsələsinə xüsusi əhəmiyyət verilirdi. Məsələn, şahzadə Toreminin taxt-tacdan uzaqlaşdırılmasının əsas motivi onun anasının «aşağı mənşəli» olması idi. Əlbəttə, bu yalnız bəhanə idi, siyasi əleyhdarlarının əl atdıqları hiylə idi, lakin arqumentasiya özü maraq doğurur. Türkyutlar arasında ümumən çox ciddi və sərt olan qanun qadının hüquqlarını qoruyurdu; ərli qadını zorlayanlar ölüm cəzasına məhkum edilirdi, qızı yoldan çıxaran adam isə mütləq ona evlənməli idi. Maraqlıdır ki, zorlama ən ağır cinayətlərlə — üsyan, xəyanət, qətl, çidarlı atın oğurlanması (çöl şəraitində bu cür oğurluq əslində atın ölümü ilə nəticələnirdi) ilə bir sıraya qoyulurdu. Adi oğurluq zərərdidənin xeyrinə on qat cərimə ilə cəzalandırılır, dava-dalaş zamanı bədənə xəsarət yetirənlər isə faiz ödəyirdilər.

Nəhayət, olduqca maraqlı bir adəti də qeyd etmək lazımdır. Həmin adət haqqında məlumat yalnız onun Tan epoxasında Çanyandakı musiqi məktəbinin tələbə qızları tərəfindən əxz olunması nəticəsində bizə çatmışdır. Zövqləri bir-birinə uyğun gələn qızlar öz aralarında təntənəli surətdə qardaşlıq müqaviləsi bağlayırdılar. Bu ittifaqa daxil olanların sayı 14—15 nəfərə çatır, lakin heç vaxt 8—9 nəfərdən az olmurdu. Həmin qızlar bir-birilərini qardaş adlandırırdılar və cavan oğlan onlardan hər hansı birinə evlənsə, dərhal həmin oğlan qadın adı ilə çağrılır və bütün rəfiqələr onun yanına «gəlinin dadına» baxmağa — yəni kişi ilə yatmağa gedirdilər. Cavan qadın ərini öz «qardaşlarına» qısqanmırdı, lakin digər qadın «qardaşlıqlarının» üzvləri ilə bu cür intim əlaqələr yolverilməz idi.

Mən bu tədqiqat əsərində türkyutlar arasında məcmu nigahın mənşəyi məsələsini araşdırmağı qarşıma məqsəd qoymamışam. Lakin onun mövcudluğu VI—VIII əsrlərdə türkyut cəmiyyətində qadının məzlum vəziyyəti ehtimalını tamamilə istisna edir*. Məncə, köçəri dünyasında qadının hüquqlarının

* İslamaqədərki dövrdə türklər arasında qadının yüksək vəziyyəti tədqiqatçıların əsərlərində dönə-dönə qeyd edilmişdir.

məhdudlaşdırılması sonrakı dövrlərin məhsuldar və ehtimal ki, monqol istilasından sonra bütün Orta Asiyanı bürümüş ümumi böhranla bağlıdır.

## VII f ə s i l

## TÜRKYUTLARIN DİNİ

Türkyutların qədim dini haqqında bizə gəlib çatan əsas məlumatlar «Veyşu» və «Suyşu» adlı Çin salnamələrində qorunub saxlanmışdı. Onlar olduqca ziddiyyətlidir, müxtəsərliklərinə görə ilk baxışdan o qədər anlaşıqlı görünmürlər.

«Veyşu» türkyut dininin aşağıdakı ayinlərini göstərir: «1. Günçıxan ölkəsinə ehtiram əlaməti kimi xanın iqamətgahına Şərq tərəfdən daxil olurlar; 2. Hər il bütün əyanlarla birlikdə əcdadların mağarasına qurban gətirirlər; 3. Ayın beşinci bədrinin orta dekadasında hamını bir yerə yığır və çay yaxınlığında göy ruhuna qurban kəsirlər; 4. Duqindən 500 li qərbdə hündür dağ var, həmin dağın zirvəsində nə ağac, nə də ot bitir, o, Bodın-inli adlanır. Tərcümədə bu «ölkənin hami ruhu» deməkdir».

«Veyşu»dan 50 il sonra tərtib edilən «Seyşu» (VII əsrin 30-cu illəri) yuxarıdakı məlumatları vermir. Sadəcə olaraq göstərilir: «Şeytanlara və ruhlara ehtiram bəsləyir, cadugərlərə inanırlar».

Bu, tamamilə əks versiyaları necə uyğunlaşdırmaq olar? Biz hələ birinci versiyanın özünün daxili ziddiyyətlərindən danışmırıq. Burada günəş kultu (1), əcdadlar kultu (2), əcdadlar kultunun fərqli olaraq əyanların yox, geniş xalq kütlələrinin sərvəti olan «Səma ruhu» kultu (3) və dağ kultu (4), qəribə şəkildə bir-biri ilə çulğalaşmışdır. Üstəlik Çin mənbəsi də məsələni qətiyyən aydınlaşdırmamışdır.

«Seyşu»nun məlumatında əsla aydınlıq yoxdur — Çin sözü olan «xu» həkim, pəri və cadugər mənaları verir. Bu ad altında kimin nəzərdə tutulduğu mətndən məlum olmur, türkyutların etiqad bəslədikləri ruhların xarakteri və səciyyəsi də müəyyənləşdirilmir; onların əcdad (kormos), yaxud təbiət ruhları (tos) olduğu bilinmir. Bu fəsil həmin müəmmalı mətnlərin təhlilinə həsr olunur.

Əsas problemi biz aşağıdakı şəkildə formulə edirik: qədim türkyutlar nəyə inanırdılar, onların dini dəqiq konsepsiyaya malik idimi, yoxsa müxtəlif inamların sintezindən ibarət idi? Əgər müxtəlif inamlar vardısa, hansılar idi?

Türkyutların qədim inamlarından danışarkən mən onları ibtidai saymaq fikrindən uzağam. Türkyutlar özləri V—VI əsrlərdə müxtəlif qəbilələrin birləşməsi nəticəsində yaranmışdılar, onların həmin epoxaya aid etiqadları da o dövrün digər dini sistemlər kimi eyni dərəcədə inkişaf prosesi keçirməkdə idi.

Romada sonuncu patritsi Tseteq Boetsinin «Müdrikliklə təsəlli» əsərini oxuyurdu. Konstantinopolda quruyub qaxaca dönmüş Suriya zahidləri ciddi görünüşlü yunan prelatları ilə Nikeya simvoluna Xalkedon əlavəsi haqqında

mübahisə edirdilər. Ktezifonda artıq həm Hörmüzə, həm də Əhrimənə inamlarını itirmiş İran əyanları taxt-tacla minbərin ittifaqını öz uzun nizələri ilə qoruyurdular. Soqdiya dehqanlarının qalalarında nəfsin öldürülməsini təbliğ edən, maqların əzab verdikləri peyğəmbərləri Manin tərifini göylərə qaldıran solğun bənizli dünyəvi din mübəlliğləri gəzirdilər. Çində başları təmiz qırxılmış Budda monaxları Konfutsi müdriklərinin narazılığına, layiqli davranış və idarə qaydaları haqqında parlaq ipək parça üzərində qara tuşla yazılmış hikmətli ifadələrə fikir vermədən imperatriçəyə dünyanın faniliyi və gəldi-gedərliyi haqqında vəz edirdilər. Karvan yolu Aralıq dənizindən Sarı dənizə kimi uzanırdı. İpək və ətriyyatla birlikdə bu yolla ideyalar, konsepsiyalar, sistemlər də dağlardan və düzlərdən keçərək başqa ölkələrə gedib çıxırdı. Türklər — bu torpaqların sahibləri bütün ölkələrin vaizlərinin dediklərini eşitməyə bilərdilərmi? Onların Sarı çayın sahillərindən çıxmış əcdadları maariflənmiş Çini, çiçəklənən Soqdiyanı, müqəddəs Turfanı didib-parçalayan mübahisələrdən xəbərsiz qala bilərdilərmi? Digər tərəfdən, şimalda həmişə qaynar qanlı və təsərrüfat altına tez düşən çoban-döyüşçülərə təsir göstərən sakit və müdrik Sibir uzanıb gedirdi. Bütün bu amilləri nəzərə almadan qədim türklərin dünyagörüşü, onun inkişaf prosesində uğradığı dəyişikliklər bizə aydın olmayacaqdır.

Xalq şəklində formalaşan ayrı-ayrı qəbilələr öz dini sistemlərini də gətirirdilər. Doğrudur, etiqad ünsürləri oxşar idi, lakin onların uyğunlaşması son dərəcə müxtəlif xarakter daşıyırdı. Bu mənada türkyutların dini də istisna təşkil etmirdi. Bu dinin xarakteri ilə bağlı aşağıdakı suallar meydana çıxır: nə üçün əyanlar və xalq ayrılıqda ibadət edirdilər? Xalq kimə ibadət edirdi? Əyanlar kimə ibadət edirdi? Əgər ali ruhani xanın özü sayılırdısa, cadugərlər kim idi?

Birinci suala cavab vermək asandır. Çünki türkyut cəmiyyətinin quruluşu və etnogenezi bizə aydındır. Türkyutlar mürəkkəb tərkibli xalq idilər. Aşinanın «500 ailəsi», gələcək «əyanlar» V əsrdə Ordosdan köçüb artıq türkdilli əhalinin yaşadığı Altayın cənub ətəklərində məskən salmışdılar. Hər iki etnik komponent vəhdət halında birləşdi, lakin onlar arasındakı fərqlər müəyyən mənada VII əsrin sonlarına qədər izlənilir. Bu fərqlər özünü ağ və qara sümüyə (aristokratiya və qara camaat) bölünmədə göstərir. Aristokrat mühitində vəzifələrin irsən keçməsi və «nəcib» ailələrin qızlarının qara camaatdan olan oğlanlara ərə getməsinin yasaq edilməsi də buna sübutdur.

«Veyşu» mətnləri VI əsrə aiddir. Həmin dövrdə təbəqələşmə daha aydın nəzərə çarpırdı. Ona görə də mənbə aristokratiya ilə qara camaatın etiqad fərqlərini xüsusi nəzərə çarpdırır. Bu fərq «Suyşu»da diqqətdən yayınmışdır. «Suyşu» çinlilərin istisnasız surətdə türkyut əsilzadələri ilə ünsiyyətdə olduğu dövrü əks etdirir. Əsilzadələrin hakimiyyəti nəhs 630-cu ilə qədər davam etmişdi. Odur ki, «Suyşu»nun məlumatı məhz aristokratiyaya aiddir. Lakin biz bu məsələni bir qədər sonra, müvafiq məqamda araşdıracağıq.

İndi də türkyut xalqının dini görüşlərinə müraciət edək.

Səma kultu — Tenqri Orxon kitabələrində də qeyd olunmuşdur: Əvvəlcə yuxarıda mavi səma, aşağıda isə qara yer vardı, onların arasında insan oğulları göründülər». Göy Tenqri adi, gözlə görünən göyə qarşı qoyulmuş maddi səma deyil. Düşünmək olar ki, «Göy ruhu» dedikdə çinlilər məhz Göy Tenqrini nəzərdə tuturdular. Göyə qurban vermək ayini hətta XIX əsrin sonlarında kaçinlilər arasında qeydə alınmışdır. Bu ayin Tıqır Taix adlanırdı. Onun icrası zamanı hamı ibadət edir, ibadət prosesi isə qoyun qurban kəsilməsi, kumıs, süd, ayran və ət suyunun yerə çilənməsi ilə müşayiət olunurdu. Bayram mərasiminə yaxın aulların kişiləri gəlirdilər. Qadınlar və şamanlar isə bu mərasimə buraxılmırdılar. İbadət obyekti «səma və günəş» idi. Çox ehtimal ki, bu məhz «Veyşu»da təsvir olunan ayindir. İki cəhəti xüsusi qeyd etmək lazımdır: əvvəla, şamanlar mərasimə buraxılmırdılar, ikincisi qurban verməyin əsas məqsədi «işığın» xeyir-duasını qazanmaq idi. Bu amillərin ikisi də çox vacibdir. Şamanların mərasimə buraxılmaması göstərir ki, həmin kult ölmüşlərin ruhu, yaxud xtonik «həqiqi» ruhlarla» deyil, tamamilə başqa ilahi qüvvə ilə bağlıdır: «yerlilərin inandırdığına görə, Taix mərasiminə düşən şaman ağlını itirir və dəhşətli əzablardan qıvrılaraq yerə yıxılır».

Bu hansı ilahi qüvvə idi? Təsvirdən yalnız onun atributunun işıq olduğu aydınlaşır; bu məlumat etiqadın spesifikliyini üzə çıxarır və həmin kultu günəşin səma cismi (Ra-helios), yaxud yaradıcılığın mənbəyi və ilhamverici qüvvəsi (Apollon) kimi digər məlum solyar (günəş) kultlarından ayırır. Əgər başqa bir etnoqrafik paralel — nqanasanlar arasında qeyd edilən «təmiz çum» bayramı olmasaydı, bu kult bizim üçün qaranlıq qalardı. Vaxtı ilə Kastren nqanasanların indi tamamilə türkləşmiş qədim Sayan uqrlarının ən yaxın qohumları olması ehtimalını irəli sürmüşdü. Ucqar Şimala sıxışdırılan nqanasanlar şaman demonolatriyasının təsirinə məruz qalmalarına baxmayaraq öz qədim kultlarını qoruyub saxlamışdılar. Onlar ildə iki dəfə payızda—qütb qışı başlanmamışdan əvvəl və yanvarın sonunda, günəşin ilk şüaları dağların zirvələrində görünəndə, günəşə—işığa qurban gətirirdilər. Aydın məsələdir ki, kultun ayin tərəfi yuxarıda təsvir edildiyindən tamamilə fərqlidir; «təmiz çum» mərasimini şaman keçirir. Nqanasanların təxminən min beş yüz il yeni şəraitdə, yeni qonşularla, ən başlıcası isə yeni ərazidə yaşamaları da öz təsirini göstərmişdir. Bir qədər sonra görəcəyimiz kimi, ərazi nəzərdən keçirilən kultda birinci dərəcəli rol oynamışdır. Lakin zahiri fərqlərə baxmayaraq tam qətiyyətlə təsdiq edə bilərik ki, türkyut xalqının, türkləşmiş Minusin uqrlarının və nqanasanların ibadət obyekti eyni olmuşdur—bu, günəş işığı idi. Buna əsaslanaraq biz nqanasanların teo — kosmik təsəvvürlərini bizi maraqlandıran türkyutların analoji təsəvvürlərinə ən yaxın saya bilərik. Nqanasan dininin doktrinası plyuralist animizmdir; insanlara arzulanan bütün xeyirli cəhətlər «pio» termini ilə bildirilir. Müəyyən obrazı olmayan, lakin son dərəcə müqəddəsləşdirilən maddi göy də bu terminlə ifadə edilir (türklərin Tenqrisi ilə müqayisə et). Kainatın yaradıcısı — Nəlatu nuo (yuxarıda xatırlatdığımız «səma

ruhu» ilə müqayisə et), onun işçisi Кои (günəş) yaradılmış dünyaya rəhbərlik edir, günəşin şüaları saplardır, bu saplar vasitəsi ilə bitkilərin ruhu günəşlə ünsiyyətə girir.

Günəş kultunun bu variantı olduqca orijinaldır, elə buna görə də onun Sibir şamanlığının digər növ müxtəliflikləri ilə qarışdığını qəti istisna etmək olar. Yeri gəlmişkən L. Y. Şterberqin artıq həmin məsələyə diqqət yetirdiyi qeyd olunmalıdır. Yeganə analoji doktrina manixeylikdə müşahidə olunur, lakin burada genetik əlaqə deyil, şəksiz konvergensiya nəzərə çarpmaqdadır.

Bu din animistik qenoteizm kimi səciyyələndirilə bilər, çünki S. A. Tokarevin tədqiqatlarında da göstərildiyi kimi, hər bir tayfa ümumxalq ali ilahi qüvvəsi—işıq və səma ilahisi ilə birlikdə öz havadarına, kiçik tayfa allahlarına malikdir. Onlar «tos» dərəcəli ruhlar sırasındadırlar, yəni əbədi həqiqətən mövcudların ruhlarıdır və «kosmoslarla» — ölmüş adamların ruhu ilə heç bir ümumi cəhəti yoxdur*.

Hətta «Səma ruhuna» (bax: Nəlata nuo) sitayiş də mühüm dəyişikliklərə uğramasına baxmayaraq, XX əsrin əvvəllərinə kimi qorunub saxlanmışdır. Səma ruhu fars mənşəli Xuday (allah) adını almış və sonralar şaman ruhlarından ən alisi sayılan Ulkendən fərqlənən xristian allahı ilə eyniləşdirilmişdir. Bu münasibətlə yer allahları kultu — toslara, yerli altaylıların «təbiətin sahibləri» — «Altaylılar», gəlmə irkıtların və soyonların isə «Yer—su» adlandırdıqları kultlara da toxunmaq zəruridir.

Yer—su (hərfi mənada «torpaq—su») dünyovi toslar sırasına daxildir və yer—su, bitki və s. sahiblərinin kultunda öz analogiyasını tapır. Nqanasanlarda yerin sahibi bədxah Fannida sayılır. O, çimin altında məskən salıb, ağzını açaraq ölmüş adamları gözləyir. Yer—su da amansız, qəddar allahdır. Ona boz, yaxud kəhər at qurban gətirirlər.

Şaman pərəstişgahı Ulkenlə Yer—su kultunun bir-biri ilə tam uyğunsuzluğu ırkıtların və soyonların Ulkene və şaman panteonundakı digər ruhlara dua etməmələri ilə də təsdiq olunur. Çünki bu tayfaların hər ikisi Sayandan nisbətən gec çıxıblar və ehtimal ki, onların kultu qədim Altay və nqanasan dini sistemləri arasında əlaqələndirici rolunu oynamışdır.

Bodın-inli dağına pərəstişin mənası L. N. Potapovun tədqiqatları sayəsində aydınlaşır. Müəllif qəbilə, soy mülkiyyəti olan yerlərə pərəstişlə, habelə nəsil və kultlarının çulğaşması arasındakı əlaqəni göstərə bilmişdir. Hər bir tayfanın öz «Altayı» var və o tayfa üzvlərini yemləyir. Bu dağların, çayların, göllərin ruhuna deyil, onların özünə pərəstişdir, başqa sözlə desək, təbiətin təcəssümü ilə deyil,

* Müasir altay şamanistləri ruhları iki dərəcəyə ayırırlar—«tos» əbədi mövcudluq ruhları və «yaadan neme» (hərfən «yaradılmış bir şey»)—ölmüşlərin ruhları. Yalnız toslara dini ehtiram göstərilir, mərhum şeytan hesab olunur. «Heç şeytana da ibadət edərlərmi?» (altaylı Kulyazin).

canlılaşdırılması ilə qarşılaşırıq. Bu animistik dünyagörüşün ən bəsit, ibtidai formasıdır və animatizm adlanır.

Aşina ordasına tabe olan Altay xalqının qədim dininin əsas cəhətləri bunlardır. Yuxarıda gördüyümüz kimi, «əyanların» əsas kultu xalq dilinə tamamilə yad olan əcdadlar kultu idi. Türkyutların Altaya XII əsrdə gələn nəsilləri — telelər və Çuysk telenqitləri qəbilə animistik kultundan kənarda dayanırdılar.

«Əyanların» mağarada qurban kəsdikləri əcdadların kim olduqlarını öyrənmək üçün türkyutların mənşəyi ilə bağlı əfsanəvi materialın təhlilinə müraciət edək. «Suyşu»da Aşina ordasının mənşəyi ilə əlaqədar tarixi arayışla yanaşı əsasında mif dayanan əfsanə də verilmişdir. Aşina nəsli çölə yayılıb özlərinin jujanların vassalları elan etdikləri VI əsrin əvvəllərinə qədər «mağarada» yaşayırdılar.

Dişi canavarın gizləndiyi mağaranın təsviri olduqca maraqlıdır. Mağara «Qaoçandan şimal-qərbdəki» dağlarda, — yəni Altayın mərkəzində yerləşirdi. «Dağlarda bir mağara yerləşir, mağarada isə əhatəsi bir neçə yüz il olan sıx otlu düzənlik var. Mağara dörd tərəfdən dağlarla əhatə olunub». Maraqlıdır ki, adi dağ dərəsi «Suyşu»da mağara adlandırılıb. Bu qeyri-dəqiqlik təəccüb doğurur və belə ehtimala əsas verir ki, biz bir əfsanənin mətni daxilində iki süjetin kəsişməsi — mifoloji (mənşəyini dişi canavardan götürmək) və tarixi (türkyutların bir hissəsinin əcdadlarının Altaydakı dağ vadilərinə qaçması) ilə qarşılaşırıq.

Həqiqətdə də bu tarixi süjet müsəlman müəlliflərindən Rəşidəddinin, Xondəmirin, Əbülqazinin əsərlərində bütöv şəkildə gətirilmişdir, həm də dağ vadisinin dəqiq adı göstərilmişdir. — Ərkənə kun — yəni sərt eniş. Çox güman ki, biz burada qədim tarixi hadisənin — 93-cü ildəki məğlubiyyətdən sonra şimal hunlarının Tarbaqatay keçidindən getməsinin və onların bir hissəsinin daimi yaşamaq üçün Altayda qalmasının əksi ilə qarşılaşırıq. Lakin indiki halda mifoloji süjet bizim üçün daha əhəmiyyətlidir — dişi canavar haradan peyda olmuşdur?

Hər şeydən öncə tele tayfasının mənşəyi haqqında da oxşar əfsanənin mövcudluğunu qeyd etmək zəruridir. Bu əfsanəyə görə, hun yanyununun atasının göylərə vəd etdiyi qızı canavardan bir oğlan doğmuş, bu oğlan isə tele tayfalarının başçısı olmuşdur. Aşina ordaları kimi bu tayfalar da Xalxuya Sarı çayın sahillərindən gəlmişdilər. Göründüyü kimi türkyutlar və teleslər eyni mifologemə malikdirlər. Əgər belədirsə, onda canavar — əcdada münasibətdəki totemistik ünsürün eyni qaynaqdan gəldiyini güman etmək tam təbii səslənir. Uyğurların və Aşina ordasının sözün həqiqi mənasında totemist olduqlarını iddia etmək böyük risqə yol vermək olardı. Çünki mənbələrdə onların canavara xüsusi münasibətləri barəsində heç nə deyilmir. Lakin biz burada həmin heyvana totem sitayişinin qədim izlərini görürük, öyrəndiyimiz dövrdə isə bu artıq əcdadlara sitayişə çevrilmişdi. Beləliklə, VII əsrdə Altayda iki dini sistemin — Sibir xalqları ilə bağlı animizmin, habelə türk və monqoldilli köçərilərin böyük çölün cənub

ucqarlarından gətirdikləri totemistik çalarlı əcdad kultunun mövcudluğunu görürük.

Türkyutların əcdad kultunun onun mənşəyini dəqiqləşdirməyə imkan verən spesifikasını da etiraf etmək lazımdır. Analoji xarakterli, hətta təfərrüatına qədər uyğun gələn etiqadlar exiritbulaqatlarda, yəni Baykal ətrafında yaşayan buryatlarda da müşahidə olunurdu.

Baykalətrafı buryatlar ardıcıl politeist idilər. Onların etiqadı dünyanı idarə eləyən 99 tenqriyə sitayiş idi. Hər tayfa öz tenqrisinə sitayiş eləyirdi. Lakin ən vacib cəhət budur ki, buryat «şamanı» (qəbul olunmuş son dərəcə qeyri-dəqiq terminologiyaya əsaslansaq) müalicə prosesində, yaxud yağış çağırarkən köməkçi ruhun qüvvəsinə müraciət etmirdi, dualarla tenqriyə üz tutur, əcdadların ruhundan yardım diləyirdi. Əcdadlar qətiyyən köməkçi ruhlar sayılmırdı. Onlar müdafiəçi və tenqri allah — qarşısında nümayəndələr hesab edilirdi. Eləcə də butlılar (müqəddəs əşyalar, iri daşlar, təsadüfən tapılan qədim predmetlər belə müqəddəs əşya ola bilərdi) öz-özlərinə (sehrli muncuqlar kimi) və içərilərindəki ruh (animizm) vasitəsi ilə deyil, tenqrinin - fərdiləşdirilmiş səma allahlarının sərbəst iradəsi ilə hərəkət edirdilər. Totemizmin reminessensiyası politeizmin bu cür inkişaf etmiş sistemi ilə uyğunlaşdırılırdı: din xadimi (onu şaman adlandırmaq olmaz) paltarında vəhşi heyvan təsvirli lövhəcik (məsələn, canavar, qu quşu, qaz və s.) gəzdirirdi. Həmin lövhəcik tayfanın yalnız burada təsvir olunan mifik əcdadla bağlılığını göstərirdi.

Göstərdiyimiz bənzəyiş uyğunlaşma deyil, genetik əlaqə faktı ilə üzləşmək baxımından da maraqlı və əhəmiyyətlidir. Exirit — bulaqatlar buryatların ən qədim hissəsidir, təsvir olunan ənənələr bizim eranın əvvəllərinə və V əsrdə Aşina ordasının çıxdığı etnik stixiyaya aiddir. Aşina əslən «qurd» idi. Odur ki, çox qədim əlaqənin mövcudluğu şübhə doğurmur; çünki buryatlar Baykalətrafına nüfuz edəndə Aşinanın ordaları artıq orada deyildi. Deməli, biz bir mədəni stixiyadan — qədim monqol syanbi mədəniyyətindən ayrılmış iki paralel xəttə təsadüf edirik.

Lakin artıq VI əsrin sonu — VII əsrin əvvəllərində əcdadların totemist kultuna saf halda təsadüf edilmir. Aşinanın gəlmə ordası ilə Altayın yerli sakinləri arasındakı sıx ünsiyyət sinkretik etiqadların yaranmasına imkan verdi. Türkyut xanlarının indiyə qədər açılmamış adları da buna sübutdur. Bu adlar Çin, fars və yunan transkripsiyalarında qorunub saxlanmışlar. Onları müxtəlif oxu variantlarının müqayisəsi yolu ilə şərh etmək mümkündür. Tobo xanın əsil adı Arsila (yunan mənbələrində) türk-monqol mənşəli Arslanın sinonimidir. Çin mənbələrindəki Buli — «Buri» deməkdir. Yeri gəlmişkən, bu adın «Şeni» (Şono) formasındakı monqol variantı da mövcuddur. Qərbdəki xanların tez-tez təsadüf olunan adları — «İbn» — «İbris» (qar pələngi), «Yuy-Qu» — «Yukuk» — bayquş kimi tərcümə edilir.

Bu adların heç biri kanonlaşdırılmamışdır, onlar təsviri xarakter daşıyır, şəxsin yaşının, ictimai vəziyyətinin dəyişməsi ilə əlaqədar həmin adlar da dəyişir.

Onları ləqəb adlandırmaq daha yerinə düşər. Yadda saxlamaq lazımdır ki, xan həm əyan, həm də xalq üçün rəhbər din xadimi idi; başqa sözlə desək, xaqanlıq sistemində hər iki kult çox əla yola gedirdi və tədricən onlar vahid dünyagörüşünə çevrilməyə başlamışdılar. Lakin bu proses tam həyata keçə bilmədi, çünki xaqanlıq süqut etdi və onun süqutu ilə birlikdə bütün qəbilə etiqadları sistemi də tənəzzülə uğradı.

L. P. Potapov və S. A. Tokarevin təsvir etdiyi qəbilə kultunun dumanlı xatirələri uca dağ zirvələri arxasında öz qədim ənənələrinin mühüm hissəsini qorumuş Altay meşə tayfalarının animizminə aiddir. Ucsuz-bucaqsız çöllərdə yaşayan Aşina türklərinin ənənələri isə tamamilə dəyişmişdi; ona görə də əcdadlarının totemist kultunun izləri az hifz olunmuşdur. Lakin bununla belə totemist əcdad kultu çöl xalqlarının mədəniyyətində böyük əhəmiyyətə malikdir. Odur ki, həmin kultun mənasını və təfərrüatlarını dəqiqləşdirmək lazımdır.

Hər halda türkyutların kimə — əcdad-vəhşi heyvana, yoxsa əcdad-insana sitayiş etdikləri aydın deyil. Əgər adamlara sitayiş edirdilərsə, məhz hansı adamlara? İstisnasız surətdə hamıya, yoxsa qəhrəmanlara? Əgər «Suyşu»nun mətnini nəzərə alsaq («ruhlara sitayiş edirlər») birinci variant sıradan çıxır, çünki yuxarıda da deyildiyi kimi, VII əsrdə çinlilər məhz türkyut əsilzadələri ilə ünsiyyətdə olurdular. Və o da aydındır ki, Çin mənbələrində adı çəkilən ruhlar VI əsrdə şərəflərinə qurban kəsilən əcdad ruhları idi. Lakin məsələ tam şəkildə daha sonrakı dövrlərin məlumatı əsasında aydınlaşır. Bu məlumatlar X əsrin əvvəllərindəki ərəb kompilyasiyalarından olan Əbu-Dulafın risaləsindən götürülüb və əslində bizim nəzərdən keçirdiyimiz kulta birbaşa aidiyyəti yoxdur. Həmin mənbə göstərir ki, hələ islamı qəbul etməmiş karluklarda «divarlarına qədim hökmdarlarının şəkilləri çəkilmiş məbədlər var». Qədim dunxular da eyni şəkildə «öz igidlikləri ilə məşhurlaşan mərhum ağsaqqallarına» sitayiş edirdilər. Karlukların qərbi türkyutlarla əlaqəsi «Tanşu»dakı müstəqim məlumatla müəyyənləşdirilir. Çin salnaməsində «qolelular», yəni karluklar türkyut nəsli adlandırılır. Beləliklə, bu dəfə artıq dəqiq təsdiq etmək olar ki, türkyut əyanları əcdad-qəhrəman kultuna vardı. Bu kult türkyut xalqının təbiətin animistik ilahiləşdirilməsinin ziddinə olaraq totemist dünyagörüşündən nəşət etmişdi.

Bu məsələ ilə əlaqədar türkyutlar arasında ruhun ölməzliyi və o biri dünyanın mövcudluğu haqqındakı təsəvvürləri də qeyd etmək zəruridir. 576-cı ildə İstemi xanın dəfni zamanı mərhumu o biri dünyada «müşayiət etmək» üçün «dörd nəfər əsir hun»da edam olunmuşdu. 649-cu ildə imperator Taytszunun dəfni zamanı Aşina Şeni hökmdar dostundan ayrılmamaq üçün özünü doğramaq istəyirdi. Bu faktların hər ikisi göstərir ki, türkyutlar o biri dünyadakı mövcudluğu yerdəki həyatın davamı sayırdılar; bu təsəvvür kifayət qədər geniş yayılmışdır, lakin dini şüurun inkişafının ən ilkin mərhələsinə aiddir və animizmdən insanda çoxlu deyil, fərdi ruhun mövcudluğu fikrinə əsaslanması ilə fərqlənir.

Lakin onda şamanizm özü — əbədi mövcud və təbiətlə heç bir əlaqəsi olmayan tos-ruhlarla ünsiyyət (ehtiramsız, təzim xarakterli ünsiyyət, istisnasız olaraq praktiki xarakter daşıyan, psixoloji və seksual ekzaltasiya yolu ilə əldə edilən ünsiyyət) haradadır? Qaval zərbələri ilə əbədi ruhları mərhumların ruhları ilə mübarizəyə çağıran şamanlar hardadır? Təsvir etdiyimiz sistemlərin heç birində köməkçi ruhlara təsadüf olunmur. Onlarsız isə şamanın mövcudluğu qeyri-mümkün idi. Onlarsız kultun əsasını təşkil edən şamanlıq da mümkün deyildi. Doğrudur, nəzərdən keçirdiyimiz mətnlərdə cadugər və fəriştələr haqqında müəyyən xatırlatmalar hələ qalmaqdadır, lakin onlara şaman funksiyası müncər etməzdən əvvəl, bu cadugər və fəriştələrin nə ilə məşğul olduqlarını dəqiqləşdirmək lazımdır.

Firdovsinin «Şahnamə» poemasında Herat yaxınlığında türkyutlarla (müəllif onları Çin türkləri adlandırır) İran sərkərdəsi Bəhram Çubinin vuruşması haqqında hekayə var. Şairin haqqında söz açdığı epizod bir sıra digər mənbələrlə — Təbərinin, Səələbinin, Balaminin, Mirxondun, Sebeosun əsərləri, VII əsrin Suriya və X əsrin İran anonim mənbələri ilə tutuşdurulmuşdur. Bu müqayisələr əsasında məlum olmuşdur ki, Firdovsi də yuxarıda adları çəkilən müəlliflərin əsaslandıqları ilkin mənbələrdən faydalanmış, həm də onlara nisbətən dəqiqliyə daha çox riayət etmişdir. Firdovsinin hekayətində başqa müəlliflərin nəzərdən qaçırdıqları, bizim üçün isə son dərəcə əhəmiyyətli olan bir sıra detallar var. Şair türkyut cadugərliyini və cadugərini təsvir edir. Həlledici döyüş ərəfəsində Bəhram Çubin dəhşətli yuxu görür. O, görür ki, türklər şirə çevriliblər, qoşunları darmadağın edilib, düşmənlər Ktezifonun yolunu tutublar, o özü isə at istəyə-istəyə piyada yol gedir. Nəhs əlamətlərə baxmayaraq Bəhram döyüşə girir. Türklər farsları qorxutmaq üçün cadugərliyə əl atırlar. Cadugərlər göy üzünə alov tullayırlar, həmin alovdan dəhşətli külək və qara buludlar yayılır. Buludlardan isə farsların başına ox yağmağa başlayır. Lakin Bəhram qışqırır ki, bu sadəcə yalandır, əslində heç bir ox yoxdur, cadugərlər öz istədiklərinə çata bilməyiblər. Farsların qələbəsi ilə qurtaran döyüşdə türkyut cadugəri də əsir tutulur. O, dəhşətli yuxunu Bəhrama göndərdiyini etiraf edir. Əgər hekayənin türk mənşəyi etnoqrafik paralellərdə dəqiqləşdirilməsəydi, Firdovsinin təsvir etdiyi epizodu fars əfsanəsi kimi də qəbul etmək olardı.

Yueban ilə bağlı hekayədə soyuq və yağış çağıra bilən cadugər haqqında danışılır. Jujanlarla müharibə vaxtı Yueban cadugərləri qar fırtınası çağırmış və onu düşmənin üstünə yönəltmişdilər. Jujanlardan o qədər adamı don vurmuşdu ki, onlar hərbi yürüşü yarımçıq qoyub evə qayıtmağa məcbur olmuşdular. Qriqori Turski də eyni əfsanə haqqında məlumat verir. Avar-frank müharibəsi zamanı avar cadugərləri dolu qarışıq fırtına çağırmışdılar. Üstəlik onların iradəsi ilə firəng düşərgəsinə ildırım düşmüş, nəticədə firənglər məğlub edilmişdilər. Nəhayət, belə sehrli üsullardan istifadə naymanlara da şamil edilir. Rəşidəddin xəbər verir ki, Camuxa başda olmaqla tayfalar ittifaqının Çingiz xanın üzərinə yürüşü zamanı

(1201-ci ildə) nayman cadugərləri fırtına çağırmış, lakin onun hərəkətini düzgün hesablamadıqlarından təbii fəlakət özlərinə qarşı çevrilmiş və Çingizin qələbəsinə mühüm kömək göstərmişdi.

Bütün bu əfsanələrin kökü cadugərlik vasitəsi ilə havanı idarə etməyin mümkünlüyünə inamdan irəli gəlir. Müəlliflərdən yalnız Firdovsi kütləvi hipnozun mövcudluğunu ehtimal edərək əfsanədə rasional toxum axtarmağa çalışır. VI—XII əsrlərdə türklərdə və monqollarda bu etiqadların mənşəyinin necəliyindən asılı olmayaraq söhbət qətiyyən köməkçi ruhların çağırılmasından deyil, simpatik magiyadan gedir, yəni türkyut terminologiyasından istifadə etsək biz burada kamanı (şamanı) deyil, yadaçını (cadugəri) görürük.

Yada (cadu) vasitəsi ilə XX əsrə qədər inəyin, atın, yaxud qabanın mədəsindən çıxarılmış daşa əfsun oxumaqla yağış çağırmaq üçün istifadə olunurdu. «Yadanın» təsiri ruhların çağrılması ilə bağlı deyil, onların köməyinə də ehtiyac yoxdur. Burada biz şaman spiritualizmi ilə heç bir genetik əlaqəsi olmayan simpatik magiyanın tipik nümunəsi ilə qarşılaşırıq.

«Yada» haqqında ilk məlumat VII əsrdə yaşamış naməlum Suriyalı rahibin xronikasında öz əksini tapıb. Burada Mərvli patriarx Eliasın dövründə, yəni bizi maraqlandıran dövrdə baş vermiş hadisələr təsvir olunmuşdur. «Yada» sözünün özü fars dilindən götürülüb və «cadugər», «sehrbaz» mənalarında işlənir. «Şaman» sözünün İranda məlum olmasına baxmayaraq Firdovsi türkyut cadugərini məhz «yada» adlandırır. Bundan əlavə, Firdovsi cadugərliyin göyə alov atılması yolu ilə həyata keçirildiyi barəsində məlumat verir. Bu xüsusiyyət paralel məlumatlarla da təsdiq olunur. Menandr Zemarxın başçılığı ilə türkyut xanının yanına yollanan səfirlik (568-ci il) haqqındakı hekayətində təmizləyici preventiv cadugərliyin bizim diqqətimizi çəkən nümunəsini gətirir: «Bu tayfadan olan bəzi adamlar deyirdilər ki, guya onlar bədbəxtliyi qova bilərlər. Zemarxın yanına gəldilər, romalıların özləri ilə gətirdikləri şeyləri götürdülər, onların hamısını bir yerə topladılar, sonra sidr budaqlarından tonqal qaladılar və iskit dilində nə isə barbar sözlər pıçıldamağa başladılar. Eyni zamanda zəng səslənməyə və həmin şeylərin üzərində qaval zərbələri eşidilməyə başladı. Onlar sidr budağını fırladır, budaq isə odun hərarətindən çatıldayırdı. Artıq cəzb vəziyyətində olan bu adamlar isə hədə-qorxu gələrək yanan ruhları qovurdular. Deyirdilər ki, onların yad ruhları qovub adamları şərdən xilas etmək qabiliyyəti var. Guya bütün fəlakətləri qovandan sonra onlar Zemarxın özünü də tonqal üstündən keçirdilər və bu vasitə ilə özlərini də təmizlədilər.

Yalnız od vasitəsi ilə təmizləndikdən sonra Zemarx xanın yanına buraxıldı».

İlk baxışdan biz burada kamlaniya ünsürləri görürük: cəzbolma, qavalçalma və s. Lakin səhnəni diqqətlə nəzərdən keçirdikdə həmin fikir sıradan çıxır. Əslində burada çağırış yox, bəd ruhları odun müqəddəs qüvvəsi ilə qovmaqdan danışılır, başqa sözlə desək, spiritualizm yox, magiya mövcuddur. Bəd ruhları odun köməyi ilə qovmaq haqqındakı təsəvvür Avstraliyadan tutmuş Bavariyaya qədər geniş bir

ərazidə yayılmışdır və heç bir cəhətdən müstəsna, yaxud orijinal sayıla bilməz. Eyni etiqadı biz XIII əsrdə rus knyazlarını odun təsiri ilə təmizlənməyə məcbur edən monqollar, habelə tonqala zibil deyil, yalnız səliqə ilə doğranmış odun parçaları atan müasir buryutlar arasında da tapırıq. Sözün qısası, oda pərəstiş həm forması, həm də mənası etibarı ilə ruhların çağrılması ilə tam ziddiyyət təşkil edir.

F. Ratselin Mərkəzi Asiyadakı od kultunun zərdüştiliklə əlaqəsi haqqındakı ehtimalı da həqiqətdən uzaqdır. Çünki burada yalnız zahiri bənzərlik var. İranda möbüdan — möbüd müqəddəs oda yaxınlaşarkən sifətinə örtük taxırdı ki, nəfəsi ilə odu murdarlamasın, türkyutlarda isə od vasitəsi ilə bəd ruhları, yəni dünyadakı ən şər qüvvələri qorxudurdular. Məsələ burasındadır ki, İranda od dini sitayiş obyekti, türkyut tayfalarında isə magiya vasitəsi idi, yəni əslində onların arasında heç bir oxşarlıq müşahidə olunmurdu. İndi biz əsas məsələyə lap yaxınlaşmışıq — bəs şamanların «qara dini», ruh — köməkçilərin kultu hardadır?

Yuxarıda gətirilən məlumatların təhlili göstərir ki, VI—VII əsrlərdə türkyutlarda bu sistem mövcud deyildi. İstər «kam» termini, istərsə də «kamlanie» özü ilk dəfə XII əsrdə qeydə alındığından Cunqariya və Altay türkləri arasında kamlaniniya VII—XII əsrlər arasında meydana çıxması fikrinə üstünlük vermək zəruridir. Həqiqətən də, VI—IX əsrləri əhatə edən epoxa Mərkəzi və Orta Asiya xalqlarının mədəniyyətində böyük sıçrayışlarla səciyyələnir.

## VIII f ə s i l

## FİKİRLƏR VƏ ŞÜBHƏLƏR

**Kitaba bəraət qazandırılması.** Oxucu xaqanlığın meydana gəlmə tarixi, onun öz mövcudluq uğrunda mübarizə şəraiti və real imkanları ilə tanış olduqdan sonra tədqiqat metodikasının təhlilinə, habelə mövzunun ümumi və spesifik məsələləri üzrə özlərinin fərqli baxışlarını şərh etmiş alimlərin fikirlərinə müraciət yerinə düşər.

İlk növbədə müəllif belə bir suala cavab verməlidir. O öz kitabını kimin üçün və nə üçün yazıb? Cavab verirəm:

Mənbələrin və xüsusi ədəbiyyatın bolluğuna baxmayaraq Orta Asiya köçərilərinin tarixini Romanın, Yunanıstanın, Bizansın, Fransanın, Britaniyanın, Rusiyanın, yaxud Yaxın Şərq ölkələrinin tarixi kimi oxumaq qeyri-mümkündür; çünki belə bir tarix yazılmayıb. Bunun zərbəsi ilk növbədə geniş oxucu kütlələrinə, daha sonra qovuşuq sahələrdə çalışan tarixçi-mütəxəssislərə və nəhayət köçəriliklə məşğul olan mütəxəssislərə dəyir. Xüsusən mütəxəssislər günü-gündən çoxalan biblioqrafiya dənizi içərisində batmaqdadırlar.

Mənbələri tarixi tənqid metodları tətbiq etmədən oxumaq mənasızdır, xüsusi məsələlərə həsr edilmiş çoxsaylı məqalələr isə ziddiyyətlidir. İrəliyə doğru

hərəkət üçün ara-sıra görülmüş işlərə yekun vurmaq zəruridir. Müəllifin elmi fikrin inkişafı ilə bağlı qarşısına qoyduğu ilkin vəzifələrdən biri budur.

Başqa bir aspekt. Sibir və Mərkəzi Asiyanın qədim xalqlarını yalnız Çinin, yaxud İranın qonşuları kimi nəzərdən keçirmək təcrübəsinə son qoymaq lazımdır. Nəhayət, onların tarixlərinin və mədəniyyətlərinin müstəqil inkişafı haqqındakı mübahisəsiz həqiqətdən təcrübi nəticələr çıxarılmalıdır. Bu qədim xalqların necə yaşadıqlarını, hiss etdiklərini, qələbə çaldıqlarını və məhv olduqlarını yalnız bu yolla başa düşmək olar. İndinin, hətta gələcəyin qaynaqları keçmişin dərinliklərində gizlənir. Axı həm də qədim türklər bir çox Sovet İttifaqı xalqlarının əcdadlarıdırlar.

Nəhayət, bəşəriyyət tarixinin ümumi qanunauyğunluqları variantlar nəzərə alınmadan öyrənilə bilməz.

Biz bilirik ki, inkişaf spiral üzrə gedir. Lakin onda burumlar və ziqzaqlar da olur. Ahəstə, təkamül xarakterli inkişafla bir sırada sıçrayışlara və ənənələrin qırılması hallarına da təsadüf edilir. Əsas istiqamət baxımından ümumi olan tarixi proses müxtəlif ölkələrdə özünəməxsusdur. Fərqləri nəzərə almaqdan yalnız oxşarlıqlara əsaslansaq, əvvəlcədən özümüzü hadisələri anlamamağa məhkum etmiş olarıq.

Tarixi prosesin dövrləşdirilməsi yalnız böyük yaxınlaşma zəminində mümkündür. Çünki əks təqdirdə, epoxalar arasındakı fərqlər nəzərə çarpmır və tarix hadisələrin kaleydoskopu təsirini bağışlayır. Asiya durğunluğu haqqındakı avropasentrist konsepsiya məhz lazımi dəqiqliyin çatışmaması (yaxud çox şeyin nəzərdən qaçırılması) zəminində mümkün olmuşdur. Təbii ki, «Ümumdünya tarixi»nin bu mövzuya həsr edilmiş qısa və müəmmalı fəsilləri də mövcud konsepsiyanı rədd edə bilmir.

Oxucuların diqqətinə təqdim olunan bu əsər faktların toplanması ilə fəlsəfi dərki arasındakı zəruri orta mərhələdir. Bu sözün həqiqi mənasında tarixdir, yəni hadisələrin əlaqəli şəkildə və ardıcıllıqla öyrənilməsidir.

**Material toplanması texnikası.** Yazısı olmayan, yaxud yazısı bizə gəlib çatmayan xalqların tarixinin tədqiqi həmişə spesifik çətinliklərlə bağlıdır. Bu çətinliklər xalqların tarixini salnamələr əsasında yazan müəlliflərə bəlli deyil. Türklərin mövcud tarixi əsərləri qorunub saxlanmamışdır, kitabələr isə onları əvəz etmir. Ona görə də başqa dillərdə yazılan və tərcümələr vasitəsi ilə elmi dövriyyəyə daxil edilən narrativ mənbələrə əsaslanmaq lazım gəlir.

Lakin müxtəlif mənbələrdəki məlumatlar eyni dərəcədə əhəmiyyətli deyil və bir sıra hallarda inandırıcı görünmür. Səbəblər fərqlidir: bəzən qədim müəllifin məlumatının azlığı, bəzən onun materialı təqdim etmə üsulu, bəzən açıq tendensiyalılıq (müasirlər həmişə tərəflərdən birinin mənafeyini müdafiə edən adamlar olurlar), bəzən isə VII əsr səviyyəsində dayanan elmi fikrin hipotezalara meyli bu müxtəlifliyi yaradır. Ona görə də tarixi tənqid və XIX — XX əsr alimlərinin təhlili ilə yoxlanmış, bu səbəbdən yaxınlıq aberrasiyasını istisna edən

məlumatlar daha inandırıcıdır. Yalnız bu cür məlumatlar tarixi sintezin əsasında dayana bilərlər.

Hadisələrin tarixi mədəniyyətin tarixindən prinsipcə fərqlənir. Əgər ikinci halda orijinalların üslub çalarları da bizim üçün qiymətlidirsə, birinci halda ən maraqlı qiraət — xronoloji cədvəllər və tarixi xəritələr üzərindəki yazılardır.

**Mənbələrin tədqiq üsulu.** Mövzunun mürəkkəbliyi və çoxcəhətliliyi tarixi tənqid və təhlil prinsiplərinə olduqca diqqətli yanaşmağa məcbur edir. Ən dolğun mənbələr Çin sülalə xronikaları olduqlarından N. Y. Biçurin, St. Jülyen, E. Şavann və Lyu Mao-tszay onlara əsaslanmış, nadir hallarda bu mənbələri yunan və ərəb-fars məlumatları ilə tamamlamışlar. Belə yanaşma tərzi labüd şəkildə həmin tədqiqatçıların əsərlərində onların arzusundan asılı olmayaraq orta əsrlər Çin tarixi ənənələrinin üstünlüyünə gətirib çıxarmışdır. Lakin tarixi tənqid nöqteyi-nəzərindən həmin təmayülün yanlışlığı göz qabağındadır. Bir də ümumiyyətlə, xalqın tarixini istisnasız şəkildə onun əleyhdarının mövqeyindən öyrənmək olmaz.

Hadisələrin real gedişi əsasında qədim türklərin tarixini yazmaq üçün Çin salnamələrindəki bütün faktların tənqidi tarixi dərki tələb olunur. Bu iş bütün başqa çətinliklərlə birlikdə Çin salnaməçiləri arasında qəbul edilmiş ifadə tərzi ilə daha da mürəkkəbləşir. Salnamədə «müvəffəqiyyətə nail ola bilməyib» deyilirsə, deməli söhbət Çin ordusunun tamamilə darmadağın edilməsindən gedir; «sərhədi çapıb talamışlar» — düşmən süvarilərinin ölkənin içərilərinə doğru uzunmüddətli hücumu, yaxud hər hansı bir üsyançıya kömək göstərmək üçün aparılan təxribatdır. Yeri gəlmişkən, bu salnamələrdə üsyançılar haqqında bir sətrə də təsadüf olunmur, onlarla bağlı məlumatı başqa mənbələrdə axtarmaq (xoşbəxtlikdən Çin tarixinin bütün hadisələri dəqiq ili ilə verilir) və hadisələrin gedişini faktların müqayisəsi yolu ilə müəyyənləşdirmək lazım gəlir. Dolaşıqlıq, bəzən isə saxtalaşdırma təsadüfi deyil: bu, salnaməçinin məğlubiyyət haqqında Çinin hakim ictimai təbəqələrinin qulağını oxşayan bir tərzdə məlumat vermək məcburiyyətindən irəli gəlir.

Lakin Çin salnaməçilərinin əsərlərində təsadüf olunan ən təhlükəli tarixi metod — adi volyuntarizmdir. Onların fikrincə, türkyutlar üzərindəki qələbənin səbəblərini araşdırmağa əsla ehtiyac yoxdur — təbii ki, çinlilər həmişə, hər yerdə qalib gəlməlidirlər. Bəs onda məğlubiyyət necə olsun? Burada əksər hallarda yağışlar və şaxtalar, bəzən isə ayrı-ayrı sərkərdələr, yaxud imperatorlar günahkar olurdular, onların hər biri haqqında lazım gəldikdə adamı nüfuzdan salan bir neçə söz tapıb demək mümkün idi. Rəhbərin fərasətsizliyinin işə xeyir vermədiyi mübahisəsiz faktdır, lakin Çin cəmiyyətindəki sinfi ziddiyyətlər orta əsrlərə dair mənbələrdə həmişə xarici hadisələrdən kənar təqdim edilir, bunun nəticəsində də onların arasındakı əlaqə qırılır. Mövcud qüsur yalnız Çin tarixinin bizim tədqiqatımızda gərək olduğundan daha artıq bir dəqiqliklə öyrənilməsi yolu ilə aradan qaldırıla bilər. Dəf edilməsi az qala mümkün olmayan çətinlik tarixi coğrafiya problemləri ilə bağlıdır; çünki Çin müəllifləri bir sıra hallarda əksər

şəhərlərin (qəza şəhərləri də daxil olmaqla) adlarını dəyişirlər. Lakin xoşbəxtlikdən, İ. Y. Biçurinin tərcüməsində Da Tsin İ-tun-çjinin Çin coğrafiyasındakı dəyişmiş yer adlarının külliyyatını əldə etmək mümkün olmuşdur. Bu əsaslı mənbə qədim türklərin və digər köçərilərin, habelə Çinin özünün tarixinin yazılmasına hazırlıq mərhələsi kimi tərtib edilmişdi.

Əhəmiyyətinə görə ikinci qrup mənbələr — türk başdaşı kitabələri tamamilə başqa yanaşma tərzi tələb edir. Onların böyük əksəriyyəti bir epoxaya — VIII əsrin son rübünə aiddir, siyasi və tarixi həyatdakı iki fikrin — Yolluqtəkinlə Tonyukukun mübahisəsindən ibarətdir. Kitabələr kompozisiya baxımından demək olar, bir-birinin təkrarıdır, lakin hadisələri diametral əks istiqamətdə şərh edirlər. Burada tarixi tənqid üçün geniş meydan açılır. Müəlliflərin bizə məlumluğu həmin vəzifəni daha da asanlaşdırır. Nəticədə hər bir konkret təsadüfdə düzəlişlər etmək və polemik hücumları tarixi həqiqətdən ayırmaq mümkündür.

İndiyə qədər şərh edilməyən kiçik kitabələr arasında Xoyto-tamir kitabəsi xüsusilə əhəmiyyətlidir. Bunlar türk dilində qələmə alınmış şer parçalarıdır və bizə məlum olan poetik nümunələrin ən qədimidir.

Kitabələr tarixçilərin diqqətini dönə-dönə cəlb etsə də, onlar bu əsərdə təqdim olunan aspektdə nəzərdən keçirilməyib. Lakin yalnız Xoyto-tamir kitabəsi qədim türk cəmiyyətində siyasi cərəyanların mövcudluğunu aşkara çıxarmağa və onların xarakterini müəyyənləşdirməyə imkan verir. Başqa sözlə desək, biz monoloqların dialoqa çevrilməsinə, oxucuya qədim türklərin yalnız sözlərinin deyil, onların siyasi polemikalarının intonasiyasının da çatdırılmasına çalışmışıq.

Bizans, erməni və ərəb-fars müəlliflərinin əsərlərində türklər haqqında məlumat ya həddindən artıq qırıq-sökükdür, ya da kriptoqrammaya bənzəyirlər. Türk adları onların transkripsiyasında tanınmaz şəklə düşüb, həm də əksər hallarda titul şəxsi ad, yaxud da əksinə, şəxsi ad titul kimi verilir. Lakin ümumi məcraya daxil edilən yunan-erməni və ərəb-fars mənbələri bəzi boşluqları doldurmuş və Çin tarixçilərinin əsərlərindəki şübhəli yerlərin şərhinə kömək etmişlər.

Bu məsələ ilə əlaqədar qədim türk onomastikası probleminə diqqət yetirmək yerinə düşər. Bu problemin çətinlikləri və imkanları əvvəllər lazımınca qiymətləndirilmirdi. Türklər avropalılar kimi doğulandan ölənə kimi bir ad daşımırdılar. Türkün adı həmişə onun cəmiyyətdəki mövqeyini göstərirdi. Uşaq vaxtlarında onun ləqəbi, cavanlıqda rütbəsi, ahıllıqda isə titulu olurdu. Əgər o xan idisə, titulu qohumluq, bölgə sisteminə görə dəyişirdi.

Bundan əlavə türkün adı çinlinin dilində ərəbin, farsın, yaxud yunanın dilində olduğu kimi səslənmirdi. Biz müxtəlif vaxtlarda kimin niyə müxtəlif adlarla çağrıldığını müəyyənləşdirə bilmişik. Lakin problemin ən maraqlı hissəsi də bundan sonra başlanır: çinlilər heroqlifləri təsadüfi seçmirdilər, onların yalnız bir hissəsi türk fonemini təsvir edir. Əksər heroqliflər adın daşıyıcısı olan türkə yaxşı, yaxud pis münasibəti ifadə etmək üçün xüsusi olaraq seçilirdi. Adların heroqliflərlə təsviri əsasında Çin siyasətinin bəzi çalarlarını duymaq mümkündür.

Mən adların bərpası üzərində sinoloq M. V. Xvanla birlikdə işləyirdim. O, hər bir heroqlifin VI—VII əsrlərdə necə səsləndiyini və hansı mənanı ifadə etdiyini müəyyənləşdirirdi. Bu məlumatların türk sözləri və ad sahiblərinin tərcümeyi-hal detalları ilə müqayisəsi mənə bir sıra türk adlarını əslinə daha yaxın bərpa etməyə imkan verdi. Məsələn, əvvəllər qəbul edilmiş «İbi Şabolo Şexu kexan» adı «İrbis Işbara Cabqu — xaqan» kimi oxunmalı idi. Tərcümədə bu ad belə səslənir: «Qar pələngi amansız//qüdrətli ağsaqqal xan». Bir sıra mövcud oxu variantları təshih edilmişdir. Məsələn, E. Şavannın «bilgə» — yəni «müdrik» kimi tərcümə etdiyi «Buqya-kexan» əslində «Boke» yəni «qüdrətli» kimi verilməlidir.

Bərpa etdiyim adların çoxu ehtimali xarakter daşıyır, lakin mən Çin dilindəki düzgün səslənməyən adlardansa, onları mətnə daxil etməyi daha üstün tutdum. Lakin oxucunu istiqamətləndirmək üçün Çin variantları da şərhlər hissəsində saxlanılmışdır. Burada türk adlarının ərəb, fars və yunan dilindəki yazılış formaları da verilib, çünki əlifba yazısı heroqliflərin qüsurlarını asanlıqla aradan qaldırır.

Lakin ilk baxışdan asan görünən işin — ad transkripsiyasının vahidləşdirilməsinin öhdəsindən gələ bilmədim. Türk, Çin və Tibet adları üçün beynəlxalq transkripsiya mövcud deyil. Müxtəlif Avropa dillərində orfoqrafiya fərqlidir, çünki 1200 il ərzində fonetika dəyişilib, digər tərəfdən isə o, dialektlərlə bağlıdır. Çıxarışlarda adları istinad edilən müəllifin işlətdiyi kimi vermək lazım gəldiyindən əvvəldən axıra kimi vahid sistemə əsaslanmaq mümkün olmadı. Mahiyyətcə kitabda qəbul edilmiş sistem linqvistik cəhəti deyil, elm tarixini əks etdirir.

Çin adlarının oxunuşu N. Y. Biçurin, V. V. Qriqoryev, V. V. Bartold, Q. E. Qrumm-Qrjimaylo kimi rus alimlərinin klassik əsərləri əsasında qəbul olunmuş formaya uyğundur. E. Şavann, P. Pello və R. Qrussenin fransız oxunuşu, habelə Lyu Mao-tszayın almanca tərcümələrindəki oxunuş da rus variantına olduqca yaxındır. Bu müəlliflər heroqlifləri əlifba yazısı ilə verərkən VI—VIII əsrlər fonetikasını təkrar edirlər, halbuki müasir sovet çinşünaslığında XX əsrin fonetikası əsas olaraq götürülür. Bunun da nəticəsində türk adları fantastik dərəcədə tanınmaz səslənir və heç bir şərhə uyğun gəlmir. Məsələn, Çin variantında «tu-qyu»— «türklər» əvəzinə «tu-tszyue» yazılır.

Kitabələrdəki türk adlarının yazılışında E. S. Malovun oxunuşları etalon kimi götürülüb. Hər tərcüməçinin öz bildiyi kimi verdiyi Tibet adlarının oxunuşu xüsusilə çətindir. Bu adları B. İ. Kuznetsov yoxlayıb. İran adları tədqiqatda istifadə olunmuş mənbələrin dialektinə daha yaxın olan tacik saitlənməsi ilə verilmişdir.

Təklif olunan variant mükəmməllikdən uzaq olsa da, yalnız şərqşünaslar üçün deyil, çoxsaylı oxucu-tarixçilər üçün nəzərdə tutulan tarixi məzmunlu tədqiqat üçün qəbul oluna bilən yeganə həll üsuludur, çünki bu üsul oxucuya çıxarış və sitatları Avropa dillərindəki vəsaitlərlə tutuşdurmağa imkan verir, onu ümumun qəbul etdiyi bu və ya digər orfoqrafik dolaşıqlıqlardan xilas edir.

**Ədəbiyyatdan istifadə üsulu.** Türklərin tarixi çoxlu alimlərin diqqətini cəlb edib və 200 il ərzində ona maraq bir neçə dəfə baş qaldırıb. XVIII əsrin ortalarında fransız missionerləri bir sıra Çin tarixi əsərlərini tərcümə ediblər. Həmin əsərlər içərisində Mayyanın və Qobilin tərcümələri tədqiqat üçün xüsusi əhəmiyyətə malikdir. Çünki bu mənbələrdə VI—VIII əsrlər Çin tarixi daha təfərrüatlı əks olunub. Hadisələrin burada verilən, lakin sonrakı alimlərin nəzərdən qaçırdıqları bir sıra xırda detalları bizə qarşımıza qoyduğumuz problemin hərtərəfli araşdırılmasına imkan verdi. Yeri gəlmişkən, bu tərcümələr əsasında Sorbonna universitetinin professoru Deqin XVIII əsrin ortalarında «hunların, türklərin və monqolların tarixi» adlı çoxcildlik tədqiqat yazmışdır.

XIX əsrin başlanğıcında Vivyen de Sen-Marten indi də mətndən daha çox maraq doğuran şərhlərlə Abbat Leonun «Bizans tarixi» əsərini yenidən nəşr etdirmişdir.

Xaqanlığın yalnız ucqar əyalətlərinin tarixini əhatə edən bu tədqiqatlardan fərqli olaraq Stanislav Jolyenin tərcümələri bilavasitə türklərə aiddir. Bu nəşr uzun müddət qədim türklərin tarixinin öyrənilməsində istinad nöqtəsi olmuşdur. XX əsrin başlanğıcında bu siyahıya E. Şavannın istisnasız surətdə Qərb xaqanlığının tarixinə həsr edilmiş monumental əsəri əlavə edildi. Bunun ardınca P. Pellonun təfərrüat baxımından zərgər işini xatırladan tədqiqləri, habelə Anri Kordye və Rene Qrussenin məlumatları çap olundu.

Üslub və iş metodu baxımından indi AFR*-da işləyən Lyu Maotszyuyun tədqiqatları da fransız məktəbinə yaxındır. Onun Şərq xaqanlığının tarixinə dair son dərəcə maraqlı və təfərrüatlı şərhlərlə zəngin iki cildlik əsəri Jolyenin analoji tədqiqatını dolğunlaşdırır və Şavannın kitabını tamamlayır.

Fransız məktəbinin başlıca qüsurlarından birinə çevrilən xüsusiyyətinin yanından sükutla keçmək olmaz. Türklər fransız tarixçilərinə elə ekzotik görünürdülər ki, xaqanlığın tarixini orta əsr çinlisinin gözü ilə, yəni kənardan müşahidə etmək onlara daha rahat və əlverişli idi. Ona görə də hadisələr arasındakı əlaqə bir sıra hallarda onların nəzərindən yayınır, bəzən isə onlar Çin nöqteyi-nəzərindən şərh edilir. Bu da fransız məktəbinin imkanlarını faktoqrafiya ilə məhdudlaşdırmışdır. Lakin həmin sahədə birincilik şübhəsiz, fransızlara məxsusdur.

Alman məktəbi fransız məktəbindən nəzərəçarpacaq dərəcədə geri qalır. İ. Markvartın, F. Xirtin əsərləri, habelə X. V. Xaussiqin monoqrafiyası elmi dərkin və yanlışlıqların, əksərən sübuta yetirilməyən filoloji ehtimalların və sadəcə səhvlərin qəribə çulğalaşmasından ibarətdir. Təfərrüata varma ayrı-ayrı məqamlarda özünü büruzə verir və seyantoların mifik «sirtarduşlarla», Aşide Yuan Djenin Tonyukukla (Xirt), yaxud Abruyun «eftalit hökmdarı» ilə (Markvart)

---

* Hazırda Almaniya.

eyniləşdirilməsi kimi əsassız ehtimallarla növbələşir. Elmə «keçəri səhvlər» kimi daxil olan belə ehtimallar ona ziyan vurmamışdır.

Bu səbəbdən də mən şüurlu şəkildə Rixard Henninqin «Terrae incognitae»[31] kitabından imtina etdim. Onun normannların və mavrların səyahəti ilə bağlı şərhlərinin nə qədər dəqiq olduğunu deyə bilmərəm, lakin bu müəllifin VI—VIII əsrlər Mərkəzi Asiyası haqqındakı fikirləri əslinə baxsan fantastikadır. Məsələn, o, türk xaqanlığının Şərq sərhədlərini «müasir Vladivostok hüdudlarında» görür, Qərb sərhədlərini isə «Vitim çayına qədər Baykalın şimal sahilləri ilə müəyyənləşdirir. Onun fikrincə, dövlətin əsasını qoyan şəxs, «dizavul» adlanır, bu da guya xanın köməkçisinə məxsus «yabqu» titulunun təhrifə uğramış yunan variantıdır. R. Henninq tərəddüd etmədən avarları əvvəlcə Mərkəzi Asiyada, sonra isə «Volqa və Don çaylarının arasında» yerləşdirir və bu zaman nə Feofilakt Simokattanın psevdoavarlar haqqındakı izahatını, nə də avarları yerli xalqlarla — alanlar və bolqarlarla məskunlaşmış ərazilərə dartıb gətirməyin qeyri-mümkünlüyünü nəzərə alır. O, heç bir mənbəyə istinad etmədən, imperator Ven-dinin hakimiyyəti dövründə (581—604) Çinin sərhədlərinin: «Xəzər dənizinə qədər uzanması» haqqında məlumat verir. Əslində isə həmin sərhədlər Böyük Çöl və Ordosla hüdudlanırdı. R. Henninq heyrətamiz yüngülağıllıqla çinlilərin hərbi yardıma görə türkyutlara ipək verməsi barəsindəki dəqiq faktı «boş cəfəngiyyat» adlandırır, türkyutları Çin ordusuna pulla cəlb olunan muzdlu əsgərlər hesab edir. Bütün bu əsassız uydurmalar nəticəsində o, Soqdianada ipəyin bolluğunu «yalnız yerli istehsalla» bağlayır. Girişdə müəllif etiraf edir ki, müharibə illərində tapa bilmədiyi bir sıra vacib əsərlər diqqətindən kənarda qalmışdır. Lakin burada sadaladığımız yanlışlıqlar R. Henninqin ümumdünya tarixi və coğrafiyasının faktik əsaslarına diqqətsiz münasibətindən, ən başlıcası isə onun üzərinə götürdüyü vəzifəyə qeyri-ciddi yanaşma tərzindən irəli gəlmişdir. Kobud səhvlərin miqdarı burada nümunə kimi göstərdiklərimizdən qat-qat çoxdur.

Hamıya məlum olan, diqqət müəyyənləşdirilmiş faktları saya salmayan müəlliflə mübahisə faydasızdır, buna görə də onun kitabını tədqiqata cəlb etmədim.

Məncə rus məktəbi adlandırılması daha düzgün olan elmi ənənə köçərişünaslıqla bağlı problemlərinin həllinə daha çox yaxınlaşmışdır. N. Y. Biçurin, V. V. Qriqoryev, N. A. Aristov, Q. E. Qrumm-Qrjimaylo, K. A. İnostransev, S. İ. Rudenko, M. İ. Artomonov və b. bu məktəbin nümayəndələridir. Rus məktəbini təmsil edən alimlər Mərkəzi Asiya ilə o qədər doğmalaşmışlar ki, onun tarixinə çöllülərin «qıyıq və ehtiraslı» gözləri ilə baxmağı öyrənmişlər. Nəticədə onlar Qərbi Avropa alimlərinin diqqətindən yayınan bir sıra çalarları duymuş, köçəri dünyasının öyrənilməsinin özünəməxsus aspektini yaratmışlar.

---

[31] «Naməlum torpaqlar».

Rusiyada Asiyanın orta hissələrinin tarix və paleontoqrafiyasının öyrənilməsi sahəsində pioner N.Y. Biçurin (İakinf ata) olmuşdur. Onun tərcümə etdiyi Çin xronikaları indiyə qədər tədqiqat üçün ən etibarlı bünövrə rolunu oynayır. Biçurinin çevirdiyi mətnləri xüsusi olaraq orijiialla müqayisə edən N. V. Kyunerin tekstoloji tədqiqatlarından da göründüyü kimi, tərcümədə səhvlərə və qeyri-dəqiqliklərə nadir hallarda təsadüf edilir, mövcud yanlışlıqlar isə əhəmiyyətli xarakter daşımır və təhkiyənin əsas istiqamətini təhrif etmirlər.

Biçurinin əsərlərinə istinadən V. V. Qriqoryev Şərqi Türküstanın tarixi coğrafiyısına dair fundamental əsər yaratmışdır. Yunan Roma və ərəb-fars mənbələrinin Çin mənbələri ilə müqayisəsi yolu ilə o, həmin ərazidə xalqların və mədəniyyətlərin varisliyi əlaqəsini müəyyənləşdirə bilmişdir.

Kiçik, lakin müstəsna dərəcədə yığcam, fakt və fikirlərlə zəngin kitabında N. A. Aristov bütün mövcud türk tayfaları haqqında məlumat vermiş, yoxa çıxmış tayfaların tarixi ilə bağlı məsələlərə sıx surətdə toxunmuşdur. Bu məsələ Şərqi «xunnularla» Avropa «hunlarının» nisbəti məsələsini araşdıran K. A. İnostrantsevin əsərində daha da inkişaf etdirilmişdir. Mövzunun onun təklif etdiyi həlli üsulu yeni aşkara çıxarılan faktlarla da təsdiq olunmuşdur.

Köçəri mədəniyyətinin kökləri haqqında məsələni də ilk dəfə rus elmi qoymuşdur. Bu mədəniyyətin ictimai təsisatlarının xüsusiyyətləri, incəsənət əsərlərinin üslubu və hərbi işin səciyyəvi cəhətləri kifayət qədər dərinliklə öyrənilmişdir. Həmin tədqiqatlar göstərir ki, köçəri mədəniyyət əyalət xarakteri daşımamış, bar-bar səciyyəli və yarımçıq olmamış, əksinə müstəqil təşəkkül yolu keçmişdir. Doğrudan da, S. İ. Rudenkonun Altayda, S. V. Kiselevin Minusinsk çökəyində, A. P. Okladnikovun Uzaq Şərqdə apardıqları arxeoloji qazıntılar elə nəticələr vermişdir ki, məsələ indi heç vəchlə köçərilərin mədəniyyəti çinlilərdən, soqdiyalılardan, yaxud yunanlardan götürdükləri haqqında deyil, yalnız köçəri və oturaq xalqların qarşılıqlı təsiri şəklində qoyula bilər.

Metod baxımından M. İ. Artomonovun «Xəzər tarixi» kitabı böyük uğur sayılmalıdır. Bu əsərdə Xəzəryanı və Qara dəniz boyu xalqların tarixi daxildən işıqlandırılmışdır: xəzərlər və cənubi rus çöllərinin digər sakinləri ilk dəfə olaraq Bizans imperiyasının düşmənləri, yaxud Kiyev Rusunun rəqibləri kimi deyil, müstəqil etnomədəni vahid kimi öyrənilmişdir. Həmin etnomədəni vahidin taleyi Xəzəristanın əzəmətini və məhvini müəyyən edən tarixi qanunauyğunluqla şərtlənmişdi.

Bir çoxları, o cümlədən müsəlman Şərqinin tarixi üzrə böyük mütəxəssis V. V. Bartold adını çəkdiyimiz alimlərin sırasına düşməmişdir. V. V. Bartoldun türklərin tarixinə dair əsərləri problemin həlli tarixində müsbət rol oynasa da, ona tədqiqat perspektivi ola biləcək aydınlıq gətirməmişdir. VI—VIII əsrlərdəki köçəri türklər V. V. Bartoldun tarixlərini araşdırdığı farslardan əhəmiyyətli dərəcədə fərqlənirdilər.

Faktlar və tarixlərlə həddən artıq sərbəst davrandığına görə A. N. Bernştamın məqalə və kitabları elə bir fayda gətirməmişdir.

**Ümumi işlərin metodikası.** XX əsrin əvvəllərində Orxon kitabələrinin aşkar edilməsinin və oxunmasının türkologiyaya elmi marağı əhəmiyyətli dərəcədə artdığı dövrdə elmi fəaliyyətə başlayan Q. E. Qrum-Qrjimaylo köçərişünaslıq tarixində mühüm yer tutur. Artıq XIX əsrin sonlarında elmi yaradıcılıqda ilk addımlarını atan tədqiqatçı üçün əldə edilməsi çətin olan, dörd dildə geniş, lakin ziddiyyətli ədəbiyyat mövcud idi. Həll olunmayan problemlər bir yana qoyulurdu, çunki yeni materialların üzə çıxarılması ortaya yeni problemlər gətirirdi, geniş biblioqrafiya az qala elmin yerini tutmaq təhlükəsi ilə hədələyirdi. Həmin biblioqrafiya təxirsiz suallara cavab vermək əvəzinə diqqəti yalnız çoxsaylı müəlliflərin müxtəlif fikirlərinə yönəldirdi. Elmə yeni gələn tarixçi, təbii ki, türklərə dair bütün kitabları oxuya bilmədiyindən onun yalnız bir çıxış yolu — mövzunun hüdudlarını daraltmaq qalırdı. Ümumi perspektivin olmaması isə aydın məsələdir ki, arzu edilməyən nəticələrə gətirib çıxarırdı.

Sevimli predmetinin tezliklə kitab qalaqlarının, jurnal nömrələrinin, çıxarış və sitatların altında dəfn olunacağını aydın sezən Q. E. Qrumm-Qrjimaylo ən qədim zamanlardan XX əsrə qədər Asiyanın orta hissələrinin tarixinin, tarixi coğrafiyasının, xronologiyasının, etnologiyanın xüsusi problemlərinin öyrənilməsinə dair bütün mövcud nöqteyi-nəzərləri və izahları toplamaq kimi «son dərəcə səbr və zəhmət tələb edən, zəhməti isə əziyyətinə dəyməyən» işə başladı. Xoşbəxtlikdən o qədər də gec deyildi və heyrətamiz elmi cəsurluq, istedad sayəsində o, 25 il ərzində «Qərbi Monqolustan və Uryanxay ölkəsi» (başqa sözlə desək, Orta Asiyanın tarixi ilə əlaqəli şəkildə bu ölkələrin tarixi) adlı məcmu əsər yaratdı. Bu tədqiqat Asiyanın tarixi ilə məşğul olan bütün mütəxəssislərin stolüstü kitabına çevrildi. Müəllifin materiala orijinal yanaşma tərzini də qeyd etmək zəruridir. Həmin vaxta qədər Şərq tarixi ilə Şərq müəlliflərinin əsərlərini tərcümə edən filoloq — şərqşünaslar məşğul olurdular. Onların elm qarşısındakı xidmətləri böyükdür, lakin bu tədqiqatın yalnız bir aspekti idi və hadisələrin çoxcəhətliliyini əhatə etmirdi. Q. E. Qrumm-Qrjimaylo tarixə coğrafiyaşünasın gözləri ilə baxdı. O, səyahətlərdə topladığı şəxsi təcrübədən çıxış edərək salnamələrdəki məlumatlarla Tyan-Şanın, Xanqayın, Qobinin təbiəti arasında uyğunluqlar tapdı.

Q. E. Qrumm-Qrjimaylonun dağlarda və səhralarda gördüyü çətinliklər ona tarixi hadisələrin landşafta necə uyğunlaşdığını təsəvvür etmək imkanı verdi. Bunun da nəticəsində alim çoxlu parlaq kəşflər etdi. Bunlar arasında Bişbalıq qalasının yerinin müəyyən edilməsi xüsusi qeyd olunmalıdır. Q. E. Qrumm-Qrjimaylo özünün bu kəşfi ilə əlaqədar yazırdı: «Bişbalığın yerləşdiyi ərazinin düzgün tapılması hamının illər boyu Marseldə saydığı Parisi təzədən Senanın sahillərinə qaytarmaqla müqayisə oluna bilər. Tarixin və coğrafiyanın nə qədər dumanlı nöqtələri aydınlaşdı».

İlk baxışdan elə görünür ki, müasirləri belə böyük və qurban tələb edən işi alqışlamalı idilər, əslində isə tədqiqatçı qəsdən daha da qabarıqlaşdırılan bədxah bir anlaşılmazlıqla qarşılaşdı. 1898-ci ildə Qrumm-Qrjimaylo tədqiqatlarının başlanğıcı kimi «Orta Asiya tarixi ilə əlaqəli şəkildə Beyşanın tarixi keçmişi» adlı kiçik bir kitab çap etdirdi. Sonralar müsbət nəticələri göz önündə olan özünəməxsus tədqiqat metodu artıq bu kitabda formalaşmışdı. Lakin əvəzində V. V. Bartoldun kəskin resenziyası çap olundu. O, kitab müəllifinin «həqiqi tarixi və filoloji hazırlığının çatışmadığını» göstərir və bildirirdi ki, «...səyyahlardan biz təfərrüatlı coğrafi və etnoqrafik, imkan daxilində isə arxeoloji məlumatlar gözləyirik... Ona görə də təəccüblənməyə bilmərik ki, Asiyaya dair tarixi ədəbiyyatın öyrənilməsi müəllifi müvəqqəti də olsa, daha faydalı işlərin həllindən uzaqlaşdırmışdır». Təbii ki, Bartold «daha faydalı iş» dedikdə ekspedisiyaya dair adi hesabatı nəzərdə tuturdu.

Q. E. Qrumm-Qrjimaylonun cavab məqaləsindən sonra V. V. Bartold özünün kəskin və ədalətsiz rəyini yumşaltdı. Lakin yenə də kitabın yalnız «müəyyən fayda» gətirə biləcəyi göstərilirdi. Bununla bir sırada V. V. Bartold öz tənqid nizəsini onomastika problemlərini tarixçi kimi həll edən Q. E. Qrumm-Qrjimaylonun filoloji hazırlığına yönəltdi. Mübahisə Orxon kitabələrində təsadüf olunan iki ad ətrafında gedirdi. P. M. Melioranski, V. V. Radlov, habelə V. V. Bartold özü onların türklərin əfsanəvi əcdadlarının adı olduğunu bildirirdilər. N. A. Aristov və Q. E. Qrumm-Qrjimaylo isə birinci xaqanlığın xanları olmuş iki qardaşın adı kimi nəzərdən keçirirdilər.

Mübahisə qəti şəkildə ikinci ehtimalın xeyrinə həll olundu və bununla da V. V. Bartoldun əleyhinə çıxdığı mənbələrin interpretasiya metodu bəraət qazandı. V. V. Bartold həmin dövrdə elə güman edirdi ki, qrammatik cəhətdən düzgün oxunmuş mətn tədqiqatçını hər cür səhvlərdən qoruyur. Söz yox ki, mətnləri dəqiq oxumaq lazımdır, lakin elə bu mübahisənin tarixçəsi göstərir ki, qrammatika və fonetika tarixi tənqidi əvəz edə bilməz.

V. V. Bartoldun xüsusi məsələlərin tədqiqi ilə məşğul olmaq və mütəxəssislərin ayrı-ayrı qüsurlarını üzə çıxarmaqla bağlı göstərişi daha təhlükəli xarakter daşıyırdı. Xoşbəxtlikdən, Q. E. Qrumm-Qrjimaylo bu göstərişi nəzərə almadı. Əgər o başqa cür hərəkət etsəydi, mövcud biblioqrafiya dənizinə müxtəlif dövrü mətbuat orqanlarının səhifələrinə səpələnmiş daha 200—300 sistemsiz polemik qeydin adı əlavə olunardı. Onda heç bir alimin heç bir məsələni araşdırmağa vaxtı qalmazdı; çünki o, öz qüvvələrini predmetin elmi dərki ilə bağlı düşüncələrə deyil, bu və ya digər məqalənin axtarılmasına sərf etməli olardı. Digər tərəfdən, həmin mübahisədən keçən müddət ərzində geniş mövzu ilə bağlı fikirləri məcmu əsər halında toplamaq əziyyətini öz üzərinə götürən mütəxəssis tapılmamışdır.

Q. E. Qrumm-Qrjimaylonun kitabı Mərkəzi Asiya tarixşünaslığında yeni dövr açır. Həmin dövrün məhsuldarlığı məhz bu kitabın meydana çıxması ilə

bağlıdır. Bunu sonralar Q. E. Qrumm-Qrjimayloya şəxsi məktubunda V. V. Bartold özü də etiraf etmişdi. Burada o, özünün keçmiş qərəzli fikrindən imtina edirdi.

Lakin Q. E. Qrumm-Qrjimaylonun əsərinə mənfi münasibət ətalətin təsiri ilə bu günə qədər qüvvədə qalmaqdadır. A. Y. Yakubovski V. V. Bartoldun ilkin fikirlərini təkrar edir və Q. E. Qrumm-Qrjimaylonu «şərq dillərini bilməməkdə», xüsusi «tarixi təhsilinin olmamasında» günahlandırır.

Xüsusi məsələlər və qiymətləndirmə ilə bağlı polemika üzərində dayanmadan professional şərqşünas Lyu Mao-tszyuyun Çin mənbələrinin tərcüməsinə əlavə olunmuş monumental «Türklər və Çin» kitabını Q. E. Qrumm-Qrjimaylonun əsəri ilə müqayisə etmək istərdim. Onu da qeyd etməliyəm ki, Lyu Mao-tszyuyun işi filoloji baxımdan qüsursuzdur, müəllifin faktoloji şərhləri isə onun geniş erudisiyasının və və işinə vicdanlı münasibətini nümayiş etdirir. Lakin analiz, xüsusən də sintez növbəsi çatanda dərhal aydın olur ki, tarix xüsusi qabiliyyət, hadisələri əhatə etmək istedadı, fərdi baxış və intuisiya tələb edir. Dilləri bilməyin bu məsələyə birbaşa aidiyyəti yoxdur. Hadisələr arasındakı əlaqəni aşkara çıxaran tarixçinin işi hadisələrin mövcudluğunu müəyyənləşdirən filoloq — şərqşünasın işinin qurtardığı yerdə başlanır. Hər iki fəaliyyət sahəsinin bir şəxsin timsalında birləşməsi elmin başlanğıc mərhələlərində yerinə düşərdi, lakin indi bu geriyə addımdır. Ancaq bu heç bir halda Lyu Mao-tszyayın elm qarşısındakı xidmətlərini azaltmır. O, faktları toplayıb şərh etmişdir. Onların interpretasiyası isə elmi analiz və sintez əsasında aparılmalıdır. Həm də ilk növbədə köçəri xalqların inkişafının yerli xüsusiyyətlərini, habelə VI—VIII əsrlərdə bütün ölkələr üçün ümumi olan cəhətləri — yəni epoxanı səciyyələndirən öz-özünə hərəkət ritmini müəyyənləşdirmək lazımdır.

**Dərketmə cəhdləri.** Bu məsələdə də tarixçilər arasında vahid fikir olmamışdır. Məzmunu sosioloji ehtimallar üçün zəngin material verən Orxon kitabələrinin oxunuşundan sonra xüsusilə kəskin mübahisələr meydana çıxdı.

1896-cı ildə L. Kaen və N. A. Aristov öz nöqteyi-nəzərlərini bildirirdilər. Kaen təsdiq edirdi ki, türklər «şəxsiyyət və tayfalardan ibarət cəmiyyət idi, onların sayı etnik mənsubiyyətlə məhdudlaşmırdı».

Onun fikrincə, türklər öz aralarında siyasi birlik və hərbi intizam vasitəsi ilə bağlanmışdılar. L. Kaen xaqanlığın dövlət aparatını «bürokrat» adlandırır, onu həm aristokratiyaya, həm də demokratiyaya qarşı qoyurdu. L. Kaenin fikirləri V. V. Bartoldun onun kitabına yazdığı resenziyada geniş araşdırıldığından biz bu məsələ üzərində dayanmağı məqsədəuyğun saymırıq.

N. A. Aristov əks fikir irəli sürmüşdü. Onun fikrincə, köçərilərdə dövlət yaranması prosesi «ətrafında igid, ağıllı və başladıqları işlərdə bəxti gətirən, tayfasındakı qəbilələri itaət altına alan və digər tayfaları iradəsinə tabe edən tayfalardan birinin güclənməsi nəticəsində yaranmışdır». Türk dövlətinin süqutunu isə o, ara müharibələri ilə izah edir: «tayfa və qəbilələrin müstəqillik cəhdlərinin

artmasının buna gətirib çıxardığını» bildirir. N. A. Aristovun baxışları bütövlükdə həqiqətə uyğundur, lakin inkişafa, elmi əsaslandırmaya və bir sıra düzəlişlərə möhtacdır.

V. V. Radlov adi volyuntarizm mövqeyində dayanırdı. O, güman edirdi ki, yalnız tayfa başçılarının nüfuzu olduqca qısa müddət ərzində qüdrətli tayfa komplekslərinin yaranmasına kömək etmişdi. Başçılar xanın hakimiyyətini öz əllərinə aldılar, köçəri dövləti isə yalnız xanın qüdrəti məhv olmaqdan qoruyub saxlaya bilərdi. Həmin qüdrət zəifləyən kimi dövlət də dağıldı. Bu münasibətlə onu da qeyd etmək olar ki, xanın qüdrətini onun şəxsi keyfiyyətlərindən daha çox xanın əhvali-ruhiyyəsi və ordunun yardımı müəyyənləşdirirdi.

V. V. Bartold olduqca orijinal fikir irəli sürmüşdür. «...bəylər «qara camaata» qarşı qoyulurdu, həm də ali hakimiyyət heç də həmişə birincilərin tərəfində dayanmırdı». Alim bu nöqteyi-nəzəri V. Banqla polemikasında daha da inkişaf etdirmişdir. Banq bildirirdi ki, «xanın ətrafındakı adamlar onun yaxın qohumları, yaxud nücabalar idi; onlar türkyut dövlətinin yüksəlməsinə yardım etmişdilər». V. V. Bartold isə izah edir ki, «kitabələrdə bir sıra demokratik fikirlər ifadə olunur». Daha sonra isə o, türkyut xanlarını taxt-tac ətrafına hərbi aristokratiyanı toplayaraq demokratik imperiya ideyalarına tərəfdar çıxan hər iki Napoleonla müqayisə edirdi. Çox sonralar Bartold göstərirdi ki, nə köçərilərin kəskin sosial fərqlərdən azad həyatını tədqiq etmiş Radlov, nə də əsilzadələrlə qara camaat arasındakı fərqi görən, lakin onun əhəmiyyətini göstərməyən Tomsen silki mübarizə faktını aşkara çıxara bilmişdilər. Məncə, Bartoldun fikirlərinin ilk baxışdan inandırıcı görünməsinə baxmayaraq bütövlükdə onlar göy türklərin və türkyutlarının tarixlərinin təhlili ilə təsdiq olunmur.

A. N. Bernştam bu mövzuya xüsusi əsər həsr edib. Onun fikirlərinin tənqidi aşağıda verilir. Nəhayət məsələnin yeni mövqedən işıqlandırılması faktı ilə E. Pritsakın əsərində qarşılaşırıq. O, «köçəri imperiyaların» yaranma mənzərəsini ümumi şəkildə» əks etdirməyə çalışmışdır. Geniş faktların nəzərdən keçirilməsinə və mənbələrin təfərrüatlı araşdırılmasına baxmayaraq onun gəldiyi nəticələr etiraz doğurur, irəli sürdüyü konsepsiyanın qəbul olunmasına imkan vermir. Bunun iki səbəbi vardır: E. Pristakın ümumi mülahizələrində tədqiqatçının dəf edə bilmədiyi bir sıra başlanğıcdan yanlış fikirlər mövcuddur, onun xüsusi qeydləri isə «keçici səhvlərlə»: yəni sonradan rədd edilən, lakin inkar biblioqrafiya okeanını dolduran kiçik məqalələr dənizində itib-batdığından öz mövqelərini saxlayan hipotetik ehtimallarla doludur. Xoşbəxtlikdən Pristakın kitabına düzəliş kimi indi əlimizdə N. A. Kononovun daha dəqiq və etibarlı türkoloji məlumatlar toplusu olan əsəri vardır. Ona görə də diqqəti E. Pristakın «Çöl imperiyası necə meydana çıxdı?» məqaləsinin əvvəlində gətirilmiş ümumi mülahizələrə yönəltmək istəyirik. Tədqiqatçı yazır: «Çöldə istedadlı təşkilatçı meydana çıxan kimi o, əvvəlcə öz qəbiləsini, sonra tayfasını, daha sonra isə haqqında söhbət gedən tayfalar ittifaqını itaətə gətirmək üçün başına güclü və sədaqətli adamlardan ibarət dəstə toplayırdı.

Sonra o, öz adamları ilə birlikdə soyğunçuluq yürüşlərinə çıxırdı. Əgər bu yürüşlər uğurlu nəticələnirdisə, bu qonşu tayfaların birləşdirilməsinə gətirib çıxarırdı. Növbəti vəzifə bir tərəfdən tayfalar federasiyasının hakimiyyət başındakı nəsillərinin məhvi, o biri tərəfdən isə çöl qalalarında — əvvəlcə Orxon-Ononda, sonra isə Çuda öz qarnizonlarını yerləşdirmək idi.

Çöldəki müqəddəs yerlərə sahiblik yeni federasiya başçısını onun hakimiyyətinə qanunilik qüvvəsi görən sərvətə yaxınlaşdırırdı. Yalnız hakim qəbiləyə mənsub adamlar ağa sayıldıqlarından, qalaların yaxınlığındakı müqəddəs yerlərdə çağrılan qurultay (burada federasiya tərkibindəki tayfaların ağsaqqalları iştirak edirdilər) köhnə adət üzrə çöl hökmranlığına namizəd seçirdi. Seçilmiş adam adətən şamanın təklifi ilə hökmdar titulu qəbul edirdi. Bu titul dünya ağalığı iddiasını göstərirdi. Hökmdarın titulundan başqa yeni dövlət, yaxud federasiya üçün ad da müəyyənləşdirilirdi».

Bizim E. Pristakla əsasən narazılıqlarımız prinsipial xarakter daşıyır. Məncə, çöl birlikləri bir yox, bir neçə üsulla yaranırdı. E. Pristak təsvir etdiyi seçkili xan hakimiyyətin irsən keçməsi ilə müqayisədə nadir hadisədir. Əyan nəsillərini yalnız Çingiz xan məhv etmişdi, bu hal türklər, uyğurlar və hunlar üçün səciyyəvi deyil. Dinin və «şamanların» rolu həddindən artıq şişirdilmişdir (Aydındır ki, E. Pristak «şaman» adı altında ümumiyyətlə bütün kahinləri və cadugərləri nəzərdə tutur, bu isə termini həddindən artıq genişləndirir, onu istifadə üçün yararsız hala salır). «Bərəkət» anlayışı genoteistik kultla bir araya sığmır, çünki tayfa allahı olan «tosun» yardımı yalnız həmin tayfanın üzvlərinə aid idi. Erkən türk epoxasında isə məhz bu kult hakim mövqe tuturdu. Əslində E. Pristak hərbi demokratiya prosesinin bərqərar olmasını təsvir etmişdir, lakin onun təsvirində qəbilə quruluşu şəraitindəki drujina və tayfanın uyğunlaşması Avropanın oturaq tayfaları üçün daha səciyyəvidir. Köçərilərdə həmin proses başqa cür olmuşdur.

**El haqqında mübahisə.** Xüsusi məsələlərdən danışarkən «el/il» termini üzərində dayanmaq lazım gəlir. Türklər öz dövlətlərini belə adlandırırdılar və bu məsələ ətrafında mübahisələr həll edilməzsə, qədim türklərin tarixinin dərki mümkün olmaz.

Terminin mənası ilə bağlı vahid fikir mövcud deyil. S. E. Malov «eli» tayfa ittifaqı kimi tərcümə edir, lakin onun «dövlət, xalq» mənalarını da göstərir. Radlov, Melioranski, Bartold, Tomsen və Xirt də eyni fikrə tərəfdar çıxmışlar.

Bernştam terminin başqa anlamını irəli sürmüşdür. Onun fikrincə el — «müxtəlif tayfa zadəganlarının həmin tayfaların özlərinin yetirdikləri ənənələr arasında birləşməsidir, aristokratik quruluşdur». «Al» - dövlət təşkilatının ifadəsidir. Türk sözü olan «el»—tarixdən bizə «türk» adı ilə bəlli olan xalqın təcəssümüdür. Araşdırma zamanı hər iki nöqteyi-nəzərin əsassız olduğu meydana çıxdı. Onları nəzərdən keçirək.

İlk türk xanı Bumın İl-xan titulu qəbul etmişdi. O, jujanları itaət altına aldıqdan, yəni yalnız başqa tayfaları öz tayfasına birləşdirdikdən sonra bu titula sahiblənmişdi. Lakin fəth olunmuş tayfaları «tayfa ittifaqı» adlandırmaq qeyri-dəqiqlikdən daha çox səhvdir. İl-xan titulunun hərfi mənası «xalqların hakimi» deməkdir. Rəşidəddinin farsca yazısında «il kərdən» — fəth etmək, itaətə gətirmək felinin meydana çıxması da bu şərhin düzgünlüyünü sübuta yetirir. Fel barbarizmdir, lakin terminin dəqiq mənasını özündə əks etdirir. Başqa anlayış — tayfaların razılığı ilə bağlı başqa termin mövcuddur — «kur/qur». O, həm türk, həm də monqol dilində eyni mənalıdır. Bu anlayışa müvafiq surətdə «qurxan», yəni «tayfalar konfederasiyasının xanı» termini mövcuddur. Kidanların xanı bu titulu daşıyırdı, çünki onların dövləti səkkiz bərabərhüquqlu tayfanın ittifaqından ibarət idi. Bunun əksinə olaraq «il» başqa tayfaların zorla itaət altına gətirilməsi anlayışını ifadə edir. Buna görə də «il» termininin ən adekvat qarşılığı latınca «impe-rium», yaxud rusca «derjava» terminləri olacaq. Özü idarə olunan tayfa «il» ola bilməzdi.

İkinci nöqteyi-nəzər əslində əsaslanmalı olduqları mətnlərlə təkzib edilirlər. Məsələn, «türk budunelin törüsin» yəni «türk xalqını və elini qanuniləşdirərək...». Göründüyü kimi, burada «el» «budunu» da əhatə edir, yəni yalnız hakim siniflərlə məhdudlaşılmır.

İkinci mətndə də belədir: Kimgə elig kas ğan ur mən, yəni kimin üçün el//il əldə edəcəyəm? Lakin «dövlət təşkilatının ifadəsini», yaxud «hakim sinifləri» əldə etmək olmaz, ona görə də Bernştamın variantı əslində mətni mənasızlaşdırır.

S. P. Tolstov «el» sözünün başqa bir mənasını təklif etmişdir: «antik anlayışda, qətiyyən ərazi deyil, yalnız siyasət mənasında dövlət». Hətta bu cür anlamada da eldə itaət altına gətirilmiş tayfaların mövcudluğunu nəzərə almaq zəruridir. Bunu müəyyənləşdirdikdən sonra artıq mənbələrin məlumatları ilə heç bir ziddiyyətə təsadüf olunmur.

Beləliklə, el orda və tayfanın birgə mövcudluq forması idi. İdeya baxımından bu qarşılıqlı əlaqə sülh yolu ilə həyata keçirilməli idi, lakin praktiki cəhətdən o, hər iki tərəf üçün o qədər ağır idi ki, el dərhal qeyri-sabit formaya çevrildi. İtaət altına alınmışların hamıdan çox əzab çəkdikləri və ilk imkan düşən kimi ayrılmağa çalışmaları aydındır, lakin ordanın özündə də vəziyyət bundan o qədər yaxşı deyildi. Dövləti saxlamaq zərurəti bəyləri və budunu rahat buraxmırdı, çünki yalnız müharibəyə daimi hazır vəziyyət elin mövcudluğunu təmin edirdi, hərbi məğlubiyyət, diplomatik səhv, tək-tük xəyanət halları, hətta adicə səhlənkarlıq elin mövcudluğunu təhlükə altına qoyurdu. Məhz bu səbəbdən də ilkin orta əsrlərdə Asiyanın mərkəzi hissələrindəki siyasi qurumların ömrü o qədər də uzun olmamışdı.

## IX f ə s i l

## BÖYÜK HƏRC-MƏRCLİK

***(581—593-cü illər)***

**İştirakçılar.** Budda mistikası və ayinlərlə maraqlanmasına baxmayaraq Arslan Tobo-xan öz hakimiyyətini möhkəmləndirməkdə davam edirdi. Xinqandan tutmuş Kubana qədər səkkiz bölgəni idarə edən knyazların hamısı onun əmrlərinə tabe olurdular. Lakin itaət altına aldıqları tayfaları öz tabeliklərində saxlamağı bacaran bu cəsur və şöhrətpərəst hərbçilər öz aralarında yola gedə bilmədilər. Onların hər biri öz bəylərinin, hətta sıravi hərbçilərinin istəkləri ilə hesablaşmalı idi, çünki bu knyazların taleyi, bəzən isə həyatı həmin bəylərin və döyüşçülərin sədaqətindən asılı idi, onların hər biri xalqın əhval-ruhiyyəsini və türkyutlardan öz məqsədi üçün istifadə etməyə çalışan qonşu dövlətlərin diplomatiyasını nəzərə almalı idilər. Nəticədə son dərəcə mürəkkəb vəziyyət yaranmışdı. Bu vəziyyətdə xanların və şadların fərdi xüsusiyyətləri heç də əhəmiyyətsiz rol oynamırdı.

Tobo-xanın böyük oğlu Amrak[32] sakit, ziyansız adam idi, o, ata tərəfdən xan, ana tərəfdən isə nəcabətli nəslinin qarşısında açdığı fəaliyyətə qətiyyən yaramırdı. Onu sevir və hörmət edirdilər, lakin o, sakit həyatı hakimiyyət təlatümlərindən üstün tutduğundan ordada hər hansı bir qruplaşmaya başçılıq edə bilməzdi. Özünün bu keyfiyyətləri ilə Amrak tərəfdarlarını bərk narahatçılığa salır, qətiyyən ona bənzəməyən əmisi oğlanlarının əl-qolunu açırdı.

Muğan xanın oğlu Törəməni də xasiyyət baxımından xoşbəxt adam saymaq olmazdı. Çinli casus Çjon-sui Şenin verdiyi səciyyədən və Törəmənin öz davranışından da göründüyü kimi, bu xan oğlu hakimiyyətə can atırdı, lakin qəti qərarlar qəbul etməyi bacarmırdı. O, döyüşdə cəsur, siyasətdə kor idi, güclülərin qarşısında güzəştə gedir, zəiflərin üstünə ayaq açırdı. Məhz bu xüsusiyyətləri Törəməni Çin kəşfiyyatının və atasının tərəfdarları olan hərbçi bəylərin əlində oyuncağa çevirmişdi. Xan oğlunun taleyində türkyut nücəbalarının yüksək təbəqəsinə mənsub olmayan cariyə anası da çox nəhs rol oynamışdı. Dul qaldıqdan sonra da o dövlət işlərinə təsir göstərməkdə davam edirdi və çox ehtimal ki, Yan Tszyanı Suy sülaləsinin imperatoru kimi tanımağı tələb edən partiyaya başçılıq edirdi. Odur ki, 501-ci ildə Suy hökuməti türkyutları özlərinə əməlli-başlı həyat qurduqları Çindən sürgün edəndə onlar bütün qəzəblərini dul xatuna qarşı

---

[32] Çin mənbələrində An-lo, N. Y. Biçurində Yan-lo. Amrak (müq. et: *monqolcası* — sakitlik) runik mətnlərində təsadüf olunan türk sözüdür.

yönəltdilər.[33] Bu əhvali-ruhiyyə orada da öz əksini tapdı və təbii ki, onun oğlunun populyarlığına öz təsirini göstərdi. Bu isə hadisələrin gedişinə təsirsiz qalmadı.

Vaxtsız həlak olmuş Qara İshak xanın oğlanları — Şetu* və Çuloxou* daha cəsarətli və qətiyyətli idilər. Şetu o qədər cəsur və ağıllı idi, o qədər qətiyyətli və yorulmaz idi ki, xasiyyətinə görə arvadı onu «həqiqi qurd» adlandırırdı. Bu xüsusiyyətlərinə görə o, xalqın və əyanların hörmətini qazanmış, taxt-taca sahib olmuşdu. Eyni zamanda həmin xüsusiyyətlər az qala onu məhvə aparmışdı.

Çuloxou da heç bir cəhətdən böyük qardaşından geri qalmırdı. Hiyləgərliyinə, bicliyinə, rəftarlılığına görə o, xalqın yalnız hörmətini deyil, həm də məhəbbətini qazanmışdı. Onun bölgəsi xaqanlığın şərq hüdudlarında idi. Burada tolos-şad Çuloxoun etibarlı arxasına çevrilmiş kidanlar və tatablar köç edirdilər. Göründüyü kimi, Qobinin şərq hissəsi də Çuloxounun bölgəsinə daxil idi, çünki onun titul adının hərfi tərcüməsi «daşlı düzənliyin ikinci dərəcəli knyazı» mənasını verir. Çox ehtimal ki, məhz mövqeyinin «ikinci dərəcəliliyi» hədsiz şöhrətpərəstlik və enerji ilə birləşərək hələ xaqanlıq Asiyada üstün rol oynadığı dövrdə onu Çinlə yaxınlaşmağa sövq etmişdi. İndi bu mövqeyi siyasi prinsipsizlik kimi qiymətləndirmək olar, lakin VI əsrdə Çuloxou bu xüsusiyyəti ilə digər türkyut knyazlarından o qədər də seçilmirdi.

Lakin xaqanlıqda ən mühüm sima yuxarıda adları çəkilən xanların əmisi, İsteminin oğlu Qara-Çurin Türk-tarduş xan idi. Çin annallarında onun tərcümeyi halına təsadüf edilmir, lakin Bizans və fars mənbələrinin köməyi ilə bu boşluğu doldurmaq mümkündür. Qara-Çurin hərbi mənsəbinə atasının bayrağı altında, 555-ci ildə türkyutlarla eftalitlərin ilk vuruşu zamanı başlamışdı. Bundan sonra 556-cı ildə İstemi xanın icazəsi ilə o, cənubi Cunqariyanı özünə tabe etmiş və abar knyazlığının torpaqlarında öz bölgəsini yaratmışdı. 558-ci ildə Qara Çurin Ural və Volqa üzərinə yürüşdə iştirak etmişdi, lakin fəth olunmuş torpaqlar bölgə kimi kiçik qardaşı Türksanfa və əmisi oğlu Buriyə verilmişdi.

576-cı ildə İstemi xanın ölümündən sonra Qara Çurin irsən qərbdə ali hakimiyyəti və tarduş-xan titulunu qəbul etmişdi. Bundan sonra o, uzaq səfərlərə çıxmağı tərgitmişdi. Bizansa və Eqrisi (laziki) hökmdarlığına qarşı Krım və Qafqaz

---

[33] S. Jülyen burada Muğan xana ərə verilmiş Çin məlakəsindən söhbət getdiyini güman edir. Lakin bu fikir həqiqətə o qədər də uyğun deyil. Muğan xanın arvadı Çjou sülaləsindən idi; Çevriliş zamanı bu sülalənin bütün üzvləri amansızcasına öldürülmüşdü. Əgər mənbədə xatırladılan «xatun» həmin Çin məlakəsi idisə, Suy imperatorunun incitdiyi türkyutlar ona rəğbətlə yanaşmalı idilər. Burada orda daxilindəki ayrı-ayrı güruhların mübarizəsi haqqında danışmaq daha çox yerinə düşür. Çjan sun-Şenin Töremeni Çin tərəfə çəkmək cəhdləri də bununla əlaqədardı. Həmin cəhdlər uğurla nəticələnməsə də, Çin üçün olduqca faydalı yekunlara gətirib çıxardı.

* Adın bu yazılış formasından istifadə edilir. Türk ekvivalenti «Cetti//*Yemmi* — «yetən (hakimiyyətə) mənasını verir. Heroqliflərin mənası isə «reqentlik fikrinə düşən» deməkdir. Çjou-şuda o, Diotu adlandırılır. Knyaz titulu Ər-bəydir.

* Çulu — daşlı düzənlik, xou — Çin məmur ierarxiyasında ikinci rütbə.

kampaniyalarını onun tabeliyində olanlar aparmış və uduzmuşdular. Lakin məğlubiyyət Qara Çurinin şöhrətinə və nüfuzuna xələl gətirməmişdi. Elə həmin vaxtda o, «qüdrətinə görə»[34] Boke (qəhrəman) ləqəbini almışdı. Lakin bu xan xoşbəxt deyildi. Onun adının hərfi mənası «qara bala» (bəlkə də həmin ad altında qara cüzam nəzərdə tutulurdu) idi. Lakin bununla belə qohumluq-bölgə sistemi ierarxiyasına görə tabe vəziyyətdə olsa da, Qara Çurin ən güclü knyazlardan biri idi. O və Şetu hisslərini gizlətməyə çalışsalar da biri-birinə nifrət edirdilər.

**Sülalə mübahisəsi.** Yaxınlaşan faciənin proloqu 581-ci ilin sonlarında Orxon sahillərində, türkyutların böyük xanı Arslan Tobo xan ölümün yaxınlaşdığını hiss edəndə başlamışdı. O, oğlu Amrakdan taxt-tacın qohumluq-bölgə sisteminin vərəsəlik qanununa uyğun şəkildə Muğan xanın oğlu Töremenə keçməsinə razılıq verməyi tələb etdi. Həm də Tobo xan bildirdi ki, ata ilə oğulun qohumluğu ən yaxın qohumluqdur, lakin taxt-tac vərəsəliyində onun heç bir əhəmiyyəti yoxdur. Bu sistemin qəbul etdiyi şəcərəyə görə Şetu da kənarda qaldı. Onun atası yeni qanun qəbul olunana qədər ölmüşdü. Odur ki, Şetu taxt-tac növbəsindən uzaqlaşdırılan gərəksiz knyaz vəziyyətinə düşdü. Lakin o özünü müdafiə edə bildi.

Töremenin anasının «qara camaat» içərisindən çıxdığından onun türkyut əsilzadələri arasında populyar olmadığını nəzərə alan Şetu hakimiyyətin Amraka keçməsinə tərəfdar olduğunu bildirdi. O, əyanların yığıncağına hamıdan gec gəldi və buradakıları hədələdi ki, əgər mərhum xanın vəsiyyətnaməsi təsdiq olunsa, öz bölgəsinə qayıdacaq, ərazisinin sərhədlərini «iti qılınc və uzun cida ilə qoruyacaq», başqa sözlə desək, vətəndaş müharibəsi başlayacaq. Bu güclü arqument idi, heç kəs onun əleyhinə çıxmağa cəsarət eləmədi və zəif, üzüyola Amrak xan elan olundu.

Lakin Töremen bu vəziyyətlə barışmadı. Onun tərəfdarları Amrakı söyür, təhqir edirdilər. Nəhayət, Amrak müdafiəçisi Şetunun xeyrinə taxt-tacdan imtina etdi. Yenə də diqqətdən kənarda qalan Töremen dövlətin şərq ucqarlarında bölgə və Abo xan (ağsaqqal xan) titulu aldı.

Şetu İl-kyulyuq şad Baqa Işbara xan[35] titulu qəbul etdi. Rəğbət bəsləmədikləri şəxslər üçün xoşagəlməz heroqliflər seçmək ənənəsinə sadiq qalan çinlilər sonuncu «lo» hecasını «lio» (soyğunçu) ilə əvəz etdilər və beləliklə də Şabolio adı alındı. Xan elə bu xoşagəlməz adla da tarixə daxil oldu.

İlk xan sayılan Şabolionun düşərgəsi Ötükən dağlarının yaxınlığında, torpaqlarının mərkəzində idi. İkinci xan çinlilərin Dyanqu (heroqlif adı fonetik baxımdan əks etdirmir, onun yalnız fikri mənasını bildirir) adlandırdıqları Qara Çurin Türk idi. Çinlilər onun titulunu fonetik şəkildə Datu xan kimi verirlər. Qara Çurin xanın düşərgəsi Ağdağ dağlarının ətəklərində yerləşirdi.

---

[34] Наршахи. История Бухары…, с.12-13.

[35] Dövlətin (elin) şərəfli şadı, ilahi [Baqa, bəlkə də böyük — maqa], Işbara [qüdrətli, amansız; Çin dilində Şabolo] xan.

Amrak üçüncü xan sayılırdı. Bu dəbdəbəli titul ona taxt-tacı itirməsinin müqabilində güzəşt kimi verilmişdi. Onun düşərgəsi Tolı çayının sahillərində, geniş ov yerlərinin mərkəzində idi.

Bu dörd böyük xandan əlavə dörd nəfər kiçik xan da vardı. Yeni qanuna əsasən Çuloxou öz qardaşının — Şabolionun varisi sayılırdı. Şabolionun əmisi oğlu (çox güman ki, Tobo xanın oğlu) və Amrakın qardaşı Tekin şadın da xaqanlığın şərq hissəsində öz bölgəsi vardı.

Qərbdə yunanların Türksanf, çinlilərin isə Tan-xan adlandırdıqları knyaz hakimiyyət başında idi. O, Şimali Qafqaz və Volqa üzərindəki qoşunlara komandanlıq edirdi. Tobo xanın qardaşı oğlu, Bizansa qarşı müharibə başlayan və 576-cı ildə Bosforu ələ keçirən Buri xan Töremenin qoşun dəstələrində idi.

**Qərbdə müharibə.** Xaqanlığın qərb ucqarındakı müharibənin davamı tarixi mənbələrdə demək olar ki, işıqlandırılmamışdı. Bizans mənbələri qırıq-sökükdür, fars və gürcü mənbələri bizə gəlib çatmayıb, çinlilər isə, görünür, Qara dəniz ətrafının coğrafiyasını o qədər pis təsəvvür edirdilər ki, qulaqlarına dəyən şaiyələri də fantastik şərh edirdilər. Ona görə də türk mənbəyi xaqanın (Qara Çurin) imperator Mavrikiyə məktubu son dərəcə böyük əhəmiyyətə malikdir. Bu məktub fraqmentar şəkildə Feofilakt Simokattanın «Tarixi»ndən verilib. O, mənbə kimi məlumatlar əsasında hadisələrin gedişini bərpa etmək mümkündür.

Menandr yalnız türkyutların 576-cı ildə Bosforu tutması və 580-ci ildə onların Krıma yürüşləri barəsində məlumat verir. Türkyut xaqanının imperator Mavrikiyə məktubundan öyrənirik ki, təxminən 582—583-cü illərdə onlar Qafqaz vasitəsi ilə Bizansa soxulmağa cəhd göstərmiş, lakin müvəffəqiyyət qazanmamışdılar. Tarduş xanın özü Çinlə müharibənin getdiyi şərqdə idi. Bu müharibədə iştirak etmək ona heç bir şöhrət gətirmədi və o, qoşunlarını geri çəkməli oldu. Çin imperatorunun fərmanında bildirilirdi ki, «farslar, eftalitlər və xotanlar baş qaldırdıqlarına görə» Tarduş xan geri çəkilmişdir. Xanın bioqrafiyasının bu səhifəsi haqqında məktubda bircə kəlmə də deyilmir. Xaqanlığın qərb sərhədində qəflətən başlayan müharibə barəsində Çin imperatorunun fərmanı şübhə doğurur. Bu məlumat 582-ci ildə Orta Asiyada və İrandakı mövcud vəziyyətlə uyğunlaşmır. Kiçik knyazlıq olan Xotanın hərbi qüvvələri 4 min döyüşçüdən ibarət idi. Eftalitlər həmin dövrdə İran şahlığının tərkibində idilər, farslar isə Mesopotamiyada Bizansla gərgin müharibə aparırdılar. Burada adları çəkilən düşmənlər hamısı xaqanlığın sərhədlərindən kənarda idilər, odur ki, «üsyan qaldırdılar» sözünü onlara aid etmək olmaz. Daha sonra, əgər doğrudan da Tarduş xan onlara qalib gəlmişdisə, nə üçün bu barədə susurdu? Nəhayət, sonrakı dövrün Çin xronikaları — Suyşu və Tanşu çox güman ki, bu hadisələri qeyri-inandırıcı sayaraq onlara toxunmamışdılar. Mən də bu fikirlə razıyam. Ehtimal ki, imperator Ven-di coğrafiyanı pis bilməyinin tələsinə düşmüşdü. 582-ci ildə çinlilər Qaşqardan qərbdəki ölkələr haqqında bizanslıların özlərindən şərqdəki ölkələr haqqında bildiklərindən o qədər də çox bilmirdilər. Ona görə də xaqanlığın Qərb

sərhədlərində Bizansla müharibə haqqındakı şaiyəni çinlilər İranla müharibə kimi başa düşdülər. Həmin dövrdə belə müharibə əsla baş verə bilməzdi. Bir də ki, bizim ayrıca tədqiqatımızda təhlil olunub.[36] Məktubda iranlılar nə üçün öz müttəfiqlərinin üzərinə hücuma keçməli idilər?[37]

Xatırladılan Çin mənbəyinə təklif etdiyimiz düzəliş Menandrın, «Suyşu»nun və Simokattanın məlumatlarını bir-biri ilə əlaqələndirməyə imkan verir. Tarduş xan 576-cı ildən 583-cü ilə qədər Bizansla müharibə aparırdı. Lakin o, özü şəxsən bu müharibədə iştirak etmirdi, döyüş əməliyyatlarına komandanlıq onun əmisi oğlu, xaqanlığın qərb qurtaracağındakı bölgənin hakimi Buriyə həvalə olunmuşdu. Türkyutların bizanslılar üzərindəki qələbəsi barəsindəki məlumat təbii ki, imperator Mavrikiyə göndərilən məktubda buraxılmışdır. Əsas diqqət lazlar (kolxlar) üzərinə yönəldilmişdi. Onlar Şərqi Roma imperiyasının təbəələri olsalar da, VI əsrdə hələ öz muxtariyyətlərini saxlamışdılar. Beləliklə, tarixi həqiqətə daha çox yaxınlaşmaqla diplomatik incəliyə də əməl olunmuşdur.

Türkyut — Bizans müharibəsinin sonu xaqanlıqda vətəndaş müharibəsinin başlanması ilə — 584-cü ilin əvvəli ilə eyni vaxta düşür. Krıma uğursuz yürüşdən sonra türkyutlar Qafqazla kifayətlənməli oldular. Lazikanın, yaxud Eqrisi hökmdarlığının şərq sərhədi Qafqaz zirvələrindən keçirdi. Abxaziya bu hökmdarlığın tərkibində idi. Ehtimal ki, türkyut knyazlarının hərbi əməliyyatları da elə burada başlanmışdı. Onların cənuba doğru irəlilədiklərini ehtimal etmək çətindir. Lazların müqaviməti haqqında heç nə deyilmir, lakin 300 min adamın öldürüldüyü bildirilir. Meyidlər 160 km. yol boyunca (dörd günlük yol) atılıb qalmışdı. Öldürülənlərin hərbi əsirlər olduğunu ehtimal etməyə daha çox əsas var. Geri çəkilən ordu onları özü ilə apara bilməzdi. Deməli, türkyutların Krıma və Qafqaza yürüşünün qarşısı alınmış, onlar başladıqları müharibəni uduzmuşdular. Həqiqətən də, 588-ci ildə Bizans Bosporu özünə qaytardı və bununla da əvvəlki vəziyyət bərpa olundu.

**Çinlə müharibə.** Çində baş verən çevrilişdən sonra türkyutlar ipəksiz qaldılar. Yan Tszyan barbarlarla diplomatik əlaqələri kəsdi. Həmin dövrdə ipək vasitəsi ilə xarici ticarət əslində köçəri xanların səfirləri ilə imperator sarayı arasında hədiyyələr mübadiləsindən başqa bir şey deyildi. Dərhal qüvvələrin yeni siyasi qruplaşması meydana çıxdı və Toqon xanı Kualyuy türkyut xanı Şabolionun

---

[36] Л. Н. Гумилев. Биография тюркского хана в «Истории» Феофиликта Самокатты и в действительности. Вв; т. XXVI, 1965.

[37] 581—584-cü ildəki müharibələrin Çin mənbələrindən başqa ikinci bir təsvirinin olmaması Q. E. Qrumm-Qrjimaylonu və məni yanlış yola salmışdır. Lakin hər iki müəllif İranın 582-ci ildə xaqanlığa qarşı müharibəsi haqqındakı məlumata diqqət yetirsələr də, bu yanlışlıq nəticəyə öz təsirini göstərməmişdir. Lakin bu məlumat Qurumun Tarduş xanın qızına evlənmiş eftalit knyazı olduğunu güman edən Xausiqi yanlış fikrə gətirmişdir. Burada nəzərdən keçirilən Çin mənbəyindən əlavə mətnində müharibənin məktubun «vətəndaş müharibəsi» və «ara müharibəsi» adlandırılması, habelə eftalitlərin xatırladılmaması Xausiqin səhv etdiyini göstərir.

dostuna çevrildi. Şabolionun arvadı Bey-Çjou nəslindən olan Çin məlikəsi idi. Bütün qohumlarının edam edilməsi və artıq əcdadlarına qurban verilməməsi bu qadını hədsiz qəzəbləndirir. Ehtimal ki, Şimali Çinin syanbi əsilzadələrini türkyut xanının düşərgəsi ilə bağlayan da məhz həmin məlikə idi. O da təsadüfi deyildi ki, Tsi sülaləsinin tərəfdarı, öz ərazisində suveren hüquqlarını qoruyub saxlayan İnçjou[38] sərhəd rayonunun hakimi Qao Bao-nin 582-ci ilin yayında Suy imperiyasına qarşı çıxdı. Eyni vaxtda onun müttəfiqləri türkyutlar da bütün qüvvələrini Qobidən keçirərək Böyük Səddin arxasındakı Çinə soxuldular.

Müharibə imperator və müşavirlərinin güman etdikləri kimi asan olmadı. Türkyutlar dərhal təşəbbüsü ələ alıb çinliləri say üstünlüyünün verdiyi imkanlardan məhrum etdilər. Su ordusu bütün Böyük sədd boyu yayılmışdı: onun sol cinahı Nanşan dağlarına (indiki Qansu əyaləti) söykənirdi, sağ cinahı isə Yu-çjou (indiki Şansi) düzənliyində yerləşmişdi. Çin sərhəd qoşunları darmadağın edilmiş, sağ qalanlar isə səddin arxasında gizlənmişdir. Türkyutlar səddi Qansudakı (burada sədd son dərəcə başdangetdi tikilmişdi) Mux və Şimin keçidlərindən keçmişdilər. Cənub-Qərbi Çinin altı varlı əyalətində bir baş da olsun ev heyvanı qalmamışdı. Lakin bu qarşısıalınmaz soyğunçuluqla türkyutlar əslində özlərini pis vəziyyətdə qoyurdular. Əldə edilmiş mal-qaranın bir hissəsi isə şimala aparıldıqdan sonra türkyut ordusu aclıq təhlükəsi ilə qarşılaşdı. Çünki bərk qorxmuş əhali dağlara çəkilmişdi, müharibə meydanı boş düzəngaha çevrilmişdi. Türkyutlarla eyni vaxtda toqonlar da Çin üzərinə yürüş etmişdilər, lakin 581-ci ildə onlar Lyan-çjouda dəf olunmuşdular və sonrakı döyüşləri əslində sərhəd toqquşmaları xarakteri almışdı.

Yan Tszyan imperiyanın bütün qüvvələrinin səfərbərliyə alındığını elan etdi. Lakin bu böyük möhlət tələb edən iş idi, digər tərəfdən ordunun hazırlığı Su hökumətinin qarşıya qoyduğu vəzifələrə qətiyyən uyğun gəlmirdi.

Çin ordusu tarlalarından və bağlarından zorla ayrılmış kəndlilərdən təşkil olunmuşdu. Zabit heyəti elmi disputlar və şer məcmuələri üçün darıxmış konfutsi ənənəli ziyalılar hesabına genişləndirilmişdi. Filosofların tərtib etdikləri nizamnamələr Konfutsi ruhunda idi. Əsgər və zabitlərin bir sıra hallarda qəhrəmanlıq möcüzələri göstərmələrinə baxmayaraq sərhəd xidməti, yaxud uzaq yürüşlər onlardan ötəri əsl dəhşət idi. Digər tərəfdən ordunun hərəkət sürəti çox zəif idi; o, əsasən piyadalardan təşkil olunmuş və döyüş arabaları ilə silahlanmışdı. Süvarilər olduqca az idi. Aydın məsələdir ki, bu cür ordu ilə çöldə ağalıq fikrinə düşmək xam xəyal idi. Lakin ordunun qüsurları diplomatiyanın imkanları ilə məharətlə aradan qaldırılırdı. Tale Yan Tszyana əvəzsiz köməkçi — misli-bərabəri olmayan casus Çjan Sun-şeni bəxş etmişdi. 578-ci ildə Çin səfirliyinin tərkibində türkyut xanlarının yanına gələn Çjan Sun-şen ox atmaq məharəti ilə o zaman bölgə

[38] Böyük Səddin Şərq qurtaracağında əyalət. Paytaxtı Lyuçen şəhəri idi. İndi orada monqolların Qorban-Sobarqo-xata adlandırdığı şəhərcik yerləşir.

knyazı olan Şabolionu məftun etmiş və onlar dostlaşmışdılar. O öz əlaqələrindən istifadə edərək türkyut knyazlarını bir-birinin üstünə salışdırırdı.

582-ci ilin sonunda çinlilər türkyut hücumunu dəf edə bildilər. Çjan Sun-şen isə türkyut knyazları arasında nifaq toxumu səpə bildi. Bölgə knyazlarının ən güclüsü Qara Çurin Tarduş xan Çinlə separat sülh müqaviləsi bağladı və qoşunlarını ölkədən çıxardı. 583-cü ilin yayı çinlilərin vəziyyətini daha da yüngülləşdirdi — Lintaoya soxulan toqonlar qılıncdan keçirildi, bunun ardınca isə Abo-xan məğlubiyyətə uğradıldı. Şabolionun qələbəsi türkyut ordusunu tam məhv olmaqdan qorudu, lakin Çin casusu Çjan Sun-şen Şabolio ilə Abo xanın arasını vura bildi.

İnanılmış şəxs vasitəsi ilə o, Şabolioyaya aşağıdakıları çatdırdı: «Qəribə deyilmi ki, türkyut qoşunlarına siz başçılıq edəndə onları həmişə qələbə gözləyir, lakin rəhbərlik Abo xanın əlinə keçən kimi məğlubiyyət zərurətə çevrilir? Əslində Abonun və sizin əlinizdə olan qoşunların sayı eynidir. Axı bu biabırçılığın kölgəsi sizin də üzərinizə düşür. İndi, siz hər gün düşməni məğlubiyyətə uğradaraq şöhrət zirvəsinə yüksəldiyiniz bir vaxtda Abo bir-birinin dalınca döyüşləri uduzaraq türkyutlara şərəfsizlik gətirir, siz isə yalnız töhmətlə kifayətlənməyi mümkün sayırsınız? Bir vaxtlar siz «şərq xaqanlığını» (yəni Töremenin bölgəsini) məhv etmək istəyirdiniz. İndi bu işi görməyə cürətiniz çatmayacaqmı?».

Eyni vaxtda Cjan-sun Şen Abo xana bildirirdi: «Datu xan[39] Su sülaləsi ilə ittifaq bağlayıb, deməli Şetu xan türkyut xalqı üzərində ali hakimiyyəti öz əlində saxlaya bilməyəcək. Sizin də vaxtında bu ittifaqa qoşulmağınız və imperatorun himayəsini qəbul etməyiniz daha yaxşı olmazdımı? Bu sizə böyük qüvvə gətirərdi, üstəlik Şetunun iradəsini yerinə yetirərək qoşunlarınızı itirməkdən və cinayət etmiş adam kimi onun təhqirlərinə dözməkdən daha ağıllı yol olmazdımı?».

Töremenin xəyanəti ilə bağlı şayiələr Şetu xanın da qulağına çatdı və o, türkyut dövləti üçün məhvedici səbəblərlə nəticələnən addımı atmaq qərarına gəldi.

**Nifaq.** 584-cü ilin fevral-mart aylarında Töremenin olmadığı vaxt Şabolio onun düşərgəsinə basqın etdi. Kütləvi qırğın zamanı Töremenin anası da həlak oldu. Hamı bu işi çinlilərin fitnəkarlığı sayəsində baş verdiyini bildiyindən Töremen çinlilərlə qan düşməni oldu. O, qərbə, Qara Çurin Türk-Tarduş xanın yanına qaçdı. Şabolionun ədalətsizliyi və qəddarlığı çox güman ki, ordada narazılıq doğurmuşdu. Qara Çurin Töremenə qoşun verdi. Bundan əlavə onun keçmiş aymağının 100 min nəfər sakini[40], habelə bölgə xanları Türksanf (Tanxan) və Teqinşad[*] da Töremenə qoşuldular. İndi Töremenin əlində elə qüvvə vardı ki, Şabolio müvəffəqiyyət qazanacağına ümid bəsləyə bilməzdi. Hətta onun qardaşı

[39] Tarduş xan, Qərb cinahının xanı. Qara Çurin Türk nəzərdə tutulur.

[40] N.İ.Biçurin. Собрание сведений..., т. I, s: 236: Mən bu rəqəmə inanmıram. Çox güman ki, 100 min ordanın ümumi sayıdır, qoşunun sayı isə müvafiq surətdə 15—20 min nəfər olardı.

[*] O, Şabolionun əmisi oğlu idi.

Çulojio da üsyançıların tərəfinə keçdi, arxada isə kidanlar qiyam qaldırdılar. 584-cü ilin payızında Şabolio Çinə sülh və ittifaq təklifi ilə müraciət etdi.

Tarduş xanın səfirləri də eyni təkliflə Çin imperatorunun yanına gəldilər. Beləliklə, Yan Tszyan vəziyyətin ağasına çevrildi. Lakin bu ağıllı və hiyləgər siyasətçi yaxşı bilirdi ki, yalnız xaqanlıqdakı çəkişmə onu xilas edib. O türkyut süvariləri ilə fəal mübarizənin Çin qoşunlarının imkanları xaricində olduğunu yazır və buna görə də xanlar arasındakı nifaqdan istifadə edib, müharibəni Çölə keçirməyi təklif edən Quan knyazının təklifi ilə razılaşmadı. Həm Yan Tszyan, həm də bütün Çin üçün son dərəcə vacib olan başqa bir şərait də mövcud idi; Şimal əyalətlərindəki çinliləşmiş syanbilər hər an türkyutlarla ümumi dil tapa bilərdilər. Üstəlik, Çjou sülaləsindən olan məlikə Şabolionun fikir və hisslərinə istiqamət verirdi. Aydındır ki, əvvəlcədən əldə edilmiş razılıq əsasında məlikə imperatora onu qızı, ərini — xanı isə oğlu kimi tanımaq təklifi ilə müraciət etdi. Onun xahişi dərhal yerinə yetirildi.

Bu hadisə yeni sülalə köhnədən qalmış ənənələrə sadiq qaldığını göstərdi. Başqa sözlə desək, şimal sərhədlərində syanbi mülkədarlarının üstünlükləri təsdiq edildi və köçərilərlə mübadilə ticarəti — yəni üstüörtülü xərac məsələsi həll olundu.

Şabolionun Çinə göndərdiyi nota olduqca müstəqil tonda yazılmışdır. Buradakı tələbləri yardım xahiş eləyəndən daha çox qalib irəli sürə bilərdi. İmperatorun onu oğulluğa götürməsinə əsaslanan xan patriarxal ailələrdə qəbul edildiyi kimi bütün əmlaklarının ümumiliyi fikri ilə razılaşmağı təklif edirdi. «Mənim ölkəmin bütün atları və mal-qarası imperatorundur, imperatorun bütün ipək parçaları isə mənimdir. Burada heç bir ayrıseçkilik yoxdur». Xan mal-qarasının dəyərinin otuz milyonluq Çinin ipək ehtiyatlarının dəyərindən qat-qat az olduğunu anlamaya bilməzdi; lakin mal-qaraya və ipəyə qiyməti diqtə edərkən o, məhz belə bir mübadiləyə can atırdı. Hövsələsiz Yan Tszyan belə məqamda qəzəblənə bilərdi, lakin o, izahı mümkün olmayan bir səbirlilik, təmkin nümayiş etdirirdi və köhnə Bey Çjou dövründəki kimi hədiyyələrlə birlikdə səfirlik göndərdi.

Səfir xandan yalnız bir şey — özünü vassal adlandırmağı və imperatorun fərmanını dizi üstə qəbul etməyi istəyirdi. Xan əvvəlcə özünü naza qoydu, inadkarlıq elədi, axırda razılaşdı. Bu nominal itaətkarlıq Yan Tszyana nüfuz qazanmaq üçün lazım idi. Əslində isə imperator deyil, xan istədiklərinin hamısına nail oldu. Bura həmin dövrün valyutası sayılan ipək, bütün əhali ilə birlikdə müvəqqəti olaraq Çin sərhədlərinə köç etmək (şimalda onu kidanlar və Töremenin tərəfdarları sıxışdırırdılar), döyüşçülər üçün paltar və yemək, hətta hərbi yardım daxil idi. Yardım üçün göndərilən korpusa tükyutların kökünü kəsmək arzusu ilə yaşayan knyaz Quan başçılıq edirdi.

Qara Çurin Türk də Şabolionun yolu ilə getdi və 584-cü ildə özünü Suy imperiyasının vassalı elan etdi. Ona da ipək lazım idi və Qara Çurinin dostları olan

Soqdiana tacirləri çöldə əmin-amanlığa və karvan yollarının təhlükəsizliyini qətiyyətlə tələb edirdilər. İmperatorun hədiyyələri nəqd, vassal asılılığı isə əslində nominal xarakterli olduğundan hər iki xan Çinlə sülh bağlamağa həvəslə razılıq verdilər. Onların ikisi də əslində müharibəni udduqlarını güman edirdilər. Bu ittifaq şərqdə hücuma başlayan Töremenin uğurlarının qarşısını aldı. Şabolio onun qoşunlarını darmadağın etdi, arxadan isə Qobi səhrasından keçən əvvəlki sərhədi bərpa etdi. Töremenə zərbə endirdilər. Onlar Töremenin müdafiəsiz düşərgəsinə hücum edərək onun arvadını və uşaqlarını əsir götürdülər. Şabolionu müşayiət edən Çin qoşunu Töremenin ailəsini abarların[41] əlindən aldı. Əsirlər Şabolioya verildi. O isə öz növbəsində belə qiymətli hədiyyə müqabilində müharibənin başlanğıcında işğal olunmuş əraziləri təmizlədi və böyük Qobi səhrasından keçən əvvəlki sərhədi bərpa etdi.

Bədbəxt Töremen hər şeyi — anasını, arvadını, uşaqlarını, doğma torpağını itirdi.[42] O, sevimli düzənlikləri tərk edərək sonuncu tərəfdarları ilə cənuba çəkilməyə məcbur oldu. Paykənd şəhəri (Buxara yaxınlığında) onun istinad yerinə çevrildi.[43]

**Qohumluq — bölgə sisteminin təntənəsi.** Şabolionun qələbəsi hakimiyyəti onun əlində saxladı, lakin türkyutlar arasında sülhü bərpa etmədi. Qalib xan çöldə özünü o qədər narahat sayırdı ki, 587-ci ildə Çin imperatoruna müraciətlə onun Xuanxe yaxınlığındakı mülklərində «ova çıxmağa icazə verməyi» xahiş etdi. Onun xahişi yerinə yetirildi və xana ərzaq ehtiyatları göndərildi. Lakin bu yardım da vəziyyətdən çıxış yolu olmadı. Şabolionun qərargahı qəflətən yandı, özü isə aldığı «pis təəssüratdan» öldü.

Xanın oğlu Yun Yolluq (Çin mənbələrində Yun Yuyluy) qanuna görə əmisi və atasının düşməni Çuloxouya çatmalı olan taxt-tacdan imtina etdi. Lakin burada məsələ xan oğlunun şəxsi keyfiyyətlərində deyildi, yeri gəlmişkən, sonralar o, özünün kifayət qədər cəsarətli və bacarıqlı olduğunu göstərmişdi. Güman ki, gözlənilən barışıqda həlledici rolu daxili çəkişmələrə qətiyyən ehtiyac hiss etməyən türkyut drujinaçıları oynamışdılar. Onlar taxt-tac vərəsəliyi haqqındakı qohumluq-bölgə qanununu yada saldılar və xanı həmin qanuna əməl etməyə və güzəştə getməyə məcbur elədilər.

---

[41] Çin xronikasının bu yerini Biçurinin düzgün tərcümə etmədiyi Q. E. Qrumm-Qrjimaylo aşkara çıxarmışdır. Lakin o, aba tayfasını Tele qrupuna aid edir. Bu fikir mənbələrdə təsdiq olunmur, çünki abarlar müstəqil tayfa idi.

[42] Mənbədə göstərildiyinə görə o, əsir alınmışdı. Li Mautsay «Suyşu»nun səhvə yol verdiyini ehtimal edir.

[43] Töremen-Abo xanın Abruy, yaxud Abaruy formalı titulunun mövcudluğu «Bilik xəzinəsi» kitabının (bu kitabın bəzi parçaları Narşahinin «Buxara tarixi» əsərinə daxil edilmişdir) müəllifi Əbül Həsən Əbdürrəhman Məhəmməd ən-Nişapuriyə məlum idi. Hadisələrin N. P. Tolstov tərəfindən təklif olunanı qəbul edilə bilməz, lakin Abruyla Abo xanın eyniləşdirilməsi ona məxsusdur.

Yun Yolluq Çuloxounun yanına taxta çıxmaq təklifi ilə səfir göndərdi. Lakin görünür Çuloxou qardaşı oğlunun səmimiyyətinə inanmadığından etimaddan imtina etdi və özünün itaət təklifini bildirdi. Lakin xanzadə qəti və inandırıcı şəkildə etiraz etdi: «Siz, Çuloxou, uzun müddət atamın düşməni olmusunuz, siz onun hələ uşaq oğluna tabe olun. Qanunumuza və sizi varis təyin etmiş atamın iradəsinə görə taxt-tac sizə məxsusdur. Siz tabe olmalısınız». Əslində hər iki xan tabe olmalı idi; çünki onların ikisinin də başı üstündə cidalı drujinaçılar dayanırdı. Onlar taxt-taca sahib olmaq istəyənlərdən «ən igidini və ağıllısını» — yəni Çuloxounu seçdilər.

Onun hakimiyyətə gəlməsi* dərhal gərginliyi aradan qaldırdı. Abo xanın tərəfdarlarından çoxu (təbii ki, onlar Şabolio ilə düşmənçiliyə görə Abo xanın mövqeyini qəbul etdilər) yeni xanın tərəfinə keçdilər. Qara Çurin də mərkəzi hakimiyyət əleyhinə fəal mübarizədən əl çəkdi və tamam təklənmiş (585-ci il) Abo xana arxa çevirdi.

Çuloxou taxt-tacla birlikdə qardaşının siyasətini də irsən qəbul etmişdi. O, Suy imperiyası ilə ittifaqını təsdiq etdi və vəziyyəti həmin dövrdə daha da pisləşən köhnə dostu Abo xanla açıq müharibə aparmağa başladı.

**Paykənd faciəsi.** Abo xanın dağıdılmış dəstələri Cunqar darvazalarından və Çu dərəsindən köçərək qərbə çəkildilər. Qara Çurin onların xanı ilə ittifaqı pozduğundan daha bu yerdə qala bilmirdilər. Onlar xaqanlığın cənub ucqarlarına köç etdilər, ümidləri bu idi ki, məsafənin uzaqlığı arzusunda olduqları təhlükəsizliyə şərait yaradacaq.

Türkyutların Buxara vilayətinin hüdudlarında görünməsi haqqında «Buxara tarixində» deyilir: «Türküstandan gələn adamlar burada məskən saldılar, çünki vilayətdə su və ağac çox idi, gözəl ov yerləri vardı. Bu köçüb gələnlərin çox xoşuna gəldi. Əvvəlcə onlar yurtlarda və çadırlarda yaşayırdılar, lakin sayları xeyli artdıqdan sonra tikinti işlərinə başladılar. Çoxlu adam yığışmışdı, onlar (öz aralarından) bir nəfər seçib onu əmir təyin etdilər. Həmin adamın adı Abruy idi».

---

* Burada istinad etdiyimiz mənbələr arasında olduqca mühüm fərq mövcuddur. Həmin fərq türkyut qayda-qanunlarını çinlilərin necə anlaması baxımından qiymətlidir. «Suyşu»da Çuloxou Şexu xan (yəni Cabru, yaxud Yabqu xan), Qanmuda isə—Moxe xan adlandırılır. Türk dillərində belə səs əvəzləməsinin mövcudluğunu nəzərə aldıqda burada Baqa xanın titulundan danışıldığı aydın olur. Bu fərqə Lyu Mao-tszay xüsusi diqqət yetirmiş, lakin burada adicə səhvdən söhbət getdiyini güman etmişdir. Çünki Şabolionun oğlu da yabqu adlandırılır. Lakin qohumluq - bölgə sisteminin qayda-qanunlarını və iddiaçılar arasındakı çəkişmələri nəzərə aldıqda həmin fərqin prinsipial əhəmiyyəti aydınlaşır. «Yabqu» termininin mənası «vəzifəni icra edən», «baqa»nın mənası isə «ilahi», «allahın mərhəməti ilə hökm edən» deməkdir. Başqa sözlə desək, Çuloxou hakimiyyəti qəbul edib-etməməklə bağlı tərəddüd keçirdiyi dövrdə «yabqu» idi, yəni xanı əvəz edirdi. Razılıq əldə ediləndən sonra o, Baqa (Moxe) xan, yəni «allahın» mərhəməti ilə xan» oldu. Yun Yollıq atasının bölgəsini və taxta sahiblik hüququnu saxlamaqla əldə olunmuş güzəşt nəticəsində yabqu titulu aldı. Çuloxou tezliklə həlak olduğuna və onun titulunun ənənəviləşmədiyinə görə Çin xronikalarında hər iki variantdan istifadə edilmişdir. Lakin göstərmək lazımdır ki, «Qanmu»nun tərtibçisi VII əsrin ortalarında Suy sülaləsinə dair tarixi qeydləri sahmana salan müəllif kollektivi ilə müqayisədə daha çox tarixi həssaslıq nümayiş etdirmişdir.

Abo xanın döyüşçülərinin ələ keçirdikləri müdafiəsiz torpaqda özlərini necə apardıqlarını təsəvvür etmək çətin deyil. Türkyut ordusunda nizam-intizamın vəziyyəti haqqında hələ həmin dövrdə (563-cü il) Cjan dövlətinin generalı Yan Tszyan kifayət qədər aydın məlumat vermişdi: «...türkyut döyüşçüləri mükafata da, cəzaya da eyni dərəcədə laqeyddirlər, öz rəislərinə az hörmət edir, çox vaxt qayda-qanunu gözləmirlər». Lakin türkyut döyüşçüləri hərbi qənimətə qətiyyən laqeyd deyildilər və soyğunçuluğa böyük rəğbətlə yanaşırdılar. Ona görə də «Buxara tarixi»ndən gətirdiyimiz aşağıdakı məlumat təəccüblü görünməməlidir: «Aradan bir müddət keçəndən Abruyun hakimiyyəti möhkəmləndi, o vilayəti hədsiz amansızlıqla idarə etməyə başladı, sakinlərin hamısının səbri tükəndi. Dehqanlar və varlı tacirlər bu vilayətdən Türküstan və Taraz tərəfə köçdülər və burada şəhər salıb adını Xamukat qoydular... Buxarada qalanlar öz əyanlarının yanına elçilər göndərib onları Abruyun zülmündən qorumağı xahiş etdilər. Əyanlar və dehqanlar yardım üçün türklərin padşahı Qara Çurin Türkə müraciət etdilər. Əzəmətinə görə xalq ona Biyaqu* adı qoymuşdu. Biyaqu dərhal oğlu Şiri-Kişvəri* böyük qoşunla göndərdi. O, Buxaraya gəlib Paykənddə Abruyu tutdurdu və onu içərisi qırmızı arılarla doldurulmuş iri kisəyə salmağı əmr etdi. Abruy arıların dişləməsindən öldü».

Lakin Töremen Abo xan üzərində qələbə çox çətin başa gəldi. Qara Çurinin keçmiş müttəfiqinə divan tutmaq üçün ilk cəhdi uğursuzluqla nəticələndi. Onda Qərb və Şərq xanları barışıq bağladılar və hakimiyyəti qəsb etmiş Abo xana qarşı müvəqqəti ittifaq yaratdılar. Şərqi türkyutların qoşununu qərbə Qara Çurinin və Töremenin köhnə dostu Çuloxou apardı*. Yol boyu o, köməkçi Çin hərbi korpusu da onunla birlikdə getməsi barəsində şaiyə yayır və qəsdən Suy imperatorunun bağışladığı bayraqları nümayiş etdirirdi. Bu tərəddüd edənlərə və nüfuzunu nisbətən az itirənlərə təsir göstərirdi. Töremenin tərəfdarlarının çoxu Çuloxounun tərəfinə keçdilər.

Qərb xanının qoşunlarına onun İran mənbələrində Şiri-Kişvər adlandırılan oğlu Yanq Soux-təkin başçılıq edirdi. Bundan əlavə iki xan — çox güman ki, Yun Yollıq və Qara Çurinin böyük oğlu — Sibir «Bahadır knyazı» kömək göndərmiş, yaxud yardım vədi vermişdilər, 587-ci ilin baharında müttəfiqlər üsyançıları Buxara yaxınlığında döyüşə girməyə məcbur etdilər.

---

* Biyaqu («Suyşu»da-Buqya) adını Şavann «Bilke»—yəni «müdrik» kimi verir. Bizim fikrimizcə, burada Boke — yəni «qəhrəman» ekvivalenti daha çox yerinə düşür.

* Türk adı olan «İl-Arslan»ın farscaya kalkası. Mənası «ölkə şiri» deməkdir.

* İmperator Mavrikiyə məktub yazan müəllifə, yəni Qara Çurinə köməyə gəlmiş böyük xaqanların adını biz tərcüməçilərə aydın olmayan türk ifadəsi kimi yozuruq: «Спарзебгун. Кунансолан Тулдих Isbu ra jabgu qunaq qa sol (d) antoldu. Ruscaya tərcüməsi: «Ышбара ябгу в гости (по приглашению) с левой стороны (с востока) наполнил… (паступил, наводнил войсками).

Töremen və onun tərəfdarlarının geri çəkilməyə yolu yox idi. Yunan mənbəyi xəbər verir ki, «düşmənlər qəhrəmancasına vuruşurdular, lakin qəsbkar öldürüləndən sonra onun ordusu qaçmağa üz qoydu. Böyük qırğından sonra xaqan yenidən öz ərazisinin ağası oldu. Xaqan elçi vasitəsi ilə imperator Mavrikiyə bu qələbələr haqqında xəbər çatdırdı».* «Vətəndaş müharibəsinə son qoyan xaqan tauqastalarla sülh bağladı ki, dərin sakitlik içərisində dövləti idarə etsin». Çin mənbələri isə bu məsələ ilə əlaqədar yalnız birinci nazirin sözlərini gətirirlər: «Doğma adamlar zəhərli həşəratlar kimi bir-birini məhv edəndə xeyirxahlıq göstərmək üçün onların günahından keçmək lazımdır». Burada «zəhərli həşəratlar» — «qırmızı arılar» birliyi müəyyən rol oynaya bilər. Ən başlıcası isə köçərilər arasında Suy sülaləsinin nüfuzunu qorumaq və xeyirxahlıq nümayiş etdirmək çağırışıdır: düşmənə rəhm etmək olar, onsuz da bir-birilərinin qanına yerikləyirlər (sanki mərhəmət, yaxud qəddarlıq azacıq da olsa çinlilərdən asılı idi).*

Lakin sülh müqaviləsi bağlanana qədər böyük çəkişmənin iştirakçılarından biri də öz həyatı ilə vidalaşmalı oldu. Töremenin məğlubiyyətindən və qətlindən (Suy hökumətinin ikiüzlü məsləhətinə rəğmən hökm yerinə yetirildi) sonra şərq və qərb türkyutları bir daha qarşılaşdılar. Bu dava-dalaş təsadüfi deyildi — şərq türkyutları rəhbərliyə, qərb türkyutları isə müstəqilliyə can atırdılar. Silahlı toqquşmaları çox da gözləmək lazım gəlmədi. 587—588-ci ilin qışında Çuloxou qərbə, aralarındakı düşmənçiliyin yenidən təzələndiyi Tarduş xana qarşı yürüşə çıxdı. Çuloxounun qoşunları darmadağın edildi, özü isə öldürüldü.

Bu hadisələrin nəticəsi özünü dərhal göstərmədi, lakin onlar xaqanlığın taleyində həlledici rol oynadılar, həmin vaxta qədər qərb və şərq türkyutlarının müharibəsi sülalə çəkişməsi xarakteri daşıyırdı. Bir tayfanın iki müxtəlif hissəsi arasında müharibəni qızışdıra bilən heç bir iqtisadi, siyasi, ideoloji səbəb yox idi. Lakin VII əsrdəki qan intiqamı, XVI əsrdə dini əqidə, XIX əsrdə isə qazanc uğrunda müharibə ilə eyni xarakterli idi. Çuloxounun öldürülmüş drujinaçılarının qohumları qərbi türkyutlarla barışmaq istəmirdilər və barışa bilməzdilər. Bu sadəcə olaraq onların ağlına belə gəlməzdi. Ona görə də müharibə 593-cü ilə — Şabolionun oğlu, əmisinin ölümündən sonra taxta çıxan Yun Yollıq Qara Çurinlə sülh bağlayana qədər davam etdi. Öz ulusunun başında dayanan Yun Yollıq 587—588-ci illərin yürüşündə iştirak etməmişdi, odur ki, onun drujinaçıları qərbi türkyutlarla münaqişəni dayandırmaq hüququna malik idilər. 593-cü ilin sülh

* Məktub Konstantipopola 696-cı ildə çatdırılmışdı.

* Çin, fars və yunan versiyaları arasındakı fərq o qədər də böyük deyil və məlumatlılıq səviyyəsinin müxtəlifliyi ilə fərqlənir. Yunanlar yalnız üsyançının məhvini xəbər verir, farslar onun dəhşətli aqibətini təsvir edir, çinlilər isə konkret məlumatdan yan keçirlər. Fars versiyasına görə Qurum-Dalobyan Abruyu Qara Çurinin oğlu Şiri-Kişvər əsir götürmüşdü. Göründüyü kimi, fars və Çin versiyaları ziddiyyət təşkil etmir. Çin mənbələrində də bildirilir ki, Töremeni Çuloxou özü əsir tutmamışdı, bu hadisə onun hakimiyyəti dövründə baş vermişdi.

müqaviləsi xaqanlığın birliyini bərpa etdi və bölgələr arasındakı sərhədləri sabitləşdirdi.

İmperiyanın ən mühüm simalarından birinə çevrilən Qara Çurin Paykənd taxtına öz nəvəsi Nili xanı, yaxud da ehtimal ki, onun atası Yanq Soux təkini oturtdu. Onun taleyi haqqında bir qədər aşağıda söz açacağıq.

Daxili çəkişmə zamanı türkyutlar qərb ərazilərinin bir hissəsini itirdilər. Məsələn, 588-ci ildə Bizans Bosoru özünə qaytardı. Lakin bunun müqabilində türkyutlar şərqdə Qaoçan knyazlığını itaət altına almaqla bir növ məğlubiyyətin əvəzini çıxdılar.

**Pərdə arxasında.** Yunan tarixçisi türkyut xanının «sülhsevərliyini» təsadüfi qeyd etmirdi. O, iki imperatoru xəbərdar etmişdi və həmin «sülhsevərlik» onun dayısı oğlunun məhvinə gətirib çıxarmışdı.

Mətnlərin müqayisəsi və VI əsr şəraitinin nəzərə alınması yolu ilə baş verən hadisələrin mahiyyətini asanlıqla aşkara çıxarmaq olur.

Türkyutlar, xüsusən də Xamidən İran sərhədlərinə qədər karvan yollarını nəzarət altında saxlayan Qərbi türkyut xanları üçün əsas gəlir mənbəyi olan tranzit ticarət müharibə şəraitində əsla mümkün deyildi. Qara Çurin Şabolionu zəiflətmək üçün Töremen Abo xanın tərəfini saxlayırdı, lakin Töremen karvan yolunun sahibinə çevriləndə və onun ac əsgərləri ticarətə imkan verməyəndə Qara Çurin səhv etdiyini başa düşdü və dərhal Çinlə ittifaqa istiqamət götürdü. Həmin dövrdə müharibə müharibəni qidalandırırdı. Abo xanın yaşayış üçün heç bir vəsaiti olmayan döyüşçüləri itaət altına alınmış vilayətin hesabına dolanırdılar, 585-ci ilin payızından bu vilayət Mavərənnəhrin cənub hissəsi ilə məhdudlaşanda, yüz min nəfərlik ordanı yedirib-içirmək onun üçün ən ağır yükə çevrildi. İmkanı olanlar sonralar Boke titulu qəbul etmiş Qara Çurin Türkün yanına köçdülər. Qaçqınlar Abo xanın dəstələrinə qarşı mübarizə üçün yardım istəyirdilər. Əslində onların başqa yolu yox idi.

Türkyut xanları ilə Soqdiana tacirləri arasında VI əsrin 60-cı illərində İstemi xan və Maniaxın tərəfindən başlanmış dostluğu onların uşaqları da davam etdirirdilər. Qara Çurin Türk öz qızını Soqdiya knyazına ərə vermişdi. Soqdiya tacirləri inhisarçı idilər, odur ki, türkyut xanına çəkdikləri xərcləri istehlakçıların üzərinə qoymaq və bununla da başqalarının hesabına öz təhlükəsizliklərini təmin etmək onlar üçün elə bir çətinlik törətmirdi. Bu səbəbdən də Soqdiya zadəganları türkyut əyanlarına səxavətlə bəxşişlər verirdilər. Abo xanın soyğunçu dəstələri Orta Asiya Mavərənnəhrinə* doluşanda tacirlər və dehqanlar qərbi türkyutların yanında sığınacaq tapmışdılar. Onların iştirakı ilə Qara Çurin öz siyasətinin istiqamətini dəyişdi, Töremenlə birlikdə Çin əleyhinə vuruşmaq əvəzinə ona divan tutdu, özü isə 589-cu ildə Çinlə sülh bağlayıb oğlunu vuruşmaq üçün İran üzərinə

* Amu-Dərya və Sır-Dərya çaylarının arasındakı ərazi nəzərdə tutulur — tərcüməçi.

göndərdi. Əkin sahələrindən ayrıla bilməyən yoxsul əhali isə 587-ci ildə də öz yerlərində qalmağa və Abo xanın «tatsız türk olmaz» («tat» — köçərilərə tabe olan əkinçilərə deyirdilər) türkyut atalar sözünü yaxşı mənimsəmiş veteranlarını yemləməyə məcbur idilər.

Abo xanı Abruyu məhv edən ziddiyətlər soyulub talan edilən tatlarla ac türkyutların mübarizəsi kimi müəyyənləşir. Tarixçi Narşahi tam yəqinliklə təsdiq edir ki, «bütün zənginlər və varlı dehqanlar köçüb getdilər, kasıblar və aşağı təbəqədən olanlar isə Buxarada qaldılar» və qalanlar «öz əyanlarının yanına səfirlər göndərib onları Abo xanın zorakılıqlarından qorumağı» xahiş etdilər. Özbaşınalıq və terrora əsaslanan yeni rejim patriarxal münasibətləri özündə ehtiva edən köhnə rejimdən daha qəddar və amansız idi. Ona görə də əyanlar və onlarla birlikdə gələn türkyut şahzadəsi azadlıq gətirənlər kimi qarşılandılar. Lakin kasıblar bu azadlıqdan çox az şey qazandılar, çünki onlar yenidən «Xamukatdan qayıdanların» yəni əyanların və dehqanların xidmətçilərinə çevrildilər. Türkyut dövrünün sonu və ərəb istilasının başlanğıcı ərəfəsində Orta Asiyanın siyasi quruluşunu «torpaq aristokratiyasının qeyri-məhdud hakimiyyəti» kimi müəyyənləşdirmək olar. Güman ki, türkyutlar bu prosesdə sürətləndirici rolu oynamışdılar.

Xaqanlıqda çəkişmə təsadüfi meydana çıxmamışdı. Çoxsaylı və demək olar ki, müstəqil mövcudluğu özlüyündə şəxsi münasibətlərin vətəndaş müharibəsinə çevrilməsi üçün kifayət idi. Bununla bir sırada mübarizə aparan tərəflərin heç birinin proqramının olduğunu deyə bilmərik. Bu və ya digər dəstəyə mənsubluq türkyut hərbçilərinin və bəylərinin simpatiya və antipatiyaları ilə izah olunur.

Türkyut cəmiyyətinin Çinlə mübarizəni davam etdirmək tərəfdarı olan demokratik ünsürlərinin, Töremenin, Çinə düşmən münasibət bəsləyənlərin isə Şabolionun başına toplaşmaları haqqındakı ehtimal özünü doğrultmur. Demək olar ki, bütün bölgə knyazlarının, hətta Şabolionun qardaşı Çuloxounun da Töremenin tərəfində dayandığını görürük. Şabolio özü bütün qüvvə və imkanları ilə Çinlə mübarizə aparırdı və yalnız naəlaclıqdan Suy imperiyasına müraciət etməyə məcbur olmuşdu. Töremen isə Çinə qarşı qətiyyən çıxış etməmişdi.* Əslində bu adi sülalə çəkişməsi idi; onun hərəkətverici motivləri knyazların şöhrətpərəstliyi və drujinaçıların acgözlüyü, ilk qan axıdılandan sonra isə intiqam hissi idi.

Mübarizə yalnız dörd iştirakçıdan üçü öldükdən sonra dayandı. Yeni xan Yun Yollıq «zəif və qorxaq idi», ona görə də qanuni xan hüququndan məhrum edilən Qara Çurin əslində imperiyanın faktiki hökmdarına çevrildi.

Beləliklə, qohumluq — bölgə sistemi bir tərəfdən sülalə çəkişmələri, o biri tərəfdən isə dinclik üçün imkan yaratdı, çünki sistemin çevikliyi mübarizə aparan tərəflərə güzəştli həll yolu tapmağa imkan verdi. VI əsrin 90-cı illərində türkyut

* Çjan Sun-Şen imperator şurasında demişdi: «Abonun cinayətləri hər necə olsa da, o, imperiyaya münasibətdə bədxahlıq göstərməmişdi».

dövləti daxilən möhkəm idi və qonşuları üçün təhlükə mənbəyi olaraq qalırdı. Suy imperiyasının idarə etdiyi Çin bu vəziyyətlə barışmaya bilməzdi.

Türkyutlar Çinə gəlir mənbəyi kimi baxırdılar, çinlilər isə türkyut dövlətinin timsalında öz sərhədləri üçün daimi təhlükə görürdülər. Köçərilərlə ünsiyyətdən onların götürdükləri fayda cüzi, məruz qaldıqları ziyan isə son dərəcə böyük idi. Ona görə də güclü Çin hökuməti köçərilərin qüvvələrini birləşdirməsinə imkan verə bilməzdi. Bu səbəbdən də Aşina dövlətinə qarşı mübarizə Suy sülaləsinin ən mühüm vəzifəsinə çevrilmişdi.

## X f ə s i l

## İRANA YÜRÜŞ

**Müharibə ərəfəsində.** Qara Çurin Türk öz rəqiblərini aradan götürdü, qardaşı oğlunu öldürdü, onun tərəfdarlarına — özünün həmtayfalarına divan tutdu. Bütün bunlar yalnız bir məqsədlə edilirdi: O, yapma tabeçiliyi müqabilində Çindən aldığı ipəyi Soqdiya tacirlərinin vasitəçiliyi ilə satıb maneəsiz varlanmaq istəyirdi. Lakin böyük hərc-mərclik ərəfəsində, on il əvvəlki dövrlə müqayisədə bu yolla varlanmaq ehtimalı daha da azalmışdı. İranla Bizans inadlı və amansız müharibə aparırdılar, İran şahının Konstantinopola artıq bir karvan da buraxacağını təsəvvürə belə gətirmək mümkün deyildi. Vəziyyəti mürəkkəbləşdirən bir də türkyutlarla yunanların rəsmi müharibə vəziyyətində olmaları idi. Doğrudur, artıq yeddi il idi ki, döyüşlər getmirdi, lakin sülh müqaviləsinin olmaması səfirliklər mübadiləsinə maneçilik törədir və İrana qarşı hərbi əməliyyatların əlaqələndirilməsini çətinləşdirirdi. İttifaq isə həm yunanlar, həm də türkyutlar üçün eyni dərəcədə zəruri idi, çünki onların ümumi maraqları və ümumi düşmənləri vardı.

Əgər İranın müqavimətini qırmaq mümkün olsaydı və Çin ipəyi çay kimi Bizans patrikilərinin anbarlarına axsaydı, onda german konunqlarının drujinalarını muzdla saxlamaq üçün Bizansın kifayət qədər maddi imkanı olar və o özünün Avropadakı hegemon mövqeyini qoruya bilərdi. Onda Soqdinada qızıl aşıb-daşardı, türkyutlarda sinfi cəmiyyət yaranması prosesi güclənər və el feodal dövlətinə çevrilərdi, İrandan isə Firdovsinin sözləri ilə desək, bir tikə mum qalardı. Daxili müharibələr xaqanlığı içəridən parçaladıqca türkyut xanları fəal xarici siyasət apara bilmirdilər, lakin sakitlik yaranan kimi «ipək yolu» problemi birinci dərəcəli əhəmiyyət kəsb edirdi. Buna müvafiq şəkildə Bizansla razılığa gəlmək zərurəti yaranırdı, çünki əlaqələndirilməyən hərbi təşəbbüslər qabaqcadan məğlubiyyətə məhkum idi.

Rəsmi ittifaq bağlanmadı, lakin vasitəçi tapıldı. O, gürcü hökmdarı Quaram Baqratid idi. Gürcü hökmdarının köməyi ilə 589-cu ildə bütün antiiran qüvvələrinin koalisiyası yaradıldı, bunun da nəticəsində Təbərinin yazdığı kimi, «ox kamanın dövrəsinə düşdüyü kimi İran da düşmənlərlə əhatə olundu».

Düşünülmüş tədbir müəyyən ümidlər verirdi, lakin məqsədə nail olmaq o qədər də asan deyildi. Özünün uzun tarixi boyunca İran gah şöhrət və qüdrətin zirvəsinə yüksəlmiş, gah da üzü aşağı yuvarlanaraq parçalanmışdı. Onun VI əsrdəki qüvvə və imkanlarını layiqincə qiymətləndirmək üçün ölkənin tarixini ötəri də olsa nəzərdən keçirmək lazımdır.

**İranın gücü və zəifliyi.** Hələ nəhs 330-cu ilə qədər Əhəmənilər imperiyası anaxronizmə çevrilmişdi. Assiriya ənənələri əsasında yaradılmış bu imperiya yalnız hərbi despotiyaya can atır və bu sahədə öz sələfini də arxada qoyurdu. Eyni zamanda hakimiyyəti möhkəmlətmək zərurəti Kserksi və onun varislərini həm yad dinlilərə, həm də şahənşahın dini liderliyini qəbul etməyən ortodoks Zərdüşt ardıcıllarına qarşı təqibləri gücləndirməyə məcbur edirdi.

Siyasi, ideoloji və iqtisadi düyünlər hər il daha da bərkiyirdi. Ona görə də təəccüblü deyil ki, arqirosipidlərin* gümüşü parıltısı ilk dövrlərdə Asiya xalqlarına çoxəsrlik əsarətdən yol göstərən azadlıq günəşi təsiri bağışladı. Lakin tezliklə aydın oldu ki, mütəşəkkil despotizm anarxist özbaşınalıqla əvəz olunub və diadoxlar pasardaq hakimlərindən qətiyyən yaxşı deyillər, əksinə, bəlkə daha da pisdirlər. Lakin buna baxmayaraq heç kim köhnəyə can atmırdı. Suriyalılar və misirlilər yunanlara uyğunlaşa bilmişdilər, despotizmin sona qədər korlaya bilmədiyi şərqi iranlılar isə mübarizə aparmaq üçün özlərində qüvvə tapdılar və qalib gəldilər. Parfiya süvari nizələrinin köməyi ilə yaradılmışdı və təsadüfi deyildi ki, həmin 240 ailə yeddi qədim nəsillə birlikdə aristokratiyaya çevrildilər. Lakin qəfil qələbəni möhkəmləndirmək üçün parfiyalılar yunanlardan dərs almağa yollandılar. Döyüş meydanında məğlub olmuş ellinizm qalibləri dünyagörüşünü qidalandırmağa başladı. Ellinlər kameya və qemmalardan zövq alır, Platonu dönə-dönə oxuyur. Evripidin faciələrini alqışlayır və öz qalalarının möhkəm divarları arxasında xalqın öz nifrətini keçmiş quldurlardan «azadlıq gətirənlərə və müdafiəçilərinə» yönəltməyə hazır olduğunu unudurdular. Parfiya əyanları xalqla əlaqələrini itirmişdilər. Bu da 224-cü ildə, xalq öz sözünü deyəndə onların məhvinə gətirib çıxardı.

Lakin hakim sülalənin nümayəndələrini vəhşicəsinə qılıncdan keçirən Ərdəşir Babaqan 240 ailəyə aman verdi, çünki aristokratiya ona lazım idi. Gənc Sasani dövləti mövcudluğunun ilk illərindən amansız müharibələr aparmağa məcbur olurdu. Ərdəşir süvariləri — ordunun ən döyüşkən hissəsini məhv etməyin hədsiz ağılsızlıq olduğunu yaxşı başa düşürdü. Beləliklə, azad kəndlilərə arxalanan şah hakimiyyəti beş əsr ərzində artıq eybəcərləşmiş ellinizmlə əlaqələrini kəsib taleyini İran mədəniyyətinə bağlayan hərbi aristokratiya ilə ittifaqa girdi.

---

* Hərfi mənası «gümüş qalxanlılar» deməkdir. Makedoniya polklarının gümüşü qalxanla zərbə cinahları nəzərdə tutulur.

İlk Sasanilər hərbi uğurlar qazanırdılar. Şərqdə Behruda* qədər, İran qərbdə Fərat çayına qədər, Mesopotamiya şimalda isə Dərbəndə qədər Zaqafqaziya onların əlinə keçdi. İran şahlığı imperiyaya çevrildi, lakin onun tərkibindəki xalqlar özlərinə məxsus ictimai quruluşu — Deyləm dağlıları və İraq ərəbləri tayfa başçılarını, Mesopotamiya şəhərlərinin xristian, yəhudi və qnostik icmaları özünüidarələrini, ermənilər isə hətta şahənşahın protekratı altında çar hakimiyyətini saxlayırdılar.

Sasanilər bütöv bir mədəni dünyanın başçısına çevrildilər; bu eyni zamanda həm onların qüvvələrinin, həm də zəifliklərinin mənbəyi idi. Bir tərəfdən Sasani imperiyasında həmin dövrdə böyük dövlət üçün tələb olunan hər şey mütərəqqi əkinçilik və azad kəndlilər (piyada qoşunları bu kəndlilərdən təşkil olunurdu) ordunun komanda heyətini və inzibati aparatı təşkil edən zadəganlar, süvari zərbə qüvvəsi təşkil edən digər əyanlar mövcud idi. Şərqi İranın və İraqın köçəri qəbilələri ölkəni heyvandarlıq məhsulları və yardımçı süvari qüvvə ilə təmin edir, igid Deyləm dağlıları isə hərbi qənimət müqabilində həvəslə şahənşahların qulluğunda dayanırdılar. Nəhayət, Mesopotamiya şəhərlərində sənətkarlıq və ticarətin inkişafı da xüsusi qeyd olunmalıdır.

Zehni fəaliyyət əsil fars olanların inhisarı altında idi və ruhani-möbüdlərlə katiblərin arasında bölünmüşdü. İlk baxışdan elə təəssürat yaranırdı ki, hər şey yerli-yerindədir, lakin vəziyyət əslində çox pis idi, çünki bu vəziyyətin özünün əks tərəfi vardı. Şah hökuməti də daxil olmaqla bütün qruplaşmaların son dərəcə ziddiyyətli, hətta sülh yolu ilə həlli mümkün olmayan barışmaz mənafeləri ortaya çıxmışdı və İranın bədbəxtliyindən onların hamısı öz ideyalarını əldə silah müdafiə etmək üçün lazımi qüvvəyə malik idilər.

Şah hökuməti yalnız mütləqiyyət kimi görünməyə deyil, mütləqiyyətə çevrilməyə can atırdı. Belə şəraitdə təbiidir ki, həmin hökumət ölkədəki sərvətlərin böyük bir hissəsinə yiyələnmək və nəyin bahasına olursa olsun, taxta zəif və iradəsiz padşah çıxarmağa çalışan aristokratiya ilə münaqişəyə girməli idi. Digər tərəfdən, Zərdüşti ruhanilərlə ittifaq ticarət sayəsində iqtisadi qüdrəti əllərində toplamış xristianlara, qnostik təriqətlərə və yəhudi icmasına qarşı dini təqiblər siyasətinə başlamaq olardı. Həm maddi yardım almaq, həm də qeyri-iranlılardan ölkənin əsas düşməni Bizansa qarşı mübarizədə istifadə etmək üçün dini indifferentizm və tam dini dözümlülük mövqelərində dayanmaq lazım idi. Bu isə zərdüşti ruhanilərlə qarşıdurmaya gətirib çıxarırdı. Dağlarda və düzənliklərdə yaşayan tayfalar sözdə İran şahına həvəslə tabe olsalar da əslində müstəqillik istəyirdilər, buna görə də onlardan ən minimal vergi almaq üçün də güc tətbiq etmək lazım gəlirdi. Bir sözlə, şahənşah öz qızıl taxtını əldə saxlamaq üçün daim

* Wehrot — Amu-Dərya.

müttəfiqlər axtarmalı, dəstələrin hər hansı birinə güclənmək imkanı verməmək üçün daim onları dəyişməli idi. Lakin həmişə buna nail olmaq mümkün deyildi.

Digər tərəfdən adlarını çəkdiyimiz qruplaşmalar yalnız şah hakimiyyəti ilə deyil, bir-biriləri ilə də mübarizə aparırdılar. Xristianlar atəşpərəst məbədlərini dağıtmaq və farslar arasında İncili yaymaq istəyir, həm də bu iş üçün şahın rəsmi icazəsini tələb edirdilər. Ordunun piyada hissəsini təşkil edən azad kəndlilər aristokratiyaya nifrət bəsləyirdilər, dağlılar düzənlikdə yaşayanlar və farslarla düşmənçilik edirdilər və s. Bu qarmaqarışıqlıqda ölkəni idarə etmək üçün şahın xüsusi vəsaiti və gücü olmalı idi; ilk vaxtlar bu güc və vəsait az olduğundan aydındır ki, taxt-taca aristokratiyanın irəli sürüb müdafiə etdiyi Bəhram Gur, Balaş, Cəməsi kimi oyuncaq hakimlər yiyələnirdilər.

Şahənşahların ən görkəmlisi Kavad Məzdək hərəkatına tərəfdar çıxmaqla aristokratiyanın təzyiqinə qarşı mübarizə aparmaq fikrinə düşmüşdü. Lakin az qalmışdı ki, o, qaş qayırdığı yerdə gözü də vurub çıxarsın. Çünki məzdəkilər aristokratiyanı əzdikdən sonra özləri uğrunda hamıya qarşı mübarizə aparan yeni partiyada birləşdilər.

Xosroy Nuşirəvanın taxta çıxdığı dövrdə vəziyyətin ümumi cizgiləri belə idi. Lakin onun ölümünə yaxın bu şərait kökündən dəyişilmişdi. Əgər Xosroya qədər müxtəlif mədəniyyət tiplərinin yalnız mexaniki deyil, üzvü mənimsənilmə şəklində ümumiran mədəniyyətinə çevrilməsi prosesi gedirdisə bu da həmin mədəniyyətin qeyri-adi müxtəlifliyini və vəhdətini şərtləndirirdi. VI əsrin ortalarından başlayaraq bu dialektik prosesin özü əks hadisə doğurdu — indiyə qədər fəal qruplaşmaların yoxa çıxması və yoxa çıxanların hesabına yeni qruplaşmaların qüvvətlənməsi prosesi başlandı.

Məhz VI əsrin ortalarında Sasani mütləqiyyətini məhvə doğru aparan dönüş aydın müşahidə edilir. Əvvəla, məzdəkilərin qələbəsi müvəqqəti olsa da, aristokratiyanın mövqelərini elə laxlatdı ki, onlar bir daha əvvəlki mövqelərini qaytara bilmədilər. İkincisi, məzdəkilərin 531-ci ildəki məğlubiyyəti «azadların» — sərbəst kəndlilərin müstəqilliyini tamamilə aradan qaldırdı, çünki onların ən fəal hissəsi terrorun şiddətləndiyi dövrdə məhv oldu. Üçüncüsü, Anuşzadın üsyanının məğlubiyyətə uğraması İrandakı xristian icmasını tamamilə gücdən salaraq çətin vəziyyətdə qoydu. Həmin dövrdən etibarən xristianlar İran şahənşahının sadiq qulluqçularına çevrildilər. Zərdüşt din xadimləri də iki dəhşətli təhlükəni (Məzdəkilərin və Anuşzadın üsyanları zamanı) hiss edərək yalnız möhkəm hakimiyyətin onları labüd məhvdən qoruya biləcəyinə inandılar. Hökumətin tutduğu mövqe (edam cəzası qorxusu ilə İranda bir dindən başqasına keçmək qadağan olunurdu) möbüdləri tam təmin edirdi, çünki əksər primitiv dinlərdə olduğu kimi zərdüştliyin dini sisteminə də prozelitizm yad idi.

Deyləmilər, ermənilər və ərəblər Xosroy və Hörmüzün hakimiyyəti illərində öz müstəqilliklərini əsasən itirdilər və dövlət həyatındakı fəal mövqelərdən çəkildilər. Bütün bunlar Xosroyun nə isə qeyri-adi dühası sayəsində mümkün

olmamışdı. Əlbəttə, onun hökmdar istedadını da inkar etmək olmaz. Bu yalnız ona görə mümkün olmuşdu ki, Xosroy vəsaiti və qüvvəni — yəni ordunu öz əlinə almışdı. Ona qədər heç bir fars şahənşahının belə çoxsaylı və qüvvətli ordusu olmamışdı.

Məsələ burasındadır ki, Xosroy məzdəkiləri ataları ən barışmaz adamlar kimi əmlaklarından və həyatlarından məhrum edilmiş aristokratik gəncliyin əli ilə darmadağın etdi. O, tərəfdarlarını maddi baxımdan mükafatlandıra bilmədi, çünki ölkənin təsərrüfatı qarşılıqlı qırğınlar nəticəsində tamamilə dağılmışdı. Hökmdarın yeganə gəlir mənbəyi ipəkdən, daha dəqiq desək, İrandan keçən karvanlardan alınan vergilər idi. Bu gəlir isə yalnız yeni ordu yaratmağa və onu saxlamağa çatırdı. Çünki köhnə ordu əslində özü-özünü məhv etmişdi. Xorsoy alayları öz döyüş dostlarına tapşırdı və onların sıralarını köçəri saklarla doldurdu. 12 alaydan ibarət daimi ordu belə yaradıldı. Orduya xəzinədən silah və döyüşçülər üçün muzd ayrılmışdı.

Yeni qoşun artıq xalq silahlı dəstələri deyil, nizami ordu idi. Həmin dövrdə döyüşlərin taleyi oxatanların əlində idi, sərrast ox atmaq isə çoxillik təcrübə tələb edirdi. Daimi məşqlər və bir-birinin ardınca keçirilən yürüşlər hərbi xidmətə yeni cəlb olunanları tezliklə intizam və yoldaşlıq hissinin qaynayıb-qovuşdurduğu təcrübəli döyüşçülərə çevirirdi. Şah Hörmüzd bu qüvvəyə arxalanaraq aristokratiya üzərinə hücuma başladı.

**Bizans İrana qarşı.** 589-cu ilin yayında İranın vəziyyəti olduqca gərgin idi. Qərb sərhədində Bizansla arasıkəsilməyən müharibə gedirdi. Bu ərəfədə Martiropolu ələ keçirən farsların bəzi uğurlarına baxmayaraq Nizibiya yaxınlığında, Sisavran altındakı məğlubiyyət onların vəziyyətini xeyli ağırlaşdırdı. Bizanslılar Martiropolu mühasirəyə alıb ondan şərqdə, Nimfiya çayı sahilində yerləşən Okbu qalasını dağıtdılar. Eyni vaxtda səhrada iki ərəb şeyxi — Əyri Abbas və Göygöz Əmir yürüşə başladılar. Onlar Fərata qədər ölkəni çapıb taladılar. Ən ağır zərbə isə şübhəsiz, gömrükxanaların tutulması idi, çünki İran ərazisindən keçən karvanlardan alınmış gömrük haqları burada saxlanılırdı.

Eyni vaxtda türk-xəzər qoşunları «Xəzər yolu ilə», yəni Dəryal dərəsindən keçərək Ermənistana və Azərbaycana daxil oldular, şərqdən isə İran şahı Hürmüzdün dayısı, «Çin türklərinin» başçısı Savə şah yürüşə başladı. Müttəfiqlər, ehtimal ki, İranda siyasi böhranın yetişdiyini nəzərə almışdılar. Şahənşah Hörmüzd hakimiyyətinin böyük bir dövrünü aristokratiya ilə mübarizəyə sərf etmişdi. Edam edilənlərin sayı olduqca böyük rəqəmə—13 minə çatmışdı. Aristokratiyanın İranda hərbi silki təşkil etdiyini və İran ordusunun komanda heyətinin öldürülənlərin qohumlarından ibarət olduğunu nəzərə alsaq, ordunun döyüş qabiliyyətinin azalmasının və ölkə sərhədlərinin pis qorunmasının səbəbləri aydınlaşar. Hörmüzdün ölkənin düşdüyü fəlakətli vəziyyətdən danışdığı səhnəni təsvir edərkən Firdovsi son dərəcə diqqətəlayiq lövhə yarada bilmişdir. Mərzbanlar başlarını aşağı salaraq deyirlər: «Biz hamımız bir möbidə dəymərik, sən isə möbidləri və katibləri

öldürdün və qanundan və dindən uzaqlaşdın». Lakin məhz sağ qalmış möbid ağıllı məsləhət verdi. O, mübahisəli əraziləri güzəştə getməklə Bizansla dərhal sülh bağlamağı, ərəbləri isə ərzaq vəd etməklə satın almağı* məsləhət gördü. Hərbi qənimət ələ keçirmiş xəzərlər isə soyub-taladıqlarını itirmək təhlükəsi qarşısında özləri farsların qabağından qaçacaqlar. Yeganə təhlükə Savə şah idi — «əhər türk Ceyhunun o tayından gəlirsə, heç vaxt ləngimək olmaz».

**Qafqazda müharibə.** Türkyutların müharibəyə girmələri farsların vəziyyətini xeyli mürəkkəbləşdirdi. Lakin İranda hələ kifayət qədər potensial qüvvə vardı. 589-cu il mayın 5-də «Xəzər yolu» ilə ölkə ərazisinə soxulan düşmənlər iyuldan gec olmayaraq İran ordusu tərəfindən darmadağın edildi və ələ keçirdikləri qənimətləri itirmək qorxusu altında vahimə ilə qaçmağa üz qoydu. Onların yerini Quaram Baqratidin yunanların pulu ilə saxladığı yerli Qafqaz tayfalarından ibarət xalq ordusu — oslor, dzurdzuklar və didoylular* tutdular. Yarımvəhşi dağlılara gürcü eristavları rəhbərlik edirdilər. Bu ordunun bacardığı yeganə iş xəzərlərin sona qədər çapıb talaya bilmədikləri Azərbaycanı soyub quru yerdə qoymaq oldu.

Romanın başçılıq etdiyi Bizans dəstəsi də Quaramın muzdlularına qoşuldu. Lakin yunanlar da fars ərazilərində möhkəmlənmək istəmirdilər. Əslində onların vəzifəsi İran qoşunlarının bir hissəsini Şərqdən çəkib gətirmək və Orta Asiyadan hücuma keçən türkyutlara həlledici zərbə endirmək imkanı yaratmaq idi. Artıq 589-cu ilin sentyabrında bu qüvvələr fars ərazilərini təmizləmişdilər. Qafqazlılar vuruşmasız öz evlərinə dağılışdılar, yunanlar isə vətənə dönən yollarını kəsmiş fars qoşunlarının arasından keçərək geri dönməli oldular.

Farslar ərəb şeyxləri ilə məsələni daha asanlıqla həll etdilər — onlar cüzi məbləğ müqabilində Mesopotamiyadan çəkildilər. Lakin bütün bunlar müharibənin taleyini həll etmədi.

**Türkyutların hücumu.** 589-cu ilin avqustunda* Qara Çurinin kiçik oğlu Yanq Soux Şərqi İrana soxuldu. Sərhəddəki yetmiş min nəfərlik İran ordusu Xorasana, Talekana, Herat, Bəlx, Baqdis kimi qalaların yerləşdiyi qədim Baktriya ərazisinə gedən yolları açaraq qaçmağa üz qoydu. Fars piyadalarının bütün mənbələrdə qeyd olunan zəif döyüş keyfiyyətləri burada özünü göstərdi. İranda vahimə başladı. Təbərinin yazdığına görə Savə elçisini belə bir təkliflə Hörmüzdün yanına göndərmişdi: «Çayların və onların qollarının üstündəki körpüləri təmir edin ki, mən sizin ölkənizə daxil ola bilim, harada körpü yoxdursa, orada tikdirin. Sizin ölkənizdən keçən çayların və çay qollarının üzərindən də körpü saldırın, çünki

---

* Firdovsinin əsərində ərəbləri qırmaq təklif olunur, lakin icra haqqında heç nə deyilmir, Təbəri isə öz əsərində ərəblərlə müqavilənin təfərrüatlarını verir.

* Oslar — osetinlər, dzurzduklar da Qafqaz aşırımının cənub yamacında Gürcüstandan şimal-qərbdə yaşayan tayfa, didoylular — Cənubi Dağıstanda tayfa.

* Vuruş günü günəş «Şir bürcündə» dayanmışdı. Bu isə 22 iyul — 21 avqusta təsadüf edir.

yolum sizin ölkənizdən keçib rumluların yanına aparır. Mən sizin ərazinizdən keçib ora getmək niyyətindəyəm». Ultimatumunun mətni həm yürüşün əsil məqsədini, həm də türkyutlarla yunanlar arasında əvvəlcədən razılıq əldə edildiyini göstərir.

Ktezifondakı hərbi şurada Azərbaycanın və Ermənistanın mərzbanı, məşhur Parfiya nəslindən olan Bəhram Çubini türkyutlara qarşı göndərmək qərara alındı. Bəhram razılaşdı və ona yaşları mütləq qırxla əlli arasında olan 12 min döyüşçü verilməsini xahiş etdi. Əslində onun istədiyi əsgərlərin hamısı veteranlar idi və hərbi keyfiyyətlərinə görə onlar fars ordusunun adi döyüşçülərindən qat-qat yüksəkdə dayanırdılar. Odur ki, Bəhramın nə üçün yaşlıları cavanlardan üstün tutduğunun səbəbləri aydınlaşır. Dövrün əsas hərbi qüvvəsi, yuxarıda deyildiyi kimi, ox atanlar idi. Yaxşı ox atmaq üçün azı iyirmi il məşq etmək lazım gəlirdi. Döyüşün taleyini əlbəyaxa vuruş deyil, sərrast ox zərbələri həll edirdi. VI əsrdə fars oxatanları ustalığın ən yüksək mərhələsinə çatmışdılar. Onlar kamanı sinələrinə deyil, qulaqlarına sıxırdılar. Ox 700 metr məsafəyə uçur və yaxşı döyülmüş ucluğu olanda zirehi də deşə bilirdi.

Savənin ordusu Təbərinin məlumatına görə 300, Firdovsinin məlumatına görə isə 400 min nəfər idi. Türkyutların qoşununda döyüş filləri də vardı,* farslar isə «şirlərlə» — yəni alov tullayanlarla silahlanmışdılar. İçərisi neftlə doldurulmuş bu silahdan fillərə qarşı istifadə olunurdu. İlk qələbədən sonra türkyutlar müvəffəqiyyəti genişləndirərək geri çəkilən fars ordusunu təqib edə-edə qərbə doğru irəlilədilər. Farsların əsas vəzifəsi Bəhram hərbi əməliyyatlara qoşulana kimi Bəlxi əldə saxlamaq idi. Hörmüzd sadəlövh türkyutlara qarşı həmişə şəksiz uğur qazandıran silaha — yalana əl atdı. O, saray adamlarından birini — «mayası hiyləgərlik, saxtakarlıq və yalançılıqla yoğrulmuş» Xurrad Burzin adlı şəxsi Savənin yanına göndərdi. Savənin düşərgəsinə gələn Xurrad sülh danışıqlarına başladı. Həm də o qədər güzəştlərə getdi ki, dərhal Savənin etimadını qazandı. Nəticədə Xurrad türkyut sərkərdəsinin hücumunun istiqamətini dəyişməyə və onu Herat vadisinə çəkib aparmağa nail oldu.* Elə bu zaman Bəhram sürətlə şərqə tərəf irəliləyirdi. O, Bəlxə adi yolla deyil, Kuhistandan dolanaraq getdi və qəflətən türkyutların arxasında göründü. Savə şimali-qərbdən, Hərirud çayının sahillərindən keçən yeganə yolla Herat üzərinə gedirdi.

Şəraiti anlamaq üçün Heratın şimalından və cənubundan (şimalda Zəncir-kuh, cənubunda isə İskəlcə, yaxud Aman-kuh dağları) dağların əhatəsində olan vadidə yerləşdiyini nəzərə almaq lazımdır. Şərqdə isə bu dağlar daha da sıxlaşaraq Hərirud çayını dar bir dövrəyə salmışdılar. Şimal-şərqdəki Baroron adlı keçid bir

---

* Firdovsi 1200, Təbəri isə 200 döyüş filinin olduğunu göstərir.

* Bələmi döyüşün başqa yerdə—Xuttalyan və Bəlx arasında olduğunu bildirir, lakin Təbəri və Firdovsi döyüş yeri kimi Heratı göstərirlər. Herat vadisi topoqrafiyasının ən xırda təfərrüatına qədər döyüşün gedişi barəsindəki təsvirlərə uyğun gəlməsi də bunu bir daha sübut edir.

qədər enli idi; burada süvarilər hərəkət edə bilərdilər. Bu keçid uzunluğu 8 km-ə çatan dəfilədir. Həriruddan Zəncir-kuh dağına qədər vadinin eni 12 km-dir. Hərirud çayı o qədər də geniş deyil, payız vaxtı bəzi yerlərdən onu atla keçmək mümkündür. Əksər yerlərdə isə belə keçidlərə imkan yoxdur, çünki çayın axın sürəti həddindən artıq böyükdür. Bu çay şimali-şərqdə Herat vadisindən keçən ikinci yolu kəsir.

Türkyutlar Baroron keçidini adlayıb çayla şimaldakı silsilə dağların arasındakı Baulikuh düzənliyinə çıxdılar. Onların arxasında ensiz dəfilə, qarşılarında isə Bəhramın ordusu dayanmışdı. Bu türkyutlar üçün tamamilə gözlənilməz vəziyyət idi. Aydındır ki, onların bütün hərbi qüvvələri Herat altında deyildi, ensiz dərədən 300 min adam keçə bilməzdi; o, biri tərəfdən isə döyüşün gedişindən də aydın olur ki, farsların cinahları türk ordusunu əhatə etmişdilər. Aydındır ki, ancaq Herat qarnizonu ilə qarşılaşacağını güman edən Savə özü ilə o qədər də böyük olmayan hərbi qüvvələr gətirmişdi. Türkyutların vəziyyəti olduqca ağır idi. Öz vəzifəsini yerinə yetirən Xurrad Burzin gecə ilə türkyut keşikçilərinin arasından keçib, Firdovsinin yazdığı kimi, «qiyamət gününün qarşısını almaq üçün» Bəhramın yanına qaçdı.* Herat vadisinin topoqrafiyası türkyut döyüşçülərinin maksimum sayının müəyyənləşdirilməsinə imkan verir. Döyüş meydanının — Bauli-kuh düzənliyinin eni 12 km idi. Süvarilər sərbəst vuruşmaq üçün cinahlardan 20 metrlik intervala malik olmalıdırlar. Deməli, bir xətdə iki mindən artıq döyüşçü yerləşə bilməzdi. Köçərilərin döyüş xətlərinin sayı da məlumdur — burada həmişə on döyüş sırası olurdu. Beləliklə, Herat altında türkyut döyüşçülərinin sayı 20 min nəfərdən çox ola bilməzdi. Vadinin qərbə doğru daraldığını və türkyut ordusunun mərkəzində fillərin dayandığını nəzərə alsaq həmin rəqəmi əhəmiyyətli dərəcədə azaltmaq lazım gəlir. Güman ki, Herat altında fars və türkyut döyüşçülərinin miqdarı təxminən bərabər idi.

Savə qarşısındakıların yeni qüvvələrə malik fars ordusu olduğunu biləndə tələyə düşdüyünü anladı. Onun qoşunu, ən başlıcası isə atlar Xorasanın gün yandırmış təpələri ilə uzun yürüşdən sonra yorulmuşdular, döyüş mövqeyi «dar və əlverişsiz idi», manevr imkanı yoxdu. Bəhramın arxasında isə Herat dayanırdı. O, yalnız qala kimi yox, əsas təchizat mənbəyi kimi mühüm əhəmiyyətə malik idi. Fars ordusunun sağ cinahı çaya, sol cinahı isə dağ silsiləsinə söykənmişdi. Düşmən

---

* Dinəvərinin məlumatına görə türkyutlar Heratı ələ keçirmişdilər, Ormuzd Qurabzin adlı bir casus isə şahdan yalnız düşmənləri talançılıqdan saxlamaq əmri almışdı. Türkyutların başçısı Bəhramın yaxınlaşdığını bildiyindən onun qarşısına çıxdı. O, türkyut başçısına İranın taxt-tacını vəd etdi və s. Hadisələrin sonrakı təsviri digər mənbələrlə uyğundur. Bu mənbə aşağıdakı məsələləri aydınlaşdırır: 1) döyüş harada baş vermişdi; 2) ona qarşı qoşun göndərildiyini bilən türkyut sərkərdəsi casusa necə inana bilərdi; 3) türkyutların manevr etmək imkanı olduğu halda onlar nə üçün döyüşə girmişdilər? Nəhayət, farsların qələbəsi yalnız Bəhramın sərrast ox atması ilə əlaqələndirilir. Bütün qalan mənbələrlə fərqlər göz qarşısındadır, lakin o da aydındır ki, Dinəvərinin versiyası ya onun özünün, ya da sələflərinin qədim mətni naşıcasına ixtisar etməsi nəticəsində meydana çıxmışdır.

ordusunun gözü qarşısında ensiz dərədən geri çəkilmək ağılsızlıq olardı. Çünki Bəhramın qoşunları dərhal türkyutları əzə bilərdi. Savə İran sərkərdəsi ilə dil tapmağa cəhd göstərdi. O, Bəhrama pul, öz qızını, yanında ən yüksək vəzifə, nəhayət İranın taxt-tacını boyun oldu. Lakin Bəhram bütün təklifləri rədd etdi. Döyüşə girməkdən başqa çarə qalmamışdı. Firdovsinin yazdığına görə farslar Bəhramın qərarını bir səslə bəyəndilər. Yalnız Xurrad Bərzin və katib Buzurq Dəbir sülh təklifinə tərəfdar çıxdılar. Bəhram onlara susmaq əmrini verib qoşunlarını döyüş üçün hazırladı.

**Döyüş.** Fars ordusunun düzülüşü ilə Səəlləbinin əsərində tanış olmaq mümkündür. Bəhram ön cərgədə piyadaları, onların arxasında döyüş fillərini (?!) düzdü, cinahlara isə seçmə hissələri yerləşdirdi.* Bundan əlavə, hərb meydanından qaçmaq fikrinə düşənlərin qarşısını almaq üçün ən etibarlı döyüşçülərdən ibarət dəstə yaradıldı. Bu dəstənin sağ cinahı Zəncirkuh dağına, sol cinahı isə Hərirud çayına söykənirdi. Fars qoşunlarının arxasında bağları və becərilmiş tarlaları olan şəhər dayanırdı, türkyutların arxasında isə vadinin boş düzənlikləri uzanıb gedirdi. Bu dispozisiya fars hərbi nəzəriyyəsinin prinsiplərinə hər şeydən çox uyğun gəlirdi.

Bəhramın ordu qarşısındakı nitqi bütün zamanların sərkərdələrinin söylədiyi və həmişə əsgərlərin döyüş ruhunu qaldırmaq məqsədi güdən nitqlərə bənzəyirdi. O, bildirdi ki, hər kəs öz borcunu yerinə yetirməlidir, döyüş meydanından qaçanlar düşmənin qılıncından canlarını qurtara bilməyəcək və heç zaman ailələrinin yanına dönməyəcəklər. Döyüş başlandı.

Türkyutların həlledici vuruşa hazırlığı və onların ölüm-dirim mübarizəsinə göstərdikləri əzmkarlıq farslara elə qüvvətli təsir bağışladı ki, onların ilk sıralarında az qala qarmaqarışıqlıq başlandı. Yalnız silah yoldaşlarını ruhlandıran Bəhramın vaxtında işə qarışması məğlubiyyətin qarşısını aldı. Psixi təsirin müvəffəqiyyət qazanmadığını görən Savə süvari dəstələrini döyüşə buraxdı. Onlar farsların sol cinahını sıxışdırdılar, lakin sağ cinahda və mərkəzdə türkyutların hücumu dəf edildi. Türkyutların qəzəbi elə qorxunc idi ki, Bəhram özü döyüş meydanından qaçmaq haqqında fikirləşməyə başladı. Lakin Herat vadisi yalnız türkyutlar deyil, farslar üçün də tələ idi. Dağlar geriyə yolu kəsmişdilər və Bəhramın döyüşü davam etdirməkdən başqa çıxış yolu yox idi. Səəlləbi qaçmaq cəhdini Bəhramın hərbi hiyləsi sayır, Firdovsi isə bu niyyətin həqiqiliyinə inanır.

Süvari həmlələrinin səmərəsizliyi Savəni filləri hücuma çıxarmağa vadar etdi. Lakin Bəhram hücuma əks-hücumla cavab verdi və qoruyub saxladığı qüvvələrin hamısını döyüşə buraxdı. Fars oxatanları əla döyüş keyfiyyətlərini bu məqamda nümayiş etdirdilər. Onların oxları fillərin ən yaralı yerinə xortumlarına

* Səəlləbi çox güman ki, fillərlə bağlı məsələni dolaşdırmışdır; onun hekayasindən belə çıxır ki, fillər döyüşdə iştirak etməmişdir. Bu isə qeyri-mümkün idi. Başqa məlumatlara görə fillər farsların yox, türklərin idi.

və gözlərinə dəyirdi. Adi oxlarla birlikdə fillərin üzərinə «odlu oxlar» — əskiyə bükülüb yandırılmış oxlar da uçurdu. Ağrıdan ağıllarını itirmiş fillər türkyut döyüşçülərini ayaqlamağa başladılar. Qızmış fillərdən xilas olmağa can atan türkyutlar döyüş sıralarını pozdular və əlbəyaxa vuruşa atılan farslara lazımi müqavimət göstərə bilmədilər. Savə meydandan qaçdı, lakin onu qovub tutdular və Bəhram özü türkyut sərkərdəsini oxla vurub öldürdü.

Başçılarının ölümündən sonra türkyutların geri çəkilməsi daha qarmaqarışıq xarakter aldı. Onlar dar Baroron dərəsindən qaçıb canlarını qurtarmağa çalışırdılar, lakin ensiz və dar keçiddən hamının eyni vaxtda çıxması mümkün deyildi. Keçidin ağzında dəhşətli basabas düşdü və farslar düşmənlərini maneəsiz qırmağa başladılar. Yalnız hər on türkyutdan biri xilas ola bildi.

**Müharibənin sonu.** Döyüşdən sonra Bəhram bir ay Heratda qalaraq hərbi qənimətləri şahənşahla öz döyüşçüləri arasında bölməklə məşğul oldu. Bu müddət ərzində Savənin oğlu Parmuda dağıdılmış qoşunun qalıqlarını toplayaraq müqavimət göstərməyə təşəbbüs etdi. O, qəfləti hücum və gecə basqınları kimi köçəri taktikasını tətbiq etməyə çalışırdı. Bir dəfə az qalmışdı ki, Parmuda Bəhramın özünü əsir tutsun, lakin nizami ordunun hücumlarının qarşısını partizan müharibələri ilə dayandırmaq mümkün deyildi. Farslar Ceyhun çayını keçdilər. Gecə döyüşündə türkyutlar yenidən darmadağın edildi. Parmuda Paykənd qalasında* gizləndi. Bəhram şəhəri mühasirəyə aldığından o, özünü təslim etməyə məcbur oldu, lakin həyatının saxlanmasına və arvad tərəfdən qohumu olan Hörmüzdün yanına göndərilməsinə nail ola bildi. Hörmüzd onu böyük təntənə ilə qarşıladı, sülh bağlanandan sonra isə böyük hörmətlə yola saldı. Türkyut şahzadəsi vətəninə qayıdıb ölümünə kimi — 603-cü ilə qədər sakitcə öz bölgəsini idarə etməklə məşğul oldu. Xronikalarda o, Nili xan adı ilə tanınır.*

589-cu il müharibəsi belə başa çatdı.

İran uçurumun kənarında idi, lakin Herat altındakı qələbə onun məhvini yarım əsr geriyə çəkdi. İyirmi il ərzində türkyutlar İranın sərhədlərini pozmağa ürək eləmirdilər və iki qonşu ölkənin tarixi ayrı-ayrılıqda inkişaf edirdi. Bəhram

---

* Təbəri şəhərin adını göstərmir, Firdovsi isə bu yerin Əvəz qalası olduğunu yazır. Həmin qala Paykənd yaxınlığında idi.

* Səalləbi səhvən onu Parmudanın («Parmuda» — türk sözü olan «buyuruğun» farscaya tərcüməsidir) oğlu və Savənin nəvəsi sayır. Dinəvəri məlumat verir ki, şahzadə əsir götürülməmişdi, danışıqlar aparmaq üçün könüllü surətdə şahın yanına getmişdi. Bu şahzadə Dinəvərinin əsərində (yal) təkin yox, (il) təkin adlandırılır. «Yal» sözünün ikinci mənası azad edilmiş deməkdir. Bu ad Nili xanın («Suyşu»), Parmudanın (Firdovsi, Bələmi) və Yaltəkinin (Dinəvəri) eyni adam olduğunu sübut edir. Onun Əvəz qalasına hücum zamanı əsir götürülməsi, yaxud təslim olması məsələni dəyişdirmir. Hörmüzd onu azad etmişdi. Bu isə Dinəvərinin əsərində onun adının yazılış tərzində öz əksini tapmışdı. Dinəvərinin sülhün danışıqlar vasitəsi ilə əldə edilməsi haqqındakı versiyası daxilən ziddiyyətlidir. Böyük qənimət — əsgərlərin əlində qalandan əlavə üç yüz dəvə yükü qızılı döyüş meydanında bir süvari dəstəsi tərəfindən əldə oluna bilməzdi. Deməli, Dinəvərinin əsərində üstündən sükutla keçilmiş Buxara yürüşü həqiqətən də olmuşdu.

Çubinin üsyanı tamamilə İran tarixinə aiddir, lakin məğlubiyyətə uğradıqdan sonra Bəhram keçmiş düşmənlərinin — türkyutların yanına qaçdı və xan tərəfindən qonaqpərvərliklə qəbul olundu. Xanın bəzi işlərinə yarayan Bəhram onun dostu və məsləhətçisinə çevrildi. Xan onun İranda vətəndaş müharibəsini yenidən alovlandırmaq haqqındakı planlarına maraqla, həvəslə qulaq asırdı, hətta başlanğıc üçün ona bir qədər qoşun da vermişdi. Narahatçılıq keçirən Xosroy Pərviz Bəhramın geri qaytarılmasını tələb etdi, lakin bu tələb xan tərəfindən qəzəblə rədd olundu. Onda ikinci, daha məharətli səfir Bəhramın həyatına sui-qəsd təşkil etmək üçün türkyut xanının arvadını hədiyyələrlə öz tərəfinə çəkdi və muzdlu qatil Bərhamı zəhərlənmiş xəncərlə öldürdü. Qəzəblənmiş xan qatili cəzalandırdı.*

Bu epizod göstərir ki, hətta ağır məğlubiyyətdən sonra da türkyutlar özlərinin tam müstəqilliklərini saxlayırdılar və yad təsirlərə tabe olmurdular. Şahənşahın diplomatik təzyiqi türkyut xanına heç bir təsir göstərməmişdi. Amu-Dərya əvvəlki kimi Sasani İranının siyasi nüfuzunun sərhədi olaraq qalırdı.

**Cavab.** 593-cü il sülhü xaqanlığın bütövlüyünü rəsmi şəkildə bərpa etdi, 598-ci ildə isə qərbi türkyut xanının Bizans imperatoru ilə ənənəvi ittifaqı təzələndi. Bizans qoşunlarının taxta çıxardığı şahənşah Xosroy Pərviz imperator Mavriki ilə bağladığı məcburi və sərfəsiz sülh müqaviləsinin bütün ağırlığını hiss edirdi. İmperator Mavriki taxtdan salınıb öldürüləndə Xosroy bu fürsətdən istifadə etdi və ögey atasının intiqamını almaq fikrinə düşdü. 602-ci ildə İranın Bizans imperiyası ilə müharibəsi təzələndi. Lakin İran qoşunları yalnız 604-cü ilin yazında hücuma keçdilər. Hücumun bu qədər təxirə salınması İranın şərq sərhədində vəziyyətin kəskinləşməsi ilə bağlı idi.

Toxaristanın əhalisi mədəni və iqtisadi baxımdan məcburən tabe olduğu İranla deyil, Soqdiana və Hindistanla daha çox bağlı idi. Digər tərəfdən, kiçik Kuşan hökmdarlarının və məğrur eftalitlərin nəsilləri türkyut xanından nominal asılılığı açıq-aşkar şahənşahın hökmü altında olmaqdan üstün tuturdular. Ona görə də 603-cü ildə İran ordusunun əsas qüvvələri Ermənistan və Mesopotamiyanın sərhədlərində cəmləşəndə şərqdə üsyan qalxdı. «Kuşan qoşunları yürüş üçün bütün yer üzünə yayıldı».

Xosroy tələsik özünün ən yaxşı mərzbanı Smbat Baqratuni istirahətdən ayırdı və üsyanı yatırmağı ona tapşırdı. Qüvvələrinin azlığına baxmayaraq (cəmisi 2 min atlı), Smbat kuşanları əzə bildi. Qələbədən məmnun qalmış Smbat Apşəhərdə (Nişapur yaxınlığında, Xorasan vilayətində şəhər) düşərgə saldı, özü isə 300 nəfərlik bir dəstə ilə Xroxt (?) şəhərində pusquda durdu. Təkbaşına farsların öhdəsindən gələ bilməyəcəklərini görən kuşanlar yardım xahişi ilə qonşularına — türkyutlara müraciət etdilər. Kuşanlara kömək üçün başında Cembuxu

* Fars mənbələrində bu xanın adı çəkilmir, lakin göstərilir ki, «o, Pərvizin qohumu deyildi». Deməli o, həmin dövrdə qərbi türkyut həmtayfaları ilə vuruşan və bu səbəbdən də Bəhrama sığınacaq verən şərqi türkyut xanı Yun Yollıq Dulan xan idi.

(yabqu//cabqu titulunun təhrif edilmiş erməni variantı) dayanan qoşun gəldi. Həmin dövrdə bu titulu böyük xan Tanın nəvəsi, Tun-cabqu adı ilə tanınan sərkərdə daşıyırdı. Türkyutlar farsları qəflətən yaxaladılar. Xroxt mühasirəyə alındı. Smbat üç döyüş yoldaşı ilə mühasirədən çıxıb qaça bildi, onun köməkçisi, fars Datoyan isə darmadağın edildi. Türkyutlar Rey və İsfahana qədər İrana süpürgə çəkdilər, lakin «böyük xaqanın əmrini» alıb evlərinə qayıtdılar.

Türkyutların geri çəkilməsinin Sebeosun tarixində verilən şərhi qətiyyən inandırıcı görünmür. 603-cü ilin payızında türkyutların «böyük xaqanı» yox idi; çünki məhz bu dövrdə məğlubiyyətə uğradılmış və hamı tərəfindən tərk edilmiş Qara Çurin xilas yolu axtararaq Toqona qaçmışdı. Aydındır ki, məhz bu şərait onun nəvəsini bölgəni qorumaq məqsədi ilə evə dönməyə məcbur etmişdi. Beləliklə, cənubi Xinqanda çinlilərin qələbəsi İranı xilas etmiş, Bizansı isə uçurum önünə gətirmişdi.

Türkyutlar gedəndən sonra Smbat yeni qoşunlarla kuşanlar üzərinə hücuma keçdi. O, Bəlxə qədər gedib çıxsa da, Toxaristanda möhkəmlənə bilmədi və yenidən Sasanilər dövlətinin şərq sərhədi Murqaba qayıtdı.

603—604-cü ilin qışı farsların vəziyyətini yüngülləşdirdi. Türkyutların qüdrəti çinlilərin zərbələri altında getdikcə zəifləyirdi, xaqanlıq hamının gözlərinin qarşısında süquta uğrayırdı. Doğrudur, kuşanları yenidən itaətə gətirmək mümkün olmasa da, şərq sərhədi üçün narahatlığa dəyməzdi. Yalnız bundan sonra İran qoşunları Bizans üzərində hücuma keçdilər.

Aydındır ki, İranın şərq sərhəddindəki hadisələr fars qoşunlarının hücuma keçmə müddətini ölkənin daxili vəziyyəti ilə müqayisədə daha çox müəyyənləşdirirdi. Nə qədər ki, türkyutlar gücsüz idilər, Xosroy Pərvizin qoşunları qərbdə qələbədən qələbəyə doğru gedirdi.

## XI f ə s i l

## AŞİNA VƏ SUY

**Xaqanlığın birləşdirilməsi.** Böyük hərc-mərclikdən əvvəlki vəziyyəti bərpa edən 593-cü il sülhü Suy imperatorunu can atdığı bütün cəhdlərin bəhrələrindən məhrum elədi. O, türkyut knyazları arasına nifaq salmaqla onları diz çökdürmək, sonra isə bir dilənçi payı verməklə bu nifaqı qızışdırmaq istəyirdi. Bunun əvəzində isə ondan yenə də Çin üçün son dərəcə əlverişsiz ticarət müqaviləsinin şərtlərini dəqiqliklə yerinə yetirməyi tələb edən vahid və qüdrətli xaqanlıq dayanmışdı. Hələ bunlar azmış kimi, türkyutlar sərhəddə Çin əhalisi ilə mübadilə-ticarət aparmaq üçün bazarlar açılmasını təklif edən tələb-xahişnamə də göndərmişdilər. Bununla da onlar iqtisadiyyatlarının müstəqilliyini təmin etmək istəyirdilər. Konflikt baş verəcəyi təqdirdə türkyutlar artıq sarayın vasitəçiliyi olmadan bilavasitə istehsalçının özündən zəruri malları ala bilərdilər. Ehtimal ki,

bu «xahişin» İrana yürüşlə eyni vaxta düşməsi təsadüfi deyildi. Türkyutların Çinə müraciəti də həmin 589-cu ilə təsadüf edirdi. Çox güman ki, türklər ipəyin onlara lap yaxın vaxtlarda lazım olacağını gözləyirdilər — onların qərbdəki həmtayfaları tezliklə özlərini Bizansa çatdıracaqdılar, bundan sonra isə karvanlar qərbə ipək sap, şərqə isə qızıl daşıyacaqdı. Yan Tszyan 589-cu ildə Cənubi Çində Çen çarlığının itaətə gətirilməsi ilə məşğul idi, odur ki, bu cür əlverişsiz şəraitdə münasibətləri kəskinləşdirməməyi daha ağıllı yol saydı. Lakin xanın düşərgəsində görülən işlərin heç də hamısı onun xoşuna gəlməyə bilərdi.

Bütün antisuy əhvali-ruhiyyəli təşəbbüslərin mərkəzində Çjou sülaləsindən olan məlakə dayanırdı. O, qohumlarının xaincəsinə öldürülməsini imperatora heç cür bağışlaya bilmirdi. İmperator isə məlakəni intiqam cəhdlərinin əbəsliyinə inandırmaq üçün ona Çen sülaləsinin imperatoruna məxsus bahalı qapını hədiyyə göndərdi. Bununla da Yan Tszyan demək istəyirdi ki, bütün Çin artıq onun hökmü altındadır, məlakə isə əbəs yerə odun üstünə yağ tökür. Çinli xanım bu hədiyyəyə çoxmənalı işarələrlə dolu bir elegiya ilə cavab verdi.

İmperator şerdə ona dünyanın faniliyinə qurban getmək arzulandığını, habelə məlakənin barışmazlığından son dərəcə qəti mövqe tutduğunu gördü. O, qisas məqsədi ilə hədiyyələrin miqdarını azaltdı, sonra isə çinli məlakənin məşuqunun peyda olmasına əsaslanıb onu tituldan məhrum etdi. Lakin bütün bunlar nə məlakənin ordadakı şöhrətinə xələl gətirdi, nə də onun Çin imperatoruna bəslədiyi nifrəti azaltdı.

İmperatorun vətənindən didərgin düşmüş bu qadının elegiyasına tam ciddiyyətlə yanaşmasının əsası vardı. 593-cü ildə Çindən Yan Xin adlı bir nəfər xanın düşərgəsinə gəlib çinlilərin özlərinin Suy rejimindən narazı olduqlarını və üsyana hazırlaşdıqlarını dedi. Dulan xan bu məlumatdan dərhal lazımi nəticə çıxardı və 584-cü il müqaviləsinə görə Çinə verməli olduğu xəracı dayandırdı. Məlakə Buxara knyazı Nili xanla (Qara Çurinin nəvəsi, Bəhrum Çubinin öldürdüyü Yanq Souxun oğlu) ittifaq yaratdı, beləliklə də ordada antiçin partiyasını daha da möhkəmlətdi.

Bütün bunlar Suy hökuməti üçün ona görə təhlükəli idi ki, Yan Xin yalan danışmırdı; Çində həqiqətən də Suy sülaləsi əleyhinə mübarizə genişlənirdi. 594-cü ildə quraqlıq nəticəsində aclıq başlandı, lakin imperator aclıq çəkənlərə dövlət ambarlarından taxıl buraxılmasına icazə vermədi. 597 və 600-cü illərdə cənubda elə güclü üsyanlar başladı ki, onların yatırılması üçün 50 min nəfərlik ordu göndərmək lazım gəldi. Çox ehtimal ki, Yan Xin üsyançılarla türkyutlar arasında vasitəçi idi. Suy imperiyasının məngənə arasında qalacağı ehtimalı qətiyyən istisna olunmurdu. Lakin bu məqamda yenə də Çjan-sun Şen səhnəyə qədəm qoydu.

**Nifaq salınmışdır.** Çjan-sun Şen 594-cü ildə səlahiyyətli səfir kimi xanın düşərgəsinə gəldi və burada Suy sülaləsi əleyhinə əsil sui-qəsdlə üzləşdi. Sui-qəsdçilərin başında məlakə və onun məşuqu, soqdiyalı Ansuykya dayanırdılar. Lakin əsas təhlükə Yan Xindən gəlirdi və Çjan-sun Şen nəyin bahasına olursa

olsun, onu yaxalamalı idi. Xan Yan Xinin düşərgədə olmadığını bildirərək mühacir çinlini ələ verməkdən boyun qaçırdı. Lakin məharətli casus Yan Xinə təhkim olunmuş türkyutlardan birini pulla ələ alıb onun vasitəsi ilə qəsdçini tapdı və şahzadə xanımın intriqalarını xana açıb bildirdi. Xan və əyanları bərk pərt oldular. Yan Xini qaytarmaq məcburiyyəti qarşısında qaldılar. Lakin Çjai-sun Şen bununla kifayətlənmədi. Onun məqsədi türkyut xaqanlığında yenidən nifaq yaratmaq idi. Bu dəfə də o, özünə lazım olan knyazı tapa bildi. Bu taxt-tacın varisi, xanın əmisi oğlu Janqar (Çin mənbələrində Janqan) idi.

Onun şimali-şərqdə bölgəsi və Toleslərin (Tuli xan) xanı titulu vardı. Kidanların, xilərin (tatablar) və şiveylərin (tatarlar) vassal tayfaları onun hökmü altında idilər. Çulo knyazın oğlu kimi çoxlu tərəfdarları vardı. Lakin o, prinsipsiz, paxıl və qorxaq adam idi, bir sözlə, xəyanətkar üçün lazım olan bütün sifətlərə malikdi.

Çjan-sun Şen məlumatında yazırdı: «Yun Yuylyuy (Yun Yollıq) səbatsız və xəyanətkardır. Yalnız Dyanqa (Qara Çurin) ilə düşmənçilik onu indiki vaxtda imperatordan kömək ummağa təhrik edir. Əgər Yun Yuylyuyun xahişi yerinə yetirilsə, qüvvətlənəndən sonra üsyan qaldıracaq. Məlakə ilə evlənsə, həmin nigahın verdiyi üstünlükdən Dyanqu və Janqara qalib gəlmək üçün istifadə edəcəkdir. Qorxuram ki, bu zaman artıq onun şöhrətpərəstliyinin qarşısını almaq çox çətin olacaq. Digər tərəfdən, Janqar öz səmimiyyətini sübut etmişdir. O da məlakəyə evlənmək istəyir və bu arzunu yerinə yetirmək yaxşı olardı. Qoşunlarının azlığına görə onu cənuba köçürmək və Yun Yuylyuya qarşı sipərə çevirmək lazımdır».

Bu plan 597-ci ildə qəbul edildi və yerinə yetirildi. Türkyut xaqanlığı daxilində çinpərəstlər partiyası yarandı. Çinlilər isə yeni müharibəyə hazırlaşırdılar və onun labüdlüyü heç kimdə şübhə doğurmurdu. Çin sarayı ilə qohum olmaq və cehiz adı altında illik hədiyyələr almaq elə tələ idi ki, türkyut knyazlarının heç biri onun yanından ötüb keçə bilməzdi. Janqara Çin sarayından gəlin yalnız Çjou sülaləsindən olan məlakəni aradan götürmək şərti ilə vəd edildi. Janqar bütün dövrlərdə işə keçən vasitədən istifadə etdi — xanın qarşısında məlakəyə şər atdı. Fitnəkarlıq baş tutdu. Xan böhtana inanıb qəzəb içərisində məlakəni öldürdü. Janqar kifayət qədər ağıllı adam idi və təbii ki, bu qətldən sonra dərhal öz bölgəsinə qayıtdı. Fitnəkarlığın üstü açılanda o, artıq nisbi təhlükəsizlikdə idi. Suy imperatoru da münaqişəyə qoşulub bütün qüvvə və imkanları ilə xəyanətkarı müdafiə edəcəyini bildirdi. Xan geri çəkilməli oldu. Lakin artıq o, tamamilə dayısının babası Qara Çurin Türkün (Dyanqunun) təsiri altına düşmüşdü. Qara Çurin təvazökar tarduş xanı (Datu xan) titulunu saxlamaqla əslində xaqanlığın faktik hakiminə çevrilmişdi. Müharibənin labüdlüyü yalnız çinlilərə deyil, türkyutlara da şübhə doğurmurdu.

**Müharibənin başlanğıcı.** Konfliktin şiddətləndiyi məqamda şərait Çinin xeyrinə idi. 591-ci ildə Toqonda bacarıqlı xan Kualyuy öldü. Onun oğlu Şifu Çinlə

ittifaq cəhdinə görə həyatla vidalaşsa da, qardaşı Fuyun 597-ci ildə neytral mövqe tutdu və beləliklə Suy imperiyasını qərb sərhədlərini qorumaq qayğısından azad etdi. Bu da çinlilərə özlərinin əsas qüvvələrini Sarı çayın sahillərində cəmləşdirməyə imkan verdi.

597-ci ildə onlar əlaltıları Janqarı cənuba, Ordos yaxınlığındakı düzənliklərə köçürdülər. Çinlilər ondan pul əsirgəmirdilər, Janqar isə həmin pulları öz həmtayfalarını ələ almağa sərf edirdi. Qara Çurin də tədbirlər gördü. O, arxasını təmin etməyə tələsirdi. Türklərə qarşı üsyan qaldırmış Volqaboyu uqurları itaətə gətirildi. On min uqurtarniax, koçagir və zabender tayfaları Pannoniyaya qaçıb avarlara qoşuldular.

598-ci ildə Qara Çurin Konstantinopola, imperator Mavrikinin yanına səfirlik göndərdi. Səfirliyin məqsədi keçmiş dostluq münasibətlərini bərpa etmək idi. Qara Çurin bildirdi ki, ölkəsindəki bütün daxili çəkişmələrə son qoyub, düşmənlərinin hamısına qalib gəlib. Qafqaz istiqamətində istilalardan imtina Xəzəryanı rayonlarda Bizansın intriqalarına son qoymaq üçün özünəməxsus ödənc almalı idi. Qara Çurin Orta Asiyanı əlində möhkəm saxlayırdı — Paykənddə onun nəvəsi Nili xan möhkəmlənmişdi. Şaşda (Daşkənddə) isə başqa nəvəsi — Şequy hakimiyyət başında idi. 597-ci ildə türkyutlar sərhəddə basqın etdilər, 598-ci ildə knyaz Syunun başçılığı ilə Çin ordusu Linçjoudan yürüşə çıxdı. Müharibə başlandı.

Çinlilər beş illik sülh dövründən pis istifadə etməmişdilər. Tan sülaləsinin gələcək banisi, mənşəcə yarıtürk sərhəd zabiti Li Yuan böyük hərbi istedada malik olduğunu nümayiş etdirdi. O, dönmədən və səbrlə öz əsgərlərini türkyutlardan götürdüyü yeni sıra təliminə alışdırırdı — onlar yurtlarda yaşamalı, süd və ətlə qidalanmalı, at minməyi və dövrələmə ova çıxmağı öyrənməli idilər. O, Çin əsgərlərinin döyüş keyfiyyətlərinə görə Türkyutlarla bir səviyyədə dayanmasına nail oldu. Yeni təşkil olunmuş süvari hissələrindən əlavə xəyanəti artıq üzə çıxmış Janqarın dəstələri də çinlilərin sərəncamında idi.

598—599-cu ilin qışındakı ilk toqquşmalar çinlilərin xeyrinə nəticələndi, lakin Qara Çurin və Dulan xan türkyut süvarilərinin sürətli manevr mahiyyətindən istifadə edərək Çinin ön xətdəki qoşunlarının arxasına keçdilər və Janqarın Böyük səddin cənub səmtindəki düşərgəsinə soxuldular. Xəyanətkarlar qəfil yaxalandılar, lakin onlar əfv olunmayacaqlarını bildiklərindən cəsurluqla vuruşurdular. Onlar haqlı idilər — Janqarın qardaşları, uşaqları və bütün qohumları öldürüldü, özü isə gecənin qatı qaranlığından istifadə edib beş atlının və Çjan-sun Şenin müşayiəti ilə aradan çıxdı.

Ertəsi gün onun başına daha yüzə yaxın döyüşçü toplaşdı, lakin ruhdan düşmüş Janqar onları geriyə, atasının köhnə dostu Qara Çurinin yanına qayıtmaq üçün dilə tutmağa başladı. O, köhnə əlaqələri sayəsində həyatını xilas etmək istəyirdi, ancaq düşünmürdü ki, silahdaşlarının həyatına heç kim zəmanət vermir. Lakin Janqarın tərəfdarları tərəddüd keçirirdi, Çjou-sun Şen isə vaxtdan istifadə edib yaxınlıqdakı qalanın qarnizonuna çaparlar göndərdi. Onun əmri ilə həmin

qalada xəbərdarlıq tonqalları yandırıldı və Çjan-sun Şen həyəcanlı Janqara başa saldı ki, məşəllərin çoxluğu güclü düşmən ordusunun yaxınlaşdığını bildirir. Bərk qorxuya düşən Janqar qalaya aparılmasına etiraz etmədi, buradan isə onu imperator sarayına apardılar. Yan Tszyan kifayət qədər ağıllı və tədbirli idi, Janqar kimi heç nəyə layiq olmayan bir adamı türkyut taxtına çıxarmağın necə faydalı və əhəmiyyətli olduğunu yaxşı başa düşürdü. Doğrudur, ona bel bağlamaq olmazdı, lakin Janqarı əldə oynatmaq rahat və asan idi. Axı, o, qanuna və sülaləyə hörmətlə yanaşan bir xalqın xanının qanuni varisi idi. Hətta qüvvə və imkanlarını itirsə də, Janqar Qara Çurinlə yola getməyən türkyutlar üçün cazibə mərkəzi olaraq qalırdı. Tezliklə Dulan xanın kiçik qardaşı Tyüzlyük (Çin mənbələrində Dusulu) onun tərəfinə keçdi. Bir müddət sonra isə Çin qızılı Janqarın tərəfdarlarının sayını daha da artırdı.

599-cu ilin yayında Çin generalları Qao Fan və Yan So Qara Çurinlə toqquşdular. Biçurinin «Çin tarixi»ndə döyüşün bütün taktiki təfərrüatları ilə verilmiş yalnız bir təsviri vardır. Bu 599-cu il döyüşünün təsviridir. Biçurinin həmin əsəri çap olunmadığından müvafiq mətni bütünlüklə burada vermək yerinə düşərdi.

«Tutszyuevtslərlə (türkyutlarla) vuruşan generallar gördülər ki, Çin süvariləri dərhal düşmənin döyüş xəttinin içərisinə soxulur. Onlar cəbhəni elə qurdular ki, döyüş arabaları, piyadalar və süvarilər qarşılıqlı surətdə bir-birinə yardım edə bilsinlər. Atıcılardan kare-batalyonlar təşkil etdilər, süvariləri isə karenin içərisinə düzdülər. «Bu qədim üsul qələbə üçün kifayət deyildi» — deyə Yan So öz fikrini bildirdi. Ona görə də süvariləri qabağa çıxardı. Datu xan (Tarduş xan, Qara Çurin Türk) sevinclə dedi: «Səma özü məni mükafatlandırır». O, atdan düşdü, gözlərini göyə qaldırıb təzim etdi. Sonra 10000 atlısı (?) ilə düz irəli şütüdü. Cjuloxeu (Çin zabiti) dedi: «Düşmənlər hələ lazımi şəkildə səfə düzülməyiblər, hücuma keçmək lazımdır» — və ən yaxşı süvarilərlə onların üstünə getdi. Yan So da ordunun əsas hissələri ilə onun ardınca hücuma qoşuldu. Tutszyuestslar tamamilə darmadağın edildi. Öldürülənlərin və yaralananların sayı-hesabı yox idi».

Epizodun təhlilindən belə qənaətə gəlmək olar ki, türkyutların da kazaklar kimi atlı sıraları vardı. Hücumun əsas məqsədi düşmənin döyüş səfini dağıtmaq, qarmaqarışıqlıq salıb qaçanları qılıncdan keçirmək idi. Türkyut xanının vaxtsız sevincinin səbəbi düşmən qüvvələrinin parçalanması idi. Xan onlara ayrı-ayrılıqda divan tutmaq istəyirdi. Lakin çinlilər təşəbbüsü bu dəfə türkyutların əlindən aldılar. Süvarilərin əks-hücumu zərbəni zəiflətdi və türkyutların döyüş sıralarını pozdu. Əlbəyaxa döyüşə girən çinli piyadalar sayca üstünlükləri ilə məsələni həll etdilər. Nəzərə almaq lazımdır ki, əlbəyaxa döyüşlərdə piyadalar süvarilərdən daha güclüdürlər, çünki yerdə o, atlıya nisbətən çevikdir, zərbələrdən daha tez yayına bilir.

Şərqi türkyutlardan təşkil olunan və Dulan xanın başçılıq etdiyi digər ordu daha müvəffəqiyyətlə vuruşurdu və Janqarı elə sıxışdırdı ki, çinlilər onu öz

sərhədləri daxilinə buraxmalı oldular. Ordosdan şimaldakı çöllər və ona bitişik Alaşan dağının ətəkləri örüş yeri kimi Janqara verildi. Onun köçlərini müdafiə üçün Çin qoşunları ayrıldı. İmperator Janqarı özünə yaxınlaşdırdı, o, xainlərə ən bahalı hədiyyələri də əsirgəmirdi. Bu siyasət özünü doğrultdu. Çjan-sun Şen Janqarın tərəfdarları arasından casuslar seçdi. Onlar xan ordusuna göndərildilər və burada kimliklərini bildirmədən türkyut qoşunları arasında vahimə əhvali-ruhiyyəsi yaradırdılar. Xan özü ehtimal mahir təhkiyəçilərin təsiri altında gecələr bir-birindən dəhşətli yuxular görməyə başladı. Onun yuxusuna ulduzlardan yağan qanlı yağış, qırmızı göy qurşağı və s. girirdi. Xurafata inanan köçərilər bütün bu danışıqlar nəticəsində hədsiz əsəbi vəziyyətinə düşmüşdülər. Nəhayət, Dulan xan öz çadırında öldürüldü və mənən pozulmuş ordu ona böyük uğurlar vəd edən hücumu dayandırdı (600-cü il).

Qara Çurin Türk «özü özünü xan elan etdi». Lakin hələ qələbədən çox uzaq olan müharibəni uğurla başa çatdırmaq üçün o həm çox qoca, həm də bir vaxtlar vuruşduğu şərqi türkyutlar arasında çox qeyri-populyar idi.

**Böqyü xan.** Qara Çurin Türk Böqyü xan, yəni qəhrəman titulunu qəbul etdi. Lakin o, ümumun etimadını qazana bilmədi və ordada böyük qarmaqarışıqlıq başlandı. Çjan-sun Şen öz təxribatçı fəaliyyətini davam etdirirdi. Onun adamları çölə yol tapmış və tele tayfalarını üsyana təhrik etməyə başlamışdılar. Çjan-sun Şenin ehtimalı düzgün idi. Telelər əhalinin böyük əksəriyyətini təşkil edirdi, cəsur, azadlıqsevər xalq idi və təbii ki, asılı vəziyyət onları əzməyə bilməzdi. Türkyutlar «onların gücü ilə şimal çöllərində qəhrəmanlıq göstərirdilər»,[44] başqa sözlə desək, xaqanlığın əzəməti naminə teleləri öz qanlarını axıtmağa məcbur edirdilər. Xaqanlar qalib mövqelərini saxladıqları müddətdə telelər də loyal mövqe tuturdular, lakin Qara Çurinin hakimiyyəti zorla qəsb etməsi hamının şüurlarını və beyinlərini təlatümə gətirəndə onların da inamı sarsılmağa başladı.

Yeni xanın vəziyyəti fövqəladə dərəcədə ağır idi. O, taxt-tac varisliyi qanunun ziddinə olaraq hakimiyyətə gəlmişdi və bununla da düşmənlərinin əlinə «hakimiyyət qəsbkarına qarşı mübarizə» şüarı kimi güclü bir silah vermişdi.

Onun əsas düşməni — xain Janqar taxt-tacın qanuni varisi idi, həm də Janqar çöldə səxavətlə paylanan Çin qızılı təmsil etdiyindən onun hüququ saatbasaat daha real təsir bağışlayırdı.

Eyni zamanda cəbhədəki vəziyyət də get-gedə gərginləşirdi. Çjan-sun Şenin təklifi ilə çinlilər hərbi əməliyyat zonasındakı su mənbələrini zəhərlədiklərindən türkyutlar geri çəkilməli olmuşdular. Geri çəkilmə mütəşəkkil keçirilmişdi. İtkilərin azlığı da buna dəlalət edir. Təxminən min nəfər ölmüş, bir neçə yüz nəfər əsir düşmüş, bir neçə min baş mal-qara aparılmışdı. Çinlilər üçün əhəmiyyətli məsələ başqa idi—türkyut ağsaqqalları Janqarın yanına qaçmağa başlamışdılar. Lakin Qara Çurinin mövqeləri hələ sarsılmamışdı.

---

[44] Н.Я.Бичурин. Собрание сведений…, т. I, с:302.

601-ci ildə o, yenidən Çinə soxuldu və general Xan Xunun ordusunu darmadağın etdi. Türkyutların başqa bir dəstəsi Janqarın köç düşərgəsini dağıtdı, çoxlu mal-qara və əsir apardı. Tələsik təchiz olunmuş Çin ordusu qənimətləri geri ala bildi, lakin onlar yeni basqına mane ola bilmədilər.

Ancaq Janqarın Çjan-sun Şenin əmri ilə göndərilən agentləri teleləri türkyut xanının əleyhinə qaldırdılar. On tayfa silaha sarıldı, onların arasında yalnız telelər deyil, abarlar da vardı. Üsyan şimal-şərqdə Selenqadan tutmuş cənub-qərbdə Tyan-Şana qədər böyük bir ərazini bürümüşdü. Qərbi türkyutlar üsyançılarla döyüşdə məğlub edildilər. Nili xan həlak oldu, qardaşı Tun-cabğu qaçdı, lakin xaqanlığın Tarbaqatayın arxasındakı ucqarları Aşina sülaləsinə loyal münasibətini qoruyub saxladı.

Şərqdə vəziyyət daha pis idi. Qara Çurin öz irsi bölgəsindən uzaq salınmışdı. Onun böhranlı vəziyyətini görən şərqi türkyutlar öz xanlarını fəlakətdə qoyaraq qaçıb dağılmış, tatablar isə Çinə itaət göstərmək niyyətində olduqlarını bildirmişdilər. Qara Çurin Toqona qaçdı və orada tibetlilər tərəfindən öldürüldü. Bunun ardınca Çjan-sun Şen Janqarı təntənəli şəkildə çölə gətirib qanuni varis kimi onu xan elan edəndə müqavimət göstərəsi bir qüvvə yox idi.

Nili xanın qardaşı və varisi Bası-təkin öz bölgəsini — Buxaranı itaətkarlıq göstərmək yolu ilə qorumağa çalışdı. Bası (Çin mənbələrində Poşi) özünün çinli arvadı (bu qadın da ona irsən qardaşından keçmişdi) Syanşi ilə Çinə gəldi, lakin burada həbs edildi (604-cü il). Nili xanın azyaşlı oğlu Tamam (Çin mənbələrində Daman) qərbi türkyutların xanı oldu.

**Xanların alçaldılması.** Suy sülaləsinin qüdrətinin çiçəklənən dövründə onun banisi Yan Tszyan — imperator Ven-di öldü (iyul 604-cü il).[45] Həm də bu

---

[45] Mənbələrdə bu haqda birbaşa məlumat yoxdur, lakin həmin vaxtdan etibarən onun adı çəkilmir.
Güman olunur ki, o, məhz Tun idi. Mənbədə isə o, yalnız titulu ilə xatırladılmışdır. Lyu Mao-tszyayın bu haqdakı şübhələri inandırıcı deyil, çünki o, «yabqu» termininin semantikasını nəzərə almır.
Poşi-təkinin Çinə gəlmə tarixi Suyşuda 600-cü il kimi göstərilir. Lakin Şavann inandırıcı şəkildə göstərir ki, bu tarix səhvdir. Bası (türkcə), eləcə də Poşi (Çin dilində) «incidilmiş», «qurban» (daha dəqiq—«basılmış», «məğlub edilmiş» — V. Q.) mənasını verir. Bu şəxsi ad və titul deyil, ləqəbdir, türklər və çinlilər həmin ləqəbi taxt-tacı həbsxana ilə əvəz olunan, aldadılmış və məhv edilmiş knyaza vermişdilər. Onun əsl adı məlum deyil. N. Y. Biçurin, istisna olunmaqla qalan müəlliflərin hamısı hadisələrin gedişini uyğurlar haqqındakı epizoda əsaslanaraq bərpa edirlər. Lakin onlar nəzərə almırlar ki, tənqidsiz qəbul olunan mətn cəfəngiyata gətirib çıxarır. Bu şərh üçün əsas kimi üsyanın tarixi götürülür. Mən həmin tarixin özünü səhv hesab edirəm. Lyu Mao-tszyunun əsəri üzrə mətni gətirirəm: «Da-yə-nin hakimiyyətinin birinci ilində (605-ci il) türkyutların (qərbi) hökmdarı Çulo xan tele tayfalarına hücum edib onların üzərinə ağır vergi qoydu. Lakin üsyandan ehtiyatlanaraq onların bir neçə yüz nəfər başçısını (N. Y. Biçurində — ağsaqqallarını) bir yerə yığıb öldürtdü. Buna görə də telelər üsyan qaldırdılar. Buqu, tonqra, uyğur, bayırku, aymak (bu), fulo tayfaları birləşdi. Onların ali başçısının titulu sıqin idi. Sonralar onlar özlərini uyğur adlandırmışdılar. Uyğurlar seyantolardan şimalda, Solin Selenqa çayının üzərində yaşayırlar». Burada adları çəkilən tayfaların hamısı Tolo çayından şimalda yaşayırdılar və «keçmiş usul torpaqlarında, yəni Jetisuda məskunlaşan» (Biçurin) qərbi türkyutlarla heç bir əlaqəyə malik deyildilər. 605—606-cı illərdə qərbi türkyutlarla vuruşan tayfaların — kibi və seyantoların adları isə çəkilməmişdir. Bu, müxtəlif hadisələrin iki təsviri haqqında

ölümün qəfilliyi hökmdarın qətlə yetirildiyini ehtimal etməyə əsas verir. Onun oğlu Yan Quan Yan-di adı altında taxta çıxdı. O, atasının fatehlik siyasətini davam etdirirdi.

604-cü ildə Suy imperiyası özünün tam qələbəsini bayram edə bilərdi. Çinlilərin əlaltısı xain Janqar Şərq xaqanlığının hamı tərəfindən qəbul edilmiş xanı oldu. Bu dövrdən etibarən Şərq xaqanlığı Qərb xaqanlığından birdəfəlik ayrıldı.

Çinlilərin yardımı kəsilən kimi Selenqa çayı hövzəsində yaşayan telelərin üsyanı sakitləşdi, lakin Cunqariya və Tarim hövzəsi Şərqi türkyut xanının hakimiyyəti altına qayıtmadı. Nominal şəkildə onlar Qərb xaqanlığının tərkibinə daxil idilər. Lakin tele tayfalarından olan kibi (Şərqi Tyan-Şanın şimal yamaclarında) və seyanto (Altainnuru zirvəsinin cənub yamaclarında) özlərinin şərqdəki həmtayfaları ilə müqayisədə daha çox azadlıqsevərlik nümunəsi göstərdilər. Qərbi türkyutlarla aparılan iki illik (605—606-cı illər) inadlı müharibə onlara qələbə və azadlıq gətirdi. Bu müharibənin təfərrüatları xronikalarda qorunub saxlanmamışdır, lakin onun nəticəsində Cunqariyada müstəqil tele dövləti yarandı. Bu dövlətin başında Moxe-xan titulu qəbul etmiş Kibi tayfasının knyazı Qelen dayanırdı. Bu qələbə paz kimi türkyut ərazisinin içərisinə girən və çölə nüfuz prosesində Çin üçün körpü rolunu oynayacaq yeni köçəri dövlətinin yaranmasına Çinin rəğbət bəsləməsi nəticəsində əldə edilmişdi. Çinlə dostluq Qelenə dövlətinin şimal-şərq sərhədlərinin təhlükəsizliyinə təminat verirdi, çünki şərqi türkyutların xanı Janqar istisnasız olaraq imperiyanın mənafeyinə xidmət edirdi. Yaranmış sərfəli şərait nəticəsində telelər hər bir köçəri cəmiyyət üçün son dərəcə zəruri olan oturaq əhaliyə malik ərazi — Qaraşar, Turfan və Xami vadilərini əldə etdilər.

Qelenin xan titulu qəbul etməsinə baxmayaraq Cunqariyanın qayda-qanunları türkyutlardakı ciddi sistemə bənzəmirdi. Syantoluların başçısı İşibo Qelenə tabe olsa da, öz tayfası üzərindəki hakimiyyəti saxlamışdı. Qaoçan knyazlığındakı sülalədə öz mövqeyini saxlamışdı və ali hakimiyyətin möhkəmləndiyini göstərən heç bir məlumat yoxdur. Çox ehtimal ki, Cunqariyadakı Tele dövlətini tayfalar ittifaqı adlandırmaq daha çox yerinə düşərdi.

Türkyutların Şərq xaqanlığındakı vəziyyətini məqbul hesab etmək olmazdı. Yeni xan Janqar Ordosda, Çin cidalarının müdafiəsi altında yaşayırdı və çöldə görünməyə qorxurdu; çünki təbəələrinin bir qismi ona türkyut kimi, başqa bir qismi isə xain və çinli əlaltısı kimi nifrət edirdi. Rifahının və gələcəyinin istisnasız şəkildə çinlilərdən asılılıqda görən Janqar tələb edildiyindən də artıq güzəştlərə gedirdi. Məsələn, o, Yan-diyə təbəələrinin geyimlərinin Çin geyimləri, xaqanlığın qanunlarını isə Çin qanunları ilə əvəz etmək niyyətində olduğunu bildirmişdi.

---

nəticəyə gəlmək üçün kifayətdir. Xanın titulunu nəzərə alsaq, uyğur üsyanını Şərqi türkyut hökmdarı Çulo xanın hakimiyyəti dövrünə aid etmək daha düzgün olar (619-620-ci illər). Mənbədə deyilir: «Çulo xan qanunsuzcasına hökm sürməyə başladı». Bu real qiymət deyil, Qərbi türkyut xaqanlığına mənfi münasibətin ifadəsidir, çünki həmin dövrdə Sulo xan Tamam hələ körpə idi.

Lakin Yan-di etiraz etmişdi. Çünki həmin tədbirlərin həyata keçirilməsi Janqarın çöldəki populyarlığını daha da azaldır və yeni qarmaqarışıqlıqlara təkan verərdi. Janqar isə çinlilərə çox lazım idi.

605-ci ildə kidanların üsyanı 20 min nəfərlik türkyut qoşunun köməyi ilə yatırıldı. Bundan əlavə Janqarın ordası digər şimal köçərilərinə qarşı mübarizədə də istifadə oluna bilərdi.

Toqon hökmdarlığı Çinin Qərbə ənənəvi yolunun üstündə maneə idi. Toqonla münasibətlər həmişə gərgin olmuşdu, 603-cü il ərəfəsində isə Toqon çöldəki antiçin əhval-ruhiyyəli qüvvələrin cazibə mərkəzinə çevrildi. 604-cü ildə Çinin düşməni Qara Çurin Türk məhz burada xilas yeri tapmaq istəyirdi, «səma oğlunun» önündə baş əymək istəməyən tatablar da onunla birlikdə Kukunor sahillərinə qaçmışdılar. Janqar xan olduqdan sonra türkyutların Toqonla ittifaqını pozdu. Bu isə Toqon çarlığının tamamilə təcrid edilməsi idi. Lakin xan Fuyun labüd Çin basqınına hazırlaşmışdı, imperator Yan-di isə belə ağır müharibə aparmağa qətiyyət göstərmirdi. O, Toqonu başqalarının əli ilə alçaltmaq üsulunu tapdı.

Çin səfiri kiçik yaşlı Qərbi türkyut xanının yanına gələrək Şərqi türkyutlarla birlikdə onun üzərinə hücuma keçəcəkləri ilə hədələdi. O, həmçinin bildirdi ki, Qərbi türkyut xanı özünü Çinin vassalı elan etməyə razılıq verməsə, girov kimi saxlanan anası edam olunacaq. Xan Çinə tabeliyini sübuta yetirməli idi. Ona Toqona arxadan hücum üçün qoşun göndərmək təklif olundu. Şərtlər qəbul edildi. 608-ci ildə türkyutlar Toqona onların hücum gözləmədikləri qərb tərəfdən zərbə endirdilər. Heç bir müqavimətə rast gəlməyən türkyutlar Soydoma soxuldular, dağlarda gizlənməyə macal tapmayanların hamısını qırdılar və böyük hərbi qənimət ələ keçirdilər.

Belə bir sual meydana çıxır: nə üçün Çulo xan, daha dəqiq desək, onun qəyyumları bu qədər sərfəsiz bir işə razı oldular və öz qoşunlarını düşmən mövqedə dayanan Qelenin — Moxe xanın ərazilərindən necə keçirdilər? Çox güman ki, Çin səfirinin səyləri nəticəsində qərbi türkyutlar telelərlə sülh bağlamağa müvəffəq olmuşdular. Bu itaətkarlıq və kömək üçün mükafat, həmçinin xaqanlığın alçaldılması müqabilində əvəz idi. Mövcud vəziyyət şəraitində tarixin faktlarını yalnız bu cür mənalandırmaq olar. Doğrudan da, 608-ci ildən sonra qərbi telelərlə qərbi türkyutların vuruşları səngimişdi.

İmperator Yan-di bu məqamı yürüş üçün sərfəli sayırdı, 608-ci ildə Çin qoşunları müharibə elan etmədən Toqona girdi. Xan Fuyun öz köçəri xalqı ilə birlikdə cənuba, «Qarlı dağlara» tərəf qaçdı, qalanlarını isə çinlilər əsir götürərək imperatorun cariyələri üçün pavilyon tikmək üçün Çinə göndərdilər. Suy hökuməti işğal olunmuş torpaqları sürgünlü cinayətkarlarla məskunlaşdırmağa başladı və orada Çin inzibati qaydaları qoydu.

609-cu ildə Yan-di özü böyük qoşunla dağlarda gizlənmiş xan Fuyunu tutmaq üçün yürüşə çıxdı. Lakin dağlara yol tapmağı qarşılarına məqsəd qoyan

sərkərdələr orada öz başları ilə vidalaşmalı oldular. Buna baxmayaraq xan Amdoya, köçəri dağlıların yanına çəkilməli oldu. Burada o, sığınacaq və təhlükəsizlik tapdı. Yan-di Kukunorda ləngimədən qoşunu ilə birlikdə Qərbə hərəkət etdi və burada heç bir müqavimətə rast gəlmədən fateh çələngi qazandı. Qaoçanın (Turfan), İvunun (Xemi) və digər 27 xırda knyazlıqların nümayəndələri öz itaətkarlıqlarını bildirmək üçün onun yanına gəldilər. Doğrudur, burada Qaraşarın, Kuçinin, Xotanın və Kaşqarın nümayəndələri yox idilər, lakin Lobnora və Çerçen-Daryaya qədər bütün torpaqlar Çin imperiyasına keçdi.

Bu qərbi türkyut xanlığının və Cunqar teleləri xanlığının ərazi bütövlüyünə açıq-aşkar qəsd idi, lakin Çuloxan Taman və Moxe xan Qelen etiraz etməyə cəsarəti çatmadı. Yan-di Çinə qayıtdı.

**Su əzəməti.** 604-cü ildə taxta çıxan knyaz Yan Quan yalnız varlı ölkənin deyil, həm də ağıllı atasının qazandığı qələbə çələnglərinin varisi olmuşdu. Tarixdə bəxti gətirən hökmdarların müvəffəqiyyətlərindən gicəllənmələrinə dair çoxlu misallar var. Yan Quanın başı isə özgəsinin müvəffəqiyyətindən gicəllənməyə başladı. Hakimi-mütləq olduqdan sonra o, qələbələrin hansı çətinliklər hesabına qazanıldığını və onların nə kimi risklərlə bağlı olduğunu unutdu. Düşmənlərin qüvvəsi ona cüzi, öz qüvvələri isə hüdudsuz görünürdü. Buna görə də Yan Quanın hakimiyyət dövrü bir-biri ilə əlaqəli səhvlər silsiləsindən ibarət idi və bunun müqabilində də o, taxt-tac və həyatı ilə vidalaşmalı oldu.

Yuxarıda deyildiyi kimi, tobasların birbaşa varisləri istisna edilməklə Suy sülaləsi bütün Şimali Çin əhalisinin antitürk əhvali-ruhiyyəsi bərqərar olmuşdu. Lakin tobaslıların varislərinin sayı da az deyildi; buna görə də Yan Quan onların loyallığına nail olmaq üçün son dərəcə incə davranırdı. Tobaslıların çinliləşmiş xələfləri Xebeydən tutmuş Çanyana qədər Böyük sədd boyunca yaşayırdılar. Onların içərisində Quanlun qruplaşmasındakı Çin mülkədarlarının hakimiyyətindən uzaqlaşdırdığı çoxlu iri torpaq sahibləri və peşəkar hərbçilər vardır. Sonuncu sülalələrin özbaşına hakimiyyəti nəticəsində gücdən düşmüş Cənubi Çin Yan Quan üçün yüngül qənimətə çevrildi; lakin mahiyyət etibarı ilə bu ərazi taxt-tacın dayağı yox, itaətə gətirilmiş ölkə olaraq qalırdı. Suy sülaləsinin vassallarına çevrilmiş türkyut xanlarının sədaqəti keçici xarakterli idi, onların təbəələrinin Çinlə bağlı hər şeyə nifrəti isə şübhə doğurmurdu. Bu cür rəngarəng və narahat təbəələri idarə etmək üçün son dərəcə ağıllı, ən başlıcası isə siyasətcil hökmdar lazım idi. Lakin taxt-tacın varisi, hakimiyyətə gələndən sonra Yan-di titulunu qəbul edən Yan Quan belə hökmdar deyildi. O, Çinin ən amansız despotlarından biri kimi şöhrət qazanmışdı.

Böyük Çin səddindən şimaldakı ölkələrdə Suy sülaləsinin üstünlüyü əvvəla şərqi və qərbi türkyutlar arasında başlanan amansız düşmənçiliyə, digər tərəfdən isə ipəyə olan tələbata əsaslanırdı.

VI əsrdə türkyutlar özlərini vahid xalq sanırdılar. 80-ci illərin çəkişmələri zamanı xan oğulları dalaşırdılar, onların döyüşçüləri isə çox asanlıqla qalibin

tərəfinə keçirdilər. Qara Çurin Türk xaqanlığın hər iki hissəsini birləşdirdi. Bu şərqdə heç bir müqavimət doğurmadı, lakin Qara Çurin məğlub edilən kimi şərqi türkyutlar çox asanlıqla onu fəlakətdə tək qoyub getdilər. Xanla birlikdə təbii ki, onun yalnız qərbi türkyutlardan ibarət dəstəsi də məhv oldu. Beləliklə, həlak olanların, qohumları ilə xəyanətkarlar arasında qan intiqamı meydana çıxdı. Həmin dövrün anlayışına görə birliyin baş tutmaması üçün təkcə bu səbəb kifayət idi. İndi xaqanlıqlar arasında düşmənçilik yenidən güclənə bilərdi. Həm də yeni itkilər tərəfləri daha da amansızlaşdırırdı.

Çöldəki nifaqın mövqeləri möhkəmlətmək üçün kafi olmadığını yaxşı başa düşən Suy dövləti hədiyyələr və bahalı ziyafətlər vasitəsi ilə ələ almaq üsulundan geniş istifadə edirdi. Bu işə sərf olunan xərclər bütöv bir qoşunu saxlamağa kifayət edərdi. Məsələn, 607-ci ildə Yan-di Janqar xan və onun aymakından olan 8500 ağsaqqal üçün ziyafət düzəltmişdi. Bu zaman xana 2 min dəst ipək parça, döyüş arabası, minik atları, litavrlar, musiqi alətləri, bayraqlar hədiyyə edilmişdi. Onunla gəlmiş 3500 nəfər tayfa ağsaqqalları da müvafiq hədiyyələr almışdılar. 610-cu ildən başlayaraq hər il Loyanda «vassallar» üçün bir ay davam edən bayramlar keçirilirdi. Teatr tamaşaları üçün böyük səhnə qurulmuşdu, 18 min musiqiçi fasiləsiz çalıb-oxuyurdu. Səhər açılana qədər fanarların gözqamaşdırıcı işığı bərq vururdu. Dükanların hamısını bəzəyirdilər, hətta tərəvəz köşklərinin yanına da həsir döşəyirdilər. «Vassalları» müftə yedirib-içirirdilər. Həm də onları inandırırdılar ki, Çində hər şey boldur, şərab və yemək üçün orada pul almırlar. Köçərilər ən çox ağacların gövdəsinin ipək parçalarla sarınmasına təəccüblənirdilər. Onlar soruşurdular: «Axı Çində kasıblar da var, paltar da görünür hamıya çatmır, niyə ipəyi ağaclara dolayırsınız?» Lakin onlar belə suallara cavab almırdılar. Digər tərəfdən, Tarim hövzəsində Çin silahının qələbəsi də yerli hakimlərə bahalı hədiyyələr vermək yolu ilə təmin edilmişdi. Bu isə o qədər də ucuz başa gəlmirdi. Təbiidir ki, qeyri-adi var-dövləti olsa da, Çin bu bədxərcliyin qarşısında tab gətirə bilməzdi. Meydana çıxan maliyyə böhranı ilə əlaqədar vergilərin labüd şəkildə artırılması Suy imperatorunun taxt-tacını laxladırdı. O biri tərəfdən bahalı hədiyyələr vermək siyasəti də özünü doğrultmurdu. Yapma zənginliklə heç kəsi aldatmaq olmazdı, satın alınmış dostlar isə həmişə etibarsızdırlar. Yan-di tezliklə bu həqiqətlərin hər ikisinə də öz şəxsi təcrübəsində inandı.

## XII f ə s i l

## QƏRB XANLIĞI

**Dövlətin ürəyi.** Xaqanlığın parçalanmasının türkyut xalqının istəyi və iradəsinin ziddinə baş verməsinə və yad, hətta düşmən təsirlərin nəticəsi kimi meydana çıxmasına baxmayaraq bir vaxtlar vəhdət təşkil edən hər iki tərəfin yolu son dərəcə müxtəlif oldu.

Şərqdə vəziyyət az dəyişilmişdi. Çünki Çin himayədarlığı nə türkyut ənənələrinə, nə istehsal üsuluna, nə də təsərrüfatın idarə olunmasına toxunurdu. Şərqdə türkyutlar etnik cəhətdən sıx birləşmiş qrup kimi qalırdılar və onların potensial qüvvəsi qonşu xalqların hamısından daha artıq idi. İlk müvafiq şərait yaranan kimi çöldə türkyutların siyasi üstünlüyünün bərpası yalnız mümkün deyil, mütləq idi.

Qərbdə isə biz tamamilə başqa mənzərə ilə üzləşirik. Türkyutlar orada mütləq azlıq təşkil edirdilər. İstemi xan özü ilə nə qədər döyüşçü aparsa da, türkyutlar itaət altına alınmış əyalətlərdə dənizdə damla timsalında idilər. İlk baxışdan elə görünürdü ki, onlar ya bizim türk adlandırmağa tam əsasımız olduğu yerli əhalinin içərisində izsiz-soraqsız əriyib itməli, ya da həmtayfalarının əsas hissəsi Suy imperatorunun tapdağı altına düşdükdən sonra bu əhalinin qurbanları olmalı idilər. Lakin gözlənilməyən üçüncü yol meydana çıxdı — Jetisunun, Çu vadisinin, Volqanın və Kubanın aşağı, İrtışın və İşimin yuxarı hissələrinin köçəriləri Aşina sülaləsinə tam vicdani münasibət göstərdilər. Tarim və Amu-Dərya hövzələrindəki vadilərin oturaq əhalisi, hətta Hindiquş və Qafqaz zirvələrində yaşayan dağlılar da özlərini eyni cür apardılar. Beləliklə, türkyutlar burada da öz hakim vəziyyətlərini saxladılar.

Etiraf etmək lazımdır ki, İstemi və Qara Çurin Türk yalnız sərkərdə deyil, həm də görkəmli inzibati xadimlər idilər. Onlar fateh kimi gəldikləri ölkələrdə modusv vıvendi yaratdılar. Bütün qüvvələrini arasıkəsilməz müharibələrə sərf edən parçalanmış kiçik tayfalar ilk dəfə sakit həyatın şirinliyini daddılar və öz köçəri heyvandarlıq təsərrüfatlarını inkişaf etdirmək üçün hər cür imkan qazandılar. Bu da öz növbəsində birlik şüurunun yaranmasına gətirib çıxardı. Birləşən tayfalar türklər adlanmağa başladı. Belə bir nəticə çıxarmaq olar ki, məhz hakim təbəqə olan türkyutların sayca azlığı yeni meydana çıxan sistemin davamlılığını təmin etdi. Xan dəstəsinin saxlanması o qədər az xərc tələb edirdi ki, bu, xərc verənlər arasında heç bir narazılıq doğurmurdu. Digər tərəfdən, vahid hakimiyyətin faydası da göz qabağında idi. Xarici siyasət sahəsində dövlətin qarşısında dayanan əsas vəzifə — böyük karvan yolu uğrunda mübarizə — xaqanlığın cənub əyalətlərinin ticarət şəhərləri üçün başlıca həyatı tələbat idi və eyni zamanda onun şimaldakı təbəələrinə də sərvət və zənginlik vəd edirdi; çünki burada dövlətin və sülalənin mənafeləri bir-birini tamamlayırdı. Lakin real qüvvə hökumətdə deyil, xalqda

olduğundan biz Qərb xaqanlığının 659-cu ildəki süqutuna qədər onun bütün institutlarının və qüvvələr nisbətinin daimi təkamül prosesi keçdiyini görürük. Lakin qabağa qaçmayaq və diqqətimizi 609-cu ildə, kiçik yaşlı Çulo xanın dövründə yaranan vəziyyətə cəmləşdirək. Ancaq bu dövrün təsvirinə keçməzdən əvvəl bir ümumi mülahizəni xatırlatmaq yerinə düşərdi.

Sonralar türklərlə qarşılaşan müsəlmanlar onların ətrafdakı xalqlarla heyrətamiz dil tapmaq qabiliyyətlərin xüsusi qeyd edirdilər. Türklər özlərinin bu xüsusiyyətini yeni ölkəyə qalib, yaxud qonaq, muzdlu əsgər, yaxud hərbi əsir kimi gəlmələrindən asılı olmayaraq nümayiş etdirirdilər. İstənilən vəziyyətdə onlar başqa xalqların nümayəndələri ilə müqayisədə mənsəbə daha müvəffəqiyyətlə yüksəlir və onu yerli xalqla bölüşürdülər.

Tarixçi Fəxrəddin yazırdı. «Kim deyə bilər — türklərin bəxtinə düşən şöhrətin və müvəffəqiyyətin səbəbləri nədir? Cavab: hamıya məlumdur ki, hər bir tayfa və hər bir sinif öz xalqının, öz qohumlarının arasında, öz şəhərində yaşadığı müddət ərzində hamıdan hörmət və ehtiram görür, lakin səyahətə çıxanda və yad ölkələrə düşəndə onlara nifrət edirlər, heç kim onlara diqqət yetirmir. Lakin türklərdə əksinədir — onlar öz qohum-qardaşlarının və öz tayfalarının içərisində olanda yalnız çoxsaylı türk tayfalarından biridirlər, kifayət qədər qüvvələri yoxdur və heç kəs onların köməyinə arxalanmır. Lakin onlar öz ölkələrindən müsəlmanların arasına düşdükdə, evlərindən, yaxın adamlarından, vətənlərindən nə qədər uzaq olsalar gücləri də bir o qədər artır, onlar daha yüksək qiymətləndirilir, əmir və siphsalar olurlar».

Bir qədər aşağıda isə deyilir: «Türklərin padşahı, son dərəcə müdrik və ağıllı adam kimi tanınan Əfrasiyabın kəlamları içərisində belə bir kəlam da var: «Türk balıqqulağı içərisindəki mirvarini xatırladır; nə qədər ki, o öz qınındadır, heç bir qiyməti yoxdur. Lakin balıqqulağının içindən çıxan kimi o, qiymətə minir, padşahların taclarını, şahzadə xanımların boyun-boğazlarını və qulaqlarını bəzəyir».

XII əsrin diqqətcil tədqiqatçısının bu müşahidəsi VII əsrin türkyutlarına da şamil edilə bilər. Özünün ən qüdrətli çağından sonra yarım əsr də yaşayan sülalənin dözümlülüyünü də elə bu cəhətlə izah etmək mümkündür. Belə rəngarəng və hərbi əhvali-ruhiyyəli əhalisi olan ölkədə türk xanlarının hakimiyyətinin daxili sülhü qoruyub saxladığını güman etmək doğru olmazdı. Aşinanın zəifləmiş sülaləsi onun bütün təbəələri üçün məqbul idi, lakin əsil qüvvə və ehtiraslar legitimizim mövqelərində dayanaraq aralarındakı mübarizəni davam etdirirdilər. Xanlar tayfa bəylərinin və Soqdiya dehqanlarının əlində oyuncağa çevrilmək bahasına öz hakimiyyətlərini qoruyurdular. Lakin digər tərəfdən həmin bəylər və dehqanlar da öz növbələrində hakimiyyətin zəifləməsi prosesində müxtəlif partiyalara bölünür və üstün mövqe uğrunda aralarında mübarizə aparmağa başlayırdılar.

İki tayfa ittifaqı — Jetisu və Qərbi Cunqariyada dulu və Qərbi Tyan-Şanda, İssık-Kul gölü ətrafında nuşibilər hakimiyyət davasında ən güclü iddiaçılar idilər*. Bu ittifaqların hərəsinə beş tayfa daxil idi, buna görə də bəzən Qərb xaqanlığından danışarkən «on tayfa» anlayışından da istifadə olunur, bu isə həmin tayfa ittifaqının bütövlükdə dövlət üçün əhəmiyyətinin üstünə kölgə salır. Həmin adla birlikdə «türklər-cabqu» adına da təsadüf edilir. Bu ad altında Qərb xaqanlığında yaşamış türkyutlar nəzərdə tutulur. Eyni zamanda İsteminin İl-xan Bumının yanında yabqu olduğu nəzərə çarpdırılır. Dövlət haqqında söhbət gedəndə bu adlar bir-birini əvəz edir, lakin onların hər ikisinin mövcudluğu göstərir ki, VII əsrdə türkyutlarla on tayfa türkləri arasındakı fərqlər hələ aradan qalxmamışdı.

**Türkyutlar və türklər.** Qərb xaqanlığındakı vəziyyətin burada təqdim olunan yenidən qurması E. Şvannın dünya elmində qəbul edilmiş konsepsiyasından köklü surətdə fərqlənir. Fikir ayrılığı bəzi terminlərin fərziyyə əsaslanan anlayışı və E. Şvanın bir ümumi gümanı ilə bağlı meydana çıxmışdır. E. Şvannın müddəaları rədd edilməlidir, çünki XX əsr rus tədqiqatçıları onların əsassızlığını sübuta yetirmişlər.

E. Şvann öz konsepsiyasını V. Radlov və F. Xirtin fərziyyəyə əsaslanan eyniləşdirmələrini qeyri-tənqidi və mexaniki təkrarı (tele-tolos, seyanto-sirtarduş, oqor-uyğur) və özünün bir əlavəsi (aba-jujan) əsasında qurur. Eyniləşdirmələrinin birinci cütünün əsassızlığını E. Şvannın tədqiqatını ümumən çox aşağı səviyyəli bir iş kimi qiymətləndirən akademik V. V. Bartold göstərmişdir. «Oqorlarla» bağlı məsələyə isə M. İ. Artamonov aydınlıq gətirmişdir. O, «oqorların» Uralyanı uqrlar olduğunu müəyyənləşdirmişdir. Abarlar haqqında isə yuxarıda bəhs etmişdik. İndi heç bir mübahisə doğurmayan bu səhvlərin islahı E. Şvannın tədqiqatının sintetik hissəsinin köhnəlmiş olduğunu göstərir. Bu isə bütün materialı yenidən nəzərdən keçirməyə məcbur edir. Və bu zaman məlum olur ki, E. Şvannın «qərbi türklər vahid xalq deyildilər, onlar federasiya daxilində birləşən ayrı-ayrı tayfalardan ibarət idilər» — fərziyəsi dəqiqləşdirmə tələb edir.

Şvannın anlamında türkyutlar və Jetisunun türkdilli tayfaları eynidirlər və ayrıca xalq kimi türkyutlara onun təqdim etdiyi hadisələrin gedişi rekonstruksiyasında yer yoxdur. Lakin sonra da göstərəcəyimiz kimi, yoxlama zamanı məlum olur ki, bu cür anlamda hadisələrin gedişi tam aydınlaşdırıla bilməz. Bundan əlavə, B. X. Karmışevanın etnoqrafik tədqiqatları nəticəsində Orta Asiyada türkyutların birbaşa varisləri meydana çıxarılmışdır. İndi özbəklərin tərkibinə daxil olan Orta Asiya türklərinin tayfa adları arasında yerli əhalinin «türk» adlandırdığı tayfa qrupu mövcuddur. Həmin qrupun içərisində isə karlular, baltaslar, kalta-tay və musabazarlarla bərabər öz-özlərini türk adlandıran tayfa vahidi də vardır.

---

* A. N. Bernştamın Tyan-Şanın VII əsrdəki türk əhalisini Yenisey qırğızları ilə əlaqələndirməsi cəhdi A. Y. Şer tərəfindən inandırıcılıqla rədd edilmişdir, o, nuşibilərin Altay əlaqələrini arxeoloji materiallarla sübuta yetirmişdir.

Birinci halda türk adı altında Mavərənnəhrin XIV—XV əsrlərdəki köhnə türkdilli sakinləri nəzərdə tutulur. Türkləşmiş monqol nəsli barlasların mövcudluğu da bunu göstərir. Həm də onlar dar anlamda, yəni Şeybani xanla birlikdə Dəşti-Qıpçaqdan gələn tayfalar mənasında özbəklərə qarşı qoyulur. İkinci halda «türklər» dar mənada özlərini özbəklərə -lokaylara, kesamirlərə, semizlərə deyil, həm də karluklara qarşı qoyurlar. Onların qəbilə bölgüsü yoxdur, lakin qruplardan biri özlərini türki-tügen adlandırırlar. Qədim dövrdə bələd olanlar bilirlər ki, indi heç də hamıya tanış gəlməyən bu söz «bayraq», «bunçuq» mənasını verən monqol sözü «tuğ»dan götürülüb. İfadənin mənası «bayraqdarlar», yaxud «üsyançı türklər» kimi müəyyənləşdirilə bilər. Əfsanədə deyilir: «Tugen (daha dəqiq Tuqon — L. Q.) 1200 il bundan əvvəl yaşamış cəsur bir döyüşçünün adıdır. O, əslən Tatarıstandan idi. Türk-kaltatay nəsli həmin adamın varisləridir».

B. X. Karmışeva güman edir ki, «türklər» Orta Asiyaya gəlmə türklərin nəsillərinə aiddir və onlar ehtimal ki, karluqların əcdadlarından da daha əvvəl gəlmişdilər». B. X. Karmışevanın qənaəti tamamilə inandırıcı görünür, onun topladığı material isə son dərəcə böyük əhəmiyyətə malikdir. O, «türkyut» adlandırdığımız tayfanın Orta Asiyada VII—VIII əsrlərdə (1200 il bundan əvvəl) mövcud olduğunu tam təsdiq edir. Həmin tayfanın etnoqrafik xüsusiyyətləri də bizim mülahizəmizin xeyrinə danışmaqdadır. «Türklər» özbəklərdən və qırğızlardan aralı gəzib-dolanır, onlarla nigaha girmirlər. Bununla bir sırada «türklər» son zamanlara qədər özlərinin köçəri heyvandarlıq vərdişlərini qoruyub saxlamışdılar.

«Fəxrəddin Mübarəkşahın tarixi»nə şərhlər yazan İ. İ. Umnyakov orda adları çəkilən türk tayfalarının siyahısını vermişdir. Bu siyahıda birinci yeri «türk» tayfası tutur. Umnyakov ehtimal edir ki, «türk» sözü XII—XIII əsrlərdə türklərin ümumi adından başqa həm də «çox ehtimal ki, bundan əvvəl də ayrılıqda götürülmüş bir türk tayfasının adını bildirirdi».

Şübhəsiz ki, bu belədir. Bizim təklif etdiyimiz şərti «türkyut» termini hətta E. Şvann kimi bir analiz nəhənginin də qurban getdiyi anlayış və kənara çıxma dolaşıqlarından xilas olmağa imkan verir. Onu da əlavə etməliyəm ki, E. Şvannın sintetik quruluşu ilə razılaşmasam da, mən fransız şərqşünasının tədqiqatının analitik hissəsi ilə bağlı B. V. Bartoldun mənfi fikrinə qətiyyən şərik çıxmıram.

**Soqdiana xaqanlığın tərkibində.** Əgər Aşina nəslinin qərb budağının xanları qüvvəni Yeddi suyun və Çu vadisinin çöl tayfalarından alırdılarsa, sərvət və var-dövlət onların əlinə Orta Asiyanın və Tarim hövzəsinin oturaq vilayətlərindən gəlirdi. Soqdiya kəndliləri və tacirləri Qərbi türkyut xanlarından o qədər yaxşılıqlar görmüşdülər ki, özləri onların taxt-tacının möhkəm dayağına çevrilmişdilər. VII əsrin başlanğıcında Orta Asiya özünün iqtisadi və mədəni tərəqqisinin zirvəsində idi — ticarət, əkinçilik və sənətkarlıq görünməmiş sürətlə inkişaf edirdi. Çindən Bizansa axıb gedən ipəyin müəyyən hissəsi ağır qızıl xəlitələri şəklində Buxarada, Səmərqənddə, Çaçada (Daşkənddə), Kaşqarda, Kuçda və Turfanda qalırdı. Həmin

qızıl xəlitələrindən kəndlilərin və tacirlərin qadınları üçün zinət şeyləri hazırlanırdı. Lakin bütün bu maddi rifah Soqdiananın türkyut xanlarına itaət etməsinin nəticəsi idi.

Nə qədər qəribə görünsə də, Orta Asiya əyalətlərinin mədəni yüksəlişi siyasi şüurun həddindən artıq aşağı olması ilə uzlaşırdı. VII əsrdə Soqdiana kiçik knyazlıqlara parçalanmışdı. Birləşməyə böyük zərurət olmasına baxmayaraq bu birliyə nail ola biləcək qüvvələr yox idi. Ticarət karvanlarının, becərilmiş bağların, sənətkar emalatxanalarının və şəhərətrafı malikanələrin təhlükəsizliyini isə yalnız siyasi birlik təmin edə bilərdi. Aşina xanları ölkə üçün zəruri olan sülhü təmin edir və təbəələrinin daxili işlərinə qarışmırdılar. Soqdiana şəhərləri özlərinin tam muxtariyyətini saxlayır və yalnız ticarətdən gələn hədsiz qazancın bir hissəsini xərac şəklində türkyut xanlarına verirdi.

Soqdiyalılar xaqanlığın siyasi həyatında olduqca fəal iştirak edirdilər. Karvan ticarətinin inkişafına göstərdikləri maraq onların davranış tərzini müəyyənləşdirirdi. Şimaldakı dulu köçəriləri ipək ticarətindən az gəlir götürürdülər, çünki onlar satış bazarlarından və düşərgə nöqtələrindən uzaq idilər. Bəzən onlar Cunqar darvazalarından keçib gedən karvanları soyub-talaya bilirdilər, lakin bu daimi gəlir mənbəyi ola bilməzdi. Həm də nəzərə almaq lazımdır ki, karvanlar çox vaxt təhlükəli yerlərdən — Kuçidən Auliya Ataya aparan yolla dolanıb keçirdilər. Fərqano və Soqdiananın yaxınlığındakı cənub köçəriləri — nuşibilər isə karvanları daima öz ərazilərindən buraxırdılar, odur ki, karvanlara hücum etməyin onlar üçün heç bir mənası yox idi. Onlar karvanları ərazilərindən buraxdıqlarına, yolların təhlükəsizliyini təmin etdiklərinə, bələdçilər, ərzaq və yanacağa görə haqq alır və soqdiyalılarla birlikdə varlanırdılar. Ümumi mənafe Soqdiya tacirlərini nuşibi tayfa ittifaqının və onlara arxalanan Aşina xanlarının müttəfiqlərinə çevirmişdi.

Bu bir-biri ilə mübarizə aparan partiyaların qüvvələri arasında tənasüb yaradırdı. Duluların arxasında müasir Qazaxıstanın düzənlikləri dayanmasına və həmin düzənliklərdə cəsur və qorxmaz əhalinin yaşamasına baxmayaraq onlar öz rəqiblərinə — dinc şəhərlilərdən kömək alan nuşibilərə qalib gələ bilmirdilər. Nuşibilər sərfəli coğrafi vəziyyətə malik idilər — həmin dövrdə Tyan-Şanın ətəklərini əldə saxlamaq türkyutlar üçün başlıca iqtisadi zərurət idi, çünki meşəlik və bulaqlarla zəngin olan bu yerlər onların əsas yaylaqları idi. Bundan əlavə Turfan köçəriləri ən zəruri mallarla — çörək və parça ilə təmin edirdi. Turfanda bu məhsullar o qədər çox idi ki, onları hətta Çinə də daşıyıb aparırdılar.

Ümumiyyətlə, Şərqi Türküstan əyalətlərindən yalnız ikisi — Turfan və Xotan nəzərəçarpacaq siyasi rol oynayırdı. Lakin böyük yoldan kənarda, Təklə-Məkan səhrasının qumları arxasındakı Xotan Tibetə və Hindistana daha çox meylli idi. Turfan vahəsi isə Çin və şimali köçərilərlə daha çox bağlı idi. Qərbi türkyut xanlarının siyasətini təhlil edərkən Turfan tarixinin burada Qaoçan knyazlığı mövcud olduğu dövrünü nəzərdən keçirmək çox gərəklidir.

Turfan vahəsi qədim zamanlardan etibarən Şərqi Türküstanın ən böyük mədəni mərkəzlərindən biri idi. Çinlilər bu ərazi uğrunda hunlarla amansız mübarizə aparmış, qalib gəldikdən sonra orada Qaoçan-ley adlı hərbi müstəmləkə salmışdılar. Xan sülaləsinin süqutundan sonra başlanan qarmaqarışıqlıq dövründə Çin Şərqi Türküstanı itirdi. Lakin çinlilərin böyük əksəriyyəti Turfanın məhsuldar torpaqlarında məskunlaşmışdılar. Bir-birinin ardınca jujanlara, qaoqyuytslara tabe olan, 590-cı ildə isə türkyutların əlinə keçən Qaoçan, təbiidir ki, heç vaxt tam müstəqillik qazana bilməmişdi. Lakin bu fəthlər yerli sülalənin hakimiyyətinin ləğvi deyildi. Türkyutlar yalnız qaoçanları itaət əlaməti olaraq yalnız türkyut adət-ənənələrini və geyimini götürməyə məcbur etmişdilər. Bütün bu müddət ərzində Çində çinpərəst və fərdi partiyalar bir-biri ilə mübarizə aparırdılar. Həm də fərdiyətçilər öz mübarizələrində köçərilərə arxalanırdı. VI əsrin sonlarında Qaoçanın əhəmiyyəti o qədər artdı ki, türkyut xanı öz qızı ilə Qaoçan knyazının nigahına razılıq verməli oldu. Qaoçanın hakim (yeri gəlmişkən deyək ki, onun anası türkyut xanının qızı idi) fərsiz Janqar Kimin xanın hakimiyyəti dövründə türkyutların zəifliyindən istifadə edərək üzünü Çinə tərəf çevirdi. 609-cu ildə o, imperator Yan-dinin yanına getdi. Burada Çin hökmdarı onu imperator sarayından olan knyaz qızı ilə evləndirdi.

Yuxarıda deyilənlərə yekun vuraraq göstərmək olar ki, Aşina nəslinin qərb budağının vəziyyəti fövqəladə dərəcədə ağır idi. Soqdiya tacirləri ilə ənənəvi ittifaq təbii olaraq İranla düşmənçiliyə gətirib çıxardı. Qaoçan türkyutlarla Çin arasında nifaq mənbəyinə çevrildi. Qərb xəzərlərə bel bağlamaq olmazdı, şərqdə telelər isə düşmən mövqeyində dayanmışdılar. Nəhayət, sülalənin əsas dayaq nöqtəsi — dulu və nuşibi tayfa ittifaqlarının bəyləri onun hakimiyyətinin zəifləməsinə çalışırdılar. Çünki bu şəraitdə onlar maksimum müstəqillik əldə edirdilər. Həmin meylin həyata keçirilməsi əslində anarxiyaya gətirib çıxara bilərdi, yalnız çox güclü və istedadlı xan mərkəzi hakimiyyətin nüfuzunu qorumaq iqtidarında idi. Belə xanlara isə o qədər də tez-tez təsadüf edilmirdi.

**Dulunun hakimliyi. Çulo-xan Taman.** 604-cü il qərbi türkyut xaqanlığının tam tənəzzül ili idi. Böyük Qara Çurin Böqyü xan xəbərsiz itkin düşdü, onun oğlu Nili xan həlak oldu. Nili xanın qardaşı, Bası (Poşi) təkin ləqəbi ilə məşhur olan və taxt-tacın qanuni varisi sayılan şahzadənin Çində dustaq saxlandığı aşkara çıxdı. Qanuni ardıcıllığın ziddinə və Çaça hakimi Şequyun ziyanına olaraq taxta Niqyu Çulo xan titulu ilə Nili xanın oğlu Tamam çıxarıldı. Yeni xan özünün tacqoyma mərasimində çətin ki, yeriyə bilirdi, o, atasının ölümündən az əvvəl doğulmuşdu. Ortaya belə bir sual çıxır; hansı partiya onun xan taxtına çıxmasına nail olmuşdu? Xan düşərgəsinin coğrafi yeri — «keçmiş Usun torpağı», yəni İli çayının vadisi göstərir ki, hakimiyyət dulu tayfa ittifaqının əlinə keçmişdi. Onlar xan hakimiyyətini bu hakimiyyətin parçalanması yolu ilə məhdudlaşdırmağa çalışırdılar, başqa sözlə desək, qərbdə və şərqdə canişinlər «kiçik xan» titulu almış, məmurlar ierarxiyasına isə daha iki rütbə — dövlət işlərini

idarə edən Sıfayan və Xunda rütbələri əlavə olunmuşdu. Azyaşlı xan öz vassallarının əlində oyuncağa çevrilmişdi.

Dini islahat bundan az əhəmiyyət kəsb etmirdi. Türkyut xanı yuxarıda deyildiyi kimi, yalnız rəhbər deyil, həm də ölkənin birinci ruhanisi idi və ildə iki dəfə əcdadlara və səma ruhuna qurban verirdi. Qərb xaqanlığında bəylər xanı bu mühüm vəzifədən məhrum etdilər və indi qurban vermək üçün müqəddəs yerlərə yüksək rütbəli məmurlardan biri gedirdi. Bu yalnız xanın özünün deyil, həm də onun həmtayfaları olan türkyutların əhəmiyyətini heçə endirirdi. Bu şəraitdə türkyutlar dulu bəylərinin başçılıq etdikləri hökumətə müxalifətdə dayanmalı olurdular və istər-istəməz nuşibi bəyləri və Soqdiya vahələrinin sahibləri ilə ittifaqa meyl edirdilər. Soqdiya hakimləri isə böyük karvan yolunda təhlükəsizliyi təmin edən və ipək gətirilməsinə yardım göstərən hər bir şəxsi maliyyə vəsaiti ilə təmin etməyə hazır idilər. Lakin türkyutlar yalnız Aşina nəslindən olan xanın xidmətində dayanmaq, nuşibilər isə hakimiyyəti yalnız onlara rəğbətlə yanaşan adama təslim etmək istəyirdilər. Bütün bu tələblərin hamısına cavab verən namizəd tapıldı — o, Qara Çurinin nəvəsi, kiçik Çaç knyazlığı ilə kifayətlənməyə məcbur olmuş knyaz Şequy idi. Onun yaylaq yeri olan Minbulaq Talas çayından cənubda, nuşibilərin torpağında yerləşirdi. Aydındır ki, Şequy nuşibilərə mehriban qonşuluq münasibətləri saxlayırdı.

**Nuşibilərin qələbəsi. Şequy xan.** Dulu ittifaqındakı nəsillərin ağsaqqallarından təşkil olunan və Çulo xan Tamanın adından ölkəni idarə edən hökumət heç nəyə yaramadığını nümayiş etdirdi. Şərq vilayətləri özlərinin müstəqilliyini elan etdilər, duluslular və telelərin soyğunçuluğu karvan ticarətinə mane olurdu. Çinlə sülh bağlamaq naminə verilmiş qurbanların hədər getdiyi meydana çıxdı. Ölkənin daxilindəki vəziyyət də getdikcə təhlükəli xarakter alırdı. Hökumətin köməksizliyi Soqdiya tacirlərini Çinlə bilavasitə yaxınlaşmağa məcbur edirdi. 608-ci ildə Çinlə ittifaq bağlamağı təklif edən Turfanın ardınca digər Orta Asiya əyalətləri — An (Buxara), Bokan (Fərqanə), Şi, Mi (Maymurq), Tsao, Xe, Unaqe, Mu, Kan (Səmərqənd) eyni təklifi irəli sürdülər. Onların ardınca 610-cu ildə Kuça və Qibin də elçilərlə birlikdə Çinə hədiyyələr göndərdilər. Nəhayət, Şequyun da səfirliyi gəlib çıxdı. O, ittifaqı nigah vasitəsi ilə möhkəmləndirməyə can atırdı. Çin hökuməti bu vəziyyəti Çulo xana təsir göstərmək üçün ən faydalı məqam hesab etdi. Gəlin əvəzinə Şequyun böyük xan elan edilməsi haqqında fərman göndərildi. Həmin fərmanla birlikdə ağ ləkəli bambuk ox da göndərilmişdi. Hədiyyənin rəmzi mənası belə idi: «bu ox neçə sürətlə uçursa, işlər də elə tez getsin». Dulu tayfası səfirliyi tutub saxladı və oxu ondan aldı. Lakin səfir özü «yalan söyləmək» yolu ilə azadlığa çıxdı və danışıqların nəticəsi haqqında Şequya xəbər çatdırdı. Şequy dərhal Tamanın üzərinə yürüş edib onun qoşunlarını məğlubiyyətə uğratdı. Taman şərqə qaçdı, lakin yolda soyulub təqib edildiyindən «özünü çinlilərə təslim etdi. Onun tərəfdarları üç kiçik ordaya parçalandılar (612-ci il).

Tamanın aqibəti kədərli oldu. 618-ci ildə, sülalə dəyişikliyindən sonra şərqi türkyutlar çinlilərdən öz qəddar düşmənlərinin qanını tələb etməyə başladılar. Dövlət müşavirləri bir nəfər türkyutdan ötəri konfliktə girməyi lüzumsuz saydılar və imperatoru Tamanı qurban verməyə razı saldılar. Bədbəxti tam sərxoş olana qədər içirdib türkyut səfirini onun yanına buraxdılar. Səfir öz əli ilə Tamanı qılıncla doğradı. Qoşun və köçərilər arasında yeni sülaləni nüfuzdan salmamaq üçün qətl gizli icra olundu. Çünki qoşun da, köçərilər də xəyanətkarlığı bağışlamırdılar.

612-ci il çevrilişi dulu ağsaqqallarının ümumi dil tapa bilməməsi nəticəsində meydana çıxmış siyasi gərginliyi tamamilə aradan qaldırdı. Soqdiananın və Tarim hövzəsinin bütün knyazlıqları Qərbi türkyut xanının hakimiyyəti altına qayıtdılar. Yalnız Qaoçan istisna təşkil edirdi; çünki coğrafi vəziyyətinə görə o, Cunqariyanın tele tayfaları ilə daha çox bağlı idi. Bu sonuncular isə varlı vadidən köçərilər üçün zəruri olan əkinçilik və sənətkarlıq məhsulları alırdılar. Digər tərəfdən, Qaoçandan keçən yol duluların köç məskənlərinə gedirdi və qaoçanlılar yola görə aldıqları gömrük haqqından da böyük qazanc götürürdülər.

Bunun da nəticəsində 612-ci ildə Qaoçan knyazı ticarətdəki rəqibləri qaraşarlıların, kuçaslıların və soqdiyalıların himayəçisi Şequy xana deyil, Suy sülaləsinə tabe olmağı daha üstün tutdu. Şequy xan kiçik ərazi itkisi ilə asanlıqla barışdı, çünki çinlilər hətta 609-cu ildə imperator Yan-dinin hakimiyyəti altında olmuş vadilər üzərindəki hakimiyyəti də ona həvalə etdilər. Şequy xanın güclənməsi müəyyən mənada hətta imperatora sərfəli idi; çünki o, artıq Qərb xaqanlığına marağını itirmişdi və artıq bütün diqqətini Koreyanın fəthinə yönəltmişdi. İmperatorun sonuncu ağılsızlığı hər iki xalqa hədsiz qan bahasına, onun özünə isə taxt-tacı və həyatı hesabına başa gəldi. Lakin Koreya müharibəsini biz başqa məsələ ilə əlaqədar nəzərdən keçirəcəyik. İndi isə Qərb xaqanlığının daxili vəziyyətinin təhlilinə qayıtmaq vaxtıdır.

**Nuşibi hakimliyi. Tun-cabqu-xan.** Şequyun qələbəsi Qara Çurin Türkün həlak olmasından əvvəlki vəziyyətin bərpası demək idi. Xaqanlığın daxili vəziyyəti möhkəmləndi, xarici çətinlikləri azaldı. Ən kəskin problem — Cunqariyada müstəqil Tele konfederasiyasının mövcudluğu məsələsi öz-özlüyündə həll olundu, 619-cu ildə hər iki tele başçısı — kibis Moxe-xan Qelen və seyanto Ьİşbar (İşibo) titullarından imtina edərək könüllü surətdə Tun-cabqu-xanın itaətinə keçdilər. Bu loyallıq aktı bir daha sübut edir ki, müharibənin əsil səbəbkarları telelər və Aşina xanları deyil, qonşuları ilə yola getməyi bacarmayan və bunu istəməyən inadkar dulu tayfaları idi. Dulular qədim hunların hərbi döyüşkənlik keyfiyyətlərini irsən qəbul etmişdilər, onlar kimi «at belində vuruşmağı bacarırdılar». Lakin bir zamanlar hunlara «xalqlar üzərində ağalıq etməyə» imkan verən amil indi qüvvətli müqavimətlə üzləşmişdi. VII əsrdə artıq tacir bahadırla yanaşı dayanırdı və səhra pəhləvanlarını qovub gözdən itirtmək üçün başına istənilən qədər tərəfdarlar

toplaya bilərdi. Tele ağsaqqalları bunu vaxtında başa düşdülər və itaətkarlıq sayəsində sakit həyatlarını təmin etdilər. Telelər yaxşı bilirdilər ki, Aşina xanlarının onların qoyunlarında gözü yoxdur; çünki hər il səhradan köçən karvanlar xanların xəzinəsini qızıl və ipək parça ilə doldururdu.

Karvan yolunun həmin dövrə qədərki əhəmiyyəti «Suyşu»nun coğrafi bölməsinə düşən şəhərlərin seçilməsi və onların yerləşdirilmə ardıcıllığı ilə nəzərə çarpdırılır. Əsas yol Tyan-Şanın şimalından keçirdi, buna görə də Turfan vahəsindəki Qaoçan knyazlığı ilk məntəqə kimi göstərilmişdir. İkinci düşərgə məntəqəsi Soqdiyanın başlıca və ən varlı şəhəri olan Kan — yəni indiki Səmərqənd idi. Soqd hakiminin arvadı türkyut şahzadəsi — Qara Çurin Türkün qızı idi. Bu şəhərdə türkyut yazısı və türkyut qanunları hökm sürürdü. Səmərqənd Aşina xanlarına tabelikdən çox şey qazanan və uzun müddət bu xanların dayağı olan azsaylı şəhərlərdən biri idi. Çin coğrafiyaşünası xüsusi qeyd edir ki, Səmərqənd sakinləri «ticarətdə mahirdirlər... Əksər xaricilər ticarət məqsədi ilə bu şəhərə gəlirlər».

Növbəti məntəqə An, yəni Buxara idi. Burada türkyut xanından asılılıq qeyd olunmur. Lakin buna baxmayaraq Buxara xaqanlığın tərkibinə daxil idi. Burada bölgə yerləşirdi, həmin bölgəyə isə şad başçılıq edirdi. Müqayisə üçün deyək ki, Çaçda (Daşkənd) hakimiyyət başında dayanan şəxsin rütbəsi vur-tut tudun idi. Soqdiananın digər şəhərlərindən fərqli olaraq Çaç Şeduya müqavimət göstərirdi, lakin o itaətə gətirilmiş və bilavasitə Aşina nəslindən olan şahzadəyə tabe etdirilmişdi.

Sonra eyni qayda ilə ikinci yol göstərilmişdir: Qaraşar, Kuça, Qaşqar və Xotan, sonra Fərqanə, Toxaristan və İdan, yəni eftalitlər ölkəsi. Bu yol Tyan-Şanın cənub tərəfindən keçir və Çinlə Hindistanı birləşdirirdi. Yolun keçdiyi əyalətlər qərbi türkyut xanının tabeliyində idi. Həm də Amu-Dəryanın cənub tərəfindəki eftalitlərin itaətə gətirilməsi mənbədə xüsusi qeyd edilmişdir. Orta Asiyanın mərkəzindəki knyazlıqlar — Mi-Maymurq, Şı-Keş, Tsao-Usruşana, Xe-Kuşaniya (Katta — kurqan) mətndə bir-birinin ardınca deyil, topa halında göstərilmişdir. Çünki həmin knyazlıqlar vahid mədəni ərazidə yerləşirdi. Onların ardınca ayrıca olaraq Unaqe — Mərv, Mu — Amul və Bosı-İran qruplaşdırılmışdır. Bu ərazilər türkyut xanına tabe deyildi.

Lakin Amu-Dərya yalnız orta və aşağı axarında Qərbi türkyut xaqanlığının sərhəddi idi. Çayın yuxarılarında türkyutlar o biri sahilə keçmiş və Əfqanıstan vasitəsi ilə Şimal — Qərbi Hindistana nüfuz etmişdilər. Bu ölkələrin fəthi ilə bağlı təfərrüatlı məlumatlar yoxdur, lakin türkyutların ciddi çətinliklərlə qarşılaşdıqları aydındır. Bu aşağıdakı yeganə, lakin çoxmənalı ifadədən də aydınlaşır: «Tun-cabqu-xan igid və ehtiyatlı idi. O, döyüşə girəndə həmişə qələbə çalırdı». Bu qələbələr ona İranın bütün şərq sərhəddini öz əyalətləri ilə əhatə etməyə imkan vermişdi. Qərbdə Bizansın inadlı müqavimətı ilə üzləşən şahənşah Xosroy Pərviz türkyut xanının qüvvətlənməsinə mane olmağa güc tapmırdı. Hələ bu da azmış

kimi şahənşahın şərq sərhədlərinin mühafizəsini həvalə etdiyi erməni naxararları türkyutlara satılmış və onların vasitəsi ilə Xəzər dənizi boyunca Qafqaza göndərilmişdi. Ermənilər burada farslara qarşı vuruşurdular. İranın şərq sərhədi 620-ci ildən 630-cu ilə qədər müdafiəsiz idi. Lakin buna baxmayaraq Tun-cabqu-xan İrana şərqdən hücum etmədi. Lakin həmin şərait qətiyyən xanın sülhsevərliyinə dəlalət etmir. Eyni dövrdə Tun-cabqu-xan Qafqazda geniş hərbi fəaliyyət göstərirdi, lakin Orta Asiyada pis-yaxşı olsa da, sülh şəraiti saxlanırdı.

Bu qəribəlik nuşibilərin qələbəsi nəticəsində Qərb xaqanlığında yaranmış ictimai qüvvələr nisbəti ilə izah oluna bilər. Tacirlər ticarətlə məşğul olmaq istəyirdilər. Düşmən farsları ipəklə təchiz etmək onları qətiyyən karıxdırmırdı, çünki qələbə perspektivi uzaq və şübhəli, ticarətdən gələn qazanc isə nəqd idi. Digər tərəfdən, Bəhram Çubinin yürüşü və Avazanın 589-cu ildə darmadağın edilməsi aydın göstərdi ki, farslar hələ əks-zərbə endirməyə qabildirlər və kim bilir, onlar yenidən Bəlxi özlərinə qaytararaq, Hindistana gedən yolu nəzarət altına ala bilərlər. Buna görə də bir tərəfdən xanı İranla müharibəyə səsləyən tacirlər, o biri tərəfdən onu qoşunlarını Xəzərin o tayına göndərməyə, Ermənistanı və Gürcüstanı dağıntılara məruz qoymağa vadar etdilər, özləri isə dəbdəbəli saraylarını, bağlarını və dəvə sürülərini tam təhlükəsizlikdə saxladılar.

VII əsrin 20-ci illərində Cənub — Şərqi Avropanın düzənlikləri türkyutların hakimiyyəti altında idi. Xanın canişini «cabqu xaqan» (cəbuxaqan) titulu daşıyan kiçik qardaşı idi. Onun oğlu «şad» titulu ilə öz yanında sərkərdə idi. «Aqvan tarixində» o, «şimal hökmdarının qardaşı oğlu» adlandırılmışdır. Deməli, «cebuxaqan» şimal hökmdarının qardaşı idi.

Həmin dövrdə Qərbi türkyut dövlətinin xanı suveren hökmdar olan Tun Cabqu xan idi. Güman ki, məhz o, «şimal hökmdarı» kimi çıxış etmişdi, üstəlik Cabqu xanla «şimal hökmdarının» vəfat tarixləri də eynidir (630-cu il). Onun böyük qardaşları 626-cı ilə qədər artıq ölmüşdülər, yanında Moxo-şad adında kiçik qardaşı yaşayırdı. 618—626-cı illər arasında Moxe-şad diplomatik missiya ilə Çinə getmişdi. Bu məlumatdan başqa Çin annalları onun haqqında başqa heç bir şey yazmırlar. Daha çox ehtimal olunan budur ki, Moxe-şad yabqu titulu aldıqdan sonra, Qərb vilayətlərinin hakimi və xandan sonra ikinci adam kimi tanınmışdı. Əslində də o, xanın ən yaxın qohumu idi. Bəs onun üç oğlundan hansı «Aqvan tarixi»ndə «şad» adı altında çıxış edir? Moxe-şadın oğullarından böyüyü Nişu Qyana şad Buxarada bölgə knyazı idi. İkincinin - Tonqa şadın bölgəsinin harada olduğu bilinmir, lakin o, uzun müddət Qaraşar hakimi ilə dostluq etdiyindən düşünmək olar ki, onların əyalətləri yanaşı idi, başqa sözlə desək, Tonqa şadın bölgəsi də Orta Asiyada yerləşirdi. Üçüncü qardaşın — Buri şadın «şimal hökmdarı» ilə yaxın olduğunu güman etməyə daha çox əsas var. Çünki bu titulu qərbin bölgə knyazları (məsələn, Tobo xanın qardaşı oğlu) daşıyırdılar.

Çin xronikaları onun haqqında heç bir bioqrafik məlumat vermirlər. Bu da dolayısı yolla Buri şadın bölgəsinin qərbdə, çinli müəlliflərin ənənəvi maraq dairəsindən uzaqda olduğunu ehtimal etməyə əsas verir.

VII əsrin başlanğıcında Ön Qafqazda iki xalq — Don çayına qədər Kubanın sağ sahilində yaşayan və tərkiblərində uturqur, unnoqundur, onoqur və başqa tayfaları birləşdirən bolqarlar, habelə Volqa və Terekin aşağı axınlarda yaşayan xəzərlər məskunlaşmışdılar. 589 və 626—630-cu illərin müharibələrində xəzərlər öz telelərini Aşina xanları ilə elə sıx bağlamışdılar ki, yunan və fars müəllifləri «xəzər» və «türk» anlayışlarını sinonim kimi işlədirdilər. Lakin bu xalqlar o qədər müxtəlif idi ki, Şavann onları eyniləşdirməyin qeyri-mümkünlüyü barəsində oxucunu xüsusi xəbərdar edir. Xəzərləri hətta çinlilər də tanıyırdılar, «Tanşu»da Bosının (İran) və Folinin (Rum — Bizans) şimal qonşusu «kesaların — dulqas (türkyut) nəsli» adlandırılır. Çinlilər bu adı kidanlar, yaxud telelər kimi məcburi deyil, könüllü surətdə itaətə gələn xalqlara verirdilər. İranın köhnə düşmənləri olan xəzərlər nuşibi xanlarının siyasətinə bütün qüvvə və imkanları ilə tərəfdar çıxırdılar və buradan da aydınlaşır ki, onların ehtimadı rəqibləri yalnız bolqarlar ola bilərdilər. Bu fakt mənbələrin dolayı yolla verdikləri məlumatlar vasitəsi ilə də təsdiq edilir.

Bolqarların Zaqafqaziya yürüşlərində iştirak etmələri olduqca əhəmiyyətli faktdır. Əgər avarların bütün kuturqur torpaqlarını, yəni Don çayına qədər Qara dəniz boyu düzənlikləri nəzarət altında saxladıqlarını yada salsaq, bunun səbəbləri aydınlaşar. Türkyut cabquxanı bu sərhədləri müdafiəsiz qoysaydı, son dərəcə sadəlövh adam təsiri bağışlayardı. Göründüyü kimi, həmin sərhədlərin müdafiəsi bolqarlara həvalə olunmuşdu. Hadisələrin sonrakı gedişi də bu faktı təsdiq edir. Lakin bir tərəfdən üzərlərinə belə ağır və təhlükəli vəzifə qoyulması, o biri tərəfdən isə bol qənimət vəd edən yürüşlərdən uzaqlaşdırılmaları bolqarları nuşibi qruplaşmasına yaxınlaşdırmaya bilməzdi. Doğrudan da sonrakı hadisələrdə biz onların dulunun tərəfdarları kimi çıxış etdiklərini görürük.

Sabirlərin qədim vətəni — müasir Qərbi Qazaxıstan çölləri də Qərb xaqanlığının tərkibinə daxil idi. Burada bölgə knyazı Tun cabqu xanın əmisi idi. O, «Bahadır» titulu daşıyır və kiçik xaqan hesab olunurdu. Bu ölkə VII əsrdə artıq «Sibir» adlanırdı, çünki sonralar «Bahadır» «Kyüülük Sibir xan» titulunu qəbul etmişdi. Öz meylləri etibarı ilə Sibir tayfaları da bolqarlar kimi dulu qruplaşmasına yaxın idi.

**Ordanın təşkilati quruluşu.** Qərbi türkyut xaqanlığından bəhs edən Çin və yunan — erməni müəllifləri bütün diqqətlərini eldə hakim mövqe tutan türkyut ordası deyil, həmin elin tərkibindəki tayfalar üzərində cəmləşdirərək hadisələrin zahiri təsviri ilə kifayətlənmişlər. Xoşbəxtlikdən P. Pyelonun ekspedisiyası zamanı VIII əsrin ikinci yarısına aid, beş xor (toqonlu) tərəfindən tərtib olunan və Tibet dilinə tərcümə edilən coğrafi traktat aşkara çıxarılmışdır. Bu sənəd «Şimalda məskunlaşmış hökmdarlıqlar və tayfalar» adı altında birləşdirilmiş beş məruzədən

ibarətdir. Onların dördündə həmin dövrün etnosiyasi vəziyyəti, birində (birincisində) isə tarixi şərait təsvir olunur. Həmin tarixin Tun — cabqunun hakimiyyətinin sonu ilə eyni vaxta düşdüyünü dəqiq şəkildə müəyyənləşdirmək mümkündür. Bu məruzədə adları çəkilən tayfaların tərkibindən də aydınlaşır.

Bu sənədin dərki bir sıra gözlənilməz çətinliklərlə bağlıdır. İlk növbədə həmin sənədin tərtib edildiyi dil çox güman ki, cənubi monqol dili terminologiya baxımından güclü Çin təsirinə məruz qalmışdır. Lakin məruzələrin müəllifləri Çin coğrafi ədəbiyyatını yaxşı bilən savadlı adamlar olmuşlar. Ona görə də tayfa adları Çin dili üçün səciyyəvi olan ənənəvi fonetik təhrifi özündə əks etdirir. Nəhayət, Tibet dilinə tərcümə mütərcimin şifahi şəkildə eşitdiyi tayfa adlarının daha da təhrif olunmasına gətirib çıxarmışdır. Lakin buna baxmayaraq diqqətli tarixi tənqid və elmin topladığı materiallar məcmusu ilə müqayisə nəticəsində sənədin mətni oxuna bilər. Tibet mətninin təhlilə cəlb edilən dörd sətirində on iki (əslində on bir) tayfa adı vardır. Göstərilmişdir ki, «bu tayfaların hökmdarı yoxdur və onların hər biri 6 min döyüşçü çıxara bilər» hökmdarın olmamasını (aydın məsələdir ki, hər bir tayfa üçün ayrılıqda) tayfaların bilavasitə ali xana tabe olması və xaqanlığın tərkibindəki digər tayfalardan fərqli şəkildə özünüidarə hüquqlarından məhrum edilmək kimi başa düşmək mümkündür. Əgər bu həqiqətə uyğundursa, onda həmin tayfalar tolis tarduş sisteminə — Qərbi türkyut əlinin iki cinahına daxil olmalı idilər. Lakin kiçik düzəlişlərlə də olsa, bu həqiqətən də belədir.

Tayfalar sadalanma prosesində aşağıdakı qruplara bölünür: 1) «Azma Muğan çarın tayfası» — bu Aşina nəslindəndir; 2) «xali», bu tayfa adı «Fuli» sözü ilə türk sözü olan «Buri»nin (qurd) təhrif edilmiş Çin variantı ilə müqayisə edilir, yəni türkyut xanlarının qvardiyası nəzərdə tutulur; 3) «A-sa-ste» — tanınmış türk nəsli olan Aşidenin adı; 4) «Sar» — şübhəsiz ki, bu «sir» olmalıdır, başqa sözlə desək, seyanto nəsli tayfasının aparıcı nəsli. Siyahı «duli» sözü ilə başa çatır. Bu ad altında «tolis» terminin nəzərdə tutulduğunu görmək o qədər də çətin deyil.

Daha sonra sadalama qərbdən şərqə doğru gedir; 5) «Lo-lad» — monqol cəm şəkilçisi ilə bildirilən alanlar; bu aydındır, çünki məruzəni Toqon sakini yazmışdı; 6) «Parsil» — Xəzər dənizinin şimal-qərb sahilində məskunlaşmış bolqar tayfası olan barsil; 7) «Nqi-ke», Tamanın titulu olan «Niqyu-Çulo xan»la müqayisə et; «niqyu» «qədim usun torpağında» — yəni Balxaş gölünün sahillərində məskunlaşan türklərin tayfa adıdır; 8) suni — Cunqariyada, Şərq və Qərb xaqanlıqlarının sərhəddində yaşayan türk tayfası. Siyahı ekvivalentini tapmaq qeyri-mümkün olan «colto» (9) tayfasının adı ilə tamamlanır. Bizim fikrimizcə, bu ad altında təhrifə uğramış «tarduş» termini — Qərb xaqanlığını təşkil edən bütün sadalanan tayfaların ümumi ad göstəricisi nəzərdə tutulmuşdur. Ehtimal ki, «tolis — tarduş» sisteminin anaxronizmə çevrildiyi dövrdə yaşayan tibet tərcüməçisi məsələdən xəbərdar olmadığı üçün onu ayrıca tayfa adı kimi vermişdir.

Bundan sonra gələn üç tayfa: yan-ti, xe-bdal (eftalitlər) və qarrqapur gəlir və ortada verilən tayfa adına əsaslansaq, onların Orta Asiyada, həm də regionun

VII əsrin 20-ci illərində Tun-cabqu-xaqan tərəfindən xaqanlığa birləşdirilmiş hissəsində yaşadıqlarını göstərmək olar. Həmin dövrdə burada kuşanların varisləri yaşayırdılar və onların etnik baxımdan sarmatlara mənsubluğunu sübuta yetirilmiş hesab etmək mümkündür. Burada sarmat tayfalarının qədim Çin adları — «yan» və «yantsay» yada düşür. Çinşünaslar həmin adlarda «sarmat» termininin sinonimini görürlər. Biz artıq bilirik ki, kuşanların nəsilləri 603-cü ildə türkyutlarla ittifaqda İrana qarşı çıxmışdılar, aradan 20 il keçəndən sonra onların torpaqları xüsusi müqavimətə rast gəlmədən xaqanlığa birləşdirilmişdi. VII—XI əsrlərdə Qurda hakimiyyət başında olmuş məşhur Suri nəsli Daxakın — yəni çöllülərin varisləri sayılırdılar. Bizim müəllifin Çin ədəbi dumanlı xatirələrinə bələd olduğunu nəzərə alsaq, böyük bir ehtimalla onun Pəncin çöl sahilinin sakinlərini öz qədim adları ilə adlandırdığını və bununla da böyük erudisiya nümayiş etdirdiyini deyə bilərik.

Qar-rqa-pur adı iki sözdən ibarətdir: «pur» — oğul (farsca) və Qar-rqa-qarğa (türkcə). Bu şah Hürmüzdün dövründəki saray jarqonunda Bəhram Çubinin ləqəbi olan «çubin» - «qarğa» (farsca) sözünün türkcəyə kalkasıdır. Bəhram həlak olandan sonra onun nəsli Bəlxdə qaldı, VII əsrdə Bəlx Qərbi türkyut xaqanlığının ərazisinə daxil idi. Bəhramın varislərini Samanilərin əcdadları hesab edirlər. Ehtimal ki, müasirləri türkyutlar arasında imtiyazlı şəraitdə yaşayan bir ovuc fars mühacirinə ayrıca tayfa kimi yanaşır və onları türkyut elinin tərkib hissəsi sayırdılar.*

Türkyutlardan irqinə, dil və mədəniyyətlərinə görə fərqlənən və «tolis — tarduş» sisteminə daxil olmayan bu üç tayfanın türk tayfalarının elə bərabər şəkildə sadalanması göstərir ki, onlar ordanın tərkibinə bərabərhüquqlu üzvlər kimi daxil edilmişdilər. Həmin tayfaların loyal münasibəti nəticəsində türkyutlar Hindiquşun ətəklərində öz mövqelərini saxlaya bilmişdilər. Eləcə də barsillərin və türkyut mühitinə daxil olan alanların bir hissəsinin köməyi sayəsində onlar Qafqaz dağlarının ətəklərində də möhkəmlənə bilmişdilər. İrqi prinsip qədim türklərin mədəniyyəti üçün yad idi.

**Xanın düşərgəsində.** Tun-cabqu xan öz düşərgəsini Çiç vahəsindən şimalda, bol sulu yaşıl düzənlikdə salmışdı. Bura onun geniş ərazilərinin mərkəzi idi. Burada o, Şərq (Çin) və Qərb (Bizans) imperatorluqlarının səfirlərini qəbul edirdi. Lakin maraqlı və əhəmiyyətlidir ki, türkyut hökmdarı sarayının təsviri bizə diplomatların məlumatlarında deyil, xandan böyük diqqət və qayğı görmüş buddist rahiblərin qeydləri vasitəsilə gəlib çatmışdır. 626-cı ildə Hind vaizi Prabxakaramitra özünün on yoldaşı ilə xanın yanına gəlmiş, ordada tam qayda-

* VIII əsr Asiya tarixçilərinin «tayfa» anlayışını XX əsr etnoqraflarının başa düşdükləri mənada işlətdiklərini güman etmək kobud modernizasiya olardı. Asiyadakı hərbi demokratiya epoxasında mənşə, dil, təsərrüfatı idarəetmə üsulu, din deyil, yalnız mərkəzi hakimiyyətə münasibətdə tabelik nəzərə alınırdı və el sisteminə daxil olan hər hansı möhkəm birləşmiş kollektiv tayfaya bərabər tutulurdu.

qanun və nümunəvi nizam-intizamın şahidi olmuşdu. Xan qonaqlarla çox nəvazişlə söhbət etmiş, onlar düşərgədə qaldıqları müddət ərzində ehtiyacın nə olduğunu bilməmişdilər. Rahiblərə yalnız Çinə getməyə icazə verməmişdilər. Prabxakaramitranı Çinə xanın düşərgəsində tanış olduğu çinli diplomat dəvət etmişdi.

Bir neçə il sonra xanın düşərgəsinə başqa bir budda rahibi — çinli Syuan Tszan gəlmişdi. Xami vadisinə çatan kimi onu dərhal Kaqanstupa, yəni Bişbalığa dəvət etmişdilər. Yolda rahibi Turfan vadisinə də aparmışdılar; Qaoçanın hakimi də «müqəddəs adamı» öz yanında saxlamaq istəyirdi, lakin cəsur züvvar aclıq elan etmiş və bu vasitə ilə də səfərini davam etdirməyə, hərəkət sərbəstliyi qazanmağa nail olmuşdu. Yola düşərkən Syuan Tszan Qaoçanda Budda fəlsəfəsinə dair silsilə mühazirələr oxuyacağını vəd etmişdi. Lakin o, öz vədini həyata keçirə bilmədi. 614—645-ci illərdə rahib Çinə qayıdanda Qaoçan knyazlığı artıq mövcud deyildi.

İndi Tokmak şəhərinin yerləşdiyi ərazidə zəvvar ova çıxmış Tun-cabqu xanla görüşdü. Xanın gözəl atlarının çoxluğu Syuan Tszanı heyrətləndirmişdi. Xan yaşıl atlasdan xalat geyinmişdi, başı açıq idi, yalnız alnına nazik ipək lent bağlanmışdı. Həmin lent onun çiyninə tökülən uzun saçlarını saxlayırdı. Xanı ipək xalatlar geyinmiş iki yüz nəfər atlıdan ibarət məiyyət müşayiət edirdi. Onların saçları hörülmüşdü. Qalan döyüşçülər atların, yaxud dəvələrin belində idilər. Onlar xəz, yaxud kətan paltar geyinmiş, uzun cidalar və düz oxlarla silahlanmışdılar.

Bu mənzərə qərbi türkyut xanının zəngin və cah-cəlallı sarayının zahiri görünüşünü təsəvvür etməyə imkan verir. Təsvir olunan mənzərənin koloritində heç bir boz rəng yoxdur: atlas və ipək göz qamaşdırır, günəşin altında qumaş bərq vurur, xəzlərin xəfif parıltısı nəzəri cəlb edir, tumarlı, harın atlar oynaqlayır, dəvələr başlarını şəstlə tərpədirlər. Hər şeydə bir özünəməxsusluq və bayram əhvali-ruhiyyəsi duyulur. Hətta tayfa adət-ənənələri ilə ciddi şəkildə uyğunlaşdırılan saç formalarında da bu əhvali-ruhiyyənin izləri görünməkdədir. Bütün bunlarla birlikdə intellektə, ziyalıya ürək titrədən bir hörmət və ehtiram da vardır. Dilənçi rahibi qarşılayırlar, yedirib-içirdirlər, ona diqqətlə qulaq asırlar, nəhayət Hindistana getməsinə imkan yaradırlar. Rahib isə oradan müdriklik zərrələri ilə geri dönəcəyini vəd edir. Lakin bütün bu cah-cəlal və zənginlik alimin türkyutlarla vidalaşmasından sonra çox az davam etdi. O, düşərgəyə gələndə 630-cu ilin başlanğıcı idi, ilin sonunda isə fəlakət üz verdi.

## XIII f ə s i l

## TAN İMPERİYASININ YARANMASI

**Suy sülaləsi və türkyutlar.** Elə görünürdü ki, Suy sülaləsinin Şərqi türkyutlar üzərindəki hakimiyyəti birdəfəlik bərqərar olub. Janqar Kimin xan yalnız sərhədləri qorumurdu, həm də öz xalqının çinlilərə oxşaması üçün əlindən gələni edirdi. O, türkyutları Çinli paltarı geyməyə, ev tikməyə, taxıl səpməyə məcbur etməyə çalışırdı. O, özü çinlilərin tikdiyi Kinxo və Dinsyan şəhərciklərində yaşayırdı. Lakin Janqar xanın təbəələri öz keçə alaçıqlarında qalmağı daha üstün tuturdular. Yeganə arxasının imperator olduğunu yaxşı başa düşən xan ittifaqı özünə məlum olan yeganə üsulla — Çin şahzadəsinə evlənmək vasitəsi ilə möhkəmləndirməyə can atırdı. Bədbəxtlikdənmi, xoşbəxtlikdənmi onun birinci arvadı öldü və Janqar dərhal yenidən Çin sarayına üz tutdu. Yeni şahzadə xanım — İçjen onun yanına böyük təntənə və cah-cəlalla göndərildi. Sonradan məlum olduğu kimi, o, arvadlıq vəzifəsi ilə gizli xəfiyyə rolunu birlikdə ifa edirmiş. Çin hökuməti yenə də türkyutlardan ehtiyat etməyində qalırdı. Çinlilər xanın iradəsinin xalqın əhvali-ruhiyyəsini ifadə etmədiyini yaxşı başa düşürdülər.

607-ci ildə Yan-di xana və onun təzə arvadına dəbdəbəli paltarlar, qızıl bardaqlar və ipək parçalar hədiyyə etdi. Xanın oğlanlarına və əyanlara da bu cür hədiyyələr verildi. Lakin gətirilən bəxşişlər türkyutlara az göründüyündən onlar satmaq üçün dərhal çinlilərin yanına 3 min baş at qovub apardılar və xəzinədən 13 min dəst ipək aldılar. Atların müqabilində bu çox böyük qiymət idi, əslində, çinlilərin səxavətkarlığında üstüörtülü satınalma üsulu özünü göstərməkdə idi.

Əvəzində isə elə həmin 607-ci ildə Çin əhalisinə türkyutlarla birbaşa ticarət qadağan olundu. Bunun da nəticəsində türkyutlar artıq adət etdikləri mallardan məhrum oldular. Çin hökumətinin niyyəti çox sadə idi — etibarlılıqlarına hökumətin inandığı xan və knyazlar bütün bu mallarla öz tələbatlarından artıq təmin olunurdular. Güman edilirdi ki, bu malların artıqları sıravi döyüşçülərə xan və əyanların vasitəsilə çatdırılacaq, əvəzində isə onlar öz başçılarına sədaqətlə xidmət edəcəklər. Çünki sıravi döyüşçülər öz tələbatlarını azad bazarda ödəyəndə xan onları heç nə ilə öz tərəfinə çəkə bilmirdi. Xanın vasitəçiliyi olmadan bu döyüşçüləri Çinlə barışdırmağa isə heç cəhd göstərməyə də dəyməzdi. Bundan əlavə, Yan-di öz müttəfiqlərindən daldalanmağı daha üstün tutaraq hələ Bey-Tsi imperiyası zamanında başlanmış Böyük səddin istehkamlarının bərpasını davam etdirirdi.

Bu siyasət «xeyirxahlıq və zəiflik» adlanırdı. O, xan taxtında yalnız öz xalqının səylərini iflic vəziyyətinə salan hakimin olduğu dövr üçün müvəffəqiyyətli ola bilərdi. Janqar bu rola tam uyğun gəlirdi. Lakin o, 608-ci ilin payızında öldü və Yan-di onun oğlu şad Duqini xan təyin etdi. Bu taxt-tac vərəsəliyi haqqındakı türkyut qanununu birbaşa pozmaq idi. Lakin Yan-di

fikirləşirdi ki, artıq türkyutlarla istədiyi şəkildə davrana bilər. Duqi «Şibir xan» titulunu qəbul etdi və türkyut qanun-qaydalarına müvafiq şəkildə Çin məlakəsini — öz atasının dul qadınını arvadlığa götürdü. Artıq bu ilk addım göstərirdi ki, yeni xan zəif və qorxaq atasından daha çox hiyləgər və şöhrətpərəst babası Çuloxouya oxşayır.

Yeni xanın vəziyyəti olduqca mürəkkəb idi. Əvvəla o, atasının işə yarımaq siyasətini davam etdirə bilməzdi. Həm təbəələri bunun əleyhinə idilər, həm də xan özü onların antiçin əhvali-ruhiyyələrinə tərəfdar çıxırdı. Lakin digər tərəfdən xaqanlığın arxası təmin edilməmişdi. Qərbi türkyutlar barışmaz düşmənçilik mövqeyində dayanmışdılar, həm də Tamanın yerinə Şequyun taxta çıxması xaqanlıqlar arasındakı qarşılıqlı münasibətlərin xarakterini dəyişdirməmişdi. Köçəri təbəələr — uyğurlar, buqular, toqralar, bayırkular, kidanlar və tatablar ötən qarmaqarışıqlıq dövründə öz loyallıqdan əl çəkməyin onlar üçün necə asan olduğunu göstərmişdilər. Nəhayət, elə görünürdü ki, Çinin qüvvələri ilə mübarizə aparmaq qeyri-mümkündür. Lakin məhz orada elə bilavasitə türkyut azadlığının yeni şəfəqlərinə çevrilən hadisələr baş verdi.

**Yan-di.** Vey Çendən (VII əsr) tutmuş professor Şan Yueyə, (XX əsr) qədər bütün Çin tarixçiləri imperator Yan-dinin şəxsiyyətinə, xüsusən də onun fəaliyyətinə son dərəcə mənfi münasibət bəsləyirlər. Alimlər əsasən haqlıdırlar, lakin nəzərə almaq lazımdır ki, imperatorun nə şəxsiyyəti, nə də fəaliyyəti təsadüfi xarakter daşıyırdı. Yan-di onu taxta çıxaran sinfin ən ifratçı nümayəndəsi idi. Elə buna görə də həmin sinif imperatorun fərasətsizliyinə və səfehliyinə dözürdü. Quanlun qruplaşmasına daxil olan mülkədarlar ayrıca partiya yaratmışdılar. Əgər həmin partiyanın fəaliyyəti bizim günlərə təsadüf etsəydi, onu millətçi və xalq əleyhinə çalışan partiya adlandırardılar. Həmin partiya özünün bütün səylərini Xan epoxasının solğun parıltısının bərpasına yönəltmişdi. «Qərb ölkəsinin» xırda knyazlarının satın alınması və Koreya üzərinə yürüş də bu mənada aydınlaşır. Çünki həm birinci, həm də ikinci ölkə Xan imperiyası dövründə Çinin tabeliyində idi. VII əsrdə Koreyaya yeni xalqın köçürülməsinə ehtiyac yox idi; artıq Çinli əhalisi olmayan və buna görə də şərqi hücuma baza rolu oynaya bilməyəcək Lyadunu əldə saxlamaq lazım deyil, türkyut xaqanlıqları ilə ittifaq şəraitində Lobnor yaxınlığındakı kasıb vadiləri qorumağın mənası yoxdur və s. və i. a. Lakin «milli qürur» özünün tam şəkildə təmin olunmasını tələb edirdi. Buna görə də bir-birindən mənasız işlərə əl atılır, onların ağırlığını isə qulluqçular və vergi verənlər çəkirdilər.

Çoxmilyonlu Çin xalqının ayıq şüuru imperatorun və onun saray qaragüruhunun utopik məqsədləri naminə minlərlə adamın üzülüb əldən düşməsi və məhv olması ilə barışa bilmədi. Kütlələrin narazılığı artmaqda idi. Bu narazılıq hökumət xəbərçilərinin nəzərindən yayınmadı və imperatoru tədbirlər görməyə məcbur etdi. 609-cu ildə adi adamlara dəmir yabalar, oraqlar, dəryazlar və bıçaqlar saxlamağı qadağan edən xüsusi fərman qəbul olundu. Lakin bu ehtiyatlılıq

tədbirlərinin köməyi dəymədi. 610-cu ilin başlanğıcında dünyanın xilaskarı Maytreyinin nazil olması haqqında buddist təbliğatı ilə beyinləri qızışdırılmış kütlə imperatorun yaşadığı Loyan məhəlləsinə basqın etdi. Keşikçilər tərksilah olundu, üsyan başlandı. Doğrudur, o, dərhal nizami qoşunlar tərəfindən yatırıldı, lakin dəhşətli cəza tədbirləri Çin xalqını qorxutmadı. Həmin dövrdən sonra ölkə və sülalə arasındakı parçalanmadan danışmaq olardı. Lakin Yan-di fikirləşirdi ki, bu kiçik məsələdir. 611-ci ildə Şimali Koreya (Koquryo) ilə müharibə başlandı. Müharibənin səbəbi Koreya hökmdarının tabeçiliyini bildirmək üçün şəxsən imperator sarayına gəlməkdən boyun qaçırması idi. 612-ci ilin baharında sayı 1130 min nəfər miqdarında müəyyənləşdirilən böyük ordu şərqə doğru hərəkət etməyə başladı. Ali baş komandanlığı imperator öz əlinə aldı və ayrı-ayrı hissələrin komandirlərinə şəxsən təşəbbüs göstərməyi qəti qadağan etdi. Hər bir məsələyə görə onlar qərargaha müraciət etməli və müvafiq göstəriş gözləməli idilər. Lakin çaparlar vaxtında qayıda bilmədiklərindən qoşun hərəkətsiz dayanmalı olurdu, bu isə koreyalılara öz qüvvələrini istədikləri şəkildə yönəltməyə imkan verirdi. Ordunun təchizatı acınacaqlı vəziyyətdə idi. Bütün bunların nəticəsində hücum baş tutmadı. Çinlilər geri çəkilərkən koreyalılar onların ordusunun arxa hissəsinə möhkəm zərbələr vurdular. Lyouşayı keçən 350 min nəfərdən geriyə yalnız 2700 nəfər qayıtdı. Biabırçı məğlubiyyətə gətirib çıxarmış fərasətsizlik yalnız xalq kütlələrində deyil, hakim sinfin nümayəndələrində də qəzəb doğurdu. Hətta Yan-di özü də bunu başa düşdü və növbəti 613-cü ildə yenidən Koreyaya ordu göndərərkən komandirlərə istədikləri şəkildə hərəkət etmək göstərişi verdi. Lakin artıq gec idi — hökumətdən narazılıq üsyana çevrilmişdi.

Şandunda ordudan qaçanlar üsyan qaldırdılar. Onlar aşağıdakı mahnını oxuyurdular: «Lyaoduna ölməyə getməyəcəyik». 613-cü ilin yayında Şandunun, Xebeyin, Xenaninin kəndliləri hərbi xidmətdən boyun qaçırır və çoxsaylı üsyançı orduları təşkil edirdilər. Lakin onlar nizami hökumət orduları ilə bacara bilmədiklərindən məğlubiyyətə uğrayırdılar. Bunun ardınca isə amansız edamlar gəlirdi. Ancaq xalqın müqavimətinə baxmayaraq Koreya üzərinə yürüş başlandı.

Çinlilərlə müqayisədə qüvvələrinin cüzi olmasına baxmayaraq koreyalılar cəsurluqla vuruşurdular. Artıq hamıya elə görünürdü ki, Koreyanın müstəqilliyinin sonu gəlib çatmışdır, lakin gözlənilmədən Çin ordusu geriyə döndü. Məlum oldu ki, Su (Sıçuani) canişini knyaz Yan Syuan-qay imperatorun ölkədə olmamasından istifadə edərək üsyan qaldırmış və Loyanı mühasirəyə almışdı. Yan-di tələsik qoşunları ilə geri döndü, Yan Syuan-qay qaçmağa məcbur oldu. Düşmənin əlinə düşməmək üçün o, öz sadiq dostundan onu qılıncla öldürməyi xahiş etmişdi.

Yan-di belə hesab edirdi ki, dövləti möhkəmləndirməyin yeganə üsulu edamlardır. Yan Syuan-tayın üsyanına görə bu üsyana dəxli olmayan 30 min nəfər adam edam olundu. Onların hamısının əmlakı xəzinəyə verildi. Loyana gəlib burada küçədən adamların keçdiyini görən imperator həyasızlıqla demişdi: «Deyəsən, hələ burada adam çoxdur».

Çin əhalisinin sayının azaldılmasına koreyalılar da öz «köməklərini» göstərdilər. Onlar taleyin ümidinə tapşırılmış imperator ordusunun arxa hissələrinə yenidən zərbələr endirdilər və geridə qalan çin əsgərlərini sonuncu nəfərinə qədər qırdılar. Cənubi Çini sakitləşdirməyə göndərilmiş sərkərdə Van-Şi-çun da az iş görmədi. O, yandırılmış büxurdanların qarşısında üsyançıları əfv edəcəyi barəsində təntənəli surətdə and içdi, bundan sonra isə silahı yerə qoymuş 300 min nəfər diri-diri torpağa basdırıldı.

614-cü ildə Yan-di qoşunlarını yenidən Koreya üzərinə göndərdi, lakin «üsyançılar arı pətəyi kimi başlarını qaldırdılar». Koreyalılar da müharibə istəmirdilər. Onlar əvvəlki şərtlər üzrə nominal tabeliklərini etiraf etmək və o qədər də böyük olmayan xərac vermək şərti ilə sülh bağlamaq istəyirdilər. Yan-di bu təkliflə razılaşmağa məcbur oldu; çünki onun qarşısında ilk növbədə öz xalqını məğlub etmək vəzifəsi dayanırdı.

615-ci ildə imperatorun fərmanı ilə kənd əhalisinə şəhərlərə köçmək təklif edildi; poçt stansiyaları, nəzarət qüllələri və kəndlər hasarlarla əhatə olunmuşdu. Bu hasarların arxasında partizan müharibəsi dənizi dalğalanırdı. Gördüyü tədbirlərin təsir qüvvəsinə inanmış imperator istidən və qayğılardan dincəlməyi qərara aldı. O, cah-cəlallı sarayı və hərəmxanası ilə birlikdə qoşunları üsyankar təbəələrini tutub edam edənə qədər ova çıxmaq və ziyafətlər düzəltmək məqsədi ilə şimali Şansiyə gəldi. Türkyut xanının uzun müddətdən bəri səbirlə gözlədiyi an da elə bu vaxt gəlib çatdı.

**Şibir-xan.** Yan-dinin çıxdığı səfərin rəsmi bəhanəsi şimal sərhədlərini yoxlamaq idi. Burada həqiqətən də narahatçılıq idi, çünki sərhəd zolağının sakinləri - tobalıların varisləri Suy rejimindən rəncidə olanlar sırasında idilər. Onlar artıq çoxdan tobalı deyildilər, lakin VII əsrin ortalarında hələ tam çinli də sayıla bilməzdilər. Onlar həm Çindən, həm də Böyük çöldən eyni dərəcədə uzaq, həm də hər ikisinə eyni dərəcədə yaxın olan xüsusi etnik qrup təşkil edirdilər. Türklər bu xalqı «tabqaç» adlandırırdılar və mən bu termini qəbul etməyi faydalı sayıram. Tabqaçlar başlanmış hərc-mərclikdə fəal iştirak etməyə bilməzdilər, çünki onlar keçmiş döyüşkənliklərini hələ itirməmişdilər. Lakin onlar sistemsiz hərəkət edirdilər, çünki birlik və mütəşəkkillikləri artıq yoxa çıxmışdı. Onların başçılarından biri — qədim Tan əyalətinin knyazı, sərkərdə Li Yuan sülaləyə münasibətdə loyal mövqe tuturdu, başqaları, məsələn, Boyuy-so, Van Syu-ba və Vey Dao-er isə türkyutların yardımı ilə cinayətkarlıq edirdilər. Qanun-qayda yaratmaq zəruri idi, lakin imperator bunun əvəzində Fın-yan-qun qəsrində[46] eyş-işrətə dalmışdı. Türkyut xanı xəbər tutan kimi Ordosda köç edən həmtayfalarını ayağa qaldırdı və imperatoru ələ keçirməyə yollandı. Lakin Çin kəşfiyyatı da

[46] Bu qəsr Tszin-ə-syandan 160 m şimal-qərbdə, Quançen dağlarında, Fınşuy çayının sahilində yerləşirdi.

yuxuya getməmişdi. Xanın bütün hərəkətlərinə göz qoyan arvadı, çinli məlakə Yan-diyə vaxtında xəbər çatdıra bildi. Xəbərdarlıq sayəsində imperator Böyük səddin sisteminə daxil olan Yaymıq qalasında gizlənməyə macal tapdı. Türklər qalanı mühasirəyə aldılar. Bütün əyaləti isə darmadağın etdilər. 39 möhkəmləndirilmiş istehkam süquta uğradı. Yalnız Yaymın və Qo qalaları davam gətirirdi. Yaymında 150 minə qədər əsgər və mülki əhali gizlənmişdi. Qala divarlarındakı deşiklər sökülən evlərin kərpici ilə bərkidilirdi. Ərzaq ehtiyatı yalnız 20 günə çata bilərdi. Türkyutlar hücumla qalanı almaq üçün həmlə edəndə onların oxları, təbii ki, ən təhlükəsiz yerdə gizlənmiş imperatorun böyür-başına düşürdü. Bu o demək idi ki, bütün qala atəş yağışı altında qalırdı. Cəsur əsgərlər və şəhərlilər hücumları dəf edirdilər, «böyük» imperator isə «oğlunu qucaqlayaraq qorxudan elə ağlayırdı ki, gözləri şişmişdi».

Türkyutların basqını istisnasız şəkildə gözlənilməzlik amilinə əsaslanırdı. Onlar səhra diviziyaları və Li Yuanın bərkə-boşa düşmüş sərhəd döyüşçüləri isə uzunmüddətli vuruşlara tab gətirə bilməzdilər. Odur ki, nizami ordular öz imperatorlarının köməyinə tələsəndə Şibir xan dərhal mühasirəni dayandırdı və döyüşçülərini yeni igidliklər üçün qoruyaraq çölə çəkildi. Li Yuanın Ordos çöllərinə soxulan korpusu burada yalnız iki min nəfər xəstə və qoca adama rast gəldi. Heç bir müqavimət göstərməsələr də onların hamısı Çin veteranlarının qəzəbinə qurban getdilər. Müharibəni daha qətiyyətlə aparmaq üçün Yan-di muzdla əsgərlər tutdu. Bu həmin vaxt üçün görünməmiş hadisə sayılırdı. Aydın məsələdir ki, ümumi hərc-mərclik zamanı səfərbərlik keçirmək qeyri-mümkün idi. İmperator isə məruz qaldığı qorxu üçün köçərilərdən dərhal intiqam almaq istəyirdi. Təbiidir ki, bundan sonra türkyutlarla çinlilər arasında müharibə kəsilmədi.

Məlum olduğu kimi Şibir xanın üsyanına bəhanəni çinlilər özləri vermişdilər. Şibir xanın güclənməsindən həyəcana düşən Suy hökuməti türkyutlara özünün adi, ənənəvi siyasətini tətbiq etməyə çalışırdı. Çjan Sun-şenin davamçısı Fey Qyunun təklifi ilə xanın kiçik qardaşı Çjiqi şada Çin məlakəsi və «cənub xanı» titulu təklif olundu. Çinlilər bu yolla türkyut qüvvələrini parçalamaq istəyirdilər, lakin Çjiqi şad qətiyyətlə boyun qaçırdı və bu barədə qardaşına xəbər verdi. Həmin hadisə Şibir xanın Suy sülaləsinə düşmənçiliyini daha da gücləndirdi. Uğursuzluqdan pərt olmayan Fey Qyu daha çox şübhə doğuran türkyut ağsaqqallarını aldadıb ələ keçirməyi təklif etdi. Bu təklifin qurbanı Xusi adlı bir nəfər oldu. O, hədiyyə almaq adı altında Mai şəhərinə çağırılan Xusi həbs edilərək tərəfdarları ilə birlikdə edam olundu. İmperatorun xəyanətkarlığı Şibir xanı müharibəyə təhrik etdi.[47]

[47] Fey Qyu belə hesab edirdi ki, «türkyutlar sadə və sadəlövhdürlər, buna görə də onların arasına nifaq salmaq asandır».

Əvvəlcə, yəni 616-cı ildə hərbi əməliyyatlar çox sönük gedirdi. Li Yuanın çöl müharibəsi metodlarına yiyələnmiş dəstəsi türkyutların sərhəddə basqınlarını müvəffəqiyyətlə dəf edirdi. Lakin buna baxmayaraq bərk qorxmuş Yan-di türkyutlardan mümkün qədər uzaqlaşmaq üçün cənuba getmişdi. O, Tszyan-du (Yançjou) qəsrində gizlənərək eyş-işrətə qurşanmış və ölkənin taleyini başlı-başına buraxmışdı. Tezliklə bunun nəticələri özünü büruzə verdi.

Çürümüş rejimi dağıtmaq üçün Şibir xanın yüngülcə bir təkanı kifayət elədi. 617-ci il ərzində Çində beş üsyan baş verdi. Knyazlar, generallar, quldur dəstələrinin atamanları üsyan edirdilər. Şibir xan bu hərc-mərclikdə ən fəal rol oynayırdı. Üsyançıların hamısının onun qarşısında quyruq bulamasına baxmayaraq, Şibir xan Çin generallarından Lyan Şidu və Lyu-u-çjou ilə ittifaqı daha üstün tutdu, onlara at və üzərində qurd başı çəkilmiş döyüş bayraqları göndərdi. Sonradan o, əsas əleyhdarı olan Li Yuanla da razılığa girə bildi.

Elə bir məqam çatdı ki, türkyutlar bir qədər əvvəlki alçaldılmaları üçün çinlilərin cavabını artıqlaması ilə verdilər. Şibir xan Orta imperiyanın faktiki hakiminə çevrildi. Türyut döyüşçülərinin soyğunçu basqınları Tsinzyanın divarlarına qədər gedib çatırdı. Çinlilərin çoxu türkyutların tərəfinə keçərək onların ordusunun sayını daha da artırdı. Kidan, Şivey, Toqon və Qaoçan Şibir xana tabe oldu.

**Li-Şi-min.** Orta imperiyanı bürüyən hərc-mərclik təsadüfi deyildi. Çin vətənpərvərləri Xan imperiyasının keçmiş əzəmətini bərpa etmək istəyirdilər, lakin unudurdular ki, həmin imperiyanın ardınca Üç hökmdarlığın qarmaqarışıqlığı və hunnların hücumu gəlmişdi. Bu dəfə də (lakin olduqca qısa müddət ərzində) eyni, ancaq bu dəfə süni surətdə yenidən yaradılan proses baş verdi. Hərbi başçılar yenə də bir-biri ilə didişirdilər, hunnların yerini isə yalnız əsil başçıları çatışmayan tabqaçlar tuta bilərdilər. Tezliklə belə bir başçı da tapıldı. O, sərkərdə Li Yuanın ikinci oğlu Li Şi-min idi.

Li familiyası qədim zamanlarda dövlət xidmətində çalışan Çin əyanlarına məxsus idi. 400-cü ildə Li Xao Bey Lyan (Xesi) knyazlığının təbəəliyində olan Ansi və Dunxuananın hakimi idi. O, qarmaqarışıqlıqdan istifadə edərək ayrıldı və özünü mərkəzi Lyançjou olan Sin Li knyazlığının hakimi elan etdi. 422-ci ildə bu knyazlıq hunnların itaəti altına düşdü və Li nəsli yenidən əvvəlki vəziyyətinə qayıdaraq dövlət xidmətində çalışan əyanların nümayəndələri kimi ad çıxardılar. Toba-Vey və Bey-Çjou sülalələrinin hakimiyyəti dövründə də onlar əvvəlki vəzifələrində qaldılar. Li nəslinin nümayəndələri Tobas hakimlərinə sadiq idilər, buna görə də həmişə mühüm inzibati vəzifələrə təyin olunurdular. Nəhayət, onlar vərəsəliklə keçən Tan qunu[48] titulu aldılar. İşgüzar, şəxsi və nigah əlaqələri 200 il ərzində Li nəslini yarımtobas, yarımçin əyanına çevirmişdi. Hər iki xalqın

[48] Çin rütbə ierarxiyasında üçüncü rütbə.

xüsusiyyətlərini özündə birləşdirən bu etnik kütləni biz yuxarıda tabqaç adlandırmışdıq.

Sinfi mənsubiyyət də burada az rol oynamamışdı. Li nəsli varlı torpaq sahibləri idilər. Bu məişət tərzi onları tarlalarında işləyən çinli muzdurlardan və icarədarlardan daha çox özləri kimi tabqaç mülkədarları ilə bağlayırdı. Tərəqqinin ən yüksək zirvəsinə Li Yuanın atası Li Xu çatmış, hakimiyyət başına Yuyvın Tszyunu gətirən çevrilişdə iştirakına görə o, fəxri Dae familiyası qazanmışdı. Yan Tszyan bu şərəfi Li Yuanın əlindən almış, lakin onu Tayyuaninin hakimliyində saxlamışdı.

Bu nəslin bütün tarixi göstərir ki, onun mənafeləri Şimali Çinin tabqaç mülkədarlarının mənafeləri ilə uyğun gəlirdi. Lakin Li Yuanın başçı və siyasətçi keyfiyyətləri yox idi; o, sadəcə olaraq yaxşı general idi. Əvəzində isə bu xüsusiyyətlər artıqlaması ilə onun ikinci oğlunda — Li Şin-mində vardı. Atasını genişlənməkdə olan vətəndaş müharibəsinə qoşulmağa da elə o təhrik etdi.

Sinfi partlayış və vətəndaş müharibəsi şəraitində hər bir silahlı çıxışın öz sosial məzmunu və proqramı olmalıdır. Yalnız bu yolla tərəfdarlar toplamaq və müvəffəqiyyət qazanmaq mümkündür. Bütün Çini kəndli hərəkatı bürüdüyündən, sağ qalan mülkədarlar və məmurlar isə şəhərlərdə gizləndiklərindən Li Şi-min «sakitləşdirici» proqramla, Suy sülaləsinin hakimiyyətini bərpa etmək proqramı ilə fəaliyyətə başladı. Elə buna görə də onun başladığı müharibə «ədalətli» müharibə adlandırılırdı.

Bu proqram kimin xeyrinə idi?

Əvvəla, taxtda öz adamlarını oturtmaq və «Quanlun» qruplaşmasındakı əyanları sıxışdırmaq istəyən Cənubi-Çinin tabqaç mülkədarlarının xeyrinə. İkincisi, kiçik Çin mülkədarlarının və məmurlarının xeyrinə. Çünki iri mülkədarlar və əyanlar əlçatmaz saraylarında təhlükəsizlik şəraitində yaşayırdılar, kiçik mülkədarlara və məmurlara isə qızışmış kütlə hər an divan tuta bilərdi. Üçüncüsü, bu proqram kəndlilərin öz xeyrinə idi. Çünki kəndliləri diri-diri torpağa basdırmayıb dövlət anbarından ayrılmış taxılla doyuzdurandan sonra onlar dərhal silahı atdılar və dinc əməklə məşğul olmaq üçün kəndlərinə qayıtdılar. Əslində elə əvvəldən də kəndlilər məhz çörək və dinc əmək istəyirdilər. Dördüncüsü, həmin proqram türkyutların xeyrinə idi; çünki türkyutlar onlara nifrət edən, onları adam yerinə qoymayan çinlilərin əvəzində yanlarında məişətlərinə və adətlərinə, ənənələrinə adət etmiş bir adam gördülər. Əlbəttə, Li Yuan türkyutların özlərinin hərb üsullarından istifadə edərək onlara güclü zərbələr endirirdi. Lakin döyüşdə göstərilən qəhrəmanlıq üçün heç kimi mühakimə etmirlər, üstəlik, igid adamla dost olmaq daha xoşdur.

Suy sülaləsinin tərəfdarları başlanmış hərəkata qarşı çıxdılar. Onlar əsassız olmayaraq Tan qoşunlarının simasında nifrət bəslədikləri yarımköçəri Vey və Bey-Çjou imperiyalarının ənənələrinin dirçəltmək cəhdini görürdülər. Yan-dinin əleyhdarlarının çoxu indi Suy imperiyası prinsiplərinin həqiqətə çevrilməsi üçün

canından keçməyə hazır idi. Ona görə də müharibə olduqca amansız xarakter almışdı.

Bəs qan axıdılmasının səbəbkarı, «səma imperiyasının hakimi, böyük və təkrarolunmaz Yan-di» nə ilə məşğul idi? O, cah-cəlallı qəsrində gizlənərək vaxtını eyş-işrətə və gözəllərə sərf edir, çox güman ki, özü də törətdiyi bəlaları təsəvvürünə gətirmirdi. Hədsiz fəaliyyətsizliyi ilə o, tərəfdarlarının əl-qolunu elə bağlamış, onların enerjisini elə iflic etmişdi ki, onlardan biri sərxoş despotu boğub öldürmüş və özünü imperator elan etmişdi. Lakin qatil bu hərəkəti ilə yalnız Li Yuanın xeyrinə iş görmüş oldu. Çünki Li Yuan artıq üsyançıdan pozulmuş qanunun müdafiəçisinə çevrildi.

Bu müddət ərzində Tan ordusu böyüyür, biri-birinin dalınca qələbələr qazanırdı. 617-ci ilin qışında Li Yuan Çanyanı aldı, burada köhnə rejimin tərəfdarı olan bir neçə əyanı edam etdikdən sonra amnistiya verdi. Bununla da o, geniş xalq kütlələrini öz tərəfinə çəkə bildi. Bundan başqa Li Yuan qocalmış məmurlara fəxri adlar verdi. Dövlət ambarlarının qapısı yoxsulların üzünə açıldı, saray cariyələrini isə öz ailələrinə göndərdilər. Əsgərlərə əhalini soyub talamaq qadağan edildi, Suy dövrünün amansız cəza tədbirləri aradan götürüldü, onların əvəzinə isə yeni kodeks qəbul olundu. Bu yeni kodeksə görə «qatillər, soyğunçular, xəyanətkarlar və üsyançılar (başqa sözlə desək, yeni hökumətin düşmənləri) ölüm cəzasına məhkum edilirdilər». Yan-dinin qətli haqqında xəbər Çanyana çatan kimi Li Yuan özünü imperator Qaotszı elan etdi, sülaləsini isə Tan adlandırdı. Bu hadisə 618-ci il iyunun 18-də baş verdi.

**Xəyanətkarlar.** Şibir xan Li Yuanın Çanyandakı tacqoyma mərasimini tam əsasla özünün qələbəsi saya bilərdi. Li Yuan türkyut xanından kömək uman namizədlərdən biri idi, Tan knyazının qələbə şansı daha çox şimaldan gələn köməkdən asılı idi. Süvari dəstələri yaratmaq üçün türkyutlar 2 min at gətirdilər, düşməni əzmək üçün iki min döyüşçü göndərdilər. Li Yuan hədsiz qüvvətli müttəfiqinin hökmü altına düşməmək üçün bundan artıq yardım qəbul etmək istəmirdi.* Şibir xan Tan qoşunlarının bir neçə cəsur və istedadlı sərkərdənin öz əyalətlərini son damla qanlarına qədər qorumağa hazır olduqları Çini yaxın vaxtlarda bütövlüklə fəth edəcəklərini mümkün saymırdı. Lakin Li Şi-minin hərbi istedadı və sərhəddəki aramsız müharibələrə adət etmiş tabqaçların dözümlülüyü Çin ənənəçilərinin inadkarlığına üstün gəldi və 624-cü ildə artıq bütün ölkə Tan imperatorunun hökmü altına düşdü. Bu müharibə bütünlüklə Çinin tarixinə aiddir, ona görə də biz onun gözlənilməz hadisələri və dramatik səhnələri üzərində dayanmaq istəmirik. Bizim mövzumuz üçün Suy və Tan sülalələrinin türkyutlar

* İmperator 618-ci ildə demişdi: «Biz yalnız yadelliləri öz tərəfimizə çəkmək üçün onların qüdrətindən istifadə etmək istəyirik».

arasında özlərinə kömək axtaran, nisbətən azsaylı əleyhdardardan ibarət ikinci qrupu daha böyük maraq doğurur.

Xoşbəxtlikdən onların başçılarının siyahısı saxlanıb və biz Şibir xanın yardım göstərdiyi hərəkatı səciyyələndirə bilərik. 1. Qao-Tszxe — yüngül süvarilərin sol cinahının qvardiya zabiti. Aclıq zamanı o, 18 nəfər sui-qəsdçi ilə birlikdə əyalət şəhərlərindən birini tutmuş və aclığın üzüb əldən saldığı adamların heç bir kömək göstərmədiyi şəhər hakimini öldürmüşdü. Bundan sonra Sao-Tszı-xe özünü «əbədi dostluq hökmdarı» elan etmişdi. Türkyut xanının təsiri altına düşərək o, özünü «Suy sülaləsini məhv edən səma oğlu» adlandırmış və eyni zamanda «Buri-şad» (qurd-knyaz) titulunu qəbul etmişdi. 2. Lyan Şi-du-Şofan (Qərbi Ordosda) qalası qarnizonunun zabiti. Pulla tutulmuş quldurların köməyi ilə şəhəri ələ keçirdikdən sonra o, hakimi öldürmüş və özünü Lyan sülaləsinin imperatoru elan etmişdi. Türkyutlara tabe olduqdan sonra onlardan «Tardu Bilge-xan» titulu almışdı. 3. Lyu U-çjou-Ma-i (Şərqi Ordos) qalasının süvari zabiti. On nəfər dostu ilə razılığa gəldikdən sonra hakimin qəbul otağına girmir, onu otağından dartıb çıxararaq öldürmüşdü. Heç kəs ona mane olmaq fikrinə düşməmişdi, əksinə tezliklə Lyu U-çjounun bayrağı altına 10 min nəfərdən çox döyüşçü toplanmışdı. O, təvazökarcasına özünü hakim adlandırmış və kömək xahişi ilə Şibir xanın yanına yaxın adamını göndərmişdi. Cavabında o, qızıl canavar başlı bayraq və Yan sülaləsini və imperatoru məhv edən «Xaqan» titulunu almışdı. O, Suy qoşunlarına qarşı olduqca müvəffəqiyyətli mübarizə aparırdı və şimali Şansinin böyük bir hissəsini tuta bilmişdi. Bu isə ona imperator titulu iddiasına düşmək imkanı vermişdi.

Başqaları da onlardan geri qalmırdı — hamısı vicdanı və şərəfi birdəfəlik unutmuş fırıldaqçılar idilər. Onlar tarixdə elə bir əhəmiyyətli rol oynamamışdılar və adlarını burada sadalamağa ehtiyac yoxdur. Onlar Yan-dinin cinayətkar hakimiyyəti nəticəsində Çini düşdüyü tam mənəviyyatsızlıq mühitinin yetirmələri idilər. Öz psixi simalarına görə onlar ölkə daxilində Tan qoşunlarına qarşı mübarizə aparan Çin ənənələri ilə ziddiyyət təşkil edirdilər. Lakin çoxsaylı üsyançılar arasında təsadüfi adamlar da vardı. 621-ci ildə sərxoşluq və dəliqanlılıq üstündə məhkəməyə verilmiş bir neçə zabit öz dəstələrini üsyana qaldırdılar. Lyu-Xey-da adlı bir alimi özlərinə rəis seçdilər, ölüm qorxusu altında ondan dəstənin başında dayanmaq və taxt-tac uğrunda mübarizə aparmaq tələb etdilər. Bədbəxt Lyu-Xeydanın razılaşmaqdan başqa çarəsi qalmadı.

Aydındır ki, türkyut xanının yalnız onun himayədarlığı sayəsində başlarını çiyinləri üstündə saxlayan bütün bu «imperatorlara» nifrət etmək üçün tam əsası vardı. Çox ehtimal ki, elə buna görə də o, Li Yuana taxta çıxmağa yardım göstərdi. Türkyut xanı onu başqalarından yaxşı hesab etmirdi və ehtimal ki, Li Yuanın hakimiyyətinin Çini daha da zəif salacağını düşünürdü. Bundan başqa Li Yuan son dərəcə diplomatcasına hərəkət edir, xana məktublarında ona özünə bərabər olan bir hökmdar kimi müraciət edirdi. Bu isə Çin ənənəsi ilə kökündən zidd idi. 613-cü

ildə ziyafət zamanı Şibir xanın elçisi imperatorla yanaşı oturmuşdu, lakin artıq 619-cu ildə xan öz səhvini başa düşdü və hadisələr başqa məcrada davam etməyə başladı.

**Dövrlərin dəyişməsi.** Tan hökumətinin ölkədə böyük yaradıcı və sağlamlaşdırıcı iş apardığı türkyut xanının casuslarının gözündən yayınmışdı. Xan gözəl bilirdi ki, ona zəngin və bolluq içərisində yaşayan Çin deyil, zəif və dağınıq Çin lazımdır. Hərbi islahat türkyut xanını xüsusilə həyəcanlandırmalı idi. Li Yuan taxta çıxdıqdan sonra Li Şi-minlə birlikdə bütün ordunu yenidən qurmağa başladı. «Txan sülaləsi paytaxta səkkiz diviziya təsis etdi. Hər diviziya qərb və şərq olmaqla iki hissəyə bölündüyündən diviziyaların sayı əslində 16 idi. Txan sülaləsi bu 16 diviziyanın hərbi rütbələri xarici hakimlərə və özünün xarici vassallarına verirdi:

Diviziyaların sıravi heyəti də muzdlu əsgərlərdən ibarət idi. Onlar «İloxe» adlanırdılar. Bunun mənası «cavanlar, seçmə, möhkəm adamlar» deməkdir. Li Şi-min yeni ordunu qiymətləndirərək demişdi: «Qədimdə, Xan sülaləsi dövründə hunlar güclü, Çin isə zəif idi. İndi Çin güclüdür, şimal barbarları isə zəifdirlər. Min nəfər Çin əsgəri onların bir neçə min nəfərini məhv edə bilər». Bu sözlərin həqiqət olduğu meydana çıxdı.

619-cu ildə Şibir xan azsaylı qoşunla Ordosa daxil oldu və Lyan Şi-du ilə birləşdi. Tezliklə Lyu U-çjou da onlara qoşuldu. Müttəfiqlər daxili Çinə soxulmağa hazır idilər. Yeni düşmənin meydana çıxmasından qorxmuş Li Yuan Böyük səddin istehkamların bərpa olunmasını və dağ keçidlərində torpaq bəndlər atılmasını əmr etdi. Lakin Li Şi-min onu fikrindən daşındırdı. Bildirdi ki, cansız daşlara deyil, döyüş komandirlərinin fərasətinə və tezfəhmliyinə arxalanmaq lazımdır. Lakin xan xəstələnib öldüyündən Çinə yürüş baş tutmadı. Çanyanda özlərini elə göstərdilər ki, guya ən yaxın dostlarını itiriblər. İmperator şəxsən «kədərləndiyini bildirdi» və dəfn üçün» 30 min dəst ipək parça göndərdi. Qarşısıalınmaz müharibə bu hədiyyələr sayəsində bir il geriyə çəkildi. Bu bir il ərzində Tan imperiyası daha da qüvvətləndi, türkyut xaqanlığında isə dövlətin gücünü əhəmiyyətli dərəcədə azaldan hadisələr baş verdi.

**Tan sülaləsi dövründə Çin və çöl.** Qədim çinlinin təsəvvüründə epoxalar müxtəlif rənglərlə rənglənmişdir. Erkən Tsin epoxası ağ rəngdə təsəvvür olunurdu. Lyu Banın yuxusu haqqındakı məşhur əfsanədə bu imperiya qırmızı İlanın — yəni Xan imperiyasının udduğu ağ ilana bənzədilirdi. Qırmızı rəng Çin üçün milli rəng idi, mavi — çöl köçərilərinin, göy — tibetlilərin rəmzi sayılırdı. Yer stixiyasının və etibarlılığın rəmzi olan sarı rəngi Vey sülaləsinin başçısı Toba Quy qəbul etmişdi. Bəs Tan imperiyası üçün hansı rəng səciyyəvi idi? Rəng qavrayışı baxımından Tan alabəzək təsəvvür olunurdu.

Doğrudan da 618-ci il təkcə Çinin deyil, bütün Asiyanın tarixində dönüş nöqtəsi oldu. Böyük sərkərdə, inzibatçı və siyasət xadimi Li Şi-min Makedoniyalı İskəndər kimi yalnız müxtəlif mədəniyyətlərə malik ölkələri fəth etmək deyil, həm

də bu mədəniyyətləri qohumlaşdırmaq, «sivilizasiyalı» Çinin köçəri barbarlara qarşı qoyulmasını mədəni ünsiyyətlə əvəz edərək bu xalqların mədəniyyətlərini yaxınlaşdırmaq istəyirdi. İndiyə qədər mədəni mübadilə prosesi kortəbii gedirdi, 618-ci ildən başlayaraq bu prosesi şüurlu surətdə şirnikləndirməyə başladılar. Coşğun dövrün özü başlanmış prosesə kömək göstərirdi. Suy sülaləsinin zülmlərindən qaçıb qurtaran çoxlu çinli türkyut köçlərində sığınacaq tapmış və bu köçlərin sahibləri ilə qohumlaşmışdılar.

Cəsur hərbçi Li Yuanın bayrağı altında gələnlər arasında igid çöllülər də az deyildi. Onları boş-boşuna «çinlisən, yoxsa türk?» sualı vermədən xidmətə qəbul edirdilər. Onlar zərif Çin qızlarına evlənir və yeni talelərindən razı halda həyatın mənasını hərbi xidmətdə, yaxud sarayda mənsəb qazanmaqda görürdülər. İmperiya belə yaranırdı, tabqaç xalqı belə artıb çoxalırdı və bu minvalla Böyük sədd sözün həm məcazi, həm də hərfi mənasında uçulub dağılırdı.

Çində xarici nə varsa, hamısına böyük maraq yaranmışdı. Çin — türk lüğəti tərtib edilmişdi. Təəssüf ki, o, bizim zəmanəmizə qədər gəlib çatmamışdır. Hələ Tan imperiyasının sələfi Bey-Çjou imperiyası dövründən başlayaraq müxtəlif xalqların, o cümlədən də türklərin musiqisi imperator orkestrində ifa olunurdu. Bizi maraqlandıran dövrdə isə həmin musiqi daha geniş yayılmışdı. Adamlarla canlı mübadilənin arası kəsilmirdi — VII əsrin 20-ci illərində Çanyanda artıq 10 min türkyut ailəsi yaşayırdı. Onların geyimi və əxlaqı Çin əyanlarının xoşuna gəlirdi. II əsrdə Romada german, VIII əsrdə Bizansda Xəzər zövqü hakim olduğu kimi, VII əsrdə də Çində türklərlə bağlı olan hər şeyə böyük maraq yaranmışdı.[49] Köçəri adət — ənənələri maraq dairələrinin və əyanların məişətinə birdəfəlik və həmişəlik daxil olana kimi bu maraq ilbəil artırdı. Ziyafətlərdə «xarici musiqi» sədaları altında «xarici xörəklər» verilirdi. Türk geyimi — yaşıl, yaxud qəhvəyi rəngli yaxalıqlı və kəmərlə qurşanan xalat Tan epoxasında adi paltara çevrilmişdi. Alaçıq isə çinlilərin daha çox xoşuna gəlmişdi. Qışda o, VII əsr çinlilərinin evlərindən qat-qat rahat və sərfəli idi.

Çin şairi Bo Tszyuy-i (772—846) alaçığın üstünlüklərini təfərrüatı ilə təsvir etmişdi. Çin əyanları öz evlərinin həyətində alaçıq qurdurur və qışda oraya köçürdülər. Bo-Tszyuy-i alaçığı «mavi» adlandırırdı və görünür bununla da türklərin rəmzi olan rəngi nəzərə çarpdırmaq istəyirdi.

Əksər orta əsrlər poeziya nümunələri kimi bu şer də ikili — birbaşa və alleqorik mənalara malikdir. Yaz dumanı və dəyişən vaxt anlayışları altında yalnız ilin fəsillərinin dəyişməsi deyil, həm də köçərilərlə münasibətlərin mürəkkəbləşməsi nəzərdə tutulur. İri məmur olan və imperiya siyasətinə həmişə öz

[49] Şahzadə Li-Çten-knya balaca vaxtı türkyutların geyimini və dilini çox sevirdi. O, özünə barbarlara oxşayan yoldaşlar seçirdi. O, türkyutları təqlid edərək yurtlarla oynamaq üçün özünə qoyun dəriləri gətizdirir, canavar başı ilə bəzədilmiş bayraqlarla, qoyunlarla, atlarla maraqlanırdı. O, türkyut xanının şadı olmaq istəyirdi».

loyal münasibəti ilə tanınan Bo Tszyuy-i ümid edir ki, hər şey yoluna qoyulacaq və qonşu barbarlarla sülh bərpa olunacaqdır. Burada o, poetik obrazlar vasitəsi ilə imperiya siyasətinin əsas istiqamətlərini ifadə edir.

Beləliklə, Tan imperiyası dünya əhəmiyyəti iddiasında idi. Bu iddia onun sonrakı siyasətini, görünməmiş inkişafını və qanlı aqibətini müəyyənləşdirdi. Çinlə çölün birləşməsi hər bir yeni təşəbbüsdə olduğu kimi özünün o biri üzünə də malikdi: Tan imperatorları hamıya arxalanmaq istəyirdilər, lakin böhran anında onları heç kəs müdafiə etmədi. Komandirlərinin igidliyi və əsgərlərinin dözümlülüyü sayəsində Tan imperatorları qələbədən qələbəyə gedirdilər, lakin bu qələbələrdən onların dövləti yalnız zəifləyirdi. Mahiyyət etibarı ilə onların əlində olan bütün torpaqlar silah gücünə qəsb edilmişdi və Çin özü Tan sülaləsinin birinci qəniməti idi. Lakin onların məğlubları bağışlamaq, gözəlliyi qiymətləndirmək və uzaqdakıları sevmək bacarığı bu dövrün mədəniyyətinə əsrlər boyu qorunub saxlanan layiqli şöhrət qazandırmışdı.

## XIV f ə s i l

## ŞƏRQ XAQANLIĞI

**Çulo xan.** 619-cu il Çin və Şərqi türkyut xaqanlığı üçün böhran və dönüş ili idi. Məhz həmin dövrdə tabqaçlarla türkyutlar arasında qüvvələr nisbəti və toqquşmanın labüdlüyü aydın oldu. Mahiyyət etibarı ilə Şibir xanın Çinə münasibətdə yürütdüyü siyasət həddindən artıq uzaqgörməz idi. Sərhəddə yaşayan və türkyutların özləri kimi döyüşkən və dözümlü tabqaç torpaq sahiblərinin əsil çinlilərdən daha qorxulu rəqiblər olduğu aşkara çıxdı. Şibir xanın Çulo xan adı ilə taxta çıxan qardaşı bunu dərhal başa düşdü və sələfinin səhvini düzəltməyə tələsdi. Qardaşının əlaltılarına — fırıldaqçı Lyan Şi-duna və Lyu-U-çjouya kömək göstərməklə bir sırada o, həm də özünü Suy sülaləsinin müdafiəçisi elan etdi. Van Şi-çunun* Çin «vətənpərvərləri» Tszinçenquanın (Loyandan şimalda) hakimi, habelə Xabeyi və Şandun — Xenan sərhəd rayonunu öz əlində saxlayan Dou Qyan-ren ilə əlaqələr yaratdı.* Tan imperatorunu qanundan kənar vəziyyətdə qoymağa çalışan Çulo xan özünü Suy sülaləsinin bərpa olunmasının tərəfdarı elan etdi, imperatorun dul arvadına sığınacaq, taxt-tac iddiasında olan knyaz Yan Çjen-daoya isə «van» titulu verdi. Suy sülaləsinin tərəfdarları (beləlari isə az deyildi) hər tərəfdən türkyut xanının yanına qaçıb gəlməyə başladılar və tezliklə iqamətgahı Datunfu və Şansi yaxınlığındakı Dinsyan şəhərində olan mühacir hökuməti

* Andını pozaraq ona təslim olan döyüşçüləri diri-diri torpağa basdıran sərkərdə.
* Üsyan başçılarından biri, knyaz Sya titulu qəbul edərək Tan sülaləsinə qarşı mübarizə aparırdı.

yaratdılar. Eyni zamanda 2 min türkyut döyüşçüsünün yardımı ilə Ylu-çjou yürüşə çıxdı. Tan imperiyası məngənə arasında qaldı.

Çulo xanın devrilmiş sülalənin tərəfində dayanması sərhəddəki iddiaçıları narahat etməyə bilməzdi. Çünki həm Suy, həm də Tan sülalələrinin qələbəsi onlara yalnız edam kötüyü vəd edirdi. Odur ki, həmin iddiaçılar sadəcə türkyut xanının hakimiyyətini qəbul etmək və bununla da həyatlarının təhlükəsizliyini qorumaq qərarına gəldilər. Sərkərdə Lyan Şi-du özünün dəbdəbəli titulunu unudaraq 620-ci ildə Çulo xana aşağıdakı təkliflə müraciət etdi: «Yunyanda qarmaqarışıqlıqlar baş verir, ölkə bir neçə hökmdarlığa parçalanıb. Vəziyyət bərabərdir, qüvvələr zəifdir, ona görə də hamı tutszuövtslərə (türkyutlara) tabe olur. İndi Tan sülaləsi bütün imperiyanı fəth edib. Mən özümün məvhimdən yox, tez-gec sizə də növbə çatacağından qorxuram. Yaxşısı budur ki, o hələ taxt-tacda möhkəmlənməmiş cənubda Çjunjuanı ələ keçirəsiniz. Bu işdə mən bələdçi olmağa söz verirəm». Çulo xan onun təklifini qəbul etdi və əslində vur-tut 2 min atlıdan ibarət «böyük ordu» topladı. Bu ordu Çulo xanın kiçik qardaşı Buri-şadın komandanlığı altında şimali Şansi əyalətinə[50] soxulmuş Lyu-u-çjouya yardıma göndərildi.

İlk vaxtlar müttəfiqlər müvəffəqiyyət qazanırdılar və əyalətin Tan sülaləsi tərəfindən təyin olunmuş hakimi onların «hücumlarını dayandıra bilmirdi». Lakin tezliklə tabqaç döyüşkənliyi və şahzadə Li Şi-minin hərbi istedadı özünü göstərdi. Lyu-çjou türkyuktların köməyi ilə Binçjounu tuta bilmişdi. Bu onun son müvəffəqiyyəti oldu. Türkyutlar Tsinsyan şəhərində bütün cavan qadınları əsir götürərək hərbi qənimətlərlə birlikdə səhraya çəkildilər.

Müttəfiqlərinin tərk etdiyi Lyu-u-çjou 620-ci ildə Li Şi-minin tabqaçları tərəfindən darmadağın edildi və öz himayədarlarının yanına qaçdı. Lakin çox güman ki, türkyutlar Lyu u-çjou ilə əməkdaşlığı özlərinə biabırçılıq sayaraq onu öldürdülər. Axı indi türkyutlar «qanuni hökumətin müdafiəçiləri» idilər və cinayətkarlarla əlbir iş görmək onlara sərf eləmirdi.

Daha sonra Li Şi-min qoşunlarını Van Şi-çunun üzərinə yeritdi və onu da əzdi. Dou Qyan-de Van Şi-çunun köməyinə tələsdi. 621-ci ildə Loyan yaxınlığında inadlı döyüşlər başlandı. Nəticədə hər iki Suy sərkərdəsi məğlub edilib əsir alındı. Lakin Çulo xan ümidlərinin məhv olduğu günə qədər yaşamadı. O, 620-ci ildə son dərəcə qəribə bir şəraitdə öldü. Xan məğlubiyyəti qabaqcadan xəbər verən bilicilərin ziddinə gedərək Suy sülaləsinə kömək edəcəyini bildirən kimi «qanlı yağış» yağdı, gecələr nə isə «sirli səslər» eşidilməyə başladı. Suy mələkəsinin müalicəsinə baxmayaraq xan xəstələndi və öldü.

Nə baş vermişdi? Zəhərləmə ehtimalı istisna olunur, çünki xan Suy tərəfdarlarının ən yaxın dostu idi. Görünür, xanın xəstəliyinin və ölümünün səbəbi

---

[50] Şansidəki Tayyuan dairəsi 607-ci ildə «Binçjou general-qubernatorluğu adını almışdı».

güclü əsəb pozğunluğu idi. Bunun üçün hər cür əsas vardı: şimalda və qərbdə vəziyyət gözlənilməz və dəhşətli dərəcədə mürəkkəbləşirdi.

**Uyğurlar.** Böyük Qobi səhrasından şimala köç edən Tele tayfaları Şərqi türkyut xanının təbəələrinin böyük əksəriyyətini təşkil edirdilər. Çinlilər onların ümumi saylarını təbii ki, şərti olaraq 100 min nəfər, seçmə qoşunlarının sayını isə 15 min nəfər müəyyənləşdirirdilər. Sonuncu rəqəm tam realdır, VII əsrin miqyasları baxımından isə böyükdür.

Türkyutlar telelərin dağınıqlığından istifadə edib onların üzərinə ağır vergilər qoyur, məcburi öz qoşunlarına götürürdülər. Şibir xanın vaxtında bu mümkün olurdu, lakin Çulo xanın hakimiyyəti illərində uyğur, buqu, tonqra və bayırku tayfaları birləşərək, sonralar uyğur xaqanlığının başında dayanan Yaqlakarın (Yoloqe) rəhbərliyi ilə üsyan qaldırdılar. Türkyutlar üçün bu qarşısı alına bilməyən fəlakət idi. Onların Çinə təzyiqləri zəiflədi, yeni doğulmuş Tan imperiyası özünə gəlmək üçün vaxt qazandı. Çin diplomatiyasının üsyanın hazırlanmasında iştirak edib-etmədiyi məlum deyil. Bəlkə də onların üsyanla heç bir əlaqələri olmamışdır. Lakin bundan asılı olmayaraq türkyutların əl-qolu bağlandı və Çula xanın[*] varisi və qardaşı Kat İl-xan Tuqbir[*] düşərgəsini Xanqaya[*] köçürməyə məcbur oldu; çünki şərq düzənlikləri üsyançıların əlinə keçmişdi. Üsyan etmiş tayfalar orda yaratmadılar, onlar tayfa ittifaqında birləşdilər. Bu quruluş mütləqiyyətdən daha çox respublikaya bənzəyirdi. Hakimiyyət başında dayanan Yaqlakar nəsli ilə paralel «xalq eyni zamanda həm də Şıqyan—sıqini hökmdar elan etdi», sonra hakimiyyət eyni yolla onun oğlu Puseyə verildi. Atası onu sevmirdi və özündən uzaqlaşdırmışdı. Lakin «Puse igid və ağıllı idi», vəhşi heyvanları ovlamağı və düşmənlərə qalib gəlməyi bacarırdı, ona görə də «Puseyə hörmət edən həmnəsilləri onu özlərinə hökmdar seçdilər». Bu türkyutların qohumluq-bölgə sistemində öz əksini tapmış varislik prinsipindən nə qədər uzaq idi. Bundan əlavə, «hökmdar» termini mətn kontekstində şərti şəkildə hakimiyyət başında olan adamı bildirir, «xaqan» terminınə uyğun gəlmir. Bir qədər sonra Pusenin varisi sadəcə olaraq «xoyxu başçısı» adlandırılırdı ki, bu isə aydın məsələdir ki, real vəziyyəti daha dəqiq əks etdirirdi.

Beləliklə, biz uyğurların birliyini türk elinin analoqu kimi deyil, tayfa ittifaqı kimi nəzərdən keçirməli, türkyutlarla uyğurların sonrakı mübarizəsini isə

---

[*] Mənbədə üsyanın tarixi göstərilməyib. Mənim fikrimcə, daha çox ehtimal olunan tarix 620-ci ildir. Çünki həmin dövrdə tele tayfaları hələ Şibir xana tabe idilər və artıq Kat İl-xanla düşmənçilik edirdilər.

[*] Adın Çin oxunuşu «Tszeli»dir. Biçurin həmin adı Xieli, Şavan Nieli, Jülyen Kic-li, Radlov Katli («çox» mənasında olan «qat» sözündəndir) verir. Kat İl-xan oxunuşunu M. V. Xvan təklif etmişdir. Həmin adı ifadə edən çin heroqlifləri təhqiredici çalara malikdir və «fayda güdən», «fürsət gözləyən» mənasını verir. Bu da çinlilərin türkyut xanına mənfi münasibətlərini bildirir.

[*] Tonqra və buqular Selenqa və Orxon, uyğurlar Orxon və Toloy, bayırkular Kerulen çayından şimalda, Xəntey və Xinqan arasında köç edirdilər. Bundan əlavə, Zabaykalyedə və yuxarı Anqarada türkyutlara tabe olmayan kurıkanlar yaşayırdılar.

diametral əks inkişaf istiqamətlərinə malik iki sistemin toqquşması kimi şərh etməliyik.

Türkyutlar və uyğurlar eyni dildə danışır, «otun və suyun bolluğundan asılı olaraq» eyni şəkildə bütün mal-qaraları ilə köç edirdilər. Lakin onların arasındakı oxşarlıq yalnız bununla məhdudlaşırdı. Bütün qalan məsələlərdə onlar bir-birlərindən «azacıq» fərqlənirdilər və elə bu «azacıq fərq» də» türkyutlarla uyğurların bir xalq kimi qaynayıb-qovuşmalarına imkan vermirdi. Ondan başlamaq lazımdır ki, tele tayfaları da türkyutlar kimi əcdad-canavar haqqında əfsanəyə malik idilər, lakin türkyutlar bu fikirdə idilər ki, onlar cavan oğlandan mayalanmış qurddan doğub törəyiblər, uyğurlar isə canavara təslim olmuş qızın nəslinə mənsubluqlarını zənn edirdilər.* İki paralel əfsanədə kişi və qadın başlanğıclarının nisbəti diametral əksdir və bu təsadüfi xarakter daşıya bilməzdi, çünki VIII əsrin dualist dünyadərkində cins simvolikası müəyyənedici prinsip idi. Səma ata, Yer isə ana sayılırdı və səmanı türkyutlar kimi insan, yaxud uyğurlar kimi vəhşi heyvan saymaq heç də bir-birinin eyni deyildi. Zahiri oxşarlıqlarına baxmayaraq əfsanələrin paralelliyinin özündə nəzərə çarpdırılan bir əkslik var. Çox ehtimal ki, bu təsadüfi deyildi, çünki paleantropologiya türkyutların və uyğurların müxtəlifliyini təsdiq edir.

Türkyutlar türk tayfaları içərisində ən çox monqoloid idilər. Gürcülər Tbilisini mühasirəyə almış türkyut sərkərdəsini ələ salmaq üçün «böyük bir boranı gətirdilər və orada hunnların hökmdarının şəklini çəkdilər — bir arşın eni, bir arşın da uzunu idi, kirpiklərinin yerinə bir neçə qırıq xətt cızdılar, onları heç kim görə bilməzdi; saqqalının yerini eybəcərcəsinə tüksüz qoydular, burun pərələrini bir dirsək enində çəkdilər, bığ yerinə isə bir neçə tük qoydular». Əlbəttə, bu fərdi yox, şarjlaşdırılmış irqi əlamətlərdir. Həm də onlar türkyut daş bütlərinin və heykəlciklərinin tipində də öz əksini tapır.

Uyğurlar isə öz əcdadları — kürən saçlı dilər kimi yevropeid idilər. Çin rəsmlərində uyğurlar iri burunlu, iri gözlü, alt dodağından başlayan böyük saqqallı, qalın bığları və çatma qaşları olan adamlar kimi təsvir edilmişlər. Uyğur qəbirlərində aparılan qazıntılar bu etnik qrupun yevropeid olduğunu qəti təsdiq etmişdir.

Bu iki xalqın psixikasının quruluşu da bir-birinə bənzəmirdi. Onların ikisi də çox döyüşkən idilər, lakin türkyutlar öz xanlarının və tarxanlarının arxasında intizamlı şəkildə gedə bilirdilər, telelər, o cümlədən uyğurlar öz azadlıqlarını, sərbəstliklərini qəhrəmancasına qoruyur, lakin işin mütəşəkkilliyinə nail ola bilmirdilər. Qələbədən sonra hərə öz köçünə qayıdırdı, bu da düşmənə özünə gəlməyə və qüvvələrini yenidən döyüşə çıxarmağa imkan verirdi. Məhz bu

---

* Qız onunla əlaqəyə girən canavarı səmanın təcəssümü hesab edirdi.

xüsusiyyət Kat İl-xana uzun müddət onların ayrılmalarını saya salmamağa və Tan imperiyasına qarşı mübarizəsini əvvəlki kimi davam etdirməyə imkan vermişdi.

**İki koalisiya.** Xaqanlığın qərb sərhədindəki vəziyyət daha təhlükəli görünürdü. Tun-cabqu-xan şərqi türkyutların qəddar düşməni idi. Şərqdə onun torpaqları bütün Cunqariyanı əhatə edirdi, deməli, Monqol Altayının zirvələri şərq və qərb xaqanlarının düşərgələrini bir-birindən ayırırdı. Lakin Kat İl-xanın bəxtindən onun düşməninin əl-qolu qərbdə və cənubda bağlanmışdı, çünki 620-ci ildə Sarı çaydan tutmuş Aralıq dənizinə qədər bütün qitəni bürümüş müharibədə qüvvələrin mövqeyi, düzümü qəti müəyyənləşdi və bu müharibədə türkyutların rolu yalnız sonrakı tədqiqatçılar üçün deyil, onların özləri üçün də aydınlaşdı.

Qərbi türkyut xanları üçün iki xarici siyasət problemi həll olunmamış qalmışdı: avarları itaət altına gətirmək və İrandan ipək karvanları üçün yol açmaq lazım idi. Buna onların öz qüvvələri kifayət eləmirdi. Hər iki halda türkyutların təbii müttəfiqləri Bizans idi. Lakin həmin dövrdə Bizansın özünü farslar yerlə-yeksan edirdilər.

610-cu ildə Konstantinopoldakı hakimiyyət dəyişikliyi nəticəsində istedadlı sərkərdə İraklinin dövlət başına gəlməsinə baxmayaraq, Bizans imperiyasının vəziyyəti böhranlı qalmaqda davam edirdi. Onun Avropa əyalətləri İranla ittifaq bağlamış avarlarla dolu idi, 616-cı ildə Misirin əldən verilməsi isə paytaxtı taxılsız qoydu.

Farslar və avarlar Bizans imperiyasını məngənə arasında sıxırdılar. Lakin imperator İrakli də özünün şərqdəki müttəfiqi Li Şimin kimi istedadlı sərkərdə və siyasətçi olduğunu göstərdi. Onun emissarları kuturqurlar arasında avar ağalığına qarşı narazılıq doğura bildilər. Avarlar bundan xəbər tutan kimi müəyyən məbləğ alıb, Konstantinopolun mühasirəsini götürdülər və 620-ci ildə Dunayın o biri tayına çəkildilər. Bu İrakliyə azad edilmiş paytaxtdan çıxaraq Kiçik Asiyadakı orduya getməyə və onu farsların üzərinə aparmağa imkan verdi.

İraklinin planı farsların ələ keçirdikləri torpaqları saxlamaqla İran qoşunlarına arxadan ağır zərbə endirmək və bununla da onları müharibəni davam etdirmək imkanından məhrum etmək idi. Müasirləri bu müharibəyə xristian dini uğrunda «səlib yürüşü» kimi baxırdılar, çünki onların fikrincə, farslar Yurusəlimin müqəddəs yerlərini murdarlamışdılar. Lakin 623-cü ilin aprelində Ermənistandan Atropatenin Qanzdak şəhəri istiqamətində başlanan ilk yürüşü müvəffəqiyyətli adlandırmaq olmazdı. Yunanların Dvini, Naxçıvanı və atəşpərəstlərin məbədi yerləşən Qanzdakı dağıtmalarına baxmayaraq geri çəkilərkən farslar onları elə sıxışdırmışdılar ki, yunanlar ələ keçirdikləri bütün əsirləri itirdilər, özləri isə yalnız Karalaqa* dağlarında farsların təqibindən uzaqlaşa bildilər.

* İran Azərbaycanın şimal-şərq hissəsində dağlar.

Özünə müttəfiqlər axtaran İrakli Aqvan, erməni və gürcü knyazlarına məktub yazaraq təklif etdi ki, «könüllü şəkildə köməyə gəlib bütün qışı qoşunları ilə birlikdə xidmətdə dayansınlar; boyun qaçırsalar, onlarla bütpərəstlər kimi rəftar edəcək, qoşunları onların qalalarını ələ keçirəcək, ölkələrini viran qoyacaqdır». Lakin erməni və gürcü knyazları qətiyyən fars əsarətini yunan əsarətinə dəyişmək istəmirdilər, aqvan knyazları isə möhkəmləndirilmiş qalalarına çəkilərək İraklinin muzdlu əsgərlərinə onların müdafiəsiz qalmış gözəl bağlarını və tarlalarını viran qoymaq imkanı verdilər.

624-cü ildə üç fars ordusu İraklini mühasirəyə aldı. Lakin o, mühasirəni yardı və «keçilməz, çətin və narahat yollarla» Naxçıvan düzənliyinə geri çəkildi. Farslar geri çəkilən yunanları dabanqırma təqib edirdilər. Bunu görən lazlar və abazqlar Bizans ordusunu tərk etdilər. Lakin vəziyyətin çətinliyinə baxmayaraq İrakli fars ordusunu daha bir məğlubiyyətə uğratdı və əvvəlcə Kilikiyaya, oradan isə Sebastiyaya geri çəkildi.

Döyüş kampaniyası başa çatdı. Əslində bu geri çəkilən ordunun arasıkəsilməz qələbələrindən ibarət idi. Arxa bazası və təchizatı olmadan manevr etmə qabiliyyəti İraklini böyük sərkərdə və siyasətçi kimi səciyyələndirməyə imkan verir. Moisey Kalankatuylu özünün gözəl «Aqvan tarixi» əsərində bu yürüşün nəticələrinin dərin və ədalətli qiymətini vermişdir.. «Fars qoşunları ciddi məğlubiyyətlərə uğrasalar da, təqibləri dəf etdilər və düşməni onun öz ölkəsinə qovub apardılar, onun zorla ələ keçirdiyi şəhərləri geri aldılar».

Doğrudur, İraklinin hücumu axıra çatdırılmadı, lakin ən dəhşətlisi o idi ki, Bizans imperatoru düşmənin qarşısında tək qalmışdı. Zaqafqaziya xristianları, həm də yalnız monofizitlər deyil, halkedonitlər də fars ağalığı ilə barışmadılar və pravoslav imperatora nəinki yardım göstərirdilər, hətta məsələn, Kartlinin hökmdarı Stepan kimi birbaşa onun əleyhinə çıxırdılar.

Bu arada avarlar yenidən özlərinə gəldilər və farslarla birlikdə Konstantinopol üzərinə hücuma hazırlaşmağa başladılar. Bizans imperatoru daha ləngiyə bilməzdi. O, mütləq özünə müttəfiq tapmalı idi və İrakli belə bir müttəfiqi tapdı.

625-ci ildə o, Andrey adlı «ağıllı və tədbirli bir şəxsi hədsiz sərvətlər vədi» ilə xəzərlərin yanına göndərdi. «Şərq hökmdarının canişini Cebqu-xaqanın, hökmdarlıqda ikinci adamın adından böyük məmnuniyyətlə belə cavab verdi: «Mən onun (İraklinin düşmənlərindən qisas almaq üçün səfərə çıxacağam, özüm igid qoşunlarımla onun köməyinə gələcəyəm, lazım olan işləri öz qoşunumla, qılınc və oxumla onun istədiyi kimi görəcəyəm». Min nəfər süvarinin müşayiəti ilə göndərilən cavab səfirliyi fars gözətçi məntəqələrinin əhatəsindən keçərək İraklinin düşərgəsinə gəldi və müqavilənin bağlandığını təsdiq etdi. O biri il vəd olunan qoşunlar Aqvaniyada və Atropatkanda təxribatçılıq əməliyyatlarına başladılar.

Həmin dövrdən etibarən Bizans tarixçiləri türkyutlarla xəzərləri eyniləşdirirlər. Ehtimal ki, bu xəzərlərin Xəzəryanı çöllərdə xaqanlığın əsas istinadgahına çevrilməsi ilə əlaqədardır.

Beləliklə, Qərb xaqanlığı Çinlə dostluq və təbii ki, Şərqi türkyut xaqanlığı ilə düşmənçilik münasibətlərini saxlamaqla İranla Bizans arasındakı mübarizəyə qoşuldu. Düşmənçilik halqası qapandı: bir tərəfdən Çin, Qərbi türkyut xaqanlığı və Bizans imperiyasının, o biri tərəfdən isə Şərqi türkyut xaqanlığı, İran və avarlar dövlətinin daxil olduğu iki güclü koalisiya yarandı.

Ortaya belə bir sual çıxır: bu koalisiyalar həqiqətən də diplomatik danışıqların bəhrəsi kimi meydana çıxmışdı, yoxsa burada sadəcə dövlətlərin yalnız eyni vaxta təsadüf edən hərbi çıxışları faktı mövcud idi? 589-cu il situasiyasında olduğu kimi burada da koalisiyanın bütün üzvləri arasında müəyyən əlaqə müşahidə edilir. Bizans qərbi türkyut xanının canişini ilə müttəfiqlik haqqında müqavilə bağlamışdı. Qərbi türkyut xanları Şequyan və Tun-cabqunun əvvəlcə Suy, sonra isə Tan sülaləsi dövründə Çin dövləti ilə ittifaqı Çin xronikalarında rəsmən qeydə alınmışdır. Bizansın Çinlə, İranın isə şərqi türkyutlarla əlaqəsi məsələsi açıq qalır. Bu əlaqəni təsdiq edən sənədlər mövcud deyil, lakin bu reductio ad Silentium məntiq baxımından qeyri-mümkündür. Ona görə də VII əsrin 20-ci illərində Şərqi türkyut xaqanlığı ilə İran arasında diplomatik əlaqələrin mövcudluğunu mümkün saymaq onların olmadığını ehtimal etməkdən daha çox həqiqətə uyğundur. Təəssüf ki, ərəb fütuhatı zamanı Sasanilərin arxivləri məhv olmuşdu, çinlilər isə öz düşmənlərinin məxfi diplomatiyasından xəbər tutmaya bilərdilər.

Bizansla Çin arasındakı əlaqəyə gəldikdə isə yalnız belə bir əlaqənin mövcudluğu İrakli ilə Xosroy Pərvizin varisi Kavad Şiruyənin separat sülh müqaviləsini izah edə bilər. Bu sülh qəribə şəkildə şərqi türkyutların son fəallığı ilə eyni vaxta düşür. Müvəffəqiyyət qazanılacağı təqdirdə şərqi türkyutlar qərbdəki həmtayfalarına zərbə endirər və İraklini İranla mübarizədə özünün yeganə müttəfiqindən məhrum edirdilər. Bununla bir sırada qərbi türkyutların Azərbaycandakı qalibiyyətli hərəkətləri Çində məlum idi. Ehtimal ki, daim Qərblə Şərq arasında hərəkətdə olan Soqdiya tacirləri müharibənin bütün dəyişiklikləri barəsində öz müttəfiqlərini vaxtında xəbərdar edirdilər.

Müharibənin səbəbləri və hərəkətverici qüvvələri məsələsinə keçərkən qeyd etmək zəruridir ki, birinci koalisiyanın bütün üzvləri — Bizans, Çin və Qərbi türkyut xaqanlığı karvan ticarətinin inkişafına maraq göstərirdilər. Bizans və Çinə gəldikdə burada elə bir əlavə dəlil-sübuta ehtiyac yoxdur. Qərbi türkyut xaqanlığına münasibətdə məsələ mürəkkəbdir. Yuxarıda göstərildiyi kimi, bu xaqanlıqda iki partiya, yaxud iki tayfa ittifaqı — iqtisadi cəhətdən şimali türkyutlar və Turfanla (həmin dövrdə onun ərazisində devrilmiş Suy sülaləsinin tərəfdarları möhkəmlənmişdilər) əlaqədar olan şimal-şərq köçəriləri — dulular və Soqdiyanın ticarət şəhərlərinə meyl göstərən cənub-qərb köçəriləri — nuşibilər mübarizə

aparırdılar. Soqdiya şəhərlərinin mənafeləri Çin və Bizansla sıx bağlı olduğundan nuşibilər çinpərəst mövqe tuturdular. Qərbi türkyut xanları Şeqüy (611—618) və Tun-cabqu (618—630) nuşibilərin əlaltıları idilər. Onların Çinlə birlikdə Şərqi türkyutlara, Bizansla birlikdə İrana qarşı ittifaqı da buradan irəli gəlirdi.

Beləliklə, səhvə yol vermədən ehtimal etmək olar ki, xüsusi, yerli məqsədlərdən əlavə birinci koalisiyanın əsas məqsədi Avropa ilə Çin arasında azad və təhlükəsiz ticarəti təmin etməyə göstərilən ümumi cəhd idi.

İkinci koalisiya üzvlərinin məqsədləri müxtəlif idi. Avarları daha çox qəsb-qarət maraqlandırırdı. İranın isə Bizansla çoxdankı haqq-hesabı vardı.* Çində güclü hakimiyyətin yaranması şərqi türkyutların siyasi və iqtisadi müstəqilliyini aradan qaldırmaqla təhdid edirdi. Bunu Suy sülaləsinin gücləndiyi əvvəlki dövrün tarixi də aydın göstərmişdi. Ona görə də türkyut xanları var qüvvələri ilə Çindəki bütün üsyan və qarmaqarışıqlıqlara yardım göstərir, minlərlə siyasi mühacirə sığınacaq verirdilər. Çin üsyançılarından başqa Kat İl-xanın iki müttəfiqi də var idi.

Şərqdə kidan və tatab (xi) tayfaları uyğurların yolu ilə getmədilər və xaqanlığa sədaqətlərini saxladılar. VII əsrin 20-ci illərində onlar teles bölməsini təşkil edirdilər, Şibir-xanın oğlu, taxt tacın varisi Şabobinin şəxsi idarəsi altında idilər. Kidanlar Tan sülaləsinə açıq-aşkar düşmən münasibət bəsləyirdilər, tatablar isə üstəlik, iddiaçılardan biri olan Qao Kay-dao ilə ittifaqa girərək onunla birlikdə Çinin hüdudlarına soxulmuşdular.

Şərqi türkyutların ikinci müttəfiqi 615-ci ildə, Suy sülaləsinin süqutu zamanı azadlığa çıxan Toqon oldu. Əvvəllər Toqon hökmdarı Fuyun Tan iddiaçısına kömək göstərirdi. Lakin o, girov götürülmüş adamları geri qaytaran kimi Fuyun düşmənlərin cəbhəsinə keçdi. Güman etmək olar ki, burada incə siyasi ehtimallar deyil, həm çinlilərdən, həm də onların müttəfiqi qərbi türkyutlardan başı çox çəkmiş və buna görə də intiqama can atan Toqon xalqının əhvali-ruhiyyəsi mühüm rol oynamışdı. Toqonluların qüvvələri o qədər də böyük deyildi, lakin sərhəd xəttinin qərbə doğru getdikcə uzanması tabqaçlıların qüvvələrini parçalayır və türkyut zərbələri üçün açıq olan şimal sərhədini zəiflədirdi. Ona görə də Toqon türkyut xanı üçün çox qiymətli müttəfiq idi.

**Hücum.** Kat İl-xan başa düşürdü ki, qardaşlarının başladıqları müharibə artıq çoxdan adi sərhəd narazılıqları həddini keçib və indi yalnız Çin üsyançılarının yardımı ilə məhdudlaşmaq onun özünü məhvə apara bilər. Ona qələbə qazandıra biləcək yeganə yol bütün qüvvəni toplayaraq həlledici zərbə endirmək idi.

---

* İran hökumətinin maneçilik tədbirləri haqqında yuxarıda danışılmışdı. Bu tədbirlərin 628-ci ilə qədər davam etməsi fars əyanlarının Xosroy Pərvizi taxtdan salarkən dedikləri aşağıdakı sözlərdən bilinir: «Nə vaxta qədər yollar bağlı olacaq və ölkəmizin xeyrinə maneçilik törədəcəkdir». Aydın məsələdir ki, qadağan siyasəti və ticarətin sıxışdırılması bütün ölkələrin tacirlərində Sasanilərə qarşı nifrət doğurmaya bilməzdi. Müharibənin digər səbəbləri haqqında Bizans tarixindən öyrənmək olar.

Qüvvələrə gəldikdə isə onlar kifayət qədər idi. Mənbədə deyilir: «O, atası və böyük qardaşının topladıqları böyük əmlaka, habelə çoxsaylı və əla süvarilərə malik idi».

Müharibənin başlandığı məqam türkyutlar üçün əlverişli idi. Li Şi-min 621-ci ildə özünün ən seçmə qoşun hissələri ilə Loyan altında Van Şi-çun və Dou Qyan-de ilə vuruşurdu.

İmperator Qaotszu (Li Yuan) dünyada hər şeydən çox məhz bu məqamda türkyutlarla konfliktə girməkdən qorxurdu. Lakin o, yaranmış vəziyyətdə tamamilə yanlış yol tutdu. İmperator təzədən dostluq əlaqələri yaratmaq üçün Kat İl-xana 100 min dəst ipək parça göndərdi. Xan isə bunu imperatorun qorxaqlığı və zəifliyi kimi qiymətləndirərək, Çin elçilərini həbsxanaya saldı. Çinlilər cavab tədbiri kimi Çanyanda iki hörmətli türkü — Jexayı və Aşide-təkini həbs edib zindana atdılar. Bu da müharibəni başlamaq üçün bəhanə oldu.

Türkyutlar Şansiyə soxulub Mai qalasını ələ keçirdilər. Tabğaç qoşunları darmadağın edildi, sərkərdələri isə əsir tutuldu. Elə təəssürat yaranırdı ki, Tan qoşunlarının Loyan altındakı qələbəsi ilk vəziyyəti düzəldib. Lakin dağıdılmış qoşunların zabitləri haqqında yuxarıda danışdığımız Lyu-Xey-danı başçı seçib mübarizəni davam etdirməyə başladılar. Türkyutların yardımı 622-ci ildə üsyançılara Şanduna soxulmağa imkan verdi. Eyni vaxtda türkyutların əsas qüvvələri Binçjou üzərinə yürüş etdilər və Çin ordusunun böyük bir hissəsini özlərinə tərəf yönəltdilər. Nəticədə Lyu Xey-da şərqdəki müvəffəqiyyətlərini daha da genişləndirdi. Hökumət qoşunlarının əks-hücuma keçərək türkyutları Mai qalasından vurub çıxarmaq təşəbbüsləri uğursuzluğa uğradı. Bundan sonra türkyutlar Yaymını ələ keçirdilər, Fın-çjou və Luçjou əyalətlərini soyub taladılar və çölə qadınlı-kişili 50 min nəfər əsir apardılar.

Yalnız bütün qüvvələrin səfərbərliyə alınması Tan qoşunların türkyutların hücumunu dayandırmağa imkan verdi. Li Şi-min və onun böyük qardaşı Li Qyan-çen qabağa soxulmuş bir neçə türkyut dəstəsini əzdilər və onların əsas qüvvələrini geri çəkilməyə məcbur etdilər. Eyni vaxtda türkyut xanı bahalı hədiyyələr aldı. Bu isə onu sülh bağlamağa vadar etdi. Bu məşum səhv idi: türkyutlar hücum sürətini əldən verdilər.

Yaranmış fasilədən istifadə edən vəliəhd Qyan-sen bütün diqqətini Lyu Xey-daya yönəldərək pul, vədlər və intriqalar vasitəsi ilə onun ordusunu sarsıtmağa nail oldu. Lyu Xey-da özünə gəlməyə macal tapmamış ən etibarlı silahdaşları onu tərk etdilər, yerdə qalanları isə öz sərkərdələrini tutub Tan vəliəhdinin yanına gətirdilər. Lyu Xey-da 623-cü il fevralın 7-də edam olundu. Şərqdə üsyan yatırıldı.

Qərbdə isə həmin vaxtda Şansi əyalətinə soxulmuş toqonlular bir-birinin ardınca məğlubiyyətə uğrayırdılar. Onlarla döyüş zamanı Tan sərkərdəsi misli görünməmiş taktiki fəndə əl atmışdı. Musiqiçilər və rəqqasələr döyüş meydanının yaxınlığındakı kiçik təpənin üstünə çıxmış, tamaşa başlanmışdı. Bu dərhal toqonluların diqqətini cəlb etmiş, onlar hər şeyi unudaraq qəşəng çinli qızlara

baxmağa başlamışdılar. Elə bu vaxt Çin qoşunu onların arxasına keçərək hücuma atılmışdılar. Çinlilər heç kimi əsir götürmürdülər. Yalnız atları ayaqdan iti olan toqonlular canlarını qurtara bilmişdilər.

623-cü ilin payızında türkyutlar təzədən basqınlara başladılar. Lakin fürsət əldən verilmişdi və döyüş əməliyyatları tərəflərdən gah birinin, gah da o birinin üstünlüyü ilə davam edirdi. Yalnız 624-cü ildə hər iki türkyut xanı — Kat İl-xan və onun qardaşı oğlu Şibobi teleslərin xanı bütün cəbhə boyu irəliləyərək «hamını qorxuya saldılar». Onlara qarşı Li Şi-minin və onun kiçik qardaşı Li-Lun-kinin komandanlıq etdiyi iki Çin korpusu dayanmışdı. Düşməni adi döyüş üsulları ilə dayandıra bilməyəcəyini görən Li Şi-min qabağa çıxaraq Kat İl-xanı təkbətək döyüşə çağırdı. Kat İl-xan gülümsündü, lakin heç nə demədi. Onda Li Şi-min atını Şibobi xanın yanına sürdü, onun atının yüyənindən yapışaraq dedi: «Biz bir vaxtlar ittifaq bağlamışdıq. Əgər sən fəlakətə düşmüsənsə, mən kömək edə bilərəm. Yoxsa sən andını unutmusan? Sən qələbəni qanlı döyüşdə qazana bilərsənmi?» Teleslərin xanı heç bir cavab vermədi. Aydın deyil — həqiqətəndimi onun Li Şi-minlə gizli əlaqələri vardı, yoxsa bu türkyut xanlarını bir-biri ilə dalaşdırmaq üçün Tan şahzadəsinin son dərəcə incəliklə istifadə etdiyi fitnəkarlıq idi? Hər halda o istədiyinə nail oldu.

Kat İl-xan qardaşı oğlunun xəyanətindən şübhələnərək döyüşə girmədən qoşununu meydandan çəkdi. Barışıq bağlandı və təbii ki, heç bir nəticə verməyən danışıqlar başlandı. Elə bu arada yağış yağmağa başladı. Yağış nəticəsində türkyutların oxları islanıb ağırlaşdı. Hər iki xan geri çəkilməli oldu. İmperator və onun yaxın adamları elə qorxmuşdular ki, paytaxtı cənuba köçürmək istəyirdilər, lakin Li Şi-min əslində özünüintihara bərabər sayılan bu ağılsız addıma mane ola bildi. Sərhəddin möhkəmləndirilməsi üçün tədbirlər görüldü, Xuanxedə isə türkyutların çaydan keçməsinin qarşısını almaq üçün avarçəkənlərdən ibarət donanma yaradıldı. Bundan sonra imperatorun elçiləri qərb çöllərinə yol tapdılar və Tun-cabqu xanı şərqi türkyutlara qarşı hərbi müqavilə bağlamaq üçün dilə tuta bildilər.

Kat İl-xan çox güman ki, geriyə çəkilməsini möhkəm sülh bağlamaq üçün bəhanə sayırdı. Müharibənin bundan sonra da davam etdirilməsi onun üçün arzuolunan deyildi. Çünki 624-cü ilin sonlarında tabqaçlar artıq bütün Çini ələ keçirmişdilər və ölkə daxilində onlara müqavimət göstərə biləcək elə bir qüvvə qalmamışdı. Xan ticarət ittifaqı bağlamağı təklif etdi. Buna dərhal imperatorun razılığı alındı. Lakin imperator fəal şəkildə müharibəyə hazırlaşdığından xanın illüziyaları dərhal dağıldı.

625-ci ildə türkyutlar yenidən Şansiyə soxuldular. Onların dəstələrindən biri darmadağın edildi. Lakin bunun müqabilində ikinci dəstə parlaq qələbə qazandı, Türkyutların basqınları bir qayda olaraq həmişə müvəffəqiyyətlə nəticələnirdi, ancaq qalaların mühasirəsi heç bir nəticə vermirdi. Müharibənin taleyi yalnız açıq

döyüşdə həll oluna bilərdi, lakin Çinin daxilində baş verən hadisələr həqiqət məqamını bir qədər də təxirə saldı.

**Çində çevriliş.** Süvari generalı olduğu vaxtlarda Li Yuan qeyri-adi enerji, tezfəhmlilik və qətiyyət nümayiş etdirirdi. Lakin imperator Qaotszuya çevrildikdən sonra o üstünə tökülən qayğılardan özünü itirdi. VII əsrdə Çin qazan kimi qaynayırdı. Ölkəni fəth etmək az idi, indi onu sakitləşdirmək lazım idi. Lakin Li Yuan bu işin öhdəsindən gələ bilmədi. O, yaxşı sərkərdə olsa da uzaqgörən siyasətçi deyildi, odur ki, qələbədən sonra daha az müqavimət göstərmək yolu ilə getdi. Əslində həm şərait, həm də uzun illərin yorğunluğu onu bu yola çəkirdi.

Quanlun qruplaşmasındakı mülkədarların heç də hamısı Suy sülaləsinin müdafiəsi zamanı həlak olmamışdı. Onların böyük bir qismi əhvi-ümumiyə düşmüş və minnətdarlıqlarını bildirmək üçün saraya gəlmişdilər. Həmin mülkədarlar Çanyanda elə şərait yaratmağa nail olmuşdular ki, Qaotszu onlarla yaxınlaşmış və kömək təkliflərini qəbul etmişdi. Quanlun qruplaşması qalıqlarının arzusu Suy epoxasının qayda-qanunlarını bərpa etmək idi, yəni imperator ailəsi üçün sarayda əhlikef həyat tərzi yaratmaq, dövlətin idarə olunmasını loyallıqları heç bir şübhə doğurmayan konfutsiçi məmurlara tapşırmaq, geniş kütləni isə əvvəlki vəziyyətlərinə qaytararaq onları səssiz-səmirsiz öz işlərini görməyə və vergi ödəməyə məcbur etmək istəyirdilər. Taxt-tacın varisi Li Qyan-çen və imperatorun üçüncü oğlu şahzadə Li Lun-ki bu təmayülün başçıları idilər.*

Onların proqramı əsasında Çanyanda akademiya təsis olunmuşdu. Bu akademiyada konfutsiçi professorlar əyanların uşaqlarını gələcəkdə dövlət vəzifələri tutmağa hazırlayırdılar. 626-cı il mayın 24-də isə buddizmi və daosizmi məhdudlaşdırmaq haqqında fərman imzalandı. Həmin fərmana görə bir çox rahiblər vergi ödəyənlər silkinə keçirilir, monastırların əmlakı isə xəzinəyə verilirdi. Bu tarixin təkərini geriyə çevirmək üçün göstərilən cəhd idi.

Yeni qaydaların qurbanları xalq kütlələri olmalı idilər. Titullu varlılar təzədən onların boyunlarında oturmaq istəyirdilər. Bütün qüvvəsini sərhədlərinin müdafiəsinə həsr edən, buna görə də rütbə almaq üçün imtahan verməyə vaxt və vəsait tapmayan titulsuz zadəganlar da, onların başçısı, hərbi müvəffəqiyyətlərinə görə qardaşlarının nifrət bəslədikləri Li Şi-min də, buddizmə və daosizmə rəğbətlə yanaşan geniş kütlələr də, habelə xarakterinin tipinə, yaxud tanışlıq əlaqələrinin olmadığına görə professional alimlər sırasına düşə bilməyən savadlı adamlar da əslində həmin qaydaların qurbanlarına çevrilirdilər. Yeni proqram Çin üçün bütövlükdə türkyutlar qarşısında təslim olmaq demək idi və artıq Çanyanda paytaxtı cənuba köçürmək, habelə güzəştli sülh bağlamaq haqqında danışırdılar.

* Hadisələrin təqdim olunan şərhi tədqiqat müəllifinə məxsusdur. Başqa tədqiqatçıların əsərlərində şahzadələrin qarşılaşması hakimiyyət uğrunda şəxsi mübarizə kimi nəzərdən keçirilir.

Lakin ölkədə həlledici qüvvə saray deyil, şahzadə Li Şi-minin komandanlıq etdiyi ordu idi.

Saray qaragürhçuları hər şeydən əvvəl öz əleyhdarlarını ağıllı rəhbərdən məhrum etmək istəyirdilər. Ziyafət zamanı Li Şi-minin xörəyinə zəhər qatdılar, lakin o, ölmədi, ağır xəstəlikdən sonra yenidən ayağa qalxdı. Bundan sonra Li Şi-min özünü daha ehtiyatlı aparır və hərbi düşərgədə onu həddindən artıq sevən döyüşçülərinin arasında yaşayırdı. İşi belə görən qardaşları atalarını dilə tutdular ki, Li Şimini saraya çağırsın. Onunla burada haqq-hesabı çürütmək istəyirdilər. Li Şi-min qardaşlarının niyyəti barəsində xəbərdar edilmişdisə də əsil çinli kimi atasının sözündən çıxa bilməzdi. 626-cı il iyulun 2-də o, atasının çağırışı ilə saraya gəldi. Lakin şahzadə tək deyildi. Ən cəsur döyüşçülərdən seçilmiş çoxsaylı və yaxşı silahlanmış yaxın adamları da onunla birlikdə saraya gəlmişdi. O, qəbul otağına əldə silah, dostu, voevoda Çin-de ilə birlikdə daxil oldu və zalda qardaşlarını gördü. Li Qyan-çen heç bir söz demədən yayı çəkib oxu Li Şi-minə atdı, lakin onun zərbəsi yan keçdi. Əvəzində isə Li Şi-min cavab zərbəsi ilə onu yerindəcə öldürdü. Çin-de isə Li Lun-kini aradan götürdü. Bundan sonra saray Li-Şi-minin hökmü altına keçdi. Qoca imperator qardaşlarının cinayətkar sui-qəsdi haqqında oğlunun məlumatını dinlədikdən sonra tökülmüş qanı ona bağışladı. Li Şi-mini vəliəhd təyin olunduğunu bildirdi, ən başlıcası isə buddizmin və daosizmin yasaq olunması haqqındakı fərmanı ləğv etdi. Bu hadisələri bir-biri ilə sıx əlaqələndirməmək qeyri-mümkündür.

626-cı il sentyabrın 4-də Li Yuan oğlunun xeyrinə taxt-tacdan imtina etdi. Li Şi-men Taytszun titulu ilə taxta çıxdı. Vəziyyətin bu cür dəyişməsi Şərqi türkyut xanı Kat İl-xanın düçar olduğu müvəffəqiyyətsizliklərin ən böyüyü idi.

Yeni imperator ölkə hüdudları xaricində müharibələr aparmaqla daxili sülhə nail oldu. İlk növbədə o, öz qardaşlarının əlaltılarının böyük bir hissəsini əfv etməklə hamını heyrətdə buraxdı. Daha sonra o, sarayda xidmətə gətirilmiş 3 min qızı evlərinə buraxıb*, sarayın cah-cəlallı həyatını kökündən dəyişdirərək üstəlik vergiləri də azaltdı. Əsas istinadgahı olan zadəganların xeyrinə olaraq o, şəcərə siyahılarını bir daha nəzərdən keçirməklə Suy sülaləsinin hakimiyyəti illərində irəli çıxmış «güclü nəsillərə», böyük varlı torpaq sahiblərinə sarsıdıcı zərbə endirdi və Çin tarixçisinin yazdığı kimi, imperator bu yolla «səma oğullarını çıxılmaz tələyə saldı». Yoxsullaşmış zadəganların hərbi və mülki mənsəb yolları açılmış kasıb nəsilləri bundan qazandılar. Dərhal bütün macəra axtaran ünsürlər orduda özlərinə yer tapdılar, imperiyanın təsərrüfatı maneəsiz inkişaf etməyə, cəbhədəki vəziyyət isə yaxşılığa doğru dəyişilməyə başladı. Çin özünün çiçəklənmə mərhələsinə qədəm qoydu. Bunu birinci hiss edənlər şərqi türkyutlar oldular.

* Sarayda xidmət üçün gözəl qızlar göndərmək ən ağır mükəlləfiyyətlərdən biri idi. Qızlar sarayda qulluqçuluq və cariyəlik edirdilər. Onların öz şəxsi həyatlarını qurmağa heç bir imkanları olmurdu.

**Sülh bağlanması.** Taytszuna ağır irs qalmışdı. Suy sülaləsinin devrilməsi Çin əhalisinin üçdə ikisinin itirilməsi nəticəsində mümkün olmuşdu.* Kəndlilərin çoxu öldürülmüş, yaxud acından ölmüş, qalanları isə tarlalarını tərk edərək dağılışmışdılar. Məmurlardan birinin imperatora məruzəsində deyilirdi: «Lo və İ əyalətlərindən Şərqə doğru, Şandunun Xay və Day əyalətlərinə qədər nadir hallarda insan izlərinə təsadüf edilir, göz işlədikcə hər yeri qalın otluq və kolluqlar bürüyüb». Türkyutlar isə öz hücumlarını davam etdirirdilər. Onlar «öz basqınları ilə Çin torpağına süpürgə çəkmişdilər». Şahzadələrin hakimiyyət uğrunda mübarizə apardıqları aylarda türkyutlar hərbi əməliyyatları artıq xarabazarlığa çevrilmiş Şansi əyalətindən Qansuya keçirmiş və buranı da soyub-talamışdılar. Çox güman, onların məqsədi əvvələ döyüş əməliyyatlarını yerli əhalinin hesabına aparmaq, ikincisi yenidən müttəfiqləri toqonluları müharibəyə qaldırmaq (yeri gəlmişkən, türkyutlar buna nail oldular), üçüncüsü paytaxta yol açmaq və Çin hökumətini qalada gizlənməyə məcbur etmək idi ki, milçək kimi qırılan təbəələr nəhayət dözməyib öz hökumətlərinin əleyhinə üsyan qaldırsınlar. Bu hücum sonuncu hücum ola bilərdi, lakin imperator və sərkərdə Taytszun Li Şi-minin özünə məxsus olan sərtlik və istedadı ilk baxışdan ümidsiz görünən vəziyyətdən çıxış yolu tapmağa imkan verdi.

Sentyabrın 23-də Kat İl-xan 100 minlik ordunun başında Çanyana daxil oldu. İmperator döyüşə girməyi qərara aldı, lakin, Çin qoşunları şəhərdən çıxıb döyüş səflərinə düzülərkən o, bir neçə nəfərin müşayiəti ilə Vey çayına yaxınlaşdı, qışqıra-qışqıra xanı xəyanətkarlıqda günahlandırmağa başladı, sonra onun lap yaxınına gəlib atının cilovundan yapışdı və döyüşə hazırlaşmağı əmr etdi. İmperatorun cəsarəti və onu müşayiət edən Çin döyüşçülərinin hərbi hazırlığı xana və türkyut ağsaqqallarına güclü təsir göstərdi. Elə həmin gün sülh bağlandı. Əlamətdar hadisə münasibəti ilə körpünün üstündə ağ at kəsildi. Türkyutlar imperatorun xahişi ilə əsir tutduqları bütün çinliləri geri qaytardılar və geriyə, çölə qayıtdılar.

Ehtimal ki, Çinin müttəfiqi olan Qərbi türkyutların yürüşə hazırlaşmaları hadisələrin belə şəkil almasına təsir göstərdi. Kat İl-xan öz köçlərini müdafiəsiz qoymağa risk etmədi.

Vey çayı üzərində bağlanan sülh müqaviləsi Tun-cabqu-xanın şərqə yürüş planını pozdu, lakin xan İran — Bizans müharibəsinin kulminasiya nöqtəsinə çatdığı Qərbdə düşdüyü ziyanının əvəzini artıqlaması ilə çıxdı.

Bağlanmış sülh müqaviləsinin qiymətini imperator Taytszun özü verdi. O, yaxın adamının nə üçün döyüşə girərək düşməni məhv etməməsi haqqında sualına cavab verərək bildirdi ki, bu mümkün idi, hətta asanlıqla qələbə çalmaq olardı, lakin həmin qələbə qarşıya qoyulmuş məqsədə aparıb çıxarmazdı. Düşmən

* 606-cı ildə ölkədə 8, 9 milyon, 627-ci ildə isə 3 milyondan az kəndli təsərrüfatı var idi.

əzilərdi, lakin qəti məğlub edilməzdi, ürəklərinə dolan nifrət onlara yeni qüvvə verərdi. Bahalı hədiyyələr və ipək parçalar aldıqdan sonra isə o, lovğalanacaq, «lovğalıq isə həmişə məhvə aparır». Taytszun haqlı idi. Bundan sonra gələn üç illik sülh dövründə onun dövləti möhkəmlənərək qüvvə topladı, türkyut xanı isə artıq itirilmiş təşəbbüsü özünə qaytara bilmədi. Yarımçıq hücum çox vaxt məğlubiyyətdən ağır olur. Tezliklə bunu türkyutlar özləri də hiss etdilər.

## XV f ə s i l

## VII ƏSRİN DÜNYA MÜHARİBƏSİ

**Qafqaza hücum.** 626-cı ilin yayında avarlar və farslar Konstantinopol üzərinə hücumu təzələdilər. Bu məhz Kat İl-xanın şərqi türkyut atlılarının başında Çinə basqın etdiyi vaxta düşdü. Təbii ki, hadisələrin bu cür uyğunluğu əsla təsadüfi ola bilməzdi. İyunda avar süvariləri imperiyanın paytaxtını qurudan müdafiə edən Uzun divara çatdılar, farslar isə Bosforun laciverd sularına yaxınlaşdılar. Lakin yunanlar farslara Avropa hissəsinə keçməyə imkan vermədilər. Ona görə də avarlar hücuma tək getməli oldular. Avqustun 7-də onlar tam məğlubiyyətə uğradılar və şimala qaçdılar, fars korpusu isə Suriyaya tərəf geri çəkildi. İrakli yenə də hücuma keçmək imkanı əldə etdi. Bu dəfə onun çoxdan gözlədiyi kömək də gəlib yetişdi.

Vey çayı üzərindəki sülh Tun-cabqu-xanın əl-qolunu açmışdı. O, şərq sərhədləri sıradan arxayın olduqdan sonra bizanslıların yardımına yetişmək üçün qoşunlarının bir hissəsini qərbə göndərdi. Farslar türkyutlara o qədər də mühüm diqqət yetirmirdilər, çünki Zaqafqaziyaya gedən yolun üzərindəki Dərbənd qalasının alınmazlığına əmin idilər. Xosroy Ənuşirvanın hakimiyyəti illərində tikilmiş əzəmətli divar Xəzər sahili boyunca 40 km. uzanır və düşmən süvarilərinə qarşı ən etibarlı sipər təsiri bağışlayırdı.

Nizami fars qoşunları qərbdə vuruşurdu, ona görə də aqvanlılar yeni düşməndən təkbaşına müdafiə olunmalı idilər. Aqvanların xalq ordusu olduqca ibtidai şəkildə silahlanmışdı — onların silahları ox və qısa nizələrdən ibarət idi. Zirehli geyim, hətta qalxan da tələb edildiyindən qat-qat az idi. Nizələrlə silahlanmış piyada qalxançılar qoşunun xüsusi növünü — falanqanı təşkil edirdilər, yalnız hərbi başçılar o zamankı texnikanın son tələbi əsasında təchiz olunmuşdular. Onlar zirehli köynəyin üstündən keçə kaftan geymişdilər. Oxlar və nizələr bu cür paltarı deşib keçə bilmir, «kənara sıçrayırdılar». Ermənilər və gürcülər də belə silahlanmışdılar. Aydın məsələdir ki, bu cür döyüşçülər türkyutların zirehli süvarilərinin qarşısını saxlaya bilməzdilər.

Dərbənd qalasının divarları iri, yonulmuş daşlardan tikilmişdi. Onun hündürlüyü 18—20 metrə çatırdı. Şimal səmtindəki 30 qüllə qala divarlarının daha möhkəm qorunmasına kömək edirdi. Darvazaların üçü dəmirdən idi, divarın şərq qurtaracağı isə Xəzər dənizinin dərinliklərinə doğru o qədər uzanmışdı ki, onu

dolanıb keçmək qeyri-mümkündü. Lakin hər bir qala yalnız onu qorumaq istəyəndə və bunu bacaranda güclü olur.*

Dərbənd üzərinə hücumu Moisey Kaqankvatsi son dərəcə gözəl təsvir etmişdir: «...Qayşax (Aqvan knyazlarından olan fars canişini) böyük Çor* şəhərinin müdafiəçilərinin və onun heyrətamiz divarları (o divarlar ki, onun tikintisi üçün fars şahları ölkəmizi üzüb əldən salmışdılar) üzərindəki döyüşçülərin aqibətini gördü. Saçları dağılmış qadın simasında onların üzərinə gələn eybəcər, yaramaz, enlisifət, kirpiksiz kütlənin törətdiyi dəhşətləri görəndə şəhər sakinlərinin canına qorxu düşdü. Xüsusən oxları yağış kimi yağdıran güclü və sərrast oxatanları və hər cür həya hissini itirərək ac canavarlar kimi şəhərin küçə və meydanlarında adamları amansızcasına qırıb-doğrayan döyüşçüləri görəndə onların keçirdikləri dəhşət hissi birə min artdı. Kişilərin və qadınların nə cavanı, nə qocası, nə gözəli, nə ürəyəyatanı onların qəlbinə mərhəmət gətirmirdi, onlar hətta əlsiz-ayaqsız, heç bir işə yaramayan, zərərsiz qocalara da aman vermirdilər. Qılıncla doğranmış analarını qucaqlamış balaca oğlan uşaqlarını görəndə onların ürəkləri sıxılmır və ağrımırdı, əksinə, həmin qadınların döşlərindən qanı süd kimi sağırdılar. Alov quru qamışlığı bürüdüyü kimi onlar da bir qapıdan girib o birisindən çıxır və hər yerdə vəhşi heyvanlara və yırtıcı quşlara xas olan əməllərinin dəhşətli nişanələrini qoyub gedirdilər».

Alınmaz sayılan qalanın süqutu bütün Aqvaniyada vahimə yaratdı. Aqvanlar əvvəlcə öz paytaxtlarına — Partava qaçdılar, lakin şəhəri əldə saxlaya biləcəklərinə ümidli olmadıqlarından onu da tərk etdilər və dağlarda sığınacaq tapmaq qərarına gəldilər. Türkyutlar və xəzərlər qaçqınları Kaqankatuyk kəndinin yaxınlığında haqladılar, onların bir hissəsini qırdılar, bir hissəsini isə əsir götürdülər.

Bundan sonra Gürcüstanın növbəsi çatdı. Türkyutlar və xəzərlər «zərif, şərəfli, böyük ticarət şəhəri Tiflisi mühasirəyə aldılar». Tezliklə imperator İrakli də öz qoşunları ilə onlara qoşuldu. Müttəfiq ordu başçılarının görüşü son dərəcə təntənəli xarakter daşıyırdı — cabqu imperatora yaxınlaşıb onun çiynini öpdü və təzim etdi, Bizans imperatoru isə xaqanı qucaqlayaraq onu öz oğlu adlandırdı və tacını onun başına qoydu. Daha sonra Xəzər başçılarına ziyafət düzəldildi, onlar hamısı dəbdəbəli hədiyyələr — geyim şeyləri, sırğalar və s. aldılar, cabquya isə imperator öz qızı Yelenanı verməyi vəd etdi.

Başçıların qarşılıqlı lütfkarlıqlarına baxmayaraq şəhərin mühasirəsi pis gedirdi. Tbilisidəki fars qarnizonu mətinliklə dayanmışdı. Cəsur hökmdar Stefan hər gün qaladan çıxaraq düşmən üzərinə həmlələr edirdi. Doğrudur, belə həmlələrin birində o, öz başını itirdi, lakin tərəfdarları təslim olmaq niyyətində

---

* Balazuri şəhər divarlarını 100 fars atlısının qoruduğunu yazır. Çox güman ki, qalan qarnizon yerli əhalidən ibarət idi.

* Dərbəndin Alban tarixindəki adı.

deyildilər. Qoşunların isə heç biri hücuma keçməyə tələsmirdi. İrakli öz ordusunu qoruyur, cabqunun öz döyüşçülərinə heyfi gəlirdi. İki aylıq mühasirədən sonra Xəzər qoşunları gələn ilin payızında geriyə qayıdacaqlarını vəd edərək mühasirəni buraxıb getdilər.

İrakli ilə 40 min nəfər türkyut döyüşçüsü qaldı. Onların başında cabqunun cavan oğlu Bura şad dayanırdı. Ancaq bu döyüşçülər də yavaş-yavaş aradan çıxmağa başladılar və nəhayət hamı İraklini tək qoyaraq öz yurduna qayıtdı.

Tbilisidə şadlıq edir, imperatoru keçi* adlandıraraq onu ələ salırdılar. İrakli bunu uğurlu əlamət sayırdı, çünki Daniilin kitabında Qərbdəki Keçi bürcünün Şərqdəki qoyunun buynuzunu sındıracağı bildirilirdi. 627-ci ilin payızında o, mühasirəni götürdü və yaxşı istirahət etmiş qoşunlarını düşmənin arxasına başgicəlləndirici reydə apardı. İrakli Qərbdə Axalsıxa qədər geri çəkilərək şimala döndü və Dvindən yuxarı Araz çayını keçdi. Oradan isə Urmiya gölünün ətrafında fırlanaraq Dəclə çayının sahillərinə çıxdı və dekabrın 12-də Nineviyanın xarabalıqları yaxınlığında sərkərdə Raxzodun başçılıq etdiyi fars qoşunlarını tar-mar etdi. 628-ci il yanvarın əvvəllərində yunanlar artıq Ktezifon yaxınlığındakı şah saraylarını dağıdır və yandırırdılar. Farsların onların qarşılarını saxlamaq üçün heç bir qüvvəsi yox idi.

İran özünün bütün daxili imkanlarından istifadə etmişdi və artıq heç bir şey İraklinin qalibiyyətli yürüşünə mane ola bilməzdi. Sonrakı mübarizənin səmərəsizliyini görən fars əyanları 628-ci il fevralın 29-da saray çevrilişinə əl atdılar. Onlar Xosroyu taxtdan salıb edam etdilər, onun oğlu Kavad Şiruyəni taxta çıxardılar və yunanlardan sülh istədilər, İrakli gözlənilmədən çox asanlıqla farsların xahişi ilə razılaşdı. Əslində bu separat sülh müqaviləsi idi, çünki türk-xəzərlər müharibəni davam etdirirdilər.

İraklinin qəribə hərəkətini təhlil edərkən ona diqqət yetirmək lazımdır ki, Bizans imperatoru düz beş il etibarlı arxası olmadığına görə düşmənə həlledici zərbə endirə bilməmişdi. Suriya və Kiçik Asiyanın bir hissəsini farslar işğal etmişdilər, Zaqafqaziya xristianları ya monofizit idilər və yalnız buna görə Xosroy Pərvizin dinədözən hökuməti ilə asanlıqla barışırdılar, ya da Stefan İveriyalı kimi siyasi motivlərə əsaslanaraq İranla mülah müqaviləsi bağlayırdılar. Yalnız xəzərlərin yardımı İrakliyə əl-qol açmağa imkan verdi. Zaqafqaziyadakı fars təmayülünün qarşısını alan türk-xəzərlərin köməyi olmasaydı, Ktezifon üzərinə yürüş çətin ki, müvəffəqiyyətlə nəticələnə bilərdi.

Bəs İraklini nə məcbur etdi ki, belə dəyərli müttəfiqdən əl çəksin və düşmənin artıq əzildiyi dövrdə onu tam darmadağın etmək fikrindən daşınsın?

Əslində farsların yeganə real qüvvəsi—Şaxrvarazın Xalkidonu mühasirəyə almış ordusu 628-ci ilin başlanğıcında Xosroya qarşı üsyan qaldırdı, İraklinin oğlu

* Onun qan qohumu ilə nigaha girməsinə işarədir.

Konstantinlə sülh bağlayıb şahənşaha qarşı mübarizə aparmaq üçün geriyə — vətənə qayıtdı. Bunun səbəbi itaətdən çıxdığına görə Xosroyun Şaxrvarazı edam etmək əmri olmuşdu. Xosroyun həmin məktubu yunanların əlinə düşmüşdü, onlar isə məktubu Şaxrvaraza ötürmüşdülər. O da öz növbəsində şahın əmrinə özünün daha 400 zabitinin adını qoşaraq məktubu ordu qarşısında oxumuş və bununla da tezliklə hakimiyyətə onun özünü gətirib çıxaran üsyana səbəb olmuşdu. İkinci istedadlı fars sərkərdəsi, qərbin padqospanı Şahin də Xosroyun nəzərindən düşmüşdü. Xosroy onu ordudan geri çağırmışdı və məhkəməyə verməyə hazırlaşırdı, yalnız şahənşahın özünün edamı Şahinin həyatını xilas etdi.

Beləliklə, tam yəqinliklə demək olar ki, sülh müqaviləsi bağlanarkən İraklinin tələsməsini qərb hadisələri şərtləndirməmişdi. Təbii ki, cavab yalnız bir ola bilər. İrakli müttəfiqlərinin onu tərk edəcəklərindən və qələbəsinin bəhrələrini itirəcəyindən qorxurdu. Bu qorxu çox güman ki, 627-ci ilin şərq hadisələrinə əsaslanırdı. Onların nəticələrini qabaqcadan müəyyənləşdirmək isə qeyri-mümkün idi.

**Narahat barışıq.** Vey çayı üzərində sülh bağlandıqdan sonra ilk vaxtlar hər şey öz qaydasında idi. Şayiələr nəticəsində bütün böyük çöldə türkyut xanının igidliyi, cəsurluğu haqqında söhbət yayıldı və 627-ci ilin sonunda seyanto tayfası Qərb xaqanlığından ayrılaraq Şərq xaqanlığına qoşulmağı daha məqsədəuyğun saydı. Bir tərəfdən bu Şərq xaqanlığı üçün böyük müvəffəqiyyət idi, çünki bütün Şimali Cunqariya Kat İl-xana tabe idi və qərbdən gözlənilən təhlükə aradan qaldırılmışdı. Digər tərəfdən birləşmə Şərqi türkyut dövlətində teles ünsürlərini gücləndirirdi. Seyantolar uyğurlarla dil tapdılar. Artıq 628-ci ilin əvvəlində onlar müttəfiq idilər. Seyanto knyazı İnanla uyğur xanı Pusa qarşılıqlı surətdə biri-birinin tərəfini saxlayırdılar.

Yaranmış vəziyyətdə türkyutlar üçün ən təhlükəli amil narazı təbəələrin sayının çoxluğu idi. Çin mənbələrinə görə uyğurların sayı 100 minə çatırdı ki, onların da 50 mini (?) döyüşçü idi. Seyantolar isə 70 min çadır idilər, yəni sayca uyğurları da üstələyirdilər. Bu cür çoxsaylı və son dərəcə döyüşkən təbəələri yalnız onların razılığı əsasında idarə etmək mümkün idi, lakin siyasi vəziyyət türkyut hökmdarına belə bir razılığa nail olmağa imkan vermirdi.

Vey çayı üzərindəki sülhdən Kat İl-xan narazı qalmışdı: Tan imperiyasının qüdrəti hələ dəf edilməyəcək dərəcədə artmamışdı, qərbi türkyutların hücum təhlükəsi isə sovuşmuşdu, onlar İranla ciddi müharibəyə başladıqlarından hərbi qüvvələri Zaqafqaziyaya cəlb olunmuşdu. Artıq 627-ci ildə Kat İl-xan yeni yürüş haqqında fikirləşməyə başlamışdı. Bu mənada onun ilk addımı Tun-cabqunun Çin mələkəsi ilə nigahına qarşı çıxmaq oldu. Kat İl-xan cabqunu xəbərdar etdi ki, mələkə onun ərazilərindən keçəndə tutulub saxlanacaq. Tun-cabqu bundan bərk kədərləndi, lakin heç nə edə bilmədi. Lakin xoşbəxtlik artıq türkyut xanından üz döndərmişdi. 627-ci ilin qışı bərk qarlı idi; atlar və mal-qara kütləvi şəkildə

qırılırdı, bu isə öz növbəsində aclığa səbəb oldu. Xanın qoyduğu vergilər çox ağır idi, etiraz əlaməti olaraq seyanto, uyğur və bayırku tayfaları üsyana qalxdılar.

Kat İl-xan başlanğıc üçün uyğurlara divan tutmağı qərara aldı. O, Teles xana Qərbdən uyğurlar üzərinə hücuma keçməyi tapşırdı, oğlu Yukuk şadı isə qərbdən böyük ordu ilə onlara qarşı göndərdi. İstedadlı və cəsur uyğur xanı Rusa cəmisi 5 min atlısı olmasına baxmayaraq Yukuk-şadın qarşısına çıxdı və Malişan[51] dağı yanında onu darmadağın etdi. Tyan-Şanın ətəklərindəki təqib zamanı əmisi oğlu Aşina Şeninin[52] Yukuk şada kömək etməsinə baxmayaraq uyğurlar yaralıların və geridə qalanların çoxunu əsir götürdülər.

Teles xanın şərqdən hücumu daha müvəffəqiyyətsiz oldu. Yüngül süvari dəstəsinin müşayiət etdiyi Teles xan uyğurların əlindən güclə qaçıb qurtardı. Kat İl-xan, aydın məsələdir ki, məğlubiyyətdə düşməndən daha çox öz sərkərdəsinin günahkar olduğunu başa düşürdü. Teles xanın imperator Taytszunla danışıqları və şəxsi əlaqələri sirr deyildi. Öz qardaşı oğlunun qeyri-səmimiliyindən qeyzlənmiş Kat İl-xan onun həbs edilməsi və dəyənəklə döyülməsi əmrini verdi. Bu qəzəb qığılcımına görə Kat İl-xanı ittiham etmək çətindir. Çünki Çin imperatorunun qarşısında yaltaqlanan qardaş oğlu artıq çoxdan ikiüzlü oyun aparmaqda idi. İki dəfə Çin üzərinə müvəffəqiyyətli yürüşü məhz o pozmuşdu, çox güman ki, bu dəfə də onun məğlubiyyəti türkyut xanının güclənməsinin istəməmək arzusundan doğmuşdu. Öz növbəsində Teles xanın təhqir olunması hadisələrin sonrakı inkişafında həlledici rol oynadı. O, həbsdən qurtaran kimi üsyan qaldırdı və kömək üçün Çinə müraciət etdi.* Tölösün tabeliyində olan kidanlar da xanlarının tərəfində dayandılar və Çin imperatorunun himayəsi altına keçdilər. Bu 628-ci ilin qışında olmuşdu, 629-cu ilin baharında isə seyanto knyazı İanan* özünü xan elan etdi və özünün rəsmi olaraq həmin titulla tanınması üçün Çanyana səfir göndərdi. Kat İl-xanın taxtı laxlamağa başladı.

Elə bu vaxt, labüd təhlükə qarşısında ani ümid işığı parladı. Kat İl-xanın sərkərdəsi Aşina Şeni Qərbi türkyut qalası Bişbalığı ələ keçirərək İrtış sahillərində yaşayan karlukları Tun-cabqu əleyhinə qaldırdı. Lakin müvəffəqiyyəti genişləndirmək mümkün olmadı.

628-ci ilin baharında bütün bu hadisələrin hansı imperator İrakliyə məlum ola bilərdi? Yalnız onun türk-xəzər müttəfiqlərinin qəzəbli və qoca düşməninin yürüşə çıxması! Türk-xəzərlərin öz köçlərinin müdafiəsi üçün qayıdacaqlarını ehtimal etmək təbii idi; əgər Teles üsyanı müvəffəqiyyətlə nəticələnməsəydi və Teles xanın xəyanəti Şərqi türkyut xanlığını və Kat İl-xanın özünü məhvə

---

[51] Beyşanda ən uca dağ zirvəsi.

[52] Ş o n o - canavar (monqolca) sözünün Çin dilində yazılış forması.

* Sonradan məlum oldu ki, o, Taytszunla qardaşlıq ittifaqı bağlayıb.

* İnan — ad deyil, təxəllüsdür, «kişi» mənasını verir. Lakin həmin knyazın adı mənbələrdə saxlanmadığından biz onu təxəllüsü ilə göstərməyə məcburuq.

aparmasaydı, hər şey, yəqin ki, elə belə də olacaqdı. Aydın məsələdir ki, İrakli bütün bunları qabaqcadan görə bilməzdi; sülh bağlayarkən o, yalnız mövcud vəziyyətdən çıxış etmişdi və bu zaman Bizans imperatorunun elə böyük səhvə yol verdiyini də demək olmazdı. Digər tərəfdən, o da aydındır ki, İrakli qonşuluğunda taqətdən salınmış İran əvəzinə türkyutların qüdrətli dövlətini görmək istəməzdi. Buna görə də imperatorun fikrincə sülh lap vaxtında bağlanmışdı.

Lakin türkyutlar vəziyyətdən daha yaxşı baş çıxarırdılar və köhnə düşmənləri üzərində qələbəni əldən buraxmaq istəmirdilər. Onlar İranla müharibəni təkbətək davam etdirirdilər.

**Təkbətək.** İran taxtında fərasətsiz Kavad Şiruyənin oturduğu, İraklinin isə ona sülh şərtlərini diqtə etdiyi 628-ci ilin qışında cabqu yenidən Zaqafqaziyaya soxuldu və Tbilisi divarlarına yaxınlaşdı. Bu dəfə o, vaxtı hədər yerə itirmədi, qısa müddətli mühasirədən sonra dərhal qoşunlarını şəhər üzərinə hücuma apardı: «Onların hamısı qılınclarını qaldıraraq şəhərin üzərinə yeridilər, bir-birinin çiyinlərinə dırmaşaraq divardan da uca oldular. Onların qatı kölgəsi şəhərin bədbəxt sakinlərinin üstünü aldı, şəhər sakinləri məğlub edilərək divarın yanından çəkildilər».* Bundan sonra qırğın başlandı. Qətiyyən müqavimət göstərilməməsinə baxmayaraq qaliblər heç kimə rəhm etmirdilər. Əsir tutulmuş İber knyazına və fars sərkərdəsinə cabqunun gözləri qarşısında işgəncə verildi.* Şəhər tamamilə soyulub talandı.*

Maraqlıdır ki, Bizans hərbi mühəndislərinin divardeşən maşınlarının zərbələri önündə tab gətirən şəhər yalnız əlbəyaxa vuruş üçün silahlanmış türkyutların qarşısında məğlub oldu. Bir qədər əvvəl Çor (Dərbənd) qalası da belə alınmışdı. Lakin çox güman ki, bu türkyutlardan daha çox xəzərlərin sayəsində mümkün olmuşdu, çünki türkyutlar istər Çində, istərsə Orta Asiyada şəhərlərin mühasirəsi zamanı yaxşı döyüş keyfiyyətləri göstərə bilməmişdilər.

Tbilisini soyub taladıqdan sonra* Cabqu-xaqan öz yurduna döndü, oğlu Burişada isə «igid əsgərlər verərək» ona Aqvaniyanı fəth etməyi tapşırdı.

Bu dəfə cabqunun məqsədi ölkəni sadəcə olaraq soyub talamaq deyil, onu öz torpaqlarına birləşdirmək idi. «Əgər həmin ölkənin hakimləri və əyanları mənim oğlumun qarşısına çıxsalar, ölkəni onun təbəəliyinə keçirsələr, şəhərləri, qalaları və ticarəti mənim qoşunlarıma güzəştə getsələr, siz də onlara öz torpaqlarında

* История агван Моисея Каганкатвиси, писателя X века. СПб, 1861, с. 119—120.

* Onlara bu cür amansızcasına divan tutulmasının səbəbi Cabqu xaqan Tbilisini birinci dəfə mühasirəyə alarkən həmin sərkərdələrin qala divarlarının üzərində türkyut xanının karikaturasını qaldırmaqları idi (b a x: bu kitabın XIV fəsli).

* Gürcü salnamələrinin yazdığına görə Tbilisi İraklinin qonşuları gedəndən bir neçə gün sonra süqut etmişdi. Bizim burada əsaslandığımız alban versiyasının üstünlüyü M. İ. Artamanovun «История хазар» kitabında əsaslandırılmışdır.

* Tbilisinin dağıdılması tarixi mübahisəlidir. Dünya tarixşünaslığında qəbul edilmiş il — 628-ci il gürcü tarixçilərinə inandırıcı görünmür, onlar şəhərin süqut tarixini 627-ci il sayırlar.

yaşamağa və mənə tabe olmağa izn verin.* Cabqunun bu bəyanatında türkyutların müharibəni başlayarkən qarşılarına qoyduqları proqram aydın görünməkdədir: onlar Konstantinopola yalnız Xorasan deyil, Xəzər dənizi və Qafqaz vasitəsi ilə də ipək aparılmasına nail olmaq istəyirdilər.

Buri-şad atasının əmrini yerinə yetirərək aqvanlara könüllü tabe olmalarını təklif etdi, lakin fars mərzbanının İrana qaçmasına baxmayaraq katolikos Viro eyni dərəcədə həm türkyutlardan, həm də farslardan qorxurdu. Odur ki, hansı qərara gələcəyini bilmədən danışıqları imkan daxilində uzadırdı. Lakin nəhayət türkyutların səbri tükəndi. Əvvəlcədən işlənib hazırlanmış plan əsasında onlar Aqvaniyanı viran qoymağa başladılar: «Evlərdə və küçələrdə hamının dilindən vay-vay» sədaları eşidilirdi. Barbarların qışqırıqları kəsilmirdi, elə bir adam tapılmazdı ki, hər gün, hər saat qəddar düşmənin öldürücü nidalarını eşitməsin. Çünki yırtıcılar əvvəlcədən püşk üzrə bizim şəhər və kəndləri öz aralarında bölmüş və hamısı qabaqcadan təyin edilmiş vaxtda öz dağıdıcı yürüşlərinə başlamışdılar.[53] Katolikos Arsax adlı dağlıq yerə qaçdı, lakin türkyut səfirləri onu axtarıb tapdılar və yenidən təslim olmağı təklif etdilər. Katolikos ölkənin bütün vəzifəli şəxslərini bir yerə yığıb müqavimət, yoxsa itaət təklifini onların müzakirəsinə verdi. Hamı bir səslə tabe olmağa tərəfdar çıxdı, katolikos şəxsən özü Partav yaxınlığında düşərgə salmış Buri-şada bac-xərac apardı. Buri-şad katolikosu lütfkarlıqla qəbul edib ona dedi: «Niyə mənim yanıma gec gəldin? Əgər vaxtında gəlsəydin, qoşunlarım ölkənizə bu ziyanı da vurmazdı». Katolikosun xahişi ilə şad bütün əsir aqvanları azad etdi, onun tiunları əsirləri çadırlarda və alaçıqlarda axtarır, «ev əşyaları içərisində, yaxud mal-qaranın arasında gizlədilmiş cavanları dartıb aparır və heç kim də onlara qarşı çıxmağa ürək eləmirdi».

Türkyutların Aqvaniyada yaratdıqları rejim ağır idi. Dağıntıdan sonra ölkəni aclıq bürüməsinə baxmayaraq «Şərq knyazı hər yerə qorxu və dəhşət yaymışdı. O, qızıl yumaqda, gümüş və dəmir çıxarmaqda, mis emal etməkdə səriştəsi olan sənətkarların hamısının üstünə nəzarətçilər qoymuşdu. O, həmçinin böyük Kür və Araz çaylarının balıq vətəgələrindəki mallardan və balıqçılardan gömrük alırdı. Bundan başqa farsların siyahıyaalması üzrə hərə didraxma vergi verirdi».[54] Bu abidədə türkyut tarixində ilk dəfə olaraq onların itaətə gətirdikləri xalqdan vergi almaları barəsində məlumata təsadüf edilir. Sənəddən göründüyü kimi, həmin vergi farsların qoyduqları vergidən qat-qat ağır idi. Türkyut dövlətində mərkəzəqaçma qüvvələrinin nə üçün heç vaxt zəifləməməsinin səbəbləri də buradan aydınlaşır.

Lakin təkcə Aqvaniya türkyutlar üçün azlıq edirdi. 630-cu ilin aprelində onlar Ermənistanı itaətə gətirmək üçün bu ölkəyə hücum etdilər. Ermənistana göndərilən qoşun sayca çox az idi — «Çorpan — tarxan adlı yaramaz və qaniçən

---

* История Агван, s. 126.
[53] История Агван, s. 126.
[54] История Агван, s. 131.

bir nəfərin başçılığı altında yola düşən bu qoşun cəmi-cümlətanı 3 min nəfərdən ibarət idi. İranın faktiki hərbi diktatoru Şaxvaraz «özünün sərkərdəsi, «türk süvarilərinin» başçısı olan Qonaqnı 10000 nəfər igid döyüşçü ilə birlikdə» Çorpan-tarxana qarşı göndərdi.[55]

Çorpan-tarxan köçərilərin ənənəvi üsuluna əl atdı — qoşunların bir hissəsi yalandan özünü döyüşdən qaçan kimi göstərib farsları pusquya saldı və burada onları son nəfərinə qədər qırdılar. Onda «hər bir hərbçi və belində qılınc gəzdirən hər bir adam başa düşdü ki, şahın hakimiyyəti və onun sərkərdələrinin gücü nədir».[56]

Alban müəllifinin türkyut dövlətini ibtidai hərbi mütləqiyyət kimi səciyyələndirməsi həm Yan Tszyan* və Li Şi-minin* yuxarıda misal gətirdiyimiz fikirləri, həm də tarixin özünün inkişaf gedişi ilə səsləşir. Dövlət nizə gücünə qurulmuşdu və nizə üzərində dayanırdı; «əsas qüvvə» döyüşçülər idilər və yalnız son dərəcə bacarıqlı xanlar bu qüvvəni öz əllərində saxlaya bilirdilər. Həmin qüvvə isə yalnız düşmənlər üçün deyil, onların özləri üçün də qorxulu idi. Mərkəzi hakimiyyətin hər cür zəifləməsi Qərb xaqanlığını məhvə gətirib çıxaran qarmaqarışıqlıqlar yaradırdı. Cabqu xanın qalib qoşunları da xaqanlığın özü kimi monolit deyildi. Tayfa qruplaşmalarının rəqabəti döyüşçülərin əhvali-ruhiyyələrində əks olunmaya bilməzdi. Ölkənin daxilindəki ziddiyyətlərin kəskinləşməsi İranın xilas yolu tapmasına, Buri-şadın isə bütün müvəffəqiyyətlərinin üzərindən xətt çəkilməsinə səbəb olan hadisələr doğurdu.

**Fəlakət.** Döyüşkən Tun-cabqu xan bütün həyatı boyu onu hakimiyyət başına gətirmiş nuşibilərin iradəsini dönmədən yerinə yetirirdi. Xan onların mənafeyinin keşiyində dayanaraq Çin və Bizansla dostluq əlaqələri saxlamış, Şərqi türkyut hökmdarları ilə münasibətləri pozmuş, İranla qanlı müharibəyə girmişdi. Lakin müharibə üçün həmişə və hər yerdə adamlar və pul lazım idi. Adamları şimaldan, dulu tayfasının sakinləri arasından seçmək lazım gəlirdi. Onlar isə bu müharibədə özləri üçün nə bir məna, nə də fayda görürdülər. Xan ailəsinin duluların rəqiblərinə-nuşibilərə açıq-aşkar üstünlük verməsi də onları loyal mövqedə dayanmağa səsləyə bilməzdi. Pula ehtiyacı artmış xan vergiləri daha da çoxaldanda duluların yadına düşdü ki, belə qurşanmış qılınc padşahların və sərkərdələrin hakimiyyətindən daha güclüdür. Tun-cabqu dulular arasında narazılığın artmasına əhəmiyyət vermədi. Bu çox ciddi səhv idi. Şərqi türkyutlar Bişbalığı onun əlindən alan kimi Qara İrtışda yaşayan karluqlar üsyan qaldırdılar,

[55] Orada, s. 137.
[56] Orada, s. 131.
* Türkyut döyüşçüləri mükafat və cəzaya laqeydliklə yanaşır, rəislərinə az hörmət edir, əksərən qayda-qanunları gözləmirlər».
* «Türkyutlar sayca çoxdurlar, amma onlarda qayda-qanun yoxdur. Padşahları da, məmurları da yalnız öz xeyirlərini güdürlər».

onların ardınca dulu ittifaqına daxil olan digər tayfalar ayağa qalxdılar. Üsyançılara xanın Baxadır-knyaz (Moxodu-xou) ləqəbli əmisi başçılıq edirdi. O, Tun-cabqunu öldürməyə nail oldu, bundan sonra Kyül-yüq Sibir xan (Kyüyli Sıbi-xan) titulunu qəbul etdi.

Xaqanlığın qərb qurtaracağındakı bolqar-unnoqundurlar da duluların mövqeyində dayanırdılar. Onların başçısı Kubrat 619-cu ildə Kontantinopolda olmuş, burada patriki rütbəsinə layiq görülmüş, lakin xristianlığı qəbul etməkdən boyun qaçırmışdı.* Xəzərlərlə rəqabət bolqarları duluların mövqeyinə yaxınlaşdırırdı. 630-cu ilə qədər onlar xaqanlığın qərb sərhədlərini avarların ehtimal olunan hücumlarından qoruyurdular, lakin kuturqurların avar xanına qarşı üsyanı həmin sərhədləri Don çayından Karpata qədər geri çəkdi. Yeni yaranmış vəziyyətdə əla qoşunları arxa cəbhədə saxlamağın mənası yox idi və buna görə də bolqarları döyüşən ordunun sıralarını doldurmaq üçün Zaqafqaziyaya atdılar.

Görünür, Tun-cabqu öz əmisinə inanmır və onun bölgəsini qardaşı Cabqu* xaqana vermək istəyirdi. Lakin o, məğlubiyyətə uğrayaraq həlak oldu. Hər halda, ordakı çevrilişdən sonra qoşunların tərkibindəki dulular da üsyan etdilər. Nəticədə Buri-şadın həyatı təhlükə altına düşdü. Ancaq o, canını qurtardı və sonralar Buri-şadın səsi Orta Asiyadan — nuşibililərin vətənindən gəldi. Baş verən hadisələr türkyutları tezliklə Zaqafqaziyadan getməyə məcbur etdi, onların yerini dərhal farslar tutdular.

Nuşibilər qəflətən yaxalanmışdılar, lakin təslim və tabe olmaq niyyətində deyildilər. Çevriliş daxili müharibə doğurdu və həmin müharibə Qərbi türkyut xaqanlığının bütün sonrakı inkişaf tarixinin ayrılmaz tərkib hissəsinə çevrildi. Yeni hökumət tezliklə Tun-cabqu xanın fütuhatlarının nəticələrini bir-bir əldən verməyə başladı. Zaqafqaziyanın ardınca Qibin və Toxaristan da Qərbi türkyut xaqanlığından qopub ayrıldı, Cunqariyanın teles tayfaları isə üsyan edərək türkyutlara qarşı müharibə aparmağa başladılar. Lakin Sibir xan üçün ən ağırı Çin

---

* 619-cu ildə bir «hunn knyazı» xristianlığı qəbul etmişdi. Lakin bu dövrdə nə bolqarların, nə də avarların müstəqil knyazları vardı. Deməli, xaqanlığın qərb qurtaracağında yaşayan türkyut bölgə knyazlarından biri xaç suyuna salınmışdı. Aşina nəslinin bütün knyazlarının adı bildiyimizdən xristianlığa keçən knyazın yuxarıda xatırlatdığımız «Bahadur» olduğunu yəqinliklə demək mümkündür. Markvart belə hesab edirdi ki, burada ukkoqundurların başçısı Kubratın dayısı «Orqana» suveren bolqar sülaləsi Dulonun əsasını qoyduğu nəzərdə tutulur. Lakin bu həqiqətən də belədirsə, onda qadın xətti ilə qohumluq faktı göz önündədir; çünki Kubrat Aşina yox, Dulo nəslindən idi. «Orqana» sözünü monqol dilində qadın xətti ilə qohumluq mənasını verən «Uraq» sözü ilə müqayisə etmək mümkündür. Bu eyniləşdirmə cabqunu kimin məhv etdiyini və Buri-şadın kimdən qaçmalı olduğunu aşkara çıxarır. 631—635-ci illərdə Kubrat nuşibilərin düşməni kimi çıxış edirdi.

* «Aqvan tarixi»ndə Cabqu xaqana aşağıdakı sözlər isnad verilir: «Yırtıcılar məni ələ keçirdilər, sən bir də mənim üzümü görə bilməyəcəksən, çünki mən təhlükəsiz yerdə qalmadım, özgə hökmdarlığına üz tutdum. Bunu etmək isə lazım deyildi. Daha sonra: «Mən həlak oldum və uşaqlarımı itirdim». İraklinin Tun Cabquya vəd edilmiş qızı Yevdokiğa 630-cu ildə yarı yoldan qayıtmalı oldu, çünki Tun-Cabqunun ölüm xəbəri gəlib ona çatdı».

imperatoru Taytszunun ona kəskin mənfi münasibəti idi. Taytszun özünün bu münasibətini Tun-cabqu xanın təntənəli dəfni üçün xüsusi səfirliklə bahalı hədiyyələr göndərməklə büruzə vermişdi. Öz-özlüyündə əhəmiyyətsiz təsir bağışlayan bu hərəkət göstərirdi ki, Asiyanın ən qüdrətli dövləti onun həyata keçirdiyi çevrilişin əleyhinədir.

Bu çəkişmələrdən yalnız bolqarların başçısı Kubrat qazandı. O, əvvəlcə əmisi Sibir xana tərəfdar çıxaraq türkyut və xəzərlərdən xilas oldu. Sonra isə o, xaqanlığın mərkəzindən uzaqda olmasından istifadə edib müstəqil xanlıq yaratdığını bildirdi. Başları ara müharibələrinə qarışan türkyutlar onu sakit buraxdılar. Təxminən 635-ci ildə Kubrat avarları məğlubiyyətə uğradaraq eyni vaxtda Konstantinopola elçi göndərməyə də hazırlaşırdı. Bunun müqabilində İrakli ona patriki rütbəsi verdi. Kuturqurların avarlara qarşı üsyanı nəticəsində Qara dəniz boyu düzənliklər də Kubratın hakimiyyəti altına keçdi, çünki Feofanın salnaməsində o, «Bolqarıstanın və kotrakların» — yəni kuturqurların hakimi kimi təqdim olunur.

Kuturqurlar bütün müharibələrdə avarlara yaxından kömək etmələrinə baxmayaraq, avarlar onlarla itaət altında olan xalq kimi — çox pis rəftar edirdilər. 630-cu ildə kuturqurlar üsyan qaldırdılar, lakin məğlubiyyətə uğradılar. Avropada olan kuturqurlar Bavariyaya qaçdılar, ancaq burada frank kralı Daqoberin əmri ilə xaincəsinə qılıncdan keçirildilər. Şərqdə yaşayan kuturqurların isə bəxti gətirdi. Onlar öz həmtayfaları uturqurlara birləşərək vahid bolqar xalqını təşkil etdilər. Yeni Bolqarıstan qərbdə hələ də türkyutların mövqeyində dayanan xəzərlərlə, qərbdə avarlarla, cənubda isə Bizansla düşmənçilik edir və hər üç tərəfə qüvvə çatdıra bilirdi. Avar xaqanlığının qüdrəti isə həmin vaxtdan tənəzzülə uğramağa başlamışdı. Bu tənəzzül avarların Böyük Karlın zirehli döyüşçülərinin qılıncları altında məhv olduğu dövrə qədər davam etdi.

Kubratın əsasını qoyduğu Bolqar dövləti 679-cu ilə qədər yaşadı. Lakin onun sonrakı taleyinin türkyut xaqanlığına heç bir aidiyyəti yoxdur. Odur ki, Avropanı sakit buraxaraq Mərkəzi Asiya üzərinə qayıdaq.

**Çinlə sonuncu müharibə.** Tan hökuməti üçün ən çox təəssüf doğuran fakt bu idi ki, türkyut xanı yenidən hakimiyyət başına gələcəklərinə heç bir ümid qalmayan Suy sülaləsi tərəfdarlarına yardım göstərməkdə davam edirdi. Yeni sülalənin ölkədə normal həyatı bərpa prosesində qarşılaşdığı hər hansı çətinlikdən Suy sülaləsinin tərəfdarları istənilən vaxtda öz xeyirlərinə istifadə edə bilərlər. Əgər türkyut xanı Çin qvardiyasının müqavimətini qıraraq «qanuni» imperatoru Çinə gətirməyə nail olsaydı, şöləələri yenicə öləziməyə başlamış daxili müharibə daha artıq bir şiddətlə alovlanmağa başlardı. Ona görə də Şərqi türkyut xanlığının düşdüyü böhranlı vəziyyətdən istifadə etməmək Taytszun üçün bağışlanmaz yelbeyinlik olardı. Yeni imperator belə yelbeyinlikdən qat-qat uzaq adam idi. 628-ci ildən etibarən Çində müharibəyə hazırlıq başlandı. Onun ilk qurbanı həmin vaxta qədər Şofan qalasında möhkəmlənmiş Lyan Şi-du oldu.

Türkyut dövlətində hərc-mərclik başlayanda Taytszun Lyan Şi-du ilə danışıqlara girməyə cəhd göstərdi, lakin o, danışıqlardan boyun qaçırdı. İşi belə görən imperator sərhəd səhra qoşunlarını Lyan Şi-dunun üzərinə göndərdi. Lyan Şi-dunun əsir tutulmuş tərəfdarları azad edildi və xalqı ona qarşı üsyana qaldırmaq üçün Ordosa göndərildi. Tabqaçların yüngül süvariləri Loyan ətrafındakı əkin yerlərini xaraba qoydu. Tezliklə aclıq başlandı və Lyan Şi-dunun tərəfdarları Çinə köçməyə başladılar. Burada gələnlərin hamısını lütfkarlıqla qəbul edirdilər. Lyan Şi-dunun tərəfdarları arasında qarşılıqlı etimadsızlıq atmosferi yarandı. Bir neçə sərkərdə öz başçılarını ələ keçirmək üçün sui-qəsd hazırladı, lakin istədiklərinə nail ola bilmədilər və hamısı edam edildi.

628-ci ildə Taytszun Şofan üzərinə hücum əmrini verdi. Türkyutlar dərhal şəhərin müdafiəsinə qalxdılar, lakin tabqaçlar onları geri oturtdular. Lyan Şi-dunun xilas olmaq ümidlərini itirmiş tərəfdarları öz rəhbərlərinin başını gətirdilər və itaət etdiklərini bildirirdilər. Onların hamısı əfv olundu və mükafatlandırıldı. Tan sülaləsinin hakimiyyəti altında Çinin birləşdirilməsi prosesi başa çatdırıldı. Bunun ardınca 629-cu ildə türkyutlar Mai qalasından sıxışdırılıb çıxarıldılar və bütün Ordos Çin imperatorunun əlinə keçdi.

Elə ilk uğursuzluq Kat İl-xan üçün məşum oldu. Onun təbəələri, qohumları, hətta silahdaşları «Tabqaç xanının (onların fikrincə, əvəzçiliklə həm də Çin imperatorunun) yanına qaçmağa başladılar. Əvvəlcə doqquz komandir (sıkin) öz dəstələri ilə xəyanət etdilər. Bunun ardınca bayırku, buqu, tonqra, si və tatab (xi) tayfalarının başçıları da tabeliklərini bildirmək üçün Çanyana gəldilər. Tabqaç ordusu Linçjouda (Qansu) türkyutları əzdikdə isə Teles xan Şibabi, Kat İl-xanın qardaşı oğlu Yuyşe-şad və Şibabinin xəyanətindən sonra taxtın varisi təyin olunan, lakin müvəffəqiyyətin mümkünlüyünə inamını itirən İnnay-təkin* də Çinə qaçdılar.

Qaçmağın səbəbləri vardı. Luanxe çayından tutmuş Binçjouya qədər bütün cəbhə boyu altı Çin ordusu hücuma keçmişdi. Öyanlin dağlarının ətəyindəki Şansi əyaləti gecə döyüşündə Kat İl-xan yenə məğlubiyyətə uğradı və 630-cu ilin əvvəllərində düzənlikdən keçərək şimala tərəf geri çəkildi. Onda ən yaxın adamları Kat İl-xandan üz döndərdilər* və Suy sülaləsinin imperatriçəsini, habelə taxt-tacın varisi olan oğlunu düşmənə təslim etdilər. Lakin Kat İl-xanın hələ sadiqliklərinə inandığı on minlərlə döyüşçüsü vardı və o, şərəfli sülh bağlamaq haqqında danışıqlara girmək istəyirdi.

Az qalmışdı ki, imperator xanın təklifini qəbul etsin, lakin baş komandan hər şeyi özü həll etdi. O, gözlənilməz hücumla türkyut qoşununun qalıqlarının axırına çıxdı. Kat İl-xan atını çapıb aradan çıxa bildi, lakin tezliklə ələ keçirilib

* Bu şahzadənin şəcərəsi müəyyənləşdirilməmişdir.
* Onlardan Kat İl-xanın yaxın məsləhətçisi, mənşəcə soqdiyalı olan Kan Suminin adı məlumdur.

Çanyana gətirildi. Xanın ardınca ona sadiq qalan sonuncu knyaz-Işbara Şunişi-şad[*] da təslim oldu və beləliklə də Qərbi türkyut dövlətinin mövcudluğuna son qoyuldu.

Fəlakət çox sürətlə baş verdi. Təxminən il yarım ərzində türkyutlar geniş düzənliklərin sahiblərindən üsyan etmiş teleslərin əlinə keçməmək üçün çinlilərə mümkün qədər tez təslim olmağa can atan qaçqınlara çevrildilər. Taytszunun hakimiyyəti Qərbdə Xami vahəsinə, şimalda isə Sibir tayqasının sərhədlərinə qədər yayılmışdı. Həm də qələbənin ən həlledici amili onun silah gücünə qazanılması deyil, köçərilərin könüllü şəkildə imperatoru öz xanları sayması idi. Mahiyyət etibarı ilə Çin tabqaçlara Böyük çöldən daha inadlı müqavimət göstərdi. İndi onların vahid dövlət hakimiyyəti altında birləşmələri müxtəlif mədəniyyətə və psixoloji əhvali-ruhiyyəyə malik xalqları öz tərkibində birləşdirən Şərqi Asiya imperiyasının yaranmasının başlanğıcı idi. Bu imperiyanın başında sərkərdələr Li Yuan və Li Şiminin tərəfdarları dayanırdılar. Onların arasında isə yalnız çinlilər deyil, uyğurlar, türklər, soqdiyalılar, koreyalılar da vardı. 630-cu ildən başlayaraq Tan imperiyasının yenidən xalis Çin hökmdarlığına çevrildiyi dövrə qədər biz onları imperiyaçılar adlandıracağıq.

**Epoxanın ritmi.** Şərqi türk xaqanlığının süqutunu və onun xarabalıqları üzərində Tan imperiyasının yaranmasını nəzərdən keçirərkən özümüzə belə bir sual verməyə bilmərik: bu hadisə tarixi qanunauyğunluğun nəticəsi idi, yoxsa burada yalnız dövrün şəraitindən irəli gələn təsadüf öz rolunu oynamışdı?

Tarixi ədəbiyyatda bu məsələ olduqca ötəri işıqlandırılmışdır. Yalnız Orxon kitabələrinin müəllifi olan Yollıq-təkin öz dövrü üçün tamamilə əsaslı olan izahat verir. O, xanları «ağılsız və qorxaq»lıq, bəyləri və xalqı xanlara etibarsızlıq göstərdiklərinə, tabqaçları yalançılığa və kiçik qardaşları böyük qardaşlarının üzərinə qaldırdıqlarına görə günahlandırır. Ən başlıcası isə o, türk xalqını incə-mincə adamlara çevirən Çin cah-cəlalını müqəssir bilir. Lakin Yollıq-təkin məğlubiyyətin labüdlüyü fikrində deyil. Əksinə, kitabə başdan ayağa kimi gələcəkdə ehtiyatlı olmaq çağırışından ibarətdir. Yollıq-təkin qəti inanırdı ki, Çindən kifayət qədər uzaqda yaşadıqda və tabqaçlarla sıx ünsiyyətə girmədikdə hər şeyi yoluna qoymaq mümkün olacaq. Beləliklə, Yollıq-təkinin fikrincə 630-cu ilin məğlubiyyəti səhv siyasətin nəticəsi, başqa sözlə desək, tarixi təsadüf idi. İndi onun haqlı olub-olmadığını nəzərdən keçirək.

Tan sülaləsinin yeni və köhnə xronikalarını tərtib edən Çin tarixçiləri[*] diametral əks mövqe tuturlar. Onların fikrincə barbarlar üzərində qələbə tamamilə təbiidir və burada heç bir izahata ehtiyac yoxdur. İşdir, əgər türkyutlar qalib gəlsəydilər, bunu adət-ənənələrin təbəddülata uğraması, yaxud imperatorun fərsizliyi ilə izah etmək lazım gələrdi. Bu nöqteyi-nəzərə əsaslanaraq onlar sadəcə

---

[*] Janqarın kiçik qardaşı, Kat İl-xanın dayısı. N. Y. Biçurinin əsərində o, Şabolo-Sunişi adlandırılmışdır.

[*] Tan sülaləsinin köhnə xronikasını 917-929-cu illər arasında Lyu Xey, yenisini isə Sun sülaləsi dövründə Yun Şu tərtib etmişdir.

hadisələri sadalayır, onların dərkinə qətiyyən lüzum görmürdülər. Ona görə də problemə elmi münasibət baxımından onlar Yolluq-təkindən də aşağı səviyyədə dayanırdılar. İndi məsələnin həllini elmin müasir müvəffəqiyyətləri baxımından nəzərdən keçirək. VII əsrdə həm çinlilər, həm də köçərilər sadəcə əmtəə təsərrüfatına malik idilər, onların arasındakı mübadilə o qədər də böyük deyildi. Çində pul əvəzinə ipək və taxıldan istifadə olunurdu, Çin kəndliləri isə öz əməklərinin bəhrəsinin xaricə axmasını qətiyyən istəmirdilər. Eləcə də sıravi köçəri süd və ət, paltarlıq dəri və yurt üçün keçə ilə kifayətlənirdi və tamamilə yad tayfa olan çinlilərlə ünsiyyət ona qətiyyən lazım deyildi.

Lakin xanlar və vanlar, bəylər və qunlar bu məsələyə tamamilə başqa cür yanaşırdılar. Türkyut xanları üçün cah-cəlal rəmzi olan ipək adamı hakimiyyətə yaxınlaşdıran zənginlik vasitəsi idi. Çin imperatorları üçün isə atlar və muzdlu oxatanlar zorakılıq və hakimiyyəti əldə saxlamaq vasitəsi idi. Hər iki halda hakim yuxarı təbəqənin mənafeləri xalq kütlələrinin arzusundan üstün tutulurdu. VII əsrdə Çinin və Böyük Çölün xalqları, yuxarıda da gördüyümüz kimi, ayrılıqda və sülh şəraitində yaşamaq istəyirdilər. Ona görə də mədəniyyət və iqtisadiyyat baxımından yad olan iki xalqın zor gücünə birləşdirilməsi tarixi prosesin özünün müvəqqəti olaraq pozulması, yəni tarixi təsadüf kimi nəzərdən keçirilməlidir. Məsələyə belə yanaşdıqda Tan imperiyasının bütövlüyünü qorumağa yönəldilmiş hədsiz səylər və onun dəhşətli aqibəti də aydınlaşır. Bu çıxış nöqtəsinə əsaslanaraq biz daim üsyan və sui-qəsdlərin, siyasi qətl və xəyanətkarlıqların, əvvəlki sülalə dövründən müqayisəyəgəlməz dərəcədə yaxşı yaşayan çinlilərin narazılığını və bahalı hədiyyələrlə nazlandırılan köçərilərin vəziyyətini izah edə bilərik. Makedoniyalı İskəndər zorla Ellada ilə Şərqi birləşdirməyə çalışdığı kimi, Taytszun Şi Li-min də zorla Çinlə köçəriləri barışdırmaq istəyirdi. Hər iki niyyət nəticə etibarı ilə uğursuzluğa düçar olsa da, onlardan birincisi özündən sonra ellinizmi, ikincisi isə bəşəriyyətə incəsənət, ədəbiyyat və fəlsəfi fikir şedevrləri bəxş etmiş parlaq Tan epoxası mədəniyyətini qoyub getdi.

Lakin tarixi hadisələrin gedişinə qayıdaq. Li Şi-minin hansı vasitələrlə öz müvəffəqiyyətini möhkəmləndirdiyini və imperiyasını sabitləşdirdiyini nəzərdən keçirək.

**Şəfqətin gücü.** Məğlub türkyutlar onlara dəhşətli divan tutulacağını gözləyirdilər. Lakin belə olmadı. Əsir tutulmuş Kat İl-xan imperatorun hüzuruna aparıldı. İmperator onu öz nöqteyi-nəzərindən bir neçə əxlaqi müğayir hərəkətdə — mənafeyi naminə sona qədər vuruşmaq lazım olan Suy sülaləsinə naşükürlükdə, müqavilələrin pozulmasında, xalqın iradəsinə zidd müharibə aparılmasında, Çin kəndlilərinin soyulub talan edilməsində, danışıqlar zamanı qaçıb aradan çıxmaqda töhmətləndirdi, lakin xanın günahından keçdi və onunla birlikdə əsir tutulmuş bütün ailə üzvlərini azadlığa buraxdı. Sonralar imperator əsirini öz qvardiyasına götürdü, ona torpaq sahələri bağışladı, lakin Kat İl-xan «fikirli və qüssəli idi,

kədərli mahnılar oxuyur və göz yaşı axıdırdı». 634-cü ildə Kat İl-xan qəmqüssədən öldü və türkyut adətincə dəfn olundu.

Teleslərin xanı Şibabiyə də lütfkarlıq göstərildi. O, «imperator süfrəsində nahar etmək şərəfinə layiq görüldü, hərbi rütbə, knyaz titulu və 700 ailə aldı». Digər türkyut əsilzadələri və başçıları da imperator qvardiyasına qəbul edildilər.

İmperatorun məğlublar və təslim olanlarla mərhəmətli rəftarı haqqında xəbərlər Böyük Çölə yayılan kimi sonuncu müqavimət ocaqları da söndü. Həmin dövrdə Ordosdan qərbdə məskunlaşmış sunit tayfasının şadı Işbara da imperatora tabe oldu. Kat İl-xanın oğlu, bölgəsi ilə birlikdə Turfan və Xami arasında köç edən Yukuk-şad da təslim oldu. Tayfaların hamısına özünüidarə hüququ və qiymətli hədiyyələr verən Taytszun Çöldə böyük nüfuz qazandı, həmin nüfuz ona istər Şərq xaqanlığının süqutundan dərhal sonra, istərsə də onun ardınca gələn yarım əsr ərzində meydana çıxan çətinliklərin hamısını dəf etməyə imkan verdi. Qaliblər üçün ən mühüm vəzifə türkyut köçlərində gizlənmiş Suy sülaləsi tərəfdarlarını ələ keçirmək idi. Taytszun burada da çıxış yolu tapdı — o, tutulub gətirilmiş hər bir çinli üçün qızıldan və ipəkdən mükafat təyin etdi. Türkyutlar tezliklə kişili-qadınlı 80 min çinli tutub ona təhvil verdilər. Bu çinliləri də şəfqətli münasibət gözləyirdi; evə qayıtdıqdan sonra onlar vətənlərini tərk etdiklərinə görə amnistiyaya düşdülər və cəza kimi yalnız vergi verənlər təbəqəsinə daxil edildilər.*

Qələbə imperator hökumətinin qarşısında daha bir vacib və təxirəsalınmaz vəzifə qoydu: itaət altına alınmış türkyutlarla necə rəftar etməli? Bəziləri Çin qanunlarına əsasən onları köləyə çevirməyi, ölkənin təsərrüfat və əkinçilik işlərində işlətməyi təklif edirdilər. Digərləri türkyutları təzədən çölə qaytarmağı və müstəqil, biri-birindən asılı olmayan çoxlu əyalətlərə parçalamağı təklif edirdilər. Üçüncülər onları sərhəd boyunca, Ordos və Alaşan çöllərində məskunlaşdırmağı və sülh dövründə sərhədlərin qorunmasını, müharibə və uzaq hərbi yürüşlər zamanı isə köməkçi qoşun vəzifəsini türkyutlara etibar etməyi daha məqsədəuyğun sayırdılar. İmperator axırıncı fikrə tərəfdar çıxdı və şərqdə Dinsyan, qərbdə isə Yunçjun olmaqla iki hərbi qubernatorluq təsis etdi. Onların ikisi də eyin canişinin hökmü altında idi.

Yenidən imperiyanın sərhədi Qobi səhrası oldu. Ondan Şimal tərəfdəki əraziləri Altain-Nur zirvələrindən Baykala və Böyük Xinqana qədər olan torpaqları seyantoların knyazı İnan heç bir müqavimətlə üzləşmədən ələ keçirdi. Türkyutların çoxu seyantolara qoşuldular.

İmperator Taytszunun tabeliyindəki türkyutların sayı 190 min nəfərə çatırdı. Heç kim onlara məişət və adət-ənənələrini saxlamağa mane olmurdu. Lakin Çinin

* Bu 80 min çinlini türkyutların kölələri kimi nəzərdən keçirmək düzgün olmazdı. 630-cu ildə Çin (tabqaç) qoşunları xaqanlığı işğal etdilər və onların əsirləri azad etmək üçün məğlublara ödəməyə heç nəyi yox idi. Daha sonra mətndə xüsusi olaraq bildirilir ki, azad olunanlara cüzi cəza verirdilər. Aydındır ki, onlar öz yoldaşlarını düşmənin əlindən xilas etsəydilər, bu tədbirə əl atmazdılar.

yaxınlığı türkyutlara təsir göstərməyə bilməzdi. Bu təsirin gücünü onlar özləri də hiss edirdilər: «Heç bir məhdudiyyət qoymadan bu qədər qızıl, gümüş, spirt və ipək verən tabqaç xalqının nitqi şirin, zinət şeyləri isə son dərəcə zərif idi, şirin dil və bahalı daş-qaşlarla göz qamaşdıraraq onlar uzaqda yaşayan xalqları özlərinə cəzb edirdilər. Həmin xalqlar isə yaxına köçdükdən sonra burada onların yaramaz əllaməliklərinə yiyələnirdilər». «Türkyut hakimləri öz türk adlarını atdılar, tabqaç titulu qəbul edərək tabqaç xalqının xaqanına tabe oldular. Əlli il öz soy və əməklərini ona verdilər».

630-cu ildən 679-cu ilə qədər davam edən 50 il ərzində Ordosda məskunlaşan türkyutlar o qədər dəyişdilər ki, artıq türkyutlardan göy türklərə çevrildilər. Göy türklər isə həm özlərinin şimaldakı tayfa qardaşlarına - teleslərə, həm də əcdadlarına türkyutlara çox az bənzəyirdilər. Lakin bu barədə söhbətimiz bir qədər irəlidə olacaq.

## XVI f ə s i l

## ON OX

**Vətəndaş müharibəsi.** Dulu tayfa ittifaqının dövlət çevrilişi və Sibir xanın hakimiyyəti zorla ələ keçirməsi yalnız Qərb xaqanlığı üçün tam gözlənilməzliyinə görə müvəffəqiyyət qazana bildi. Tun-cabqu xanın öldürülməsi təkcə nuşibi tayfalarını deyil, türkyutları da yeni hakimiyyətin əleyhinə qaldırdı. Sibir xan öz vəziyyətinin qeyri-sabitliyini hiss edərək, heç olmazsa, müttəfiq qazanmaq üçün Bolqarıstanın ayrılmasını tanıdı.* Lakin bu da onu xilas etmədi.

Nuşibi tayfasının üsyanına həlak olmuş Baqa-cabqu xanın (Moxe) oğlu Nişu Kana-şad başçılıq edirdi. Bölgəsi Paykənddə olan Nişu varlı Buxaranı da öz tabeliyində saxlayırdı.*

Müharibə aparmaq üçün həmişə pul lazımdır. Sibir xanın* isə pulu yox idi. Lakin əvəzində Nişunun kifayət qədər qızılı və gümüşü vardı. Buxara ustaları ona tələb olunduğu qədər sikkə kəsmişdilər. Həmin qızıl sikkələrin parıltısı və cingiltisi önündə Sibir xanın silahdaşlarının igidliyi və şücaəti dərhal yoxa çıxırdı. Üstəlik Tun-cabqunun oğlu, taxt-tacın qanuni varisi də nuşibilərin yanına qaçmışdı.* Onun üsyanda iştirakı hərəkata bir qanunilik verirdi. Nişu onu İrbis Bolun cabqu-xan* adı

* Mətni yalnız bu cür şərh etmək olar: «Başlanğıcda o, dövlətdən kiçik xanlığı ayırdı, özünü isə ali xan elan etdi. Əyanlar bundan narazı idilər».
* Наршахи. История Бухары. с. 48.
* Onun adı «Şili-dele» şəklində (N. Y. Biçurin) düz deyil, adı «Tel-təkin» (Şavann) kimi verməklazımdır. Titulu Teles-təkin idi.
* Böyük qardaşı, düşərgəsi Kudzun vadisində olan tarduşların şadı hələ 630-cu ildə arvadlarının biri tərəfindən boğulub öldürüldüyündən o, təkin titulu almışdı.
* İbn Bololyuy Şexu-xan (N. Y. Biçurin) yaxud «İbn (Şa) bolo sı-şexu naqan» (E. Şavann). Heroqliflərin mənası: «özbaşına özünü xan elan edən».

ilə taxta çıxardı. Bununla da Sibir xanın başladığı iş məğlubiyyətə düçar edildi, çünki xalq onun rəqibinə — arxasında qanun və pul dayanan İrbis Bolun cabqu-xana üz tutdu. Sibir xan Altay dağlarına qaçdı, lakin 631-ci ildə nuşibilərin əlinə keçdi və öldürüldü.

İrbis Bolun cabqu-xanın taxta çıxarılması tayfa ittifaqı üzərində türkyut ağalığının bərpa edilməsi səciyyəsi daşıyırdı. Lakin yeni xan bəslənilən ümidləri doğrultmadı. O, heç kəsə inanmayan, inadkar, təşəxxüslü, hamıdan şübhələnən adam çıxdı. Çox güman ki, elə bu xüsusiyyətlərinə görə də o, «Sıcabqu»* — yəni «xəyanətkar» ləqəbi qazanmışdı. Xanın seyantoları itəatə gətirmək və xaqanlığın keçmiş sərhədlərini bərpa etmək təşəbbüsləri tam məğlubiyyətlə nəticələndi. Çuğulçuluğa görə adamların edam edilməsi xalqı qəzəbləndirdi. Nişu xanın hər şeydən şübhələnməsindən ehtiyatlanaraq Qaraşara qaçmağa məcbur oldu. Lakin nuşibi əyanları İrsis Bolun cabq-xanı onun zülmünə dözmək üçün taxta çıxarmamışdılar. Mubi Tarxan adlı birisi xanın əleyhinə sui-qəsd təşkil etdi. İrbis yüngül süvari dəstəsi ilə düşərgəsindən qaçmalı oldu. Qovulmuş xanla birlikdə düşərgəni tərk edən süvarilər çox ehtimal ki, türkyut fatehlərinin nəsillərindən olanlar idi və aborigenlərin qələbəsi onlara yaxşı heç bir şey vəd etmirdi. Yeganə xilas yolu cənubda idi. Amu-Dəryanın sol sahilində, Kunduz vadisində İrbisin qardaşı oğlu hakim idi və əmisinə kömək edə bilərdi.* İrbis haqqında sonuncu məlumatı Syuan Tszan vermişdir. Onun yazdığına görə bu xan Bəlxdəki buddist məbədini çapıb-talamaq üçün şəhəri mühasirəyə almış, lakin elə mühasirənin birinci gecəsi ölmüşdü.* Bundan sonra döyüşçüləri qaçıb dağılmışdılar.

Bu hadisə Qərb xaqanlığının tarixində ciddi dönüş nöqtəsi idi. Həmin vaxta qədər türkyutlar xanlıqda vəziyyətin ağası idilər, indi isə təşəbbüs yerli tayfa rəhbərlərinin əlinə keçmişdi. Qüvvələrin hadisələrin sonrakı gedişini və inkişafını müəyyənləşdirən yeni düzümü meydana gəldi. Hakimiyyət nuşibilərin əlinə keçdi. Onlar isə sülaləni dəyişdirmək istəmirdilər. Odur ki, Nişunu Qaraşardan çağırıb taxta çıxardılar. Nişu çox güman ki, şimal tayfalarının da rəğbətini qazanmaq və onları da özünə yaxınlaşdırmaq üçün Dulu xan titulunu qəbul etdi.* Şimal tayfaları da Nişunun hakimiyyətini tanıdılar. Beləliklə, vətəndaş müharibəsi səngidi.

* S ı — (t ü r k c ə) — sındırmaq, dağıtmaq. Çin dilində «sı» heroqlifinin mənası: «sərhəd bilməyən», «özbaşına, «qüvvə tətbiq edən». Göründüyü kimi, burada məna eyniyyəti müşahidə edilir.

* «Tanşu»da deyilir ki, «Sı-cabqu» Konqyuya qaçdı və dərddən öldü.» (N. Y. Biçurin Sobranie svedeniy, I, s. 285).

* Dindar Züvvar xanın ölümünü Vayşramanın işə qarışması ilə əlaqələndirir. Orada deyildiyinə görə Vayşramana yalançının yuxusuna girmiş və onu nizə ilə öldürmüşdür. Şavann Sı-cabqunun ölüm tarixini 632, yaxud 633-cü il kimi göstərir.

* Bu titulu ona imperator Taytszun vermişdi. Biçurinin təqdimində bu titul tam şəkildə belə səslənir: «Tun aleu Balibi-Dulu xan» (N. Y. B i ç u r i n. Собрание сведений, т. I. s. 285): E. Şavannda bu adın təqdimi daha uğurludur: «Tun-a-lou si-li-bi Dulu-kaqan». Buradan da «Tonq ali Siliqbir Dulu-xan» («Böyük qəhrəman, şəfqətli Dulu xan»—adını bərpa etmək mümkündür.

Yeni xan başa düşürdü ki, yalnız təbəələrinin tam yardımı sayəsində taxtında möhkəm otura bilər. O, Soqdinanın ticarət mərkəzi — Paykənd şəhəri ilə sıx əlaqə saxladığından özünə nə lazım olduğunu da yaxşı bilirdi. Odur ki, Çinlə danışıqlarda elə güzəştlərə getdi ki, bu müstəqillikdən daha çox tabeçiliyi xatırladırdı. Lakin o, öz məqsədlərinə çatdı, türkyut qanununa uyğun surətdə taxt-tacı öz kiçik qardaşı Tonq-şada verərək, 634-cü ildə hakimiyyət başında sakitliklə vəfat etdi. Işbara Tolis-şad adı altında hakimiyyətə başladı.*

**On ox.** Nuşibi xanlarının can atdıqları sakitlik böyük siyasi vəzifələrdən imtina hesabına əldə olundu. İranla müharibə təzələnmədi. Bolqarları və uqor tayfalarını yenidən itaət altına gətirməyə səy göstərilmədi. Bütün qüvvələr Cunqariyanın təzədən fəthinə yönəldildi və həmin vəzifənin öhdəsindən gəlindi. 632-ci ildə üsyankar kibi tayfası qərbi türklərin (onları daha türkyutlar adlandırmaq olmaz) təzyiqi altında geniş Yulduz vadisini tərk etdilər və Tan imperiyasının ərazisi sayılan Xesiyə köçdülər.

Bundan sonra Bişbalığın növbəsi çatdı. Orada Çulo xanın oğlu, igid və nəcib Aşina Şeni hakimiyyət başında idi. O, Şərq xaqanlığı ənənələrinə sadiqliyini nümayiş etdirərək qoşunlarını türkyutlara arxadan zərbə endirən siyantoların üzərinə qaldırdı. Əbəs yerə silahdaşları ona əvvəlcə mövqelərini möhkəmləndirməyin zəruriliyini demirdilər, çünki qoşunlar şərqə uzaq yürüşə göndəriləndən sonra «cabqunun oğulları və nəvələri hakimiyyəti ələ ala bilərdilər».

Lakin Aşina Şeni mübarizəni davam etdirməkdən imtina — «oğulluq ehtiramını unutmaqdır» — deyə onlara etiraz etdi və məğlub olarsa, ölməyə hazır olduğunu bildirdi.

634-cü ildə o, bütün qüvvələrini — təxminən 50 min atlını daşlı Cunqariya düzənliklərinin şimal hissəsinə göndərdi və dörd aylıq döyüşlərdən sonra tam məğlubiyyətə uğrayaraq 10 min nəfərlik dəstə ilə əmisi oğlu Yukuk şadın hakim olduğu Qaoçana (əyalət imperator Taytszunun tabeliyində idi) çəkildi.

Elə bu arada Tan imperatorunun səfiri qərbi türkyut xanına ilhaq edilmiş əraziləri geri qaytarmağın vaxtı çatdığı haqqında işarə vurdu. Işbara xan bu fürsətdən istifadə etmək imkanını əldən verməyib Bişbalığı tutdu. Şeninin yalnız bir çıxış yolu qalırdı — Çinə getmək. 636-cı ildə o, qoşunun qalıqları ilə Çanyana gəlib xidmətini təklif etdi. Şeniyə böyük ehtiram göstərildi — o, qvardiya generalı rütbəsinə layiq görüldü, ordusunu yerləşdirmək üçün ərazi, sarayda vəzifə aldı və Çin məlakəsinə evləndi. Lakin bütün bunların müqabilində Taytszin da etibarlı dost qazandı.

---

* Çin dilində Şabolo Telişi taxta çıxana kimi Tonq-şad titulu daşıyırdı. Türk dilində «tonq» — güclü», «qəhrəman» deməkdir. Lakin Çin dilində heroqlifik mənası «hamı üçün eyni dərəcədə yaxşı olan» şəklində tərcümə edilir və personajın həqiqi xarakterini ifadə edir. Məhz bu xüsusiyyət Tonq-şadın siyasi platformasının əsasına çevrilmişdi.

Cunqariyanın birləşdirilməsi Qərbi türkyut xaqanlığının beynəlxalq vəziyyətini möhkəmləndirdi, lakin bu möhkəmlənmə daxili ziddiyyətləri daha da kəskinləşdirdi. Ziddiyyətlər isə öz növbəsində yeni sarsıntılar doğurdu. Mahiyyət etibarı ilə Sıcabqu və Şeninin məğlubiyyəti yerli tayfaların türkyutlar üzərindəki təntənəsi idi. Sülalənin mövcudluğu hələ də dövləti möhkəmləidirən qüvvə olaraq qalırdı, lakin Işbara Tolis şad artıq real qüvvəyə malik deyildi və yalnız bəylərin könüllü tabeliyinə arxalanırdı. Ancaq bu o qədər də ümidli arxa deyildi. Dulu və nuşibi tayfalarının bəyləri xaricdən heç bir təhlükənin onları hədələmədiyini hiss edən kimi öz iradələrini xana diqtə etməyə başlayırdılar. Xan ali hakimiyyəti daha da zəiflədən islahat keçirməyə məcbur oldu. 635-ci ildə dulu və nuşibi tayfaları özünüidarə hüququ qazandılar. Beş dulu və beş nuşibi tayfasının rəisləri Aşina sülaləsindən deyil, çox güman ki, yerli zadəganlardan təyin olunurdu. Bu rəislərdən hər biri rütbə etibarı ilə şada – yəni xana qan qohumluğu çatan adama bərabər tutulurdu. Onların hər birinə hakimiyyət rəmzi kimi ox təqdim edilirdi, «on ox türkləri» adı da buradan yaranmışdı. İki müttəfiq - dulu və nuşibi tayfa ittifaqları arasındakı sərhəd, Çu çayı oldu.

Separatçı meyllər qarşısında təslimçilik təbii ki, dağılmaqda olan dövləti qoruyub saxlaya bilməzdi.

**Narazılar.** Yeni qaydalar hamını olmasa da, çoxlarını razı salırdı. Aydın məsələdir ki, bu qaydalardan Qərb xaqanlığında yaşayan türkyutlar ziyan çəkdilər. Onlar özlərinin üstün vəziyyətini itirdilər, hakimiyyətdəki mövqeləri də zəiflədi. Lakin qərbi türkyutlarla birlikdə hakimiyyət rəmzi sayılan oxu əldə edə bilməyən tayfa başçıları da narazı qaldılar. Onlar isə sayca az deyildi. Beləları xüsusən şimalda və Cunqariyada daha çoxdular. Seçmələr sırasına karluqlar, yağmalar,* qıpçaqlar,* basmalılar,* habelə hunnların varisləri — çyuyelər, çumilər və şatolar* düşmədilər. Bu sonuncular özlərini xüsusən incik sayırdılar, çünki onlara qohumluğu çatan çumuqun və çuban tayfaları imtiyazlılar sırasına daxil edilmişdilər. 633-cü ildə Işbara Tolis-şad-xan onların rəhbərlərinin əlindən hakimiyyəti almaq fikrinə düşəndə bu tayfalar Şərqə köçüb Bargul gölü yaxınlığındakı Şato çölündə düşərgə saldılar və Çin imperatoru Taytszundan onları öz təbəələri sırasına keçirməyə xahiş etdilər. Lakin bu dövrdə şərqi Tyap-Şanda yaranmış mürəkkəb siyasi şərait həmin tayfaları və onların başçısını* tamamilə başqa səmtə çəkib apardı.

Həmin dövrdə Şərqi Türküstanda siyasi vəziyyət son dərəcə kəskin və gərgin idi. Hələ 20-ci illərdə devrilmiş Suy sülaləsinin tərəfdarları olan çinlilər

* Çin mənbələrində: Yan-myan.
* Çin mənbələrində: Kyuy-yus-şad.
* «B a s m a l» — qarışıq mənasını verir. Bu kiçik xalq qırx tayfadan ibarət idi.
* Mərkəzi Cunqariyada, Bargul gölünün yaxınlığında yaşayırdılar.
* Çinlilər onun adını Mişe kimi verirdilər, o, Aşina tayfasından idi.

türkyutların köməyi ilə Tan imperiyasına qarşı mübarizəni davam etdirmək niyyəti ilə onların yanına qaçırdılar. Yuxarıda deyildiyi kimi, Kat İl-xanın məğlubiyyətindən sonra 80 min nəfər çinli mühacir Tan hökumətinə qaytarılmışdı. Lakin Tan sülaləsinin ən barışmaz düşmənləri Turfana (Qaoçan) qaçmış və əyalətin hakimi Kyuy-Ven-tay onları qəbul etmişdi.

Qaoçan sülaləsi Çin mənşəli idi, lakin onlar çoxdan türkyutlarla qohumlaşmışdılar. Bu sülalənin hakimləri öz balaca dövlətlərini qoruyub saxlamaq üçün həm Çinlə, həm də Qərb xaqanlığı ilə dil tapmaq məcburiyyəti qarşısında qalmışdılar. 630-cu ilə qədər onların Suy və Tan sülalələri ilə çox yaxşı münasibətləri vardı, lakin Taytszun öz imperiyasını yaratmağa başlayan kimi ənənəvi dostluq əlaqələri pozuldu.

Yeni Çin hökumətindən narazı qalmaq üçün Kyuy-Ven-tayın hər cür əsası vardı. Qaoçanın tabeliyindəki İvu (Xami) knyazlığı 630-cu ildə Çinin müttəfiqi olmuşdu. Kyuy-Ven-tay kömək üçün Qərb xaqanlığına üz tutdu. 631-ci ildə Sı-cabqu* onun köməyinə gəldi. Müttəfiqlər Xamini darmadağın etdilər. İmperator yalnız diplomatik məzəmmətlə kifayətlənməyə məcbur oldu. Qaoçan knyazı isə bu məzəmmətə əsla diqqət yetirmədi.

Kyuy-Ven-tayın Sı-cabqu ilə dostluğu Qaoçanla Karaşarın münasibətlərini kəskinləşdirdi. Hakimiyyətdən uzaqlaşdırılmış knyazlar — Nişu və Işbara Tolis-şad isə Qaraşara arxalanırdılar. 632-ci ildə Qaoçanın rəqibləri olan Qaraşar lunu* Tukiçji və Xotan hökmdarı Umi Çinlə ittifaqa girdilər. Qaoçanın ən mühüm gəlir mənbələrindən biri bu ölkənin ərazisindən keçən karvan yolu idi. Tacirlərin əsas düşərgəsi Şərqdə Paykənd olduğu kimi qərbdə də Qaoçan idi. Qaoçanı zəiflətmək məqsədi güdən Tukiçji imperatora Karaşardan keçən yeni karvan yolu salmağa təklif etdi. Taytszun bu təkliflə razılaşdı. Həmin planın icrası Qaoçanın Şərqi Türküstandakı iqtisadi və siyasi üstünlüyünün itirilməsinə gətirib çıxarırdı. Ona görə də 632-ci ildə Ven-tay türkyutların yardımı ilə Qaraşar əyalətini darmadağın etdi. Tukiçji Çinə şikayətləndi.

Taytszun izahat üçün Kyuy Ven-tayı öz yanına çağırdı. Lakin o, imperatorun ayağına getməkdən imtina etdi. O, güman edirdi ki, təchizatla bağlı çətinliklərə görə çoxsaylı ordu Qaoçanı Çindən ayıran səhradan keçib gələ bilməz. Sayı 30 minə çatan nisbətən kiçik ordu ilə o özü də bacara bilərdi. Çindən heç bir kömək gəlmədiyini görən Qaraşar hakimi Işbara Tolis-şadla ittifaq bağladı. Bu

---

* Şavann yazır ki, o, Xaminin darmadağın edilməsi tarixini və yürüşdə iştirak edən Cabqunun adını göstərə bilmir. Əslində isə bu hadisə 630 və 632-ci illər arasında baş vermişdi, çünki artıq 632-ci ildə qaoçanlılar qərbi türkyutlarla birlikdə Qaraşara qarşı mübarizə aparırdılar. 631-ci ildə Sı-cabqu taxta çıxdı, aydındır ki, söhbət ondan gedir. 632-ci ildə qərbdə xanın başı əyanlarla mübarizəyə qarışanda qoşun başçılığında onu İrbis şad (İbi şad) əvəz edirdi. Aydın məsələdir ki, İrbis şad xanın yaxın adamlarından biri idi. Çünki Sı-cabqunun süqutundan sonra onun adı bir daha salnamələrdə xatırladılmır.

* Qaraşar hakiminin titulu.

çyuye və çumi tayfalarının Qaraşarla müttəfiq olaraq Qaoçan əyalətini dağıtmalarına kifayət etdi (638-ci il). Bu qələbədən ruhlanan çyuye və çumilər nuşibilərlə mübarizəni davam etdirmək üçün vətənlərinə üz tutdular, həm də onların başında qiymətli hədiyyələr aldığına görə Kyuy Ven-tayla ittifaq bağlamış Yukuk-şad dayanırdı.*

**Çevriliş.** Işbara-Tolis şad hamıya yaxşı olmaq istəyirdi.* Lakin o, heç kim üçün yaxşı ola bilmədi. Bəylərin özbaşınalığı türkyutların əsarətindən o qədər də asan deyildi. Xalq isə hər şeydə xanı günahlandırır və onu yardımdan məhrum edirdi. Onda incidilmiş qərbi türkyutlar başlarını qaldırdılar. 638-ci ilin qışında sui-qəsdin başçısı Tun-Tudun* xanın düşərgəsinə qəfil basqın təşkil etdi. Xanın əhatəsindəki hərbi rəislər onu tək qoyub qaçdılar. Çox güman ki, onlar üsyançılara rəğbət bəsləyirdilər. Işbara Tolis-şad yüz nəfərə yaxın sadiq döyüşçü ilə müqavimət göstərirdi, lakin heç yerdən kömək gəlmədiyini görüb kiçik qardaşı, Zaqafqaziya ordusunun keçmiş komandanı Buri-şadın müşayiəti ilə dostu Qaraşar hakiminin yanına qaçdı.

Tun-Tudun ağsaqqalları bir yerə yığdı, boşalmış taxta Yukuk şadı oturtmağı təklif etdi. Qərbi türkyutlar Aşina sülaləsindən olan diribaş və fərasətli xanzadəni taxta çıxarmaqla öz hakimiyyətlərini bərpa etmək istəyirdilər, lakin bu yerli tayfa başçılarını qətiyyən razı salmırdı. Çox güman ki, müxalifətə rəhbərlik edən nuşibi tayfa ittifaqının başçısı Assık Kyulsıqin kompromis variant təklif etdi. O, Işbaranı ali xan, Yukuku isə kiçik xan təyin etməyi məqsədəuyğun sayırdı. Lakin bu mübahisələr zamanı Tun-Tudun öldürüldü, artıq taxta çıxmaq üçün Qərbə yollanmış Yukuk-şad hərbi qüvvə vasitəsi ilə dayandırıldı və geriyə oturduldu. O isə öz növbəsində Qaraşarı darmadağın etməklə incidilməsinin qisasını aldı. Işbara Tolis-şad öz ölkəsinə qayıtdı. Burada nuşibilər onu böyük sevinclə qəbul etdilər, lakin türkyutların «qərb tayfaları»* yenə Yukuk-şadı çağırdılar. Onlar Yukuk-şada fəxri «İrbis Dulu xan» titulu verdilər. Çox güman ki, bu vasitə ilə dulu tayfasını da öz tərəflərinə çəkmək istəyirdilər.

İddiaçılar arasındakı müharibə olduqca qanlı idi, lakin qüvvələr də bərabər idi. Buna görə də rəqiblər İl çayı üzərində sülh bağladılar, həmin sülh müqaviləsinə görə İl onların əyalətlərinin sərhəddi sayılırdı. Elə həmin il Işbaranın əleyhinə, Yukuk-şadın isə xeyrinə sui-qəsd təşkil edildi. Sui-qəsdçilərin titulları «tıdun» və «sılef» idi, başqa sözlə desək, onlar türkyut məmur aristokratiyasının

---

* E. Şavannın fikrincə burada adı çəkilən Yuyçu (Yukuk şad) tamamilə başqa adam idi. Lakin öz fikrini əsaslandırmaq üçün dəlil-sübut gətirmir. Əslində isə, bütün faktlar haqqında söhbət gedən şəxsin şərqi türkyut şahzadəsi olduğunu göstərir.

* Tunqo-xanın ləqəbi. Heroqliflərin mənası: «hamı üçün yaxşı olan».

* Titul onun türkyutlara mənsubluğunu göstərir.

* Bu ad altında yalnız türkyutları nəzərdə tutmaq olar; çünki qalanlar hamısı Yukuk şadın əleyhinə idilər.

nümayəndələri idilər. Əsl terrora məruz qalmış Işbara Tolis şad Fərqanəyə qaçdı və 639-cu ilin dekabrında burada öldü. Nuşibi xanları mərhumun oğlu, İlkyulyuq şad İrbis xanı özlərinə xan seçdilər, bir ildən sonra o, öldüyündən xan taxtına İrbis Işbara cabqu-xan titulu ilə əmisi oğlu Bahadur çıxdı.

Yeni xan müəyyən qayda-qanun yaratdı. Kuça, Şanşan (Lobnordan cənubda), Qoymo (Xotandan şərqdə), Toxaristan, Qaraşar, Şaş (Daşkənd), Keş, Xe (Zərəfşan vadisində), Amul və Kan (Səmərqənd) onun tabeliyində idilər. Beləliklə, türkyut irticası ilə mübarizəyə bütün oturaq knyazlıqlar və karvan ticarəti ilə bağlı şəhərlər qoşuldular. Onların arasında dulu tayfalarından olan çoxlu adam vardı, bunlar məhz Çu və İli çaylarının arasında yaşayanlar idilər. İrbis Işbara cabqu-xan öz köçəri paytaxtını dulu tayfasının ərazisində saldı və onu «cənub ordası» adlandırmağa başladı. Taytszun Işbara cabqu xanı qanuni xan kimi tanıdı və Yukuka sülh müqaviləsi bağlamaq və ərazini bölüşdürmək üçün təzyiq göstərməyə başladı. Lakin onun təşəbbüsü müvəffəqiyyətlə nəticələnmədi. Sülh haqqında danışıq belə ola bilməzdi, çünki bütün antiçin və antiimperiya əhvali-ruhiyyəli qüvvələr Yukukun ətrafında toplaşmışdılar. Onlar hələ də öz məğlubiyyətlərinə inanmırdılar, düşünürdülər ki, bir neçə qələbədən sonra yenidən qorxunc türk xaqanlığını bərpa edəcək, «Səmanın Oğlu və başqaları ilə» bərabərləşəcəklər. Həqiqətdə də müvəffəqiyyət onları müşayiət edirdi. Cənub xanı 641-ci ildə əsir düşdü və edam edildi.*

**Bərpa cəhdi.** Yukuk birləşdirici xanların layiqli varisi idi. 641-ci ildə onun hakimiyyəti İl çayından tutmuş Sibir tayqalarına qədər yayılmışdı. Cunqariyada basmalılar, Altayda qıpçıqlar,* Minusin çökəyində qırğızlar, Yeniseydə bomalar, Cənubi Tarbaqatayda çumuqunlar onun hökmü altına düşmüşdülər. Bu güclü, çoxsaylı, döyüşkən xalqların Jetisuyun cənubunda qanlı vuruşların getdiyi və Yukukun çyuye və çumelərdən ibarət əsas qüvvələrinin həmin ərazidə toplandığı bir şəraitdə üç il ərzində itaətə gətirildiyini təsəvvür etmək belə mümkün deyildir. Aydındır ki, biz burada Tan imperiyasının güclənməsi və onun işğalçılıq siyasəti təhlükəsinin artması müqabilində köçəri tayfaların birləşməsi prosesi ilə üzləşirik. Çumuqunlar istisna edilməklə bu tayfaların heç biri on ox türklərinin tərkibinə daxil deyildilər, lakin bomlar istisna edilməklə onların hamısı bir vaxtlar türkyutların təbəələri olmuşdular. Budur, yenə də bütün bu tayfalar üzərində qurd başı çəkilmiş bayrağın altına toplaşmışdılar. Onları bir tərəfdən ənənələr özünə çəkirdisə, o biri tərəfdən də Soqdiananın varlı şəhərlərinin talanması perspektivi cəlb edirdi. Lakin Soqdianada da onları necə tale gözlədiyini yaxşı bilirdilər.

* Onu Çaç (Daşkənd) tudunu əsir almışdı. Lakin yuxarıda da deyildiyi kimi, Çaç könüllü şəkildə cənub xanına tabe olmuşdu. Güman edirəm ki, Çaçda, habelə başqa şəhərlərdə yerli knyazlarla bir sırada türkyut sərkərdələri də vardı; onlar öz drujinalarına və yerli əhalinin müəyyən təbəqələrinə əsaslanır, bununla da cənub xanına hərəkət etməyə imkan vermirdilər.

* Qıpçaqlar irqi baxımdan türkyutlardan çox fərqlənsələr də, siyasi cəhətdən onlarla birləşmişdilər.

Xanını itirən nuşibi tayfası başını itirməmişdi. Onlar inadla vuruşmaqda davam edirdilər. Yukuk qoşunları ilə bütün ölkədən keçərək Toxaristanı özünə tabe etmişdi.* Lakin Qərbdə Soqdiana və İssık-Kul ətrafındakı dağlar onun hökmü altında deyildi.

642-ci ildə Yukuk çyuye və çumilərdən ibarət qoşununu Xami üzərinə yürüşə göndərdi. Lakin nizami imperiya ordusunun iki min nəfərlik dəstəsi onları nəinki darmadağın etdi, həm də öz ərazilərinə qədər qovub gətirdi. Bu vuruşda çumilər daha çox zərər çəkdilər. Yukukun özü ehtimal ki, yürüşdə iştirak etmirdi. O, «birləşmiş qüvvələrlə» Səmərqənd və Maymurqa zərbə endirdi* və bu varlı şəhərləri çapıb-taladı. Lakin təntənəsinin ən yüksək zirvəsində xoşbəxtlik Yukuku tərk etdi. Özbaşınalıq və acgözlük onu dulu tayfasının başçıları ilə dalaşdırdı. Bu tayfa başçılarına elə gəlirdi ki, Yukuk qənimətlərdən öz payına düşəndən daha çox götürür.

Yukuk qarmaqarışıqlıqlara birdəfəlik son qoymaq qərarına gəldi və başqalarının gözünü qorxutmaq üçün narazılığa başlayan Nişu çuru (çur - dulularda başçının titulu) edam etdirdi. Buna cavab olaraq duluların hərbi üsyanı başlandı. Yukuk üsyanın öhdəsindən gələ bilmədi. Çünki onun tərəfdarları da qənimətdən az pay aldıqlarına görə inciyib dağılışmışdılar. Vaxtı ilə Yukuku çağırmış qərbli əyanlar işin uduzulduğunu görüb ona öz mülkünə —şərqə qayıtmağı məsləhət gördülər. Lakin bu qeyri-mümkün idi. Çünki onun başlıca istinadgahı Qaoçanı 640-cı ildə Çin qoşunları tutmuşdular. Yukuk qərbə — yenicə itaət altına alınmış Toxaristana yol açmağı qərara aldı. Buranı o, özünə yeganə təhlükəsiz yer sayırdı. Lakin hətta sonuncu silahdaşları da onunla birlikdə yola çıxmaqdan boyun qaçırdılar. Yukuk türkyut drujinası ilə tək qaldı.* O, dəstəsindən ayrılanları qayıtmaq üçün dilə tutmağa çalışdı, lakin düşmənləri nuşibilərin qəfil hücumuna məruz qaldı, yenidən məğlub edildi və Bayşunxu şəhərində (İsficab, Çimkənddən bir qədər şərqdə) gizlənməyə məcbur oldu.

Çinin yardımına arxalanan nuşibilər tezliklə Işbara Tolis şadın nəvəsi İrbis Şequy* xanı özlərinə xan etdilər. Əvvəllər tutulub saxlanmış bütün çinlilər evlərinə qayıtmaq icazəsi aldılar. Çinə bac-xərac və nigahla bağlı xahiş göndərildi. Çinlə Soqdiananın ənənəvi ittifaqına maneçilik törədilmədi. Nuşibi qoşunları Yukuku Bayşunxuda mühasirəyə aldılar, lakin hərbi şücaət hissi hələ türklərin qanından çıxmamışdı. Yukukun silahlı döyüşçüləri litavr və şeypur sədaları altında döyüşə

---

* Çox güman ki, Nuşib xanlarından ayrılan və daha əvvəldən burada məskunlaşan türkyutlardan istifadə etmişdi.

* İmperiya süvariləri Katun Boqdo olo dağlarına qədər çatmışdı.

* Tərəfdarlarının «hamısı» qaçandan sonra da Yukukun möhkəm hərbi qüvvələri vardı. Ona görə də güman etmək lazımdır ki, buradakı «hamı» təyini Yukuka sədaqətli olan və onun kimi getməyə yer tapmayan türkyut qoşunlarına deyil, Yukukdan narazı olan dululara aiddir.

* «Şequy» sözünü ifadə edən heroqliflərin mənası: «ox qabı» (t ü r k c ə «saqdan») deməkdir.

atıldılar, nuşibilər qaçmağa üz qoydular. Onların çoxunu qılıncdan keçirdilər və əsir götürdülər.

Yukuk köhnə müttəfiqlərinə — dululara geri qayıtmaq dəvəti ilə müraciət etdi, lakin dulular qəti təkildə bildirdilər: «qoy müharibədə min adam öldürsün, bir nəfərimiz də sağ qalsaq, onun yanına getməyəcəyik». Bütün xalqın əleyhinə çıxdığı ölkədə yaşamağın qeyri-mümkünlüyünü görən Yukuk drujinasının qalıqları ilə Amu-Dəryanın sağ sahilinə — Toharistana getdi. Burada o, Tun-cabqu xanın zamanından Kunduzda məskunlaşan türkyutlardan yardım aldı. Onların başçısı Işbara-cabqu titulu daşıyırdı və çox güman ki, qohumunu qonaqpərvərliklə qarşılamışdı. Yukuk 653-cü ildə ordanı oğlu Cençuya tapşıraraq öldü. Aşina nəslinin sonuncu knyazı Cençunu biz tam əsasla türkyut xanı adlandıra bilərik.

**Asayiş.** Qərb türkləri türkyut təhlükəsinin öhdəsindən gələn kimi nuşibi və dulular arasındakı köhnə ədavət yenidən alovlandı. Nuşibilər qanuni haqları olaraq birincilik istəyirdilər — arasıkəsilməz müharibələrdə onlar on tayfanın azadlığı uğrunda çarpışmışdılar, dulular isə talelərini hakimiyyəti zorla qəsb edənlə bağlamış, yalnız son anda ondan uzaqlaşmışdılar. Lakin dulular qətiyyən günahlarına uyğun cəza almaq niyyətində deyildilər. İmperator Tuytszun nuşibi xanına kömək göstərdiyi dövrdə onların vəziyyətlə barışmaqdan başqa çıxış yolu yox idi. Lakin bu dostluqda çat yaranan kimi dulular fürsətdən istifadə etdilər.

646-cı ildə İrbis xan Tan sülaləsindən olan mələkə ilə evlənməklə mövcud ittifaqı daha da möhkəmlətmək üçün Çanyana səfirlik göndərdi. Lakin imperator mələkənin müqabilində beş şəhəri — Kuçu, Xotan, Qaşqar, Çukyobu (Yarkənddən cənubda) və Tsunlik (yenə orada) şəhərlərini tələb etdi. Bu şəhərlər artıq bir dəfə imperiyanın hökmü altında düşmüşdü — Kuça 630-cu ildə, Xotan 632-ci ildə, Kaşkar və Yarkənd isə 635-ci ildə. Lakin sonradan Çindən ayrılaraq qərbi türkyut xanının hakimiyyətini qəbul etmişdilər. Tələb olduqca həyasız idi, ona görə də xan danışıqları dayandırdı. Danışıqların kəsilməsi ilə bağlanmış ittifaq da pozuldu. Bu məqamda dulular yenə üzə çıxdılar. Onların başladıqları hərəkatın xarakteri duluların seçdikləri rəhbərin şəxsi keyfiyyətlərində aydın şəkildə özünü göstərməkdədir. O, qərbi Aşina nəslindən olan xanzadə idi, Buri şadın nəvəsi, İstemi xanın törəməsi idi. Hakimiyyətin zorla qəsb edilməsi vaxtı o, Yukuka qoşulmuş, cabqu rütbəsi və bütün şərq ərazilərinə nəzarətçi vəzifəsi almışdı. Onun şəxsi adı mənbələrdə saxlanmayıb, tarixə Xallıq[57] adı ilə düşüb, Mənsəbə çatmasında əmisi oğlanları Mişə və Buçjenin[58] mühüm rolu olub. Onlar bir-birilərinə nifrət bəsləyirdilər. Buçjen intriqalar yolu ilə çyuye tayfasının başçısı Mişeni Çinə qaçmağa məcbur etmişdi. Bundan sonra Yukukun vəziyyətinin ümidsizliyini görən Buçjen ona da xəyanət etmiş və İmperiyaya satılmışdı. Lakin o

[57] Mənası «yüksəyə qalxan» deməkdir. Məncə bu, ad yox, təxəllüs idi.
[58] Mənası «həqiqətə doğru gedən», yəni casus deməkdir.

səhvə yol vermişdi — Yukuk hələ düşmənlərinə qalib gəlməkdə davam edirdi və dulu tayfasının «boş olan» başçısı yerinə xanzadə Xallıq dəvət olundu.

Yukuk qaçandan sonra Aşina Xallıq çox pis vəziyyətdə qaldı. İrbis Şequy xanın göndərdiyi qoşun onun ordasını dağıtdı, Xallıq çöldə gizlənməli oldu. Lakin üç dulu başçısı onun tərəfini saxlayıb xandan Xallıqın günahından keçməsini xahiş etdilər. Qəzəblənmiş xan çağrılmamış xeyirxahların boynunu vurdurmaq istəyirdi və buna müəyyən əsası da vardı. Əslinə baxsan Aşina Xallıq narazı dululara başçılıq etmək üçün hər mənada yararlı adam idi. Aşina nəslinin yerli qoluna mənsubluğu xalq arasında populyarlığına zəmanət verirdi, lakin bununla bir sırada Yukukla əlaqələri onu kifayət qədər gözdən salmışdı və belə əlaqələrə görə Aşina Xallıqın başqalarını günahlandıracağını gözləmək olmazdı. Onun şəxsi keyfiyyətləri — igidliyi, enerjisi, bacarığı Xallıqın xanın təhlükəli rəqibinə və dulu tayfasının arzu edilən başçısına çevirirdi. Binagüzarlıqlarının səmərəsizliyini görən üç başçı üsyana qalxmağı xanın gözündən düşməkdən daha üstün tutdular və Xallıqla birlikdə qərbə köçdülər. Burada isə 648-ci ildə Çin təbəəliyini qəbul etdilər. Bu, Qərb xaqanlığını məhv edən narazılığın yeni toxumu idi. Lakin türkyut faciəsinin beşinci pərdəsi haqqında danışmamışdan əvvəl diqqətimizi şərqə yönəldək. Aradan keçən iyirmi ildə burada Asiyanın siyasi xəritəsinə yüz il ərzində dəyişdirə bilən hadisələr baş vermişdi.

## XVII f ə s i l

## TABQAÇ XANI

**Bir addım geri.** 631-ci ildə imperator Taytszun Böyük çölün tam hüquqlu sahibi idi və istəsəydi, Qərb xaqanlığındakı qarmaqarışıqlıqdan istifadə edərək bütün Asiyada hakim qüvvəyə çevrilərdi. Lakin bu cəsur sərkərdə həm də ağıllı siyasətçi idi və əldə saxlaya bilməyəcəyi ölkəni tutmağı lazımsız iş sayırdı.

Çöldə darmadağın edilmiş türkyutlardan əlavə çoxsaylı və döyüşkən xalqlar yaşayırdılar — qərbdə 70 min alaçıq seyanto, şimal-şərqdə isə 100 min uyğur var idi. Taytszun vəziyyəti qiymətləndirərək deyirdi: «Əgər biz onları qıra bilməsək, onda nigah siyasətindən başqa yolumuz qalmır». O, talelərini həll etməyi köçərilərin öz öhdəsinə buraxaraq qoşunlarını Qobi səhrasının cənub tərəfinə çəkdi. Köçərilər dərhal bir-biri ilə əlbəyaxa oldular. Uyğurların başçısı, Pusanın xələfi Tumidu seyantoları darmadağın edərək onların köç yerlərini ələ keçirdi. Seyanto tayfa başçıları «qorxudan quş kimi hərəsi bir yana dağılışdı».[59] On bir tele tayfasının başçısı isə öz xanlıq səlahiyyətlərinin tanınması xahişi ilə Çinə gəldilər. İmperator onlara xalat və qılınc bağışladı, rütbələr verdi, sərxoş olana qədər şərab

[59] Н. Н. Б и ч у р ин. Собрание сведений, т. I, с. 302.

içirdi, lakin bütün bunlarla birlikdə həm də öz səfirini fərman, litavra və bayraqla seyanto xanı İnanın yanına göndərdi. Bu da onu rəsmən xan kimi tanımaq demək idi.

Çöldə vəziyyət dərhal dəyişdi: uyğurlar müharibəni dayandıraraq yeni xana tabe oldular. Seyanto dövləti Altaydan Xinqana və Qobi səhrasından Baykala qədər uzanırdı. Bu dövlət türkyut nümunəsi əsasında təşkil edilmişdi. İnanın oğulları şad rütbəsi almış, teles və tarduş bölgələrinin başında dayanmışdılar. Fərq yalnız bunda idi ki, indi tölöslər şimalda, tarduşlar isə şərqdə yerləşirdilər. Çinlilər seyanto qoşunlarının miqdarını 200 000 nizə göstərirlər, Şibir xanın vaxtında isə türkyutların silahlı qüvvələrinin sayı milyon rəqəmi ilə ifadə olunur.* Seyanto xanlığının türkyut xanlığından qat-qat zəif olmasına baxmayaraq, onunla çəkişmək fikrinə düşən türkyut knyazlarının hamısının öhdəsindən uğurla gəlirdi. Təkcə Kat İl-xana sədaqətlərini qoruyaraq 630-cu ildə Çinə təslim olan və Ordosda yerləşdirilən türkyutlar istisna təşkil edirdilər. 639-cu ildə siyasi roluna deyil, həm də diqqətəlayiq şəxsi keyfiyyətlərinə görə seçilən Aşina Sımo onların xanı təyin olundu. O, təbiətən hazırcavab, səmimi, sədaqətli adam idi, mənşəcə qeyri-qanuni doğulmasının güman edilməsinə baxmayaraq (zahirən Qərb ölkəsi sakinlərinə daha çox oxşayırdı, bu səbəbdən də sonralar ali rütbələrə gedən yol üzünə bağlanmışdı), hər iki böyük xan - Çulo və Şibir onu ürəkdən sevirdilər. Bütün dostları və silahdaşları Kat İl-xanı tərk edib gedəndə Sımo axıra qədər öz sadiqliyini saxlamış, onunla birlikdə əsir düşmüşdü.

Taytszun sədaqəti qiymətləndirməyi bacarırdı: Sımo həmişə onun inam bəslədiyi adam olmuşdu və Çin imperatorunu bir dəfə də aldatmamışdı.

Lakin xalqı özünə yaxınlaşdırmaq xanın sədaqətinə nail olmaq qədər asan deyildi. Sıma Ordosda üç il yaşadı, ancaq kütləni öz tərəfinə çəkə bilmədi. Əksinə, onun təbəələrinin çoxu şimala köç etdilər. Hətta qvardiya sıralarına cəlb olunmuş türkyutlara da etibar etmək mümkün deyildi. Tölös xanın kiçik qardaşı Qeşuşay* 639-cu ildə sui-qəsd təşkil etdi. Onun məqsədi tölös xanın oğlu, türkyut taxt-tacının varisi Xeloxunu çinlilərdən oğurlamaq, şimala çəkilmək və mübarizəni təzələmək idi. Lakin Çin düşərgəsinə qəfləti hücum baş tutmadı. Xeloxu qaçmağa cəhd göstərərkən öldürüldü, Qeşuşay özü isə dağlara çəkildi. Bu hadisə bütün türkyutları etimadsız adamlar kimi imperiya hüdudlarından sürgün etməyin zəruriliyi haqqında imperator qarşısında yenidən məsələ qaldırmaq üçün Çin məmurlarına əsas verdi. Etiraz etməyə əsas yox idi. İmperator razılaşmağa məcbur oldu. Ancaq onun tapdığı üsul köçəri təbəələri nəinki incitdi, əksinə, onları imperatora bir qədər də yaxınlaşdırdı. Taytszun Sımonu yanına çağırdı, böyük

* Təbii ki, bu rəqəm şərti qəbul oluna bilər.

* Çox güman ki, anadan bir qardaşı, yaxud əmisi oğlu idi, çünki taxt-tacın iddiaçısı deyildi.

mərhəmət əlaməti olaraq ona və xalqına Qobi səhrasından cənuba köç etmək üçün Xuanxe çayının şimal sahilinə köçməsinə icazə verdiyini bildirdi.

Bununla da o, üç məqsədə çatdı: «örüşlərin bol, torpağın yaxşı» olduğu ölkəni bağışlamaqla xalqı özünə yaxınlaşdırdı, türkyutlara özlərinin anadangəlmə düşmənləri kimi baxan seyantoların qarşısında sipər yaratdı, nəhayət türkyut döyüşçülərinin simasında xarici yürüşlər üçün son dərəcə zəruri olan əla süvarilər əldə etdi. Köçürmə 641-ci ildə başa çatdırıldı. Türkyutların çoxunun qalib çinlilərin xidmətində dayanmaq istəməyərək şimala köç etmələrinə baxmayaraq, yerdə qalanlar öz silahları ilə Tan sülaləsinə Asiyanın həmin vaxta qədər şahidi olmadığı bir şöhrət gətirdilər.

**Tabqaç xanı.** Suy sülaləsinin devrilməsi və «ədalətli müharibə» Çin xalqına elə baha başa gəlmişdi ki, artıq yeni xarici fütuhatlar üçün ondan vəsait qoparmaq o qədər asan deyildi. Ölkənin sərhədlərindən kənarda fəal siyasətdən əl çəkmək isə məhvə gətirib çıxara bilərdi, çünki nəticədə sülalənin düşmənləri təşəbbüsü öz əllərinə alar və fürsət düşən kimi Çinə soxula bilərdilər. Sərkərdəlik və dövlət xadimi istedadı sayəsində Taytszun, barbar tayfa başçıları və knyazları ilə ümumi dil tapdı. Çöldə müvəffəqiyyətli müharibəni yalnız çöllülər özləri apara bilərdilər. Onların rəğbəti imperator üçün həyat və rifahın rəhni idi. Taytszun öz ədalətliliyi və böyük qəlbliyi ilə köçərilərin rəğbətini qazandı. Əvvəllər onların başçıları və knyazları özlərini Çində gəlmə, muzdlu əsgər, bir sözlə dözülməsi güclə mümkün olan adamlar sayırdılar, indi isə onlar imperatorun dostlarına və yaxın adamlarına çevrilmişdilər. İmperator onların bütün işlərinə kömək edir, fəlakətə düşənlərə kömək əli uzadırdı. O, hətta Koreyaya yürüş zamanı oxla yaralanmış Sımonun qanını şəxsən özü soraraq yaranı təmizləmişdi.

Çinin yarısını xaraba qoymuş Kat İl-xan əfv olundu. Hələ bu azmış kimi, onun bütün ailə üzvlərini yanına qaytardılar və azad yaşamasına icazə verdilər. Kat İl-xanın qüssə keçirdiyi və gün-gündən arıqladığı məlum olanda isə ona Xunçjou əyalətinin hakimi rütbəsi təklif edildi. Həmin əyalətdə maral və cüyür ovlamaq üçün gözəl yerlər vardı. Bu yolla türkyut xanının kefini açmaq, onun sağalmasına nail olmaq istəyirdilər. Taytszun xəbərçilik və böhtançılıq sisteminin qarşısını birdəfəlik alaraq demişdi: «hakimiyyət başında olan heç kəsdən şübhələnməməlidir». Aşina Şeninin imperatordan sonra yaşamaq istəməyərək onun qəbri üstündə özünə qəsd etmək cəhdi köçəri müttəfiqlərinin Taytszuna necə bağlı olduqlarına yaxşı sübutdur.

Lakin imperatorun dostanə siyasəti dövlət şurasının bəzi üzvlərində ciddi müqavimət doğurdu. Həmin əyanlar təkidlə köçəriləri zəif salmaq və bu yolla da onların axırına çıxmaq siyasətini yürüdürdülər. Taytszun isə tamamilə əks mövqe tuturdu. Onun mövqeyini əyanlardan biri — Ven Yan-bo belə ifadə etmişdi - «Uzun yüyən cilovlamağın ən yaxşı üsuludur».

Taytszunun hakimiyyəti dövründə özgə ərazisini tədricən özününküləşdirmə siyasəti belə həyata keçirilirdi: Xarici ərazi sahibi «nəvazişlər» vasitəsi ilə

imperatorun hamiliyini qəbul etməyə razı salınırdı. Bunun ardınca onun əyalətinə artıq «birləşdirilmiş əyalət kimi yeni ad verilir, hakimin özü əvvəlcə nominal şəkildə, sonra isə daha yüksək səlahiyyətli məmura tabe olmaq şərti ilə Çin rütbəsi alırdı. Əvvəlcə irsi olan bu vəzifə sonralar tədricən daha çox yerli zadəganların təyin edildiyi vəzifəyə çevrilirdi. Növbəti mərhələdə özünüidarənin bu xəyali variantı da yoxa çıxır və «birləşdirilmiş» əyalət ümumi əsaslarla imperiyanın tərkibinə daxil edilirdi. Taytszunun hakimiyyət başında olduğu dövrdə bu sistem parlaq nəticələr verirdi.

**Toqonun taleyi.** Yeni yaradılan hərbi maşının ilk qurbanı kiçik, lakin inadkar Toqon oldu. Türkyutlarla sonuncu müharibənin amansız dövründə toqonlular imperiyanın qərb sərhədlərinə yürüşlərini dayandırmırdılar. Çin qoşunları əvvəlcə müdafiə ilə kifayətlənirdilər, ancaq ordu sıralarında cəld kibilər və amansız dansyanlar peyda olan kimi onlar hücumlara əks hücumlarla cavab verdilər və toqonluların çoxlu mal-qarasını qovub apardılar.

634-cü ildə dansyanlar və köçəri tibetli-tyanlar çinlilərə qarşı üsyan qaldırdılar və toqonlularla birləşdilər. Onların üzərinə türkyut və kibilərdən ibarət süvari dəstəsi göndərildi. 635-ci ildə həmin dəstə toqonluları tam məğlub etdi. Toqon hökmdarı, 70 yaşlı Fuyun Xotana qaçdı. Lakin təqib olunduğunu görüb özünü öldürməyi əsir düşməkdən daha üstün tutdu. Onun varisi, uzun müddət girov kimi Çində saxlanmış Muyun Şunu isə təbəələri Çinə rəğbət bəsləməkdə şübhələnərək öldürdülər. Xüsusi göndərilən imperator ordusu Muyun Şunun oğlu Noxebeni taxta çıxardı. Təbii ki, Noxebe imperiyanın oyuncağına çevrildi və buna görə də 640-cı ildə dəbdəbə ilə məlakə adlandırılan Çin knyazının qızı ilə evləndi.

Görünür, yaranan sülh və Çin mallarının bolluğu toqonluların xoşuna gəlmişdi. Odur ki, 641-ci ildə əyanlardan biri Tibetlə ittifaq bağlamaq niyyəti ilə sui-qəsd hazırlamaq fikrinə düşəndə o, Çin imperiyası ilə birliyi müdafiə edən knyazların qəti müqavimətinə rast gəldi. Nəticədə Toqon iyirmi il sülh şəraitində yaşamaq imkanı qazandı.

Toqon, eləcə də Tan imperiyasının özü üçün təhlükə qərbdə meydana çıxdı. Böyük Braxmaputra çayının orta və yuxarı axarında məskunlaşmış Cənubi Tibet tayfaları -botlar VII əsrdə birləşdilər və güclü hərbi dövlət yaratdılar, 634-cü ildə Tibet dövlətinin serpo titulu daşıyan başçısı Sronsanqambo imperiya ilə əlaqə yaratmaq məqsədi ilə Çinə səfirlik göndərdi. Səfirlik soyuq qəbul edildi. Tibetlilər bunu toqonluların intriqalarının nəticəsi sayaraq daxili çəkişmələr məngənəsində sıxılan Toqona hücum etdilər. Onlar xüsusi çətinlik çəkmədən Xuanxe çayının yuxarısında Noxebonu məğlubiyyətə uğratdılar. O, arvadı və bir neçə min tərəfdarı ilə 663-cü ildə Linçjou əyalətinə qaçdı. Bununla da Toqonun müstəqil mövcudluğuna son qoyuldu.

Noxebe 688-ci ildə öldü. Onun varisləri hələ yüz il sonra da xan sayılırdılar, lakin artıq onların nə real hakimiyyəti, nə də əraziləri vardı. Toqonlular da

türkyutlar və Tan imperiyasının digər köçəri təbəələri kimi imperiya ordusunda qulluq edirdilər.

**Qaoçanın sonu.** Deyildiyi kimi, Tan sülaləsinin bütün düşmənlərinin cazibə mərkəzi Qaoçan idi. Çindən siyasi mühacirlər və Suy sülaləsinin tərəfdarları bura axışırdılar.* Türklərlə qaynayıb-qarışmış Çinə tabeliyin hər bir formasını rədd edən köçəri tayfaları da Qaoçana arxalanırdılar. Çinlilərlə eyni məhsul istehsal edən və buna görə də onların təbii rəqibləri olan yerli əhali güman edirdi ki, çöl onların müstəqilliyini qoruyacaq.* İmperiyanın xarici vəziyyətinin istər Şərqdə ciddi nəticələrlə qurtara bilən dövlət çevrilişinin yetişməkdə olduğu Koreyada (həqiqətən də həmin çevriliş 645-ci ildə müharibəyə səbəb oldu), istərsə də yeni Tibet dövləti ilə müharibənin ara vermədiyi qərbdə gərgin qalması da onların ümidlərini artırırdı. Lakin buna baxmayaraq Qaoçan knyazı və onun müşavirləri yeni şəraiti nəzərə almadılar. Çin piyadalarını qərbə göndərmək əvvəlcədən məhvə məhkum bir işə başlamaq idi, lakin 632-ci ildən türkyut şahzadəsi Şeni öz dəstəsi ilə birlikdə imperiyanın xidmətinə keçdi. 632-ci ildən isə Xesidə döyüşkən tele tayfalarından biri — kibi köç edirdi, həmin tayfanın başçısı Kibi Xeli də imperator Taytszun seçmə dostları sırasına daxil olmuşdu. Çöldə uzun müddətli yürüşlər bu süvarilər üçün qorxulu deyildi.

Yukuka doğru meyl qaoçanlılara yalnız zərər gətirdi, çünki türkyutların düşməni olan seyanto xanı Qaoçana qarşı yürüş hazırlığını eşidən kimi ittifaq bağlamaq və qoşunları çöldən keçirmək üçün bələdçi dəstəsi vermək təklifini irəli sürdü. 639-cu ildə Taytszun bir daha Qaoçan knyazı Ven-tayı izahat vermək üçün yanına çağırdı. Lakin Ven-tay boyun qaçırdı. Bunun ardınca yürüş başlandı.

640-cı ildə on minlərlə türkyut və kibi atlılarından ibarət süvari dəstələri çinlilərlə köçəri zabitlərin birgə komandanlığı altında çöldən keçərək çiçəklənən Lyukçan vadisinə daxil oldu. Ven-tay keçirdiyi həyəcanlar nəticəsində xəstələnib öldü, lakin qaoçanlılar onun oğlunu taxta çıxarıb müqavimət göstərməyə hazırlaşırdılar. İmperiyanın hərbi qüvvələri ilk addım kimi çinlilərin yaşadıqları şəhərciyi müasirəyə aldılar. Kibilərin başçısı Xeli aramsız hücumlardan sonra qala divarlarını keçə bildi. Şəhərciyin 7 min sakini özlərini qaliblərin mərhəmətinə təslim etdi. Bundan sonra imperiya qoşunları paytaxta yaxınlaşdılar, qalanın xəndəyini torpaqla dolduraraq daşatan silahlardan şəhərə zərbələr endirməyə

---

* N. Y. Biçurin. Собрание сведений. т. 2, с. 291. A. Steynin Astandakı tapıntıları içərisində zadəgan nəslindən olan bir xanımın nekroloqu diqqəti cəlb edir. O, Qaoçan hakimi yanında qvardiya generalı rütbəsində qulluq edən Fan Yun Lun adlı bir nəfərin dul qadını olmuşdur. Bu xanım «köhnə rejimin» — yəni Suy sülaləsinin tərəfdarı olduğundan Qaoçanda yaşayırdı. O, 667-ci ildə vəfat etmişdi.

* Knyaz Ven-tay öz yaxın adamlarına deyirdi: «Mən keçən dəfə saraya gedəndə Tsin və Lun şəhərlərindən şimalda düzənliklər vardı. Suy sülaləsinin vaxtında belə şeylər olmazdı. İndi üstümüzə çoxlu qoşun göndərsələr, onlara ərzaq çatdırmaq mümkün olmayacaq; yox əgər qoşunların sayı 30 mindən çox olmasa, öhdələrindən özüm gələrəm. Qumlu çöldən keçəndə onlar yorulub əldən düşəcəklər, mən isə özümün yaxşı dincəlmiş qoşunumla onların bu vəziyyətindən istifadə edəcəyəm».

başladılar. Gənc knyaz imperiya qoşunları düşərgəsinə gələrək yalvara-yalvara təslim olmaq istədiyini bildirdi, lakin baş komandan hücum əmrini verdi və beləliklə Qaoçanın taleyi həll edildi.

İmperiya ordusunun Qaoçan qalasını bu cür sürətlə ələ keçirməsi yerli sakinlərə fövqəladə təsir göstərdi. İyirmi iki şəhər döyüşsüz təslim oldu, mühasirədə dayanmış Çin qoşunlarına arxadan zərbə endirmək üçün Cənubi Cunqariyada fürsət gözləyən cabqu imperiyanın tərəfinə keçdi. Bu «həqiqətə can atan» həmin Buçjen idi, o, əvvəlcə intriqalar vasitəsi ilə qardaşını qaçmağa məcbur etmiş, sonra isə çox da düşünüb-daşınmadan Yukuka xəyanət etmişdi. O, Bişbalık şəhərini imperiya qoşunlarına təslim etdi, onlar isə burada dərhal bütün Qərb əyalətində başlıca dayaq nöqtəsinə çevrilən Tinçjou hərbi dairəsini yaratdılar.

Qaoçan sakinlərinə mərhəmət göstərildi, onlar əfv olundular. Yalnız «güclü ailələr» Çinin daxilinə köçürüldü. Qaoçanlıların Qaraşardan aldıqları şəhərlər geri qaytarıldı. Qaraşar əsirləri azad edildi.* Taytszun çinli müşavirlərinin əksinə gedərək fəth edilmiş torpaqlarda Sinçjou hərbi dairəsini yaratdı və ora canişin təyin etdi. Həmçinin cəza müddətləri hərbi xidmətlə əvəz olunan min nəfər keçmiş canidən ibarət qarnizon yerləşdirdi.

**Seyantolara divan tutulması.** Çöldə gəzib dolaşan şaiyələr seyanto xanı İnana Xuanxenin şimalında türkyut xanlığının dirçəldilməsi xəbərini çatdırdıqda onun imperator Taytszunla dostluğu pozuldu. Əslində İnanın əsas niyyəti türkyutların axırına çıxmaq idi, lakin onların müdafiəsi üçün xüsusi hərbi məmur təyin olunmuşdu. İmperiya ilə konfliktə girmək isə ağır nəticələr verə bilərdi. Lakin 641-ci ildə İnana elə gəldi ki, artıq yürüşə çıxmaq vaxtı yetişmişdir. İmperator ənənəvi qurbanvermə mərasimi üçün Tayşan dağına yollanmışdı, bütün qoşunlar da onu müşayiət edirdilər. İnan düşünürdü ki, artıq imperator qoşunları türkyutların köməyinə yetişə bilməzlər, ona görə də tabeliyindəki bütün tayfaları — tonqraları, buduları, uyğurları, moxesliləri (cürcenlər), tatabları səfərbərliyə aldı və xalqının düşməni ilə haqq-hesabı birdəfəlik çürütmək üçün bütün bu silahlı qüvvələri Qobi səhrasından keçirdi. Orduya onun oğlu, tarduşların şadı başçılıq edirdi.

Hücumun gözlənilməzliyini təmin etmək üçün hər döyüşçü dörd at götürmüşdü, onlar atları dəyişdirərək dayanmadan hərəkət edirdilər. Lakin Aşina Sımo döyüşə girmədən Xuanxenin o biri tayına, Ordosa çəkilməyə imkan tapdı və seyantoların yürüşü haqqında Çanyana xəbər çatdıra bildi. Onun köməyinə dərhal süvari dəstəsi göndərildi. Türkyutlarla birləşən imperiya qoşunları birbaşa düşmənin üstünə getdilər və Noçşen çayı yaxınlığında (641-ci ildə) onları döyüşə girməyə məcbur etdi. Seyantoların hər biri yürüşə dörd at götürmələrinə

* Ona deyirdilər ki, qarnizon saxlamaq çox baha başa gələcək, «lazımlı şeyi lazımsıza sərf etmək» olmaz.

baxmayaraq piyada vuruşurdular. Döyüş vaxtı atları xüsusi mehtərlər tuturdular. Hər dörd ata bir mehtər ayrılmışdı. Döyüşün əvvəlində seyantolar öz taktikalarına uyğun surətdə türkyutların atlarını oxa tutdular, çünki onların qoruyucu zirehi yox idi. Piyada vuruşa qabil olmayan türkyutların arasına qarmaqarışıqlıq düşdü, onlar geri çəkilməyə başladılar. Seyantolar təqibə atıldılar, bununla da öz döyüş sıralarını pozdular. Tabqaç sərkərdəsi Li Tszi yaranmış vəziyyətdən istifadə etdi. O, Çin piyadalarını hərəsində yüz nəfər olan dəstələrə böldü, təqib zamanı seyantoların qoşunu arasında yaranmış məsafələrdən zərbə endirərək düşməni dayandırdı. Bu arada türkyut süvariləri də öz döyüş səflərini bərpa edərək mehtərlərin üzərinə atıldı və 15 min at ələ keçirdi. Seyantoların arasında vahimə yarandı, onlar türkyutların qabağından qaçmağa başladılar. Döyüş dekabr ayında baş verdiyindən qılıncdan xilas olanlar səhradan keçərkən şiddətli şaxtalara düşdülər. Seyantoların itkisi şəxsi heyətin 80 faizinə çatırdı. Bu dəhşətli məğlubiyyət İnanı sülh istəməyə məcbur etdi. O, Çin məlikəsinə evlənməklə bağlanacaq sülhü daha da möhkəmlətmək istəyirdi. Taytszun xanın şəxsən özünün gəlməsini və toy hədiyyəsi kimi xeyli mal-qara gətirməsini tələb etdi. Çin imperatorunun tələb etdiyi hədiyyəni aparmaq üçün xanın qoyduğu vergi o qədər böyük idi ki, əhali arasında narazılıq yaratdı. Mal-qaranı səhradan keçirib aparmaq mümkün olmadı, onların arasında xəstəlik başlanmışdı. Bu, İnanın olan-qalan nüfuzunun da axırına çıxdı və Taytszun daha onunla hesablaşmamağı qərara alaraq Çin məlikəsini xana ərə verməkdən imtina etdi.

İnan basqın etmək istədi, lakin imperiya qoşunlarını görüb döyüşsüz geri çəkildi. 645-ci ildə Çinlə müharibəyə hazırlaşan Koreya əbəs yerə İnanı Çinə qarşı təxribata razı salmağa çalışırdı. 645-ci ilin oktyabrında İnan bütün planlarının tamamilə puça çıxdığının şahidi olaraq öldü. Seyanto əyanları onun qeyri-qanuni oğlu İnanı taxta çıxarmaq istədilər, lakin qanuni oğul Baçjeni tərəfdarları ilə birlikdə atasının dəfni zamanı İnanın üstünə atılıb onu öldürdü və özünü xan elan etdi.* Taytszunun əsas qoşun hissələri ilə birlikdə Koreyada, müharibədə olmasından istifadə edən Baçjo Çinə soxuldu, lakin yalnız sərhəd qüvvələrinin gücü ilə dəf olundu. Digər tərəfdən Baçjonun əks partiyadan olan əyanları edam etdirməsi ordada narazılıq doğurdu. Odur ki, imperator qoşunları yaxınlaşan zaman orda qaçıb-dağıldı və öz başçısını döyüş meydanında tək qoydu. Tezliklə Baçjonu uyğurlar öldürdülər, 645-ci ilin payızında isə imperator ordusunun qəfil yaxaladığı seyanto ordasının qalıqları qismən qılıncdan keçirildi, qismən əsir götürüldü, qismən də bir daha heç vaxt birləşə bilməmək üçün qaçıb dağılışdı.

Döyüşkən və çoxsaylı tayfa üzərində belə asan qələbə imperiya diplomatiyasının son dərəcə incəliklə düşünülmüş bir addımı ilə izah olunur. Taytszun İnanla Çin məlakəsinin nigahına etirazını bildirəndə əslində seyanto

* İnanın qanuni oğlunun titulu Qeli Qyunli-Şnse-Şa-Doni-xan idi.

xanının itaətindəki bütün tayfalara üsyan siqnalı vermiş oldu.* Sonra o, «türkyut «bahadırını» başçı kimi onların yanına göndərdi, lakin burada ona fəaliyyət sahəsi tapılmadı. Üsyançılara uyğur tayfa başçısı Tumidu rəhbərlik edirdi. O, seyantoları darmadağın etdi, lakin qələbədən sonra bütün təbəələri ilə birlikdə Tan imperatoruna tabe oldu. Tele tayfaları üçün bu ən yaxşı çıxış yolu idi: onlar öz həyat tərzlərini qoruyaraq əslində heç nə itirmirdilər, əksinə, çinlilərlə ticarət əlaqələrinə girmək, habelə qazanc və mənsəb vəd edən imperiya ordusu sıralarına daxil olmaqla çox şey qazanırdılar. Doğrudur, müəyyən müxalifət qüvvələri meydana çıxdı, Tumidu sui-qəsdçilər tərəfindən öldürüldü. Lakin tezliklə onlar da imperiya canişininin qurduğu tora düşdülər və edam edildilər. Tumidunun oğlu tayfa başçısı elan olundu. Ona hərbi rütbə verildi. Bundan sonra uyğurlar imperiyanın loyal təbəələri oldular və onun apardığı bütün müharibələrdə iştirak edirdilər.*

**Çebi xan.** Seyantoların darmadağın edilməsi Tan imperiyasının nüfuzunu o qədər möhkəmləndirdi ki, bayırku (baequ) və kurıkanlar (quliqanlar) kimi ucqar tele tayfaları da 647-ci ildə xəracla bir yerdə səfirlər göndərdilər və könüllü surətdə imperatora tabe oldular. Həmin ilin sonunda türkyut Çebi xandan da səfirlik gəldi.

Bu şahzadənin taleyi olduqca diqqətəlayiqdir. Kat İl-xanın hakimiyyəti illərində o, «kiçik xan» rütbəsində bölgə knyazlarından biri idi. 630-cu ildəki məğlubiyyətdən sonra Çebi xan onu dabanbasma təqib edən seyantolardan uzaqlaşaraq ordası ilə şimala qaçdı və Şərqi Altayın dağ vadilərində gizləndi. «Tanşu»da deyilir: «Çebi Qızıl dağların (Altay) şimal səmtinə getdi. Qızıl dağlar üç tərəfdən sərt qaydalarla dövrələnib, yalnız dördüncü tərəfdən atlı və araba keçə bilər. Burada düzən yerlər var. Həmin yerləri Çebi tutdu. O, qərbdə Qelolunu (qarluqlar), şimalda isə Qequnu (kırqızlar) özünə tabe etdi». «Qızıl dağların şimal tərəfi» ifadəsini hərfi mənada (daha doğrusu, bizim əsaslandığımız mənada) başa düşmək olmaz. Altayın şimal yamacları meşəlikdir, heyvandarlıqla məşğul olan türkyutlar orada yaşaya bilməzdilər. Kırqızlar Yeniseyin yuxarı hissələrində məskunlaşmışdılar, əgər Çebi xan həqiqətən də Altay dağlarını aşmışdısa, kırqızlar

---

* Taytszun öz müşavirlərinə dedi: «Seyantolar itaətkarlıq göstərir və bizim qəzəbli hərəkətlərimizə qarşı çıxa bilmirlər. Odur ki, özlərini vüqarlı aparmağa və bizə laqeydlik göstərməyə cəsarət etmirlər. Lakin onlar həmişə böyük dövlətlərə arxalanaraq kiçik xalqları itaətkarlığa məcbur edirlər. Tunlo, nuqu və digər on tayfanın qoşunlarının miqdarı on minlərlə ölçülür.. Əgər onlar hərəkətsiz dayanıblarsa, aydındır ki, bizim seyantonu müdafiə etdiyimizi görüb Çindən qorxurlar. Əgər indi onu Çin mələkəsi ilə evləndirsək, onda İnan böyük dövlətin kürəkəni olmasından istifadə edib öz dövlətini möhkəmləndirər, ləyaqətini yüksəldər, həmtayfalarını öz ətrafında daha sıx birləşdirər. Müxtəlif ailələr və tayfalar ona daha artıq hörmət edər, tabeliyinə keçərlər. İndi Çin mələkəsini xana verməsək, onun imkanlarını məhdudlaşdırarıq. Bütün ailə və tayfalar dərhal bizim onu tərk etdiyimizi bilərlər. Onlar dərhal onun üstünə hücuma keçərlər».

* Elə həmin 647-ci ildə müttəfiqlərlə əlaqə saxlamaq üçün imperiya hökuməti «türkyutlardan (Çaxar) uyğunlara (Xalxa) qədər» səfirlər üçün poçt stansiyaları yaratdılar.

ondan şimalda yox, şərqdə qalmalı idilər. Karluqlar İrtışın yuxarı axarında yaşayırdılar və ondan qərb deyil, cənub tərəfdə olmalı idilər. Ərazinin hər tərəfdən dağlarla dövrələnməsi, daxilə isə «düz torpaqlar» — yəni çöllük olması göstərir ki, Çebi xan daxili Altayın vadilərini ələ keçirmişdi. Həmin vadilərə aparan yeganə yol isə Saylyuqemdir. Deməli, Çebi xanın ərazilərinin əsas hissəsi Teles gölü ilə Katun çayı arasında yerləşirdi. Çox güman ki, şərqdə Kobdo hövzəsinin bir hissəsi də onun əlində idi.

Çebi xanın qoşununda otuz min nəfərə qədər döyüşçü vardı. O, şimalda kırqızları, qərbdə isə karlukları özünə tabe edə bilmişdi. Şimalda o, seyantolarla arasıkəsilməz mübarizə aparırdı.

Taytszun onun yanına şəxsən Çanyana gəlib öz tabeliyini bildirmək təklifi ilə cavab elçiliyi göndərdi, lakin Çebi xan diplomatik münasibətlər yaradılmasını qətiyyən danışıqsız təslim kimi başa düşmək istəmirdi. Xanın güzəştə getmədiyini görən Çin səfirləri onu əsir tutmaq üçün karluklarla dil tapmağa çalışdılar. Gizli danışıqların üstü açıldı, Çin səfirliyinin bütün nümayəndələri qılıncdan keçirildilər. Qəzəblənmiş Taytszun 649-cu ildə general Qao Kanı uyğurlardan və baquslardan təşkil olunmuş qoşunla Çebinin üstünə göndərdi. Çebi xan əsir alınıb Çanyana gətirildi, lakin burada o, nəinki əfv olundu, üstəlik yüksək hərbi rütbəyə də layiq görüldü. Xanın xalqı daimi yaşamaq üçün Şərqi Xanqaydakı Utuqen meşəliyinə göndərildi, çünki seyantolar darmadağın edildikdən sonra bu əyalət tamamilə boş qalmışdı.

Hadisələrin ümumi gedişi belədir, lakin xalqın Altaydan Xanqaya köçürülməsi haqqındakı məlumat şəksiz şişirtmədir. Mən «Tanşu» və «Qanmu» tərtibçilərini məsuliyyətsizlikdə təqsirləndirmək fikrindən uzağam, çox güman ki, onlar öz əsərlərində sadəcə Qao Kanın raportlarını olduğu kimi vermişlər. Lakin bu general da Çin saray xadimlərinin coğrafi biliklərinin məhdudluğunu nəzərə alaraq raportları digər generallarda təsadüf etdiyimiz dəqiqliklə yazırdı. Təkcə onu demək kifayətdir ki, generalın məlumatına görə Çanyandan Qobi səhrası və Qərbi Monqolustandan keçərək Altaya qədərki yürüş də daxil olmaqla bütün əməliyyat kampaniyası 650-ci il ərzində həyata keçirilmişdi.

Bu müddət ərzində 30 min nəfərlik türkyut dəstəsinin müqavimətinin dəf olunması, Çebu xana xəyanət etmiş iki tayfa başçısının itaətə gətirilməsi, bir aymakın qəflətən tutulması və Çebi xanın özünün ələ keçirilməsi — bütün bunlar inandırıcıdır, lakin Qao Kanın bu müddət ərzində bütün çoxminli xalqı son nəfərinə qədər dənləməsi faktına yalnız ömründə Altayı görməmiş Çin saray əyanları inana bilərdilər. Bir-birindən hündür dağ keçidləri ilə ayrılmış vadilər ən təbii sığınacaqlar idi; burada hər cür düşməndən qorunmaq olardı. Çünki mühasirədə qalanın ixtiyarında həm çöllük (Altay vadisinin həmişə günəş şüalarının qızdırdığı şimal yamacı), həm xoş ətirli və kölgəli meşəlik (günəş şüalarının yalnız ötəri isitdiyi cənub yamacı), şəffaf dağ sularının axdığı kiçik çaylar, təbii daldalanacaq rolunu oynayan göbələkvari tağlı qayalar vardı. Qış

vaxtlarında hündür zirvələr keçilməz idi, yayda isə düşmən hətta bu vadilərə gəlib çıxsaydı da, heç nəyə nail ola bilməzdi, çünki alaçıqlar bir qayda olaraq su hövzələrinin başında qurulurdu, ora isə yalnız yerli sakinlərə məlum olan gizli cığırlar aparırdı. Həmin su hövzələrinə çayların təbii yatağı ilə qalxmaq qeyri-mümkün idi, çünki çaylar öz axın səmtində qayalardan süzülərək elə dar yarğanlardan keçirdi ki, buradan nəinki atlının, heç piyadanın da keçə bilməsi ağla gəlməzdi. Lakin Altayda köçəri heyvandarlıq yalnız vadilərin yamacında mümkün idi. Tayfanın sığındığı ərazidə isə bu cür yerlər o qədər çox deyildi. Ona görə də heyvanların miqdarı çoxaldıqca və əhalinin sayı artdıqca Çebi xan çölə yol tapmağa məcbur idi. Lakin xan belə bir çıxış yolu tapa bilmədi, bu isə onun məhvi ilə nəticələndi, çünki çöldə imperatorun süvarilərinin misli-bərabəri yox idi.

Mətnə qayıdarkən görürük ki, Çebi xan yenidən dağlarda gizlənməyə macal tapmadığından çöldə darmadağın edilmiş və Altayın yamaclarında ələ keçirilmişdi. Aydındır ki, bundan sonra Qao Kan öz vəzifəsini bitmiş sayaraq əsir tutulanları Xinqaya aparmış və müvafiq raport göndərmişdi. Nəticədə isə dağlarda yaşayan türkyutlar salamat qaldıqları, hətta öz bölgələrinin adını da (teles) saxladıqları məlum oldu.

**Koreya şücaəti.** Hələ seyanto xanlığı məhv edilməmişdən əvvəl Koreya məsələsi yenidən bütün kəskinliyi ilə Tan hökumətinin qarşısında dayandı. VII əsrin ortalarında Koreya üç dövlətə parçalanmışdı — yarımadanın cənub-qərbində Yaponiya ilə ittifaqa meyl edən Pyakçe hökmdarlığı, cənub-şərqində yapon dəniz quldurlarının basqınlarından əziyyət çəkən və buna görə də Çinlə ittifaq axtaran Silla çarlığı, şimalda isə hər iki cənub çarlığı ilə düşmənçilik edən və meşəliklərin sakini mukri (moxe) Mancuriya tayfası ilə dostlaşmış Koqurio, yaxud Koreya dövləti mövcud idi. Bu qüdrətli və döyüşkən dövlət Suy süləsinin hakimiyyət başında olduğu dövrdə Çinin dörd şiddətli hücumunu dəf etmişdi. O, Tan sülaləsi ilə də dostluq əlaqələrini möhkəmləndirə bilmişdi, lakin 642-ci ildə Koqurioda çevriliş oldu, Qay Su-vın adlı birisi qoşunların yardımına arxalanaraq əyanların hamısını qılıncdan keçirdi, hökmdarı öldürdü, onun kiçik yaşlı qardaşı oğlunu taxta çıxardı və bütün hakimiyyəti öz əlinə aldı.

İmperator hökuməti qoşunlarının daxili işlərinə qarışmaq istəmirdi, lakin Qay Su-vın Pyakçe ilə ittifaqa girərək 643-cü ildə Silla əleyhinə müharibəyə başladı. Taytszun müttəfiqinin darmadağın edilməsinin qarşısını almaq üçün Koreyaya diplomatik elçi göndərdi, lakin səfiri son dərəcə həqarətlə qarşıladılar. Bu da öz növbəsində müharibə üçün bəhanə oldu. Taytszun güman edirdi ki, Koreyadakı hakimiyyət qəsbkarının amansızlığı xalqı onun əleyhinə qaldıracaq, nəticədə Sillanın yardımı ilə imperiya kidan, tatab və mukri qoşunları üzərində qələbə qazanacaq. Lakin o, böyük səhvə yol vermişdi: koreyalılar qəhrəmancasına vətənlərinin müdafiəsinə qalxdılar, mukrilər (mancurlar) isə onların köməyinə tələsdilər. İmperiya ordusu çinlilərdən daha çox köçərilərdən ibarət idi. Lakin yürüşdə birincilər də iştirak edirdi. Tele korpusuna təkəlli pəhləvan Kibi Xeli,

türkyutlara Aşina Şeni, Cunqariya çöllərindən gəlmiş çyuye süvarilərinə isə Aşina Mişe komandanlıq edirdi. Aşina Sımo isə imperatorun qərargahında idi. Baş komandanlıq imperatorun qohumu, seyantolar üzərində qələbə çalmış tabqaç Li Tszinə və Çin sərkərdəsi Çjan Louya tapşırılmışdı. Çin və türkyut sərkərdələri eyni nisbətdə bir-birilərini əvəz edirdilər, lakin donanma yalnız çinlilərdən ibarət idi.

645-ci ilin baharında imperiya ordusu sərhəddəki Lyaşuy çayını keçərək hücumla Qaymuçen qalasını aldı və Lyadun şəhərini mühasirəyə aldı. Köməyə gələn 40 min koreyalı Çin piyadalarını sıxışdırmağa nail oldu, lakin tezliklə onlar da geri oturduldular. Bundan sonra daş tullayan maşınlar qala divarlarını dağıtdılar, imperiya qoşunları səmt küləyindən istifadə edib şəhəri yandırdılar. Qala divarları üzərindəki koreyalılar təslim olmurdular. Lakin çinlilər uzun nizələrin köməyi ilə onları aradan qaldırırdılar. Beləliklə, şəhər süqut etdi.

Bunun ardınca inadlı müdafiədən sonra Lyaodunun şimalında yerləşən güclü Bayyayçen qalası təslim oldu. Həlledici hücumdan əvvəl, dəstələr artıq qala divarlarında açılmış böyük yarığın qarşısında komanda gözlədikləri anda sərkərdə Li Tszi dedi: «Döyüşçülər həvəslə sinələrini oxlara və daşlara sipər edir, həyat haqqında düşünmədən yalnız hərbi qənimət ələ keçirmək uğrunda vuruşurlar. İndi şəhər demək olar ki, bizim əlimizdədir, nəyə görə düşmənin təslim olması ilə razılaşmalı və qoşunların döyüş ehtirasını azaltmalıyıq?» İmperator atdan düşdü, üzr istəyərək dedi: «Özün bilən yaxşıdır, lakin orduya adam öldürmək, qadınları ailələri ilə birlikdə əsir götürmək əmrini verməyə dözə bilmərəm. Sənin korpusundan fərqlənənləri isə mən dövlət xəzinəsindən mükafatlandıraram, bu yolda da şəhəri səndən alaram». Li Tszi qoşunlarını geri çəkdi, imperator təslim aktını qəbul etdi.

Koreyalılar bütün qüvvələrini səfərbərliyə aldılar, mukri süvarilərini də köməyə çağırdılar. Aşina Şeni öz türkyutları ilə birlikdə məharətli manevr sayəsində Koreya qoşunlarını hücuma şirnikləndirərək onların əsas qüvvələrini özünə cəlb etdi. Koreyalılar vuruşmağa məcbur oldular, nəticədə çoxlu döyüşçü itirdilər. Dağlara doğru sıxışdırılan və hər tərəfdən mühasirəyə alınan koreyalıların imperator qoşunlarının mərhəmətinə sığınmaqdan başqa çarəsi qalmadı. Taytszuz yalnız Çində məskunlaşdırmaq üçün 2500 komandiri əsir götürdü, 30 000 Koreya döyüşçüsü azad edildi, 3000 mukri isə edam olundu.

Lakin imperiya ordusunun bütün cəhdlərinə baxmayaraq Anşi şəhərini (Kaypindən şimal-şərqdə) tutmaq mümkün olmadı. Qala divarlarında taran vasitəsi ilə yarıqlar açılmasına, ballastların köməyi ilə şəhərə çoxlu daş yağdırılmasına, gecə və gündüz vaxtı həyata keçirilən yeddi hücum əməliyyatına, habelə mühasirəyə düşənlərin böyük itkilər verməsinə baxmayaraq şəhər təslim olmadı. Qış girdi, ərzaq ehtiyatları tükənməyə başladı. İmperator Koreya sərkərdələrini qala divarı üzərinə çağırdı, onları mətanət nümayiş etdirdiklərinə görə təriflədi və qoşunlarına geri çəkilmək əmri verdi. Hücum dayandı, döyüş kampaniyası uduzuldu. Geri çəkilməsi zamanı Çin ordusunun xeyli döyüşçüsü soyuqdan və

hədsiz yorğunluqdan həlak oldu. Hamı başa düşdü ki, indiki döyüş əməliyyatları Yan-dinin Koreya ilə apardığı müharibələrə qətiyyən bənzəmir. 645-ci ildə ələ keçirilmiş torpaqlar imperiyanın tabeliyində qaldı. Koreyalıların geri çəkilən düşməni təqib etməyə cəsarəti çatmadı. 647-ci ildə müharibə təzələndi, lakin həlledici qələbə yalnız 668-ci ildə əldə olundu.

Lakin biz bu müharibənin bütün təfərrüatlarını izləməyəcəyik. Mövzumuz üçün əhəmiyyətli məsələ türklərin və digər köçərilərin həmin müharibədə iştirak dərəcəsini müəyyənləşdirmək idi. Onlar isə hərbi əməliyyatlarda kifayət qədər fəal iştirak etmişdilər.

**Şeninin «Qərb ölkəsinə» yürüşü.** Koreyadan qayıdan kimi Taytszun nəzərlərini yenidən qərbə çevirdi. Yukuk və Xallıq qovulduqdan sonra orada nisbi sakitlik yaranmışdı. Şərqi Türküstanın Qaoçanın fəhindən qorxuya düşmüş kiçik hakimləri heç olmazsa nisbi müstəqilliklərini saxlamaq üçün İrbis Şequy xana tabe oldular. O, imperiyanın təcavüzündən qorunmaq üçün istinadgah sayılırdı. Kuçinin 630-cu ildə könüllü surətdə imperiyaya itaət etməsi hökmdar Svarnatepin (sanskrit adı olan Svarnadevanın toxarlılar arasındakı forması) sayəsində mümkün olmuşdu, lakin onun taxt-tacdakı varisi Xaripuşpa (Çin mənbələrində Ali Buşibi) imperiya ilə əlaqələri kəsdi və nəzərlərini Qərb xaqanlığına yönəltdi.

640-cı ildə Qaraşar lunu (hakimi) Tukici öz qızını Kuli-çur adlı türkyut əyanına ərə verdi və artıq kifayət qədər güclü arxa tapdığını düşünərək imperiyaya xərac ödəməyi dayandırdı. Çinlilər əvvəlcə buna dözürdülər, lakin 644-cü ildə Qaraşar hakiminin qardaşı onlara pənah gətirəndə Qərb ölkəsinin canişini Qao Sya-ke qaçqından bələdçi kimi istifadə edərək itaətdən çıxmış vassalı cəzalandırmaq qərarına gəldi. O, qəfil hücumla Qaraşarı ələ keçirdi, Tukicini əsir tutub Çinə göndərdi, taxta onun kiçik qardaşını çıxardı. Çinlilər gedəndən üç gün sonra Kuli-çur öz türkyutları ilə birlikdə qaynatasının intiqamını almağa gəldi. O, təzə hakimi həbs etdi, taxta onun qohumu Sepo Anaçjini çıxardı. Bu sonuncu isə qardaşına xəyanət edən, hakimiyyət dövrü üç gün çəkən Qaraşar hakimini cəzalandırılmaq üçün Kuçuya göndərdi. Xaripuşpanın əmri ilə onu edam etdilər.

Taytszun bunu müharibəyə başlamaq üçün kifayət qədər əsaslı bəhanə sayaraq 648-ci ildə ən yaxşı generalı Aşina Şenini böyük qoşunla (100 min nəfər) yürüşə göndərdi. Qoşun əsasən türkyut və tele süvarilərindən təşkil olunmuşdu.

Gözlənilməz hücumla zərbə endirmək istəyən Aşina Şeni qarşısına çıxan çyuye və çumi tayfalarını darmadağın edərək Xamidən Tyan-Şanın şimal yamacları ilə Yulduza qədər yol keçdi, ordusunu dağ keçidlərindən aşıraraq Kuça knyazlığının hüdudlarında peyda oldu. Düşmənlər özlərini tamamilə itirdilər. Qaraşar knyazı Sepo Ançji paytaxtı başlı-başına buraxıb qaçdı, lakin tezliklə tutuldu və edam edildi. Kuçalılar 50 min nəfərlə döyüşə girdilər, ancaq məğlub oldular. Şeni Kuçanı ələ keçirdi. Hakim yüngül süvarilərin müşayiəti ilə türkyutların yanına qaçmaq istəyirdi, təqib edənlər onu mühasirəyə alıb əsir götürdülər. Kuça əyanlarından Nali adlı bir nəfər gecənin qaranlığından istifadə

edib aradan çıxa bildi. O, özünü Qərb xaqanlığına çatdırdı və dərhal on min nəfər atlı ilə geri döndü. Türkyutlar imperiya ordusu dəstələrinin birinin üzərinə atılaraq onu son nəfərinə qədər qılıncdan keçirdilər. Şeninin qoşunlarında qarmaqarışıqlıq başlandı, lakin Çin ordusunun əsas qüvvələri ilə vuruşda Nali məğlub oldu və əsir düşdü.

Bundan sonra 70 kiçik şəhər könüllü surətdə Şeniyə tabe oldu. 649-cu ildə Xotanı itaətə gətirmək üçün yalnız hərbi qüvvənin nümayiş etdirilməsi kifayət etdi. Buxara şəhəri və basmal tayfası da Çinə tam tabeliklərini bildirdilər. Əslində isə bu tabeliklə onlar öz üzərlərinə heç bir təhəddüd götürmürdülər. İrbis Şequy xan öz torpaqlarının bütövlüyünü qorumaq üçün tamamilə yararsız dövlət başçısı olduğunu göstərdi. Türkyut döyüşçülərinin çöldəki üstünlüyünə son qoyuldu, çünki imperiya süvariləri də artıq məhz belə çöllülərdən təşkil olunmuşdu. Çöl müharibələrində onlara Qərbi türkyutlardan qətiyyən geri qalmayan sərkərdələr komandanlıq edirdilər. Hər şeydən aydın görünürdü ki, qərbi türkyutlar müstəqilliklərinin son saatlarını yaşayırlar. Lakin 649-cu il iyulun 10-da Taytszun öldü və Qərbi türkyut xaqanlığının can vermə prosesi bir qədər də uzandı.

**Taytszunun ölümü.** 649-cu ilin əvvəllərində mərkəzləşdirilmiş imperiya yaratmaq işi başa çatdırıldı. Koreyada inadlı müqavimət göstərilməsinə, Altay vadilərində itaətə gəlmək istəməyən türkyutların sığınacaq tapmasına, Qərbi türkyut xaqanlığının isə Soqdiya şəhərləri və Kubana qədərki çöllər üzərində ağalıq etməsinə baxmayaraq imperiyanın real hərbi qüvvəsinə qarşı duracaq ikinci bir qüvvənin olmaması artıq hamıya aydın idi.

Kuçi yaxınlığında qərbi türkyutlar üzərindəki qələbədən sonra (648-ci il) Taytszun bildirmişdi: «Mən nə vaxtsa demişdim ki, müxtəlif şeylər bizim üçün əyləncə olurlar. Uşaqların əyləncəsi palçıqdan düzəldilmiş şəhərlər və bambuq çubuğundan atlardır, daş-qaş və ipək parçalarla bəzənmək qadınların əyləncəsidir, ticarət mübadiləsi yolu ilə qarşılıqlı surətdə malların artığını satmaq tacirlərin əyləncəsidir, yüksək rütbələr və yaxşı maaş məmurların əyləncəsidir, döyüşdə rəqibi olmamaq sərkərdələrin əyləncəsidir, sülh və dünyada birlik hökmdarların əyləncəsidir. İndi mən öz istədiyimə çatmışam».

Müstəqillikdən imtina hesabına itaət altına alınan xalqlar və tayfaları əldə saxlamaq üçün həmin «sülh və birlik naminə ağır yürüşlərə çıxılır, özlərinin və düşmənin çoxlu qüvvələrinin məhvinə imkan verilirdi. Yuxarıda belə bir proqramın nə dərəcədə real olduğunu göstərmişdik, lakin o da faktdır ki, 649-cu ildə artıq bu proqram həyata keçirilmişdi. Ancaq buna baxmayaraq ətalət qüvvəsinin təsiri imperiya qoşunlarını hələ də yeni döyüşlərə sürükləyirdi. Həm də burada çox şey sülalə banisinin şəxsiyyətindən asılı idi.

Özlərinin şəxsi keyfiyyətləri sayəsində ali hakimiyyətə çatan adamlardan danışarkən bir qayda olaraq Napoleonun adını çəkirlər. Qeyd etmək lazımdır ki, Napoleonla Taytszun Li Şi-men arasında bir çox ümumiliklər var. Onların ikisi də hərbi xidmətə ordu leytenantı kimi başlamış, öz istedadları ilə diqqəti cəlb etmiş və

döyüş dostlarını ətraflarında birləşdirə bilmişdilər. Hər ikisi igid və ağıllı olmuş, xalqlarının tarixində son dərəcə böyük rol oynamışdılar.

Lakin Napoleonun başladığı iş hələ onun öz sağlığında məğlubiyyətə uğradı. Taytszunun işi isə özündən sonra daha yüz il yaşadı. Napoleonun Fuşe kimi xəfiyyə naziri vardı, Taytszun isə demişdi: «Hakimiyyət başında olan heç kimdən şübhələnməməlidir», Napoleonun hakimiyyəti illərində grande silence de J`Empie* hökm sürürdü, Taytszunun zamanında isə mədəniyyət çiçəklənmişdi. Napoleon dövrünün Fransası ən zəruri ərzaqlara — qəhvəyə, qəndə və s. böyük ehtiyac hiss edirdi, Taytszunun dövründə isə Çində o vaxta qədər heç kəsin görmədiyi bir bolluq və rifah yaranmışdı. Yalnız Konfutsi təliminin tərəfdarları olan ziyalılar bir qədər narazı idilər, onlar imperatoru qadınlara çox maraq göstərməkdə, buddizmə bağlılıqda və müharibələrə can atmaqda məzəmmətləyirdilər. Konfutsiçilər onun köçərilərlə dostluğunu xüsusilə pisləyirdilər, lakin bununla onlar həm də öz simalarını açmış olurdular: imperiya ideyası onlar üçün qəbuledilməz idi, onlar türkyut və monqollarla dostluğa tərəfdar çıxmırdılar, nəticələrindən xəbərdar olmalarına baxmayaraq Suy sülaləsinin köhnə siyasətini bəyənirdilər.

Lakin bir neçə ziyalının narazılığı Tan sülaləsi üçün heç bir qorxu törətmirdi. Köçəri qoşunlarının sadiqliyi və xalq arasındakı populyarlıq hökumətin arxalandığı ən güclü qüvvə idi. Tan sülaləsi başqa fikirlərə dözməyə və şəfqətli olmağa özündə imkan tapırdı.

649-cu ilin baharında imperator özünü pis hiss etdi, əyanları yanına çağırdı, dövlətin idarə olunması işlərində oğluna kömək etməyi onlara tapşırdı. Vəfat etdiyi günə — 649-cu il iyulun 10-na qədər o, oğluna məsləhətlər verməyi dayandırmırdı. Onun ölümü günü sarayda olanların hamısı əzizlərini, atalarını və analarını itirmiş adamlar kimi ağlayırdılar. Aşina Şeni dostunu o biri dünyada müşayiət etmək üçün onunla bnrlikdə dəfn olunmasını istəyirdi, lakin hər şeydən şübhələnən vəliəhd buna icazə vermədi.

Yeni imperator Qaotszun titulunu qəbul etdi və ilk vaxtlar Koreyada müharibənin dayandırıldığını, Kuçu şəhərində tutulmuş əsirlərə azadlıq verildiyini bildirdi. Lakin tezliklə o, atasının siyasətini davam etdirməli oldu.

---

* Böyük imperiya sakitliyi.

## XVIII f ə s i l

## TÜRKYUTLARIN SONU

**Qərb xaqanlığında çevriliş.** İrbis Şequy xan onu taxta çıxaran on ox türklərinin ümidlərini doğrultmadı. Oturaq əhalili ərazilər bir-birinin ardınca onun əlindən çıxırdı, imperiya qoşunları isə getdikcə xaqanlığın sərhədlərinə daha çox yaxınlaşırdı. Bütün tayfa başçılarına aydın idi ki, bu qonşuluq yaxşı heç nə vəd etmir.

Xaqanlığın qərb sərhədlərində iyirmi il davam edən sakit vəziyyət pisliyə doğru dəyişilməyə başlayırdı. Ərəblər qərbdəki İran sipərini yunanlarla müqayisədə daha müvəffəqiyyətlə keçdilər. 637-ci ildə Kadesiya yaxınlığında şahənşah Yəzdikürdün daimi ordusu məhv edildi, bunun ardınca Ktezifon təslim oldu. 642-ci ildə Nəqavənd yaxınlığında ərəblər İran üsyançılarını əzdilər, beləliklə də İranın taleyi həll edilmiş oldu. İranlılar bacardıqları kimi müqavimət göstərirdilər, lakin şəhərlər bir-birinin ardınca ərəblərin əlinə keçirdi. Məiyyəti ilə birlikdə şərqə tərəf çəkən şah hər yerdə yüksək səviyyədə qarşılanırdı. Lakin o, müharibəni davam etdirmək üçün pul və canlı qüvvə istəyən kimi canişinlər öz hökmdarlarından üz döndərirdilər. Beləcə, 651-ci ildə o, torpaqlarının qurtaracağına — Mərvə çatdı.

Persiddə üsyan, Deylem, Təbəristan və Cürcanda dağlıların inadlı müqaviməti ərəblərin irəliləməsinin qarşısını alırdı, lakin onların qələbələri haqqındakı xəbərlər şübhəsiz, Orta Asiyaya da çatmış və on ox türkləri arasındakı narahatlığı xeyli artırmışdı.

Cunqariyada da həyəcanlar başlanmışdı. İrbis Şequy xanın təqiblərindən imperiya hüdudlarına qaçan çyuye və çumi tayfaları doğma toraqlarına qayıtmaq və müstəqillik qazanmaq istəyirdilər. Onların başçısı Xallıq idi.

Xaqanlığın hüdudlarını tərk etdikdən sonra Xallıq Taytszunun yanında xidmətə girmiş, tezliklə etimad qazanmış və Tinçjou (Bişbalık) hərbi dairəsinin komandanı təyin olunmuşdu. Lakin bu şöhrətpərəst sərkərdə imperiyanın adi sərhəd zabiti olmaqla barışmaq istəmirdi. Taytszunun ölümündən sonra onun yalnız Bişbalıkı deyil, həm də Turfanı azad etməyi qarşısına məqsəd qoyan sui-qəsdin iştirakçısı olduğu aşkara çıxdı. Sui-qəsdin üstü vaxtında açıldı, lakin cinayət hələ həyata keçirilmədiyindən Xallıq oğlu Tyeini[60] «qvardiyada qulluq etmək üçün» — yəni girov kimi Çanyana göndərməklə canını qurtardı. Tyein Çində çox az qaldı. Tezliklə o, atasının yanına qayıtdı, ona Şərqi sakit buraxmağı, nəzərlərini Qərb xaqanlığına yönəltməyi məsləhət gördü.

---

[60] Biçurində bu ad «Xiyun», Şavannda isə Tye-in şəklində verilib. Göründüyü kimi, Tye-də-və, in isə mənsubiyyət şəkilçisidir. Nəvaziş mənasında «mənim dəvəm» deməkdir.

Bu hücumun Çində planlaşdırdığını, azadlığa meyl nəticəsində yarandığını, yaxud hər iki amilin birgə təsiri altında meydana çıxdığını söyləmək çətindir. Bütöv bir ordanın imperiya canişinlərindən xəbərsiz öz yerlərini tərk edib getməsi qeyri-mümkün idi. Lakin hadisənin hansı şəraitdə baş verməsindən asılı olmayaraq Xallıq çinlilərin nəzarəti altından çıxan kimi özünü Işbara xan elan etdi; (Çin mənbələrində Şabolo xan Xelu) və 651-ci ilin yayında «Dulu xanın (Yukukun) bütün torpaqlarını ələ keçirdi». Mənbədə on ox türklərinin hər hansı müqaviməti barəsində heç bir xəbər verilmir. Mövcud məlumatlar da çevrilişin əsil mənzərəsini bərpa etmək üçün qətiyyən kifayət deyil. Yalnız bunu ehtimal etmək olar ki, İrbis Şequy xanın təbəələri ondan üz döndərmiş, özünün bacarıqlı, mübariz adam olduğunu işdə sübut edən Xallıqı xan kimi tanımışdılar. İrbis Şequy xanın aqibəti isə son dərəcə pis olmuşdu. Mənbələrdə deyildiyi kimi, hakimiyyət qəsbkarı onu «öz əli ilə öldürdü». Həlak olmuş xanın varisləri qaçmaqla canlarını qurtardılar.

Lakin 651-ci ildə cənuba gedən yolu ərəblər, Şərqə gedən yolu isə imperiya qoşunları bağlamışdılar. Toxaristanda hakimiyyət başında Yukuk dayanmışdı, şimaldan isə Işbara xan hücuma keçirdi. Deməli, yalnız bir yol qalırdı — qərbə getmək. Çünki Volqa və Terek üzərindəki xəzərlər hələ türkyutların hakimiyyətini etiraf edirdilər. Doğrudan da, VII əsrin ortalarında Xəzər dənizi sahillərində müstəqil Xəzər xaqanlığı meydana çıxmışdı. Onun başında Aşina sülaləsi dayanırdı. VII əsrin ortalarında yaşamış bu xan nəslinin bütün nümayəndələrini tanıdığımızdan hakimiyyətdə olanları istisna metodu ilə Xəzəristanda taxt-taca İrbis Şequy xanın varisinin çıxdığını etiraf etmək lazım gəlir. Elə həmin dövrdə də Xəzəristan Qərb xaqanlığından ayrılmışdı. Əslinə baxanda, Işbara xanın və on ox türklərinin xəzərlərlə maraqlanmağa belə vaxtları yox idi.

**Işbara-xan.** Işbara xan on ox türklərinə onların istədiklərini — daxili sülh və xarici müharibə gətirdi. İlk növbədə o, on ox tayfa başçılarının hüquqlarını təsdiq etdi, duluslulara «çur», nuşibilərə isə «yəqin» titulu* verdi. Özü və drujinası üçün «Min bulaq» adlı vadidə möhkəmləndirilmiş şəhər tikdi, oğluna «bahadır cabqu» titulu verdi və faktiki olaraq onu Qərb xaqanlığının ikinci hakimi elədi.

Düşünmək olar ki, Işbara xan türkyutlarla on ox türkləri arasında çoxdan gözlənilən kompromisə nail oldu. Çünki hətta nuişbilər də heç bir müqavimət göstərmədən onu öz xanları kimi tanıdılar. Bu kompromiss çyue, sumi və çumuqunların ümidləri ilə tam ziddiyyət təşkil edirdi, çünki onlar ilk növbədə öz üstünlüklərinin reallaşmasına ümid bağlayırdılar. Bu tayfaları razı salmaq üçün xan onların ata-baba torpaqlarını özlərinə qaytarmaq qərarına gəldi və qəfil yürüşlə

---

* «Tayşu»nun məlumatları olduqca səthidir, lakin bölmənin özünün quruluşu buradakı sitatlardan daha çox məlumat verir. Rəhbərlərin titulları ilə birlikdə sadalanması yalnız burada verilir, əslində isə rəhbərlər həmin hüquqları 15 il əvvəl, 635-ci ildə almışdılar. Aydındır ki, türkyut xanı yalnız fərman verilən il xanların hüquqlarını etiraf etmiş, onlara «çur» və «yeqin» (Çin dilində «sı qin» titulu verməklə öz mövqeyini bildirmişdi.

Tinçjou qalasını darmadağın etdi. Hərbi qənimətlərdən gözləri qamaşmış Çuy tayfaları yenidən Işbara xanın dayaq qüvvələrinə çevrildilər. Lakin həmin yürüş imperiya ilə müharibəyə səbəb oldu.

652-ci ilin əvvəlində Cunqariyaya Lan Qyan-fanın komandanlığı ilə 20 min Çin döyüşçüsündən və Kibi Xelinin başçılığı ilə 50 min teledən ibarət ordu yeridildi. Müharibə planı bütün təfərrüatlarına qədər dəqiqləşdirilmişdi. Uzunmüddətli müharibə üçün lazımi ərzaq ehtiyatları olmayan Işbara xanı müttəfiq tele qoşunlarının köməyi ilə sürətli yürüşlərlə sıxışdırmaq nəzərdə tutulurdu. Köçəri tayfalara, o cümlədən çyue və çumilərə mərhəmət vəd olunur, başlıca düşmənin Işbara xan olduğu bildirilirdi. «Köçəriləri qovmaq və canavarlara hücum etmək» əmri verilmişdi. «Canavarlar» adı altında türkyutlar nəzərdə tutulurdu. Çinlilər onları «ağacın kökü», qalan tayfaları isə «yarpaqlı budaqlar» hesab edirdilər.

Lakin belə həlledici direktivlərə baxmayaraq başlanğıcda döyüş əməliyyatları çox sönük aparılırdı. 652-ci ildə çyuelər və çumilər darmadağın edildilər, ancaq görünür, məğlubiyyət o qədər də güclü deyildi, çünki bu tayfaların mübarizə əzmi qırılmamışdı. 653-cü ildə imperiya qoşunları yenidən Bişbalığı tutdular, 654-cü ildə isə karluqlar üzərinə yürüş edildi. Lakin çinlilər vur-tut 10 min at gətirməklə kifayətlənməli oldular. Elə həmin il çumuqun tayfası qılıncdan keçirildi. Çin sərkərdəsi öldürülənlərin 30 min kəsilmiş qulağını paytaxta göndərdi. Lakin yürüşlər çinlilərə çox az fayda gətirirdi. Həm də onlar yalnız Işbara xan özünün cənub-qərb sərhədlərinin möhkəmləndirilməsi ilə məşğul olduğundan baş tutmuşdu.

**Maxuy Surinin həlak olması.** Mərvin mərzbanı Maxuy Suri öz şəhərinin darvazalarını III Yəzdikürdün üzünə açdı. Şahla birlikdə onun şəxsi mühafizə dəstəsinin kiçik heyəti və xəzinəni daşıyan karvan gəlmişdi. Maxuy sadiq təbəə kimi şahın önündə baş əydi, lakin Yəzdikürd ərəblərlə mübarizə üçün vəsait tələb edəndə Maxuy Suri öz kütlüyü ucbatından belə qərara gəldi ki, ərəblərin əli ona çatmaz, şahın xəzinəsini ələ keçirmək isə heç də pis olmazdı. Kim bilir, bəlkə elə bir müddətdən sonra o özü də şah ola bilər... Lakin o, yalnız öz qüvvələri ilə şahın şəxsi mühafizə dəstəsinə qarşı çıxmağa cəsarət etmədiyindən kömək üçün türkyutlara üz tutdu.*

* Bu hadisələr haqqında məlumatlar Belazurinin, Təbərinin, Bələminin və s. əsərlərindən gətirilir. Lakin şübhə yoxdur ki, hadisələrin mahiyyəti onların özünə məlum deyildi. Yəzdikürdün həyatının son günləri ziddiyyət təşkil edən hadisələrlə elə dolaşdırılmışdır ki, onları bir-biri ilə uyğunlaşdırmaq qeyri-mümkündür. Təbəri sadəcə olaraq beş versiya gətirir, lakin onların tənqidi təhlilini vermir. Bələmi həmin versiyalardan «fars variantına» daha böyük üstünlük verir, onu daha inandırıcı sayır. Firdovsinin versiyası da buna uyğun gəlir və Belazurinin versiyası ilə daha çox səsləşir. Çox ehtimal ki, yalnız Belazuri hadisələrin həqiqi gedişini daha dəqiq əks etdirir və bəzi lətifəvari təfərrüatları bir yana atsaq, o, əsas kimi götürülə bilər.

Mərv mərzbanının çağırışına Bijan tarxan* adlı birisi cavab verdi. Çox güman ki, o, daimi yaşamaq üçün Soqdiyada qalan Nuşibi tayfa başçılarından biri idi. O, öz drujinası ilə şəhərə gəldi, Maxuyun xəyanətkar yardımından istifadə edərək qəfil basqınla şahın şəxsi mühafizə dəstəsini qılıncdan keçirdi. Yəzdikürd qaçıb canını qurtarmağa çalışdı, lakin yanında sığınacaq tapmaq istədiyi dəyirmançı şahı öldürdü.* Maxuy şah xəzinəsinin sahibi və suveren hökmdar oldu.

Lakin onun vəziyyəti çox ağır idi. Çünki Mərvdə baş verən hadisə bütün Xorasana yayıldı və hamıda qonaq qatilinə qarşı böyük nifrət doğurdu. Maxuy günahı türkyutların üstünə yıxdı, şahın hakimiyyət simvollarını —tacı və üzüyü ona vəsiyyət etdiyini bildirdi. Lakin gətirdiyi dəlillərin zəifliyini və qeyri-inandırıcılığını yaxşı başa düşən Kaxuy qoşunun sayını artırmağa, onu daha yaxşı silahlandırmağa çalışırdı. Firdovsinin fikrincə o, Bəlx və Heratı da öz torpaqlarına qatmış, daha sonra isə Buxara, Səmərqənd və Şaşı tutmaq üçün Soqdiya istiqamətində yürüşə başlamışdı. Hücumun əsas bəhanəsi - Yəzdikürdün intiqamını almaq kimi qələmə verilirdi, çünki Bijan «ölkənin çırağını söndürmüşdü».

Biz bu məlumatı əsas faktlardan biri kimi nəzərə almalıyıq, çünki Qərbi türkyut xaqanlığındakı vəziyyət Firdovsinin versiyasına tamamilə uyğun gəlir. İrbis Şequy xanın zəif hökuməti düşmən sülalənin sonuncu hökmdarının öldürülməsinə elə-belə, bəlkə də bir qədər təəssüf hissi ilə yanaşdı. Lakin hələ Yəzdikürdün qanı qurumamış İrbis Şequy xan devrildi, duluslular yenidən hakimiyyəti öz əllərinə aldılar. Aydın məsələdir ki, Maxuy Suri yaranmış vəziyyətdən istifadə edərək Toxaristan, Xorasan və Soqdiyanı birləşdirmək qərarına gəldi. Bu o qədər də çətin görünmürdü, çünki Soqdiya artıq çoxdan duluslulara düşmən kəsilmişdi. Buna görə də Maxuy Soqdiya əhalisi içərisində özünə tərəfdarlar tapacağına inanırdı. Çünki tacirlər Çinlə ticarət əlaqəsinin kəsilməsinə səbəb olan müharibəni heç vaxt istəməzdilər.

---

* Burada bizim mövzumuzla bağlı mühüm dərəcə əhəmiyyətli olan bir sual meydana çıxır — Maxuy hansı knyaza müraciət etmişdi? Belazuri Badqis hakimi, 709-cu ildə Qüteybə tərəfindən öldürülmüş Nizak tarxanın adını çəkir. Təbəri də həmin adı çəkir, lakin Firdovsi türk knyazının adının Bijan tarxan, bölgəsinin isə Səmərqənd olduğunu göstərir. 651-ci ilin yayına qədər Səmərqənd və Soqd İrbis Şequy xanın tabeliyində idi, Badqisdə isə Yukur İrbis Dulu xan son günlərini yaşayırdı. O, 653-cü ildə ölmüşdü. Yukukun oğlu Cenqu («inci» mənasındadır — V. Q.) 659-cu ildə öldürülmüşdü. 709-cu ildə həlak olan Nizak tarxan isə onun varisi idi. Tam qətiyyətlə demək olar ki, türkyut knyazının əsl adı Nizan deyil, Bijan idi; çox güman ki, ərəblər üçün daha da ənənəvi olan Nizak adı Bijanı sıxışdırmışdı. Ərəb qrafikası ilə Bijan və Nizak adlarının oxşar yazılışı, habelə j hərfinin olmaması da məsələni mürəkkəbləşdirmişdi.

* Bu hadisə hicri 31-ci ildə (651—652) olmuşdu. Qərb xaqanlığındakı vəziyyətə əsaslanaraq mühakimə yürütsək, Yəzdikürd Işbara xan qəti qələbə çalmamışdan əvvəl, 651-ci ilin payızında, yaxud qışın əvvəlində öldürülmüşdü. Bələmi başqa versiya haqqında məlumat verir, onun yazdığına görə, Yəzdikürd Fərqanəyə getmiş, burada çinlilərdən və türkyutlardan yardım alaraq yenidən İrana soxulmuş və Toxaristanda ölmüşdü. Lakin bu məlumatlar Yəzdikürdün deyil, onun oğlu Perozun bioqrafiyasından götürülmüşdür.

Lakin Işbara xan qətiyyətli adam idi. O, İrandakı çevrilişdən xəbər tutan kimi əks-hücuma hazırlaşdı. Işbara xan da Maxuyun bəhanəsinə əl atdı — o da Yezdikürdün qisasını almaq istədiyini elan etdi. Firdovsi də onu Bijan adlandırır, eləcə də türkyut yürüşünün təsviri zamanı şairin gətirdiyi coğrafi adlar şübhə üçün heç bir yer qoymur. Xan yürüşə Qaçarbaşıdan başladı, tezliklə Buxaraya çatdı və arxa qüvvələrin sürətli irəliləyişini təmin edərək Ceyhun çayını keçdi. Maxuy da ona qarşı irəliləyirdi. Lakin türkyut qoşunları ilə ilk toqquşmada o, əsir götürüldü və dəhşətli işgəncələrlə öldürüldü.

Farsların özlərinin bir-birlərini qırmaları ərəb sərkərdəsi Abdullah ibn Əmirin qarşısındakı bütün yolları açdı. 651-ci ildə o, Əbraşəhri (Nişapur), Tusu, Abiverdi və Nisunu ələ keçirdi. Mərvin yeni mərzbanı Abrazla müqavilə bağladı. Müqaviləyə görə şəhər əhalisi ərəblərə xərac verməyə razı oldu. Xorasanın ardınca Cüzdan və Toxaristanın da taleyi belə oldu, lakin 655-ci ildə Xorəzmə yürüş müvəffəqiyyətsizliklə nəticələndi, 656-cı ildə türkyutlar müharibəni yenidən Xorasana keçirdilər, ancaq daha burada ciddi müvəffəqiyyətlər qazana bilmirdilər. Bu isə xaqanlığın şərq sərhədlərində vəziyyətin mürəkkəbləşməsi ilə izah olunur.

**Sonuncu mübarizə.** İmperiya hökuməti tamamilə haqlı olaraq döyüş əməliyyatlarının səmərəsizliyini komandanlığın fərsizliyi və son həddə çatmış başıpozuqluqla izah edirdi. Baş komandan köməkçisinin düşmənlə vuruşmaq əvəzinə könüllü təslim olmuş Xındu (Biçurin həmin yaşayış məntəqəsini belə adlandırır) şəhərini yerlə-yeksan etməsi və bütün əhalisini qılıncdan keçirməsi orduda yaranmış özbaşınalığın və intizamsızlığın əyani nümunəsi sayıla bilər.

Yukukun oğlu Cençu-cabqunun Işbara xanın arxa qüvvələrinə zərbə endirmək cəhdi də beləcə müvəffəqiyyətsizliklə nəticələndi. Cençuya Toxaristanda atasından irsən kiçik bölgə qalmışdı, lakin onun iddiaları həddindən artıq böyük idi. Ona elə gəlirdi ki, bütün Qərb xaqanlığının hökmdarı ola bilər. Bu məqsədlə Cençu nuşibi tayfasını üsyana qaldırmağa cəhd göstərdi və həqiqətən də tezliklə bəzi narazı tayfa başçıları ona qoşuldular. İşi belə gördükdə o, özünün sadə «cabqu» rütbəsini dəbdəbəli «Sibir tarduş xan»* titulu ilə əvəz etdi, tanınmaq və yardım almaq üçün Çinə üz tutdu. İmperiyanın göndərdiyi məmur üsyankar knyazın düşərgəsinə çata bilmədi, lakin ortalıqda gəzən şaiyələrə əsaslanaraq onun əsaslandığı qüvvələrin çox cüzi olduğunu müəyyənləşdirdi. Odur ki, öz hökumətinə bu iddiaçıya diqqət yetirməmək haqqında tövsiyə verdi.

Müttəfiqlərsiz qalan Cençu Işbara xanın qoşunları tərəfindən elə qətiyyətlə sıxışdırıldı ki, dərhal öz bölgəsinə çəkildi, itaətə gəldiyini etiraf etdi, dəbdəbəli titulundan əl çəkdi və bundan sonra özünü həmişə loyal apardı. Yalnız arxanın təhlükəsizliyinə tam əmin olduqdan sonra Işbara xan ən yaxşı qüvvələrini Amu-

---

* Kiçik Toxaristan knyazının bu cür titul götürməsi onun atası Yukuku taxta çıxaran ənənələri davam etdirdiyini göstərir.

Dəryadan İli çayı üzərinə atdı və 655-ci ildə imperiya ordusunun irəliləyişini qəti surətdə dayandırdı.

Bu imperator Qaotszunu komandanlığı dəyişdirməyə, xeyli əlavə qüvvə göndərməyə, habelə Çinə sadiq olan qərbi türklərdən yeni dəstələr təşkil etməyə məcbur etdi. Su Di-fin baş komandan təyin olundu, onun sərəncamındakı orduya köməkçi uyğur qoşunları da əlavə edildi. 656-cı ildə o, İli çayı vadisinə göndərilən birinci zərbə dəstəsinə başçılıq edirdi. İtaətə gətirilmiş türkyut şahzadələri Mişe və Buçjenin dəstələri Mərkəzi Cunqariyanın qumlu düzənliklərindən keçərək Altaya doğru irəliləməyə başladılar.

Bu dəfə bütün üstünlük imperiya ordusunun tərəfində idi. Həmin ordu seyantoları məğlubiyyətə uğradan və Koreyanın alınmaz qalalarını hücumla ələ keçirən veteranlardan təşkil edilmişdi. Şensidə Tibet, Xebeydə isə kidanlıların yürüşlərinin qarşısını almağa öyrənmiş çinlilərin cəsurluğu, uyğurların dözümlülüyü, şərqi türkyutların döyüş çılğınlığı və sərhədçi tabqaçların əyilməzliyi bu orduda bir vəhdət kimi birləşmişdi. Ordu ona qədər də böyük deyildi, təbii ki, arxasınca yük arabaları da sürünmürdü. Onun döyüşçüləri artıq çoxdan yalnız düşmənin hesabına qidalanmağı öyrənmişdilər. Onların ilk qurbanları Cunqar tayfaları oldu. Bu tayfalardan bəziləri tələsik təslim oldular, digərləri isə cumuqunlar kimi rəhmsizcəsinə qılıncdan keçirildilər.

Işbara xan düşmənin hücumunu dayandırmaq üçün özünün bütün qüvvələrini səfərbərliyə aldı. Çinlilər onun 100 min süvarisi olduğunu güman edirdilər. Lakin bu rəqəm açıq-aşkar şişirtmədir. İli çayı sahilində Işbara xan Su Din-fanın Çin piyadaları və Uyğur süvarilərindən ibarət on min nəfərlik dəstəsini mühasirəyə aldı. Su Din-fan piyadaların pazvari düzülmüş sıralarını qabağa çıxardı. Türk süvariləri üç dəfə az qala Çin piyadalarının cidalarında sallaşdılar. Lakin hər dəfə də geri oturduldular. Yalnız bundan sonra nizətullayanların arxasından uyğurlar çıxdılar və yorulmamış atlarını səyridərək hücuma keçdilər. Türklər davam gətirə bilməyib qaçdılar. Uyğurlar onları təqib edərək geridə qalanları qılıncdan keçirməyə başladılar. Təkcə başçı və tarxanlardan 200 nəfər adam əsir götürüldü.

İmperiya qoşunları müvəffəqiyyəti genişləndirərək geri çəkilən nuşibiləri haqladılar. Sonuncular döyüşsüz təslim oldular. Buçjenin dəstəsinə rast gələn dulular dərhal onu öz hökmdarları kimi tanıdıqlarını bildirdilər. Su Din-fan çox ehtimal ki, türkyutları cənubdan mühasirəyə almaq məqsədi ilə Talas vadisinə yüngül süvari dəstəsi göndərdi. Işbara xan drujinası ilə birlikdə geri çəkilməyə macal tapdı və mövqelərini möhkəmləndirməyə başladı. Şaxtaya və qar fırtınasına baxmayaraq imperiya qoşunları yenə onu təqib edirdilər. 657-ci ilin başlanğıcında düşmən qoşunları Işbara xanın Tarbaqatayın yamacındakı düşərgəsinə yaxınlaşdılar.

İndi imperiya qoşunları türkyutlardan qat-qat güclü idi. Çünki təslim olan dulu və nuşibilər onun köməkçi qüvvələrinə çevrilmişdilər. Güman ki, doğma

yurdda qalanlar da xana itaətdən boyun qaçırırdılar, çünki türkyutların ərzağı çatışmırdı, onlar tez-tez dövrələmə ovlara çıxmalı olurdular. Belə məqamda imperiya qoşunları qəflətən türkyutlar üzərinə basqın edərək onlara ciddi zərbə endirdilər.

Işbara xan qoşunun qalıqları ilə İli çayının o biri sahilinə çəkildi. O, tamamilə tək qalmışdı. Cənubda və şərqdə düşmənlər məqam gözləyirdilər, on ox türkləri isə vuruşmaq istəmirdilər. Manevr imkanından məhrum olan Işbara xan düşərgəsini dairəvi düzülmüş arabalarla möhkəmləndirərək yenidən döyüşə girməli oldu, lakin bu dəfə də məğlubiyyətə uğradı. İmperiya qoşunları türkyutları Çu çayına qədər qovaraq təslim olmağa məcbur etdilər.

Lakin Işbara xan oğlu və azsaylı tərəfdarları ilə yenə də təqibdən xilas ola bildi. O, cənuba qaçdı. Çaç (Daşkənd) yaxınlığında yorulmuş atlar artıq irəliləyə bilmədilər. Çaçın türkyut mənşəli «tarxan» titulu daşıyan hakimi qaçqınları qəbul etdi, ancaq tezliklə onların əl-qollarını bağlayaraq təqibçilərə verdi. Sonuncu türkyut xanı qandallarda Çanyana gətirildi. Qaotszun onu əfv etdi, lakin 659-cu ildə Işbara xan əsirlikdə dərddən öldü. Azadlıqsevər türkyutlar arasında bu nadir təsadüf deyildi.

Ölkənin sonrakı fəthi daha sürətlə davam etdi. Artıq çinlilərə qarşı mübarizə aparacaq qüvvə yox idi. Kan (Səmərqənd), Xe (Zərəfşan vadisində şəhər), Davan (Fərqanə), Mi (Maymurq), Keş (Şəhrisəbz) türkyutlardan hələ Işbara xanın süqutundan əvvəl ayrılmışdılar. 659-cu ildə şərqi türkyut şəhərləri Sula (Kaşqar), Çjustsuy (Kokyar, Karqalıqdan cənub-qərbdə) və Boxan (Yaka-arık) da eyni yolla getdilər. Işbara xanın tərəfdarlarının son qalıqları 658-ci ildə Ebinor gölü və Kuçi yaxınlığında darmadağın edildi.

Cençu 659-cu ildə üsyan qaldırmağa cəhd etdi. Lakin Boroqotolı vadisində yeni ağalarına cani-dildən xidmət edən Mişeyə məğlub oldu — ələ keçirildi və edam olundu. Nəhayət, öz müstəqilliyini saxlamağa çalışan kiçik nuşibi knyazlarından biri (360-cı ildə Su Din-fan tərəfindən tutuldu.

Qərbi türkyut dövləti müstəqil bir qurum kimi məhv oldu və bir daha heç vaxt dirçələ bilmədi.

Qərb xaqanlığının torpaqları dairələrə və qəzalara bölündü, bu ərazilərdə iki qubernatorluq yaradıldı. Onların biri duluların torpaqlarına uyğun gəlirdi və başında Aşina Mişe dayanırdı, ikinci nuşibilərin ərazisini əhatə edirdi, başçısı isə Aşina Burçjen idi. Onların heç biri müstəqil deyildi.

Yeni ərazilərə nəzarət üçün «Qərb ölkəsi» canişininin iqamətgahı 640-cı ildən bəri mövcud olduğu Turfandan köçərilərə daha yaxın əraziyə — Kuçuya köçürüldü. Soqdiananın yerli hakimləri öz vəzifələrində qaldılar və burada müəyyən müddətə sülh bərqərar oldu.

**Qələbənin bəhrəsi.** Artıq üzərində qələbə çalmağa elə bir qüvvə yox idi, lakin qazanılmış qələbənin özü də bir növ xəyali idi. İmperiya tərkibində o qədər

xalqı birləşdirməyə çalışırdı ki, onların bir-biri ilə qaynayıb-qarışacaqlarını düşünmək sadəlövhlük olardı.

Taytszun incə rəftarı və qılığı sayəsində tabeliyindəkilərin hamısını, o cümlədən köçəriləri də özünə cəlb edə bilmişdi, lakin oğlu Qaotszun köçərilərə münasibətdə köhnə ənənələri — onlara yuxarıdan aşağı baxmaq ənənələrini dirçəltdi. Köçərilər yenidən özlərini imperiya daxilində yad hiss etdilər, bunun nəticəsi isə özünü dərhal büruzə verdi.

656-cı ildə uyğurlar — yəni yuanqe, baequ, siqe, luqu və tunlo kimi tele tayfaları üsyan etdilər. Üsyançıların başında mərhum xanın baçısı Bisudu dayanırdı. 662-ci ilin əvvəlində üsyan yatırıldı. Bisudu qaçdı, lakin Çin ordusu şiddətli qış şaxtalarından böyük zərər çəkdi.

Tutulmuş ərazilərin itaətdə saxlanması son dərəcə kəskin xarakter aldı. Hətta Çinin olduqca böyük maddi və insan ehtiyatları da yeni ələ keçirilmiş ölkələrin hamısında qarnizonlar saxlamağa imkan vermirdi. Qaotszun hökumətinin nail olduğu ən böyük şey dörd şəhərin möhkəmləndirilməsi və onların daimi qarnizonlarla təmin edilməsi idi. Həmin «dörd qarnizon» Kuç, Kaşqar, Xotan və Tokmak şəhərlərində yerləşdirilmişdi. Çin sarayının fikrincə onlar «Qərb ölkəsinin» təhlükəsizliyini təmin etməli idilər.

Fəth olunmuş vilayətlər dörd canişinliyə bölünmüşdü. Onların ikisi şərqdə, ikisi isə qərbdə idi. Qərbi türkyutların torpaqları şimal-qərb canişinliyinə keçmişdi. Bu əraziləri birbaşa idarə edə bilməyən Çin hökuməti sədaqətlərini işdə göstərmiş türkyut knyazlarının yardımına müraciət etməli oldu. Dulu tayfalarının torpaqları Mişeyə, nuşibilərin ərazisi isə Buçjenə verildi. Lakin bu fərsiz hakimlər öz təbəələri arasında qətiyyən populyar deyildilər. Bütün səylərinə baxmayaraq onlar yerli əhalinin etimadını da qazana bilmədilər. Doğrudur, ayrı-ayrı kiçik köçəri knyazların və oturaq feodalların qiyamları asanlıqla yatırılırdı, lakin bu iki xan daim bir-birləri ilə nifaq apararaq elə vəziyyət yaratdılar ki, bu Çinə çətinliklə əldə edilmiş bütün qələbələri bahasına başa gəldi. Buçjen 664-cü ildə həyata keçirilən cəza yürüşü zamanı Mişeni üsyan qaldırmaq niyyətində ittiham etdi. Çin sərkərdəsi Su Xay-çjen mahiyyətinə varmadan Mişeni və «çobanlara qədər onun tabeliyində olanların hamısını» edam etdirdi. Bu dulular arasında narazılıq doğurdu. Lakin onlar Çinə qarşı mübarizədə gücsüz olduqlarını başa düşərək Tibetlə dil tapdılar. Bu isə «Qərb ölkəsindəki» qüvvələr düzümünü əsaslı şəkildə dəyişdirdi.

Mərkəzi Tyan-Şanda yaşayan qun-yue tayfası Mişenin qisasçısı kimi çıxış etdi. O, yanmyan adlı tele tayfası və tibetlilərlə ittifaq bağladı və imperiya qoşunlarına hücuma keçməyə cəhd göstərdi. Lakin hücum dərhal dəf olundu. Bunun ardınca 663-cü ilin yazında qun-yue tayfası Xotanda və Turfanda Çin qarnizonlarına basqınlar etdi, ancaq bu dəfə də müvəffəqiyyət qazana bilmədi. Nəhayət, 664-cü ildə qun-yuelər imperiya qoşunları ilə döyüşdə qəti məğlub oldular. Tyan-Şandan şimaldakı düzənliklər və habelə cənub və qərbdəki və şəhərlər mexaniki şəkildə imperiyanın tərkibinə keçdi. Çin hökuməti onların həyat

tərzində və adət-ənənələrində heç bir dəyişiklik etmədi. Xaricdən gözlənilən yardımın əbəs ümid olduğu aşkara çıxdı. Ərəblər Xorasanı itaətə gətirən kimi nəzərlərini cənuba çevirdilər. 662-ci ildə onlar Kabili ələ keçirdilər, 664-cü ildə isə Orta Asiyanın fəthini gələcəyə saxlayaraq Pəncaba soxuldular. Tyan-Şan tayfaları məngənə arasına düşdü, ancaq onların başçısı Aşina Buçjen Tan imperiyasına sədaqətlə xidmət edirdi.

Vəziyyət dəyişməz təsir bağışlayırdı. Lakin 667-ci ildə Buçjen öldü və imperiya hökuməti onu əvəz edəcək bir adam tapmadı. Belə bir şəxsə ehtiyac isə artıq çoxdan meydana çıxmışdı. Ən yaxşı imperiya qoşunları müstəqilliyini cəsarətlə müdafiə edən Koreyada vuruşurdular. Məhz belə bir məqamda yeni bir oyundaş mövcud qüvvələr nisbətini qətiyyətlə dəyişərək siyasi oyuna qoşuldu. Tibet Tan imperiyasının rəqibi kimi çıxış etdi. Yeni müharibə dalğası Çinin bütün qərb sərhədlərini burüdü və tezliklə Tarim hövzəsinə adlandı. Lakin həmin hadisələrə keçməmişdən əvvəl VII əsrin ortalarında Tibetin üzərində dayanaq.

# İKİNCİ HİSSƏ

# GÖY TÜRKLƏR VƏ UYĞURLAR YAXUD İKİNCİ XAQANLIQ DÖVRÜ

## XIX f ə s i l

## QƏRB XAQANLIĞINDA ÇƏKİŞMƏLƏR VƏ TİBET EKSPANSİYASI

**Qədim Tibet.** Heyvandarlıq üçün yararlı örüş sahələri və çayətrafı vadiləri olan Tibet yaylaları əkinçilərin sığınacaq yeri kimi qərbdən şərqə doğru uzanırdı. Qədim vaxtlardan etibarən qərbdə əkinçiliklə məşğul olan mon və dard tayfaları məskunlaşmışdılar, onlar pamirlilərə oxşayırdılar. Bu tayfalar bir-birindən asılı olmayan çoxlu knyazlığa bölünmüşdü. Şərqdə iki xalq — qoyunlara çobanlıq edən kyanlar və əkinçiliklə məşğul olan junlar yaşayırdı. Qədim dövrlərdə onlar iki müxtəlif xalq idi, hazırda isə hər ikisinin nəslindən olanları tibetlilər hesab edirlər. Kyanların varisləri olan nqoloklar bu günədək Amdo dağlarında köçəri kimi yaşayırlar, tibetlilər isə bizim eranın əvvəlinə qədər kyanlardan ayrılmış botlardır, onlar junlardan əkinçilik vərdişlərini götürərək Tsanpo (Brahmaputra) vadisinə köçdülər və burada Tibet mədəniyyəti və dövlətinin yaratdılar. Dağ çaylarının suyu ilə becərilən çayətrafı vadilərin məhsuldar torpaqlarında buğda, arpa, qarabaşaq və noxud bitkiləri əkilirdi. Məskən salınmış sahələr daş divarla möhkəmləndirilir, çayın üstündən körpü salınırdı. Metal ərintisi — metallurgiya meydana çıxdı, gümüş, mis və dəmir əridilir, toxuculuq yaranır və təsərrüfatın ümumi yüksəlişi VII əsrin əvvəlinə qədər əhalinin sayının 2860 min nəfərə çatdırılmasına təsir etdi, XX əsrə qədər əhalinin bu həddi yüksəlmədi. Ölkə artıq məhsuldar qüvvələrin mövcud inkişaf səviyyəsinə uyğun olaraq adamları yedizdirə bilməzdi.

Tibet tayfaları uzun müddət öz aqsaqqallar nəslinin idarəsi şəraitində yaşamışdı. Tibet «bon» qara etiqadının daxil olması nəticəsində dəyişikliklər başlamışdı. Bu etiqadı Şanşun ölkəsindən çıxmış Şenrab müəllim təbliğ etmişdir. İbtidai animizmin yerinə ikili allah — «hər şeyə qadir» və onun arvadı olan «Üç dünyanın şanlı şah qadını», yaxud «Mərhəmət və sevginin böyük anası» təyin olunmuşdu, o insan da daxil olmaqla qanlı qurbanları qəbul etmişdi. Şenrabın təliminə görə dünya göy, yer və sualtı sahədən ibarətdir, orada sualtı su ruhları məskən salmışdır. Mistik dünya ağacı hər üç sahədə artır və onların öz aralarında ünsiyyət saxlamaları üçün yol hesab olunur. Ünsiyyət, özünü bu işə həsr edən və öz təlimini təbliğ edən kahinlərin oynadıqları şəbihlər vasitəsilə yerinə yetirilir. İbtidai pərəstiş ayinlərindən fərqli olaraq bon iearərxiya və ruhaniliklə birgə hakim və mübariz kilsə olmuşdur, o mütəşəkkil keçirilən ayinlər vasitəsilə dövlət işlərinə müdaxilə edirdi. Bu ayinləri qan tökmədən yerinə yetirmək mümkün olmadı.

Tibetin əfsanəvi hökmdarlarından biri qara kilsənin qəyyumluğundan azad olmağa səy göstərdi və öz tərəfdarları tərəfindən öldürüldü. Bundan sonra hökmdarlar və tayfa rəhbərləri həyat naminə onu hakimiyyətin bir hissəsi kimi qəbul etməyə başladılar. Həm də bu vaxt tayfalar arasında daimi ədavətin olması bonun hakim rolunu və bu rol ilə əlaqədar olaraq onun vəziyyətini yüngülləşdirdi. Əvvəl-axır zadəganlıq və kahinlik bir-birilə birləşdi və əl-ələ verərək gələcəkdə fəaliyyət göstərdi.

439-cu ildə davakar syanbiylilərin dəstəsi Xesidən Tibetə tərəf çəkildi və onların başçısı zəngin, amma dağınıq bir ölkədə olduğunu görüb kyanları özünə tərəf çəkdi, yəni daim bir-birilə ədavət saxlayan tayfalar arasında hakim vəziyyət tutdu. Bu başçının varisləri 200 il ərzində tibetləşərək irsən tsenpo titulunu daşımağa başladılar. Bu hökmdar və hökumət başçısı arasında olan nə isə orta bir titulu bildirir. Bu titul öz tayfa üzvlərinə və ölkədə əvvəllər yeganə real qüvvəyə arxalanan tayfa başçılarının iradəsini yerinə yetirməli idi.

Belə bir şəraitdə tsenponun vəziyyəti çox mürəkkəb idi. Bir tərəfdən o, varis kimi öz yerini tuturdu; «taxt-taca» mənsub olan geniş torpaqlardan gəlirlər, istila edilmiş xalqlardan vergilər, töycülər, vərəsəsiz əmlaklar və qətlə yetirilmiş cinayətkarların əmlakları xəzinəyə daxil olurdu, lakin digər tərəfdən isə onu hər bir an vəzifədən çıxarda bilərdilər. Praktik cəhətdən onun heç bir real dayağı, həqiqi hakimiyyəti yox idi. Hətta qoşun tsenpoya deyil, xüsusi hərbi müşavirə tabe idi. İşin mahiyyətinə görə yazıq tsenpo yalnız ad daşıyırdı, o, bu vəziyyətinə görə ellin dövrünün basilevslərini xatırladır, o vaxt zənginləşmiş zadəganlar basilevsləri öz hakimiyyətlərindən məhrum eləmişdilər.

Lakin ölkənin birləşməsi öz bəhrələrini verdi və tsenpo Namrinin vaxtında (570—620) tibet qoşunları Hindistana və Toqona basqın etdilər. Onlar 604-cü ildə Toqonda Qara Çurini darmadağın etdilər, o öz şərq həmyerliləri tərəfindən atılmışdı. Ölkəyə yeni təbəələr axıb gəlməyə başladı, elə burada zadəganlar və xalq arasında ziddiyyətlər kəskinləşdi, tsenpo vahid başçı olmalı idi. Çünki onun özü də əyanlar və bon kilsəsi tərəfindən sıxışdırılmışdı. Vətəndaş müharibəsinin başlaması üçün bütün zəmin yaranmışdı. Namri öldürüldü, onun oğlu Srontsanqambonun hakimiyyətdə olduğu vaxtda isə «atasının təbəələri qəzəbləndilər, anasının təbəələri üsyana qalxdılar, qohumların (adları sadalanır — L. Q.) hamısı üsyan etdilər». Bu, müxtəlif qrupların və tayfaların iştirak elədiyi vətəndaş müharibəsinə oxşayırdı. Lakin üsyan necə oldusa yatdı, qayda-qanun yaradıldı. Ağıllı, çalışqan Srontsanqambo bu üsyandan çox mühüm nəticələr çıxartdı: o, icmanın diqqətini boşluq və bütövlük haqqında qəribə təlim təbliğ edən başları qırxılmış dilənçi kahinlərə yönəltmək qərarına gəldi. Və o səhv etmədi də: əyanların və kahinlərin müqavimətinə baxmayaraq buddizm Tibetə tətbiq edilən elə bir qüvvə oldu ki, onun varislərini tsenpodan hökmdara çevirdi.

**Toqon uğrunda müharibə.** Tibet uğrunda duran ən kəskin problemlərdən biri Tan imperiyası ilə münasibət idi. Hər iki dövlətin mənafeyi bir-birinə zidd idi.

Mütləq nəzərə almaq lazımdır ki, VII əsrdə Tibet hər tərəfdən əhatə olunmuşdu. Qərbdə itaət etməyən dard tayfaları durmuşdular. Hindistan Himalay dağlarından daha çox sərt iqlimdə yaşayan sakinlər üçün ölümə bərabər olan öz iqlimi ilə müdafiə olunurdu: "şimal tərəfdə keçilməz səhra, şərqdə isə güclü hərbi dövlət — Tan Çin yerləşirdi. Yeganə çıxış yolu şimali-şərqə Amdodan Haksuya və Xesi və «Qərb diyarı»nın (Sintszyan) geniş səhralarına tərəf idi. Lakin bu çıxış yolunu artıq zəifləmiş, lakin Çin tərəfdən, himayədarlıq edilən Toqon səltənəti kəsirdi.

Əgər Tibet üçün Toqona yiyələnmək zəruri idisə, Çinin buna yol verməməsi daha vacib idi. Türkyutlar üzərində çətinliklə başa gələn qələbə çöldə imperiya əleyhinə bu və digər cəzbetmə mərkəzinin yaranması ilə mənasız ola bilərdi, çünki köçəri tayfalar üsyan etməyə və istiqlaliyyət qazanmağa can atırdılar. Tibetlilər çölə çıxmaqla Çin kommunikasiyalarını kəsib ayıra və türk tayfaları arasında qiyamçı ünsürlərə arxalanaraq imperiyalıları çölə tərəf, geriyə göndərə bilərdilər. Buna görə də Tan imperiyası tərəfindən Toqona hərtərəfli yardım göstərilirdi, bu hərəkət öz ardınca müharibənin başlanmasına səbəb oldu.

Toqonun özündə isə Çin ilə ittifaq bağlamağa son dərəcə pis baxılırdı. Çjou, Suy və nəhayət Çinin Tan dövləti ilə aparılan çoxillik müharibə izsiz qala bilməzdi.

Çinlilər toqonluların yürüşlərinə məhvedici basqınlarla cavab verirdi, Amdonu türkyutlar, uyğurlar və digər müttəfiq qoşunları ilə doldururdular. Qəti qələbə Çinin üzərinə düşürdü, lakin Taytszunun adamı olan şahzadə Muyun Şun Çin tərəfindən müdafiə olunmasına baxmayaraq, öz təbəələri tərəfindən öldürüldü. Taytszun öldürülmüş Muyun Şunun oğlu, Çinə tamamilə sədaqətli olan gənc Nohebonu xanlıq taxt-tacına oturtdu. Nohebo Toqonda Çin təqvimini tətbiq etdi, çin şahının qızını aldı və gənc toqonluları sarayda qulluq eləmək üçün Çanyan şəhərinə göndərdi. Təbiidir ki, yaranmış müxalifət Tibeti nəzərdə tuturdu, lakin 641-ci ildə sui-qəsdin üstü açıldı və müxalifət məhv edildi. O vaxt Tibet ordusuna tanınmış Qar nəslindən olan əyan Dontsan başçılıq edirdi. O, Srontsanqambo Tsenposunda müxalifətdə idi.

Taytszunun sərt iradəsi və Srontsanqambonun vaxtında tibet siyasətində yaranan sərt dönüş müəyyən vaxt Toqonu təhlükəsizləşdirdi, lakin Dontsan Şərq üzərinə hücumu bərpa etdi, uzaqgörən olmayan Qaotszun Noheboya təcili yardım göstərməkdən imtina elədi, Toqonun taleyi həll olundu.

Toqon əyanı Sadohuy Tibetə qaçdı və Qaotszunun qərarı barədə Dontsana xəbər verdi. Dontsan dərhal müharibəyə başladı və 663-cü ildə Sarı çayın yuxarı tərəflərində toqonluları darmadağın elədi. Nohebo arvadı və bir neçə min nəfər ilə Çin tərəfindən müdafiə olunan Lyançjouya qaçdı. Qaotstzun birdən ayıldı və Toqona qoşun göndərdi, qərb yürüşünün qəhrəmanı Su Din-fanı ona başçı təyin etdi, lakin artıq gec idi. Tan imperiyası üçün bundan əlverişli şəraiti təsəvvür etmək çətindir.

Ehtiyatlı hərəkət edən Dontsan Qaotszunla razılığa gəlməyə çalışdı, lakin onun Toqonu bölmək haqqında təklifi rədd edildi. Dontsan vəfat etdi, onun dörd oğlu qaldı, bacarıqlarına görə heç biri atalarından geri qalmazdı: böyük oğlu Tsinlin böyük müşavir, kiçik oğlanları isə hərbi rəis oldular və müharibə başladı.

İmperiya hökuməti son dərəcə ağır vəziyyətə düşdü, çünki ən yaxşı qoşunlar Koreyada idilər, yalnız 668-ci ildə Koreyanın zəbt edilməsi başa çatdı. Biçurinin dediyinə görə tibetlilər bu müddət ərzində kyanların məskunlaşdıqları 12 Çin vilayətini dağıtdılar və onlara birləşmiş dansyanların (tanqutların) və xorların (toğonluların) hesabına qoşunlarını gücləndirdilər. 670-ci ilə yaxın tibet ordusu Tarim hövzəsinə daxil oldu, türkyutların köməyinə və Xotanla ittifaq bağlamasına arxayın olaraq Kuçinin divarlarını dağıtdı, bunun da nəticəsində Siçjoudan başqa (Turfan) bütün Qərb diyarı tibetlilərin hakimiyyəti altına keçdi.

**Türkyutların sonu.** Buhaynqolda ağır məğlubiyyətə düçar olması və güzəştə getməməsi imperiya hökumətini Tibetə qarşı yeni mübarizə vasitələrini axtarıb tapmağa məcbur etdi. Bu məqsəd üçün qərb türkyutlarından istifadə etmək barədə qərar qəbul edildi.

671-ci ildə xalqın sakitləşdirməkdən ötrü ağsaqqal Aşina Duçji hərbi rəis və eyni zamanda Fuyan[61] canişini təyin edildi. Lakin bunu taktiki cəhətdən yerinə yetirmək mümkün deyildi. VII əsrin ortalarından başlayaraq sülaləni müdafiə edən Aşina nəslinə ənənəvi hörmət, sonuncu xanlar özlərini çinlilərin sadiq nökərləri və öz xalqının düşmənlər kimi göstərdikdən sonra tamam etinasızlıqla əvəz olundu. İmperiya idarəsi köçəri rayonlarında nüfuza malik deyildi. Duçji öz vəziyyətini möhkəmləndirmək üçün Tibetlə ittifaq bağladı və 676-cı ildə özünü xan elan etdi.

Tibetlilər Tan imperiyasına iki dəfə, 672-ci ildə və 675-ci ildə sülh təklif etdilər, lakin Qaotszun bu təklifləri rədd elədi, 676-cı ildə yenidən başlandı.

Çinlilər itirdikləri torpaqları ələ keçirməyə can ataraq Tibetə böyük qoşun yeritdilər, lakin Buhaynqol yaxınlığında bütünlüklə darmadağın edildilər. Çin generalı Se Jin-quy tibetlilərlə sülh bağladı və yalnız bu vaxt geri çəkilmək (670-ci il) imkanı əldə etdi. Tibetlilərə qarşı göndərilmiş digər qoşunun başçısı öldüyünə görə, yoldan geri qayıtdı və bununla da müharibənin birinci mərhələsi başa çatdı.

Tibetlilər müharibəni başlayaraq Çanyan şəhərinə qədər qərbi Çini darmadağın etdilər, bu vaxt imperiyanın iki ordusu hərəkətsiz qalmışdı. Sonrakı 677-ci ildə isə Tibet ordusu Duçjinin qoşunu ilə birləşdi və sakinlərin tam köməyi sayəsində Kuçunu imperiyalılardan xilas etdi. Bu, Duçjinin aqibətini müəyyənləşdirdi.

Duçjiyə qarşı əyan Pey Xin-qyan başda olmaqla qoşun göndərildi, lakin iş toqquşmaya gəlib çıxmadı. Xin-qyan hər yerdə elan etdi ki, o, İran şahzadəsini taxt-taca oturtmaq və daşiləri (ərəbləri) sakitləşdirmək üçün gedir, Turfana

[61] F u y a n — Çumuqun tayfasının vilayəti, yəni Ebinor hövzəsi.

çatdıqda isə orada qışlamaq üçün qaldı, ov etməyə və sağ qalmış Çin məmurlarını qonaq çağırmağa başladı. Dəvət edilənlərin arasında Duçji də var idi, onu həbs etdilər və Çinə göndərdilər (679-cu ildə). «Həmin vaxtdan on aymik zəiflədi». İyirmi il ərzində nə dəyişikliklər olmadı! Mişe qətlə yetirildikdən sonra üsyan qalxdı, Duçjenin həbs olunması ilə heç kim hərəkətə gəlmədi. Bu 20 il ərzində qərbdə türkyut adının özü yox oldu; o, on ox termini ilə əvəz edildi. On ox türklərinin özləri birləşməkdə məna görə bilmədilər, onların tabeliyində olan çinlilər və iki nəslin varisləri (dulu və nuşibilər) gündən-günə parçalanmağa başladı. Hökm sürən qanunsuzluğu, nifaqı dayandırmaq üçün çinlilər Duçjinin əvəzinə iki şahzadəni, Mişenin oğlu Yuankini, Buçjenin oğlu Xuşelonu təyin etdilər, 693-cü ildə Yunankin qətl olundu, onu çin taxt-tacının gözdən düşmüş varisi kimi ittiham etdilər. Yuankinin oğlu Aşina Suytszı tibetlilərlə vuruşaraq 694-cü ildə üsyan qaldırdı, lakin darmadağın edildi. Hakimiyyət süni olsa da Xuşelonun əlində cəmləşmişdi, lakin türkeşlərin güclənməsi təqribən hər iki cinsdən 60—70 min nəfər olan öz tərəfdarlarının qalıqları ilə onu Çinə keçməyə məcbur etdi.

Türkyutların tarixi belə başa çatdı.

**«Qərb diyarı» uğrunda müharibə.** 679-cu ildə Tibet-Çin müharibəsində gözlənilməz dəyişikliklərin ən yüksək nöqtəyə gəlib çatması qərb və şərq türkləri arasında Çin əleyhinə olan əhval-ruhiyyənin güclənməsi ilə əlaqədardır. İmperiya hökuməti çox yaxşı başa düşürdü ki, tibetliləri əgər dağlara sıxışdırıb qovmasalar, düzdə heç bir qayda-qanun yaranmayacaqdır. Bu məqsəd üçün nəhəng bir ordu göndərildi (180 min nəfər). Təhsil görmüş hiyləgər, lakin heç bir hərbi istedadı olmayan «dövlət katibi» Li Tszin-syuan orduya başçı təyin olundu. Çin salnaməçisi bu təyinetmədə ən başlıca rolu Li Tszin-syuanın rəqibi Se Jinquy ilə əlaqələndirir. O, düşmənin hökmdarın qəzəbinə düçar etmək istəyirdi.

Çinlilər əvvəlcə müvəffəqiyyət qazanırdılar, lakin Kukunor gölü yaxınlığında tibetlilər tərəfindən mühasirəyə alındılar. Qoşunun əsas hissəsindən ayrılmış Çin avanqardı qırıldı, ordunun özü isə dağlara sıxışdırıldı və əlaqələri kəsildi. Mənşəcə koreyalı olan Xeçi-Çan-çjinin cürətli gecə döyüşləri yalnız çinliləri məhv olmaqdan xilas etdi; o hündürboylu və son dərəcə cəsur idi, Taytszun tərəfindən cəlb olunan və naz-nemət içində böyüyən «ilohe`lərdən (udallılar) idi. O, 500 nəfər seçmə döyüşçü ilə tibet düşərgəsinə soxuldu, düşmənin arasına çaxnaşma saldı və mühasirədən çıxdı, bununla da yaxın vaxtlara qədər dəhşətli hesab olunan ordunun qalıqları xilas edildi.

Qaotszun ümidsiz halda şura çağırdı ki, tibetlilər barədə bir qərar qəbul etsinlər, lakin saray adamlarının fikirləri haçalandı və şura heç bir qərar qəbul etmədi. Artıq Tibet təhlükəsi Çinin üzərinə qonmuşdu. Elə həmin 679-cu ildə tsenpo Manromatsan vəfat etdi və onun səkkiz yaşlı oğlu Dudsron taxta oturduldu. Onun vaxtında Tsinlin öz qardaşları ilə birgə bütün hakimiyyəti əlində saxladı.

680-ci ildə tibetlilər Çinə soxuldular və Li Tszin-syuanyunu tam məğlubiyyətə uğratdılar, lakin Xeçi Çan-çji üç min nəfər seçmə «mühasirə yaran

atlılarla» gecə vaxtı tibet düşərgəsinə basqın etdi və düşməni geri çəkilməyə məcbur elədi. Bu qələbədən sonra sərhəd xətti üzrə rəis təyin edilmiş Xeçi Çan-çji 70 xəbəredici məntəqə tikdirdi və öz qoşununu çörəklə təchiz eləmək üçün dövlət torpaqlarını aldı, lakin buna baxmayaraq, tibetlilər Çinin sərhədlərində yaşayan kyanların köməyi ilə sərhəd xəttini pozaraq Yunnana soxuldular və meşədə yaşayan, maney adı ilə tanınan yarım vəhşi tayfaları özlərinə tabe etdirdilər.

Daha sonra, 681-ci ildə Tsinlinin qardaşı tibet sərkərdəsi Tszanbu Çinin içəri tərəflərinə soxulmağa çalışdı. O Xeçi-Çan-ji tərəfindən geri oturdulsa da lakin bu, vəziyyəti xilas etməyən müdafiə müvəffəqiyyəti idi. Vəziyyət çinlilər üçün təhlükəyə çevrilirdi. Bu vəziyyət 689-cu ildə, çin qoşunları Qərb diyarında tibetlilər tərəfindən darmadağın edildikdən sonra daha da kəskinləşdi. Çin hökuməti vahimə içində Qərb diyarından imtina etməyə hazır idi, lakin tarixçi Tsuy-yun məlumat verib qərb malikanələrini nəyin bahasına olursa-olsun əldə saxlamaq zəruriliyini sübut elədi. Belə ki, qədim vaxtlarda «simlər hunların sağ əlini kəsdilər... Əgər dörd yerdə qarnizon saxlamasaq, onda Tufan (tibet) qoşunları Qərb diyarına gələ bilməz. Qərb diyarı silkələnib təlatümə gəlsə, onda cənubda yaşayan kyanlarda da çat yaranacaqdır. Elə ki, onlar arasında ittifaq bağlandı, onda Xesinin başı üzərini labüd təhlükə bürüyəcəkdir... Əgər şimal tufanlılar ilə əlaqə yaratsa, onda on ox (qərbi türklər) və Şərqi Türküstan bizim üçün məhv olacaqdır».

Təqdimat təsir etdi: qərb türkləri ilə sayı artırılmış yeni ordu yaradıldı və 692-ci ildə bu ordu tam qələbə qazanaraq Qərbi diyarları tibetlilərdən azad etdi. Eyni zamanda, görünür tibetlilərdən bezmiş kyan və manilər Çinin himayəsi altına keçdilər. Tibetlilər onların bəzilərini tutub saxlaya bildilər, lakin xilas olub qaçanlar Çinin daxilində torpaq alaraq qərb sərhədlərinin müdafiəsini gücləndirdilər.

Tibetlilərin şahzadə Aşina Suytszının köməyinə qərbdə öz hökmranlıqlarını bərpa etmək cəhdləri də həmçinin müvəffəqiyyət qazanmadı, hökmdarın qardaşları tərəfindən təşkil edilən yürüş isə 695-ci ildə uğursuzluqla başa çatdı.

Lakin Tsinlin inadkar idi. O, 696-cı ildə Lyançjouya basqın etdi (Alaşanda) və tam qələbə qazanaraq dinc təkliflərlə elçi göndərdi. Tsinlin imperiya qarnizonlarının dörd əyalətdən çıxarılmasını və dulu vilayətinin imperiyaya qalması məqsədilə nuşibi vilayətinin Tibetə güzəşt edilməsini təkid etdi. Çinlilər əvvəlki Toqon ərazisinin də qaytarılmasını tələb edirdilər, lakin Tibetin daxili vəziyyətini nəzərə alaraq şüurlu şəkildə danışıqları uzatdılar. Haqq-hesab düzgün oldu. Tibetdə baş verən fitnə-fəsad və dövlət çevrilişi Tan imperiyasını bir daha xilas etdi.

**Tibetdə çevriliş.** Uzanan müharibədə fasilələrlə müvəffəqiyyətin qazanılması Tibet və Çini eyni vəziyyətdə əldən salmışdı, lakin hər iki dövlətdə əldən düşmə xarakteri müxtəlif idi.

Çin ictimai fikri ümumiyyətlə sərhəddənkənar malikanələr uğrunda aparılan müharibələrə qarşı idi. Belə müharibələr xalqa yox, imperiya hökumətinə, eyni

zamanda nüfuzunu itirən hökumətə lazım idi. Çinlilər sakitcəsinə əkinçiliklə, sənətkarlıq və klassik ədəbiyyatı öyrənməklə məşğul olmaq istəyir, quru səhralara və qarlı dağlara uzaq yürüşlərə getməyi sevmirdilər.

İmperiya hökuməti düşmənlərin çoxluğundan narahat idi: ərəblər Orta Asiya malikanələrinə göz dikmişdilər, türklər bütün şərqi tutmuşdular, şərqdə mukri və kidanlar qaynayırdılar. Hər yerdə ordu lazım idi, lakin qoşuna edilən əlavə qüvvələri öz mövqelərimizi qoruyub saxlamaq üçün Tibetə qarşı göndərmək lazım idi. Odur ki, imperiyalılar da həmçinin sülh istəyirdilər.

Tibetin daxilində də birlik yox idi. Sərhədlərdən qənimətlərin hər il ölkəyə gətirilməsinə baxmayaraq, onun kiçik bir payı Qar ailəsinə, yəni Tsinlinin qohumlarına çatırdı. Bu, yerdə qalan nüfuzlu nəsillərin, habelə azad döyüşçülərin geniş təbəqəsinin narazılığına səbəb olurdu. Adətən olduğu kimi, hökmdarlıq edən nəslin düşmənlərinin yaxın adamları həmin vaxt taxtda oturan tsenpo hakimiyyətindən məhrum olanlara müraciət etdi. O vaxt Dudsronun 25 yaşı tamam olurdu. Dunxuan salnaməsinə uyğun olaraq o aydın ağla malik olub xainləri qəddarcasına cəzalandırırdı. Öz tibetlilərindən savayı onu cəsur Nepal dağlıları və Tan imperiyasında Tibetdə repressiyadan xilas olunan qərbi türklər də müdafiə edirdilər.

Tsinlin imperiya elçilərini Tibetə buraxmaqla səhvə yol verdi. Təcrübəli çin diplomatları hökmdar və tsenpo ilə sülh haqqında danışıqlar apararaq boş vədlər və hədiyyələrlə qəsd təşkil edilməsini stimullaşdırırdı. Tsenponun özü bu qəsdin başında dururdu.

695-ci ildə Dudsron Qar ailəsindən bir nəfəri qətl etdiyi zaman mübarizə başladı. Dərhal qətldən sonra tsenmo (tsenponun arvadı) bir çox insanları, yəqin ki, Qar ailəsinə tabe olan döyüşən ordu tərəfindən taxt-taca ediləcək qəsdlərin təhlükəsizliyini təmin etmək üçün öz qohumlarını çağırdı.

699-cu ildə sui-qəsdçilər ov etmək bəhanəsi ilə döyüşçüləri toplayaraq hökumətin dörd mindən çox tərəfdarlarını tutdular və onları öldürdülər. Sonra Dudsron hökmdarı ordudan paytaxta çağırtdırdı, lakin o, onu açıq-aşkar ölüm gözlədiyini bilərək öz qoşununun sədaqətinə arxayın olub üsyan qaldırdı. Lakin döyüşçülər hökmdarları naminə (tsenpo) öz sərkərdələrindən üz döndərib dağıldılar. Tsinlin vəziyyətin çıxılmaz olduğunu görərək yüz nəfər sədaqətli tərəfdarı ilə birlikdə özünə qəsd etdi. Sağ qalmaq istəyən şəxslər isə Tsinlinin oğlu tərəfindən Tan imperiyasına verildi. Onları şərafətlə qəbul elədilər və sərhəd qoşunlarına yazdılar, çünki onların Tibetə geri qayıtması artıq mümkün deyildi.

Vəziyyət bütünlüklə dəyişdi. Tibet təcrübəli sərkərdələrdən və ən yaxşı qoşundan məhrum oldu, Çin isə 8 min nəfər təcrübəli döyüşçü qazandı. Təbiidir ki, imperiya hökuməti Tibet ilə dinc danışıqları kəsdi və bütün cəbhələrdə müharibə başladı. İndi artıq üstünlük müəyyən qədər imperiyanın tərəfində idi. Çinlilərin özləri qələbələrini yeni Tibet sərkərdələrinin təcrübəsizliyi ilə əlaqələndirirdilər. 700 və 702-ci illərdə olan yürüşlər tibetlilər üçün böyük itkilər hesabına dəf edildi.

Dudsronun sülh və Çin şahzadə qızı ilə nigah bağlaması haqqında xahişi qızıl və at verilməsi təklifi ilə irəli sürülsə də, heç bir nəticə vermədi. Sərhəd müharibəsinə baxmayaraq Tibetə keçmiş Çin diplomatları tsenpo Dudsronun düşdüyü yeni çətinliklər barədə öz hökumətinə məlumat verirdilər. Cənub sərhədlərindən asılı olan dövlətlərin hamısı — Nepal, Hindistan və başqaları ayağa qalxmışdılar. Dudsron 703-cü ildə Hinduslara qarşı yürüşdə həlak oldu. İmperiya qələbə qazandı, lakin bu qələbə vaxtında qazanılmamışdı. Şərq türklərinin varisləri — göy türklər Tibet—Çin müharibəsindən istifadə etdilər. Onlar arasında 50 il idi ki, narazılıq yaranmışdı, bunun da sayəsində qana susmaq hissləri qızışmışdı.

Tsenpo öldükdən sonra tayfaların üsyanı və əyanların ədavəti yenidən baş qaldırdı, Dudsronun qardaşı isə Nepalın taxt-tacını itirdi. Lakin artıq 705-ci ildə varlı Ba və Dro ailələri qayda-qanun yaratdılar, Çinə gəlmiş tibet elçisi taxt-tac Meaqt-somanın — yeni tsenponun sahib olması haqqında məlumat verdi. Buddaçılar onun vaxtında öz mövqelərini saxladılar. Məbədlərin inşası, müqəddəs kitabların tərcüməsi və hind alimlərinin dəvəti davam etməyə başladı. Buddizm və bon birgə yaşamağı öyrənmək üçün səy göstərməyə başladılar.

## XX f ə s i l

## XALQIN DƏYİŞMƏSİ

**Altay dağlarında.** Hazırda Dağlıq Altayın şərq hissəsində telengitlər yaşayırlar. Öz köhnə adı olan tölösü qoruyub saxlamış əsas tayfa da (hissə) onların sırasına daxildir. Telengitlər şimalda qaraşın tatarlar ilə (yiş-kijilər), şərqdə tuvinlərlə, cənubda qazaxlar ilə, qərbdə isə öz altaylıları ilə (altay-kijilər) qonşudurlar. Çətin keçidləri olan hündür dağlar telengitlərin yaşadığı rayonların təbii sərhədləri olub, onların həm dillərinə (altay dilinin telengit ləhcəsi böyük miqdarda monqol ünsürlərini özündə saxlayır), həm də özünü digər altay tayfaları ilə müqayisə etməkdə ifadə olunan orijinallığın müəyyən qədər qorunub saxlanmasına təsir göstərir.

Çulışman, Başqaus və Ulağan vadilərində yaşayan şimal telengitləri özlərini teleslər adlandırırlar. Bu rayon yüksəkdə yerləşən yaylaları, üstəlik bir-birilə kəsişən iki dağ çayı — Kubadru və Çibitsu ilə cənub rayonundan ayrılır. Cənubi telengitlər Çum çayının aşağılarından başlayaraq onun Katun çayına tökülən hissəsinədək yaşayırlar. Onların adı Çuy-kijidir (çuy insanları).

«Telengit» termini «tölös» terminindən genişdir, çünki onlar tölöslər adlanmayan bir qrup əhalini də özündə birləşdirir. Tölöslərlə bərabər əsas adlar — az*, soyon, mayma və başqaları da mövcuddur.

* V. V. Bartold bu tayfanın əcdadlarını Yeniseydəki ostyaklara - assinlərə, iranlılara—alanlara aid edirdi və az adına türk-fars sözü kimi baxırdı.

Tölöslər vaxtilə hakim özək olub, özünün tölös kimi qədim olan telengit etnik adını dəyişmişdi. VII əsrdə telengitlər (çin dolanqe) Orxondan qərbə tərəf yerləşmiş Xanqayda geniş əraziyə malik idilər və tölös tayfalarından biri hesab olunurdular.

Tölös adının Orxon yazılarında xatırlanan tolislərlə oxşarlığı Aristovun da diqqətini özünə cəlb etmişdir, lakin o buna yalnız səthi irad tutmaqla kifayətlənmişdir. Çünki onun dövründə «tolis» Orxon termininin məzmunu aydın deyildi və kəskin mübahisələrin obyektinə çevrilmişdi. Qərb orientalistlərindən olan Tomsen, Xirt və Şavann tolisləri Çin salnamələrindəki telelər ilə eyniləşdirirdilər, rus alimlərindən Bartold, Melioranski, Aristov və Qrumm-Qrjimaylo isə tolisləri köklü türk tayfaları, «teledən ayrı» olan xüsusi tayfa hesab edirdilər. O vaxt qərbi Avropa alimləri öz baxışlarının düzgünlüyünə inanaraq hər hansı təsdiqedici faktların gətirilməsində özlərinə əziyyət vermirdilər. Aristov iqtisadiyyatı öyrənmək əsasında müəyyən etdi ki, tölölərin nəslinə tölöslər deyil, tölöutlar aiddir. Qrumm-Qrjimaylo da tarixi materialı öyrənmək əsasında bu nəticəyə gəlmişdir.

Oyratların keçmiş təbəələri olan telengitlər Qərbi Monqolustandan mancurların əlindən Altaya qaçdığı vaxt XVIII əsrin ortalarında tölöslər ilə telengitlərin birləşməsi baş verdi, imperator Tsyan lun oyratların axırıncı adamları qalana kimi öldürülməsi əmrini vermişdi. Tədricən telengitlər bu diyarda VII əsrin ortalarından başlayaraq yaşayan teleslərlə qaynayıb qarışdılar. Onlar buralara türk şöhrətinin və istiqlaliyyətinin sonuncu müdafiəçisi olan Çebi xan ilə birgə gəlmişdilər.

Telesler öz əcdadlarına — tölöslərə ayrılmış türkyutlara az oxşayırdılar, lakin bu təbiidir, çünki sıldırım qayalar, cəngəlliklər və düşmənlər ilə əhatə olunmuş xalqlar üçün min il ərzində az dəyişiklik olmamışdır. Lakin arxeologiya əcdadlar və varislər arasında belə bir əlaqənin olduğunu müəyyənləşdirir.

Yüksək dağlarda gizlənən kiçik xalq əgər hər hansı bir abidə qoyub getməsəydi tarix üçün tam unudulardı. Tölöslərə ayrılan türkyutların qəbirləri şərqi Altayın demək olar bütün çölünü tutur. Bu, daş çəpərlərdir, əynində əbası olan əzələli, belindən qılınc asılmış və sağ əlində piyalə tutmuş kişinin yonulmuş daş heykəlidir. Bu çəpərlərin içindən çox vaxt kül — yandırılmış cəsədin qalıqları tapılır.* Qəbirlərdən Şərqə doğru torpağa basdırılmış kobud, yonulmuş daşlardan

* L. R. Kızlasov belə hesab edir ki, çəpərlər qəbir deyil, vəfat edənin xatırlanan yeridir, külün və heyvan sümüklərinin, əşyaların olmasını isə belə izah edir ki, onları «gətirmiş və daş ilə üstlərini örtmüşlər». Lakin o, türkyutların bunu nə üçün etdiyini demir (bax: L. R. Kızlasov - Тува... стр. 57. 62). Kızlasov, A. A. Evtyuxova və S. V. Kiselevin (bax: L. A. Evtyuxova, Каменные изваяния…, стр. 130—132. S. V. Kiselev, Древняй история., стр. 546) fərziyyəsini təkrar edir, lakin yeni sübutlar gətirmir və mənim dediyim fikirləri təkzib etmir. L. R. Kızlasovun qeyd etdiyi kimi közərmiş torpağın olmaması heç də burada ehsanın verilməsindən xəbər vermir, külün basdırılması, yaxud ölünün yandırılmasını torpaqda deyil, taxta meydançada da asanlıqla etmək olar. Sonuncu halda meyidin yandırılması başa çatdırılmır, bu da dəfn mərasiminin təsvirinə ziddir (bax: L. N. Qumilev. Алтайская ветв... стр. 107). Bundan

balbalların məzarları uzanır. Bu abidələr mərhumun qəhrəmanlığına qoyulmuşdur — hər balbal özünün öldürdüyü düşməni təsvir edir. Bir çox qəbirlərdə balbal yoxdur. Görünür, orada qadın və uşaqların külü dəfn olunmuşdur.

Balballar bir-birindən iki cür kəskin şəkildə fərqlənən formalara malikdir: şişuclu və başı dik olan yastı. Əgər Orxon yazılarında gətirilən təsvirləri, yəni «hər balbal müəyyən insanı təsvir edir» fikrini nəzərə alsaq, onda belə bölgünü təsadüfi hesab etmək olmaz. Burada mühüm etnoqrafik əlamət — baş geyimi həkk olunmuşdur. Çöldə yaşayanlar şişuclu, altaylılar isə yastı girdə papaq qoyurlar.

Türkyutlar VII əsrdə Altaya gəldiyi vaxt bir tərəfdən aborigenlər — altaylılar, digər tərəfdən isə qazaxların əcdadları olan çöldə yaşayan tayfalar onların düşmənləri idilər. Görünür, türkyutlar VII—IX əsrlərdə hər iki cəbhə ilə mübarizə aparmışlar ki, bu da balballarn təsvirində əks olunmuşdur. Əgər bu ədalətlidirsə, onda biz qeyd edə bilərik ki, çöldə yaşayan tayfalarla mübarizə çox uğurlu olmuşdur: belə ki, bizim öyrəndiyimiz 486 balbaldan 329-u şişuclu, 157-ci isə yastıbaşlıdır.

Görünür, Çebi xandan sonra da çöldə yaşayan köçərilərin üzərinə edilən qəfil yürüşlər meşədə hər ağacı və dərələrdə hər bir daşı tanıyan dağlılarla aparılan gərgin mübarizədən müvəffəqiyyətli keçmişdir. Bəlkə də elə buna görədir ki, yastıbaşlı balballar, bir qayda olaraq, şişbaşlı balballardan daha böyükdür.

VIII—X əsrlərdə yaşayan türkyutlar — tölöslər haqqında tarixi məlumatlarımız olmadığına görə hətta lal daşların bizə vermiş olduğu cüzi məlumatların da böyük əhəmiyyəti vardır: əlbəttə, bu mübarizənin səbəbləri bizə məlum deyildir, lakin onun ümumi gedişinin və istiqamətinin aydınlaşdırılması tarix elmi üçün artıq böyük müvəffəqiyyətdir.

---

əlavə, «çəpərlərin» birindən insan sümükləri tapılıb (A. A. Qavrilova, Кудырге, стр. 9). L. R. Kızlasov təsdiq edir ki, yalnız əyanların cəsədləri yandırılırdı. O, belə bir fikrə əsaslanır ki, 630-cu ildə epidemiyaya görə Uzun divarların cənub tərəfində xeyli insan sümükləri yığılıb qalmışdır (Н. Я. Бичурин. Собрание сочинений... т. I, стр. 256): Lakin bu o deməkdir ki, meyidləri yandırmağa vaxt çatdırmırdılar, yalnız 628-ci ildən Taytszun türkyut xaqanlığının məhv edilməsini — yayı, səmada beş günəşi, qırmızı dumanı sadalayaraq türkyutların cənazələri daha yandırmadıqlarını da əlavə edir ki, bu da ənənənin pozulması deməkdir, onlar allah və ruhlar tərəfindən məhvə düçar olacaqlar. Tamamilə aydındır ki, meyidi dəfn etmək ənənəni kobud surətdə pozmaq demək idi, qayda-qanun bərpa edildikdən sonra 634-cü ildə Qat-İl-xanın cəsədi yandırıldı, 639-cu ildə isə onun qohumu Helohunun cəsədi də yandırıldı. L. R. Kızlasov ənənənin dəyişməsi haqqında fikri ümumi mətndən ayıraraq, bunun əsasında təsdiq edir ki, «türklər VI-VIII əsrdə hər yerdə adət üzrə meyidi atı ilə bərabər dəfn edirmişlər» (Тува... стр. 153) Bizim fikrimizcə, L. R. Kızlasovun təsdiqi türk adını götürmüş əsl köçəri türk xanlarına münasibətdə ədalətlidir, lakin bu, hakim tayfa hesab olunan türklərin özlərinə L. R. Kızlasovun özünün cəsəd yandırma adətini qəbul etdiyi türklərin yuxarı pilləsi üçün ədalətli hesab edilə bilməz.

Yeni mühitdə keçirtdikləri iki yüz il ərzində xalq dəyişməyə bilməzdi. Türkyutların Altay dağlarına qovulmasının əvvəlki qüdrətinin bərpa edilməsi haqqında ilkin ideya özünü doğrultmadı, zaman onların ümidlərini qırdı.

Çöldə hərc-mərclik yarandıqda, ondan türkyutlar deyil, kidanlar istifadə etdilər, türkyutlar heç vaxt siyasi meydanda çıxış etmədilər? Nə üçün? Bu suala fiziki və iqtisadi coğrafiya cavab verə bilər.

Türkyutlar tarixən çöldə yaşayan, heyvandarlıqla məşğul olan xalqdır. Böyük Altayın cənub yamaclarında ilkin yaşayış yerlərinin olması çöldəki sahələrdən istifadə etmək imkanından onları məhrum etməmişdi, meşə isə əsas təsərrüfat növünə — köçəri maldarlıq peşəsinin əlavə edilməsinə xidmət edirdi. Onlar dağlara qovulmalarına baxmayaraq öz məişətlərinin əsası olan maldarlığı saxladılar, lakin örüş sahələri çay vadilərindən şimal yamacları ilə məhdudlaşdı. Sürünün sayı azalmaya bilməzdi, türkyutlar özlərinin qida mənbələrini ov etməklə təmin eləmək məcburiyyətində qaldılar. Lakin onlar son dərəcə səmərəli olan çöl ovunu deyil, az əmək sərf olunan fərdi ovu — meşə ovunu əsas götürdülər. Yeni şəraitə uyğunlaşan xalq yeni təsərrüfat növü yaratmalı idi. Bu təsərrüfat əvvəlkinə nisbətən onu xeyli pis təmin edirdi. Sibirin qütb arxasındakı yerlərin iqlimi kimi bir o qədər sərt olan Altay dağlarının iqlimi ilə mübarizə də az qüvvə tələb etmirdi.

Bunun nəticəsində xalq yeni keyfiyyətlər qazandı, lakin təbiidir ki, köhnə keyfiyyətləri də itirdi. Davakar köçəri heyvandarlardan azadlıqsevər, oturaq həyat keçirən heyvandarlar yarandı. Qısaca desək, türkyutlar teleslərə* çevrildilər. Bu dönüş IX əsrin ortalarına düşür, bu vaxt onlar Çində elçiliyi öz vaxtını keçirmiş ənənə hesab edirdilər, çünki bu ənənəyə mənasız yerə qüvvə sərf olunurdu. Lakin bu kiçik xalq hələ özünü müdafiə edə bilirdi. Naymanların şərqdən və qərbdən teleslərin malikanələrini əhatə etməsinə baxmayaraq, onlar Dağlıq Altayın şərq hissəsini tuta bilmədilər. Bu ondan görünür ki, «Yuan çaomişi»də teleslər 1207-ci ildə Cuci xan tərəfindən zəbt edilmiş suveren tayfaların sırasında xatırlanır. Teleslərin müstəqilliyi bununla da bitmişdir.

**Şimal düzlərində.** Şimalda, yenicə dağıdılmış düzlərdə və Çində baş verən «ədalətli vətəndaş müharibəsi» vaxtı zəbt edilmiş cənubda dəmir qurşağı dağıtmaq təhlükəsi yaradan qızğın bərpa prosesi gedirdi. Bu proses onları Tan imperiyasına — vahid bir yerə bağlayırdı. Qobi səhrasının hər iki tərəfində yeni xalqlar — həyat tərzləri bir-birinə yaxın olan, səyləri və mədəniyyəti ilə seçilən göy türklər və uyğurlar təşəkkül tapırdı.

Çöl — həyat üçün yararlı yerdir. Çölün mərkəzi hissəsi olan dağ keçidləri meşə ilə örtülüdür, bu da müxtəlif landşaft və təsərrüfatın inkişafı üçün zəngin imkanlar yaradır. Lakin şimaldan çölə tərəf tayqa birləşir — bu yer həyat üçün az yararlıdır, təsərrüfatın inkişafı üçün isə ən az imkanlara malikdir. «Tayqalı dəniz»

* Telesləri telelərlə heç vəchlə qarışdırmaq olmaz, çünki teleutlar telelərin varisləri hesab olunurlar.

— meşə massivi üçün ən yararlı addır. O meşə düzlərini meşədəki tundrada yaşayan tayfalardan ayırır. Çöl şimala doğru uzanıb gedir və daha çox öz əhəmiyyətinə görə VII—VIII əsrlərdə Yenisey çayının yuxarı tərəflərində yerləşən rayon olmuşdur. Burada türk və uyğurlara qətiyyən oxşamayan qırğız mədəniyyəti yaradılırdı. Dillərinin və yazılarının bir-birinə oxşamasına baxmayaraq, qırğızlar bəzi xüsusiyyətlərinə görə türklərdən və uyğurlardan çox uzaq idilər. Onlar sanki bərabərtərəfli üçbucağın üçüncü zirvəsini tuturdular ki, bu da ümumi inkişafı şərtləndirən, fasiləsiz mübarizənin harmonik gərginliyini, vahid bütövlüyünü təmsil edirdi.

Şimalda, şərqdə və şimali-qərbdə yaşayan qırğızlar xalqlarla, daha doğrusu, Orta Asiya ilə heç bir əlaqəsi olmayan tayfalarla həmsərhəd idilər. Bu qədim sibirlilər heç bir bütövlüyə malik deyildilər ki, özlərini qonşulara qarşı qoysunlar və bir-birilə ümumi dil tapa bilsinlər. Sibirdə VIII əsrdə etnik müxtəliflik XVIII əsrə nisbətən daha çox idi. Qafqaz sıra dağlarında müxtəlif xalqların çoxsaylı qalıqları özlərinə yurd tapdığı kimi, Sibir tayqasında da həmçinin 2000 il ərzində intensiv inkişaf yolunda duran tayfaların qalıqları yaşamaqda davam edirdi. Qırğızların ərazisinin Sibir tayqasında yaşayan tayfalara bilavasitə yaxın olması təbii şərtlərlə bərabər Qırğız dövlətinin imkanlarını və inkişaf istiqamətlərini də müəyyən etdi. S. V. Kiselevin tədqiqatlarına əsasən Qırğız xanlığı bir neçə tayfanın birləşməsindən yaranmışdı, onun başında xaqan dururdu.

Mənbələr Qırğız xanlığının şimal sərhədlərini aşağıdakı şəkildə müəyyən edir: «Cənub-qərbdən Qeloluya doğru», yəni karluklara qədər (bəlkə də qırğızlar Tomi və Bin çaylarının yuxarı qollarına, Salair sıra dağlarına qədər hökmranlıq edirdilər); şərqdən Güliganiəyə qədər (yəni Anqaranın yuxarı tərəflərində məskunlaşan kurikanlara qədər); şimalda çox vaxt qırğızların öz miqdarından cəmi üç dəfə çox olan çoxsaylı boma və yeloçji xalqı onlarla tez-tez savaşırdı».

Bomalılar atçılıqla məşğul olur, torpaq şumlayır, taxta evlər tikirdilər, lakin dövlət yaratmırdılar. Hər bir tayfanı öz başçısı idarə edirdi. Bomalıların görkəmi qırğızlara oxşayırdı, lakin onlar başqa dildə danışırdılar. Görünür, bu müəmmalı xalqın ərazisi Anqaradan aşağıda yerləşən vadilər, Alakçin ölkəsinin yerləşdiyi torpaqlar imiş. Deməli, Qırğız xanlığının şimal sərhədləri Krasnoyarskdan bir qədər şimala tərəf keçirmiş.

V. V. Bartold bomalıların Yenisey astyakları, yəni ketlər olduğunu güman edir, onlarda cənubdan, qüdrətli kilik xalqı tərəfindən hücum olunması rəvayəti qorunub saxlanmışdı.

Qırğız xanlığının qeyd olunmuş hipotetik şimal sərhədləri «Tanşu»da da öz əksini tapmışdır: bütün çaylar (Yenisey hövzəsinin) şimali-şərqə axır. Xyaqası adlayaraq onlar birləşir və şimala axırlar». Söhbət Anqara çayının bir qədər aşağı hissədən daha çox Yenisey çayına tökülməsindən gedir. Bu halda sərhəd uqra-samodiyalılar və svenklərdən ibarət olan türk xalqlarının indiki etnoqrafik sərhədləri ilə uyğun gəlir.

Şərq sərhədlərinə gəldikdə isə, iki sərhəd olmuşdur: əsas, birinci sərhəd Şərqi Sayanın ətəklərindən, ikinci sərhəd isə Oka (Anqaranın çölü) və Anqaranın suayırıcından keçmişdir. Bu iki sərhəddin arasında üç tayfa — dubo, yəni tuvinlər, miliqe, yəni merkitlər və eçjilər — kosoqol uryanxaylı açjenlər yaşayırdılar. Qırğızlar meşələrdə yaşayan bu tayfalar üzərinə yürüşlər edir, əsir götürdükləri adamlardan qul kimi istifadə edirdilər. Meşədəkilər qəsbkarların gecə basqınlarına hücumla cavab verirdilər, lakin muvəffəqiyyətli müqavimət göstərməyi təşkil edə bilmirdilər. Qırğızlar bunun əvəzində Anqarada yaşayan kurıkanlar tərəfindən möhkəm müqavimətə rast gəlirdilər. Məhz ikinci sərhəddə gərgin, fasiləsiz müharibə gedirdi, Sayan meşəsində yaşayanlar kurıkanlar «kurum dəmirçiləri» tayfası ilə birləşirdilər.

Çin tarixinin ənənələri kurıkanları teles tayfa qrupuna aid edir və onların dilinin qırğız dilindən fərqli olduğunu göstərir. Bir halda ki, kurıkanların yakutların əcdadı, xakasların isə qırğızların varisi olduğu müəyyən edilmişdir, bu bizi təəccübləndirməməlidir: hər iki dil lüğət tərkibinə və fonetikaya görə son dərəcə fərqlənir, «başqa xalqa mənsub olan xalqlar» barədə məlumat toplayan təcrübəli Çin zabitlərinə belə qrammatik quruluşdakı oxşarlıq arasındakı fərqlər gözə görünməli idi. Buna görə də kurıkanları teles tayfası qrupundan ayırmağa əsasımız yoxdur.

Bu, teleslərin yüksəliş dövrü idi. Bu dövrdə məişətin, ideologiyanın və sosial münasibətlərin mürəkkəbləşməsi prosesi gedirdi. Bu dövrdə qəhrəmanlar doğulurdu. Onların bir hissəsi tarixi yaddaşda məhv olmuşlar, lakin bəziləri haqqında məlumatlar Çin salnamələrinə düşmüş, gələcək nəsillər üçün qorunub saxlanmışdır.

Sibirdə aparılan arxeoloji işlər belə bir mühüm məsələni müəyyənləşdirməyə imkan vermişdir ki, arxeoloji «kurum çin mədəniyyəti» kurıkanların areala yayılmasına müvafiq gəlir, Baykal sıx məskunlaşmış sahilləri ilə birgə onun coğrafi mərkəzi olmuşdur, onun əsas yayılma sahəsi isə Anqara və Lena çayının yuxarı tərəfləri, Olxon adası da daxil olmaqla Baykala qədər olan sahə olmuşdur.

Kurıkanlar filiz əridir və yüksək keyfiyyətli dəmir əldə edirdilər, bu günədək qorunub qalan qalalar, şəhərlər tikir, gözəl atları olan ilxılar saxlayır və saxsı qablar hazırlayırdılar. Onların sənətləri qırğız sənətini, paltar və yazıları isə türkləri xatırladır.

Teles tayfaları öz tarixləri ərzində dəfələrlə yaşadıqları yeri dəyişmişlər. VII əsrin ortalarında onların yaşayış sahələri aşağıdakı kimi olmuşdur.

Qərbdə Tszabxan çayı və şərqdə Orxon mənbələri arasında yerləşən Xanqay dağlarında dolange-telengitlər yaşayırdılar, Selengi çayından yuxarılarda isə sıqeizgillər, Selengi və Orxon arasında tunlo-tonqralar, Selengi və Orxonun aşağı axarları ətrafında puqu-buqular, Toloy və Orxon arasındakı çöldə uyğurlar, Kerülendən şimala doğru, Xanteym və Xinqan arasında bayequ-bayırkular, Selengi

vadisində, qərbə doğru puqular — sıqelər, bayırkadan cənuba doğru baysilər. Zabaykalyedə — huligan — kurikanlar, Alaşan dağlarında ade-edizlər, Ordosdan qərbə doğru uzanan çöllərdə isə hun və kibilər yaşayırdılar.

Teles tayfalarından şimala tərəf, yuxarı Yenisey hövzəsində qırğızlar, şərqi Zabaykalyedə isə bizə naməlum olan qyuylobo tayfası yaşayırdılar.

Türkyutların basqınından sağ qalanlar zorla şərqi Xanqaya, Otuken rahibliyinə qovuldular, lakin görünür ki, onlar orada az olmuşlar. Türklərin böyük hissəsi Sirlərlə qarışaraq Ordosdan şimala və şərqə tərəf, İnşanyadan ayrılmış qollara qədər yerləşmişdi. Qobi səhrası şimalda yaşayan köçəriləri cənubdakılardan bir dəniz kimi ayırırdı, lakin istər burada, istərsə də orada köçəriləri çin canişinləri idarə edirdilər.

Cunqariya və Yeddi suda aşağıdakı xalqlar yaşayırdılar. Qara İrtış və Urunqu hövzəsində — karluklar*, mərkəzi Tyanşanda İli çayı üzərində türkeşlər, onlardan qərbə tərəf isə şunişlər, cənub-qərb Cunqariyada neşetilər, Manas çayı üzərində və ondan şərqə tərəf xulişilər*, Cənubi Cunqariyanın şərq hissəsində basimilər (basmalılar)* və elə oradaca şatolar — orta Asiya hunlarının* qalıqları yaşayırdılar.

Sadaladığımız məlumatlara əlavə olaraq, Orxon yazıları türkeşlərin 710—711-ci illərdə vuruşduqları kenqeres xalqı haqqında məlumat verir. Onlar başqaları yox, peçeneqlər imiş, özlərinə uydurma kanqar adı qoymuşdular. Bu xalq Sır-Dəryanın aşağı və orta axını ətrafında yaşayırdı.

Qara İrtışda yaşayan karluklar və Sır-Dəryada məskunlaşan peçeneqlər — kanqarlar arasında geniş çöl var idi ki, orada bu vaxt artıq qıpçaqlar yaşayırdılar. Müasir Qazaxıstanın çöl sahəsinin adı da buradan götürülmüşdür: Dəştikıpçaq — Qıpçaq çölü deməkdir. Qıpçaqlar burada kanqarlarla qarışaraq şərqdə qıpçaqlar, Avropada komanlar, Rusiyada poloveslər adı ilə məşhur olan xalq kimi təşəkkül tapdılar. Cənuba doğru, Sır-Dərya və Amu-Dəryanın aşağı axını arasında türkləşmiş ariyalılar, parfiyalıların yaxın qohumları olan türkmənlər yaxud quzular yaşayırdılar. Orta Asiyada ən iri tayfa birlikləri bu siyahı ilə başa çatır. Biz onların bəzilərinin, məsələn, azların* çikilərin*, abarların* və başqalarının adlarını bilirik.

* Karluklar — orda dağılarkən ondan ayrılmış və 650-ci ildə Tan imperiyasına davam gətirə bilməyən türklərdir. Üç bölmədən ibarət idi və cabqu (çin şah), yəni tipik tayfa ittifaqı tərəfindən idarə olunurdu.

* Şunişlər, neşetilər və xulişilər — tayfalardır, onlar haqqında bizə məlumat çatmamışdır.

* Basmalılar 40 hissədən ibarət idilər, lakin nə tayfaları, nə də nəsli həmin ad altında başa düşmək olar, çünki belə olmasaydı basmalılar təhlükəli bir qüvvə kimi meydana çıxa bilərdilər. Tutduqları əraziyə görə əslində onların miqdarı çox az idi. Basmalılar Şərqi Tarbaqatayda təşəkkül tapmış və Şərqi Cunqariyaya keçmişlər, lakin onların keçmə ili məlum deyildir.

* Yuxarıda göstərildiyi kimi Orta Asiya hunları Yeddi Suda Yueban malikanəsini yaratmışlar. A. N. Bernştam onu çuban tayfa adı ilə müqayisə etmişlər. Çuban çuyue, çumi, çumuqun adları ilə oxşarlıq təşkil edir, deməli, onların hamısı hunların varisləridir ki, türkyutlar ilə qarışaraq Cənubi Cunqariyada, Barkul gölündən qərbə tərəf məskunlaşan şito tayfasını yaratmışdılar.

* Azlar Sayan dağları və Altay arasında yaşayırdılar.

Görünür bir çox kiçik tayfalar həm Çin, həm də Avropa paleoetnoqrafiyaçılarının görüşündən yayılmışdır. Buna təəssüflənməmək lazım deyildir, çünki tarixdə kim öz rolunu oynamışdırsa, onun salnaməsində də əks olub qalmışdır.

Tayfaların tərkibinin miqdarı az idi. 688-ci ildə uyğurlar öz istiqlaliyyətləri uğrunda türklərin əleyhinə çıxış etdikləri vaxt onlar cəmi 6 min nəfər döyüşçü çıxartmışdılar. Güman etmək olar ki, belə məsul anda bütün döyüş qabiliyyəti olan kişilər, yəni əhalinin 20%-i müharibəyə getmək üçün ayağa qalxmışdı. Deməli, bütün əhalinin miqdarı 30 min nəfər imiş. Lakin bu ən iri tayfa idi, o biri tayfalar xeyli kiçik idi. Deməli, güman etmək olar ki, bir neçə min nəfərdən, hətta bir neçə yüz nəfərdən ibarət olan tayfalar da var imiş.

Uyğurlara qayıdaq. Göstərilən 30 min nəfər 9 bölməyə bölündü. Beləliklə, hər bölməyə 3,5 min nəfər düşdü. Ekstensiv heyvandarlıq təsərrüfatı zamanı bu qədər miqdarda insan təsərrüfat — təşkilat vahidi olan oğuzu tamamilə təşkil edə bilər. Məsələnin belə qoyuluşuna uyğurların 50 min nəfər süvari çıxarması haqqında çin məlumatı zidd gəlir, lakin çinlilərin ənənəvi mübaliğə alüdəçiliyini yaddan çıxarmaq olmaz. Maraqlıdır ki, 628-ci ildə uyğurlar türklərə qarşı 5 min döyüşçü ilə çıxış etmişlər (görünür ki, mübaliğəsizdir), bu 688-ci ildə çıxartdıqları döyüşçülərin miqdarından 1000 nəfər az idi. Bu rəqəmlər Çin mənbəyinin tendensiyalı olmasını — şişirdildiyini ifşa edir.

**Xuanxe sahillərində.** 630-cu ildə əsir alınmış və 631-ci ildə bir neçə «yüz nəfər yurdları dağıdıldığından» «Alaşan köçürülmüş türkyut qruplarına müraciət edək. Sonra Çin tarixçisinin fikrincə onlar o qədər «artdılar» ki, artıq 641-ci ildə Sımo xanın 100.000 əhalisi, 40.000 nəfər nizami döyüşçüsü və 90.000 baş atı var idi, 679-cu ildə isə türklər üsyan etdilər və İmperiya ilə mübarizə aparmaq qüvvəsinə malik oldular.

Statistikadan məlumdur ki, insanlar belə tez arta bilməzlər, burada mənbədə nə isə unudulmuşdur, lakin xoşbəxtliyimizdən «Selengi daşında» həkk olunmuş bir fikir əhalinin belə artmasının sirrini özündə saxlayır. 80-ci illərdə orada xaqanlığı bərpa edən «türklər—qıpçaqlar» adlandırılmışdır.

Qıpçaqlar qədimdə Altayda, çinlilərin Çjelyan adlandırdığı vadidə yaşayırdılar. Şübhəsiz ki, çjilan — ilan deməkdir (buradan da İlan dağının və Zmeinoqorsk şəhərinin adı götürülüb). Qrumm-Qrjimaylo onları boma dinlin tayfasının bir sahəsi hesab edir. Görünür, onlar türkyut xalqlarının hakimiyyəti altında olmuş, 630-cu ildə onlarla birlikdə məğlubiyyətin acısını dadmış və məğlubiyyətə uğrayan başqa tayfalarla bərabər əvvəlki ağaları ilə birgə Alaşana köçürülmüşlər. Şübhəsiz ki, bu bütün xalq deyildi, onların müəyyən hissəsi, yəni kanqlamlar ilə qaynayıb-qarışanlar koman, yaxud polovets adında məşhur olan

---

* Çikilər Yenisey mənbələrini təşkil edən çay ətrafında yaşayırdılar.

* Abarlar yaxud həqiqi avarlar İli çayı ətrafında yaşayırdılar və türkeşlərin tərkibində qarışmışdılar (L. N. Q u m i l e v. Три изчезнувших народа, стр. 107).

xalq kimi təşəkkül tapmışlar. Aşin xanlarının bərpa edilən ordasının ikinci komponenti seyantoluların gələcək nəsli sayılan sirlər oldular. Bunu Tonyukük yazılarından görmək olur. Həmin yazılarda «türksir budun», yəni türk-cir xalqı xatırlanır.

646-cı ildə seyanto xanlığı imperiyalılar və onların müttəfiqləri olan uyğurlar tərəfindən məhv edildikdən, xalq amansız şəkildə qırıldıqdan sonra seyantoluların qalıqları Beyşan dağının qolları üzrə səpələnirlər, onların türkyutlara qarşı olan köhnə nifrəti çinlilərə qarşı daha böyük nifrətlə əvəz olundu. Buna görə də seyantoluların türklərə qoşulması heç də təəccüblü deyildir, onlar türklərin bayrağı altında əvvəlki ad-sanı qazanmağı və seyantolulara qarşı amansız hərəkət edən çinlilərdən intiqam almağı güman edirdilər.

Bundan əlavə, Ordosda və Alaşanda cənub hunlarının və digər türkdilli tayfaların qalıqları yaşayırdılar. Onlar da həmçinin knyaz Aşinin dəstəsinə yazılmışdılar. Yürüşlər döyüşçüləri bir-birinə yaxınlaşdırır. Yaxınlıq hissi ölüm qarşısında həyatın rəhninə çevrilir. Təzəklərdən qalanmış kiçik tonqal ətrafına uzaq çöllərdə toplaşan sir qaxac ətin sonuncu tikəsini türkyutla bölür, uyğur tatabiyalının yarasını bağlayır, tanqut isə düşmən kəməndi ilə tutulmuş ediza təqdim edir. Vaxtilə bir-birini bəyənməyən tayfalar indi əl-ələ verərək şərqə və qərbə müharibəyə gedirdilər, tale ümumiliyi mənşəcə müxtəlif tayfaya mənsubolma sədlərini silib aparırdı. Əlbəttə, onlar başa düşürdülər ki, onların ataları bir-birilə mübarizə aparmışdır, lakin varlığın yaradıcı qüvvələri köhnəlməkdə olan şüuru aradan qaldırırdı. Artıq VII əsrin 50-ci illərində əvvəlki düşmənlər dostlaşmışdılar, iyirmi il sonra isə onların uşaqları qardaşlaşıb bir xalq — «koy türk», yəni göy türklər kimi qaynayıb qarışdılar.

Artıq onları türkyutlar adlandırmaq olmaz, bu, bütün (bütöv) türk xalqıdır. Bu xalq öz əcdadlarından, lakin yadlardan da çox şey irs almışdır. Türk xalqı Asiyanın tarixində öz sözünü qəti demişdir, onun tarixini elə dəyişmişdir ki, köçərilər tərəfindən idarə olunmaq üçün iki canişinliyi — Qobidən şimala doğru «Baykalı» və cənuba doğru uzanan «Şanyuevo»nı yaradan Taytszun Li Şi-min özü belə bunu qabaqcadan görə bilməmişdir.

## XXI f ə s i l

## QUTLUĞUN ÜSYANI

**Nəyə görə?** İlk baxışdan elə görünə bilər ki, böyük imperiyanın mərkəzində yaşayan və başqa xalqlarla müqayisədə zülmə o qədər də məruz qalmayan türklər talelərinə minnətdar olmalı idilər. Lakin belə deyildi. Əksinə, VII əsrin 70-ci illərinin sonunda türklərin narazılığı o qədər artdı ki, onlar nisbətən yüngül həyatlarını amansız Asiya müharibələrinin ağlagəlməz çətinliklərinə dəyişdilər. Belə müharibələrdən xilas yolu tapmaq bəzən döyüşdəki ölümdən də ağır olurdu.

Üsyan həmişə çətindir. Hökumətin imkanları hüdudsuz olanda, üsyan zonası mühasirəyə alınanda, kənardan isə heç bir kömək gəlməyəndə bu çətinlik daha da artır. Əgər belə bir namünasib şəraitdə üsyan nəinki başlayır, hətta müəyyən müvvəffəqiyyət də qazanırdısa, bu istisna sayılmalı idi.

Lakin buna baxmayaraq tədqiqatçılardan heç biri 679—693-cü illər türk üsyanının səbəbləri ilə maraqlanmamışdır. N. N. Kozmin üsyanın səbəblərini yaşayan yerlərini Altay saydığı iri feodalın torpaqları öz əlində cəmləməsi ilə bağlıdır. Bu səhv ətrafında müzakirə açmağa belə dəyməz, odur ki, tədqiqatçının sonrakı mühakimələri gündəlikdən çıxır.

A. N. Bernştam güman edir ki, tədricən feodallaşan türk aristokratları öz xalqlarını istismar etmək hüququ uğrunda Çinə qarşı mübarizəyə qalxmışdılar. İstər hadisələrin gedişi, istərsə də kitabələrin mətni bu ehtimalla ziddiyyət təşkil edir. Belə qeyri-bərabər mübarizədə türklərin müvəffəqiyyət qazanması məsələsinə o, heç bir diqqət yetirmir. Q. E. Qrumm-Qrjimaylonun təhlilləri daha dərindir, lakin o, yalnız bilavasitə türklərə dəxli olan məsələlərlə maraqlanmışdır, əslində isə hadisələrin kökü həmin dövrün beynəlxalq siyasətində idi; Çanyandakı saray çəkişmələri də bundan az əhəmiyyət kəsb etmirdi. Ona görə də biz şəraitin, hadisələrin gedişinin və müasirlərin verdiyi, lakin tarixi tənqidi son dərəcə zəruri olan izahların uyarlığını izləməliyik. Hadisələrin ən xırda təfərrüatlarına qədər əhatəli təhlili ehtimalların sürüşkən bataqlığından faktları nəzərə almaqla qurulmuş möhkəm elmi bünövrəyə qalxmağa imkan verə bilər.

**Xalq üsyanı.** 679-cu ildə Şanyu canişinliyinin türkləri içərisində çinlilərin gözləmədikləri üsyan qalxdı. «Tanşu» hadisələrin səbəblərini, bəhanəsini və başlanmasını lakonik tərzdə bir sözlə ifadə edir: «üsyan etdilər». Əlavə heç bir izahat verilmir.

Əvəzində isə türklər öz davranışlarını kifayət qədər geniş və inandırıcı şəkildə izah edirlər: «onların (türklərin) möhkəm kişi nəsilləri tabqaçların qulu, təmiz qadın nəsilləri isə kənizi oldular. Türk hakimləri öz türk adlarını üstlərindən götürdülər, tabqaç titulları qəbul edib tabqaç xaqanına tabe oldular. Onlar əlli il öz qüvvə və səylərini tabqaçlara verdilər. Günçıxan tərəfdə onlar vuruşa-vuruşa Bökli xaqana (Mukri, Çin mənbələrində Moxe, Mancuriya və Primuryedədir), arxada, yəni qərbdə döyüşə-döyüşə Demirqapıya (Orta Asiyadakı Buzqala keçidi) getdilər və öz dövlətlərini və qanunlarını (adətlərini) tabqaç xaqanına verdilər. Bütün türk xalqı belə dedi: «Mən dövləti olan xalq idim, hanı mənim dövlətim? Başqa dövlətləri mən kim üçün fəth edirəm?» Onlar deyirdilər: «Mən xaqanı olan xalq idim, indi mənim xaqanım hardadır? Mən öz zəhmətimi və qüvvəmi hansı xaqana verirəm?» «Onlar belə deyirdilər və belə deyə-deyə tabqaç xaqanının düşməni oldular».

Ongin abidələri də hadisələrin gedişini analoji təfsirdə verir. «Özünün hakimiyyətdə olan xaqanını atdı (tərk etdi), sonra isə türk xalqı irəli — günçıxana, geri — qərbə, cənuba — tabqaçların yanına və şimala — qara camaata (dağlıq

tayqa) yayıldılar. Qəhrəmanlar balbal olmaq məcburiyyətində qaldılar (yəni düşmənlər tərəfindən öldürüldülər — L. Q.) Türk xalqının adı qürub etməyə başladı. Onda Tanrı dedi: «Qoy türk xalqı məhv olmasın, qoy türk xalqı qurban getməsin».

Abidə tezliklə, 716-cı ildən sonra qoyulmuşdu və Gültəkin yazıları ilə uyarlığı təsadüfi deyildi. Güman etmək olar ki, bu üsyanın səbəblərinin rəsmi versiyasıdır.

Türk mətni türk cəmiyyətinin hakim hissəsinin nöqteyi-nəzərini ifadə etsə də, ehtimal ki, o, həqiqətə daha yaxındır. «Tanşu»dakı xəbərlərə görə Aşidenin ağsaqqalı üsyan qaldırdıqdan sonra qalan 24 dairənin ağsaqqalları da dərhal ona qoşulmuşdular. Çinlilər üçün üsyan tamamilə gözlənilməz oldu, çünki «otuz il ərzində şimal ölkələrində hərb sədaları eşidilməmişdi.». Türklərin öz xanları və öz elinin tələbi ilə çıxış etmələri göstərdi ki, Tan imperiyasının əsas ideyası — çöllə Çinin birləşməsi məsələsi baş tutmamışdı. Köçərilərin psixologiyası çinlilərinkindən o dərəcə fərqlənirdi ki, bu ideya əslində baş tuta da bilməzdi.

Türklər üsyan qaldırarkən ümidsiz avantüraya əl atmışdılar — onlar ölkənin mərkəzində idilər, hər tərəfdən düşmənlərlə əhatə olunmuşdular, onların nə arxası, nə müttəfiqləri, nə də sayca üstünlüyü vardı. Onlar özləri bunu başa düşməyə bilməzdilər, lakin buna baxmayaraq üsyan qaldırdılar. Onu da qeyd edək ki, nə Çin, nə də türk mənbələrində incikliklər və zülm haqqında heç nə deyilmir. Yazılar açıq-aşkar göstərir ki, türklər öz həyatlarını yaxşılaşdırmaq üçün deyil, qeyri adi iradələrinin təsdiqi və hakimiyyət xatirinə üsyana qalxmışdılar. Öz gücünü və zəhmətini Tabqaç dövlətinə vermək istəməyən türk xalqı deyirdi: «Yaxşısı budur, özümüzü məhv edək, kökümüzü kəsək» və onlar məhvə doğru getməyə başladılar. Yazıda aşkar bildirilir ki, türk xalqının heysiyyəti tabeçiliyi qətiyyətlə rədd edirdi. Bu tabeçilik o qədər təhqiramiz şəkildə hiss olunurdu ki, bütün türk xalqı ümumi coşqunluqla ümidsiz mübarizəyə atıldı. Bu coşqunluq o qədər güclü idi ki, başlanğıcda üsyançılar müvəffəqiyyət qazandılar. Aşin adlı xan nəslindən olan əsilzadə Nişubəyi xan qoydular, üsyanı yatırtmaq üçün gələn cəza dəstələrini darmadağın etdilər. On minə yaxın Çin əsgəri həlak oldu, yaxud əsir düşdü, qoşunun qalıqları ilə birləşərək mühasirədən çıxdı.

Üsyançıların sayı 100 minə çatırdı. (Aydındır ki, söhbət şərti, yəni Çin hesablamasından gedir, deməli burada 12 min rəqəmi daha realdır). Növbəti 680-ci ildə üsyanı yatırtmağa göndərilən ordu say etibarı ilə üsyançılardan üç dəfə çox idi. Türklər həmin ordunun arxasına keçib içində ərzaq olan arabaları dağıtdılar. Bu səbəbdən də Çin əsgərləri aclıq keçirməyə başladılar. Lakin təcrübəli sərkərdə Pey Xink-yan tələ hazırladı: o, təchizat arabalarını zəif nəzarət altında düşmənin əlində olan əraziyə göndərdi. Türklər keşikçiləri qovub dağıtdılar və arabaları talan etməyə başladılar. Onda müəyyən məsafə ilə təchizat arabalarının arxasınca gələn seçmə qoşunlar hücuma keçdilər və üsyançıları axırıncı nəfərinə kimi məhv etdilər.

Bu hadisə tezliklə hər yerə yayıldı və bundan sonra çinlilərin təchizat arabaları maneəsiz döyüşən orduya ərzaq daşıya bilirdi.

Təşəbbüsü ələ alan Pey-Xinkyan qoşunlarının sayca üstünlüyündən istifadə etdi və Xeyşan dağı yaxınlığında üsyançıları mühasirəyə aldı. Döyüş müxtəlif xırda toqquşmalara çevrildi, onların hamısında da çinlilər qalib gəldilər. Onda üsyançıların sırasındakı qorxaqlar dərhal özlərini büruzə verdilər və 680-ci ilin yazında xanın başını gətirərək itaət etdiklərini bildirdilər. Lakin inadkarlar mübarizəni davam etdirirdilər. Onlar Sarı çayın o biri tərəfinə keçdilər və hakimiyyətini bütün tayfaların tanıdığı əsilzadə Funyanı xan elan etdilər. 681-ci ildə türklər yeni yürüşlərə çıxdılar, Xin-kyan yenə də onların üstünə getməli oldu. Türklər «Qara qumlara» tərəf çəkildilər və Çin kəşfiyyatının məlumatına görə aclıq çəkirdilər. Bu az imiş kimi üsyançıların sırasında həm də münaqişələr başlanmışdı: xanla tayfa başçısı olan Vınbeq yola getmirdilər. Üsyançıların qüvvələri parçalandı. Lakin buna baxmayaraq yüngül Çin dəstələrindən biri elə müqavimətə rast gəlmişdi ki, sərkərdə qoşunu atıb qaçmalı olmuşdu. Sərkərdələrinin başsız qoyduğu döyüşçülər də qaçdılar, öldürülənlər isə «üzü günçıxana tərəf uzanmışdılar».

Funyanın düzgün taktikası vardı—o, düşməndən uzaqlaşmağa çalışaraq şimala tərəf çəkilirdi. Lakin onun içərisində arvad-uşaqları olan arabaları Xin-kyanın yüngül süvari dəstəsi tərəfindən ələ keçirilmişdi. Ac və üzgün üsyançı dəstələri şimala çəkiləndə nizami atlı dəstələri onları haqladılar. Uğursuzluqlar üsyançıları ruhdan salmışdı. Funyan isə başqa bir çıxış yolu görmürdü. Çünki uyğurlar da düzənliyin şimalında türkləri əldə silahla qarşılamağa hazırlaşırdılar. Özünün və silahdaşlarının əfv ediləcəkləri barəsində vəd alan Funyan təslim oldu. Lakin çinlilər vədlərini yerinə yetirmədilər. Çanyanın Şərq meydanında üsyan başçıları edam edildi. Xalq üsyanı süvari qoşun dəstələrinin təpiyi altında qanda qərq edildi.

Böyük türk yazısı tarixin bu səhifəsi haqqında çox tutqun məlumat verir: «və onlar məhvə getməyə başladılar». Lakin Tonyukuk abidəsində bu barədə daha geniş məlumat verilir: «Öz xanı olmayan türk xalqı Tabqaç dövlətindən ayrıldı, öz xanı olan xalqa çevrildi, sonra yenidən öz xanını qoyub Tabqaç dövlətinə tabe oldu. Göy, yəqin ki, belə demişdi: «mən sənə xan verdim, sən isə öz xanını qoyub başqasına tabe oldun. Bu tabeçiliyə görə də, güman etmək olar ki, göy səni öldürdü, məhv etdi». Türk xalqı zəiflədi, gücsüzləşdi, yox oldu». Çin və türk versiyaları uyğun gəlir.

İndi nə baş verdiyini aydınlaşdırmağa çalışaq. Üsyan kütləvi xarakter daşıyırdı, xalq üsyanı idi. Onun aqibəti də bütün analoji hərəkatıların aqibəti kimi oldu. Türklərin nə intizamı, nə də hazırlıqlı hərbi başçıları vardı. Onlar tam şəkildə özlərinin sürətli keçidlərə qabil olmayan arabalarından asılı idilər. Həmin arabalar isə öküz qoşulmuş arabalardan ibarət idi. Düşmənlər isə onları hər tərəfdən əhatə etmişdilər. Xalxedəki uyğurlar, yaxud doqquz oğuzlar imperatorun sədaqətli

xidmətçiləri idilər, çünki onların başına aramsız olaraq hədiyyələr və mükafatlar yağırdı. Türklərin varlığını didən itirilmiş əzəmət haqqındakı xatirə uyğurlarda yox idi. Azadlıqsevər uyğurlar hələ qüdrətli dövlət yaratmamışdılar və buna can atmırdılar. Tibetlilər isə uzaqda idilər. Üsyan əvvəlcədən məhkum edilmişdi, lakin o yeni formalarda davam edirdi.

**Üsyan genişlənir.** Türklərin darmadağın edilməsindən bir il keçməmişdi ki, müharibə yeni rəhbərlərin başçılığı altında yeni şəkil aldı. Əgər əvvəllər üsyanın başçıları öz qohumlarını arxalarınca aparan ağsaqqallar idisə, bu dəfə həmin vəzifəni əsilzadələr və Çin təhsili görmüş ziyalı türklər öz üzərlərinə götürmüşdülər. İndi bunun necə baş verdiyinə baxaq. «Tanşu» aşağıdakıları xəbər verir: «...682-ci ildə Qudulu (Qutluğ) da üsyan etdi. Qudulu Xanlı Yuanın nəslinin başçısı olan Xyelievin (Qat İlxan) uzaq qohumu idi. O, irsən tutun (tutun - qədim türklərdə zabit rütbəsidir) rütbəsi almışdı.

Funyanın süqutundan sonra hamı qaçıb dağılışdı. Onlar Tsuntsyanşan dağının yaxınlığında bir yerə toplaşdılar və burada Xeyşaçen şəhərciyini saldılar. Onların sayı 5000 nəfəri aşmışdı. Qudulu doqquz nəsli (yəni uyğurları, yaxud doqquz oğuzları) çapıb taladı, tezliklə onun ilxılarının sayı çoxaldı və bundan sonra Qudulu özünü xan elan elədi. Kiçik qardaşlarından Moçjoya (Moçur) şad, Dusifə (Tüzel bəy) isə yabqu rütbəsi verdi. Aşide Yuan-çjen (Çin təhsilli türk) Van ven-li tərəfindən həbsə alındı. İş elə gətirdi ki, Qudulu basqın etdi. Yuan çjen günahlardan təmizlənməyi təşviq etməyə icazə istədi. Ona icazə verildi. Bütün tayfalar itaətə gələn kimi Qudulu onlarla gizli ittifaqa girdi, bunun da nəticəsində bütün abqo və daqanlar (tarxanlar) sıravi əsgərlər kimi qulluğa cəlb olundular». Mətnin mənası aydındır. Qutluğ «qanlı keçmiş dostlarının» elə hissəsinə mənsub idi ki, onlar imperator ordusunda xidmət zamanı nələri isə öyrənmiş, nələri isə unutmuşdular. Üsyan zamanı o, hərbi işə öyrədilməmiş kütlələri dəmir geyimli döyüşçülərin nizələrinə hədəf etmək əvəzinə heç nədən şübhələnməyən uyğurlara hücum etdi və onların gələcək partizan müharibəsi üçün zəruri olan bir ilxı atlarını apardı. O, köhnə rütbələr sistemini bərpa etdi və aydın məsələdir ki, intizam yaratdı. Kütlələri mənasız surətdə səfərbərliyə almaq əvəzinə o, öz dəstələrini hələ hərbi vərdişlərini tərgitməmiş əyanlardan tərtib etdi. Bu da partizan müharibəsi aparmağa imkan yaratdı. Daha mühüm bir fakt: Qutluğ Çin təhsili almış adamları—Aşide Yuan-çjeni və Tonyukuku öz dəstəsinə qəbul etdi və onların xidmətlərindən istifadə elədi. Belə adamlar düşmənin zəif yerlərini və onu necə darmadağın etməyin yollarını bilirdilər. Doğrudan da tezliklə müharibənin gedişi dəyişdi.

İndi baxaq görək türklər özləri İltəris—xaqan adlı dəbdəbəli titul qəbul edəndən sonrakı fəaliyyətini necə təsvir edirlər: «Xaqan on yeddi kişi ilə səfərə çıxdı. Onun xaricdə (yəni Çinin özünün sərhədlərindən kənarda) olduğunu eşidən şəhərlərin sakinləri dağlara qalxdılar, dağların sakinləri şəhərə düşdülər, birləşib yetmiş kişidən ibarət bir dəstə yaratdılar. Səma onlara qüvvə bəxş etdiyindən

mənim atamın-xaqanın qoşunları canavar, onun düşmənləri isə qoyun timsalında idilər. Qoşunları ilə birlikdə qabağa (yəni şərqə) və arxaya (yəni qərbə) hərəkət edərək o, xeyli adam ayağa qaldırdı və topladı. Tezliklə onun dəstəsində 700 kişi vardı. Döyüşçülərin sayı 700 nəfərə çatanda o, xalqın arasında qayda-qanun yaratdı və onlara hərbi təlim keçməyə başladı öz əlini (dövlətini) və xaqanını itirən, kölə və kənizə çevrilən, türk qayda-qanunlarını ləğv edən. O, hər şeyi sahmana saldı və əcdadlarının qanunları əsasında qurdu. Bundan sonra o, xalqa tolis-tarduş quruluşu verdi, bundan sonra yabqu və şadaları təyin elədi».

Hadisələrin türk şərhi Çin məlumatları ilə üst-üstə düşür. Yalnız döyüşçülərin sayı düz gəlmir. Çinlilər onların miqdarını 5 min nəfər göstərirdilər. Güman etmək olar ki, çinlilərin gətirdiyi rəqəm daha dəqiqdir, çünki yeddi rəqəminin ardıcıl şəkildə təkrarlanması onun Qutluğun atlılarının həqiqi sayını bildirməyə imkan verməyən mistik xarakteri haqqında düşünməyə əsas verdi.

Tonyukuk abidəsi də bundan az əhəmiyyət kəsb etməyən detalları və cizgiləri aşkara çıxarır: «Mən özüm, müdrik Tonyukuk Tabqaç dövləti üçün tərbiyə olunmuşam, çünki bütün türk xalqı Tabqaç dövlətinin tabeliyində idi». Aşide Yunan-çjen kimi Tonyukuk da ziyalı türk idi. Təbii ki, bu iki yüksək savadlı müşavirin məsləhətləri üsyanın müvəffəqiyyət qazanmasında az rol oynamamışdı. Xalq hərəkatının darmadağın edilməsini Tonyukuk belə təsvir edir: «daşların və ağacların arasında tənha qalanlar birləşdilər və onların sayı 700 nəfərə çatdı. Onların iki hissəsi atlı, bir hissəsi isə piyadalar idi (son dərəcə qiymətli məlumatdır. Bu məlumat ötən müharibədə türklərin zəif manevr etmələrinin səbəblərini və partizan müharibəsi üçün son dərəcə zəruri olan ilxı ələ keçirməkdən Qutluğun xidmətini müəyyənləşdirməyə əsas verir — L. Q.) 700 adamı öz arxasınca aparanların böyüyü rütbəcə şad (xan nəslindən olan) idi. O dedi: «Mənə qoşul!» Mən, müdrik Tonyukuk da ona qoşulanlardan idim. Mən ürəyimdə fikirləşirdim ki, ona xaqanlıq arzulamaya bilərəmmi? Mən fikirləşirdim: əgər gələcək xan ümumiyyətlə kök və arıq öküzlərin mövcudluğundan xəbərdardırsa, o, hansının kök, hansının isə arıq öküz olduğunu bilmir (Tonyukuk incə bir şəkildə Qutluğun adamları yaxşı tanımadığına və onları ləyaqətlərinə uyğun surətdə qiymətləndirmədiyinə işarə edir — L. Q.). Səma mənə bilik bəxş elədiyindən xanın qabiliyyətinin azlığına baxmayaraq mən özüm onun xan olmasını istəyirdim. Ey xan! Müdrik Tonyukukun boyla baqa tarxan (dövlət müşaviri) olduğu yerdə mən İltəris də xan olacağam». Tonyukukun özünü əyməsini bir tərəfə qoysaq, burada gətirdiyimiz mətn əvvəldə istinad etdiyimiz mətnlərlə uyğun gəlir və üsyanın bütün mənzərəsi bizim gözlərimiz qarşısında canlanır.

Qeyd etmək lazımdır ki, çinlilər özləri də türk üsyançılarına əməlli başlı dəm tuturdular. Funyanın üsyanını yatıran bacarıqlı və təcrübəli sərkərdə, ədalətliliyinə, ehtiyatlılığına və qərəzsizliyinə görə döyüşçülərin məhəbbətini qazanan və həmişə sıravi əsgərlərin həyatını qoruyan Pey Xin-kyan imperatorun qəzəbinə gəldi və həyatını sürgündə tamamladı. Onu tezliklə bacarıqlı sərkərdə ilə

əvəz etmək mümkün olmadı, üsyançılar isə özlərinə gəlmək üçün vaxt qazandılar və həmin vaxtdan təzədən təşkil olunmaq üçün istifadə etdilər.

**Sərhəd müharibəsi.** Bütün 682-ci il Qutluğun öz dəstələrini təşkil etməsinə həsr olundu. 683-cü ildə o, fəaliyyətə başladı. Türk süvariləri ildırım sürətli zərbə ilə Ordosdan başlayaraq Şərqə doğru Böyük sədd boyunca bütün möhkəmləndirilmiş Çin xəttini demək olar ki, darmadağın etdi və heç yerdə nizami orduların zərbəsi altında qoymadı. Türklər beş hərbi dairəni dağıtdılar və yalnız birində - altıncıda geriyə oturdular. Şanyu canişinliyi mühasirəyə alındı, sonrakı üç il ərzində məmurlar və əsgərlərin bu ərazidə hərəkəti qeyri-mümkün idi.

Çində baş verən dövlət çevrilişi də türklərin müvəffəqiyyətinə kömək etdi. Dul imperatriçə U-xou oğlu Cuntsunu tutdurdu və ona knyaz titulu verərək Mərkəzi Çinə sürgün etdi.

Həmişə belə hallarda olduğu kimi, vəliəhdin də tərəfdarları tapıldı. Onları cəzalandırmaq lazımdı. Ona görə də türkyutlarla məşğul olmağa vaxt yox idi. Yalnız 686-cı ildə sərkərdə Şun-yuy Kxyanpin üsyançıların üzərinə getdi. O, üsyançıların Tsuntsayşan dağları yaxınlığındakı möhkəmləndirilmiş düşərgədə yaşayan ailələrini ələ keçirmək istəyirdi. Qutluq düşmənin qarşısına çıxdı. Sinçjouda (Şan-si əyaləti) qanlı vuruşda çinlilər darmadağın edildilər. Onların itkisi beş min nəfərdən çox idi.

Bu məğlubiyyətin cavabını vermək lazım idi. Voevoda Çan-çjinin başçılığı ilə türklərin üzərinə böyük hərbi qüvvə göndərildi. Çan-çji ən istedadlı Tan generallarından biri idi və Tibetə qarşı müharibədə öz igidliyi, fiziki qüvvəsi və hərbi fərasəti ilə əməlli-başlı ad çıxarmışdı.

Çan-çji bütün ciddiyyəti ilə işə girişdi. 687-ci ildə Xuanxuadue döyüşündə türklər darmadağın edildilər. Çin süvariləri onları təxminən 20 kilometr qovdular. Lakin türklər düşmənlərinin təqibindən xilas oldular və Böyük çölə getdilər. Çan-çjinin tabeçiliyindən olanlardan Tsuan Bao-bi adlı birisi yeni rütbə almaq ümidi ilə sərhəddi keçdi və casuslar vasitəsi ilə türklərin düşərgəsini tapdı. Bao-bi onlara qəfil zərbə endirmək istəyirdi, lakin türklər düşmənin yaxınlaşmasından xəbər tutdular və dərhal döyüş cərgələrinə düzüldülər. Çinlilər cəsarətlə döyüşürdülər, lakin buna baxmayaraq darmadağın edildilər. Qaçmağa imkan tapmış başçıdan başqa bütün Çin korpusu məhv edildi.

Döyüş kampaniyası başa çatdı, həm də qeyd etmək lazımdır ki, çinlilərin məğlubiyyəti ilə başa çatdı. Üsyankar köçəriləri Sarı dağdan Altay dağlarına qovmaq əslində xərçəngi suya buraxmaq kimi bir şey idi. Türklər görünməmiş mətinlik və inadkarlıq nümayiş etdirdilər, məğlubiyyət onların sıralarını parçalamadı, əksinə, daha da möhkəm birləşdirdi. Mübarizə ehtirası sönmədi, bu isə türk xaqanlığının bərpasına gətirib çıxaran hadisələrin gedişini müəyyənləşdirdi. Çinlilərin özləri üçün türklər artıq əlçatmaz idilər. İndi çinlilər özlərinin Böyük Çin səddi arxasındakı müttəfiqlərinin, ilk növbədə isə uyğurların qüvvələri ilə fəaliyyət göstərməli olmuşdular.

Belə bir sual ortaya çıxır: nə üçün imperiya qoşunları üsyançıların qoşunlarının uzaq səfərlərə yaxşı uyğunlaşmış süvari dəstələrindən ibarət olmasına baxmayaraq, onları təqib etməkdən və axırıncı nəfərə qədər qırmaqdan əl çəkdilər? Bəli, bir vaxtlar çinlilərin belə bir süvari dəstələri vardı, lakin 689-cu ildə onların hamısı tibetlilərin zərbələri altında məhv olmuşdular. Yunnani cəngəlliklərindən Xuanxenin qayalıq sahillərinə, Turfanın qızmar qumlarına və Mərkəzi Tyan-şanın meşəli zirvələrinə qədər uzanan Tibet cəbhəsi çinlilərin bütün ehtiyat qüvvələrini udurdu. Sayca az və hələ vəhşi Tibet 693-cü ilə qədər hələ Qərb ölkəsinin vadilərini öz əlində saxlayırdı və 700-cü ilə qədər əsas Çin qüvvələri Qamsu və Sıçuanda tibetlilərlə vuruşurdular. Qutluğun dəliqanlı oyununun müvəffəqiyyətini təmin edən əsas amillərdən biri bu idi.

**Qərbdə.** Qutluğun üsyanı ilə eyni vaxtda analoji üsyanın qərb türkyutları arasında başlamasını təsadüfi saymaq olmaz. 673-cü ildə Kaşqar şəhərinin və İssık-Kul gölündən şərqdə yaşayan qun-yue adlı türk tayfasının könüllü tabeçiliyi sayəsində imperiyanın sayca o qədər də böyük olmayan qüvvələri Mərkəzi Tyan-şanı əldə saxlayırdı. Tamamilə gözlənilməz halda Qərb türkyutları qun-yue tayfasına hücum etdilər və onların «paytaxtını» — yəni yerli knyazın möhkəmləndirilmiş qərargahını mühasirəyə aldılar. Üsyançıların başında Aşina Kibu-çur adlı birisi dayanırdı. Familiyasına görə o, xan nəslindən idi, lakin taxt-taca birbaşa hüququ yox idi. Bu sonuncu amil mühüm əhəmiyyətə malikdir. Aydın olur ki, Kibu-çurun hərəkatı hakimiyyətdən uzaqlaşdırılmış xanzadələrin şəxsi-qərəzliyi deyil, xalq hərəkatı idi. Şərq və qərbdəki üsyanların eyni vaxta düşməsinin təsadüfliyi çətin ki, şübhə doğursun. Böyük karvan yolu ilə daimi əlaqə saxlanırdı, 2 min kilometr isə süvari emissar üçün o qədər də böyük məsafə deyil. Üstəlik nəzərə alanda ki, yolda onun həmyerliləri yaşayırdılar və o, tez-tez atlarını dəyişmək imkanına malik idi, bu qənaət daha da möhkəmlənir.

Kibu-çur qun-yue tayfasından şimalda və Balxaş gölündən şərqdə yaşayan yanmyan adlı Teles tayfasını da öz tərəfinə çəkə bilmişdi.

Həm şərqdə, həm də qərbdə türklərin azad edilməsi işi özünün yeni mərhələsinə qədəm qoydu. Əvvəlcədən düşünülmüş sui-qəsdin mövcudluğu heç bir şübhə doğurmur. Lakin qərb türkləri sıxışdırılan müttəfiqlərinə köməyə gəlmiş nizami imperiya qoşunlarının müqaviməti ilə qarşılaşdılar. Cəsur və yorulmaz zabit Van Fan-i türkləri İli çayına tərəf sıxışdırdı və orada Kibu-çuru qəti məğlubiyyətə uğratdı. Türklər min nəfər itirdilər, lakin yanmyanların qəfil hücumu əldə olunmuş müvəffəqiyyəti təhlükə altında qoydu.

İssık-Kul yaxınlığındakı döyüşdə teleslərin piyada atıcıları imperiya qoşunlarını elə sıxışdırdılar ki, Çinə xidmət edən köçərilər öz sərkərdələrinin başını gətirməklə özlərini xilas etmək qərarına gəldilər. Sui-qəsddən xəbər tutan Van Fan-i onun başçılarını öz düşərgəsinə çağırdı. Burada onların əl-qollarını bağladılar. Kömək çağırışlarını batıran şeypur və baraban səsləri altında 70 nəfər üsyançının

boynu vuruldu. Bundan sonra imperiya süvarilərinin qəfil hücumu yanmyanları darmadağın etdi və onların yuvasını dağıtdı. Bununla da hər şey başa çatdı.

Mahiyyətcə Kobu-çurun və Qutluğun üsyanı eyni tipli idi. Lakin onlardan birincisi dərhal yatırıldı, ikincisi isə həqiqətən də böyük müvəffəqiyyətlə nəticələndi. Buna səbəb nə idi? Əlbəttə, həmin səbəbi qətiyyən türklərin özlərində axtarmaq lazım deyil. Qərb ucqarlarında Tan imperiyasının ilk illərinin ənənələri hələ qüvvədə idi, Çinin özündə isə artıq yadelli sülaləyə qarşı güclü qüvvələr fəaliyyətə başlamışdılar. İmperatriça U-nun (U-Xou) devrilməsi bu tendensiyanın ifadəsi idi.

**İmperatriçə U.** Tan sülaləsi iki simalı idi. Onun banisi Li Yuan çinliləşmiş türk idi və öz köçəri adətlərindən əl çəkməmişdi. Onun davamçıları da özünə bənzəyirdilər və hakimiyyətə öz adlarını gətirdilər. Taytsunu çinli alimlərlə birlikdə uyğur hakimi, təkqollu Kibi Xeli və türk şahzadəsi Aşina Şeni kimi türk bahadırları da əhatə edirdilər. Sonrakı hökmdar Qaotszun artıq sırf Çin təhsili almışdı. Məhz onun hakimiyyəti illərində sərhədyanı qoşun başçılarının hərbi məharəti ilə Çin zərifliyinə aludəçilik arasında konflikt meydana çıxdı.

637-ci ildə imperatorun varisi atasının gözəl cariyəsinə vuruldu. İmperator ölən kimi onun arvadları buddist monastırına göndərildi. Burada onlar başları tərtəmiz qırxılmış halda öz ömürlərini başa vurmalı idilər. 650-ci ildə monastıra gələn yeni imperator Qaotszun öz gözəl cariyəsini gördü və onun məhəbbəti yeni qüvvə ilə üzə çıxdı. Öz rəqibələri ilə mübarizədə müttəfiq qazanmaq istəyən sonsuz imperatriçənin razılığı ilə həmin cariyəni imperatorun hərəmxanasına qatdılar. Bu, intriqalar aparmaq üçün imperatriçəyə geniş meydan açdı. Tezliklə o, həmin sahədə böyük məharət göstərdi.

654-cü ildə Qaotszun tam şəkildə onun təsiri altına düşərək həmin cariyəni imperatriçə elan etdi. Yeni imperatriçə öz rəqiblərinə amansız divan tutdu — onları məhkəməsiz, hökmsüz dörd parça etdilər, şərab içində boğdular. Bunun ardınca imperator ailəsi üzvlərinin və Tan sülaləsinin yüksəlməsinə kömək edən yaxın adamların zəhərlənməsi, sürgünü, edamı, qovulması, gözdən salınması başlandı. Bu da təsadüfi deyildi — Çin əsilzadələrinin yadelli saydığı sülaləyə qarşı görünməz nifrəti aşkara çıxmış və özünə layiqli rəhbər tapmışdı. Ərinin iradəsini ələ alan imperatriçə hər cür müqaviməti yatırır, siyasət və mədəniyyətdə çinlilərin üstünlüyü ideyasının dirçəldilməsini hazırlayırdı. Qaotszunun ölümündən sonra imperatriçə müstəqilliyə meyl göstərən oğlunu taxtdan saldı və hakimiyyəti öz əlinə aldı. 684-cü ildə Tan sülaləsindən olan bir neçə şahzadə sui-qəsddə ittiham edildi və edam olundu. İmperatriçənin dövlət çevrilişinə kömək edən tərəfdarları da ölümdən xilas ola bilmədilər. Bu ona hakimiyyəti başqaları ilə bölüşmək zərurətindən xilas olmaq imkanı verdi.

Lakin o, kimin üçün yol açırdı? Xoşbəxtlərdən birincisi buddist icmasının başçısı oldu. Bunun da nəticəsində Çində buddizmin təsiri əhəmiyyətli dərəcədə artdı.

Bunun ardınca hərbi aristokratiyaya mənsub olmayan, lakin vəzifələri yüksək qabiliyyət nümayiş etdikləri sınaqlar vasitəsi ilə əldə edən adamlar irəli çıxdılar. Təbii ki, bu qılıncdan daha çox fırça tutmağı bacaran çinlilər idilər. Onlar sərhədyanı qoşun başçılarını hakimiyyətdən sıxışdırdılar. Qılıncla necə rəftar etməyi çox yaxşı bilən bu sonuncular isə ölkə hüdudlarından kənarda aparılan müharibələrin taleyini həll edirdilər, imperatriçənin hakimiyyətindən inciklik təbii ki, onları daha yaxşı döyüşməyə ruhlandırmırdı. Doğrudur, imperiya qoşunları silahı yerə qoymadılar, lakin onlar həvəssiz və candərdi vuruşmağa başladılar.

689-cu ildə Tan sülaləsi ləğv edildi, həmin il oktyabrın 16-da imperatriçə imperator titulu qəbul etdi. Buddistlər dərhal U-nun Buddanın qızı olması və Tan sülaləsinin hakimiyyətinin irsən ona çatması haqqında əsər yazdılar. İmperatriçə minnətdarlıq əlaməti olaraq ölkənin bütün şəhərlərində buddist məbədləri tikilməsi barəsində fərman imzaladı.

Aydındır ki, çevriliş, edamlar, buddizm təbliği və Tibet müharibəsi Çin cəmiyyətinin diqqətini o qədər cəlb etmişdi ki, Xanqaya qaçan türklər onun yadına düşmürdü.

Bütün bunlar məcmu şəkildə türk xaqanlığının yaranması imkanını müəyyənləşdirdi.

**Türklər və uyğurlar.** Türk dəstələrinin Xalxda görünməsi bütün Xanxay canişinliyini bir-birinə qatdı. Xalxunun sakinləri - başıaşağı öz sürülərini otaran və çinlilərdən peşkəşlər alan doqquz-oğuzlar və digər Teles tayfaları başa düşdülər ki, artıq onların sərbəst həyatına son qoyulub.

Ac-yalavac qaçqınlar öz qonşularını soyub-talamaya bilməzdilər. Üstəlik də bu qonşular düşmənlərinin sadiq təbəələri idilər. Təbiidir ki, bütün çöl tayfaları türklərə qarşı ən qəti mübarizəyə hazırlaşmalı idilər. Türklər özləri də bunu çox gözəl başa düşürdülər: «Həndəvərimizdəki qonşularımız yırtıcı quşlar idilər, biz isə onlar üçün leş idik» — deyə Tonyukuk yazır. «Onda Çindən şimal tərəfdə beqlərin, oğuzların içərisində yeddi qüdrətli kişi bizim düşmənimiz oldu» — deyə Alp Eletmiş öz cavanlığını və həmin müharibədə iştirakına görə şad rütbəsi almış atasının mənsəb yolundakı inkişafını xatırlayaraq xəbər verir. Yolluq təkin daha dəqiqdir: «Sağda (cənubda) Tabqaç xalqı düşməndir, solda (şimalda) doqquz-oğuz xalqı (Baz xaqanın rəhbərliyi ilə) düşmən idi, qırğızlar, kurıkınlar, otuz-tatarlar, kıtaylar (kidanlar), tatablar (xi) — hamısı düşmən idilər». Əlavə izahata ehtiyac yox idi — vəziyyət get-gedə daha dəhşətli xarakter alırdı.

Təşəbbüsü doqquz oğuzların «Tanşuda» Bili adlandırılan Baz-kağanı öz əlinə aldı. O, Çinə və kidanların yanına Qutluğ üzərinə birgə hücuma keçmək təklifi ilə nümayəndələr göndərdi. Hərbi dispozisiyaya görə çinlilər cənubdan, kidanlar şərqdən, uyğurlar isə şimaldan hücuma keçməli idilər. Günbatarda qərb türklərinin on ox türkləri deyilən qalıqları yaşayırdılar. Onlar elə bir düşkünlük içərisində idilər ki, heç kəs on ox türklərini ciddi müharibəyə səfərbər etməyi mümkün saymırdı. Casuslar bütün bunlar barəsində Qutluğun qərargahına xəbər

gətirdilər. Qutluğ Tonyukukun planını qəbul etdi. Bu plana görə türklər özləri hücuma keçməli və ən zəif müqavimətin gözlənildiyi qərbdə zərbə endirməli idilər, qalan düşmənlərlə isə bundan sonra növbə ilə hesablaşmaq lazım gələcəkdi. Çətinlik yalnız bir məsələdə idi — iki cəbhədə vuruşmaq üçün türklərin vur-tut iki-üç min döyüşçüsü var idi.

Lakin Qutluğ riskə getdi. O, Aşide Yuan-çjenin komandanlığı ilə min nəfər döyüşçünü Aralyanı düzənliyi—Kurdanı ələ keçirməyə göndərdi (çox güman ki, türklər özlərini haqlamaqda olan düşməndən Qərbdə gizlənmək istəyirdilər), iki min atlı isə Tonyukukun başçılığı ilə şimala, artıq hücuma keçmiş doqquz-oğuzların üstünə getdi. Həmişə birgə tədbirlərdə olduğu kimi çinlilər və kidanlar öz qoşunlarını vaxtında çıxarmadılar.

Tonyukuk Baz—kağandan daha sürətli hərəkət edirdi və hər iki qoşun Toqla (Tola) çayı üzərində qarşılaşdılar. Uyğurların sayca 6 min nəfər olmasına baxmayaraq türklər onları çaya tökdülər və qaçanları təqib edərək doğramağa başladılar. Baz-kağan həlak oldu, doqquz-oğuz xalqı isə türk xanına tabe oldu.

Lakin Qərbə yollanan dəstənin bəxti gətirmədi. Çünki elə bu ərəfədə türkeş tayfasının güclənməsi başlanmışdı. Türkeşlər Çu və İli çayları arasındakı ərazini tutur və qərbə türkyut xanlarına tabe olurdular. Türkeşlərin tayfa başçısı Uçjile baqa-tarxan (çin mətnində moxe-daqan) titulu daşıyırdı. Qərbi türkyut xanları həmin dövrdə artıq Tan hökumətinin məmurları olmağa başlamışdılar, bu isə təbiidir ki, təbəələr arasında onların nüfuzlarının artmasına imkan vermirdi. Diribaş Uçjile imperiyadan narazı olanların böyük qismini öz tərəfinə çəkə bildi. «Tanşu» onun qoşunlarının sayını çox böyük rəqəmlə ifadə edir: 140 min nəfər. Doğrudur, bu rəqəm 689-cu ilə aiddir. 688-ci ildə onlar yəqin ki, bundan qat-qat az idilər (çinlilərin «çoxalma əmsalı 9—10-na çatır).

Özünün qərbə doğru hərəkətində Aşide Yuan-çjen türkeşlərlə üzləşdi və döyüşdə həlak oldu.

Beləliklə, məlum oldu ki, qərb türklər üçün bağlıdır, şimaldan isə yalnız sığınacaq kimi istifadə edilə bilər. Ona görə də Qutluq ordusunu Ötukenə — Xanqayın yamaclarındakı dağ tayqasına apardı. Burada, dərələrdə və pöhrəliklərdə türklər imperiyanın zirehlilərindən qorunurdular, onlar burada öz dağıdıcı yürüşləri üçün baza yaratdılar. Bunun da nəticəsində ikinci xaqanlıq meydana çıxdı.

Çöl uğrunda mübarizə Toladakı qələbə ilə başa çatmadı. Kitabəyə görə Qutluğ 47 dəfə yürüşə çıxmış, 20 dəfə döyüşə girmişdi, «o, düşmənlərini sülhə məcbur etmiş, dizi olanları diz çökməyə, başı olanları təzim etməyə məcbur etmişdi». Bu bəyanatın haradan meydana çıxması haqqında yalnız gümanlar irəli sürmək olar. Ehtimal ki, Qutluğ Xalxunu özünə tabe etmişdi, lakin nə qərbdə — Orta Asiyada, nə şərqdə — Mancuriyada o, heç nə əldə edə bilməmişdi. 693-cü ildə Qutluğ öldü və hakimiyyət onun qardaşı Moçura (Çin mənbələrində Moçjoya) keçdi. O, Qapağan xaqan titulunu qəbul etdi. 693-cü il eyni zamanda Çin silahı

üçün böyük müvəffəqiyyət ili oldu — nəhayət tibetlilər Qərb ölkəsindən sıxışdırılıb çıxarıldılar.

İmperiyanın sərt nəfəsini hiss edən qərbi türklər 594-cü ildə şahzadə Aşina Suytszının başçılığı ilə üsyana qalxdılar, lakin Danlin-çu yaxınlığında darmadağın edildilər.

Bunun ardınca üsyana qoşulmuş türkeşlər darmadağın edildilər, Nişumus şəhəri isə Tibet işğal ordusundan geri alındı. «Qərb ölkəsi» tamamilə itaətə gətirildi. Lakin burada da knyaz Çjangenin gətirdiyi türk qoşunlarının böyük rolu oldu. Çox güman ki, bu qoşunun tərkibindəkilər üsyana qoşulmayan Ordos türkləri idilər.

**Proqram.** Beləliklə, yalnız türklər nizami imperiya ordusu ilə mübarizəyə davam gətirdilər. Belə bir sual meydana çıxır: onlar buna necə nail oldular, düşmən önündə silahı yerə qoymamaq üçün Qutluğla birlikdə bütün səhradan keçib geri çəkilən silahdaşlarının, həmfikirlərinin ideologiyası nə idi? Çinə bu mənfi münasibətin müəyyən izahını biz Yolluqtəkinin öz babası, Qutluğ İltəris xaqan adından tərtib etdiyi kitabədə tapırıq: «Bizə qeyri-məhdud miqdarda qızıl, gümüş, spirt (yaxud taxıl) və ipək verən tabqaç xalqının nitqi şirin, zinət şeyləri isə «yumşaq» idi; onlar öz şirin dillərini və cah-cəlallı zinət şeylərinin köməyi ilə uzaqda yaşayan xalqları da özlərinə cəlb edirdilər. Onlar isə yaxına keçən kimi səfeh əllaməçiliyi qəbul edirdilər». Yollıqtəkin burada Çin mədəniyyətinin köçəri məişətinə nüfuz etməsinə qarşı çıxır. Həm də o, maddi mədəniyyəti Çin ideologiyasının beyinlərə yeridilməsi kimi nəzərdən keçirir. Elə təəssürat yaranır ki, o, barbarları məhz bu yolla zərərsizləşdirməyi məsləhət görən Konfutsinin əsərlərini oxumuşdur.

Daha sonra Yollıqtəkin nəticələri göstərir: «Onun şirin dili və cah-cəlallı zinət şeyləri ilə özünü şirnikləndirməklə, ey türk xalqı, böyük sayda itkilər verdin... pis adamlar, mənhus adamlar türk xalqının bir qismini belə öyrədirdilər. Ona deyirdilər: «kim uzaqda yaşayırsa, ona pis hədiyyələr verirlər, kim yaxında yaşayırsa, ona yaxşı hədiyyələr verirlər». Bu sözlərlə o, səni belə öyrədirdi. Siz isə, ey müdrikliyi çatışmayan adamlar, şirin dillərə aludə olub yaxına gedir və orada böyük sayda qırılırdınız».

Lakin onlar necə qırılırdılar — axı onlar hamısı bollu qiymətli şeylər hədiyyə alırdılar. Müəllif cavab verir: hədiyyələrin müqabilində hərbi xidmətə yollanmaq lazım idi, yəni başqalarının mənafeyi üçün vətəndən uzaqlarda ölmək lazım idi. «Sən, ey türk xalqı bütün ölkələri gəzib-dolaşmağa başladın və orada əldən-dildən düşdün, üzüldün. Siz isə, ey sağ qalanlar, ölə-ölə, dirilə-dirilə bütün ölkələri gəzib dolaşırdınız».

Yollıqtəkin düz qeyd edir ki, öz fərdi simasını qoruyub saxlamaq istəyən xalq xidməti müqabilində nə qədər verirlərsə versinlər, muzdlu əsgərə, yaxud cəza dəstəsinin döyüşçüsünə çevrilməməlidir. Bu cür «silahdaşları» sahiblər kandardan içəri buraxmırlar, onlar nə qızılla, nə də ipəklə öz mütiliklərini ört-basdır edə

bilərlər. Mərcimək şorbasına görə özlərini satanların ideologiyasına qarşı o, utopiya deyil, real proqram -xaqanlığın bərpa edilməsini qoyur: «Ey türk xalqı, sən bu tərəfə gedəndə uçurumun kənarında dayanmış olursan, sən Ötüken ölkəsində qala-qala karvanları xərac dalınca göndərəndə isə heç bir dərdi-sərin yoxdur. Sən Ötükendə qalanda yaşaya bilərsən, öz dövlətini yarada bilərsən, onda sən ey türk xalqı, tox olursan».

Daha sonra Yollıqtəkin göstərir ki, bu proqram nəinki mümkündür, həm də onun babası tərəfindən qismən həyata keçirilmişdir. «Mən xaqan olanda məhvə gedən yoxsul xalqı qaldırdım — bir yerə topladım, yoxsul xalqı varlı elədim, azsaylı xalqı çoxsaylı elədim. Məgər mənim sözümdə yalan varmı?» Lakin bununla birlikdə o, təsdiq edir ki, xanın populyarlığı yoxdur, yəni bəylər «səhvə — xəyanət yoluna düşməyə meyllidirlər», xalq isə ağıllı deyil. «Türk xalqı, sən ac və üzülmüş olanda, toxluq vəziyyətinin səbəblərini başa düşmürsən, bir dəfə doyandan sonra isə aclıq vəziyyətini başa düşmürsən». Buradan belə nəticəyə gəlmək olar ki, Xaqanlığın dirçəldilməsi təşəbbüsü keçmişin tərəfdarları (revnitel) olan bir dəstə adama məxsus idi. Yollıqtəkinin kitabəsi göstərir ki, bəylərin bir hissəsi və onlarla əlaqədar olan təbəqələr Çinlə kompromisə tərəfdar idilər, lakin xanın ətrafında toplaşmış vətənpərvər qrup onları qovur, keçmiş, qədim şöhrətin bərpası məqsədi ilə yürüşlərə aparırdılar. Başa düşmək çətin deyil ki, bu qrup ilk xaqanlığın indi artıq sıravi adamlara çevrilmiş tarxanlarından ibarət idi.

Veteranlar arasında, təbii ki, təbliğat aparmağa ehtiyac yox idi. Buna görə də Yollıqtəkinin üz tutduğu qeyri-sabit kütlənin kim olduğunu müəyyənləşdirmək çox maraqlıdır: «Mənim nitqimə sırayla axıra qədər qulaq asın: qardaşlar, kiçik qohumlar, mənim öz tayfam, mənim öz xalqım, sağımda dayananlar — şadlar və doğma bəylər, solumda dayananlar — tarxanlar və xidmətkar bəylər, otuz... bəylər və doqquz-oğuz xalqı». Burada çöl üçün səciyyəvi olan mərkəzə, sağ və sol cinahlara bölmənin klassik təsnifatı gətirilir, lakin həmin təsnifat ierarxik aspektdədir — mərkəzdə xanın şəxsi drujinası dayanıb, sağ cinah — xana qohumluğu çatan əsilzadələrdən ibarətdir, sol cinah — qohum olmayanlar və onlarla qeyri-bərabər olan doqquz-oğuzlar, yəni uyğurlar və digər Xalxu tayfalarıdır.

Beləliklə, biz ierarxik quruluş prinsipinə malik hərbi demokratiya mənzərəsi ilə üzləşirik. Doqquz-oğuz bəylərinin və xalqın türklərlə bərabərləşdirildiyini xüsusilə qeyd etmək lazımdır. Kitabənin başqa yerində müraciət olunanların siyahısı daha da genişləndirilmişdir: «Mənim ürəkdən gələn nitqimi... bu abidəyə baxaraq on ox oğullarına və tatlara (azad olmayanlar, borclular) da daxil olmaqla bilin».

Lakin burada da yalnız qərbi türklər və ilhaq edilmiş tatlar əlavə olunmuşdur, mətnin tərtib olunduğu vaxtda itaətə gətirilmiş digər xalqlar — kidanlar, qırğızlar, karluklar, tatablar, soqdiyalılar və başqaları qeyd olunmamışlar.

Onlar ordanın üzvləri deyildilər, onlar ordanın xərac verənləri, yaxud «müttəfiqləri» idilər.

Beləliklə, göy türklərin ordasına hələlik yalnız doqquz-oğuzlar daxil edilmişdilər. Lakin hətta özünün bu formasında da o, başlıca olaraq öz banilərinin dəmir iradəsi və hərbi istedadı ilə idarə olunurdu.

Başqa sözlə desək, türklər hərbi demokratiya mərhələsində idilər və öyrəndikləri bu quruluşu qoruyub-saxlamaq üçün əllərindən gələni edirdilər.

## XXII f ə s i l

## YENİDƏN YARADILMIŞ XAQANLIQ

**Vəzifələr.** Tol üzərində qələbə demək olar, bütün Xəlxi türklərin əlinə verdi, lakin bununla belə onların dövlətləri ümidsiz vəziyyətində idi. Yeni təbəələr olan uyğurlar etibarsız idilər; imperiyanın malikanələri şərqdən, cənub və qərbdən yeni yaradılmış xaqanlığı əhatə edirdi; türklərə düşmən olan, geniş qırğız xanlığı şimal tərəfdə Sibirdə yerləşirdi. Ən başlıcası isə bu idi ki, türk xalqının böyük hissəsi Ordosda düşmənin pəncəsində qalmışdı. İlk növbədə onları xilas etmək lazım idi və Qapağan xan bu işdən yapışdı.

694-cü ildə türklər ildırım sürətilə Çin sərhədinə hücum etdi, xeyli döyüşçü və əhali qırdı və əsir götürüb apardı. Eyni zamanda Qapağan xan imperatriçə U-yə onun təəbəəliyini qəbul etməyi təklif elədi. Bu, imperiya hökumətinin Xəlxdə türk dövlətinin yaradılmasına, onun birbaşa qəbul edilməsinə razılıq verməsi demək idi. Aydındır ki, Çin üsyançılarla belə asanlıqla barışa bilməzdi. 18 nəfər voevod çin və köçəri süvarilərlə ona qarşı yürüşə başladı, lakin düşməni tapmayıb geri çəkildilər. Ötüken qaragüruhçuları türkləri məhv olmaqdan xilas etdilər. Çinlilər müdafiəyə keçməli oldular.

Ehtimal ki, basqın zamanı əsirlər deyil, Qütluğ ilə gedə bilməyən və indi öz həmtayfasına qaçıb gələn ordos türkləri götürülüb aparılmışdır. Yazılar da Qapağan xanın siyasətini bu cür şərh edir: «Mənim əmim xaqandır, o şahlıq taxtına oturaraq yenə də türk xalqını ayağa qaldırdı. Heç bir sərvəti olmayanları dövlətli etdi, az saylarını isə çoxaltdı». Əlbəttə, sonuncu təbii artım hesabına olmamışdır.

Həm tayfalarının azad edilməsindən də daha ciddi ikinci vəzifə köçəri xalqlar və tayfalarla münasibətlərin yaradılması idi. İmperiyanın azacıq tabeçiliyi köçərilər üçün bir yük deyildi və hətta əlverişli idi, lakin çinlilər onların hakimiyyətinin tamamilə möhkəmlənməsini səhv güman etdiyindən sərhədlərindən kənardakı malikanələrinə öz məmurlarını təyin etməyə başladılar. Elə buradan da köçəri ağsaqqalların hüquqlarının tapdanması, sıravi köçərilərin ehtiyaclarının başa düşülməməsi, çin məmurlarının rüşvətxorluğu, zorakılığı və təhqiredici təsir bağışlayan təşəxxüslüyü ilə əlaqədar olan müxtəlif çətinliklər labüdən yaranırdı. Buna görə də VII əsrin axırlarında köçəri təbəələrin loyallığı Böyük səddən

başlanan məsafəyə uyğun idi. 696-cı ildə Mancuriyada kidanlar və tatablar (hi) baş qaldırdılar, türklər bundan da həmçinin istifadə etdilər.

Nəhayət, xanın qarşısında üçüncü daxili siyasi vəzifə dururdu. Yuxarıda deyildiyi kimi, qədim türklərdə taxt-tac varisliyi haqqında qanun mövcud idi, bu qanuna əsasən qardaş-qardaşa, əmoğlu-əmiyə varis olurdu. Çinlilər bu qaydanı mənasız hesab etdilər, onlar türklərin işlərinə qarışaraq, bu qaydanı sadəcə olaraq təhrif etməyə başladılar. Türklər xaqanlığı yenidən qurmaqla köhnə qanunu da bərpa etdilər, Moçur bu qanuna görə Qapağan xan oldu. Lakin o çin mədəniyyətinin təsirini öz üzərində hiss edirdi, taxt-tacı qardaşı oğlu Mogilyana deyil, öz oğlu Fuqyuya verməyi düzgün hesab elədi. O, qanunu tədriclə pozmaq lazım olduğunu başa düşərək, «kiçik xan» (şaddan yüksək) rütbəsini yaratdı və onu öz oğluna verdi, qardaşı oğlunu isə tarduşların, yəni türklərin qərb qanadının şadı təyin elədi və ən təhlükəli hərbi vəzifələrin həll olunmasını ona tapşırdı. Güman etmək olar ki, o öz qardaşı oğlunun məhv olmasına qarşı da çıxmırdı.

**Şərqdə.** Türklərin müvəffəqiyyət qazanması mərkəzi Mancuriyada olan kidan və tatablara — monqol tayfalarına ümid verdi. Hətta çin tarixinin özü belə üsyanın məsuliyyətini baş rəis Çjao Ven-hayın üzərinə qoyur. O həddən çox təşəxxüslü olduğuna görə öz tabeliyində olanlarla pis rəftar edirdi. 695-ci ildə kidan tayfalarının başçıları Tszinçjun və Vanyun üsyan edib Çjao Ven-hayı öldürdülər və onun köməkçisini əsir götürdülər. 24 gün ərzində üsyan bütün səkkiz kidan tayfasını bürüdü. Eyni zamanda tatablar da ayağa qalxdılar, lakin öz qüvvələrimə arxayın olmayaraq türklərlə müqavilə bağladılar. Üsyanın yatırılmasından ötrü göndərilmiş nizami qoşun hissəsi Xuan-çjanqu vadisində və Pinçjou yaxınlığında kidanlar tərəfindən darmadağın edildi. Pul ilə alınmış qullardan ibarət təşkil edilən üçüncü ordu yalnız 696-cı ildə kidanların hücumunu dəf etdi və onların irəliləməsinin qarşısını aldı.

Qapağan xan bu şəraitdən istifadə elədi. O, üsyançıları yatırtmağı imperatriçaya təklif etdi, bu işə razılıq aldı. Köməyə görə mükafat olaraq onu xan bildilər, hərbi rütbə və knyazlıq mənsəbi verdilər. Qapağan xan ildırım sürətli hücumla kidanları darmadağın etdi və onları sıx meşəliklərə səpələnməyə məcbur elədi.

Fərəhlənmiş imperator arvadı türklərin xanını böyük şanyu görmək istəyirdi, lakin o titul almağı gözləmədən çin sərhədinə hücum etdi və 697-ci ildə Linçjou və Şençjou adlı iki qəzanı, yəni şimali-şərqi Ordosu talan etdi. Sərhədyanı xalqlardan yaradılan imperiya ordusunun qoşunları onu qovub uzaqlaşdırdılar, lakin Tonyukuk komandanlığı qəbul edib müvəffəqiyyət qazandı, «iyirmi üç şəhəri dağıtdı». Salnamələrdə bu kampaniya Yaşıl uğuz,* yaxud Taluy-uğuz — «Dəniz-çay» tərəfindən becərilən Şantun vadisi üzərinə müharibə» kimi adlanır.

---

* Türklərin təsəvvüründə rəng spektrləri arasında sərhəd avropalılara nisbətən bir qədər başqa cür yerləşdirilmişdir. Məsələn - göy—göy-yaşıl rəngdir: yaşıl — yaşıl-sarı, tünddür: sarı - sarı-narıncı,

Beləliklə, xan çinliləri qorxudaraq sülhün şərtlərini diqtə etdi. O imperatriçanın onu oğulluğa götürməsini, öz qızlarının çin knyazlarına ərə verilməsini, Ordosda qalmış türklərin onun yanına buraxılmasını və səpin üçün 100 min bu prosanın, 3 min əkinçilik alətinin və məhsul döymək üçün dəmir verilməsini istəyirdi. Aydındır ki, ona rədd cavabı verdilər. Belə olduqda xan danışıqları kəsdi, elçiləri saxladı və qoşunu kidan torpaqlarından çıxardı. Kidanlılar dərhal meşədən çıxıb knyaz Vanyunun ətrafında birləşdilər. Vanyun yenidən çinlilərin üzərinə hücum etdi və Tsziçjou qəzasını darmadağın elədi. Kidanlılara qarşı nəhəng bir ordu — 170 min nəfərdən ibarət qoşun atıldı (yəqin ki, bütün xidmət növləri də bura daxil idi), lakin bu ordu bütünlüklə məhv edildi. Vanyun hücuma keçdi, Yuçjou və İnçjou qəzalarını qırdı və azğıncasına hökmranlıq etdi.

Kidanlara qarşı kömək almaq üçün imperator türklərin bütün tələblərini qəbul etmək məcburiyyətində qaldı. Xan ilə imperatorun ittifaqı kidanlılar üçün çox pis oldu. Türklər ilə müttəfiq olan tatablar yeni iki yüz minlik çin ordusunda birləşdilər və kidanlıları mənqənəyə aldılar. Kidan qoşunları darmadağın edildi. Vanyun isə öz şəxsi qulu ilə birgə qaçdığı zaman öldürüldü. Çinlilərə təslim olmaq istəməyən kidanlıların qalıqları türklərə tabe oldular və 697-ci ildə Qapağan Mancuriyanı öz malikanələrinə birləşdirdi. Kidanlılar bundan sonra türk xanının vassalı kimi çinlilərlə müharibəni davam etdirdilər. İmperator U-nun çevrilişinin və Tan sülaləsi idarəsinin nəticələri burada özünü göstərdi. Yadellilərdən ibarət olan sərhəd qoşunları çinlilər üçün vuruşmaq istəmirdilər və buna görə də orduya qullardan ibarət muzdlu əsgər tutmağa başladılar.* Səhra ordusunda müxalifətçilik əhval-ruhiyyəsi və başlarını yüksək tutan Çin məmurlarına qarşı nifrət artmaya bilməzdi. Tan ənənələrinin gözəlliyi və fəaliyyətsizliyi sərhəd qoşunlarını loyal çərçivədə saxladı, lakin təbiidir ki, hərbçilərin çox hissəsi qəzəbli varisə rəğbət bəsləyirdilər. Bu isə imperatorun xoşuna gəlmirdi. İmperator komandanlığı parçalamağa çalışırdı ki, bir generalın əlinə çoxlu qüvvə toplanmasın, bu isə ordunun döyüş qabiliyyətinə təsir edirdi.

Qapağan xan siyasi vəziyyəti nəzərə aldı və özünü varisin tərəfdarı elan etdi. Onun taxt-tacını bərpa etmək üçün Qapağan xan 698-ci ildə 100 000 süvari ilə yürüşə başladı. Bu demaqoqluq ona az xeyir gətirmədi, belə ki, imperiya ordusunda xidmət edən köçərilər dərhal onun tərəfinə keçməyə başladılar. Ona

---

parlaq rəngdir. Beləliklə, Yaşıl — uğuz Xuanxe, Sarı çay adının tamamilə qarşılıqlı tərcüməsidir. Salnamələrdə Sarı çayın aşağı axın hissəsinə bir yürüş xatırlanır, lakin əslində isə belə yürüş çox olmuşdur: 694-cü ildə Linçjouya (Xuanxenin sağ sahilində. Ninsyafu şəhərinin qarşısında yerləşən əyalət şəhəri); 697-ci ildə Linçjou və Şençjouya (Ordosun şimali-şərq hissəsi) və 698-ci ildə Xebey üzərinə yürüş olmuşdur. Görünür, salnamələrdə hər üç yürüş bir yerdə xatırlanır. Həm də «Şantun vadisi» hərbi hərəkət meydanı adlanmışdır (B a x S. E. Malov. Памятники..., 1951, стр. 38, paraqraf 17. səh. 66, paraqraf 18—19: «Yaşıl—uğuz»un tərcüməsi üçün Malov «Dəniz çayı» variantını təklif etmişdir.

* İmperator U muzdlu əsgər tutmağı elan etdikdə cəmi min nəfər toplaya bildi. Tan evindən şahzadə Xebeyin sərkərdəsi təyin olunduqda isə 50 min nəfər muzdlu əsgər ətrafına topladı.

qarşı iki ordu — 300 min və 150 min nəfərdən ibarət qoşun göndərildi, lakin onlar döyüşə girməyə cürət etmədilər. Türklər bir sıra sərhəd dairələrini dağıtdılar və çoxlu əsir aldılar. Çin qoşunları bütün açıq toqquşmalarda məğlubiyyətə uğradılar. Görünür, Tonyukuk «Şantun vadisində» qazanılmış müvəffəqiyyət barədə verilmiş yazıda bu əməliyyatları xatırlayırdı. O vaxt Çin hökuməti düşmənin əlindən başlıca silahı olan legitizmi almaq qərarına gəlir. Varis sürgündən geri qaytarılır və orduların başçısı təyin edilir. Qapağan xan geri çəkilmək məcburiyyətində qalır, lakin bu vaxt o Tan sülaləsi uğrunda deyil, özü və öz xalqı uğrunda döyüşdüyünü göstərir.

O sülalənin müdafiəsi barədə çıxış etdiyi zaman 80 min əsir, yəni faktiki şəkildə onun tərəfinə keçmiş bütün adamlar öldürüldü. Türklər bundan sonra geri çəkilməyə başladılar. Geri qayıdan zaman bütün Çin şəhərləri və kəndləri bütünlüklə talan edildi və əhali qul edilib aparıldı. Bundan sonra müharibə dayanmadı, lakin sülalənin bərpa edilməsi imperiyanın qüvvələrini mütəşəkkil etdi. 699-cu ildə kidanlar darmadağın edildilər, həm də qələbənin şöhrəti əvvəllər bir-birinə düşmən olan «köçərilərdən» iki nəfərin adına yazıldı. Məsələ aydın idi: köçərilər Çinin uğrunda ölmək istəmirdilər, lakin Tan imperiyası uğrunda zərər çəkmək olardı. Hələ Moçuraya çıxıb getməyən köçəriləri özünə cəlb etmək məqsədilə ağıllı imperatriça onların vəziyyətini yaxşılaşdırmağa diqqət yetirdi. 701-ci ildə türkləri qul etməyi qadağan edən fərman çıxdı. Bununla da əsrlər boyu çöllülərdən ziyan gördüklərinə görə haqq-hesab çəkməyə imkanları olmayan məmurların və latifundialların sui-istifadə etməsinə son qoyuldu, onlar sərhəddə yaşayan köçərilərə qarşı dişlərini qıcadılar, ona bir qədər də vulqar tamahkarcasına yanaşdılar.

Fərman öz rolunu oynadı, sərhədə hücum edən türk dəstələrinin müvəffəqiyyəti bir qədər azaldı. 700 və 702-ci illərdə türklər şimali Çin üzərinə basqın etdilər, lakin iş mal-qaranın qovulub-aparılması və talançılıqla başa çatdı.[62] 703-cü ildə Qapağan xan elçiyə onun qızı ilə taxt-tac varisi oğlunun nigahı haqqında danışıqlar aparmağı tapşırdı. Bu sülh demək idi. Həqiqətən, danışıqlar üç il davam etdi və hərbi əməliyyatlar olmadı. Bu müddətdə imperatriça öldü və türk xanının çox müvəffəqiyyətlə adını gizlətdiyi Çjuntszun taxt-taca sahib oldu. Artıq açıq oyun başladı.

**Qərbdə.** 698-ci ildə başlanan dəhşətli müharibə həm türklərin, həm də çinlilərin qüvvələrini uddu. Müharibə çin ünsüründən olan rəhbəri, bacarıqsız Aşin Xuselo xanı sıxışdırdı. O, 699-cu ildə 60—70 min nəfərdən ibarət öz tərəfdarı ilə Çinin dərinliklərinə gedib köçəri həyat sürməyə başladı. İli çayının vadiləri və Tyan-Şanın şimal yamacları türkeş xanlığının ərazisinin özəyi hesab olunurdu. Xanın cənubdakı yay iqamətgahı müasir Tokmaka şəhərinin yaxınlığında, şimal

---

[62] 700-cü ildə türklər 600-cü ildən Çinin himayəsində olan tanqutlardan 10 minə qədər at alıb apardı. Bu əməliyyata xanın qardaşı oğlu Mogilyan rəhbərlik edirdi.

iqamətgahı isə hun-yus tayfasının torpaqlarında yerləşirdi. Zəbt edilmiş torpaqları qanuniləşdirmək məqsədilə Uçjila Çinə elçi göndərdi, onun ikinci oğlu Çjenu bu elçilərin başçısı idi. Elçilər yaxşı qarşılandılar, bununla da torpaqların zəbt edilməsi qanuniləşdirildi.

Lakin türklər bütün bunlara sakit baxmırdılar. Onlar qərbi Cunqariyada çuy tayfalarının (Orta Asiya hunlarının varisləri) yaşamasından istifadə etdilər. Türkeşlər onları öz dövlətlərinin tərkibinə qatmağa hələ macal tapmamışdılar. «Dövlətin sərhədlərini və xaqanlığın hakimiyyət dairələrini genişləndirməyə, Yeddi su yaxınlığındakı torpaqları tutmağa çalışaraq xanın qardaşı oğlu Mogilyan tarduş şad və onun on altı yaşlı qardaşı Kül-tigin çuy tayfalarının üzərinə basqın etdilər və 701-ci ildə onları tabe elədilər. Lakin yürüşün planı daha geniş idi: türklər vahid xaqanlıq yaratmaq üçün bütün Soqdı özlərinə tabe etmək niyyətində idilər. Türkeşlər münasibətlərin kəskinləşməsinə getmədilər, görünür, türk knyazları da həmçinin onlara toxunmamaq qərarına gəlmişdilər. Lakin qərb malikanələrində yaşayan Çin hakimiyyət dairələri öz düşmənlərinin müvəffəqiyyət qazanmasına sakitcə baxa bilməzdilər. Türk yazılı abidələri Iduk — baş yaxınlığında 50 minlik imperiya ordusunun darmadağın edilməsi və onun başçısı Onqtutukun əsir alınması haqqında məlumat verir. Lakin çin mənbələri bu döyüş barədə heç nə demir, odur ki, güman etmək olar ki, hadisələrin miqyası döyüş olmasına baxmayaraq şişirdilmişdir.

**Aydınlaşdırma.** Bu hadisə ilk dəfə şərh olunur. P. M. Melioranskinin tərcüməsindən fərqli olaraq S. E. Malovun tərcüməsi bu şərhin əsasını təşkil edir. P. M. Melioranski belə tərcümə etmişdi: «Altı çubun soqdaları» Markvart müəmmalı «çub» adını Çjao — Vu sülaləsi ilə izah edir. Altı soqda malikanəsi — Qan (Səmərqənd», Mi (Maymurq), Şı (Keş), Xe (Kuşaniya), Tsao (Uzruşana) və Na-se-bo (Nesef) Markvartın fikrincə 701-ci ildə şərq türkləri tərəfindən istila edilmiş malikanəsinin knyazlığı ona mənsub idi. Markvart öz fikrinin təsdiqini belə bir cəhətdə görür ki, 701-ci ildə soqdiyalılar Xorasan əmiri Mühəlləb ibn Əbu Süfrəya qarşı türklərdən kömək almışdır. Bu eyniləşdirmə geniş yayılmışdır, lakin Q. E. Qrumm — Qrjimaylo tərəfindən kəskin tənqid olunmuşdur. O, həmin vaxt Soqd üzərinə yürüşün mümkün olmadığını sübut etmişdir. Lakin o başqa bir səhv buraxmışdır — salnamədəki yazıların mətnini uydurma hesab edərək qərb yürüşünü tamamilə inkar etməyə başlamışdır.

S. E. Malovun tərcüməsi hər iki son fikri rədd etməyə imkan verir. Malov «altı çub və soqdanı» tərcümə edir. Əgər «çublar» adı altında çuy, çumi, çumuqun, iki yerə ayrılmış quban və şato nəzərdə tutulursa, onda aydındır ki, qərbi Cunqariyanın, Tarbaqatayda və Qara İrtışda köçəri kimi yaşayanların istila edilməsi yerinə yetirilən vəzifə idi. Soqdlara gəldikdə isə, bu uzaq məqsəd güdən siyasət idi. Qrumm — Qrjimaylo haqlı olaraq göstərir ki, 700—701-ci illərdə Soqdı ərəblərdən müdafiə edən türklər xalqı tabelikdə saxlamağa çalışan, amma xalqı müdafiə etməyə heç nəyi olmayan şərq türkləri deyil, Tan imperiyasının itaəti

altında yaşayan qərb türkyutları olmuşdur. Lakin o səhv edərək Onq-tutuku Çin sərkərdəsi Syan Van ilə eyniləşdirir. Syan Van imperiyanın sərhəd qoşunlarına başçılıq edirdi, lakin nə məğlub olmuşdu, nə də əsir düşmüşdü. Qərb yürüşünün inkar edilməsi də məhz bu qeyri-əsaslı eyniləşdirmə üzərində qurulmuşdur, çünki Kül-tigin il ərzində Soqddan Orxon üzərinə qoşun yeridə bilməzdi.

Lakin məsələ burasındadır ki, görünür, Onq-tutuku 692-ci ildə tibetliləri Tarim hövzəsindən qovmuş olan və orada səhra ordusunun komandanı kimi qalmaqda davam edən sərkərdə Van Syaoteze ilə eyniləşdirmək lazımdır. Əgər bu belədirsə, Suyedə (İssıq göldən şərqə tərəf ucaldılan qala belə adlanırdı) imperiya qarnizonunda o vaxta qədər uğursuz vuruşan türkeşlərin tezliklə güclənməsi aydınlaşır. Buradan belə nəticə çıxır ki, Qərb diyarında üçtərəfli müharibə yaranmışdır: imperiya qoşunları hətta Iduk-baş yaxınlığındakı döyüşü uduzaraq dörd əyaləti (Qaraşar, Kuça, Qaşqar və Xotan) və Beytini (müasir Quçenin yaxınlığında yerləşir) öz əllərində saxlayırdılar; Qərb türkeşlərin, şimal isə türklərin nəzarəti altında idi. Türklər Soqda qədər həqiqətən gedib çıxmamışdılar. İrtış çayının yamaclarında yaşayan karluklar, cənubi-qərbi Cunqariyada, Yulduz çayı vadilərində köçəri halında yaşayan xuvu və şunişlər (dulu ilə ittifaqda olan türk tayfalarıdır) onların qurbanına çevrildilər. Həmçinin cənubi Cunqariyada yaşayan basmaların (703-cü ildə) itaətini də elə həmin dövrə aid etmək olar.

Görünür, Tszyu-Tanşunun verdiyi məlumat da bu hücuma aiddir: «Couğun dövründən başlayaraq (685— 688-ci illərdən; yəni Aşide Yuançjenyanın qərbə uğursuz yürüşündən) on nəsil türk Moçjonun amansız basqın və qarətinə məruz qalmışdır. Onların bir hissəsi öldürülmüş, bir hissəsi səpələnmiş və demək olar tamamilə məhv olmuşdur) adi çin mübaliğəsidir — L.Q.), sonra, 60—70 min nəfərə qədər yerdə qalan hissə Xuşelo ilə birlikdə Çinə mühacirət etmiş, orada məskunlaşmışdır». «Sin-Tanşu, əksinə, belə hesab edir ki, Xuselin başlıca düşməni türkeş Uçjile olmuşdur, lakin hər ikisinin haqlı olduğu barədə düşünmək lazımdır: həm türklər, həm də türkeşlər qərb türkyutlarının qalıqlarını bərabər təhdid edirdilər ki, onların bir hissəsi öz süzerenlərinin* himayəsi altında yaşamaq üçün Çinə köçsünlər.

700—704-cü illərdə Qərb diyarında İmperiyanın qüvvəsi çox kiçik idi. Görünür, Iduk — baş yaxınlığında səhra ordusunun məğlubiyyətindən sonra yalnız qalalarda qarnizonlar qalmış və heç bir ehtiyat qüvvə daxil olmamışdı. Həqiqətən, təzə qüvvələr Mancuriyada kidanlarla və Xuanxe çayının sahillərində isə özlərinin türk xanı ilə vuruşurdular. Buna görə də şahzadə qardaşlar Soqda çatmağa cəhd göstərə bilərdi, amma yazılı abidələrin susduğuna görə onlar bu istiqamətdə böyük müvəffəqiyyət qazana bilmədilər. Lakin türk təhlükəsi imperiya hökumətini türkeşlərin güclənməsinin belə bir cəhəti ilə barışmağa məcbur etdi ki, onların neytrallığı təmin edilsin. Bu cür şərhetmə xronoloji uyğunluğu müdafiə edir:

* Feodalizm dövründə öz vassallarının hökmdarı olan böyük feodal — tərcüməçi.

türklərin Cunqariyaya basqını, Xuselonun qaçması və Uçjileni tanıması — bütün bunlar 699-cu ildə baş vermişdir. Hadisələr arasında şübhəsiz ki, əlaqə mövcuddur.

**Türkeşlər.** Abarlara və mukrilərə uyğun olaraq onların varisləri olan türkeşlər nə teles, nə çuyu, nə də türk qrupuna (türkyut) mənsub deyildilər. Onlar haqqında ilkin məlumat VII əsrin ikinci yarısına, beş dulu tayfasının tərkibinə daxil olduqları vaxta aiddir. 659-cu ildə Qərbi türkyut xaqanlığı çinlilər tərəfindən istila edildiyi vaxt türkeşlər iki dairədə — Soqe və moxe nəslinin yaşadığı İli çayı vadisinin yuxarı tərəflərində yerləşən Vulou və alişelərin yaşadığı İli çayından qərbə tərəf uzanan Qoşan hərbi dairələrində məskunlaşmışdılar. Türkeşlərin mənşəyi və etnik mənsubiyyəti haqqında «Tan sülaləsinin tarixi» bildirir ki, onlar «sarı» və «qara» nəslə bölünürdülər. Bizim təhlilə müvafiq olaraq «sarılar» qocaman mukriylər, qaralar isə gəlmə abarlardır, həm də onların hər ikisi bir xalqda qarışaraq öz mənşələrini hələ də yaddan çıxartmamışlar.

Türkeşlər çoxsaylı xalqdır. Kulminasiya anında Soqe xanın 300 min döyüşçüsü var idi. Bu rəqəm türkeşlərdən əlavə qonşu tayfalardan təşkil edilmiş köməkçi qoşunu da özündə birləşdirmişdi, həmin tayfalar Qərbi türkyut xaqanlığı süquta uğradıqdan və Anqin dövləti bölündükdən sonra türkeşlərə tabe idi. Axı lap bu yaxınlara qədər sülalənin əsasını qoyan Uçjilenin 140 min döyüşçüsü var idi və bunun sayəsində «tabeliyində olanlar sakitləşdirməyi bacarırdı, onların hörmət və etimadını qazanmışdı, köçərilər ona tabe olmuşdular».

«Qara nəsillər azlıq təşkil edirdi, onların miqdarı 300 min nəfər idi (döyüşçülərsiz), yəni onlar türkeş xalqının təxminən üçdə bir hissəsi qədər idilər.

Barbar dövlətlərdə hər bir yaşlı kişi döyüşçü hesab olunurdu, qoşunun xalqa nisbətinin adi əmsallıq hesabını tətbiq etməklə türkeşlərin miqdarını dəqiqləşdirmək mümkündür. Onların miqdarı 500 mindən 700 min nəfər arasında enib-qalxırdı. Əgər Tan sülaləsinin tam çiçəklənməsi dövründə Çin əhalisinin hər iki cinsdən 58 milyon nəfər olduğunu nəzərə alsaq, bu, o dövr üçün çox demək idi. Lakin Qərbi türkyut xanlarının malikanələrini ələ keçirərək türkeşlər onların siyasətini, yəni İmperiyaya oriyentasiyanı da irs almışdılar. Bununla da türkeşlər türklərin düşməninə çevrilmişdilər və bunun nəticəsində də özlərini tezliklə büruzə verdilər.

**Əks hücum.** Tan imperiyası Qərb diyarını itirməsi ilə barışa bilmirdi. İmperiya türklərin, türkeşlərin və ərəblərin istilasına müvəqqəti uğursuzluq kimi baxırdı. Yeni səhra süvari ordusu və istedadlı sərkərdə lazım idi. Qətlə yetirilmiş Yuankin xanının sürgündə olan oğlu türkyut şahzadə Xyan belələrindən oldu. O, lazım olan kimi onu bağışladılar.

703-cü ildə şərqdə sülh bağlandı və dərhal 704-cü ildə qərbdə vəziyyət dəyişdi. İki Qərbi türk xanı Xuay-dao və Xyan qoşunla göndərildilər. Xyan Çu çayından qərbə doğru yerləşən 30 min kibiti ram etdi.

Əvvəlcə 704-cü ildə şatolar, sonra isə 705-ci ildə qərb türkyutları və karluklar İmperiyanın tərəfinə keçdilər. 706-cı il üçün əvvəlki vəziyyət bərpa olundu.

Lakin türkeşlərin ətalətdə olmasını bəs necə izah edək? Çox sadəcə: cənubdan ərəblər təzyiq göstərirdilər. 705-ci ildə Qüteybə Bəlxi, 706-cı ildə Peykəndi tutdu, lakin soqdiyalılar və «türklər» onu geri çəkilməyə məcbur etdilər. «Təbərinin yazdığına görə bu «türlər» türkeşlər idilər. Ümumi yeni düşmənə qarşı müdafiə olunmaq zərurəti onları çinlilərlə barışdırdı, çin nazirlərini isə cənub-qərbdə zəruri quz-oğuzlar arasında hərəkat çinlilərin təsvir etdiyi sədd olan yeni dövləti qəbul etməyə məcbur elədi. Buradan Xyanın Çu çayından qərbdə yerləşən torpaqları tabe etdiyi vaxt nə üçün türkeşlərə aman verməsi və 706-cı ildə Uçjilenin hansı xidmətlərinə görə knyaz tituluna layiq görülməsi aydın olur. 707-ci ildə türkeşlər yenidən Qüteybi Buxaradan qovub çıxarırlar. Yalnız türkeşlər və soqdiyalılar arasındakı ixtilaf ərəblərə Xorasana geri çəkilməyə imkan verdi. Tezliklə Uçjile vəfat etdi, 708-ci ildə öz oğlu Soqeyə 300 min nəfərlik qoşundan ibarət ordu, Çinlilərlə ittifaq və ərəblərlə müharibə qoyub getdi. Elə həmin il Qüteybə yenə də Buxaradan geri oturduldu, Soqa bütün Orta Asiyanın hegemonu oldu. Əgər 707-ci ildən 710-cu ilə qədər cənuba müraciət etməsi məlum olmasaydı tibet siyasətinin passivliyi bizi təəccübləndirə bilərdi.

Cənubi Çin qoşunları Yunnani cəngəlliyində man tayfalarını istila elədi və onlara ikiqat vergi qoydu. 710-cu ildə manlar üsyan etdilər və tibetliləri köməyə çağırdılar. Tibetlilər bundan istifadə edərək vergidən qurtarmaq üçün çinliləri onlara şahzadəni və Xesidəki Tszyutsyuy qəzasını cehiz kimi verməyi məcbur elədilər. Çin üzərinə basqının hazırlanmasında atlar üçün yem bazası kimi bu torpaq sahəsinin böyük strateji əhəmiyyəti var idi. Sonralar bu fakt hadisələrin gedişinə az təsir göstərmədi.

**Koalisiya.** 703—706-cı ildə üçillik fasilə Xaqanlığa nisbətən İmperiyaya daha çox xeyir gətirdi. Çinlilər müdafiə və hücum tədbirlərinin möhkəmliyinə əmin olaraq rüşvət vasitəsilə hərəkət etməyə başladılar. Doqquz-oğuz rüşvət obyektinə çevrildi, onlar xanın bütün yaltaqlığına baxmayaraq, sakitcə çöldə köçərilik edir, imperatordan qiymətli hədiyyələr alır, gözəl anları yaddan çıxarmırdılar. Fasilə zamanı Tolda öldürülmüş Boz xaqanın (çincə Bili) oğlu Duqyayçji uyğurlarla və kibi, sıqe və hun tayfaları ilə xandan qaçaraq Qobi səhrasını keçdi və İmperiyaya itaət etdi. Onu Lyançjou yaxınlığında, Alaşanda və Qansuda yerləşdirdilər və hərbi hissələrdə olan boş yerləri doldurmaq üçün «güclü süvariləri» götürdülər.

Uyğurların ayrılması türklər üçün böyük zərbə idi, çünki onların daxili siyasəti möhkəm idi. Həm də doqyinə nisbətən daha geniş idi. Təqribən həmin vaxtda türk şahzadələri Mogilan və Kül-tigin Şərqi Zabaykalyedə məskunlaşmış bayırku tayfasının üsyanını yatırtdılar. Bayırku Qyurgiyargun gölünün yaxınlığında

(Qorey gölü Onon və Kerulen arasındadır) darmadağın edildi, lakin onun başçısı Uluq İrkin vuruşaraq, görünür ki, Çinə qaçdı, çünki qaçmağa başqa yeri yox idi.

Əlamətlər çox böyük idi, lakin öz şəxsi təkəbbürlüyündən gözləri tutulmuş Qapağan xan məkrli imperatoru cəzalandırmaq qərarına gəlir. 706-cı ildə türklər Şimali Çinə daxil olub sərkərdə Şaqa Çjunun nizami qoşununu darmadağın elədi və otlaqlardan dövlət atlarını sürüb apardılar. Atlar sıradan çıxmış süvarilər üçün nəzərdə tutulurdu.

Minşa* yaxınlığındakı döyüş böyük Kül-tiginin abidələrində gözəl təsvir edilmişdir. Kül-tiginin altında üç at öldürülmüşdür, yaraq-əsləhəsinə və örtüyünə «yüzdən çox ox vurulmuşdur». Təlim görmüş, təkrar hücuma qadir olan ağır süvarilərin keyfiyyətləri yenidən üzə çıxdı, bu döyüşdə isə belə üç hücum olmuşdu. Çinlilər öz itkilərini 10 min nəfər müəyyən etdilər ki, bu da döyüşün gedişini bərpa etməyə imkan verir. Görünür, yüngül silahlanmış oxatanlar hücumu sıx ox atmaqla dəf etməyə cəhd edirdi və buna iki dəfə nail oldular, lakin üçüncü hücum çaxnaşma yaratdı və türklər qaçanları qırmağa başladılar. Bu böyük itki yalnız bu cür yarana bilərdi. Döyüş taktikasına görə Çin ordusunda qaçqın uyğurlar vuruşurmuşlar.

Bundan sonra danışıqlar kəsildi və imperator xanın başı üçün mükafat təyin etdi. Lakin imperiya qoşunları Xalq üzərinə hücuma keçmədilər, onlar Ordosun girəcəyində üç qalanın tikilməsi ilə kifayətləndilər. Biz burada psixikanın bitib yenidən doğulmasını müşahidə edirik: o çöl psixikasından Çin psixikasına çevrildi, çin müdafiə sistemi paralel olaraq qayıtdı, sanki Xan dövründə hunlar üçün keçilməz hesab edilən qalalar, «gənc yaramazlar»dan təşkil edilən piyadalar və sərkərdənin əzizləri dirçəldilər». İndi isə, yəni 708-ci ildə səksən yaşlı qocanın ordu komandanı təyin olunduğu vaxt ordunun özündən nə gözləmək olardı.

Təşəbbüs türklərin tərəfinə keçdi. Moçur imperiyanın elçisini qətlə yetirdi və 708-ci ildə Çin sərhəddinə basqını təkrar etdi. Bu basqın barədə o qədər az xatırlanır ki, görünür, türklərə real müqavimət göstərilməmişdir. İmperiyalılar xanın yanına yeni elçi göndərirlər, elçi öhdəsinə düşən tapşırığı yerinə yetirmədən yolda vəfat edir.

Lakin diplomatiya və rüşvət öz işini gördü. 709-cu ildə vəziyyəti müdrik Tonyukuk gözəl təsvir edir: «Tabqaç xaqanı bizim düşmənimiz olmuşdur. On oxun xaqanı (qərb türklərinin, mövcud halda türkeşlərin xanı Soqa — L. Q.) düşmənimiz olmuşdur. Lakin hamıdan daha çox qırğızların güclü xaqanı bizim düşmənimizdir. Bu üç xaqan düşünərək dedilər «bəli, biz Altun qara camaat üzərinə gedəcəyik». Onlar belə düşündülər və dedilər: «bəli, biz türk xaqanlığına qarşı şərqə yürüş etmək üçün yola düşəcəyik (Buradan görünür ki, qərbdən, türklərə arxadan birləşdirilmiş zərbənin vurulması nəzərdə tutulurdu. — L. Q.) Əgər biz onun

* Minşa — Şərqi Qansuda, Xuanxe çayının sağ sahilində yerləşən şəhər (B a x: Q. E. Qrumm — Qrujimaylo, Западная Монголия, стр. 310) görünür, türklər onlara xəyanət etmiş uyğurları cəzalandırmaq üçün bu sahəni hücum obyekti etmək üçün seçmişdilər, çünki ora gedən yol uyğurları verilmiş Alaşan yamaclarından keçirmiş. (P. M. Melioranski. Памятник вә честь-тегина, стр. 139).

üzərinə getməsək, necə olur-olsun o bizə qalib gələcəkdir: xaqan — qəhrəmandır, müşavir isə müdrikdir. O bəlkə də, bizim qatilimiz olacaqdır. Biz üçümüz birləşib yürüşə yola düşərik və onu məhv edərik. Türkeş xaqanı belə dedi: «Mənim xalqım orada olacaqdır, — o dedi, — türk xalqı isə əzilmiş vəziyyətindədir, oğuzlar isə, — o dedi, — səpələnmişdir»*. Həqiqətən, türklər mühasirəyə düşür, onlar xilas olmaqdan ötrü düşmən üçün gözlənilməz hesab edilən çıxış yolu tapmalı idilər. Onlar bu yolu tapdılar.

**İlk zərbə.** Müdrik Tonyukuk Qapağan xanın vaxtında da xanın müşaviri vəzifəsini saxladı, lakin etibardan düşmüş şahzadələr ilə də əlaqəsini kəsmədi, əksinə öz qızı Pofu taxt-tacın qanuni varisi — tarduşların şadı Mogilyana verməklə bu əlaqələri möhkəmləndirdi. Mogilyan Xaqanlığın qərb sərhədlərində qoşuna başçılıq edərək, 709-cu ildə çiklərin vilayətinə hücum çəkdi və Yenisey çayının yuxarı axarlarını keçərək, Orpen yaxınlığında onların qoşununu məğlub elədi, bunun ardınca az tayfasını da özünə tabe etdi. Eyni zamanda o, müasir Tuvanın bütün ərazisini də tabe elədi, lakin başlıca düşmən olan qırğızlar etibarlı təbii himayədə—Sayan dağlarının arxasında möhkəm şəkildə qalmışdılar. Çik və Az tayfalarının istila edilməsi qırğızların hücum təhlükəsini uzaqlaşdırmamışdı, lakin həm də aradan qaldırmamışdı.

Belə olduqda yenidən Tonyukuk işə qarışdı. O, təşəbbüsü öz əlinə almağı və yayın gəlməsini gözləyərək qırğızların üzərinə hücum etməyi, qəfil basqından istifadə edib onları darmadağın eləmək təklifini irəli sürdü. Ən böyük çətinlik orasında idi ki, Sayan dağlarından qeyri-adi yerlərə keçilməli idi. Kökməndən keçən yol (qərbi Sayan dağları) mühafizə olunurdu. Həmin yola hücum eləməyin mənası yox idi, çünki qırğızlar 80 min döyüşçü çıxarıb, türkeşlər və tabqaçlar — imperiyalıların gəlişinə qədər Türk ordusunun qarşısını saxlaya bilərdilər. Qırğızlar səfərbərlik cəhətdən böyük üstünlüyə malik idilər: onlar əkinçiliklə məşğul idilər, deməli əhali sıx yaşayırdı. Samanın olması atları yemləməyə, onları evdən çox uzaqlara aparmamağa imkan verirdi. Türklər yalnız qəfil hücum şəraitində müvəffəqiyyət qazanmağa ümid bəsləyirdilər. Tonyukuk «çöldə yaşayan azlar arasında» başqa yol göstərməyi boynuna çəkən bələdçi tapdı.

Düşünülmüş yürüş son dərəcə avantüraya oxşayırdı, lakin xan razılıq verdi, Tonyukuku rəis təyin etdi və özünün xoşladığı qohumlarını ona köməkçi verdi. Hadisələrin sonrakı inkişafı Tonyukuk tərəfindən yaxşı təsvir edilmişdir: «Mən qoşunun irəliləməsi barədə əmr vermişəm; mən dedim: Ata minin!—Ağ Termeli

---

* Burada yuxarıda verilmiş «oğuz—icma, nişan təsərrüfat vahidi termini təsdiq olunur. Türklər böyük əraziyə malik olaraq hər tərəfə səpələnmişdilər, təbiidir ki, köçəri heyvandarlıq həyat tərzi üçün zəruri olan bir-birindən ayrı yaşayırdılar. Türkeş xanı məhz bu şəraiti qeyd edirdi ki, belə səpələnmə zamanı sürətlə səfərbərlik keçirmək mümkün deyildir. Bununla belə, mal-qaranı və döyüş atlarını yemləmək üçün türklərə səpələnmək lazım idi. Tonyukukun lakonik iradı da bu mənadadır, o öz xalqını xilas etmək üsulunu fikirləşərək gecələr yatmırdı.

keçdikdən sonra mən düşərgə qurmaq haqda əmr verdim (görünür, burada artıq olan, lazım olmayan hər şey qoyulmuşdur L. Q.) Atlara minmək əmri verərək, mən qarın içindən yol açdırdım. Mən dağın hissəsinə başqaları ilə birgə, atı minmədən piyada, taxta payalardan tutaraq qalxdım. Qabaqda gedənlər qarı tapdayıb yol salırdı, biz meşəliyə olan dağları aşdıq. Biz böyük çətinliklə aşağı düşdük (düşməni duyuq salmamaq üçün biz gündüz yol getməkdən çəkinirdik), uçqunu keçərək on gecə dağ yamacına qədər yol getdik. Yolu azan bələdçi öldürüldü. Biz Ani çayının axarı boyunca aşağılara getdik. Qoşunu saymaqdan ötrü biz dayanmaq barədə əmr verdik, atları isə ağaclara bağladıq (görünür, xeyli at geriyə qalıb donmuşdu). Biz həm gecə, həm də gündüz at çapdıq. Qırğızlar yatdığı zaman onların üzərinə hücuma keçdik... nizələrlə özümüzə yol açdıq. Onların xanı və qoşunu bir yerə yığıldı».

Döyüşü Yollıq-təkin yaxşı təsvir edir: «biz onların xaqanı, Sunqa qara camaatı ilə vuruşduq. Kül-tigin Bayırkdan olan ağ madyanın üstünə minib hücuma atıldı, bir kişini ox ilə vurdu, iki kişini nizə ilə vurdu, başqa birisini də bu cür vurdu. Bu hücum zamanı o Bayırkdan olan madyanı güdaza verdi, onun ombasını sındırdı. Biz qırğız xanını öldürdük. Qırğız xanı xaqanlığın tabeliyinə keçdi və ona tabe oldu».

Beləliklə, Tonyukukun son dərəcə zirəkliyi Kül-tiginin mərdliyi və türk döyüşçülərinin dözümlülüyü sayəsində koalisiya üzvlərindən biri sıradan çıxarıldı. Güman etmək olar ki, qırğız torpağının tabe edilməsi minimum vəzifə idi, çünki Tonyukuk orada qarnizon qoymadı, lakin indi arxadan zərbə vurulmaqdan ehtiyat eləmək lazım deyildi və qərb problemi üzərinə diqqəti cəmləşdirmək olardı.

**İkinci zərbə.** Türkeş xanı Soqe 708-ci ildə Çin ilə müttəfiqlik müqaviləsi bağladı. Görünür, Tonyukuk məhz bu müqaviləni nəzərdə tuturdu. Lakin geniş türkeş dövləti möhkəm deyildi, çünki bu dövlət Qərbi türkyut xaqanlığını məhv edən düşkünlüyü irs almışdı. Yəqin ki, dövlət siyasətindən çox uzaq olan səbəblərə görə «Soqe öz başçısı Kyue — çjo (Kuli-çur) ilə dalaşdı və hər ikisi öz aralarında ağır müharibəyə başladı». Soqe Çin hökmdarına öz təbəəsindən şikayət etdi, lakin o, rüşvət verib məmur göndərilməsinə nail oldu. Bu məmur işi onun xeyrinə həll etməli idi. Soqe təsadüfən məktubu ələ keçirdi və məmuru öldürdü. Sonra türklərlə mübarizə aparmaq əvəzinə, o Ansi qalasına (Kuça) hücum etdi, burada çin qoşunlarını darmadağın elədi. O bunu ona görə etmişdi ki, çin hökumətini özüylə hesablaşmağa məcbur etsin və öz məqsədinə nail oldu. İmperator Çjuntezun «onu bağışladı» və qərbdə sülh bərpa oldu. Lakin türklərlə müharibə etmək üçün vaxt əldən buraxıldı və müttəfiqlər arasındakı münasibət qeyri-səmimi şəkil aldı.

Elə ki, bir bəla qurtardı, başqası başladı. Soqe öz kiçik qardaşı Çjenə də pay verdi, lakin o ona az pay verilməsi fikrinə gələrək qardaşından incidi və 710-cu ildə öz doğma qardaşı ilə haqq-hesab çəkmək məqsədilə türk xanının tərəfinə keçdi.

Görünür, müdrik Tonyukuk Çjeni nəzərdə tutaraq yazırdı: «Türkeş xaqanlığının yanından casus (bəlkə də burada daha doğrusu «müşahidəçi» işlənməlidir?— L. Q.) gəldi. Onun sözü belə idi. Şərqdən xaqanlığın üzərinə yürüşlə gedək, — dedi. Əgər biz yürüşlə getməsək, o bizə qalib gələcək. Türkeş xaqanı yürüşə başladı — o dedi — on ox» xalqı bir nəfər kimi yürüş etdi, onların arasında tabqaç qoşunu da vardır». Qapağan xan özü türkeşlərin üzərinə hücum etmək qərarına gəlmir, çünki onun başlıca qüvvələri şərqdə mərkəzləşmişdi və bu iş ona həddən çox təhlükəli görünürdü. O, arvadını dəfn etmək bəhanəsi adı altında iqamətgahında qalıb, Alşun 20 min süvari çıxardı. O öz kiçik oğlu İnel xaqanı və tarduş şad Mogilyanı bu qoşunun rəisi, Tonyukuku isə müşavir rəhbər (qərargah rəisi) təyin etdi. Tonyukuka ciddi təlimat verildi ki, mümkün qədər müdafiədə dursun, «özünü məhv etməyə imkan verməsin», fərariləri və məlumat toplasın. Lakin Tonyukukun əmri yerinə yetirməsinə inanmayaraq, xan apa-tarxana (səlahiyyətli komissar) bildirdi ki, Tonyukuka hücum etmək icazəsi verməsin. Görünür, əvvəlki yürüşün uğursuzluğu türk xanının yaddaşında möhkəm qalmışdı.

Lakin Tonyukuk özü bildiyi kimi hərəkət elədi və kiçik bir qoşunu hücuma apardı. O, düşmən üçün gözlənilmədən zərbə endirmək adətinə sadiq qalaraq, sıx meşə ilə örtülmüş Altainnuru dağının yanından keçib Qara İrtışı adladı və sürətlə gecənin ərzində Bolçu çayına, yəni Urunquya çatdı. Türklər orada türkeşlərin qabaqcıl dəstəsi ilə toqquşdu. Türkeşlər bərk yatmışdılar, düşmənin qəflətən hücum edəcəyini gözləmirdilər, odur ki, qılıncdan keçirildilər.* Əsir düşənlər türklərin başçılarına bildirdilər ki, yarış çölündə on tümən qoşun toplaşmışdır. Türk bəyləri geri çəkilmək fikrini irəli sürdülər, lakin Tonyukuk qəfil hücumu zəruri hesab eləməklə, hücumu təkid etdi. Türklər türkeş qoşununa hücum elədilər və onu kiçik məğlubiyyətə uğratdılar.

Qeyd etmək lazımdır ki, say etibarilə türkeşlərin üstünlüyü bir o qədər də çox deyildi. Tonyukukun özü bunu belə müəyyən etmişdi: «onların iki cinahı yarıya qədər çox idi». Görünür, «on tümən» on tayfanın yığma qoşununa bərabər idi və bütünlüklə komplektləşdirilməmişdi. Bundan əlavə, türklər ilk iki qələbə zamanı türkeşlərə çoxlu tələfat vurdular. Bununla belə, türkeşlər özlərinə gəldilər və türklərin üzərinə hücum elədilər. Türk süvarilərinin döyüş keyfiyyəti burada da özünü göstərdi — türkeş qoşunları darmadağın edildi, xaqan Soqe isə əsir düşdü. Türkeş dövləti dağıldı. «Bəylər və on ox xalqı, hamı gəlib tabe oldular». Türk

* Görünür - Bolçu və Bolçu oğuz eyni çayın adıdır. Bu çayın adı dörd run yazısında: (Kül-tigin, Tonyukuk, Bilgə xanın və Moyançur) və uyğun Ulankov yazılarında xatırlanır (B a x: A. M. Ş e r b a k. Надпись на древнеуйгурском языке, стр. 23—25). Tonyukuka görə, türklər Qara İrtışdan keçərək bir gecədə Bolçuya çatdılar, yəni bu çaylar arasındakı məsafə 100 km-dən çox ola bilməzdi. Qara İrtışdan Urunquya qədər olan məsafənin maksimum uzunluğu 80 km, minimum məsafənin uzunluğu isə 50 km olar. Urunqu çayından cənuba doğru geniş vadi uzanır, onu Yarış çölü ilə asanlıqla müqayisə etmək olar, türkeşlərin əsas qüvvələri burada qruplaşırdı.

qoşunu qazanılmış qələbəni inkişaf etdirərək və türkeşlərin qalıqlarını təqib edərək cənuba doğru hərəkət etdilər və Buzqal keçidinə qədər gəlib çatdılar. Türklər onu «Qədim darvaza» adlandırırdılar. Onlar orada soqdiyalılardan külli miqdarda vergi yığdılar. Lakin türklərin sonrakı hərəkəti cənubdan Orta Asiyaya hərəkət edən ərəblər tərəfindən dayandırıldı. «Məhz döyüşçülər üzərimizə hücum etdilər». Geri çəkilmənin qarşısını alan Kül-tiginin yalnız qəhrəmancasına mübarizə aparması türklərin əsas qüvvəsinin düşməndən uzaqlaşmasına imkan verdi. Bu toqquşma barədə şayiə hətta Tibetə qədər yayıldı.

Kül-tigin bu əməliyyat zamanı özünə şan-şöhrət qazandı, belə ki, o, cənuba doğru qaçan türkeşləri və Koşu-tutuku, yəni hələ də Orta Asiyada qalmaqda olan sonuncu nuşibi knyazlarından birini darmadağın edə bildi. İkinci vəzifə də birinci vəzifə kimi uğurla həll edildi: 710—711-ci illərdə qərbdən olan təhlükə aradan qaldırıldı.

Qapağan xan tam qələbə, Soqenin əsir alınması və qənimətlərin ələ keçirilməsi haqqında məlumat aldıqda, o qərb dünyasının tam fəth edilməsini və türkeş xanlarının mövcudluğunun artıq olmasını hesab etdi. Buna görə də o, xain Çjenə dedi: «sizin doğma qardaşlar ola-ola öz aranızda razılıq şəraitində yaşaya bilmədiniz; siz mənə tam sədaqətlə qulluq edə bilərsinizmi». Və hər ikisini 711-ci ildə edam elətdirdi.

Lakin o tələsmişdi; Qərb məğlub olmuş, amma fəth edilməmişdi. Qara İrtış sahillərində və Tarbaqatayda yaşayan karluqlar türklərə qarşı çıxış etdilər. Yeni düşmənlə mübarizə bir neçə il qərb ordusunun qüvvələrini buxovladı. Yalnız qərbi Cunqariya etibarlı oldu, burada mukrinlər (çin dilində moqe) türklərə tabe idilər. Türklər Soqdedə dayana bilmədilər, bu ona görə idi ki, 713-cü ildə Mohedo Tutun (Bahadur — tudun) adlı bir nəfər «müharibədə göstərdiyi xidmətə görə» imperiyalılar tərəfindən Daşkəndin vassal hakimi təyin olundu. 714-cü ildə qərb türklərinin imperiyanın hakimiyyətini atmaq cəhdi müvəffəqiyyət qazanmadı. İmperiyanın generalı Aşina Xayn-Suyşe yaxınlığında (Tokmak) üsyançıları darmadağın edib onların başçısını edam elədi. Bu qələbədən sonra karluklar, xuluvlar və sunişlər özlərini imperiyanın (əlbəttə, cüzi) təbəəsi hesab elədilər və türklərə və türkeşlərə qarşı ittifaqa girdilər.

VIII əsrin ortalarında imperiyalılar Soqdedə bütün müvəffəqiyyətləri türklərin adı ilə bağladılar. Lakin karluklar Kül-tiginin ordusunun qarşısını aldığı kimi Tibetin fəaliyyəti də Qərb diyarında çin fəallığının qarşısını eləcə almışdı. Qərbi Soqda və Toharistanın fəth edilməsini müvəffəqiyyətlə başa çatdıran ərəblər bu işdə uddular.

711-ci ilin axırında tibetlilər hərbi əməliyyatı Qərb diyarına keçirdilər. Şato tayfası onlardan xilas olmaq üçün Barkul gölündən Beytində yerləşən imperiya qarnizonunun müdafiəsi altına köçüb gəldi. 713-cü ildə tibet qoşunları Fərqanə vadisinə daxil oldu, ərəblərlə ittifaq bağladı və Aludə adlı öz canişinini Fərqanədə birgə oturtdu. Lakin 715-ci ildə canişin Kuçi yerli qüvvələrə və ətrafda yaşayan

tayfalardan yığılmış qoşuna arxalanaraq Fərqanəyə soxuldu, xilas olmaq üçün uzurpatoru qaçmağa məcbur elədi və qanuni knyazın hakimiyyətini bərpa etdi. Tibetlilər geri qayıtmaq məcburiyyətində qaldılar, ərəb imperiyasının sərhədləri isə müvəqqəti sabitləşdi.

**Üçüncü zərbə.** Qərbdə koalisiyanın müvəffəqiyyətsizliyə uğraması şərqdə türklər üçün çin hücumunun təhlükəsini aradan qaldırmadı. İmperiyalılar Qobidən keçib Altay üzərinə hücum edə bilmədilər, çünki türklər ən yaxşı süvarilər verən rayonları onlardan almışdılar. İndi isə imperiya ordusunun böyük bir hissəsini çinlilər təşkil edirdi. Buna görə də Mancuriya, məhz onun qərb hissəsi, tatablar yaşayan ərazi hücum obyekti seçildi.

712-ci ildə yüz iyirmi minlik Çin ordusu üç hissəyə ayrılaraq tatabların üzərinə hücuma keçdi və darmadağın edildi. Çaxnaşma ilə geri çəkilmə zamanı «bir neçə on min nəfər» döyüşçü və «iki general əsir düşdü». Tatablar əsirləri türk xanına verdi. Xan isə onların qətlə yetirilməsi barədə əmr verdi. Qətlin qisası alınmamış qaldı, çünki o vaxt saray bir çox işlərlə məşğul olduğundan onları sakitləşdirməyə imkan yox idi.

Uğursuz imperator Çjuntszun öz sevimli arvadı tərəfindən zəhərləndi, taxt-taca Syuantszun sahib oldu. Türk xanı nigah bağlamaq şərtilə nümayişkaranə şəkildə sülhün bağlanmasını tələb etdi və imperiya hökuməti bu tələblə razılaşmalı oldu: knyazın qızı knyaz qadını titulu ilə birlikdə xana ərə verildi və 714-cü ildə «lütfkarlıqla fərman göndərildi. Bu, türk hərbi qüdrətinin zirvəsi idi».

Lakin İmperiyanın fəlakəti bununla qurtarmadı. Tatabların müvəffəqiyyəti şərqi Mancuriyada xırda vassal knyazlarından biri olan Tsikik Çjunsyana təsir etdi. O, 696-cı ildən başlayaraq cənubi Mancuriyada və Koreyada Çin malikanələrinə hücum elədi və özü üçün dövlət yaratdı. Mərkəzi və cənub-şərqi Mancuriya (Fuyuy və Çaosyan) və hətta Koreya (Byanxan) bu dövlətin tərkibinə daxil idi. İmperiya hökuməti baş vermiş hadisə ilə barışmaq məcburiyyətində qaldı. Yeni hökmdar Bahay adı aldı.

Tan imperiyası siyasi böhran keçirirdi. O tədricən Çin hökmdarlığına çevrilirdi.

**Ərəblərin hücumu.** VIII əsrin əvvəllərində Mavəreynnəhrin Soqdi knyazlığının — bu sıx və çox zəngin olan ölkənin tamamilə özünü müdafiə qabiliyyəti yox idi. Hamıya aydın idi ki, ərəblərin qələbəsi kişilərə ölüm, qadınlara və uşaqlara isə əsir alınıb qul bazarlarında satılmaq gətirir. Lakin hər bir qala təklikdə müdafiə olunub məğlubiyyətə uğrayırdı. Soqdiyalılar öz separatizmlərini qırıb mütəşəkkil ola bilmirdilər. Yalnız türkeşlər ərəb dəstələrini dəf edirdilər.

Bu azmış kimi, soqdiyalılar öz müdafiəçiləri olan türkeşlər ilə belə ümumi dil tapa bilmirdilər. Yalnız xilas edilənlərlə xilas olunanlar arasındakı ixtilaf sıxışdırılmış ərəblərə Xorasana qaçmaq imkanı verdi. Bu cür nizamsızlıq 709-cu ildə də təkrar olundu və bu, Buxaranı almaqda Qüteybəyə imkan verdi. 710-cu ildə türklər tərəfindən türkeşlərin darmadağın edilməsi ərəblərin Şouman, Nesef, Keş

şəhərlərini tutmaq və Talekanı tabe etməklə bir vaxta düşdü. Gözəl şəhərlər yandırıldı, əhali qılıncdan keçirildi və ya əsir götürülüb aparıldı. Qarət edilmiş qızıl və ipəklə yüklənmiş karvanlar ara vermədən Dəməşqə gedirdi, lakin buna baxmayaraq Qeteyb çox şey istəyirdi.

711-ci ildə o, xarəzmşah və Həmcürd şah arasındakı didişməyə müdaxilə etdi, xarəzmşahın taxt-tacda oturmasını bərpa etdi və onun köməyilə Həmcürdü darmadağın elədi. Sonra istila etdiyi buxaralıları, nesefləri və xarəzmliləri səfərbərliyə alıb Səmərqəndin üzərinə hücum etdi. Səmərqəndlilər cəsarətlə müqavimət göstərirdi, hər iki tərəfdən çox böyük tələfat oldu, lakin ərəblərə qarşı dayana bilməyəcəklərini hiss edərək, onlar Fərqanə işhidinin, Çaç knyazının, türk xaqanının (yəqin) ki, həmin türkeşlərin) və Çin imperatorunun yanına kömək üçün elçi göndərdilər. Türklər tərəfindən darmadağın edilmiş türkeşlər Səmərqəndə hansı kömək göstərə bilərdilər? Heç bir kömək. Elçi yalnız 713-cü ildə Çanqana gəlib çıxdı, lakin imperator kömək barədə dedi: ona türklərə qarşı qoşun lazım idi. Deməli, artıq kömək gec idi. «Çaç knyazı və işhid səmərqəndlilərin məktubu ilə razılaşdı. Məktubda yazılmışdı: «Əgər ərəblər Soqda qalib gəlsələr, sizin də növbəniz çatacaqdır» və onlar kömək etmək üçün hərəkətə gəldilər. Qüteybə bu haqda məlumat aldı və öz köməkçisi Saleh Müslimi ona qarşı göndərdi. Saleh Müslim Bəy — Obod kəndi yaxınlığında gecə döyüşündə çaçları və fərqanəliləri məhv etdi. Səmərqənd məğlub oldu.

712-ci ilin payızında Qüteybə xeyli qənimətlə və saysız-hesabsız əsirlə Mərvə qayıtdı.

713-cü ildə, soqdiyalılar arasında keçənilki qırğından salamat qalmışları səfərbər edərək və öz qoşununu onlarla dolduraraq Xocant, Fərqanə və Qaçın üzərinə basqın elədi. Xocant və Fərqanə məğlub oldu, lakin Çaç müqavimət göstərib durdu. İmperiyalılar tərəfindən ora hakim təyin edilmiş Bahadur—tudun adlı bir türk ərəblərin hücumunu dəf etdi.

Ərəblər Fərqanə vadisində çinlilərlə toqquşa bilərdilər, çünki Qərb diyarı qubernatorunun iqamətgahı məhz orada idi. Lakin nə onların, nə də bunların bu barədə məlumatı yoxdur. Hər iki düşmən çalışıb bir-birinin yanından ötüb keçdi ki, toqquşma olmasın.

715-ci ildə Qüteybə Şərqi Türküstana daxil olmağa çalışdı, amma Xəlifə Valideyn vəfat etməsi haqqında xəbər onu geri qayıtmaq məcburiyyətində qoydu. O, geri qayıdarkən öz hərbi rəislərinin biri tərəfindən üsyan qaldırmaq cəhdinə görə öldürüldü. İstilalar dövrü müvəqqəti başa çatdı.

Lakin ərəb basqınlarının dayandırılmasını yalnız sərkərdənin məhv edilməsi ilə əlaqələndirmək olmaz. Türk xaqanlığında baş verən nəhəng çaxnaşmalar istedadlı Sulu xana türkeş dövlətini — ərəb təcavüzünə qarşı səddi bərpa etməyə imkan verdi. Türk təhlükəsindən xilas olan imperiya hökuməti Fərqanə vadisinin şərq hissəsində öz nüfuzunu bərabər səviyyədə saxlaya bildi. 715-ci ildə qərb, on ox türkləri tərəfindən komplektləşdirilmiş imperiya qoşunu ərəbləri və tibetliləri

Fərqanədən qovdu. Amma 716-cı ildə türkeşlər imperiya qoşunlarını məğlubiyyətə uğratdılar, 717-ci ildə isə ərəblər və tibetlilər Qaşqardakı imperiya istehkamlarına yenidən hücum etdilər.

**Bəs Çində...** Türklər, ərəblər, tibetlilər İmperiyanın sərhədlərində necə azğınlıq etsələr də onun üçün ən dəhşətli təhlükə Çin qadınları idi. Zəif iradəli Çjuntszunun arvadı, imperatriça Vey Şe özünün qorxunc sələfi qadın U — hounun uğursuz avantürizmini həyata keçirməyə çalışırdı. O, ərinin nüfuzundan istifadə edərək, onun sadiq nökərlərinin qətlinə nail oldu, amma imperatorun gözləri açılıb hər şeyi başa düşəcəyindən, düşməninin kim olmasından qorxaraq, o öz rəqibi, şahzadə qız An-lo ilə birgə onu zəhərlədi. Monarxın ölümünü gizlədərək, sui-qəsdçilər onun taxt-tacdan götürülməsi və taxtda onun oğlunun oturdulması haqqında fərmanın altından saxta imzasını qoydular.

Əlbəttə, imperatriça özünü padşah naibi təyin edir. Lakin fırıldaq bu dəfə də baş tutmadı. Zəhərlənmiş Çjuntszunun qohumu olan Li Lun-ki alim, yaxşı hərbi rəis, zabitlər, əsgərlər və Tan sülaləsinə bağlı olan məmurlar tərəfindən hörmət edilən və sevilən adam idi, o seçmə qoşunların başında saraya daxil oldu və hər iki sui-qəsdçinin başını vurdu, öz atası Juytszunu taxtda (710-cu il) oturtdu. Juytszun hökmdarlıq etmək sənətini sevmirdi və 712-ci ildə öz oğlunun xeyrinə taxtdan uzaqlaşdı (ölməz titul — Syuntszun).

Tan imperiyası daha bir sınağa dözdü, lakin hər bir qələbə ona asan başa gəlmədi.

Yeni imperator öz ailəsinə sadə yanaşmağı və bağlılığı ilə sülalə tərəfdarlarının rəğbətini qazanmışdı. Bu, öz xalasının sui-qəsdini asanlıqla aradan qaldırmaqda ona kömək etdi. Xala onu zəhərləmək istəyirdi. Sui-qəsdçilər qətl olundular.

Sonra 714-cü ildə U imperatriçasının dayağı kimi xidmət edən buddizmə qarşı qanun çıxdı. Qocalardan və xəstələrdən başqa Budda rahiblərinə öz evlərinə, yəni vergi silkinə qayıtmaq təklifi edildi, Buddanın təsvirinə sitayiş etmək isə qadağan edildi. Sarayda əbədi qəsdlər kəsildi, tədricən normal idarəetmə bərpa olundu, bir neçə ildən sonra Tan imperiyası birinci imperatorun vaxtında olduğu kimi qüvvətləndi.* Tonyukuk onun vəziyyətini qısa da olsa ifadəli şəkildə səciyyələndirmişdir: «Göylər oğlu davakardır, xalq razıdır, illər məhsuldardır... onlara toxunmaq olmaz».

Lakin qərbdə yeni təhlükə yaranırdı — tibetlilər ərəblərlə ittifaq bağladılar, qara türkeşlərin başçısı Sulu isə özünü xan elan etdi.

---

* Buddizm Çin cəmiyyətinin aşağı təbəqələri arasında geniş yayılmışdı, amma onu silk xidmətçilərinin görən gözləri yox idi, onlar konfutsiyaçılığın tərəfdarı olub, buddizmin və daosizmin tam qadağan edilməsi, budda kitablarının yandırılmasına aid öz proqramını irəli sürmüşdür. (B a x: N. İ. Konrad. Начало китайского гуманизма, стр. 78).

Buddizmə ibadət etməyin qadağan olunması Kuçk və Karaşar əhalisinə pis təsir elədi, çünki buddizm burada 500 il idi ki, hökmran və adi ideologiya idi. Təbiidir ki, o əmrlə kök salmış dünyagörüşünü dəyişdirə bilməzdi, lakin tabe olmamaq uğursuzluğa düçar olmuş üsyan demək idi. Lakin Muq (sənəd A — 9) dağından tapılmış Soqd sənədlərindən birində saxlanan məlumata görə kuçaslılar son dərəcə iti ağıla malik olmuşlar: «Belə şayiə mövcuddur: kuçinlilər və «im» (görünür, karaşarnın qədim adı Çin dilində Yan deməkdir), bütün xalq həm əyanlar və tacirlər, sadə xalq (işçilər), həm də 14000 nəfər mənəvi təlim keçənlər (müəllimlər) brahman dininə keçmişdir.

714-cü ildə imzalanan bu mətni hərfən başa düşmək mümkün deyildir. Ən əvvəl ona görə ki, brahmanizm yeni qəbul edilmiş din deyildi, bu dini qəbul etmək üçün kastanın üzvü olmaq lazımdı, bu isə yalnız həmin kastada doğulanlar üçün mümkündür. Sonra, əgər dinin bu cür dəyişməsi həqiqətən mümkündürsə, onda bu Tyan-şanın tarixində iz qoymamalıdır; lakin sonradan bir Kuçi və Karaşar əhalisinin buddaçı olaraq qalmağı davam etdirdiyini görürük. Hətta bu ölkənin yazısında manixeyçilik və xristianlıq azacıq da olsa özünü göstərmişdir, lakin brahmanizmdən heç bir iz yoxdur. Görünür ki, «şayiələrin» yaxud «rəylərin» xəbər verdiyinə nisbətən iş başqa cürdür. İmperatorun verdiyi fərman Kuçaya sərhəd hərbi məmuru gətirib çıxardı, bu adamlar isə fəlsəfi incəliklərdən baş çıxarmırdılar. O yalnız əmrin yerinə yetirilməsini tələb edirdi ki, sonra hesabat verə bilsin. Buddizmdən savayı bütün ibadətlərə icazə verildi, brahmanizm və onun ehkamçılığı və mərasimlər haqqında bəziləri, buddizm ilə əlaqədar olan alimlərin bir qismi tamamilə uzaq təsəvvürlərə malik ola bilərdi. Deməli, kuçaslılar və karaşarlılar cəsarətlə bildirə bilərdilər ki, imperatorun əmrini onlar yerinə yetirə bilərlər və onlar qadağan olunmamış dinə etiqad edirdilər. Heç kim bunun belə olmadığını sübut edə bilmirdi. Heç kim bu yalanı ifşa etmək niyyətində deyildi, çünki buddizm Çində xoşagəlməz din idi, o burada digər ideoloji sistemlərlə rəqabət aparırdı. Kuçedə isə o yeganə və adi dünyabaxışı idi, heç kimə mane olmurdu.

Fərmanın mahiyyət üzrə şərtsiz yerinə yetirilməsi yalnız arzuolunmaz hadisələr törədə bilərdi, Çin üçün adi hesab olunan formalizm isə konkret halda vəziyyətdən çıxış yolu yaradırdı. Əlbəttə, buddaçıların imperatoru aldatması barədə bazarda qışqırması hər halda təhlükəsiz deyildi, buna görə də Soqdda belə bir rəsmi şayiə gəzirdi ki, məktubun kontekstində prezumpsiya* durur. Məktubun müəllifi «bunu eşidərək» Xuttala yola düşür və orada yaşayanlara məsləhət verir. Başqa sözlə desək, kuçaslıların xatırlanması İmperiyanın qərb rayonlarında vəziyyəti öyrənməyə kömək edir, bu dövrdə vəziyyət sabit idi.

* Doğruluğu rədd edilmədikcə həqiqi sayılan fərziyyə, — tərcüməçi.

**Hərbi sistemin təkamülü.** Syuantszunun vaxtında yaranmış vəziyyətin bütün kəskinliyini başa düşmək üçün 723-cü ildə ləğv edilən fubin hərbi sisteminin təkamülünü nəzərdən keçirmək lazımdır. Bu sistemin ləğv edilməsinin onun qurulmasına nisbətən daha çox nəticələr verməsini göstərmək heç mübaliğə olmazdı. Fubin sistemi VI əsrdə şimali Çini fəth edən toba tayfalarının hərbi təşkilindən yaranır. Bu sistem üzrə orduda xidmət etmək syanbiy nəslindən olanlara məcburi idi. Torpaq sahələri mükafat kimi onlara verilir və hərbi mükəlləfiyyatı daşıyan şəxslər yerdə qalan digər mükəlləfiyyatlardan azad olurdular. Xidmət etmək irsi mahiyyət daşıyırdı və döyüşçülər tədricən üstünlüyə malik kastaya çevrilirdilər.

Əvvəlcə, bu ordu son dərəcə syanbiyalılardan komplektləşdirilirdi, lakin sonra Şansi və Şensidən olan varlı çinlilər orduya çağırıldılar. Çünki bu rayonlar çin mədəniyyətini və çin dilini rəsmi olaraq dövlət dili qəbul etdikdən sonra başqa millətlərin sülalələri ilə barışmışdılar. Bu qarşılıqlı güzəşt Çin ünsürünün qələbəsi zamanı, yəni Bey — Çjou və Bey Tsi sülaləsi dövründə fubin sisteminin qorunub saxlanmasını mümkün etmişdir. Lakin 564-cü ilin qanununa görə hərbi mükəlləfiyyat sadə xalq arasında da yayılmışdı. Belə ki, iki paralel sistem təşkil edilmişdi və əsilzadələrdən ibarət ordu-fubin — xalq arasından çıxmış adamlardan yaradılan ordu bərabər götürülürdü. Bunun ardınca əmlakı olmayanlar, həm yadellilər, həm də çinlilər yubinə daxil olmağa başladı, il ərzində altı ay icbari xidmət müəyyən edildi. Suy sülaləsi dövründə fubin vəziyyəti daha da pisləşdi, 590-cı ilin fərmanı üzrə döyüşçüləri xüsusi «hərbi siyahılara» deyil, «mülki həyatbaşı reestrləri»nə daxil etməyə başladılar, yəni vergilərdən azadetmə daha onlara aid edilmədi. Bu tədbir Çində syanbiy hökmranlığı qalıqlarının məhv edilməsinə yönəldilən Suy siyasətini xarakterizə edir.

Tan sülaləsinin qələbə qazanması müvəqqəti olaraq fubini canlandırdı. 650-ci ilin fərmanına görə komandirlərə torpaq sahələrindən əlavə pul maaşı da kəsildi, doğrudur, «mülki həyatbaşı reesteri «sisteminə daxil edilməsi dəyişmişdi, fubin hərbçiliyi mülki inzibatçılığa deyil, dairə hərbi rəislərinə tabe idi. Lakin fubin xarici düşmənə qarşı deyil, çin əhalisi arasında geniş yayılmış sülalənin möhkəmləndirilməsi üçün istifadə edildi. Fubin qoşunlarının böyük bir hissəsi sərhədlərdə deyil, paytaxtın ətrafında toplaşmışdı. Sərhəd qoşunları, yaxud süvari mühafizə dəstəsi köçəriləri muzdla tutmaq yolu ilə təşkil edilirdi.

Çin əhalisi ilə qarşılıqlı güzəşt siyasəti fubin qoşunlarının lazımsızlığını irəli sürdü. 723-cü ilin fərmanı əsasında bu sistem praktik cəhətdən ləğv edildi, hərbi xidməti davam etdirmək istəyən şəxslər isə sərhəd qoşunlarına daxil oldu, 735-ci ilin fərmanı ilə o hüquqi cəhətdən ləğv edilmişdi. İmperiyanın Çin və qeyri-çin hissəsinin təbəqələrə bölünməsi bu aktla bitdi, onların birləşməsi mümkün deyildi. Həmin vaxtdan etibarən Xedunda xüsusi etnik tərkib təşəkkül tapmağa başladı. Sərhəd nişançı qoşunu Çində məskunlaşmış bütün qeyri-çinlilər üçün yeganə sığınacaq idi. Çin əhalisinin milli yüksəlişi qeyri-çinlilərə heç bir xeyir vəd etmirdi.

Yalnız sülalənin sədaqəti, onların görmək istəmədiyi dirçəliş peşəkar ordunu və bir-birinə nifrət edən çoxmilyonlu xalqı hələ də özünə bağlayırdı.

İmperiya və Çin əsaslarının mübarizəsi ədəbiyyatda da öz əksini tapmışdır. Tan dövrünün Çin poeziyası sadəlövh pasifizm ilə əhatə olunmuşdur. Pasifizmin arxasında müxalifətçi əhval-ruhiyyəni və hökumətin siyasi xəttinin maskalanmış şəkildə mühakimə olunmasını asanca görmək olar. Qəribə olsa da qeyd etməliyik ki, əks dünyagörüşü Koreya tərcüməçiləri, yaxud qədim şerlər vasitəsilə gəlib bizə çatmışdır. Bu şerləri öz ölkələrinin məğlubiyyətindən sonra qalibin, imperator Taytszunun yanına xidmətə getmiş döyüşçülər yazmışlar.

Bəzi koreyalıların — Tan sərkərdələrinin adları tarix üçün saxlanılmışdır. Məsələn: Xeçi Çjan-çji və Qao Syan-çji. Lakin Tan dövründə koreya qoşunlarının qəhrəmanlığını tərənnüm edən şairlər XV əsrdə yaşayırdılar.

İnamla çətin demək olar ki, onlar köhnə Koreya şerindən istifadə etmişlərmi, yaxud onlara yaxın olan Çin mənbələrindən tərcümə eləmişlərmi, yaxud onlara səkkiz əsr sonra gəlib çatmış hərbi şöhrətin canlı ənənələrini özləri vəsf etmişlərmi? Lakin onların təsvir elədiyi vəziyyət təkrarolunmazdır və bizi maraqlandıran dövrə tam uyğun gəlir.

Güman etmək olar ki, bu xatirələr erkən şairlərin əhval-ruhiyyəsi ilə ahəngdarlıq təşkil edir və onlar şüurlu surətdə keçmiş günləri tərənnüm edirmişlər.

Poeziyanın bu və ya digər inkişaf xəttinin müqayisə edilməsi Tan imperiyasını didib-dağıdan daxili mübarizəni və açıq-aşkar gözəl Çanon paytaxtını göstərir.

Müqayisə öz-özünü biruzə verir, həm də Çində müharibə əleyhinə yazılmış şerlərinin siyahısını daha da artırmaq olar. Məsələn, Du Fu birbaşa bildirir: «Mən bir qoca kimi şübhələnə bilərəm ki, ölkələr sərhədləri genişləndirməlidir». Bu heç də sülhsevərlik demək deyildir, barbarlar üzərində qələbə onun çox xoşuna gəlir, nəhayət o başa düşməlidir ki, bacardıqca sərhəd qoşunlarını uzağa aparmaq — köçərilərin basqınından xilas olmağın yeganə üsuludur. Yox, Aloqo sarayından, yəni Suy sülaləsi sarayından aparılan qızıl boşqablarla ziyafətlər təşkil edən sülaləni və saray əhlini onun mühakimə etməsi vacibdir. Burada qeyd olunmalıdır ki, Tan rahiblərinin özləri Çin təbəələri ilə qarşılıqlı güzəştə getmək istəyirdilər, artıq bizim gördüyümüz kimi onlar öz inamlarının qurbanına çevrilmişdilər. Lakin türklərin ayrılması taxt-tacın çöldə olan dayaqlarını o qədər qeyri-sabit elədi ki, daxildə sülhün əldə edilməsi taxt-tacı qəbul etmiş imperator Syuantszunun ən cari vəzifələrindən biri idi.

Çinlilər tədricən, amma durmadan saraydakı hakimiyyəti ələ aldılar. 739-cu ildə Konfutsiyə şahzadə titulu verildi və buna müvafiq olaraq onun xatirəsinə həsr olunmuş təntənələr dəyişdirildi. Sonra rütbə almaqdan ötrü humanitar təhsil lazım idi. Həm də çinlilər bu sahədə türkləri və monqolları asanlıqla ötüb keçdilər; 754-cü ildə məmurları hazırlamaq üçün Xanlində akademiyanın əsası qoyuldu. «Zadəganlar» və «alimlər» arasında mübarizə başladı. «Alimlər» eyni şəkildə

xəbər aparıb gətirərək maneələri adladılar, hökumətin başçısı onların adamı olan Li Lun-Fu oldu. Bütün bunlar Çinə vətəndaşlıq sülhü gətirdi və Syuantszuna diqqəti çöl siyasətinə cəmləşdirmək imkanı verdi.

## XXIII f ə s i l

## FƏLAKƏT

**Dönüş.** İmperiyanın rastlaşdığı bütün uğursuzluq yeni imperator Syuntszunu Asiyada hegemonluq uğrunda mübarizə aparmaqdan çəkindirmədi. Onun son dərəcə yaxşı bir köməkçisi — Qapağan xan meydana çıxdı. «Tanşu» özünəməxsus Çin praqmatizmi ilə xanın şəxsi xüsusiyyətləri sayəsində vəziyyətin dəyişməsini izah edir: «Öz təbəələri ilə insafsız hərəkət edirdi, o qocaldığı vaxt isə ağılsız və qəzəbli oldu. Aymaklar narazılıq etməyə və ayrılmağa başladılar». Həqiqətən, 714-cü ilin sonunda Kül-tiginə qarşı vuruşan karluklar, xuluvlar (çincə xuvu) və şunişlər İmperiyaya müraciət edib, onları öz ağuşuna alması təklifini irəli sürdü. Qərbi türklər Yeddi Sudan və Tyanşan ətrafında İmperiyanın xeyrinə olaraq xaqanlığa qarşı üsyana qalxdılar. Tatablar və onların ardınca da kidanlar İmperiyanın tərəfinə keçdilər. Xan üçün ən pis cəhət bundan ibarət idi ki, doqquz oğuzlar, istila edilməmiş, birləşdirilməmiş, «öz şəxsi xalqı» da həmçinin üsyan edib ayağa qalxmışdı, üç türk canişini — Qobidə, İnşanda və Altayda düşmən tərəfinə keçmişdi.

Türklərin Cunqariyada — Bişbalıqda imperiyalıların dayaq nöqtəsini dağıtmaq cəhdi türklərin özlərinin darmadağın olması ilə başa çatdı.* Bu zaman bir türk sərkərdəsi əsir düşdü və şəhər darvazaları qarşısında başı vuruldu, başqa birisi isə xanın yanına qayıtmağa cəsarət etməyib Çinə qaçdı. 715-ci ilin əvvəllərində türk xanına sadiq olan qoşunlar üsyan edənlərin dənizində bir adaya bənzəyirdi. Geriyə dönməyə bir addım belə yol verməyən yaranmış vəziyyətin bütün ciddiliyi Ongin yazılarında əks olunmuşdur. «Yenidən doqquz-oğuz bəyləri bizə düşmən kəsildi. Onlar qüdrətli idilər. Xan getdi... Biz tör-töküntüdən çox deyildik; biz özümüzün az, onların isə çox olduğunu görürdük. Hücum edək... Mən öz bəylərimə dedim: «Biz azıq» Fəlakətin sonunda xanın üçüncü oğlu vəfat etdi, o

---

* Bilgə xanın yazıları bu hadisələri tamamilə başqa cür işıqlandırır: «... mən Bişbalığa qarşı çıxdım və altı dəfə orada vuruşmuşam. Mən onların qoşununu tam darmadağın eləmişəm. Belə ki, mən şəhər sakinlərinin əmlakına toxunmadığıma görə mənə tabe olub itaət etmək üçün şəhərdən qarşıma çıxmağa başladı. Buna görə də Bişbalıq xilas oldu» (S. E. Malov. Памятники... 1959, стр. 21). Bu məlumat düzgün deyildir, çünki yürüşün məqsədi — düşmənin dayaq məntəqəsinin məhv edilməsi idi — bu isə olunmuşlarla davranmağı bacaran davakar Mogilyanın sentimental hisslərinə görə əldə etmək mümkün olmadı. Yalnız ona inanmaq olar ki, o düşmən ilə altı dəfə vuruşmuş və başqa başçılar öldürüldüyü halda, öz dəstəsini xilas etməyə çalışmışdır.

əvvəllər Çində səfir olmuşdu. Onu yaxşı dəfn etməyə baxmayaraq, bu zəif təsəlli idi.

Ortaya sual çıxır: köçərilərin əhvalında belə kəskin dönüşü nə ilə izah etmək olar? Axı xalqı üsyan eləməyə qaldırmaq üçün yadelli emissarın olması kifayət deyildir. Görünür, xaqanlığın hakimiyyəti çöldə bir o qədər də geniş yayılmamışdı. Daxildə gedən ədavətin və qarşılıqlı gərginliyin səbəblərini aydınlaşdırmağa çalışaq.

Çinlilər üsyanın başlanmasını xanın ağılsızlığı ilə izah edirlər, bu fikir açıq-aşkar uyğun gəlmir. Biz Orxon yazılarında məsələnin daha dərindən dərk edilməsi ilə rastlaşırıq. Doğrudur, o yazılarda da həmçinin öz xeyrini və «alçaldığını» başa düşməməsi üsyanın səbəbi kimi göstərilir, lakin bununla bərabər dövlətin idealı da verilir ki, bu da tabelikdə olanların və qoşunların az xoşuna gələ bilərdi. Yollıqtəkin yazılarının müəllifinin fikrincə dünyanın dörd küncündə yaşayan bütün xalqları tabe etmək, onların başını aşağı əymək və diz çökməyə məcbur eləmək ən yaxşı cəhətdir. Əcdadlarımız belə etmişdir. Amma Qapağan xan da onlardan geri qalmamışdır. Onun hakimiyyətdə olduğu vaxt türk malikanələrinin hüdudları genişləndi, çünki türklər özgə otaqlarını ələ keçirdilər və sərvətlərini artırdılar: «O dövrdə bizim qullar qul sahiblərinə çevrildilər».

İkinci xaqanlıq türkləri birinci dövrə nisbətən daha böyük həcmdə hərbi demokratiya vəziyyətində idilər. Drujinanın daxilində ierarxiya bərabərliyi istisna etmirdi, lakin ətrafdakılar üçün bu demokratiya deyil, dəri soyulan yer idi. Buna görə də belə bir cəmiyyətdə hökmran və tabe olan tayfalar arasındakı ziddiyyət əsas ziddiyyət olaraq qalırdı.

Akademik V. V. Bartold ortaya belə bir məsələ qoymuşdur ki, türk cəmiyyəti aristokratiya və demokratiya cəmiyyəti olmuşdurmu? Bu məsələnin mənası yoxdur, çünki türk ordusunda «abo və tarxanlar» sıravi, bəylər isə yalnız rəhbər heyətdə idilər. Ümumiyyətlə, onlarsız heç bir qoşun mümkün deyildir. «Xalq» və «qoşun» anlayışı uyğun gəldikdə aristokratsizm və demokratizm anlayışı üçün yer qalmır. Qoşunun əlavə ehtiyat qüvvələrinə ehtiyacı olduğuna görə doqquz-oğuzların türklərə mənsub olması qərarına gəldilər, yerdə qalan bütün istila edilmiş xalqlar isə el olub dövləti təşkil edirdilər, onlar xanın «qulları» hesab olunurdular. Bu «qulların» şəxsi azadlığı əllərindən alınmasa da, onlar yaxşıca soyulub-çapılırdılar. Sanki doqquz-oğuzların vəziyyəti yaxşı idi, amma azadlıqsevər uyğurlar belə həyatı arzulamırdılar. Zəif xan hökmdarlığı dövründə tayfaların könüllü ittifaqına əsaslanan konfederasiyası onların siyasi idealı idi. Uyğurlar öz azadlıqlarını müdafiə eləməyi, «qənimət əldə etmək naminə» özgə bayraq altında qəhrəmancasına vuruşmağı bacarırdılar, lakin onların heç vaxt möhkəm dövləti olmamışdır və hətta buna can belə atmamışlar. Ələ keçirilmiş qənimətlərdən onlara türklərin pay verməsi ağır intizama riayət etmək və alçaldığı itaətdə saxlanmaq zərurətinə mükafat ola bilməzdi.

Dil, irq, məişət və məşğuliyyət növləri üzrə bir-birinə oxşar olan iki qonşu xalqın səyləri bax beləcə müxtəlif idi. Mərkəzi Asiyanın tarixi ya türk, ya da uyğur yolu ilə getməli idi.

Kül-tigin Müdrik Tonyukuk türk drujinalarının başında dayanmaq üçün çox qoca idi. 716-cı ildə onun 70 yaşı vardı. Xaqanlığı xilas etmək Kül-tiginin öhdəsinə düşdü. O, dörd il (711—715) karluklarla vuruşdu, yalnız 716-cı ildə müqəddəs Tamaq dağı yaxınlığında onların qoşununu darmadağın edib Xaqanlığa tabe olmağa məcbur etdi. Lakin artıq bu vaxta qədər dövləti üsyanlar bürümüşdü, Kül-tigin doğma köçəri yerlərə yaxınlaşdıqda azların müqavimətinə rast gəldi. Azlar Qara göl yaxınlığında (Qərbi Monqolustanda Totoxaranor gölü) məğlub oldular və qılıncdan keçirildilər.

Kül-tigin evə qayıtdıqdan sonra qızğın tayfalararası müharibəyə rast gəldi. O öz veteranları ilə izgillərin üzərinə düşdü, orada elə qırğın yaratdı ki, hətta izgillərin adı belə unuduldu. Toqu şəhəri yaxınlığında türklərin doqquz-oğuzlarla ilk döyüşü oldu, lakin Kül-tiginin bütün şücaətinə baxmayaraq qələbə qazanılmadı. Quşqalaq yaxınlığında edizlər (çincə adya) bütünlüklə darmadağın edilib qılıncdan keçirildilər. Sonra Bol yaxınlığında doqquz-oğuzların xalq qoşunu darmadağın edildi, lakin yazılarda göstərildiyi kimi onların eli fəth edilməsinə baxmayaraq, Çuş dağı yaxınlığında onlar türk qoşunlarını az qala darmadağın edəcəkdilər. Kül-tigin düşməni qovdu, təqib edərək ona ziyan vurdu. Görünür, bu tonqra tayfası idi. Bunun ardınca Kül-tigin Evqenti Kadaza yaxınlığında doqquz-oğuzlarla döyüşü uddu, «amma şəhərin üzərinə getmədi». Görünür, yaxın qohumunun müvəffəqiyyətləri xanı narahat edirdi və Kadazı almaq sərkərdə Ali Eletmişə tapşırıldı. O bu vəzifənin öhdəsindən gəldi. «O sadə xalqı topladı», bəylər isə qaçdılar. Bu kampaniya 715-ci ildə bununla başa çatdı, çünki qış düşmüşdü.

716-cı ilin baharında Qapağan xan öz yaxın qohumunun şöhrəti ilə barışmayaraq qoşunu özü doqquz-oğuzların üzərinə apardı. Kül-tigin iqamətgahı, yəni qadınları və uşaqları qorumaq üçün saxlandı.

Karluklar* belə qərara gəldilər ki, qisas almaq vaxtı çatmışdır. Onlar güman edirdilər ki, iki cəbhədə müharibə aparmaq üçün türklərin döyüş atı çatmayacaqdır. Onlar türklərin əsas qüvvələrinin şərqə getməsindən istifadə edərək, Altaydan iki qoşun çağırdılar. Qoşunun biri türklərin qabağını kəsməli, ikincisi isə iqamətgahı talan etməli idi. Lakin iqamətgahı Kül-tigin müdafiə eləyirdi, o yenidən şan-şöhrət qazandı. O, məhv olmaq və qul kimi aparılmaq təhlükəsi qarşısında qalmış qadınları müdafiə edərək, qeyri-bərabər döyüşdə «doqquz pəhləvanı öldürdü və iqamətgahı düşmənə vermədi». Bu vaxt isə Qapağan xan qumlu səhranın şimal

* Üç oğuzlar (S. E. M a l o v. Памятники, 1959. стр. 21) burada karluklar «Üç tayfa» adlanırlar və göstərilir ki, onların yürüşü imperiyanın komandanlığı ilə razılaşdırılmışdı.

tərəfində üsyan edən qeyri-nizami qoşunu dağıtdı. Kampaniyanın digər təfərrüatı bizə aydın deyildir.

Sonra bayırk tayfasının növbəsi çatdı. Bu tayfa 716-cı ildə Tole çayı üzərində darmadağın edildi. Lakin burada tarixə belə bir hadisə daxil oldu: qələbədən sonra evə qayıdan xan öz mühafizəçilərindən ayrılıb meşənin içi ilə tək-tənha at sürürdü. Bayırk tayfasının qalıqları da məhz bu meşədə qaçıb gizlənmişdilər. Onlar tək süvarini görüb onun üstünə hücum elədilər, atdan düşürüb öldürdülər. Xanın başı Çin elçisinə göndərildi, o da öz növbəsində onu Çanana göndərdi. Xaqanlıqda baş qaldıran üsyan və Tan imperiyası arasında əlaqə belə üzə çıxır.*

Lakin bu azmış kimi birbaşa göstəriş vardır ki, 702—703-cü illərdə İmperiyanın tərəfinə keçən uyğurların başçısı «Moçjoya qarşı çıxmış və onu öldürmüşdür». Lakin xanın öldürülməsinə baxmayaraq üsyan yatırılmadı. İmperiya yalnız Mancuriyanı geri qaytardı. Tarduşların başçısı Mogilyan orada döyüşmüş və Ağu yaxınlığında əldə edilmiş iki qələbəyə baxmayaraq, görünür, müvəffəqiyyət qazanmamışdır.

Xanın ölümündən sonra onun varisləri haqqında məsələ meydana çıxdı. Qapağan xan Kiçik xan, yəni ən kiçik xan titulunu daşıyan öz böyük oğlunu varisi təyin etmişdi. Köhnə türk qanununa görə tarduşların başçısı Mogilyan varis olmalı idi. Qəhrəman Kül-tigin türklərin əbədi elinin əsl rəhbəri idi.

Kül-tigin təşəbbüsü öz əlinə aldı və hərbi çevriliş etdi: O öz qoruduğu iqamətgaha hücum elədi. Sərkərdə vəzifəsini tutan onun varisi Alp Eletmiş üsyançıların tərəfinə keçdi və bu, müvəffəqiyyəti təmin etdi. Kiçik xan və Qapağan xanın müşavirləri öldüdürüldülər. Qapağan xanın oğullarından yalnız Çində olan oğlu Motəkin və Aşide Mimi adlı bir nəfərə ərə verilmiş on yeddi yaşlı qızı sağ qaldı. Şahzadə qız ərini itirərək, Çində xilas olundu, burada saray xidmətinə qəbul edildi, lakin tezliklə öz qardaşının çadırına düşdü və orada da vəfat etdi. Onun qardaşı əvvəlcə İmperiyanın qoşunlarında qulluq etmişdi, lakin sonralar onun haqqında mənbələrdə heç nə deyilmir. Qapağan xanın nəsli beləcə kəsildi.

Kül-tigin köhnə qanunu pozmadı və xan titulunu qəbul eləmədi, öz böyük qardaşı Bilgə xanı taxt-taca oturtdu, Bilgə xan başa düşürdü ki, o xidmətlərinə görə vəzifə sahibi olmamışdır və o öz qardaşının əlində oyuncaqdır. Buna görə də o, qoşunun başçısı, yəni xaqanlığın əsl sahibidir. Bütün saray əyanları arasında yalnız tək müdrik Tonyukuk, yeni xanın qaynatası sağ qaldı.

Divantutma Qapağan xanın yalnız yaxın müşavirlərinə aid oldu, amma bütün xalqı heyrətə gətirdi: «mən xan olduğum vaxt türk bəyləri və xalq qəmə batdılar ki, onlar ölməlidirlər (indi), onlar sakit baxışla yuxarıya (taxta tərəf)

---

* «Qonşu» birmənalı halda məlumat verir ki, Qapağan xanın ölümünə «ordu generalı Dau Xolin—Tsyuan» günahkardır. Əsas qatili bayırklı döyüşçü Seçjilo olmuşdur, ancaq məhz çinli tələ qurmuşdu və salnamədə onun dilindən qeyd edilir.

baxırdılar. Görünür, qəzəblə şahzadənin qarşısında bir çoxları günahkar idilər, amma onlar mərhəmət gözləyirdilər. Tonyukuk bir müddət qəzəbli idi, amma «xalq ona hörmət edir və ondan qorxurdu», 718 yaxud 719-cu ildə xan ona tərxan rütbəsini və dövlət müşaviri vəzifəsini qaytardı. Beləliklə, hakimiyyət başında triumvirat dayandı, Çin mədəniyyətinə qarşı mübarizə və Tan imperiyasının siyasi cəhətdən üstünlük qazanması onun prinsipi idi.

Odur ki, Bilgə xan hakimiyyətə gəldikdən sonra dərhal sülh bağlamağı təklif elədi, imperiya hökuməti nəinki razılaşmadı, həm də hərbi fəaliyyəti fəallaşdırdı. Lakin Çin mənbələri şimal ordusunun müvəffəqiyyətləri barədə utancaqlıqla susur. Əvəzində qərb türkləri vəhşi heyvanların ovlanmasında yaranmış məhdudiyyətə görə üsyan elədilər və Qərb canişini Çjan Çji-yunu əsir aldılar. Ona sədaqətli olan çinli köməkçilər onu çətinliklə geri aldılar.

Xaqanlıqda yeni hökumətin ömrü çox oldu. Xanın ölümü Xaqanlığa tamamilə gözlənilməyən xilaskarlıq gətirdi. Sərt siyasət teles tayfaları üçün Qapağan xanın adını iyrəncliklə çəkirdilər. Türklərlə döyüşdə məğlubiyyətə uğrayaraq, onların bir çoxu cənuba qaçdılar və Çinə getdilər. Lakin səhranın «uzun qulaqları» ona çevriliş haqqında xəbəri çatdıran kimi onlar yeni ağalarını tərk edərək doğma yerlərinə qayıtmağa başladılar. İşin belə dönüşünü çinlilər Tonyukukun köçərilərə nüfuzu ilə izah edirdilər, lakin görünür, Bilgə xanın elan etdiyi yeni siyasi prinsiplərin də az əhəmiyyəti olmamışdır.

Teleslərin qayıtması bu və ya digər dərəcədə Xaqanlığın qüdrətini bərpa elədi və imperiya diplomatiyasının müvəffəqiyyətini göstərdi. İmperiyalılara yalnız bir şey—dəhşətli müharibəni qızışdırmaq qalırdı.

Lakin bunu etmək mümkün olmadı, çünki 714-cü ildə tibetlilər basqın edib Nanşan və Alaşan dağının ətəklərində dövlətin ilxılarını tutub apardılar. Tibetlilərin ikinci dəfə basqın etməsi imperiyalıları Kesidə bütün nizami qoşunlarını toplamağa və düşməni dəf üçün onlardan istifadə eləməyə məcbur etdilər. Tibetlilər darmadağın edilib dağa tərəf qovuldular, lakin imperiyalıların itkiləri az deyildi, dağlıların azğınlığı isə məlum idi. Buna görə də əvvəllər tibetlilərə cehiz kimi verilmiş torpaq sahəsini tutaraq imperiya ordusu Xuanxe çayının sahilində sərhədləri müəyyən etdi və 718-ci ildə tibet yürüşlərini dəf elədi. Türklər fasilə qazandılar və ondan istifadə edə bildilər.

Bilgə xan vaxt itirməyərək, bir tərəfdən, «öz torpaqlarını — sularını atan və tabqaçlara sığınan» doqquz-oğuzlara çağırışı elan etdi. Bildirdi ki, tabqaç xanı «onları cinayətə sürükləmişdir və cənubda tabqaçların adı və şöhrəti məhv olmuşdur». O onların xalqını «qiymətləndirməyə və onun əmisinin — xanın əlindən qurtulanları cəzalandırmamağa çalışırdı.

Digər tərəfdən, o çöldə qalan və müqavimət göstərməklə davam edən uyğurların[*] üzərinə bütün qüvvələri ilə atıldı. O, Selenka ilə aşağı düşərək və onları sıxışdıraraq köçərilərin yurdlarını dağıtdı və geriyə çəkilənləri Xamar-dabanın dağlıq meşəliklərinə qovdu. Uyğurların atları üsyan zamanı öz atlarını itirmiş olan türk döyüşçülərinə verildi. Uyğurların ailələri əsir düşdü və türk xanının «qullarının» sayını artırdılar. Uyğurların eltəbəri yüz süvari ilə şərqə qaçdı.

Bilgə xan hücumun sürətini azaltmayaraq, Xinhana doğru can atdı və tatablara zərbə endirdi. Yürüşün nəticəsi yenə də ələ keçirilmiş at ilxıları oldu, bu isə türk ordusunu qüdrətli və sürətli etdi. Türk sərkərdəsi Yaştarın qərbdə karlukları darmadağın etməsi daha real uğurlar gətirdi. Şimali Cunqariya türklərin əlinə keçdi. 717-ci ilin sonuna yaxın çöl yenidən türk xanının ayaqları altında idi.

**Tərəddüd.** Hakimiyyəti ələ keçirən və eli bərpa edən Bilgə xan nə özünün ciddi ağlı, nə də bir köynəkdən olan qardaşının ağlı tərəfindən həlli mümkün olmayan problem qarşısında qaldı. Uyğurların təbəəliyini qəbul edərək müharibə başlamaq olardı, lakin arxa cəbhədə türkeşlərin bərpa olunmuş qüdrəti olmadığından qoşunu praktik cəhətdən möhkəmlətmək və müdafiə mövqeyi tutmaq lazım idi. 714-cü il qanunundan sonra Tan hökumətinə qarşı çıxmağa hazırlaşan buddaçıların himayədarlığı türkeşlər ilə bağlı idi. Sürgündən çağırılmış Tonyukuk hər iki planı rədd etdi. O, hücumu perspektivsiz hesab elədi, çünki Çində «xalq razılıqla yaşayır, illər məhsuldar olur», iqamətgahın ətrafında tikilmiş divar və Budda məbədinin inşası məhvedicidir, ona görə ki, «bu təlim insanları davakar və güclü deyil, zəif və insansevər edir». Bundan əlavə, Çində təqib edilən buddizmin müdafiə olunması Tan imperiyasına çağırış demək idi ki, bu da Tonyukukun fikrincə, yersiz idi.

Beləliklə, o hər iki hərəkət planını ləğv etdi və xana sülhü xahiş eləməyi təklif elədi. Lakin imperiya hökuməti belə hesab etdi ki, xan sadəcə olaraq vaxt qazanmaq istəyir. Etiraf etmək lazımdır ki, bu vəziyyəti düzgün başa düşmək idi.

Həqiqətən, «qüdrətli üçlüyün» — Bilgə xanın, Kül-tiginin və Tonyukukun vəzifəsi xaqanlığı bərpa etmək idi. Bu, Tan imperiyasının çin hökmdarlığına çevirə və çin təbəələri ilə mübarizədə onun arxalandığı köçərilərin sülaləsindən ayıra bilərdi; bizim gördüyümüz kimi, sonuncular sülalənin qəddar və amansız düşmənləri idilər. Çöl Tan sülaləsi kimi, Çin üçün də həmçinin zəruri idi. Buna görə də sülh qəbul edilmədi, Tonyukuk çoxsaylı düşmənlə mübarizə aparmağın yeni üsulunu axtarıb tapmalı oldu və o bu üsulu tapdı: türklərin yaxın vaxt üçün strateji prinsipi fəal müdafiə, siyasət və ideologiyanın prinsipi isə özünü Çinə qarşı qoymaq idi.

[*] Maraqlıdır ki, tabe olan türklər «doqquz-oğuzlar», müqavimət göstərənlər isə uyğurlar adlanırlar. Görünür, bir xalqa verilmiş bu iki adın semantik kökləri vardır.

Bu proqram siyasi xətdə sərt dəyişiklik demək idi. Moçur özünü xalqın yox, Çin hökumətinin düşməni hesab edir, sülh bağlayaraq, mədəni yaxınlıq saxlamaq üçün şahzadələri Çinə göndərir. Doğrudur, o antibuddaçı qruplaşmaları ilə də əlaqə saxlayırdı, belə ki, imperatriça U buddizmi müdafiə edirdi. Güman etmək olardı ki, yeni xanın onun düşməninin düşməni olan qüdrətli budda icmasını müdafiə eləməyə daha çox əsası vardı. Lakin o bunu etmədi və Tonyukukun özü-özünün siyasi istiqamətini dəyişdi. Məsələ başlıca, həlledici döyüş qüvvəsi olan uyğurlardır. Onlar imperiyanın hüdudlarından qaçırdılar, çünki bütün «çinçilik» onlar üçün iyrənclik doğururdu. Buddizm isə bu dövrdə özünü məhz çin müxalifəti, Tan sülaləsinin barışdırıcı yeni siyasəti ilə bağlayırdı. Buna görə də türk xanı buddaçıları müdafiə edərək öz dayaqları olan çin əleyhinə sazlanmış əhval-ruhiyyəli köçərilər arasında nüfuzunu itirməli idi. Elə o vaxtdan başlayaraq Yollıqtəkin tərəfindən ustalıqla yaradılan Qutluğun antiçin proqramı meydana çıxdı və inkişaf elədi. Bu proqrama görə köləlik və qan ilə ödənilən Çin hədiyyələri, Tonyukukun sözü ilə desək, türk pəhləvanlarını «insansevər və zəif» etmişlər, çünki onlar Budda və Lao-tszının təlimləri ilə məşğul olmağa başlamışlar.

Beləliklə, nəzərdə tutulan fəaliyyət proqramı ona yönəldilmişdir ki, düşməndən sülhü qələbələr çalmaq vasitəsilə almaq, onu axıra qədər mübarizə aparmağa imkan verməmək lazımdır. Türklərin məqsədi məqbul, ləyaqətlə qazanılmış sülh idi, amma belə sülhü ən qızğın müharibə aparmaq yolu ilə qazanmaq olar.

**Tonyukuk.** İmperiya hökuməti üçün hələ 717-ci ildə ən ağıllı hərəkət daxili müharibələrdə gücdən düşmüş türklərin üzərinə hücum eləmək olardı. Lakin şərait buna mane oldu. 716-cı ildə Qərbdə türkeşlərin dövləti dirçəldi, onun başçısı olan Sulu İmperiyaya açıq-aşkar düşmən idi. Buna səbəb o idi ki, Qərb diyarında İmperiya tərəfindən səlahiyyətli şəxs şahzadə Aşina, yəni türkeşlərin hegemonluğu əllərindən almaq istədiyi qərb türklərinin qanuni xanları idi. Aşina Xan Çindən əlavə qüvvə verilməsini xahiş etdi, lakin heç nə almadı. Hökumət Sulu ilə danışmaq qərarına gəldi və onu baş komandan vəzifəsinə təyin eləmək fərmanını və ona knyaz titulunu göndərdi. Lakin səfirlik karvan yolu ilə yavaş-yavaş gedirdi. Sulu şəraitin onun üçün əlverişli olduğunu bilməyərək hərbi əməliyyata başladı. Kuçi canişinin köməkçisi türkeşlərə qarşı mübarizə üçün karlukları muzdla tutdu və Aşina Xan ilə birlikdə Sulunun üzərinə hücum elədi. Lakin onun heç bir köməyi olmadığına görə müvəffəqiyyət qazana bilmədi. Xan Çanana çıxıb getdi və orada da öldü. 717-ci ildə Sulu Çanana sülh təklifi ilə elçi göndərdi, 719-cu ildə isə Çjunşun xan titulunu, yəni sadiq və itaətkar xan titulunu aldı. Titul gerçəkliyə uyğun gəlmirdi, ərəblərin hücumu isə türkeşlərin əlini bağladı və İmperiya üçün onları təhlükəsiz etdi.

Başqa bir narahatlıq şərqdə meydana çıxdı. Kidan rəhbərlərindən biri olan Ketuğan İmperiya tərəfindən təyin olunmuş knyazı öldürdü və 718-ci ildə onu ölümə görə cəzalandırmaq istədikdə o, çin-tatab dəstəsini darmadağın etdi. Bu

hadisə sakitləşənə kimi bir il vaxt keçdi, yalnız 720-ci ildə imperiya ordusu türk xanına qarşı çıxış edə bildi.

Əvəzində imperiyanın diplomatiyası böyük müvəffəqiyyət qazandı, belə ki, o Cunqariyanın cənub-qərbində məskunlaşan basmal tayfalarını türklərə qarşı müttəfiq kimi cəlb eləməyə müvəffəq oldu. Basmallar böyük türk xaqanlığının qalıqları olub Aşina nəslində olan knyazlar tərəfindən idarə olunurdular.

Çapanda işlənib hazırlanmış plana görə kidanlar, tatablar və basmalar Bilgə xanın iqamətgahına müxtəlif yollarla getməli, lakin eyni vaxtda ora çatmalı və onu tutmalıdırlar. Döyüşçülərin avanqard hissəsini müdafiə eləmək üçün 300 min nəfərdən ibarət İmperiya qoşunu səfərbər edildi. Açıq-aşkar hiss olunurdu ki, bu vəzifəni yerinə yetirmək mümkün deyildir, çünki Mancuriyada və Qazaxıstanda qoşunun hərəkətini razılaşdırmaq ağılsızlıq idi, həm də təkcə köçəri knyazlar arasında deyil, həm də İmperiyanın sərkərdələri arasında da razılıq yox idi. Tonyukuk bunu nəzərə aldı və xana məsləhət gördü ki, narahat olmasın, düşmənin gəlişinə üç gün qalmış şimala tərəf geri çəkilsin və çinlilərin yemək ehtiyatları qurtarana qədər gözləsin. Onların özləri geri çəkiləcəklər. Lakin başqa hadisə baş verdi: basmallar türk ordusuna birinci yanaşdılar, öz müttəfiqlərinin gecikdiyini bilərək geri qayıtdılar. Tonyukukun məsləhətinə görə türklər onları rahat buraxdılar, yəni fasiləsiz hərəkətdə olmaqdan atların və süvarilərin əldən düşüb üzülməsinə imkan yaratdılar, özləri isə sürətlə Beytin — Bişbalığın üzərinə yeridilər və onu qəfil hücumla aldılar. Əldən düşmüş basmallar Bişbalığa tərəf gəlirdilər, bura hücum bazası idi. Lakin onlar istirahət və azuqə əvəzinə orada düşməni tapdılar. Qalanın divarları ilə əhatə olunmuş basmalılar təslim oldular və kampaniyanın planı pozuldu.

Lakin türklər bununla kifayətlənmədilər. Onlar Cunqariyadan öz qoşunlarını çin ordusunun arxasına — Qansuya yeritdilər və Qançjounun, Yunançjounun və başqa yerlərin ətrafını soyub taladılar. Lyan-çjounun komandanı Yan Kinju kibi tayfasından telesləri topladı və öz qoşununu da onlara qoşaraq döyüşə başlamaq üçün qaladan çıxdı. Türklər döyüşü qəbul etdilər. İmperiyalıların gücü piyada ox atanlarda, türklərin gücü isə nizəli süvarilərdə idi. Möhkəm şaxta idi, çin döyüşçüləri əlcəklə yayı çəkə bilmədiklərindən, əllərini dondurdular. Ox atmaq imkanlarını itirərək, onlar türk süvariləri tərəfindən nizələndilər. Qələbə şöhrəti bütün Böyük çölü bürüdü və bütün üsyan edən tayfalar türk xanının bayrağındakı qurd başı qarşısında baş əydilər.

Sonra kidanların növbəsi çatdı. Türklər 721-ci ildə onlara baş çəkdilər. Bu yürüşə aid Bilgə xanın yazılarında ətraflı məlumat olmadığına görə, güman etmək olar ki, o türklərə az qənimət vermişdir, lakin onlar 722-ci ildə tatabların üstünə yeriyərək, onları ən amansız tərzdə darmadağın elədilər, hətta əsir alınmış qadınlar belə qılıncdan keçirildilər. Bundan sonra Tan imperiyasının çöldə müttəfiqi, deməli, müharibənin davam etdirilməsi imkanı da qalmadı.

**Qələbənin sədaları.** Bişbalıq altında qazanılan qələbə çox da böyük olmayan Xoyte Tamire yazılarında öz əksini tapmışdır. «Meymun ilində (720-ci il) yeddinci ayın iyirmi... tabqaçlara tərəf (imperiyaçılara) getdik. İlin doqquzuncu ayında kuşuy qara başlarını mən əzdim; payızda isə qoşunla... tabqaçların üzərinə getdim. Elə çox qənimət var ki... (türklər?) vuruşaraq, heç vaxt məğlub olmayacaqlar». Görünür, bu yazı vəzifəcə çox da böyük olmayan döyüşdə həlak olan türk hərbi rəisinin adından yazılmışdır. Vətənpərvərcəsinə sazlanmış qohumları mərhumun dilindən türk silahının müvəffəqiyyət qazanmasını tərənnüm etmişlər.

Elə həmin abidədə Bişbalıq əməliyyatına həsr olunmuş başqa bir yazı da vardır, orada tamamilə ayrı sətirlər əks olunmuşdur. Həmin yazının məzmunu belədir:

«Biz, meymun ilində, doqquzuncu ay gizlicə Bişbalığa getdik. Xoşbəxt qəhrəman ağır* vəziyyətdə idi, onun qoşunu tələyə düşmüşdü. Qoy orada ərlər xoşbəxt olsun».

Burada əvvəlki yazıdan fərqli olaraq əhval-ruhiyyə tamamilə başqa cür idi: Bişbalıq əməliyyatı fəlakətdir. Bu mətni şübhəsiz ki, divarın o biri tərəfində istirahət və yemək tapmaq barədə fikirləşən, amma tələyə düşən bir basmal yazmışdır. Yəqin ki, o yürüşün rəhbəri deyildir; axırıncı fikiri həm qoşun, həm də müəllifi mühasirədən çıxarmaq üçün başçılarına xoşbəxtliyin nəsib olmasını arzulayan fikir kimi başa düşmək olar. Lakin məlum olduğu kimi, səadət basmallardan üz döndərmişdi, görünür, mətnin müəllifi əsir düşmüş və orada daş üzərində həmin mətni həkk etmişdir. Bu yazı ikiqat maraq doğurur, o nəinki tarixi sənəddir, həm də mədəniyyət abidəsidir.

Məlum olduğu kimi, ölçüsü və hətta qafiyəsi olan bu şer ilk türk şeridir. Şer sillabik ölçüdədir. 4 heca, 5 heca, 8 heca*, üç sətir qafiyə təşkil edir, lakin oxu

---

* Yok sözünü ağırlıq, çətinlik və dağ zirvəsi kimi (vyuk rus sözü də buradan yaranıb) başa düşmək olar. Mətndən belə fikir çıxır ki, basmalların başçısı qoşunu ataraq dağlara qaçmışdır. Mətnin hər iki şərhi mümkündür.

* İkinci qafiyədəki ölçüdən. 4 və 5-ci sətirlərdən görünür ki, hallanma şəkilçisi rus dilindəki быть (olmaq) feli indiki zamanda düşdüyü kimi düşmüşdür. Bu şer Orxon yazılı abidələri dövrünə təsadüf edir. F. Korş burada yekun sətirdə «ritm yaxud növbə ilə gəlmiş olan iki ritm görür» (D. Korş. Древнейший народный стих турецких племен, стр. 1—2). Bu sonuncu qeyd tamamilə düzgündür, lakin o bizi Orxon yazılı abidələrinin sətirlərində şeri deyil, əla işlənmiş nəsri görməyə məcbur edir. Bu nəsrdə ritm də vardır. «İqor polku haqqında dastan»da belə nəsr var. N. V. Qoqolun nəsri isə daha ritmlidir. Lakin ritmli nəsrin olması göstərir ki, patetikalı ritmli nitq, yəni poeziya türklərə yad deyildi. Xoyto-Tomir abidəsi F. Korşun fərziyyəsini möhkəmlədir. 1965-ci ildə İ. V. Steblevanın «VI—VIII əsrlərdə türklərin poeziyası» monoqrafiyasının çapdan çıxması belə bir fikri sübut etməyə çalışır ki, Gültəkinin və Tonyukukun şərəfinə yazılan fikirlər şerlə yazılmışdır və qəhrəmanlıq poemalarıdır. Lakin müəllifi bütün səylərinə baxmayaraq biz şerdə olan ritmi bu sətirlərdə tapa bilmədik və A. M. Şerbakın «bu yazılı abidələr xarakterinə görə poeziya əsərləri deyildir» (A. M. Ş e r b a k. Соотношение аллитератсии… стр. 145) fikri ilə tam razı olduğumuzu bildiririk.

qiraətində ikinci sətirdə saitin dəyişməsi baş verir ki, onu səkkiz pilləli sətir kimi və daxili qafiyəsi olan iki dörd pilləli sətir kimi oxumaq düzgün olar.

Bu ölçü tatar folklorunda bu günədək qorunub saxlanmışdır:

*Attim karqa*
*Toşti karqa*
*Karqa toşte ak karqa...*

Səslər tam uyğunlaşır.

Hecaların sxemi belədir: a, a, a, b, b, s. Sonuncu sətir yazı abidəsində iki şerə ayrılır. Bu, şerin kompozisiyasından irəli gəlir. Birinci sətir — vəziyyəti təsvir edən tezisdir: ikinci sətir onun faciəsini göstərən antitezisdir: axırıncı sətir — mühakimədir, burada and ünsürü — «qoy olsun» fikri əks olunmalıdır. Bu şerə verilən cəzbediciliyin əhəmiyyətini göstərir; xilas olmağı ondan gözləyirdilər.

And içmə qafiyələri ilə yazılmış qısa şer janrlarına orta əsrlərin erkən vaxtlarında yalnız ərəb poeziyasında məlumdur. Bizim materialımız belə bir məsələni həll etməyə imkan vermir ki, bu, türklərin Orta Asiyada ərəblərlə ünsiyyət saxlayıb onlardan götürməsi yaxud özlərinin müstəqil kəşfləri ilə bağlıdır. Lakin necə olsa da VIII əsrdə qədim türklərin keçədən qayrılmış çadırlarında şer olmuşdur.

**Bilgə xan.** Həm xarici, həm də daxili düşmən üzərində qələbə qazanıldı: ölkə sakitləşdi. Lakin bu, təkcə qəza ekspedisiyaları hesabına yox, daxili siyasətin dəyişməsi sayəsində əldə edildi. 716-cı ildə qalib gəlmiş türklərin özlərinin vəziyyəti yaxşı deyildi. Bilgə xan yazır: «Mən artıq varlı xalq üzərində hökmdar olmadım. Mən öz daxilində ərzağı, zahirində isə paltarı olmayan yazıq bir xalqın üzərində hökmdarlıq taxtına oturdum». Görünür, Kenqu-Tarmandan Qadirqan düzünədək (Xinqan) səpələnmiş türk heyvandarları xeyli dərəcədə qaçqınların qurbanına çevrilmişdilər. Hətta onlar xilas ola bildikləri və ordaya gəlib çatdıqları hallarda belə onların iribuynuzlu əmlakları düşmənlərə qismət olurdu.

Kül-tigin hakimiyyəti ələ aldığı zaman Qapağan xanın bütün silahdaşlarını və məsləhətçilərini, yəni doqquz-oğuzlar üçün daha pislik törədə bilən şəxsləri qılıncdan keçirtdi. Məhz bu adamlar Qapağan xanı üsyan doğuran siyasət yeritməyə ilhamlandırmışdılar. Bilgə xan qeyd edir ki, o xalqla müraciət metodunu dəyişmişdi: «Mən bizə birləşmiş xalqlar arasında od və su keçirtmədim, yəni onlarla davranmağa çalışdım; o yerdə ki, sadiq el və sadiq xaqan vardır, mən orada xeyirxahlıqla məşğul oldum. Mən dörd tərəfdə yaşayan xalqları sülhə məcbur etdim və onları bir-birinə düşmən etmədim, onların hamısı mənə tabe idilər».

Nəticə dərhal özünü göstərdi. Bağışlanma üsyanı yatırtdı, bu da xarici müharibələr aparmaq üçün Bilgə xanın əl-qolunu bağladı.

Bilgə xan daxili türk problemini müvəffəqiyyətlə həll etdi. Türklərin bir çoxu 716-cı ildə çevriliş zamanı dövlət müşavirlərinin qılıncdan keçirilməsindən

xeyli narazı qalmış və «tərəddüd etməyə başlamışdılar». Bilgə xan narazı şəxsləri başçılıqdan məhrum etdi. Lakin o bununla bərabər göstərir ki, «ölməkdə olan xalqı həyata qaytardı, çılpaq xalqı pal-paltarla təmin etdi, heç nəyi olmayan xalqı var-dövlətə çatdırdı, azsaylı xalqın sayını artırdı». O, qənimətlərin bölgüsündə əliaçıqlıq göstərməsi və orduya könüllüləri qəbul etməsi, yəni at minənləri tovlayıb öz yanına çəkib xidmətə aparması sayəsində buna nail oldu. O, bununla da düşmənindən daha çox fəallıq göstərdi, özünü və ordusunu qüvvətləndirdi.

Bilgə xan xarici siyasətini də qətiyyətlə dəyişdi, o İmperiya ilə sülh bağlanmasına nail oldu. O qazandığı əla qələbədən dərhal sonra imperatora müraciət elədi, «Göylər oğlunu ata oğlu kimi qəbul etməyi vəd verdi». Bu barışıq demək idi: bu cür ehtiram xanı heç nəyə təkid etmirdi və ona arzu edilən rahatlıq verirdi. İmperator məsələnin belə qoyulması zamanı çöl hegemonu kimi qalır və nüfuzunu saxlayırdı. Lakin o türklərdən girov almalı idi və o mühafizə dəstəsində xidmət eləmək üçün türk əyanlarından bir nəfəri tələb elədi. Bu, İmperiyanın tabeliyində olan bütün köçəri tayfaların hərbi mükəlləfiyyatı tanımasını göstərməli idi.

Türklərlə haqq-hesabı çürütmək sahəsində axırıncı cəhd 722-ci ildə qəbul edildi. Bilgə xan, Kül-tigin və Tonyukuk Çinə gəlmək üçün dəvət edildilər, onlar İmperatorun özü tərəfindən Tayşan dağında həyata keçiriləcək təntənəli qurbankəsmə mərasimində iştirak etmək üçün çağırılmışdılar. Çinlilərin xanı və onun yol yoldaşlarını girov saxlayacaqları hamıya, o cümlədən, dəvət edilənlərə də məlum idi. Mərasimə çağırılanlar yüksək şərəfə görə minnətdarlıq etməklə kifayətləndilər. Bilgə xan buna cavab olaraq şahzadə qızı özünə arvad etməyi tələb elədi. İmperator razılaşmadı, çünki bu hüquqi cəhətdən Xaqanlığı qəbul eləmək, yəni öz şəxsi gücsüzlüyünü etiraf etmək demək idi. Xan güzəştə getdi və hər il Çanyana «xidmətə» bir nəfər əyanı göndərməyə başladı. Sülh bağlanmasa da, qabaqcadan razılaşdırılmış qaydada həyata keçirilirdi.

Nəhayət, xan ərazi məsələsində də güzəştə getdi. «Tufan»ın (Tibet çarlığı) itlərdən yaranması, Kidan və Xi isə mənim qullarımdır və təbəələrimdir və «türkeş xanı xırda hökmdardır və həm də türk vassalıdır) amma Bilgə xan türkeş xana «böyük şan-şərafətlə» öz qızını ərə vermişdir, türkeş xanın qızını Bilgə xan həmçinin «böyük şan-şərafətlə» oğluna almışdır») fikrini təşəxxüslə bildirməsinə baxmayaraq, Bilgə xan Yeddi Sunu özünə qaytarmağa yaxud tibetlilərin azğınlıq elədikləri Tyan-şandan cənuba doğru olan torpaqları ələ keçirməyə tələsmədi. Hətta Orta Asiya hunlarının varisləri olan türkşatolarla məskunlaşmış Cənubi Cunqariya 714-cü ildə İmperiyanın hakimiyyəti altına keçdiyi kimi, elə onun da hakimiyyəti altında qalmışdır. Sayan qırğızları da xaqanlıqdan ayrıldılar. Bunu ondan görmək olur ki, onların elçiləri dörd dəfə Syuntszunun (713—715-ci illər) yanına gəldilər. Qırğızlar üzərində qələbəni göstərən yeganə iz Qapağan xanın məzarı üstünə qoyulmuş və 710-cu ildə qırğız xanının ölümünü təsvir edən balbal qalmışdır.

Bilgə xan belə bir güzəştlə öz xalqını və öz dövlətini -elini iyirmi illik sülhlə (722—741-ci illər) təmin etdi.

**Sülh.** Bilgə xanın çevik siyasəti sayəsində bağlanmış sülhə demək olar riayət olundu. 727-ci ildə Tibet yenidən İmperiyaya qarşı müharibəyə başladı və türk xaqanlığına qarşı ümumi düşmənə qarşı vuruşmağı təklif etdi. Bilgə xan öz loyal münasibətinin sübutu və 724-cü ildə imperatorun Şofanda, yəni Ordosda mübadilə bazarını açmağa icazə verməsinə minnətdarlıq əlaməti kimi imperatora Tibet fərmanını göndərdi. Bu o demək idi ki, taxt-tacı öz hüququnun və gəlirin bir hissəsi hesabına ələ keçirdi, çünki Çində xarici ticarətin inhisarı kimi o, atları qızıl və ipək verməklə alan xəzinəyə mənsub idi.

Lakin tezliklə imperiya hökuməti iqtisadi münasibətləri köhnə məcraya qaytardı. 725-ci ildə imperiya səfiri Yuan Çjen xanın iqamətgahına gəldi, onu təntənəli şəkildə qəbul etdilər. Burada üç böyük türk — Bilgə xan, Kül-tigin və Tonyukuk onunla danışıq apardılar. Danışıqların məzmunu 727-ci ildə bağlanmış müqavilədən aydınlaşır. Həmin müqaviləyə əsasən hər il türklərə 100 min ipək parça əvəzinə müəyyən olunmuş miqdarda at verilirdi.

Yenidən Çində və xaqanlıqda xalq kütlələri ticarətdə iştirak etməkdən uzaqlaşdılar, hər iki hökumət arasında münasibət isə kəskinləşməyə bilməzdi. Çünki türklər atların, çinlilər isə ipəyin qiymətinin qalxmasını arzulayırdılar.

731-ci ildə Kül-tigin vəfat elədi. İmperator başsağlığı vermək üçün xüsusi elçi göndərdi. Elçilərin arasında ustalar da var idi, onlar Orxon çayının sahilində böyük bir abidə ucaltdılar. Heykəl qoyuldu və məbədgah tikildi, onun divarlarına gözəl mənzərələr çəkildi.

Çin və türk dillərində olan yazılar indiyədək qorunub saxlanmışdır və 1889-cu ildə N. M. Yadrintsev tərəfindən kəşf edilmişdir. Kül-tigin dəfn mərasimi orada ətraflı təsvir olunmuşdur. Bu maraqlıdır. VIII əsrdə beynəlxalq münasibətlərin genişliyini göstərir.

«Başda Udar Senqun olmaqla çin və tatablar ağlar və inləyən vəziyyətdə gəldilər: tabqaç xaqanlığından İsyi və Likenq (Çjan Kyuy və Lyu Syan) gəldi və külli miqdarda hədiyyələr və saysız-hesabsız qızıl və gümüş gətirdi: Tibet xaqanlığından belən gəldi: Günəşli ölkələrdə — Soqd, Berqeker və Buxarada yaşayan xalqlardan isə Nek Senqun və Oğul-Tərxan gəldi. On ox xalqlarından və mənim türkeş xaqanlığımın oğlundan isə möhürün mühafizəçisi Makraç və möhürün mühafizəçisi Oğuz — Bilgə gəldi: qırğız xanın yanından Çur Tarduş - - Inakçu gəldi. Üzərində oyma yazılar bəzədilmiş binanın və daşın inşaatçısı kimi Tabqaçların xaqanı məmurlar (P. M. Melioranskiyə görə kamenoteslər, bəlkə də sənətkarlar — L. Q.) və Çanq — Senqun gəldilər... Daşı... bu qədər nəqqaşları isə toyqunlar və elteberlər gətirdilər (?)».

Burada xaqanlığın yaxın qonşuları sadalanır, 732-ci ildə bütün sərhədlərdə sülh qurulmuşdur. Amma 553-cü ildə eyni dəfn mərasimlərində xatırlanan uzaq

xalqların bokli yaxud mukri (moxe) və Purum — Rim, yəni Bizans xalqlarının elçiləri yox idi.

Xanların bütün səylərinə və istedadlarına baxmayaraq, ikinci xaqanlıq yalnız birincinin kölgəsi idi, 734-cü ildə Bilgə xanın dəfn mərasimi zamanı, ümumiyyətlə əcnəbilər deyil, yalnız türk əyanları xatırlanır. Yuxarıda adları çəkilən bəzi tayfalar: abarlar, üç-kurıkanlar və otuz-tatarlar da həmçinin yox imiş. Lakin bu məlumdur: abarlar orta İşdə məskunlaşmışdılar və Qapağan tərəfindən istila edildiyinə görə daha müstəqil xalq deyildilər. Yakutların əcdadları olan Üç-kurıkanlar türklərin əlindən Sibir cəngəlliklərinə çəkilmişdilər və öz düşmənləri ilə münasibətlərinin saxlanmasına ehtiyac bilmirdilər. Görünür, Amurətrafı cəngəlliklərində gizlənən otuz-tatarlar da belə hərəkət etmişdilər. Əvəzində yeni müəmmalı berçeker xalqı meydana çıxmışdır; maraqlıdır ki, türkeş xaqanı «oğul» adlanmışdır ki, bu da asılılığın müəyyən forması idi.

Bütün bunlar onu göstərir ki, türklər çöldə dinc həyat qurmağı bacarır və istəyirdilər, çünki onlar VIII əsrdə barbar ordusundan dövlət yaratmağa başladılar.

**Uyğurlar cənubda.** Cənuba köçmüş uyğurlar çinlilərlə yola getmirdilər. Onların idarə olunması əlverişli aparılsa da çinlilər tərəfindən özbaşınalıq və intriqa da olurdu. Əlbəttə, uyğurlar bunları dəf edirdilər və şəxsi haqq-hesab çəkmələr meydana gəlirdi.

Van Qyun-qo adlı bir nəfər uyğurların başçısı Çen-tszun ilə dolaşdı. O, bunun ardınca Xesi şəhərinin hökmdarı vəzifəsini aldı və qanuna əsaslanaraq formal şəkildə uyğurları sıxışdırmağa başladı. Uyğurlar şikayət etdilər, hökmdar isə paytaxta məlumat verdi ki, Çen-tzun ayrılmaq istəyir. Süni bürokrat tərəfindən yaradılan yalan sadə qəlbli köçərilərin dodaqlarındakı həqiqətdən inandırıcı oldu. Çen-tszunu göndərdilər və uyğurlar qəzəbləndilər.

Elə bu vaxt Tibetlə müharibə başladı və hökmdar Van Qyun-qo yürüşə çıxdı. Göndərilmiş başçının oğlu Xoşu qisas almaq üçün xalqı topladı və pusqudan hücum edib hökmdarı öldürdü. Üsyana qalxmış uyğurlar Çindən Kuçuya gedən karvan yolunu kəsdilər.

Bu hadisələr ona görə burada belə ətraflı təsvir edilir ki, Tan imperiyasının yaranmış dövlət sisteminin möhkəmliyi haqqında təsəvvür yaratmaq mümkün olsun. Çinlilər və köçərilər heç cür ümumi dil tapa bilmirdilər: onlar hətta bir-birilərinə ehtiyac duysalar belə sakitləşmirdilər, çünki onların psixologiyası bir-birinə yad idi. Toqquşma kortəbii şəkildə baş verirdi və bu əvvəl-axır Tan imperiyasını süquta uğratdı. Xoşu öz xalqı ilə birlikdə Xesi şəhərindən geri çəkildi və yenə də türklərə tabe oldu, lakin tezliklə də vəfat etdi. Oğlu Quli Peylo onu əvəz elədi.

Yuxarıda təsvir edilən hadisənin uyğurlar üçün böyük əhəmiyyəti vardır. O vaxta qədər onlar doqquz tayfa üçün sabit ittifaqa malik idilər. Dörd tayfa xoyku (yəni uyğurlar), kibilər, sıqye və hunlar cənuba getdilər. Sonra tunlo (tonqra) və bastsi tayfaları da onlara qoşuldular. Lakin əlli ildən sonra Alaşan və Nanşan dağı

ətrafından Xalxuya monolit xalq olan uyğurlar köçüb gəldilər. Ümumi tale, daimi müharibələr, özünü yadellilərə qarşı qoymaq və məişətin, dinin, mədəniyyətin müqəddəs ənənələrini kobud yad təsirlərdən qorumaq zərurəti tayfa müstəsnalığı hissini aradan qaldırdı və tayfaları xalq kimi birləşdirdi.

Lakin çin və tibet mədəniyyətinə yad olan uyğurlar onların doğma türk dilindən fərqlənirdilər. Uyğurların mənşəyi haqqındakı əfsanələr bir-birinə oxşasalar da fərqlənirlər. Türklər öz mənşələrini şahzadə və dişi canavardan, uyğurlar isə qurddan və şahzadə qızdan hesab edirlər. Cizgi, an bir olsa da psixologiyadakı fərq gözə çarpacaq dərəcədədir.

Biz sonra da görəcəyik ki, türklərin və uyğurların mədəniyyəti müxtəlif istiqamətli və müxtəlif rəngli olmuşdur. Məsələn, türklər «öz əmək və qüvvələrini yad xaqana verməməyi üsyan şüarı seçmişdilər. Uyğurlar öz başçılarının təhqir edildiyinə görə qisas almaq üçün üsyana qalxmışdılar. Yenə də incə fərqdir, amma səciyyəvidir. Axı bütün etnopsixologiya azacıq nəzərə çarpan incə fərqlərdən yaranır, biz onları atmasaq tarixi faktları prokrust yatağına* yığmış olarıq.

**Xanın ölümü.** Kidanlar da özlərini uyğurlara bənzər aparırdılar. Onların başçısı Ketuqen Çin canişini knyaz Şaoqu öldürüb, onun yerinə Kyuyla adlı bir nəfəri qoydu və 730-cu ildə tatablılarla birlikdə türklərə davam gətirə bilmədilər. Səkkiz korpusdan ibarət qoşun ona qarşı çıxarıldı. 10 min nəfərdən ibarət imperiya korpusu tatablardan təşkil edilən köməkçi qoşunla birlikdə düşmənə qarşı çıxdı, lakin döyüş zamanı Tunqker dağında tatablılar fərarilik etdilər və imperiyalılar qılıncdan keçirildilər. Yeni təyin edilmiş general Şeuquy Ketuqanın yəqin ki, adından göründüyü kimi çinli olan Li Qo-si adlı katibini ələ aldı. Li Qo-si gecə ilə Ketuqanyunun, Kyuynenin və onların bir neçə on nəfər tərəfdarlarının başını kəsdi və geri qayıtdı». Li Qo-si xidmətinə görə Sunma əyalətinin (Cunqariya) canişini təyin olundu, amma öldürülmüş Ketuqanın silahdaşları xaini tutdular və onu öz ailəsi ilə birlikdə xırda-xırda doğradılar. Üsyan davam edirdi, imperiyanın sərkərdəsi Şeuquy 734-cü ildə iki dəfə kidanların üzərinə yürüş etdi, onları darmadağın elədi və üsyanı yatıra bilmədi. Amma onun mübarizə üsulu Çananda bəyənildi, elə 734-cü ildə Çində əvvəllər elçi olmuş, şəxsi görüşü zamanı 727-ci ildə hələ Syuantszun tərəfindən zəngin hədiyyələr verilmiş türk əyanı Bilgə xanı zəhərlədi. Ölməkdə olan xan xaini və onun bütün nəslini qırmaq barədə əmr verdi. İmperator izi itirmək məqsədilə başsağlığı vermək üçün elçi göndərdi.

Lakin müharibə baş vermədi. Bilgə xanın varisi olan oğlu Yollıqtəkin xaqanlığın bütün əyanlarının yekdil razılığı əsasında taxt-taca oturdu. O yazıçı və tarixçi idi, iki Orxon yazısı mətninin müəllifi idi, öz atasının siyasətini davam

---

* Düz gəlib-gəlməməsinə baxmayaraq hamını zorla bir əndazəyə salma — qədim yunan quldurу Prokrustun adından.

etdirərək, o kəskinləşən vəziyyətdən çıxış yolu tapmağa çalışdı və Çinə üç elçi göndərdi. Lakin bununla bərabər o, görünür, kidanları müdafiə edirdi, çünki Mancuriyada partizan müharibəsi davam edirdi.

Qərbdə bütün 30-cu illərdə türkeşlərin Sulu xanı hökmdarlıq edirdi. O, bütün qüvvəsini basqın edən ərəblərlə mübarizəyə sərf etdi, buna görə də onlar onu müzəhhim, yəni «buynuz vuran» çağırırdılar.

İmperiya tibet müharibəsi və ordunun yenidən qurulmasına hazırlıq işi ilə məşğul idi. Buna görə də o hadisələrsiz keçinmədi. Yollıq 739-cu ildə sakitcə öldü. Taxt-tac onun kiçik qardaşı Bilgə Qutluğ xana keçdi. İmperiya onu və onun yeni titulunu — Tenqrixan adını tanıdı. 740-cı ildə o Çinə cavab elçisi göndərdi. Kim düşünə bilərdi ki, sülh fəlakət ərəfəsindədir?

## XXIV fəsil

## GÖY TÜRKLƏR ÖZLƏRİ HAQQINDA

**Kül-tiginə qoyulmuş abidə.** Kül-tiginin cəsədinin külü imperator Syuantszun tərəfindən göndərilmiş çin ustalarının ucaltdığı böyük abidədə saxlanmaq üçün gizlədildi. Deyildiyi kimi, bu abidənin qalıqları 1889-cu ildə N. M. Yadrintsev tərəfindən kəşf edilmiş, 1891-ci ildə V. V. Radlov tərəfindən isə öyrənilmişdir, ora dəfələrlə müxtəlif səyyahlar gəlmişdir, nəhayət, çex arxeoloqu Yisl onu xırdalığına qədər təsvir etmişdir. O, 1958-ci ildə Çexoslovakiya və Monqolustan Xalq Respublikasının birgə arxeoloji ekspedisiyasının işi zamanı abidəni tədqiq etmişdir.

1958-ci ildə ekspedisiya abidənin planını tərtib etdi və onun təxminən yenidən qurulmasını həyata keçirmək üçün təsvirini verdi.

80 X 40 metrliyində olan bütün qurğu şərqdən qərbə doğru uzanır. Abidənin bütün ətrafında qapıya və gildən tikilmiş divarlara qədər yarğan qazılmışdı, onların üstü kirəmitlə örtülmüş, suvaq çəkilmiş və ağardılmışdı. Qapının ağzında bir-birinə baxan, mərmərdən hazırlanmış iki qoyun heykəli qoyulmuşdu. Onun arxasında döşənmiş yol və yağış suyu üçün keramik borudan düzəldilmiş arx qoyulmuşdu, artıq sular buradan axıb gedirdi. Onun arxasındakı çanaqlı bağanın kürəyində (çində əbədilik simvolu) yazısı olan məşhur stela* bərkidilmişdi. Arxeoloqun fikrincə stela üstü kirəmitlə örtülmüş pavilyonda yerləşirmiş. Pavilyonun divarlarına suvaq vurulmuş və ağardılmışdı. Pavilyondan məbədgaha yol gedir: onun yan tərəflərində əyanların və nökərlərin heykəlləri dururdu, onlar sanki fəxri mühafizədə durmuşdular. Məbədin planı kvadratşəkilli (10,25X10,25 m) idi. Onun ağ divarları qırmızı qarışıqlarla bəzədilmişdi, üstü kirəmitli olub sədəflə həkk

* Yazısı olan daş plitə və sütun — tərcüməçi.

olunmuşdu; divarlarda terrakotodan[*] qayrılmış əjdaha maskaları vurulmuşdu. Məbədganın içində qurbangah, Kül-tiginin və onun arvadının mərmər heykəlləri yerləşirdi.

Kül-tiginin heykəlinin başını tapmaq mümkün oldu. O, tamamilə realistcəsinə qayrılmışdı: monqoloid cizgiləri — enli sifəti, monqollara xas göz qapağı, xırda düz burun və qıyıq göz onun Aşin nəslindən olan irqə mənsub olması şübhəsi üçün yer qoymurdu. Başına beş dişi olan çələng qoyulmuşdu, onun üzərində qartala bənzər quş şəkli çəkilmişdi. Kül-tiginin sifətinə tam sakitlik çökmüşdü: görünür, rəssam ölümdən sonra onun sifətini görmüşdü.

Kül-tiginin arvadının başından yalnız bir hissə qalmışdı, o da həmçinin monqoloid cizgilərinə bürünmüşdü. Xüsusilə möhkəm sıxılmış dodaqlar bu qadının iradəli və qətiyyətli olmasını göstərir. Çaydam şor gölündən başlayaraq abidəyə qədər tam 3 km uzunluğunda balballar silsiləsi uzanırdı. Dövrümüzə qədər 169 balbal salamat qalmışdır, amma görünür ki, çox balbal olmuşdur. Bəzi balballara kobud insan sifəti verilmiş, əlləri göstərilmiş, qurşaq təsvir edilmişdir. Yarğan boyu şərqə doğru balballarin ikinci sırası uzanır ki, bu da belə güman etmək üçün belə bir imkan vermişdir ki, balballar divarı dairəvi şəkildə əhatə eləmişlər. Görünür, bu, bəlkə də daha əvvəllər dəfn olunmuş başqa bir ölüyə aid edilən başqa sıradır.

**Orxon mətnləri, onların tərtibi və nəşri dövrü.** Bizim sərəncamımızda iki abidə vardır: iki — kiçik və böyük yazını öz üzərində əks etdirən Kül-tiginin qəbri və Selenk sahilində Tonyukukun yazıları. Orxon çayı sahilində Kül-tigin və Bilgə xanın xatirəsini əbədiləşdirən Çin epitafiyaları da paralel mətn olaraq qalır. İkinci abidənin bəzi hissələri saxlanılır, lakin birinci abidə bütövlüyünə görə xeyli maraq doğurur.

Birinci məsələ yazılı abidənin tarixini müəyyənləşdirmək məsələsidir. Kül-tigin böyük yazısında yazılı abidənin inşasının dəqiq tarixi qoyulub: «Meymun ilinin (732-ci il) yeddinci ayının, iyirmi yeddinci günüdür». Çin epitafiyası da elə bu tarixi gətirir. Məzmunundan məlum olduğu kimi, Çin mətni dəfn təşkil edilən və qəbrüstü abidə inşa edilən vaxt tərtib olunmuşdur. Lakinn bu türk mətninin tərtibi yaxud nəşri vaxtı deyildi, çünki yazılarda tarixi hekayət yalnız 716-cı ilə qədər əks olunmuş və ən maraqlı yerdə kəsilmişdir. Kül-tigin etdiyi çevriliş və onun qohumlarının öldürülməsi xatırlanmır. Görünür bu, təsadüfi deyildir. Bununla belə yazıların mətni 719-cu ildən gec olmayaraq tərtib edilmişdir, çünki orada 720-ci ildə baş verən böyük qələbələr təsvir edilməmişdir və hətta basmalların adı belə mətndə yoxdur. Deməli, biz belə bir nəticəyə gələ bilərik ki, 732-ci ildə daş üzərində həkk olunmuş mətn 716 və 720-ci illərdə, daha doğrusu 717—718-ci illərdə tərtib edilmişdir. Bu dövrdə Bilgə xan silkələnmiş dövləti bərpa edərkən

---

[*] Bişirilmiş sarı, yaxud qırmızı gil — tərcüməçi.

geniş ictimaiyyətə müraciət etdi. Mətnin əvvəlində tarixə səyahət, bəylərə və xanlara nəsihətlərin verilməsi böyük və kiçikdən asılı olmayaraq yazıların bütün proqram xarakteri ilə izah olunur. Kül-tiginin ölümünə qədər, yəni hələ 14 il əvvəl mətnə Kül-tiginin yalnız epitafiyası əlavə olunmuşdur. Görünür, mətnin özü dəyişikliyə uğramayan ədəbi əsər kimi nəzərdən keçirilir. Biz buradan belə bir nəticəyə gələ bilərik ki, xalqa müraciət etməklə həqiqətən Bilgə xan yaxşı nəticələr əldə etmişdir, belə ki, o tanınmışdır. Əks halda daş üzərində mətn əbədiləşdirilərkən dəyişdirilər, yəni əlavələr edilərdi.

Lakin heç bir tarixçi öz əsərini əlavə faktik materialla zənginləşdirməyi əldən verməzdi. Yollıq-təkin müstəsnalıq təşkil etmirdi. O, Bilgə xan epitafiyasına Kül-tigin yazılı abidəsində istifadə etdiyi döyüş və yürüşlər haqqındakı bütün məlumatları daxil etmişdi. O, burada 700-cü ildə Tanqut üzərinə yürüşü haqqında, 709-cu ildə Çiklərin tabe edilməsi haqqında 714-cü ildə Bişbalıq divarları altında türklərin darmadağın olunmayan dəstəsinin geri çəkilməsi haqqında, 715-ci ildə Aqu yaxınlığında doqquz-tatarlarla vuruşması haqqında, 716-cı ilin axırlarında uyğurların fəth edilməsi haqqında, 717-ci ildə tatablar və karluklar üzərində qələbə haqqında, 720-ci ildə Lyançjou yaxınlığında imperiya qoşunlarının darmadağın edilməsi haqqında və 721 — 722 və 723-cü illərdə kidan və tatablar üzərində sonrakı yürüşlər haqqında danışır. Xüsusilə 716-cı ildə baş vermiş çevriliş və qırğının xatırlanması maraq doğurur. Bu yer daha əlamətdardır, çünki bütün epitafiya ondan başlanır. Əvəzində, Kül-tigin yazılarında əks olunmuş hadisələr canlı və əhatəlidir, burada mətn qısaldılır, belə ki, köhnə mətni təkrar eləmək maraqsızdır. Hekayət 734-cü ildə vəfat etmiş xanın həyatının sonuna qədər və hətta bir az da çox verilir. Belə ki, «donuz ilinin beşinci ayının iyirmi yeddinci günündə (755-ci ilin yayı, onun dəfn mərasimi təsvir edilmişdir. Yazıların mətni bu vaxt «bir ay və dörd gün» ərzində tərtib edilmişdir. Mövcud halda Yollıqtəkin təcrübəli idi, yazıçılarla çox vaxt bir yerdə olduğuna görə onları öz-özünə yamsılayırdı. Beləliklə, biz Bilgə xanın epitafiyasını Kül-tigin yazılarının davamı və əlavəsi kimi nəzərdən keçirə bilərik.

Həm də o vaxta qədər Kül-tigin yazılı abidələrinə Tonyukuk yazıları da aiddir. Bu yazı 716-cı ildən sonra tərtib edilmişdir, çünki burada «Bilgə xaqanın xalqına» müraciət olunur və 720-ci ilə qədər müdrik Tonyukukun basmalara qarşı apardığı mübarizədə əldə etdiyi xidmətlər haqqında bir kəlmə söz belə yazılarda verilməmişdir. Bundan əlavə, yazı Tonyukuk qəzəbli olduğu və xalqa müraciət etməklə öz xidmətlərinin xan tərəfindən qiymətləndirilməsinə və onun saraya qaytarılmasına can atdığı vaxt tərtib edilib. Xan titulunu Sulu Çindən aldığı vaxt, 719-cu ildə buna nail olmuşdur. Deməli, yazıların mətni 717—718-ci illərdə tərtib edilib və biz bir mövzuya yazılmış iki mübahisə yaradan yazının qorunub saxlanmasına aid nadir hadisə ilə qarşılaşırıq.

Üçüncü sənəd — «Onqon daşı»dır — o əjdaha ilində, yəni 716-cı, yaxud 728-ci ildə qoyulmuşdur. Birinci tarix düz deyildir, burada Bilgə xanın taxt-taca

oturmasına qədər, yəqin yalnız 716-cı ilə qədər olan hadisələr əks olunmuşdur. Amma 716-cı ildə tərtib edilmiş mətn 12 il sonra qaya üzərində həkk olunmuşdur. Bu abidə xeyli korlanmışdır ki, bu da mətnin oxunması və elmi dövriyyəyə buraxılması işini çətinləşdirir, lakin mətnin bərpa edilməsi onun həmin janrın üçüncü nümunəsi kimi Kül-tigin və Tonyukuk yazılarına aid hesab edilməsinə imkan verir. Mətn 719-cu ildə (qoyun ilində) vəfat etmiş Alp Eletmişin mədhini özündə əks etdirir. Yazılarda mərhumun oğullarına və kiçik qardaşlarına Bilgə xana sədaqətli olmaq vəsiyyət edilirdi, vaxtilə 716-cı ildə çevriliş zamanı o da belə olmuşdu. Bu sənəd istiqamətinə görə Kül-tigin yazılı abidəsinə yaxınlaşır.

**Janr.** Hər üç yazı türk cəmiyyətinin geniş təbəqələrinə müraciəti təmsil edir. Həm də bu müraciətlərin məqsədi heç nə ilə maskalanmayıb; xalqı inandırmaq istəyirlər. Deməli, yazılar — təşviqatdır və tarixi material orada adda-budda verilir. Buna görə də bizim üçün «Tanşu»da hadisələrin gedişinin paralel təsvirinin verilməsi xüsusilə qiymətlidir. Yoxlama zamanı məlum olmuşdur ki, hadisələr kifayət qədər düzgün, amma yarımçıq təsvir edilmişdir. Bu aydındır, belə ki, təşviq sənədində nəinki tərəfgirlik, həm də zidd fikirlər belə yersiz görünür. Belə janrın mövcudluğu inandırır ki, türklərdə sözün gücü real güc hesab olunurdu. Deməli, cəmiyyət inkişaf etmişdi və artıq ictimai rəy mövcud idi.

**Kompozisiya.** Yazıların kompozisiyasının öyrənilməsi maraqlı nəticələr çıxarmaq imkanı verir. Yuxarıda göstərilmişdir ki, Yollıqtəkin və Tonyukuk yazıları mübahisə doğuran sənədlərdir. Onların kompozisiyalarının müqayisə olunması buna şübhə yeri qoymur.* Tam qüvvəsilə «Rəisə yaltaqlanmağa çalışan Alp Eletmişin yazıları bu sahədə maraq doğurur. Tarixin rəsmi şərhindən başlanır; sonra o özünün məmur qohumlarını göstərir; sonra qeyd edir ki, o həm Qapağan xana və Elteriş xana sadiq olmuşdur, Bilgə xana isə tamamilə sadiq olacaqdır. Hətta uşaqları bu prinsipdə tərbiyə edir. Qısaca desək, o oxucunu özünün tam loyallığına inandırmağa çalışır ki, bu da görünür, Kadaz yaxınlığında baş verən vuruşmadan sonra o Kül-tigindən komandanlığı qəbul etməyi zəruri hesab edir. O, Moçuranın salamat qalmış tərəfdarlarından biridir.

---

* Orxon yazılarında mübahisəli məsələləri N. N. Kozmin qeyd etmişdir (классовые лицо атасы Јоллыг-тегина..., стр. 269-277). O, türk cəmiyyətini feodal cəmiyyət hesab edərək, belə hesab edir ki, «Yollıqtəkin o feodal zadəganların nümayəndəsidir ki, onlar öz mənafelərini knyaz evinin mənafeyi ilə birləşdirirdi (стр. 273). Tonyukuk isə yerli təsərrüfata və Uteken düzü ilə az bağlıdır (стр. 276). Bu müddəanın dəlilləri mətndən götürülmüş sitata, türk vəliəhdliyi qaydalarını bilməməyə, hadisələrin ümumi gedişinin və bir sıra faktik səhvlərin şəhrif olunmasına (məsələn, o şərq türklərini «doqquz tayfaları» adlandırır, стр. 268), həm təsərrüfat ukladında, həm də orxonlılar və franklar arasında sosial və siyasi strukturda eyni xüsusiyyətlərin miqdarı haqqında nəticəni mexaniki şəkildə azaldır (стр. 276).

| Yollıqtəkin | Bilgə Tonyukuk | Alp Eletmiş |
|---|---|---|
| 1. Müəllif oxuculara xanı və onun tərəfdarlarını təqdim (§ 1-2). | 1. Müəllif özü təqdim edir: «Mən, müdrik Tonyukukam...» və s (§ 1). | 1. Müəllif özünün bütün qensalogiyasını verir. |
| 2. İltəris və Qapağan xanların müharibələrinin qısaca sadalanması. | 2. Birinci Xaqanlığın tarixinə səyahət | 2.Tarixə səyahət (§ 1-3) |
| 3. Çin mədəniyatinin tənqidi (§ 5-6). | 3. Qütluğun istedadının tənqidi (§ 4-7). | 3. Sədaqət andı: «Mən Qapağan və İltəris əli üçün tərbiyə olunmuşam (§ 3-4). |
| 4. Xalqın davranışının tənqidi. (§ 6-9). | 4. Kiçik miqdarlı xalqlara isnad (§6) | 4. Xalqın davranışının kəskin tənqidi (§ 6-9) |
| 5. Xanın xalq qarşısında xidmətlərinin göstərilməsi, (§ 10): «Mən xaqan olub, heç nəyi olmayan xalqı ayağa qaldırdım, onu varlandırdım, sayını artırdım. Məgər mənim nitqimdə yalan vardır?” | Tonyukukun başçılığı altında yürüşlərin sadalanması: «Mən qoşuna başçılıq edirəm, mən gündüz rahatlıq bilmədən gecələr yatmayıb, və qırmızı qanımı, qara tərimi tökmüşəm, mən işimi və gücümü xalqa vermişəm və mən özüm uzun hərbi yürüşləri istiqamətləndirmişəm (§52). | 5. Öz atasının (§ 5-6) və özünün (§ 10) sədaqətinin göstərilməsi. |
| 6.Yazıların məqsədi: “Türk bəyləri və xalqları bilin!...” və müəllifin imzası: Bu yazını yazan onun nəvəsi Yollıqtəkindir. | 6. Müəlifin imzası və yazının məqsədi: “Mən müdrik Tonyukuk türk Bilgə xaqanın xalqı üçün yazmaq əmr etdim. İltəris xaqanın və müdrik Tonyukukun səyi sayəsində Qapağan xaqan və tüksir xalqları mövcuddur (§ 61). | 6. Yazının məqsədi: uşaqlara tövsiyə edilir ki, Bilgə xana sədaqətli olsunlar və oğulun dəfn olunmuş ataya müraciəti. |

Beləliklə, bir və eyni materialın bir-birinə əks olunması və şərhində kompozisiya paralelliyi görürük. Yollıqtəkin xanı tərifləyir: Tonyukuk birbaşa göstərir ki, xan ağıllı deyildir, «yağlı və kök öküzü müəyyən edə bilmir». Yollıqtəkin Çin mədəniyyətini söyüb biabır edir. Tonyukuk bildirir ki, o özü bu mədəniyyətlə tərbiyə olunmuşdur və bu mədəniyyət ona pis təsir göstərməmişdir. Yollıqtəkin xəyanətə meyl etdiklərinə görə bəyləri söyür, Tonyukuk etiraz edir: «mən türk xalqının üzərinə silahlı düşmənləri göndərməmişəm və yəhərlənmiş atları gətirməmişəm».

Misalların sayını artırmaq olar, lakin elə bunlar da kifayətdir.* Yollıqtəkin və Tonyukuk yazılarını yalnız qarşılıqlı əlaqəli şəkildə öyrənmək olar, çünki orda*

* Kül-tigin və Tonyukuk yazılarındakı hadisələrin paralel şəkildə təsvirə alınmasını müqayisə edərək, R. Jiro təsvir zamanı xırdalıqlarda bəzi mətn uyğunsuzluqlarının olmasını qeyd edir və buna əsasən belə güman edir ki, bir və eyni hadisə deyil, iki müxtəlif hadisə qələmə alınmışdır. Məsələn o təsdiq edir ki, Kökməkdən qırğızların üzərinə iki yürüş olmuşdur və Bolçu yaxınlığında türkeşlərlə də həmçinin iki

daxilində bu yazılar iki partiyanın: qəzəbli şahzadələrin və hər şeyi bacaran əyanların mübahisə doğuran fikirlərini özündə əks etdirir.

Tonyukuk Bilgə xan ilə barışdığı vaxt o başqa cür danışdı: «Mogilyan ordunu divar boyu gəzdirmək və Budda və Lao-tszı məbədini tikdirmək istədi. Qunyuyqu dedi: «türk xalqı say etibarilə Çin əhalisinin yüzdə bir payı ilə belə müqayisə oluna bilməz və o, yeddi dövlətə qarşı dura bilər, türklər biçənək və su ardınca getdiklərinə görə daimi yaşayış yerləri yoxdur və onlar yalnız hərbi işlərlə məşğuldurlar. Güclü olduqda bir şey əldə etmək üçün irəli gedirlər, zəif olduqda yayınıb gizlənirlər.

Tan evinin qoşunu çoxsaylıdır, lakin onları heç bir yerdə tətbiq etmək olmur... Bundan başqa, Budda və Lao-tszı təlimi insanları davakar və güclü deyil, insanpərvər və zəif edir.

Məkrli saray onun hökmdarlarına xoş olan havanı çalır və mövcud siyasi dəbə uyğun gəlir. Bilgə xanın vaxtında olan dəb isə ağsaçlı qoca idi. Tonyukukun saraydakı diribaşlığı yazıların özündə görünür. O, həmin yazıda ölmüş xanların bütün çələnglərini utanmadan öz adına yazır, lakin yaşayanlar barədə qeyd edir: «Bilgə xaqan türksir və oğuz xalqlarını yüksək tutur».

Kül-tigin yazılı abidələrinin böyük hissəsini iki mövzu hekayəti təşkil edir: 550-ci ildən 718-ci ilə qədər türklərin tarixi və Kül-tiginin nekroloqu. Hekayət Bilgə xanın öz adından aparılır, amma yəqin ki, bu hekayəti Yollıqtəkin yazmışdır. Böyük və kiçik yazılar ideologiyasına görə eynidirlər.

Birinci hekayə dünyanın yaradılmasından başlanır; sonra ilk xanların xidmətləri və İlk xaqanlığın dağılması haqqında danışılır. Türklərin Tan imperiyasına tabe olması tarixi çox qısa, həm də ifadəli şəkildə qələmə alınmışdır,

---

vuruşma olmuşdur, çünki təsvirin birində deyilir ki, xaqan ölmüşdür, o birində isə göstərilir ki, xaqan əsir düşmüşdür. Əslində isə xaqan əvvəlcə əsir düşmüşdür, sonra isə qətlə yetirilmişdir. Beləliklə, o hadisələrin sayını ikiləşdirir və özünün dediyi kimi, bu hadisələrin başlanmasına aid münasib tarix axtarır, məsələn, o təsdiq edir ki, Uçjile 698-ci ildə Tonyukuk tərəfindən əsir alınmışdır, Tonyukuk bundan sonra 701-ci ildə Soqdia üzərinə hücum etmişdir. Bu vəziyyətin qeyri-mümkünlüyü barədə yuxarıdakı səhifələrə bax (səh. 291—294). Mətnin hərfi mənada qavranılmasına əsaslanan yanaşma üsulu prinsip etibarilə düzgün deyildir. Müxtəlif müəlliflərin, hətta şahidlərin məlumatları heç vaxt bir-birinə uyğun gələ bilməz: biri bir şey görür, əvəzində başqa şey deyir, başqası da əksinə. Həm də təsvirlər bir çox illər keçdikdən sonra müxtəlif məqsədlər və müxtəlif əhval-ruhiyyələrlə yaddaşa görə tərtib edilmişdir. Onlar arasında fərqin olması labüddür. Həqiqət isə mənbə mətnindən ayrı-ayrı ifadələri və qramatik formaları ayırmaq yolu ilə deyil, tarixi tənqid və vəziyyəti bütövlükdə təhlil yolu ilə müəyyən oluna bilər.

* A. N. Bernştam belə hesab edir ki, (Социально-экономический строй…, стр. 40—45) Tonyukukla aparılan mübahisə Moçjo-xaqana qarşı yönəldilmişdir. Lakin bu zaman unudulur ki, məhz Moçjo dövründə Tonyukuk güclü idi və 716-cı ildə baş verən qırğın zamanı öz qızı, Mogiyanın arvadı sayəsində sağ qalmışdır, lakin o yeni xan tərəfindən sürgün edilmişdir (N. L. B i ç u r i n. Собрание сведенений, т. I, стр. 237). Bununla belə, Bernştam Tonyukuku «mühafizəkar platformanın nümayəndəsi, «bəylərin mütərəqqi mövqelərinə» qarşı yönəldilmiş müxalifətçi hesab edir. Bu müddəanın arqumentlərinin olmaması onunla mübahisəyə girmək imkanından məhrum edir.

Funyanyanda üsyan isə bir sözlə xatırlanır. Sonra xilaskar İltəris xan çıxış edir; müəllif onu təriflməkdən doymur. Müharibələr Qapağan xanı tamamilə yormuşdu, sonra xalqa nəsihətlərin verilməsi gəlir. Müharibə xaqana qarşı münasibətdə rəzillik etmişdir, yəni o «uçub» getmişdir, o ölmüşdür. Bilgə xanın özünün xidməti ilə mətn yazılmışdır (hərbi müəssisələrə nisbətən daxili islahatlar daha çox). 720-ci ildə baş vermiş müharibə və basmallar haqqında yenə də bir söz deyilmir, odur ki, belə hesab etmək lazımdır ki, mətn 720-ci ilə qədər tərtib edilmişdir, lakin bir halda ki, kidanlar və tatablar düşmən cərgəsində xatırlanır, elə güman etmək olar ki, böyük yazı 718—719-cu illərdə, yəni kiçik və Tonyukuk yazılarından bir il sonra yazılmışdır.

Bu hissədə Kül-tiginin yazısı kompozisiya və ideoloji cəhətdən Yollıqtəkinin yazısını təkrar edir. Buna görə də belə fikir irəli sürülür ki, birinci kiçik yazı olmuşdur, Tonyukuk ona cavab vermişdir, həmin yazıya cavab olaraq böyük yazının mətni tərtib edilmişdir. Amma bu, yalnız güman olaraq qalır.

İkinci hissə — Kül-tiginin nekroloqudur. Qeyd etmək lazımdır ki, atası Qutluğun ölümü zamanı Kül-tiginin yaşı tərcüməçi tərəfindən təxmini olaraq 7 yaş göstərilir, amma bu düz deyildir, çünki o vaxt, yəni 693-cü ildə onun 9 yaşı, bəlkə də artıq 10 yaşı tamam olmuşdur. Sonra 700-cü ildən 716-cı ilə qədər olan yürüşlər ətraflı təsvir olunur. Kül-tiginin öldürdüyü düşmənlərin sayı və onun atlarının adı göstərilir. Görünür, mətnin bu hissəsi Kül-tiginin 716-cı ildə törətdiyi qırğından sonra bəraət qazanma predmeti kimi 717-ci ildə tərtib edilib. Buna görə də xarici düşmənlərlə mübarizədə onun qəhrəmanlığı beləcə diqqətlə qeydə alınıb. Kül-tiginə saxlanan matəm və onun dəfn mərasimi bu mətnin sonuna əlavə olunmuşdur. Kül-tiginin 716-cı ildə göstərdiyi sonuncu qəhrəmanlıq və onun 731-ci ildə vəfatı arasında heç bir məntiqi əlaqə yoxdur, əvəzində 15 illik əsassız xronoloji uçurum mövcuddur. Bunu yalnız onunla izah etmək olar ki, hazır ədəbi əsər — sağlığında yazılmış mədhnamə epitafiya təsiri bağışlayır. Əsərin sonu bu məqsədlə dəyişdirilib. Yazılı abidə Kül-tiginin vəfatı və dəfninin təsviri tarixi ilə başa çatıb. Təşviqati çağırış mətnləri gələcək nəsillərə çatdırılmaq məqsədilə əbədiləşdirilmişdir. Polemika didaktikaya çevrilmişdir.

**Yazılı abidələr mənbə kimi.** İndi bizim üçün daha vacib olan məsələyə keçək: yazıların məzmununa inanmaq olarmı, əgər inanmaq olarsa, onda nə dərəcədə inanmaq mümkündür? Gördüyümüz kimi, yazılar tərəfgir adamlar və həqiqətin aydınlaşdırılmasını qarşılarına məqsəd qoymayan şəxslər tərəfindən tərtib edilib. Odur ki, Yollıqtəkinin və Tonyukukun qiymətləndirilməsi ədalətli ola bilməz. Hadisələrin gedişi də həmçinin tam verilməyib. «Tanşu»da öz əksini tapmış bir sıra bütöv faktlar yazılarda xatırlanmır. Lakin bununla belə, yazılarda VIII əsrdə türklərin mədəniyyətini bizim üçün təsvir edən çoxlu məlumat vardır. Onların dini, tarixi və coğrafi adlar, onların idealları, zövqləri və nəhayət, döyüş taktikası və təşkili sistemi yazılarda Çin mənbələrində də artıq verilib. Belə ki, yazıların tərtibi zamanı bu predmetlər hamıya məlum olsa da az tapındığından

onlar haqqında ötəri söhbət açılır. Buna görə də şüurlu şəkildə təhriflər istisna edilir. Buna inanmaq olar, habelə yazıların əsasında türklərin mədəniyyəti və ideologiyası barədə oçerk yazmaq olar.

Xaqanlıq tarixinin siyasi və strateji problemləri yuxarıda nəzərdən keçirilmişdir, özü də tənzimləyici mənbə kimi «Tanşu» istifadə edilmişdir. Buna görə də biz artıq onlara toxunmayacağıq, diqqətimizi türklərin mənəvi həyatlarının elə tərəflərinə cəmləşdirəcəyik ki, indiyə qədər məhv olduğu ərəfədə qədim türk mədəniyyəti orijinallığına görə diqqətimizdən yayınmışdır.

**Müharibə.** İkinci türk xaqanlığı hərbi dövlət idi, elə buna görə də Kül-tigin yazılarında müharibə xeyli yaxşı təsvir olunur.

Türk bahadırının siması «Roland haqqında mahnılar»ındakı rıtsarı, həm də döyüş taktikasını xatırladır. Döyüş ağır silahlanmış süvarilərin hücumu axını ilə həll olunurdu. Bu vaxt süvarilər arasındakı məsafə elə olurdu ki, hər bir döyüşçü özü-özünə cavabdehlik daşıyırdı. Deməli, döyüşün müvəffəqiyyəti hər bir ayrıca döyüşçünün fərdi hazırlığından asılı olur.

Yuxarıda göstərildiyi kimi, Kül-tigin burada xeyli fərqlənirdi. «Kül-tigin Bayırkdan olan ağ dayçanın üstünə minib hücuma atıldı, bir nəfər döyüşçünü ox ilə vurdu, iki döyüşçünü isə nizə ilə deşdi. O, bu hücum zamanı Bayırkdan olan dayçanı məhv etdi — onun qıçını sındırdı. Sonra o Boşqu adlı boz ata mindi və türkeşlərin sırasına soxuldu; o Şalçı adlı ağ ata minib iki nəfər karluku öldürdü. İzgillərlə döyüşdə isə o Şalçı adlı atını itirdi və Azman adlı ağ atında altı oğuzu öldürdü və yeddincisini qılıncla doğradı. Ordunu müdafiə edərək, 716-cı ildə o «Oğsiz adlı ağ atın belində doqquz döyüşçünü öldürdü və ordanı vermədi».

Beləliklə, təkbətək döyüş vuruşmanın mühüm hissəsini təşkil edirdi. Əgər nəzərə alsaq ki, bahadırlar həmişə çox olmur, onda aydın olur ki, on nəfər sadə döyüşçünü qılıncdan keçirməkdənsə bir nəfər bahadırı sıradan çıxarmaq taktikası daha əhəmiyyətlidir. Pəhləvanlar qoşunun zərbəçi hissəsini təşkil edirdi və adətəb onların ölümü çaxnaşmaya və məğlubiyyətə səbəb olurdu.

Lakin döyüşü aparmağın bu bəsit üsulu heç nə manevr etməyi — arxaya keçməyi (Nizəboyu dərinlikdə qardan keçilən başgicəlləndirici marşları və İrtış çayını üzüb keçməyi yada salaq) istisna etmirdi. Qəflətən hücum etmək amili türk hərbi rəisləri tərəfindən geniş istifadə edilirdi.

Çox təəssüf ki, ayrı-ayrı orduların təxmini miqdarını müəyyən etməyə imkanımız yoxdur. Biz çinlilərin mübaliğəsinə inanmamalıyıq — çünki yüz minlərlə qoşunu çöldə yedirib-içirmək olmaz. Tonyukuk yazılarında Yarış çölündəki türkeşlərin sayı 100 min nəfər — bu, dənizə bənzəyir — çox deməkdir. Tonyukuk başqa bir yerdə isə rəqəmi azaldır, 697-ci ildə Ötüken düzənliyində türklərin qüvvəsini 2 min nəfər müəyyən edir. Deməli, o buradaca izah edir ki, iki qoşun dəstəsini nəzərdə tutur.

Müharibə vaxtı amansızlıq çox güclü olurdu — nə qadınlara, nə də uşaqlara rəhm edilirdi. Onları rüsvaykarcasına qul edir, yaxud sadəcə öldürürdülər. Adətən

erkən inkişaf mərhələlərində dayanan xalqlarda tayfalararası müharibələr zamanı qadınlar toxunulmaz idi.

**İdeologiya.** Xaqanlığın rəsmi ideologiyası iki prinsipə əsaslanırdı: çin mədəniyyətinin inkar olunması və qonşular üzərində şəxsi üstünlük şüuru. Hər iki prinsip tam ardıcıllıqla həyata keçirilir və həm göy türklərin dövlətinin dirçəlişi, həm də məhvini şərtləndirirdi.

Yollıqtəkin və Tonyukuk birinci məsələyə görə yekdildir. Yollıqtəkin yazır: «Bizə məhdudiyyət qoyulmadan qızıl, gümüş, spirt (yaxud taxıl) və ipək verən tabqaç xalqının dili şirin, daş-qaşı isə yumşaq idi. Onlar gözəl dilə və parıltılı daş-qaşları ilə hətta uzaqda yaşayan xalqları belə özünə güclü cəlb etmişdi. Onlar sıx məskən salaraq sonra da özlərinə iyrəng müdrikliyi mənimsədilər».

Kül-tiginin yazılarında bu müdrikliyin nədən ibarət olması izah edilmişdir: «Təhrikçilər və tabqaç xalqı tərəfindən aldadılan yalan nəticəsində, onun başdan çıxarılması sayəsində, habelə kiçik qardaşların böyük qardaşlarla savaşdırdıqlarına, xalqı və hökmdarı bir-birinə qarşı silahlandırdıqlarına görə türk xalqı özünün mövcud olan elini dağılmağa gətirib çıxardı». Tonyukuk dedi: «Mən özüm, müdrik Tonyukuk tabqaç mədəniyyətinin təsiri altında tərbiyə almışam... Xan dedi: «Mənə yaxınlaşın». Mən — müdrik Tonyukuk ona yaxınlaşdım. Tonyukuk yol seçdi və şəhəri çölün sayəsində atdı».

Çin yazıları türklərdə ideya istiqamətinin varlığını da həmçinin qeyd edir. Bu istiqaməti davakar passiezm də adlandırmaq olar. Öz ləyaqətini göstərmək məqsədilə o Çin mədəniyyətini qəbul etməməyin tam izahını verir: «Valideynlərə qarşı onun (Kül-tiginin) hörməti, uzaq ölkələrdə hamıya qarşı mehribanlığı, onun böyüklüyü və xeyirxahlığı onu öz əxlaqının dəyişməsi üçün qorxmağa məcbur elədi». Bu nəzakətli, bir qədər də acı şərhlər yalnız ona görə vacibdir ki, o öz mədəniyyətimizə qarşı qoyulan yad mədəniyyətin şüurlu şəkildə rədd edilməsi faktını təsdiq edir.

Bu an son dərəcə vacibdir: burada nəinki dövlətlərin mübarizəsi, həm də mədəniyyətlərin mübarizəsi, iki baxışın və iki duyğunun mübarizəsi gedir. Böyük çöl Çin olmaması, yalnız özü olması haqda öz hüququnu bildirdi. Hələ hun Mode şanyuyanın vaxtından belə mübarizə gedirdi, lakin burada bu mübarizə sənəddə qeydə alınmışdır. Çinin təsiri altına düşməmək üçün həddən çox səy lazım idi, göy türklər: Qutluğ, Tonyukuk, Kül-tigin və Yollıqtəkin belə səy göstərdilər.

Lakin əgər birinci prinsip göy türklərin elinə tabe olan köçərilər arasında geniş yayılmışdısa, bu prinsip çin sədəqəsindən məhrum edərək ciblərinə mənfi təsir göstərirdisə, ikinci prinsipi qətiyyən qəbul etmək olmazdı və hətta təhqir demək idi. Öz daxilində monolit olan türk eli onun əsasını qoyanların ideyasına görə başqa tayfalar üzərində hökmran olmalı idilər. Tonyukuk öz xidməti kimi qeyd edir ki, o bütün həyatı boyu «türk xalqının adını yüksəklərə qaldırmışdır». Türk xanının qoyduğu «Qaydalar» ondan ibarət idi ki, «bizim qullarımız quldar, qul qadınlar isə quldar qadın olmuşlar».

Bilgə xan bildirdi: «Tufan (Tibet hökmdarlığı) itdən yaranmışdır, Kidan və Xi isə mənim qullarımdır». Türklər Türkeş xanını vassal hesab edirdilər, Çananda verilən ziyafətdə türk elçisi türkeş elçisindən aşağıda oturmaqdan imtina elədi. Türklərin yüksək təşəxxüslülüyü öz vəzifələrinin şüurluluğundan — çöldə orijinal mədəniyyət quruculuğunun təşkil edilməsindən irəli gəlir, lakin o istismarla və hətta təbəələrin ekspropriasiya* ilə sıx əlaqədar, bu isə sonuncuların İmperiya ilə ittifaqdan xilas yolunu axtarmağa məcbur edirdi ki, bu da Xaqanlığın məhv olmasını həll etdi.

Amma gəlin baxaq görək ki, uzun nizələr və iti qılıncları olan göy türklərin mədəniyyəti necə olmuşdur.

**Tarix.** Öz tarixini bilmədən və ona müəyyən münasibət göstərmədən mədəniyyətin heç bir inkişafı mümkün deyildir. Tarixi era etnogenez tarixi prosesinin başlanğıcını bildirir, yəni bu tarixlə bu xalqın mövcudluğu başlanır; həmin vaxta qədər baş verən bütün hadisələr həmin xalq üçün tarix olaraq qalır.

Türklər öz mövcudluqlarını dünyanın başlanğıcından hesab edirlər, lakin onlar belə güman edirdilər ki, dünya heç də elə qədim deyildir. Kül-tigin abidəsi tarixi ekskursiyadan başlanır: «Yuxarıda mavi səma və aşağıda boz torpaq yaradılan vaxt onların hər ikisinin arasında bəşər övladı yarandı (yaxud meydana çıxdı). Mənim əcdadlarım Bumın xaqan və İstəmi xaqan bəşər övladlarını başda oturtdular». Beləliklə, dünyanın başlanğıcı dəqiq eramızdan əvvəl VI əsrlə götürülür. Deməli, dünya cəmi 200 ildir ki, mövcuddur. Burada ən əvvəl onu qeyd etmək lazımdır ki, Orta Asiyada hunların ənənələri kəsilmişdir. Hunların varisləri olan türklər öz əcdadları haqqında heç nə bilmədikləri kimi, Çingiz xanın monqolları da həmçinin türklər haqqında heç nə bilmirdilər. Əgər biz ənənələrdə iki uçurumu — hun və türk xaqanlığı arasında və xaqanlıq və Çingiz xanın imperiyası arasındakı fərqi nəzərə almasaq, Orta Asiyanın tarixi bizə aydın ola bilməz. Fasilələrdə dövr mərhələləri durur.

Lakin çinlilər üçün tarix birbaşa xətt, hadisələrin fasiləsiz cərəyan edən zənciri kimi təsəvvür olunur. Odur ki, Çin epitafiyasının mətni tamamilə başqa tarixi konsepsiya, görünür, təbliğatı nəzərdə tutan konsepsiya haqqında məlumat verir. Ən əvvəl yalnız İn və Yan kortəbii qüvvələrinin oyunu ilə bəşəriyyətin ilkin birliyi elan olunur. Bu nöqteyi-nəzər Tan sülaləsindən olan imperatorları tamamilə təmin edirdi, çünki onların birləşdirisi səyləri yalnız ilkin idilliyanın bərpasına doğru meyl edirdi. Sonra türklər hunların varisləri adlandırılıblar və hunlar çinlilərin tabeliyində olduğu dövrə isnad edilib ki, bu da ümumiyyətlə desək, hər iki xalqın tarixi üçün epizod idi. Burada açıq-aşkar təhsilsiz oxucu nəzərdə tutulur. 630-cu ildə ilk türk xaqanlığının işğal qaydaların aradan qaldırılması kimi nümayiş etdirilmişdir, həm də hərbi şücaət daha lazım olmur. Xaqanlığın bərpası və sonra

---

* Cəmiyyətdə bir sinif və ya ictimai qrup tərəfindən başqa sinif və ya ictimai qrupun mülkiyyətini zorla əlindən alınması — tərcüməçi.

baş vermiş müharibələrin tarixi nəzakətlə buraxılmışdır, lakin «müdaxilə və narahatlığa» son qoyulduğu vaxt, ox və yay ox qabına qoyulduğu vaxt dinc münasibətlərin qurulması müəyyən edilir, onların (türklərin) mənim üçün (imperator üçün) qayğıları yox idi, biz onlardan yalan görməmişdik». Sonra göstərilirdi ki, «xaqan sanki mənim oğlumdur», yəni həyata keçirilməsi mümkün olmayan asılılıq forması deyil, «bağlılıq və ehtiram» müəyyən olunur.

Müasir siyasi xəttə aid prinsipləri əsaslandırmaq üçün tarixi perspektiv cəlb olunmuşdur, lakin aydındır ki, çinlilərin özləri Kül-tigin epitafiyasını tarixi əsərlərə aid etməmişlər.

Bizim üçün başqa şey — VIII əsrdə elmi-tarixi polemikanın miqdarı və onun xarakteri əhəmiyyətlidir. Türklərin öz tarixlərinə münasibəti tamamilə çinlilərdən fərqlənir.

İkinci maraqlı vəziyyət — yazılı mənbələrdə və çin salnamələrində türklərin yaranmasının qeyri-düzgün şərh edilməsidir. Çinlilər iki mifik versiya verirlər, bu versiyaya görə türklər azyaşlı şahzadədən və dişi qurddan törəmişlər. Yazılarda Mif və nağıl əvəzinə dulup xəbəri durur.

Çin epitafiyası etnogenezin məhz bu cür şərh olunmasını təkrar edir, açıq-aşkar əfsanələrdəki köhnə qeydlərə üstünlük verir. İndi türklərin mənşəyi Dinlin ölkəsi ilə əlaqələndirilir, bu ölkədə çoxlu «qəhrəman meydana gəlirdi», yəni hadisələrin dərk olunması yerli təbiətin primitiv — materialist, müəyyən xassələrinə çevrilir. Güman etmək olar ki, hər iki halda türk təsəvvürü qeyd olunmuşdur, bu da türklərdə elmi fikrin tərəqqi etməsinə əsas verir. Görünür, onlar 200 illik tarixləri ərzində mifik, obrazlı təfəkkürdən tarixi və rasional təfəkkür arasındakı fasiləni adlayıb keçmişlər.

Sonra son dərəcə səthi təsvir olunan İlk xaqanlığın tarixi gəlir. Lakin türklərin taxt-taca varisliyinə aid pillə qaydaları qeyd olunmuşdur: «Onlardan sonra onların kiçik qardaşları xaqan oldular, sonra onların oğlanları xaqan oldular». Sonra «hökmdarların və xalqın qeyri-səmimi» və tabqaçların valeh olması münasibətilə giley gəlir. Türk xalqı onda günahlandırılır ki, «öz elini yerindən oynatmış və xaqanı məhvə aparmışdır, bunun nəticəsində tabqaç xaqanına 50 il əmək və qüvvəsini sərf etməli olmuşdur. Yazılı abidə tabqaçları günahlandırmır, çünki onlar düşməndirlər, deməli, bir-birinə ziyan vurmalıdırlar, bir halda ki belədir, onda onlar heç nədə günahları olmayanlar kimi hərəkət etməlidirlər. İlk xaqanlığın tarixi də bununla başa çatır.

Lakin yazılarda tarixi məlumatların kasadlığına ümumi nəzakətsizlik kimi baxmaq olmaz. Ehtimal ki, yazılarla bərabər bizim tapmadığımız yaxud itirdiyimiz başqa mövzulu mətnlər vardır. Axı runi mətnlərin böyük hissəsi ağac və parça üzərində yazılmışdır.

Tarixi xronologiyasız təsəvvür etmək olmaz. Siklvari dövrdən uzunmüddətli dövrə keçid — bu primitivlikdən tarixə keçid deməkdir. VI əsrdə türklər hələ təqvimə malik deyildilər, «vaxtı yalnız otların yaşıllığı ilə müəyyən edirdilər. VIII

əsrdə türklərdə artıq «Heyvan Sikli» qəbul olundu, yəni hər il heyvan adını daşıyır və 12 ildən sonra təkrar olunurdu. Vaxtın belə hesablanması bütün Orta və Şərqi Asiya xalqlarında indi də mövcuddur. Heyvan dövrəsinin mənşəyi xüsusi və hələlik həll olunmayan məsələdir. Yalnız onu demək olar ki, o cənubda yaranmışdır, çünki heyvanlar arasında meymun vardır. Türklər tərəfindən heyvan dövrəsinin qəbul edilməsi beynəlxalq əlaqələrin və iqtibasların artmasını göstərir.

Bu dövrə ilə bərabər «canlı xronologiya» da mövcud idi, məsələn: «Kül-tiginin 26 yaşı olduqda, biz qırğızların üzərinə yürüş etdik; yaxud «Kül-tiginin bu vuruşmada 30 yaşı vardı»; yaxud «Taxt-tacda mənim əmim—xaqan oturduğu vaxt» və s. Güman etmək olar ki, «canlı xronologiya» mövsümi dövrədən (bahardan bahara qədər) heyvan dövrəsinə qədər keçid forması idi. Türklər eradan əvvəl bu haqda fikirləşmirdilər.

Türklərdə tarixin fəlsəfəsi olmuşdur və hətta onun iki istiqaməti bir-birindən fərqlənir. Çinlilər tərəfindən tərbiyə olunmuş Tonyukuk praqmatikdir. O belə güman edir ki, hər işi özü etmişdir, belə ki, o, türk xalqının və xanın rifahı üçün çalışmışdır. Birinci yerdə Mən — Xalis volyuntarizm durur. Dini moment də istisna deyildir: «Tenqri* (səma, ilahiyyat) mənə bilik vermişdir, lakin yer üzərində Tonyukuk özü ayırd edəcəkdir, bu demək olar deizmdir. Bax, elə buradaca Tonyukukun aldığı çin tərbiyəsi özünü göstərir. Tarixi proses mexanikasının, demək olar, bu cür başa düşülməsini biz Çin yazılarında İn və Yan qüvvələrinin ağılsız mübarizəsi fonunda görə bilərik. Taytszun qaydasızlığı oradan götürür və maarifçiliyi tətbiq edir; burada volyuntarizm prinsipi daha dəqiq ifadə olunmuşdur.

Yollıqtəkinin münasibəti tamam başqadır. O, teistdir. Türklər məhv olmağa doğru getdikləri vaxt «Türklərin Tenqrisi və müqəddəs Torpaq — türklərin Suyu belə dedilər: hə, türk xalqı ölməyəcəkdir, qoy xalq yaşasın!». Sonra, Tenqri İltəris xana başçılıq edir və onu yüksəldir, onun qoşununa qüvvə verir və qoşunlar üzərində qələbəni təmin edir. Tenqri nəinki mərhəmət göstərə, həm də yuxarıdan təzyiq edə bilir, bu vaxt torpaq geniş aralanır, lakin Tenqrinin xeyirxahlığını yalvarıb-yaxarıb almaq olar, o kömək edəcəkdir, çünki zamanı (yəni taleni) Tenqri bölür. Qanuni xan Tenqri kimi düşünür. Tenqridə müdrik türk xaqanı meydana çıxır. Göründüyü kimi, Yollıqtəkin mömin adam idi.

---

* Tənçi sözünü intəhasız səma kimi yox, ilahi yaxud dahi — himayədar kimi tərcümə eləmək daha düzgündür, çünki türk xanları öz köklərini səmadan deyil, şahzadədən və dişi qurddan götürürlər. Tenqriyə ilahə mənasında müasir monqollarda da rast gəlmək olur. Məsələn, Dayçin-Tenqri — müharibə ilahəsi, Marsdır. Termini təxmini tərcümə eləməkdənsə, qeyri-düzgün şərh eləməkdənsə, onu tərcümə eləməmək daha düzgündür. Eyni ilə Tenqrinin bu cür qavranılmasına Alp—Eletmişdə də rast gəlmək mümkündür: «Tenqri yuxarıda demişdir: «türk xalqını məhv etmə»; burada yenə də tarixi inkişaf amili kimi fikir özünü biruzə verir. Bununla bərabər Tenqrinin dünyada öz yeri vardır. Bu yer yuxarıdadır. Yollıqtəkin və Alp — Eletmişin dünyagörüşünün bir-birinə uyğun gəlməsi Ongün abidələrinin mətnindən irəli gəlir: «Mən Qapağan və İltəris üçün tərbiyə olunmuşam. Bununla belə, biz təsdiq edə bilərik ki, təhlil etdiyimiz mətndə rəsmi İdeoloji konsepsiyanın ünsürlərini üzə çıxara bilmişik.

**Coğrafiya.** Göy türkləri coğrafi cəhətdən dərk etmək onların davakar yürüşlərindən qat-qat genişdir. Şərqdə Mancuriyanın qədim monqol tayfaları olan kidanlar, tatablar (ki) və otuz-tatarlar* da var idi — türklər Amurətrafı mukri xalqını tanıyırdılar.

Türklərdən şərqdə, dənizdən bir qədər aralı Tünd-sarı, yaxud Dəniz, çay suyu ilə suvarılan «Şantun düzənliyi» var idi. Bu, şimali-şərqi Çin idi.

Türklər cənubda iki dövləti tanıyırdılar. Onlar Çini həm Tabqaç, həm də Tibet adlandırırdılar.

Türklərin Sibir* haqqında bilikləri çox deyildi. Görünür, tayqa onları cəlb etmirdi. Onlar çöl ilə sərhəddə yaşayan yalnız tayfa və xalqları — Şərqi Zabaykalyedə bayırkları, o vaxt Baykal yaxınlığında yaşayan kurıkanları, Qərbi Sayanda yaşayan qırğızları və Yuxarı İrtışdakı karlukları tanıyırdılar. İrtış adı (yazılarda «Artis) bu günlərə qədər qorunub saxlayıb.

Qərbi ölkələr daha çox xatırlanır. Göy türklər Orta Asiyanı Soqdak adlandırırdılar; Sır-Dırya Yençu, Mirvari çay adlanır, Buzqala — Temir — Kapıq keçidi isə — Dəmir darvaza adlanırdı. Böyük şəhərlər öz adları ilə adlanırmış, məsələn, Buxara Türklər ilə həmsərhəd olmayan vilayətlərdən Kürdan, yəni şimali Türkmənistanın səhrası, toharlar, tazik — Ərəblər və Purum-Rim, yəni Bizans imperiyası xatırlanır. Göy türklər coğrafi biliklərin belə genişliyini Birinci xaqanlığın türkyutlarından götürmüşlər. Türklərin qərblə əlaqələri kəsilsə də, biliklər ənənələr üzrə yığılırdı, yəni türk mədəniyyətinin inkişafı davam edirdi.

Sadaladıqlarımızdan əlavə, yazılarda elə adlara da rast gəlmək olur ki, onları açmaq mümkün olmur: müəmmalı Az xalqı şimali-qərbi Monqolustanda yaşayırdılar, onlar ilə yanaşı izgillər və şübhəli görünən berçekerlər məskun idilər. Kül-tigin abidələrində adları çəkilən abarlar izləri silinmiş mukrilər ilə qaynayıb-qarışmışdılar.

Feofilakt Simokatta öz «Tarix» əsərində mukrilər haqqında söhbət açır. O, mukriləri «tauqast»lara, yəni çox davakar olan tobaslara yaxın hesab edir. Biz bu tayfanı soqe və alişe nəsli ilə sıx yaxın yaşayan türkeşlərin tərkibində də görürük.

Şavan güman edir ki, mukrilər çinlilərin moxe adlandırdıqları məhz tunqus qrupuna aiddirlər.

Markvart mukriləri merkitlər ilə eyniləşdirir. Lakin bu tədqiqatçıların hər ikisi mekrin yaxud mukrin xalqını diqqətdən kənarda qoymuşlar. Mukri VII əsrdə Çin mənbələrində moxa adlanırdı və türkeşlərin hissələrindən biri hesab olunurdu,

---

* Çin mənbələrində oğuz—tatarlar şivə adlanırlar ki, bu da qədim «syanbi» sözünün təhrif olunmuş transkripsiya forması idi. (L. L. Viktorova. К вопросы о расселении монгольских племен, стр. 54-62)

* «Sibir» adı bizim eranın V əsrindən hallanır. Obi hövzəsinin və onun axdığı yerlərin ətrafında məskunlaşmış uqor tayfaları, o cümlədən mansilər (vaqullar) belə adlanırdı. «Sibir» adı iki türkyut xanının — Sıbi xan və Şibi xanın (Çin) adından yaranmışdır. Fonetik fərq təmiz dialektlidir: s və ş keçici samitlərdir.

onlar Soqe ilə İli çayının yuxarı tərəflərini və Xamiyə qədər uzanan şimali Tyan-şanda yaşayırdılar. Əslində isə mukrilər ona görə merkitlər ola bilməzdilər ki, onların yerlərinin dəyişməsinə heç cürə haqq qazandırılmırdı, həm də ona görə ki, merkitləri heç cürə Çanani — Tauqastlara yaxın xalq hesab etmək olmaz. Mukrinlər isə Tyan-Şanın və Beyşanın şərq tərəflərindəki Vey imperiyasının qərb sərhədlərinə yaxın yaşayırdılar. Görünür, Quçen və Urumçi arasında yerləşən Moxa şəhəri orada məskunlaşmış tayfanın adını daşıyırmış. İli çayı vadisindən karluklar tərəfindən sıxışdırılıb qovulmuş mukri Tyan-Şanın şimal tərəfindəki öz vilayətinin cənub hissələrində dözüb qalıbmış.

Rəşiddədin onlar haqqında aşağıdakı məlumatı verir: «Bakrin tayfası, onları həmçinin mukrinlər də adlandırırlar; onların yaşayış yeri Uyğuristan ölkəsində, uca dağlarda yerləşir. Rəşidəddinin dediyinə görə, danışıqlarının uyğun gəlməməsi dialektlərin fərqindən asılıdır; həmin xalqı həmçinin o səbəbdən kaprin adlandırırlar. Rəşidəddinin fikrincə, onlar mifik Uğuz xanın əmisinin tayfasından yaranan çöl tayfalarına aiddir və monqollara oxşayırlar. Karaitlər, naymanlar, onqutlar, tanqutlar, bakrinlər və qırğızlar, o cümlədən etnik mənsubiyyəti müxtəlif olan və tam aydın olmayan müxtəlif tayfalar bu bölməyə daxildir. Əbül Qazi də mukrinlər haqqında elə o cür məlumat verir, görünür, Rəşidəddini yüksəklərə qaldırır. Nəhayət, Plano Karpini və Min çin də mukrinləri xatırlayır.

Monqolların dövründə mukrinlərin vilayətini Ugedeyin nəvəsi Xaydunun malikanəsi təşkil edir, sonra görünür ki, Cığatay ulusuna daxil olmuşdur. Cığatay xanlarının hakimiyyəti süqut etdikdə və çöldə özbək tayfa ittifaqı təşkil edildikdə, ora daxil olan tayfalar arasında mukrinlər də var idi. Hazırda mukrinlər yoxdur, doğrudur, 1896-cı ildə Qrumm-Qrjimaylo qarışıq, monqol, çin və türk dillərində danışan hər hansı tayfaların qalıqlarına Karlıktağda rast gəlsə də, onların sonuncu mukrinlər olub-olmamasını demək qeyri-mümkündür.

Türkeşlərin vuruşduqları Sır-Dəryanın aşağı hissələrində məskunlaşmış peçeneqlər olmuşdur, onlar qərbə keçənə qədər «kanqar» adlanırmış ki, bu da alicənablıq və cəsurluq deməkdir.

Nəhayət, Tonyukuk öz xalqını türk-sirk — türk-sir-budun adlandırır. Xirt «sir» adını çin dilində seyanto etnoniminin tərkib hissəsi kimi təsəvvür edir, bu cəhd Q. E. Qrumm-Qrjimaylo tərəfindən rədd edilir, lakin A. İ. Bernştamın qeyri-tənqidi yazıları sayəsində elmdə özünə möhkəm yer tutmuşdur.

Qərb türkləri daim on oxlu xalq adlanırlar. Bu etnonim deyil, qərbi türkyut xanı Işbara Tolis-şad-xanın 635-ci ildə inzibatçılıq fəaliyyətinin nəticəsidir. Altı çub, yaxud altı çublar Orta Asiya hunlarının varisləri olan çuy tayfaları kimi şərh edilir: çuyue, çumi, çumuqun, çuban; onlardan çuban VII əsrin ortalarında iki hissəyə bölünürdü, çuyuedən isə şato ayrılır.

Çuyue (čub) çin yazılarında bilavasitə türklərin qərb qonşuları kimi xatırlanır, bu da təklif olunan şərh üçün əsas verir.

Beləliklə, əhatə etdiyi dairəyə göy türklərin coğrafi bilikləri yalnız çin və yunanlara nisbətən zəif idi, lakin şübhəsiz onların müasiri olan qərbi Avropadan üstün idilər.

**Şifahi ədəbiyyat.** Biz etnoqrafiyaya aid məlumatların təhlilini davam etdirərək, öz diqqətimizi folklara yönəltməliyik, lakin hətta qədim dövrlərə aid olsa da rəvayətlərin böyük hissəsi oyrat dövründə o qədər işlənmişdir ki, tarixi tədqiqat üçün folklar materialının istifadə edilməsinə son dərəcə ehtiyatla yanaşılmalıdır.

Lakin folklorun bəzi ünsürlərini, hər halda türkyut dövründən götürmək olar. N. Ulaqaşevin ağızlardan toplayıb yazdığı dastanlar arasında «Say Solonq» dastanı da vardır, bu dastanda lap qədimə aparan cizgilər vardır. Dastanın süjeti sadədir və orijinal deyildir: pəhləvan hünər göstərir, düşmənlərə qalib gəlir. Burada başqa şey mühümdür: Ulaqaşevin şərhində qiymətli kağızdan söhbət gedir, qəhrəmanın gözəl vasitədən — bacısının verdiyi erdenedən istifadə etməməsi və ya altay dilində rast gəlmədiyimiz «ermen» sözünün işlədilməsi buna misaldır. Lakin ən başlıcası budur ki, altaydan olan qəhrəman Say-Solontun köməyinə İrbis — burkan (bəlkə də, burxan) gəlir; bu şərhçinin fikrincə, dastanın əsasında qədim mif durur».

Bu, İrbis-burkan özü haqqında aşağıdakı məlumatı verir: «Qalın qayanı çaparaq mən işıqlı dünyaya çıxmışam». Şərhçi bunu bir çox xalqlar, xüsusən qafqaz xalqları üçün ümumi motiv kimi izah etməyə cəhd göstərir, lakin onun Amiran və kiçik Mqer haqqında gətirdiyi əfsanələr İrbis barədə olan dastanın əksinədir: Qafqazda pəhləvanlar dağa girirlər, İrbis isə dağdan çıxır. Bundan əlavə, Qafqaz və Altayın əlaqəsi çox problematik bir mövzudur.

Analogiya həddən çox yaxın, Altayın özündə görünür. Rəşidəddinin əsərində türklərin mənşəyi haqqında danışılaraq göstərilir ki, onlar dağa tərəf qovulmuşlar və oradan çıxa bilmirdilər. Belə olduqda onlar bir qalanın yanında tonqal qaladılar, dağ dəmir filizindən ibarət olduğuna görə o əridi və deşik əmələ gəldi, türklər həmin deşikdən çıxdılar.

Burada variantlar bir-birinə uyğun gəlir. Türk İrbis-burkan altaylı Say-Solonqu bəladan xilas edir, onun bacısı ilə evlənir, onlar qardaş kimi bir yerdə yaşayırlar. Məhz bu motiv dastan üçün ikinci dərəcəli olub tarixi əhəmiyyətə malikdir. Bu, təsdiq edir ki, vaxtilə Altayın yerli əhalisi türkyutların qalıqları ilə qaynayıb-qarışmışdır. İrbisin öz adına, yəni Bars adına Orxon yazılarında rast gəlinir, lakin burxan adının ikinci hissəsi şübhə doğurur. İrbis özündə heç bir ilahiliyi saxlamır, onun belə bir titul almaq hüququ da yoxdur. Nə üçün belədir? Burada qədim dövrün yenidən dərk olunmasından söhbət gedir: burxan Buri-xan sözündən yaranmışdır, yəni bu «qurd xan» deməkdir», türkyutlar isə qurd adlanırdılar. Şamanizmin meydana gəlməsi və monqollar və oyrotlar ilə ünsiyyətin başlanması nəticəsində söz yeni məna kəsb etmiş və İrbisə mistik bir rəng vurulmuşdur, bu da onun mahiyyətinə xas deyildir.

Eyni motiv — Ağ — Toyçini Erlikdən xilas edən və onu vəhşi maralların südü ilə əmizdirən ağ qurd motivi L. P. Potapov tərəfindən qeyd olunur, o bu motivi türkyutların mənşəyi haqqındakı əfsanə ilə müqayisə edir və müasir altaylıların əcdadlarının qədim totem təsəvvürlərinin cizgilərini bu mifdə görür.

Türkyut xaqanlığı dövründə meydana çıxan ikinci süjet Alpamış barədə söylənən bahadır nağılıdır. Bu nağılın çox variantı məlumdur, lakin N. Ulaqaşev tərəfindən nağılçının dilindən qeydə alınmış «Alıp — Manaş» adlı altay versiyası daha qədimdir. Onun məzmunu türkyutların tarixi üçün mühüm əhəmiyyət kəsb edildiyinə görə qısa verilmişdir. Alıp — Manaş nəhəng pəhləvan imiş; valideynləri onu Qırğız xanın gözəl qızı ilə evləndirirlər. Lakin Alıp-Manaş öz arvadını sevmir və Ağ Xanın qızı gözəl Erkə Qarağçını axtarmağa başlayır. Müxtəlif macəralardan sonra bahadır Ağ Xana əsir düşür və vəhşi qazın qanadlarından ona kömək olunması haqqında evə xahiş məktubu göndərir. Bahadır xilas eləmək üçün göndərilən ögey qardaş onu xilas etməkdən imtina edir və əsir üçün verilən tilsimli yeməyi yeyir. Bundan sonra Alıp Manaşa oxşayan xəyanətkar qardaş dostunun arvadına yiyələnmək üçün geri qayıdır. Bahadırı onun atı tilsim gücünə xilas edir. Bahadır və at birlikdə Ağ Xana qalib gəlirlər və onu bir çox bahadırların məhvində günahkar hesab edilən qızı ilə birgə öldürürlər. Ağ Xanın xalqını və mal-qarasını bahadır «cibində» Vətəninə aparır — bu altay nağıllarında düşmənin xalqını və mal-qarasını götürüb aparmaq formasıdır. Lakin o evə keçəl və qoca obrazında qayıdır, bundan istifadə edərək öz xain dostunu cinayət başında tutur. Təhlükə hiss edən xain dost durnaya çevrilərək uçub gedir. Alıp-Manaş isə yürüşdə əldə etdiyi əsirləri və mal-qaranı öz torpağında yerləşdirərək xalqı üçün bayram şənliyi düzəldir.

Burada maraqlı cəhət çoxdur: gözəl — «Ağ Xanın» qəddar qızının ardınca səyahətə getmək Orxon yazılarındakı öyüdləri xatırladır. Həmin öyüdlərdə isə göstərilir ki, öz evində, Ötükən torpaqlarında yaşamaq və bər-bəzək ardınca Tabqaç xanının yanına səy etmək lazımdır, doğrudur orada gözəllər də vardır, lakin yazılı mənbələrdə onlar haqqında söz deyilmir, onlar müəyyən rol oynamalıdırlar. Vəhşi qazın qanadında göndərilmiş məktub Xan dövründəki Su U elçisi haqqında Çinin didaktik hekayəsinə uyğun gəlir, o, hunların əsirliyindən bu üsulla xilas olmuşdur. Özünü qardaş adlandıranın xəyanətkar çıxması mövzusu daha kəskin təsir bağışlayır. Biz ilk xaqanlığın bütün tarixində türkyut şahzadələrini və bahadırlarını ələ almış Çin kəşfiyyatçılarının mübarizə apardığını görmüşük. Türkyutlar bir-biripə az etibar edirdilər, buna görə də sehrkar keyfiyyətlərə bürünmüş at müsbət qəhrəman rolunu oynayır. Nağılın sonunda qəhrəmanın nail olduğu məqsəd üstündə ümidi başa da çıxır. Gözəl qızla evlənməkdənsə, qisası o üstün tutur, Ağ Xanı qızı və ətrafındakı adamları ilə birlikdə öldürür. Lakin praktik maraq öz haqqını qoruyub saxlayır, çəkdiyi əzaba və təhlükəyə görə qəhrəmanı əldə etdiyi qənimətlərlə mükafatlandırır. Sonra gözəl sonluq başlanır, burada qüsurlar cəzalandırılır, xeyirxahlıq isə qələbə çalır. Bu didaktik element VIII əsrdə

günəş altında yer uğrunda aparılan gərgin mübarizədə son dərəcə vacibdir, o həmçinin Yollıqtəkinin və Tonyukunun proqram fikirləri ilə də səsləşir. Hər hansı nəzərdən keçirilməyən süjetlər bizə bildirir ki, bizim təhlil etdiyimiz variant, kim bilir, bəlkə də birinci xaqanlıqda yaranmış, ikinci xaqanlıqda da yayılmış və oradan isə Altaya gəlib düşmüşdür ki, burada da bizim dövrümüzə qədər yaşamaqda davam edir. Məhz qədim dövrün bu ağsaçlı nağılına əsasən biz nəinki türk hökmdarlarının dediklərini, həm də xalqın nə danışdığını və eşitdiyi barədə fikir yürüdə bilərik.

## XXV fəsil

## TİBETLİLƏR VƏ TÜRKEŞLƏR
### Tibetlilər qərbə tərəf gedirlər.

Tan imperiyasının Tibetlə apardığı ağır, qantökücü və baha başa gələn müharibə 718-ci ildə imperiyanın qələbəsi ilə qurtardı. Tibetlilər öz ərazilərinə qovuldular və iti axan Xuanxe çayı iki xalqın arasında sərhəd oldu. Tibetlilər müharibəni davam etdirə bilmirdilər, lakin tibet hökuməti isə vuruşmaya bilməzdi. Taxt-tac uğrunda əyanların apardığı mübarizə Tibeti parçalayırdı. Çarlar yad bir təlim olan buddizmdə dayaq tapmağa çalışırdı: əyanlar isə öz talelərini yerli bon dini ilə bağlayırdılar.

Bon dini Tibetə Orta Asiyadan gətirilmişdi. Bu din cadugərlik ritualları ilə kosmosa itaət eləmək və vəfat etmişlərin ruhlarını çağırmaq ilə əlamətdar idi. Tibetlilər göyün və yerin, günəşin, ulduzların və dünyanın dörd ölkəsinin allahına itaət edirdilər. Onların dini ilə böyük bir epopeya — Amdoya daxil olmuş qəddar düşmənlərlə mübarizə aparan yarımif olan qəhrəman Qesər haqqında silsilə əfsanələr bağlıdır. Qesər müharibəni uduzdu, lakin onun tərəfdarlarının qələbə qazanmaq üçün əsası var idi.

Buddizm ekzotik bir hadisə idi. Onu başa düşüb qəbul etmək üçün bu din məlum intellektual inkişafı tələb edirdi və buna görə də az bir qisim, Hind və Çin mədəniyyətini bilən şəxslər ona yiyələnə bilirdi.

Tibet ordusunun sıralarında buddaçıların deyil, bon dininin tərəfdarlarının vuruşmasını görmək heç də çətin deyildi: sülh və müqavilə bağlanan zaman atlar, öküzlər yaxud itlər, donuzlar və qoyunlar qurban verilirdilər. Aurel Steyn Miranda Xotan Dərya çayının sol sahilində Lobnordan bir qədər aralı VIII əsrə, yaxud IX əsrin əvvəllərinə aid tibet sənədlərinə rast gəlmişdir. Bu sənədlər Buddizmə aid deyildir, çünki orada xatırlanan tibet adlarının çox hissəsi buddaya aidiyyəti yoxdur və bu adlar bu gün də işlənmir: bəzi titullar buddadan əvvəlki saklar dövrünə aiddir: rəmz bon formasına malikdir: «xama» terminine və «om-mani-padmaxum» duasına rast gəlinmir: bundan əlavə, sənədlərin dili və üslub xüsusiyyətləri dini ədəbiyyatın dilindən tamamilə fərqlənir.

VII əsrin əvvəllərindən başlayaraq saray əyanları və bon kahinləri yeddi yaşında taxt-taca çıxarılmış hökmdarın adından ölkəni idarə edirdilər. Əyanların dayağı qoşun idi, qoşunu buraxmaq isə təkcə xarici düşmən qarşısında deyil, həm də hökmdarın qarşısında müdafiəsiz qalmaq demək idi. Qoşunu isə boş saxlamaq olmaz, çünki o sürətlə pozulur. Buna görə də öz dayaq hesab elədiyi qoşunu qanunların hesabına yedirib-içirmək üçün vuruşmaq və qələbə qazanmaq lazımdır; o dövrdə başqa üsul bilmirdilər.

Lakin inkişaf edən hadisələrin gedişini izləməzdən əvvəl, VIII əsrdə Tibet qoşununun özlüyündə nə olduğuna baxaq, çünki onun xüsusiyyətləri tibet ekspansiyasının taleyini aydınlaşdırmağın gələcək təhlilində bizə kömək edəcəkdir.

Qədim tibet silahı haqqında çox az məlumat vardır; çin salnamələri xəbər verir ki, «onların dəbilqə və zireh geyimləri təmiz və parlaq olur, gözlərindən başqa bütün bədənlərini örtür». Hücum silahı haqqında heç bir söz deyilmir, mətndə istisna olaraq ox və sapand barədə adda-budda şəklində söz oxumaq olur. Qədim tibet döyüşçüsünün zahiri görkəmini təsəvvür etmək və tibet ordusunun qabiliyyətinin səbəblərini aydınlaşdırmaq üçün şübhəsiz ki, bu kifayət deyildir. Burada sapandı xatırlatmaq vacibdir, bu, piyadaların olmasını göstərir. Süvari dəstəsi sapanddan istifadə etmir, çünki atın üstündə oturmaqla torpaqdan daş götürüb onu hərləmək mümkün deyildir. Tibetlilərin əcdadı olan junlar da həmçinin çinlilərlə piyada kimi vuruşmuşlar və çox vaxt qələbə qazanmışlar.

Lakin çin salnamələri arxa cəbhəyə dəf olunmaz yürüşlər və reydlər etmiş məhz tibet süvariləri haqqında danışırlar. Görünür, VIII əsrdə tibet süvariləri piyadaların cərgəsində vuruşmuşlar. Bu, oxucunu narahat etməməlidir, məlum olduğu kimi, teleslilər (seyanto və uyğurlar) yürüş zamanı dörd yerdə ata minir, döyüş vaxtı atdan düşür və atları möhtərin yanında qoyurdular.

Atların düzülüşü və döyüşü taktikası ilk dəfə VI—VIII əsrlərdə türkyutlar tərəfindən mənimsənilmişdir və bu taktika dərə-təpəli yer şəraitində az tətbiq edilir.

Tan və tibet ordusunun taktiki imkanlarından çıxış edərək, biz bu və ya digər ordunun müvəffəqiyyət qazanmasının səbəblərini asanca ayırd edə bilərik. Geniş düzəngahda imperiyanın ağır süvari dəstəsinin vurduğu zərbə tibetlilərin bir yerə yığılmış çoxlu adamını qırdı, lakin dağlarda dəmir geyimli döyüşçülər relyefdən istifadə etməyi bacaran ox atanlar və sapandçıların qarşısında aciz idilər. Odur ki, nizami qoşunlar başqa yerdə olduğu vaxt tibetlilərin Çinə daxil olması uğurlu olurdu: imperiya qoşununun hücumu isə dağın ətəklərinə qədər olurdu və orada dayanırdı. VIII əsrdə mövcud taktika ilə Tibetin istila edilməsi üçün Tan imperiyasının gücü çatmırdı və bu da onunla nəticələndi ki, imperiya tibetliləri Sarı çayın arxasına qovdu, gözlənilməz yürüşlər etməmək üçün onların yolunu kəsdi.

Lakin tibet qoşunları xarici müharibələrsiz dərhal evlərə dağılar və ölkənin birliyi pozulmuş olardı. Hökmdarlar bunu başa düşürdülər, şərq yolu hələlik bağlı olduğuna görə onlar öz qoşunlarının gücünü qərbə doğru istiqamətləndirdilər.

Burada, sıldırımların və dərələrin arasında tibet qoşunları öz bacarıqlarını tətbiq edə bilərdilər.

Tibet qoşunları eyni zamanda həm əhalidən, həm də nizami döyüşçülərdən ibarət idi. Buna ağıllı təşkilatçılıq sayəsində nail olunmuşdu, bütün Tibet dörd böyük hərbi dairəyə bölünmüşdü. Onların da hər biri yuxarı və aşağı bölmələrə ayrılmışdı ki, bu bölmələr də öz növbəsində dörd qoşun vahidinə (ton qde) bölünmüşdü. Bu qoşun vahidi bəzən həmin ərazidə məskunlaşan tayfaların üstünə düşürdülər. Tayfanın üzvləri çox olduqda, onları qoşun vahidləri arasında bölürdülər, beləliklə, mövcud bölgünü inzibati — hərbi məqsədlər üçün tayfa üzərində tətbiq edirdilər. Lxas ətrafına toplaşmış qoşun bölmələri ümumiyyətlə tayfanın tərkibi nəzərə alınmadan yaradılırdı, çünki onlar bilavasitə hökmdarın sərəncamında idilər; digər qoşun hissələri də özlərinin ağsaqqallarına tabe idilər, bəzi hallarda vəzifələr varislik ilə ötürülürdü.

Özündə feodal və qəbilə tayfa münasibətlərini düşünülmüş şəkildə mərkəzləşdirici təşkilatçılıq bacarığı ilə birləşdirən tibet ordusunun gücü o dövr üçün çox böyük idi. Tibetlilər üçün qənimətə çevrilə bilən qərb qonşuları onların qarşısında necə dura bilərdi?

**Qərbi Tibet.** İnda çayının yuxarı qolları və ona birləşən qollar tərəfindən torpaqları becərilən Qərbi Tibet VIII əsrin əvvəllərində Tibet hökmdarlığının tərkibinə daxil deyildi. Orada tibetlilərin və dard tayfasının qarışığından ibarət olan əhalinin yaşadığı kiçik malikanələr yerləşirdi. İnda çayının sahilində yerləşən Leh knyazlığında öz mənşəyini yarımifik Qeserdən götürmüş olan sülalə hökmdarlıq edirdi. Saspolda sahibkar Bandel titulu daşıyırdı, kalatsedə isə dard knyazlarının sülaləsi hakim idi. Bundan əlavə, ayrı-ayrı kəndlər heç kimə tabe olmayan tayfa başçıları tərəfindən idarə olunurdular. Bütün bu knyazlıqlar bir-birilə düşmənçilik edirdilər, buna görə də heç təəccüblü deyildir ki, tibetlilər 718-ci ildə Tan imperiyası ilə sülh müqaviləsi bağlayaraq, artıq 722-ci ildə kiçik Bolyuy, yəni Gilgit üzərinə hücum etdilər. Qərbi Tibetin və Baltistanın (Böyük Bolyuy) sahibi olduqdan sonra onlar buna da nail oldular.

Baltistan və Gilgil dağ cığırları vasitəsilə Orta Asiyanı tibetlilərin üzünə bağlayırdı, odur ki, bu knyazlıqların orientasiyası uğrunda apardığı diplomatik mübarizə son dərəcə kəskin forma aldı. 717-ci ildə tibetlilər Kuçu üzərinə yürüş təşkil etmək üçün Amurətrafı dağlardan keçməyə müvəffəq olmuşdular. Bundan sonra Böyük Bolyuyun müstəqil yeritdiyi siyasət tarixdə əks olunmamışdır, «Tanşu» adlı coğrafi bölmədə isə qeyd olunmuşdur ki, bu ölkə tibetlilərə tabedir.

**Dağlıq ölkəsi.** Amur ətrafında yerləşən dağlıq ölkədə çoxlu xırda və bir neçə iri knyazlıq, məsələn Kəşmir və Toharistan kimi knyazlıqlar var idi. VIII əsrin əvvəllərindən etibarən onlar ikiqat təzyiqə məruz qaldılar: şərqdən tibetlilər, qərbdən isə ərəblər təzyiq göstərdilər. Təbiidir ki, hakimiyyət başında duranlar öz istiqlaliyyətlərini saxlamaq istəyirdilər və buna görə də İmperiyaya ümid bəsləyirdilər. 710-cu ildə Qərbi Hindiquş knyazlığının Sie şəhərindən Çinə elçi

gəldi. Bunun ardınca isə 713-cü ildə Çinlə diplomatik münasibət yaratmaq və Tibetə qarşı ittifaq bağlamaq üçün Kəşmirdən də elçi göndərildi. Kəşmir hökmdarı köməkçi ordu göndərmək təklifi etdi, o ördunu ərzaqla təmin etməyə də vəd verdi. 720-ci ildə elçilər Çanandan buraxıldılar, formal ittifaq bağlandı, lakin bu ittifaqdan nə Kəşmirə, nə də Çinə xeyir dəymədi.

718-ci ildə Toharistan cabqusunun kiçik qardaşı Çanyana müraciət etdi. O, bildirdi ki, Zabulistan, Kapis, Xüttəl, Kuran Şuman, Şuqnak, eftalitlər, Vahak, Cuzdan, Bamian, Kabadian və Bədəxşan hökmdarlıqlarına başçılıq edir, onlarda ilk iki hökmdarlığın 200 min süvari və döyüşçüsü, yerdə qalanların isə hər birinin 50 min döyüşçüsü vardı. Buna baxmayaraq, o tibetlilərə və ərəblərə qarşı vuruşmaq üçün təkidlə kömək göstərilməsini xahiş edirdi. Odur ki, həqiqətən döyüşçülərin 900 mindən az olmasını güman etmək olar. İmperator dağlıların tibetlilər və ərəblərlə vuruşmaq qərarını bəyəndi və onların knyazlarına yaxşı titullar (720-ci il) verdi. Lakin artıq 727-ci ildə Zabulistandan Çanana məktub gəldi. Bu kömək göstərilməsi barədə məktub idi, çünki ərəblər başlarının üstünü alırdılar. Sonra hər şey sakitləşdi.

Kiçik Bolyuydan gələn elçilər böyük müvəffəqiyyət qazandılar. İnda çayının sahillərində Qərbi Tibetdə yerləşən bu knyazlıq hindlilərə oxşar ari dağ tayfaları olan monlar və dardlar ilə məskunlaşmışdı. Tibetlilər Qaşqarda və Kuçedə yaşayan çinlilərin üzərinə qəfildən hücum etmək üçün Bolyuyun hakimindən onun malikanəsindən Qərb diyarına azad getməyə icazə verməsini tələb edirdilər. Lakin Bolyuy hakimi tibetlilərin səmimiyyətinə inanmırdı və buna haqlı idi, çünki, tibetlilər ondan doqquz şəhər almışdılar. Çin canişini Beytin narahat oldu və Qaşqardan 4 min nəfəri Bolyuya göndərdi.

Bundan ruhlanan bolyuyçular tibetliləri darmadağın edərək öz şəhərlərini geri aldılar. Bolyuy müəyyən müddət İmperiya ilə ittifaq şəraitində oldu, lakin çin yardımı müvəqqəti idi, tibet ilə qonşuluqda yaşamaq isə acı fakt olaraq qalırdı. Bolyuy knyazlarından biri Sudja-radja (Suşiliçji) tibet şahzadəsi ilə evləndi və 20 dağlıq knyazlığı şərqdən Pamirə qədər Tibetə tabe oldu. Qərb diyarı canişininin cəhd elədiyi üç yürüş uğursuz oldu, tibet genişlənməsi davam edirdi. İmperiya hökuməti qərbdə tibetlilərin təzyiqini zəiflətmək məqsədilə 724-cü ildə şərqdə apardığı müharibəni yenidən bərpa etdi. Müharibə 730-cu ilə qədər uğurla getdi, bu vaxt sülh bağlandı. Bu dəfə tibetlilər Bolyuyu var-yoxdan çıxardılar, imperator yalnız diplomatik etiraz etməklə kifayətləndi, bu da, əlbəttə, məğlub olanlara heç bir xeyir vermədi.

Tibetlilər Bolyuyu məğlubiyyətə uğratdıqdan sonra Toharistanın üzərinə hücum etdilər, amma çin qoşunları tərəfindən geri oturduldular.

Çanana Hindistandan da həmçinin elçilər gəlir, tibetlilərə və ərəblərə qarşı vuruşmaq üçün qoşun verilməsini xahiş edirdilər. 713 və 719-cu illərdə həmçinin Kibil də eyni xahişlə müraciət etmişdi. Əgər türk süvariləri tabqaç xanına öz qəlblərini və güclərini verməyi davam etdirirdilərsə, bəlkə də Tan sülaləsi

müsəlmanların qarşısını alar, Tibeti fəth edər, bir-birilə düşmənçilik edib dağılmaqda olan Hindistanı tabe edər və bütün Asiyanı birləşdirərdi. Lakin bu süvarilər sülaləyə qarşı vuruşurdular, sülalə isə ya onlara qalib gəlməli, ya da onları məhv etməli idi.

**İmperiya feodal sistemi.** Orta Asiyaya çıxmaları tibetlilərin qarşısında böyük perspektivlər açdı. Onlar artıq 715-ci ildə ərəblərlə toqquşmağı bacarırdılar. Tibetlilər ərəblərə təklif etdilər ki, onların Sır-Dərya vadisinə bağlılıqlarını qəbul etsinlər, ərəblər isə tibetlilərə Tarimə vadisini ələ keçirmək ixtiyarı verdilər. Tyan-Şandan şimala doğru uzanan çölü türkeşlər ələ keçirdilər, imperiya hökuməti üçün bir ovuc belə ərazi qalmadı. Lakin məhz elə bu dövrdə Orta Asiya Tan sülaləsi üçün xüsusi əhəmiyyətə malik idi. Yuxarıda göstərilirdi ki, bu sülalə çin və türk mədəniyyətinin ünsürlərini özündə əks etdirir, həm də hər iki ünsürü bərabərləşdirmək səyi göstərilirdi. Ənənə çinlilər tərəfindən edilən dövlət çevrilişləri və türklərin üsyanları ilə pozulurdu, lakin Syuntszun məhz qədim ənənənin daşıyıcısı kimi hakimiyyət başına gəldi.

Lakin çöl İmperiyadan tam ayrıldı. 720-ci il türklərin qələbəsi və türkeşlərin qüdrətinin bərpa olunması ilə əlamətdar oldu. Deməli, çöl əhalisinə elə bir əvəz tapılmalı idi ki, o İmperiyanın çin təbəələrinin artmaqda olan nüfuzuna qarşı xidmət eləmiş olsun. Görünür, İmperiya hökumətinin diqqəti Soqdiya və Toharistan knyazlıqları üzərində dayanmışdı, məhz bu dövrdən başlayaraq onlara güclü maraq yaranmışdı. İmperiya hökumətinin davranışında elə sistem müşahidə olunur ki, o Syuantszunun geniş feodal imperiyası yaratmaq barədə fikrinin olması haqqında nəticə çıxarmağa əsas verir. «Ommaj, fua və investitura»* prinsipləri ilə Len sistemi xüsusilə əlamətdardır. Çinin özündə o benefesiyaların* verilməsi ilə məhdudlaşırdı.

Çanan sarayının qarşılıqlı münasibətlər əsası kimi qəbul etdiyi sistem aşağıdakılara aid idi. İmperator qanuni hakimiyyətin yeganə mənbəyi elan olunmuşdu. Göstərilən konsepsiyaya uyğun olaraq yalnız o əcnəbi adamı knyaz təsdiq edə bilərdi. Həm də o əcnəbiyə titul verər və onun şəxsi torpaqlarını vərəsə, yaxud ömürlük malikanə kimi təsdiq edə bilərdi, lakin knyaz bununla belə imperiya sisteminə daxil idi və süzerenə* loyal münasibət bəsləməli idi. Əcnəbi knyazından vergi verməк tələb olunmurdu, əksinə, ona bahalı hədiyyələr, başlıca olaraq ipək göndərirdilər. Çinlilər knyazlıqların daxili işlərinə qarışmağa səy göstərmirdilər, çünki elə bir titul və investitura almış knyazlıqlar udmuş hesab

* Ommaj (homad it - kiçiyin böyük və güclünün himayədarlığı altında olmaq arzusunun ifadə olunmaq təntənəsi; fua fides - kiçiyin böyüyə sədaqətli olması barədə and içməyi; investitura feodalın malikanəsinə vassalın daxil olması. Bütün hamısı — feodal kontraktı deməkdir.

* Benenefisiya — feodalizmin ilk dövründə qulluq əvəzində kral tərəfindən bağışlanan torpaq — tərcüməçi.

* Süzeren — Feodalizm dövründə öz vassallarının hökmdarı olan böyük feodal — tərcüməçi.

olunurdular. Halbuki bu işə görə imperatora — süzerenə (ommaj) haqq verilməli idi. Buna görə də 717-ci ildən 740-ci ilə qədər olan dövrdə türkeş xanı, demək olar bütün Soqdiya və toharistan knyazları və hətta bir neçə Hindistan racı ittifaq bağlamaq məqsədilə Çanana elçi göndərmişdilər.

Lakin belə bir vəziyyətdən imperiya hökuməti necə fayda götürə bilərdi? O özünə yeni könüllü müttəfiqləri cəlb etmək, türklərin ona imtina etdikləri həmin «əmək və gücü» almaq istəyirdi. İmperiya hökuməti sədaqətlilik prinsipindən istifadə edərək nəhəng bir ordu yaratmağa və onun köməyilə Tibeti məhv etməyə, ərəbləri qovmağa və narazı və itaətsiz olanları diz çökdürməyə can atırdı. Lakin bütün bunları şərq sərhədindən bir alay belə çıxarmadan yerli vasitələrlə etmək lazım idi. İmperiyalılar belə güman edirdilər ki, ərəblərin və tibetlilərin soyğunçuluğu qarşısında yaranan qorxu Orta Asiyanın bütün əhalisini onların ağuşuna atacaq və onlar ora təşkiledici əsas* yeritmək məcburiyyətində qalacaqdır.

Lakin Orta Asiya knyazları İmperiyadan heç də bunu gözləmirdilər. Onlar düşmənlərdən qorunmaq üçün müdafiə olmaq istəyirdilər. Əgər davan canişini öz sərəncamında bir neçə on min nəfər nizədaşıyanı var idisə, onda onun müdafiəsi təmin edilmiş olardı. Lakin onun çox zəif təlim görmüş qoşunu, ərəblər və tibetlilərlə müharibədə müttəfiqlərin qüvvəsindən istifadə etmək əmri var idi. Bu müttəfiqlər isə məhz Çinə ona görə müraciət etmişdilər ki, onların bu mübarizədə qüvvələri tükənmişdir. Onlar qoşun göndərilməsini istəyirdilər, Çində isə onlardan yeni qüvvə alınmasını gözləyirdilər. Soqdianada bunu bilən kimi ərəblərə qarşı müqavimət göstərməyi mənasız olduğuna görə dayandırdılar. Məhz elə o vaxt Tan imperiyasının len sistemi ləğv olundu. Xaqan Sulu tərəfindən bərpa olunmuş türkeş xaqanlığı bu vaxt birinci yerə irəli çıxdı.

**Qara türkeşlər.** Yuxarıda göstərildiyi kimi türkeş xalqı iki tayfadan — mukri və abarlardan yaranmışdır. Hələ VII əsrdə türkeş nəsli sarı (mukrinin nəsli) və qara (abarların nəsli) nəsillərə bölünürdülər. Burada nəzərə almaq lazımdır ki, Asiyada sarı rəng adlı-sanlı şəxsləri, qara isə xalqı təmsil edirdi. Bu bölgünün nə vaxtsa öz əsası vardı, lakin artıq VIII əsrdə əcdadlarından irsən keçmiş qarşılıqlı düşmənçilik istisna olunmaq şərtilə sarı və qara nəsillər arasında heç bir fərq hiss etmək mümkün deyildi. Uçjile və Soqe sarılara mənsub idilər; Türk basqınından sonra ordanı bərpa edən Sulu isə qaralardan idi. Sulu çox sadə üsulla özünə nüfuz qazanmışdı: «O hər döyüşdən sonra bütün qəniməti tabeliyində duranlara verirdi,

---

* Boşboğazlıq etməmək üçün Orta Asiya knyazlarının şəxsi malikanələrindən len sisteminə verdikləri verginin siyahısına baxaq; 705-ci ildə Çaç (Başkəndi) knyazı və Fərqanə hökmdarı Bahadur tudu; 718—719-cu illərdə Buxara Tuqşadı və Səmərqənd Kürəki onların ommajını qəbul etmək və ərəblərdən xilas olmaq üçün qoşun göndərmək barədə xahiş etmişdir; 720-ci ildə Zabulistan və Gibin hökmdarlarına Len vergisi ayrılmışdır. 727-ci ildə ərəblər tərəfindən sıxışdırılan Toharistan Yabqusu da vassallar sırasına qəbul olunmağı xahiş etmişdir. Sonra təkrar xahişlər və vergilər gəlir. Mənzərə aydındır.

buna görə də nəsillər razı idilər və ona bütün qüvvələri ilə xidmət edirdilər». Sulu qərbdə hücuma keçən ərəblərə qarşı vuruşaraq türk xanı, tibet tsenposu və 722-ci ildə imperator ilə diplomatik müqavilə bağladı. İmperator Aşin nəslindən olan şahzadə qızı ona ərə verdi. O, imperiya ordusunda xidmət edən xanlardan (Xuay-dao) birinin qızı idi. Bu onu və onun ərini nəinki köçərilərə, həm də imperiyanın bürokratik zadəganlarına aid etdi, 737-ci ilə qədər hər iş tam yaxşı gedirdi.

Türkeş xaqanlığı və Tan İmperiyası arasındakı münasibətlərin salnaməsi yuxarıda təsvir edilmiş len sistemini gözəl təsvir edir. 717-ci ildə Sulu özünü xaqan elan edərək ərəblər və tibetlilər ilə birlikdə Bohuan (Yaka-arıq) və Daşidə (Ağsu) yerləşən imperiya qarnizonuna hücum etdi. Yalnız türk şahzadəsi Aşin Xyanyanın vaxtında işə qarışması nəticəsində vəziyyət dəyişdi, çünki o karlukları gətirmişdi. Lakin artıq 718-ci ildə Sulu knyaz vəzifəsi və titulunu aldı, o biri ildə isə o rəsmi olaraq «sədaqətli və sakit xan» adlanmışdır. Elə bu vaxtdan o ərəblərlə fəal mübarizəyə başlamışdır, həm də o ərəb sənədlərində «Çin imperatorunun qohumu» kimi adlanır ki, bunu da qohumluq münasibətlərinin qeyd edilməsi kimi başa düşmək olmaz. İmperiya ilə türkeşlərin ittifaqı onlara təmin edilmiş arxa cəbhəni verdi, çünki onların şimal qonşuları — karluklar imperiya siyasətinin məcrasında dururdu.

Ərəblər öz tərəflərindən türkeşləri özlərinin müttəfiqləri etməyə səy göstərirdilər, lakin onların metodları islamı təbliğ etmək idi. Xalif Hişam (724—743) təbliğatçını Sulunun yanına göndərdi, ona müsəlman etiqadını qəbul etmək təklifi verdi. Bütün müsəlmanların dini və ruhani başçısına xalifin siyasi cəhətdən tabe olunması da həmin təklifdə öz əksini tapmışdı. Xan elçinin iştirakı ilə qoşuna baxış təşkil etdi və sonra tərcüməçiyə dedi: «Bu elçiyə de, qoy o öz ağasına desin ki, bu döyüşçülər arasında nə dəmirçi, nə dərzi vardır; əgər onlar islamın dediklərinə əməl etsələr, bəs onda həyat vasitələrini necə əldə edəcəklər».

Türkeş xanı bildirdi ki, o xəlifəyə eyni dinə xidmət edənlərin nə üçün lazım olduğunu bilir. Ərəblər o vaxtlar artıq yeni dini qəbul etmiş şəxslər üçün vergi güzəştlərini ləğv etmişdilər, onlardan müsəlmanların azad olduqları xərac alınmasını davam etdirirdilər, habelə onlardan öz qoşunlarının sıravilərinin sırasını artırmaq kimi istifadə edirdilər. Buna baxmayaraq imperiya ilə dostluq və Soqdiya kəndlilərinin xidmətləri türkeşlər tərəfindən ipək və qızıl ilə ödənirdi. Odur ki, Sulu özünə xas olan bir enerji ilə xəlifənin qoşununa qarşı mübarizə aparır və onların sonrakı hərəkətini dayandırır.

Türkeşlərin qüdrətinin artması soqdiyalılara ərəb zülmünün qəddarlığından qurtarmaq ümidi verirdi. 720—721-ci illərdə Soqdiyada üsyan baş verdi. Ərəblər üsyanı son dərəcə tez yatırtdılar. Lakin üsyan yenidən 724-cü ildə baş qaldırdı, bu dəfə türkeşlər qaçqınlara köməyə gələ bildilər. Ərəblər son dərəcə qətiyyətli hərəkət etdilər. Üsyanın rəhbəri kəndli Divaştiç əsir alındı və çarmıxa çəkildi. Buna baxmayaraq, türkeşlər və sağ qalmış qaçqınlar Soqdiyada ərəb hakimiyyətini

məhv etdilər. Yalnız 728-ci ildə təkrar hücum sayəsində Soqdiyada şəhər yenidən ərəblərin əlinə keçdi.

Soqdiyada türkeşlərin hərəkətini təhlil edərək, biz nə böyük döyüşlər, güclü zərbələr, nə də düşünülmüş əməliyyatlar görürük. Türkeşlər kiçik müharibə aparmışlar. Onların güclü süvari dəstələri hər yerdə ərəbləri narahat edir və daim onları tam əldən salırdı. Soqdiya əhalisinin köməyi ilə bu taktika daim ərəb qarnizonlarını son dərəcə gərginlikdə saxlayırdı. Döyüş vaxtı alınmış şəhərlər və asan yollu vadilərdə yerləşən kəndlər ərəblərə tabe idi. Dağlılar islam və onunla əlaqədar vergilər barədə heç eşitmək belə istəmirdilər. 737-ci ildə Əsəd ibn-Abdullah Xuttal üzərinə hücum elədi və tamamilə darmadağın edildi. Belə olduqda soqdiyalılar qərara gəldilər ki, azad olunma vaxtı gəlib çatmışdır, Səmərqənd, Çaç və Fərab buna hazırlaşdı. Yəqin ki, onlar bu dəfə istismardan yaxalarını qurtaracaqdılar, lakin şərqdə baş verən hadisələr bu prosesə mane oldu.

Türkeşlərin xanı Aşinin qızı bir dəfə bir qasidi nəyə görə isə Kuçuya göndərmişdi. Xahiş əmr formasında verilmişdi, çünki bu əmrdə onun xan ləyaqəti ifadə olunurdu.

Qərb diyarının canişini milliyyətcə çinli olan Du Syan qasidin səsinin ahəngindən hiddətlənib dedi: «Aşinin qızı mənə nə cürətlə əmr edir» — və cavab vermədi. Partlayış üçün bu kifayət idi. Xanın ləyaqətinə ziyan vuruldu, xəbər bütün çöl boyu yayıldı, xanın nüfuzuna xələl gələ bilərdi.

Çinli Du Syan çətin başa düşə bilərdi ki, təkəbbürlülüyü və qaynarlığı müharibə doğura bilər. Müharibənin başlamasına çin və türk psixologiyası arasındakı fərq daha çox səbəb oldu. Çində Du Syandan şikayət yazıla bilərdi, əlaqələrinin geniş olduğuna görə o bundan qorxmazdı; Orta Asiyada qiyam baş verdi, Sulu tibetlilərlə ittifaqa girərək Kuçu şəhərini mühasirəyə aldı. Du Syan qalada yox idi. O, artıq vəzifəcə yüksəlmiş və Çinə yola düşmüşdü. Onun müavini qalanın müdafiəsi qayğısına qalmalı idi, lakin o döyüş meydanına çıxan kimi labüd məğlubiyyətə uğradı. Sulu Qərb diyarındakı çin koloniyalarını qarət etdi, o Du Syanın artıq uzaqlarda olduğunu bildikdən sonra Kuçu şəhəri üzərindəki mühasirəni götürdü. Lakin iki cəbhədə müharibə aparmaq və ərəblərlə mübarizədə müvəffəqiyyət qazanmamaq türkeş dövləti üçün pis nəticələndi. Sulu qarət edilmiş qənimətləri bölmədən saxlamaqda zəifliyini hiss etdi. Bu vaxt təbəələri də ondan ayrılmağa başladı. Türkeş xanlığının bütün təbiəti güzgüdə olduğu kimi bu statda öz əksini tapmışdır. Vəhşilər öz arasında yalnız birgə qarətlə bağlı idilər, lakin hətta bu əlaqə əcdadlarından irsən keçmiş «alicənablar və qaralar» düşmənçiliyi ilə dağıdıldı. Türkeşlərin bütün qüdrəti xanın enerjisi hesabına qorunub saxlanırdı. 738-ci ildə Sulu iflic oldu. Ordada yığılıb qalmış narazılıq dərhal üzə çıxdı. Bağa-tərxan adlı bir əyan (kimliyi, naməlumdur, o həm Çində Gül-yuq-çur* titulu da daşıyırmış, çumuqun tayfasından imiş) gecə vaxtı xanı öz çadırında öldürüb

* O Şavanda Gül-qur adlanır.

hakimiyyəti ələ keçirməyə çalışdı.* Dərhal sarılar və qaralar arasında düşmənçilik alovu ərşə qalxdı. Sarıların başında Bağa — tərxan durdu, digər əyan olan Dumoçji isə Sulu xanın oğlu Tuxosyanya Quçjonu başçı seçdi. Çu çayı ətrafında yaşayan türkeşlər və Talas şəhərini qoruyan qaraların nəslindən olan Jivey Xan Tuxosyanyuya tabe idilər. Sarı türkeşlərdən başqa Qərb diyarı, Çaça, Fərqanə və Keşdən toplanmış silahlı dəstələr, habelə qərbdə olan Böyük qumlu səhra ölkəsindən imperiyanın baş idarə rəisi Baqa-tərxanın bayrağı altına toplaşdılar. Çu çayı ətrafındakı döyüşdə qara türkeşlər darmadağın edildi və Tuxosyan əsir alındı. Qaşqarlılar və fərqanəlilər Qalanı dağıtdılar və Jivey xanı öldürdülər. Sulunun dul arvadları və Jiveyin dul arvadı qaliblərin əlinə keçdi. Əsirləri Çinə göndərdilər, onları orada bağışladılar, Tuxosyana isə hətta rütbə də verdilər. 739-cu ildə imperiya yenidən Orta Asiyada öz hegemonluğunu bərpa etməyə çalışdı. Sarı nəsildən olan şəxslər soqdiyalılar arasında müttəfiq tapdılar, buradan belə fikir yürütmək olar ki, türkeş zadəganları Soqdiya mədəniyyətini mənimsəməyə başladı.

Lakin imperiya hökuməti yenə də səhvə yol verdi. Status-guo-nu bərpa etməyə çalışaraq imperator şahzadə Aşin Xinyanı «on oxun» hökmdarı təyin etdi. Əsarətə alınmış türkeşlər ona tabe olmalı idi. Lakin burada sarı türkeşlərin rəhbəri olan Bağa-tərxan qəzəbləndi və onu həmin vəzifəyə təyin etməyi tələb elədi. Belə olduqda «On-ox»un tərkibindən Bağa-tərxan üçün türkeşləri ayırdılar, lakin güzəşt etmək siyasəti uğursuz oldu. Çindən göndərilmiş Aşina-Xin 740-cı ildə Tszyuylan şəhəri altında türkeşlərin hücumuna məruz qaldı və həlak oldu.* İmperiyalılar bunu bağışlaya bilmədilər. Bizə məlum olmayan hansı üsullasa Bağa-Tərxan tutuldu və qətl edildi, qərb köçərilərini idarə etmək isə onun rəqibi Dumoçjiyə etibar olundu. Lakin artıq 742-ci ildə qara türkeşlər İl İdimiş Qütlüğ Bilgəni (çin dilində İlidi Mişi Qudulu Biqyə) özlərinə xan seçdilər və imperiya hökuməti onları rahat buraxdı. 741-ci ildə Çaç hökmdarı imperatordan xahiş etdi ki, o ərəblərə qarşı qoşun göndərsin. İmperator xahişi rədd etdi: qoşun ona başqa yerdə lazım idi. Buna görə də türkeşlərə diqqət yetirmədilər, onları başqa məsələ maraqlandırırdı.

Bu vaxt Xorasanın və Mavəraünnəhrin yeni canişini Nəsr ibn Səyyar yeni qoşunla Soqd şəhərinə daxil oldu və Xaristan yaxınlığında 737-ci ildə üsyanı darmadağın etdi. Bu dövrdə Kuçu şəhərini mühasirəyə almış türkeşlərin olmaması ərəblərin tez müvəffəqiyyət qazanmasını təmin elədi. Nəsr Səmərqənddə, Çaç və Fərab şəhərlərində qarşılaşdığı müqaviməti yatırtdı və 738-ci ildə aydın mövqe tutdu, onun arxasında çöl coşğun dəniz kimi ləpələnirdi. Sulunun ölümü və ədavət

---

* Tanşu bir qədər ayrı versiyanı irəli sürür. Burada çin mənbələri Təbərinin verdiyi məlumatlarla tutuşdurulur, Təbəri Sulu xanın qatilinin Kursul olmasını irəli sürür. Moxe (Şavan «baqa» oxuyur) heç bir halda şəxsi ad ola bilməzdi...

* N. Y. B i ç u r i n, Собрание сведений…, т. I, стр. 296, 300. Xinin qatili «Mo-xe-du» hesab olunur, bu da Qrumm-Qrjimayloya əsas verir ki, onu Çaç knyazı ilə eyniləşdirsin. Западная Монголия... стр. 329). Lakin Moxedu bahadır deməkdir, burada isə bu ad sifət mənasında işlədilir.

ərəbləri qovmaq imkanından türkeşləri məhrum etmişdi və soqdiyalıların azad olmaq ümidini öldürmüşdü. Orta Asiyanın ərəblər tərəfindən zəbt edilməsini bitmiş hesab etmək olar. Nəsr ibn Səyyar öz sələflərinə nisbətən daha həssas siyasətçi idi. O, terrorçuluqdan imtina etdi və 740-cı ildə sülh elan elədi. Nəsr sülhün şərtlərindən biri kimi nəinki din azadlığını, həm də islamı qəbul etməyənlərə tam amnistiya verilməsini irəli sürürdü, çünki sonuncu mübarizə vaxtı bir çox soqdiyalılar öz atalarının etiqadına qayıtmışdı. Onlar yeni etiqada xəyanət etdiklərinə görə cəzalanacaqlarından qorxaraq çöldə türkeşlərin yanında gizlənirdilər. Amnistiya onlara qayıtmaq və yeni hökumətlə barışmaq imkanı verdi. Soqd çöldən ayrıldı və Xorasanla birgə qaynayıb-qarışdı.

**Tibet — Çin müharibəsi.** Şübhə etmədən təsdiq eləmək olar ki, Tibet VIII əsrdə daha davakar ölkə idi, lakin Tan sülaləsinin dayağı olan çin sərhədçiləri davakarlıqda öz qonşularından üstün idilər. Müharibə etmək onların peşəsi, irəli getmək sahəsində yeganə üsul, həyatın mənası və məqsədi idi. Bu vaxt evlərə buraxılan tibet çobanları özlərinin daimi məişətlərinə və yaşayışlarına qayıdırdı. Ötən müharibədə düçar olduqları məğlubiyyətdən sonra tibet hərbi rəisləri müdafiə tədbirləri, yəni torpaq istehkamları tikməklə məhdudlaşırdılar, çünki tibetlilər çin sərhədçilərindən nə qədər qorxurdularsa, çin kəndliləri də tibet köçərilərindən bir o qədər qorxurdular. Buna görə də tibetlilər 731-ci ildə sülh müqaviləsini bərpa etmək barədə imperiya sərkərdəsi Tsuy-Si-myanya tərəfindən verilmiş təklifi sevinclə qarşıladılar, ağ itin nəşi üzərində and içməklə sülhü möhkəmlətdilər. Onların fikrincə, bu itin ruhu verilmiş vədlərin sarsılmazlığını qoruyub saxlayacaqdır. Bundan sonra tibetlilər «sərhəddən arxayınlaşdılar və heyvandarlıqla məşğul oldular».

Lakin yaranmış vəziyyət aşağı rütbəli sərhəd komandirlərini heç də təmin etmirdi və onlardan bir nəfəri müdafiəyə daha hazırlaşmayan tibetlilərin yüngülcə darmadağın edilməsi barədə saraya məlumat hazırladı. Görünür, qüvvələr nisbətini pis bilən imperator bu layihəni bəyəndi.* Xesi şəhərində yerləşən qoşun başçısına heç bir şübhə hiss edilməyən tibetlilər üzərinə basqın etmək əmri göndərildi, o öz fikrinə və andına xilaf çıxaraq əmri yerinə yetirmək məcburiyyəti qarşısında qaldı.

737-ci ildə edilmiş basqın uğurlu oldu, 738-ci ildə tibetlilərin Xesi üzərinə əks basqını dəf edildi, lakin istedadlı sərkərdə çox həssas vicdana malik idi, vədi pozması ilə əlaqədar olaraq vicdanı onu narahat edirdi. Yuxuda onun gözünə ağ itin kabusu görünməyə başladı və o bu təxəyyüldən, yaxud bizim dediyimiz kimi əsəb pozğunluğundan vəfat elədi. Onun varisləri şiddətli toqquşmalarla qarşılaşdılar, buna sadəlövh və aldanmış adamlar qadirdir. Artıq Tibetə daxil olmaq barədə söhbət belə olmazdı: əksinə, dəyişən müvəffəqiyyət bütün hərbi

* Syuantszun yaşa dolmağı ilə ona xas olan ehtiyatlılığı itirirdi: onu hərbi şöhrət haqqında xülyalar əvəz etmişdi.

fəaliyyəti Kükünor gölü ətrafında baş verən ağır döyüş üzərinə çevirdi. İmperiyalılar düzəngah yerdə açıq döyüş zamanı çox vaxt qələbə qazanırdılar, lakin onlar qalaları çətinliklə mühasirə edirdilər. Belə ki, 749-cu ildə bir neçə yüz nəfər tibetlinin qoruduğu dağ qalasına hücum etmək bir neçə on min nəfər döyüşçünün həyatı bahasına əldə edilmişdir. Buna cavab olaraq tibetlilər düzdə tikdirilmiş Çin qalasını asanlıqla aldılar və onun qarnizonunu qılıncdan keçirtdilər.

Müharibəni başlamaq onu qurtarmaqdan çox asan imiş. Şimalda və qərbdə qazandığı müvəffəqiyyətlərə baxmayaraq, imperiya ordusu 751-ci ilə qədər, yəni oyuna yeni müttəfiq daxil olana qədər davam etdi və qüvvələr nisbəti kökündən dəyişdi.

Şimal və qərbin siyasi problemlərinə dair qərarlar çıxarmağa başı qarışan imperiya hökuməti cənub tərəfi yaddan çıxarmışdı. 738-ci ildən başlayaraq cənubda yerləşən Yunanda Nançjao knyazlığı təşkil edilmişdi. Onun çalışqan hakimləri düşmən tayfaları birləşdirdilər və 738-ci ildə Çinə qarşı münasibətdə müstəqil mövqe tuta bildilər. 751-ci ilə qədər açıq-aşkar konflikt davam etdi. Altmış minlik Çin ordusu bütün əhali tərəfindən müqavimətlə qarşılandı və 751-ci ildə Sier gölü yaxınlığında, demək olar, hamısı qırıldı. Çar Nançjao, Qolofon müharibəni davam etdirməkdən qorxdular ki, o tam başqa şəkil ala bilər. Buna görə də kömək üçün Tibetə müraciət elədilər. İttifaq bağlandı, Tibetin müdafiə etməsi sayəsində yeni Çin ordusu 754-cü ildə bütünlüklə məhv edildi. Hadisələrin sonrakı gedişi Çini qələbə qazanmaq imkanından məhrum etdi və Nançjao öz müstəqilliyini saxladı.

Bu qədər vurulmuş böyük zərəri İmperiya üçün Xesidə qazanılmış müvəffəqiyyətlər əvəz etdi. 753-cü ildə bu vilayət tibetlilərdən təmizləndi və orada dərhal Çin üsul-idarəsini tətbiq etdilər.

**Tibet və Hindistan.** Nançjao çin dövlətinə mənsub olan cənub meşələrində yaşayan tayfaların bir-birinə qarşı əks hərəkət etməsi nəticəsində təşəkkül tapmışdır. O, müasir Sıçuaninin cənub hissəsini əhatə etmiş, Tonkin üzərinə çinlilərin yolunu kəsmiş, cənubda Benqal körfəzinə qədər yayılmış və Hind mədəniyyətinin və buddizmin təsiri altında olmuşdur.

Təbiidir ki, Tibetə meyl də elə buradan yaranmışdır, belə ki, yalnız bu dövlət öz müstəqilliyini saxlamaqda Nançjaoya kömək etmişdir. Bununla belə Nançjao ilə ittifaq tibetlilər üçün Şərqi Hindistana yol açdı.

Qələbənin möhkəmliyinə inamsızlıq Qolofonun bütün siyasəti üçün səciyyəvidir, o bildirir ki, onun səhvlərini mühakimə etmək üçün hüquq verən üstü yazılı daş abidə qaldırılmışdır, həmin yazıda onun əməlləri verilmişdir.

Elə bu vaxt Hindistanın qərbində qüdrətli Kəşmir çarlığı yarandı. Kəşmir hökmdarı Lalitaditya Muktalida (700—736) Pəncab, Kanaudj, Bədəxşan vilayətlərini özünə tabe etdi və 703-cü ildə Tibetlə uğurla vuruşdu. Lakin Hindistanın daxilində baş verən hadisələrin sonrakı inkişafı Kəşmiri Tibetlə barışmağa məcbur elədi. Məhz bu vaxt Şimali Hindistanın racputlar tərəfindən zəbt

olunması başladı, onlar buddizmin düşməni idilər. Hindistan buddaçıları müqavimət təşkil etməyi bacarmırdılar və brahmən Kumaril Bhat tərəfindən dəyişdirilən qədim din inkişaf etməyə başladı. Nə Tibet, nə Kəşmir öz dindarlarının məhv olmasına laqeyd qala bilirdilər. VIII əsrin sonunda Kəşmir hökmdarı Cayapida Şimali Hindistana daxil oldu, Benqaliyanı və süquta uğramış Kanaudju tabe etdi. Bu çar budda təliminin himayədarı titulunu aldı. Tibet salnamələrində həmçinin xatırlanır ki, Benqaliya lap Qanq çayına qədər zəbt edilmişdir, lakin bu məlumat qeydə alınmamışdır və hadisələrin gedişini bərpa etmək üçün son dərəcə lakonikdir. Yalnız o aydındır ki, cənub sərhəddi şərq sərhəddinə nisbətən Tibet hökmdarının diqqətini az cəlb etməmişdi, Hindistanda buddizmi xilas etmək üçün racputların cəhdləri həm kəskin, həm də uğurlu olduğuna görə Tibet Asiya dövlətləri arasında birinci yerə çıxmağa çalışmışdı.

## XXVI fəsil

## XAQANLIQ VƏ İMPERİYA

**Həddən çox səy.** İllər illərin ardınca keçdi, Çananda hər şeyi aydın başa düşürdülər ki, İmperiya Xaqanlıq ilə yanaşı yaşaya bilməz. Xaqanlığın mövcud olması Tan imperiyasının öz ideyasını məhv edirdi. Ümumasiya imperiyası əvəzinə yalnız divarları olan malikanəli Çin imperiyası mövcud idi. Şimal çölləri qüdrətli döyüş gücü ehtiyatlarından imperatorun bütün düşmənlərini cəlbetmə sahəsinə çevrilmişdi. Türkləri və uyğurları tibetlilərə və ərəblərə qarşı mübarizəyə göndərmək əvəzinə türklərin və uyğurların əleyhinə çinlilərdən ibarət qoşun təşkil edilməsinə başlanıldı.

Diribaş Syuantszun qərara aldı. 742-ci ildə imperatorun fərmanı ilə İmperiyanın dolaşdığı toru qılıncla dağıtmaq üçün orduda islahat həyata keçirildi. Sərhəd qoşunları haqqında yeni sərəncama əsasən on teze — du — sərhəd hərbi dairələri təsis edildi. Əgər xəritəyə diqqət yetirsək onları yerləşdirilməsi o qədər yaxşıdır ki, mən siyahını bütünlüklə verirəm. 1. Ansitsze-du; Qərb diyarını müdafiə etmək üçün yaradılmışdır. 2. Beytin tsze-du; türkeşlərə və xakaslara qarşı yaradılmışdır; qərargah Bişbalıqda İli çayının orta axını üzərində yerləşir (Cunqariya). 3. Xesi tsze-du; Tibet və türklər arasında da sazişlərin dayandırılması üçün təsis edilmişdir; qərargah Lyunçjoufuda yerləşir (Ninsya əyaləti). 4. Şofan tsze-du; türklərə qarşı yaradılmışdır (Xansu əyaləti), qərargah Lincjouda, Xuanxe çayının sağ sahilində yerləşir. 5. Xedun tsze-du — tsze-dunun Şofanda möhkəmləndirilməsi üçün yaradılmışdır; qərargahı Tayuanfuda (Ordos) yerləşir. 6. Fanyan tszedu-xi və kidanları cilovlamaq üçün yaradılmışdır; qərargah Ordosun mərkəzində Yuçjouda yerləşir. 7. Pinlu tsze-du — şiveləri və moxeləri saxlamaq üçün yaradılmışdır; qərargah cənubi Mancuriyada İnçjouda yerləşir. 8. Lunyu tsze-du; Tibetə qarşı yaradılmışdır; qərargah Şançjouda yerləşir. 9. Qinnan tsze-du; —

qərbdə Tibetə qarşı, cənubda maneləri və laoları sakitləşdirmək üçün yaradılmışdır; qərargah İnçjouda Yunnan əyalətində yerləşir. 10. Laosu dondurmaq üçün Linnanidə ayrıca beş fu korpusu yaradılmışdır.

On tsze-dudan əlavə, üç müşahidəçi dəstəsi də təsis edilmişdir. Cəmi sərhəd mühafizə qoşununda (çjen-bin) 490 min nəfər adam və 80 min at var idi. 713-cü ilə qədər sərhəd qoşunlarının illik xərci nisbətən çox deyildi, 742-ci ildən isə o hər il 10200 min kəsik ipək parça və 690 min çörək tələb edirdi. Bu qədər böyük xərclər xalqı taqətdən salmalı idi. Lakin imperiya hökuməti Asiyada hegemonluğu saxlamaq və Xaqanlıq ilə ilk növbədə qurtarmaq üçün hər işi etməyə hazır idi. İmperiya üçün əlverişli şərait yaranmışdı: Xaqanlığın daxilində vəziyyət yaxşı deyildi.

**Türklər.** Hətta rifah halları müqayisə ilə yaxşı olduğu vaxtlarda belə narazı olanlar tapılır. Türk ordasında hakimiyyət uğrunda və rəqibdən qisas almaq imkanına görə bir-birilə mübarizə aparan saray əyanları var idi. Bilgə xan və onun oğlu Yollıq əyanların iradəsini qırmışdı, lakin Tenqri xanın vaxtında hakimiyyəti Tonyukukun qızı, xanın arvadı olan Po-bəy əlinə almışdı. Orda adi türk prinsipinə əsasən qurulmuşdu: xan mərkəzi rəhbərlik edir, şərq və qərb cinahlarına isə şadlar başçılıq edirlər. Şadlar qanları eyni olan şahzadələr olub seçmə qoşunlara başçılıq edirdilər. Xanın arvadı idarəetməni öz məşuqu olan sadə tərxana etibar etmişdi, bu da yuxarı qoşun başçıları arasında narazılığa səbəb olmuşdu. Narazılığı aradan qaldırmaq məqsədilə xanın arvadı qərb şadını qətlə yetirmək üçün oğlunu inandırmışdı. Şərq şadı Şangül öz qoşunu ilə qərargaha hücum eləyib xanı öldürdü və onun oğlunu taxt-taca oturtdu. Lakin Şangülün rəqibi yabqu Qüt (Çin dilində Qudu) yeni xanı öldürüb əvəzinə onun qardaşını taxta çıxartdı. Sülalə təhlükə altında idi. Qüt özünün taxta oturduğunu da öldürdü və taxt-tacı qəsb (741-ci il) elədi. Bu qəsbetmə indiyədək olan bütün inciklikların əvəzini çıxmaq üçün bir partlayışa səbəb oldu, çöldə qan su yerinə axdı.

Çin salnamələrində bu dövrün hadisələri son dərəcə lakonik və natamam verilmişdir, lakin bu boşluğu uyğur xanı Moyanqurun qəhrəmanlıqlarını əbədiləşdirən «Salengin daşı» yazıları doldurur. Pis saxlanmasına baxmayaraq bu mənbənin nəhəng əhəmiyyəti vardır, çünki o hadisələrə uyğur nöqteyi-nəzərini əks etdirir. Uyğur xanının sözlərinə görə, o türklərə qarşı azadlıq müharibəsinə başlamışdır; bu, həqiqətə uyğun gəlir. Türklərin uyğurlar üzərində hökmranlığı 50 ildən çoxdur (688-ci ildən 741-ci ilə qədər). Uyğurların başçısı öz atasından şad titulunu alaraq, 742-ci ildə öz xalqını — doqquz-oğuzları topladı və birləşdirdi.

742-ci ildə uyğurlar, basmallar və karluklar eyni zamanda üsyana qalxdılar. Çin mənbələrində verilmiş cüzi məlumatlara görə onlar qəsbkara hücum etdilər və onu döyüşdə öldürdülər. Bu belə də olmuşdu, lakin məgər bütöv xalqın məhvolma anında bütün faciəvi gərginliyi başa düşmək üçün bu kifayətdirmi? Xoşbəxtlikdən, türk yazılı abidələrindəki bir fraqment həmin fəlakəti, Çin salnaməçisinin həyəcansız söylədiyi fəlakəti başa düşməyə imkan verir.

Xaqanlığın qərb sərhədlərini tarduş bəylərinin başçısı döyüşçü Kuli-çur müdafiə edirdi. Artıq onun 80 yaşı tamam olmuşdu. O, Qutluğ İltəris xanın yaşıdı idi, bir qədər sonra isə yürüş zamanı onun oğlanlarını müşayiət edirdi. O, Bişbalıq altında tabqaçlarla, Mirvari çayı yaxınlığında (Sır-Dərya) ərəblərlə, Selengi sahillərində uyğurlarla və Xinqan dağının yamaclarında tatabilərlə vuruşmuşdur. O, öz qəhrəmanlığına görə qüdrətli — «Işbara» və müdrik—«Bilgə» adını almışdır. O, qəhrəman və bahadır idi.

735-ci ildə Kuli-çur qərb sərhədlərinin sahibi kimi yüksək mənsəbə çatdı. O, yeddi il bu vəzifədə oldu, karluklar çıxış etdikdə isə «ata minib hücuma keçdi, qalib gəldi, atı vurulduqda başqasına minib... qoşunu ardınca apardı, o öz evinə qədər müharibə apardı. Karluklar atlara mindilər; belə qoşunla, kəhərlə, — karluklar... karluklar... Eltəbər özü gəldi, işgüzarlıq və mərdlik üzrə onun yoldaşı olan Erkinin oğlu Yityançur da gəldi... döyüşdə onun qoşunu vuruşurdu, o qalib gəldi, onun eli Xaqan Işbara Bilgə Kuli-çurun oğlunu və arvadlarını əsir aldı... Ölülər belə onu vururdular. O düşmənə qarşı hücuma tək atıldı, qoşunun içinə girdi və ölənə qədər tapdandı...»

Zamanın gərdişindən sürtülüb yeyilmiş və düşmən tərəfindən eybəcər hala salınmış yazıların bu yerində göy türkləri öz vətənləri uğrunda qəddar düşmənə qarşı mübarizəyə aparan qəhrəmanlıqlar haqqında da məlumatlar qorunub saxlanmışdır. Nurani bir qoca vuruşmaya atılır, atını itirir, lakin qəhrəmanlıq göstərmir. Qoy yazı qüsurlu olsun, lakin onun ayrı-ayrı sözləri arasında çöl dumanında olduğu kimi qaraltılar görünür, üfüqdə hər tərəfdə süvarilər görünür. Bunların hamısı düşmənlər idi. Karluklar şimalda, cənubda və qərbdə var idilər: geri çəkilmək lazım idi, arxada isə ev, xan dururdu. Lakin budur xan öldürülüb, onun ailəsi əsir düşüb, bu vaxt qoca bahadır daha qorumağa heç nəyin olmadığını görərək özünü qoşunun içinə atır və düşmənə öz bədənini tapdalamağa, parça-parça etməyə imkan verir. O, İkinci xaqanlığın yaradılmasının şahididir, onun sonunu görmək istəmir. Məhz Kuliçur kimi türklər qonşular üçün dəhşətli idilər, onlar elə buna görə də müharibəyə getdilər ki, bahadırlar daha heç vaxt onları narahat etməyələr. Amma heç də bütün türklər öz sərkərdələrindən nümunə götürüb onun kimi hərəkət etmədilər. Uyğurlar tərəfindən təqib olunan qoşunun sağ qalanları «qara qumun» arxasına qaçdılar.[63]

Müttəfiqlər qələbədən istifadə etdilər və sürətlə özlərinin xüsusi dövlətlərini yaratdılar. Basmalların başçısı xan oldu, uyğurların başçısı şərq diyarına, karlukların eltəbəri isə qərb yabqusuna başçılıq etməyə başladı. Türk əyanları birdən ayıldılar və Pangülün oğlunu Ozmış[64] titulu ilə xan seçdilər. 716-cı ilin

---

[63] Q. İ. R a m s t e d t («Selengin daşı» yazılarının tərcüməsi, səh. 41) güman edir ki, burada söhbət Qobi haqqında gedir, lakin bu ola bilməz, çünki müharibə Xəlxdə davam edirdi. Daha doğrusu, bu Cunqariya səhrasıdır, uyğurlar karluklar və basmalarla birlikdə onun ətrafına toplaşmışdılar.

[64] Çin dilində — Usi-mişi xan deməkdir. Uyğurlar onu xan hesab etmirdilər və Ozmıştəkin adlandırırdılar. Ramstedt belə hesab edir ki, Ozmış uyğurlara əsir düşmüşdür, bu doğru deyildir. «Mən

qanlı dövrləri qayıtdı, lakin türklər artıq başqa cür idilər, Gültəkinin nəslinin edə bildiyini onun uşaqları artıq etməyə qadir deyildilər. Buna baxmayaraq onların hökmranlıq iddiası əvvəlki kimi qalmışdı. İmperiya hökuməti türklərin sıxışdırılmasını nəzərə alaraq Ozmış xana İmperiyaya müqavimət göstərməməyi təklif etmişdir. Ozmış xan imtina elədi, lakin basmalların, uyğurların və karlukların birgə qüvvələri onu ordanı atıb qaçmağa məcbur etdilər. Bəzi türklər (beş min kibit), xanın oğlu da başda olmaqla, İmperiyanın ümidsiz müharibə aparmasını üstün tutdular.

Türklər keçmişdə qazandığı qanlı müvəffəqiyyətlərə və öz məğrurluqlarına görə cavab verməli idilər. 744-cü ildə basmallar öldürdülər və onun başını Çanana göndərdilər. Lakin türklərin barışmayan hissəsi silahı yerə qoymadılar və mərhumun qardaşı Baymey xan Qulun bəyi taxt-taca oturtdular.

Lakin heç də bütün türklər itirilmiş işdən ötrü məhv olmağa hazır deyildilər. Onların arasına «böyük çaxnaşma düşmüşdü: əyanlar basmal başçısını xan seçdilər». Köhnə türk şöhrətinin daha çox qızğın tərəfdarları Baymey xan ilə qaldı. 744-cü ildə mübarizə davam edirdi. Buna görə də müttəfiqlər dalaşırdılar: uyğurların başçısı Peylo basmalların üzərinə hücum edərək onları darmadağın etdilər. Basmalların başçısı Sede İşi xaqanın başını kəsib, onu Çanana belə bir təkliflə göndərdilər ki, Qütlüğ Bilgə və Gül xan titulunu Peyloya versin. Başçı darmadağın edilmiş basmalların qalıqlarını yığaraq Beytinə qaçdı, lakin orada qalmaq imkanını görməyərək öz xalqını atdı və Çinə çıxıb getdi. Karluklar tərəfindən sıxışdırılan basmalların qalıqları uyğurlara tabe oldular.

Bu qarışıqlıq türklərə əl verirdi, lakin onlar bu qarışıqlıqdan istifadə edə bilmədilər. İmperiyada həyata keçirilən hərbi islahat öz bəhrələrini verirdi və Ordosdan olan imperiya qoşunları Saxekey dağının ətəklərində türklərin şərq qanadına zərbə endirdi və ana-tərxanın rəhbərliyi altında olan II nəsli darmadağın elədi. Baymey xan imperiya qoşununu təchiz edən çin bazalarından kənarda olan öz malikanələrinin qərbində möhkəmlənməyə çalışırdı. Lakin karluklar və uyğurlar onlara gəlib çatdılar. Türklər bütünlüklə darmadağın edildilər. Peylo Baymey xanın başını Çanana göndərdi və özünü imperatorun vassalı hesab etdi.

Türkləri tuturdular və qurdlar kimi hər yerdə onları öldürürdülər. Daha heç vaxt çölün üzərində qızıl qurd başı olan bayraq yellənməyəcək.

Sağ qalmış türklərə Tonyukukun qızı Bilgə xanın dul arvadı Po-bəy başçılıq etdi, onları Çinə gətirdi, təhvil verilmə şərtlərini danışdı. Türkləri sərhəd qoşunlarına qulluq etməyə göndərdilər, Po-bəy isə şahzadə titulu və knyaz varidatı aldı. O, adamları xilas etməklə xalqını xilas edə bilmədi. Digər köçərilər kimi türklər də tabqaçlarla qaynayıb-qarışdı və onların arasında assimilyasiyaya uğradı.

---

əsir almışam, onun arvadını özümə götürmüşəm. Türk sülaləsi elə bu vaxtdan məhv edildi» sözləri Ozmış Baymey xanın varisinə aid olunmalıdır.

Qızışmış uyğurlar düşmənlərin onların əllərindən çıxmasından qəzəblənərək öz hiddətlərini abidələrin üzərinə tökməyə başladılar. Onlar türk bahadırlarının daş heykəllərinin başlarını qırdılar, Kül-tigin abidəsini xıncım-xıncım etdilər, onun heykəlini elə dağıtdılar ki, qalıqlarını yığmaq mümkün olmadı. Məqsəd təkcə dağıtmaq deyildi, həm də türk elinin qayıtmasına və onlarla bağlı olan hər şeyin bərpasına yol verməmək idi. Uyğurlar öz istədiklərinə nail oldular, qədim türklərdən yalnız onların adları qaldı.

**Kidanlar.** Kidanlar göy türklərin sadiq müttəfiqi idilər, lakin xaqanlıq öz mövcudluğunu dayandırdıqda onların müqaviməti mənasız göründü. 745-ci ildə kidanların əsas başçısı mübarizəni dayandırdı. O, Sunqariy əyalətinin rəisi oldu.

Lakin Mancuriyadakı sərhəd qoşunlarının korpus rəisi An Luşan kidanların üzərinə hücum etməyi və onları soymağı davam etdirirdi. Hiddətlənmiş kidanlar ayağa qalxdılar, lakin An Luşan onları dağıtdı. Lakin dəyişmiş başçı da müqavimət göstərməyə başladı. Çinlilər An Luşanı bu müharibənin təşəbbüsçüsü hesab edirdilər, guya o üsyançıları sakitləşdirmək və xidmət göstərmək üçün bu toqquşmanı salmışdı. Əgər bu həqiqətdə belə olmuşdusa, yaddan çıxarmaq lazım deyildir ki, sərhəd qoşunları müharibəni və köçərilərə nisbətən soyğunçuluğu sevən davakar tayfalardan ibarət idi. Buna görə də toqquşma kortəbii və labüdən baş verməli idi. 751-ci ildə An Luşan altmış minlik qoşunla tatablardan bələdçiləri də olmaq şərtilə kidanlara qarşı çıxış etdi.

Artıq bir xeyli məsafə qət etdikdən sonra 1000 li — 400 km, yağış yağmağa başladı və tetivlər döngələrdə zəiflədilər. Tatablar kidanların tərəflərinə keçdilər, onlar Şara — Mureni sahillərində imperiya qoşunlarına hücum edib, onu darmadağın etdilər.

754-cü ildə kidanlar uyğurlara itaət etdilər və Mancuriya İmperiya üçün həmişəlik olaraq itirildi. Bundan sonra müharibə sərhəddə dayandı, məlum oldu ki, toqquşmanı köçərilər deyil, sərhəddəki başkəsənlər salmışdılar.

**Qərb diyarı.** Türklər üzərində qələbənin qazanılması və uyğurların süni asılılığı İmperiyaya baha başa gəldi, çünki şimal problemini o həll etdiyi bir vaxtda qərbdə ərəblər və tibetlilər möhkəmlənirdilər. Lakin öz qüvvəsinə arxayınlaşan Çin nizami qoşunu Orta Asiyanın şimalında göründü.

747-ci ildə əslən koreyalı olan qərb canişininin köməkçisi Qao Syan-çji dağ cığırları ilə Kiçik Bolyuya gəldi və yerli sakinləri ələ aldı, onların köməyilə Son çayı üzərindəki körpünü mühafizə edən tibet qarnizonunu qılıncdan keçirtdi. Qao Syan-çji hamıya ipək parçalar verdi, təslim olmaq üçün Sudjunu dilə tutdu və raca köməyə gələn tibetliləri dəf etdi. Bolyuedə min nəfərdən ibarət qarnizon yerləşdirildi. Qərb diyarına keçmək yolu tibetlilərin üzünə bağlandı.

Qao Syan-çjinin verdiyi məlumatda bu qələbənin əhəmiyyəti çox şişirdilmişdi: «Folin (Bizans), Daşi (Ərəb xilafəti), cəmi 72 malikanə lərzəyə gəldi və Çinin itaətinə keçdi». Qao Syan-çji təkcə öz hökumətini deyil, həm də öz-özünü aldadırdı. O, müvəffəqiyyətdən fərəhlənərək ərəblərlə mübarizəyə girişdi.

Bəzi Soqdiya knyazları hələ də İmperiyadan əl çəkməmişdilər, onlar basqın edən müsəlmanlara qarşı kömək almaq ümidində idilər. Lakin 748-ci ildə Beytin canişini Van Çjen-Syan buxaralılarla müharibəyə girişdi. İssıq — Gül gölündən bir qədər aralı Suyaba şəhərini alması onun yeganə müvəffəqiyyəti oldu. Şəhər bütünlüklə dağıldı. Ehtimal ki, bu müvəffəqiyyət da həmçinin şişirdilmişdir, çünki sonralar Qao Syan-çji Çaç və Fərqanə arasındakı silahlı toqquşmada iştirak etdi və Fərqanəyə kömok etməklə 749-cu ildə Çaç şəhərini zəbt elədi.

Soqdiyalılar ərəb talançılarına qarşı kömək əvəzinə Çinin talançı sərkərdələrini aldılar, onlar isə ərəb qoşunlarına rast gəlməyi, yəni qaçmağı üstün tuturdular. Lakin hadisələrin məntiqi sərkərdələrin iradəsindən güclü çıxdı və toqquşma baş tutdu.

Soqdiya knyazları çətin anlarda tək qaldılar, lakin əvvəlki kimi onlardan sədaqət tələb olunurdu. Qao Syan-çji Çaç hakimindən xəyanətkarlığa görə şübhələnib onu tutdurdu və Çinə göndərdi, orada isə qətlə yetirildi. Hamıya aydın idi ki, bu qəddarlığın səbəbi İmperiya sərkərdəsinin məkrliliyidir, qətl olunmuş knyazın var-dövləti onun əlinə keçmişdir. Bu, soqdiyalıları bütünlüklə ərəblərə doğru yönəltdi. Qətl edilmiş knyazın oğlu Ziyad ibn Salihin müsəlman dəstəsini gətirdi, özünün Soqdiyadakı dostlarını onlarla birləşdirdi və Talas şəhərini mühasirəyə aldı. Qao Syan-çji köməyə tələsdi, İmperiyanın vassalı olan karlukların yabqusu öz süvarilərini çəkib gətirməyə başladı. İmperiyalıların tərəfində fərqanəlilər, qaşqarlar, kuçaslılar — cəmi 30 min nəfər vuruşdu. Ərəblərin və soqdiyalıların sayı məlum deyildir, lakin yəqin ki, onlar da az olmamışlar. Hər iki ordu 751-ci ilin iyul ayında Talas çayı yaxınlığındakı Atlaxda qarşılaşdı. Ağır müharibə beş gün davam etdi, heç bir nəticə alınmadı. Lakin həlledici anda karluklar Qao Syan-çjinin qoşununa arxadan zərbə endirdilər və imperiyalılar tamamilə darmadağın edildilər. Qao Syan-çji Çinə qaçdı.

Xilafət qələbədən istifadə edə bilmədi. 750-ci ildə Əbu-Müslümün və Əbül-Abbasın əməvilərə qarşı üsyanı ölkənin bütün qüvvəsini özünə cəlb etdi. Talas yaxınlığındakı vuruşmanın qalibi Ziyad ibn-Salih çoxsaylı qəsdlərdən birində iştirak etdiyinə görə öz başını cəllad kötüyünün üstünə qoymalı oldu. Lakin məğlubiyyət çinliləri o qədər qorxutmuşdu ki, onlar Qərbi zəbt etmək fikrindən imtina elədilər. İmperiya iflasa uğramaq qarşısında durmuşdu.

Belə bir fikir var idi ki, Talas vuruşması Orta Asiyada müsəlman mədəniyyətinin çin mədəniyyətindən üstün olması haqqında məsələni həll etmişdir. Lakin bir vuruşmanın taleyi bütöv bir ölkənin inkişaf yolunu həll edə bilməz. Tan İmperiyası Qərbə Çin mədəniyyətini deyil, özünün siyasi hökmranlığını gətirmişdi ki, onu da həyata keçirmək mümkün olmadı. Köçəri xanların — uyğurların və karlukların bir-birinə qarşı düşmənçiliyi aradan qaldırılmadı. 751-ci ildə İmperiya hər tərəfdən zərbələr almağa başladı: kidanlar imperiyalıları şərqdən, tibetlilər və yeni yaradılmış Nançjao dövləti cənubdan, daxili ziddiyyət isə tezliklə daxildən

Çini yalnız öz sərhədlərinə qapanıb qalmağa məcbur etdi. Talas vuruşması baş verən hadisələrin uzun zəncirində yalnız bir halqa idi.

**Karluklar.** Karlukların etnik cəhətdən daha çox türkyutlara yaxın olmasına baxmayaraq, onlar daim türkyutlarla yola getmirdilər. 650-ci ildə türkyutların - qalosların altay qolunun məhv olunduğu vaxt, karluklar həmin əməliyyatı həyata keçirən imperiyanın qoşununa kömək etmişdi. Bu kömək Çində təbəəlik kimi qəbul edildi, lakin karluklar Tan imperiyasının tərkibinə praktik olaraq yalnız 657-ci ildə, Qərbi türkyut xaqanlığının zəbt edildiyi vaxt daxil oldular.

Karluklar üçün İmperiyadan asılı olmaq ağır deyildi. Onların başçıları çin rütbəsi alırdılar, yerdə qalan isə əvvəlki tək qalmışdı. Karluklar ikinci xaqanlıq dövründə öz azadlıqlarını mərdliklə müdafiə etdilər və nəhayət, tam qələbə qazandılar. Lakin məhz onların Talas döyüşündə Qao Syan-çjinin qoşununa xəyanətkarlıqla arxadan zərbə vurmasına baxmayaraq, onlar İmperiya ilə müttəfiqliyi saxlamaq istəyirdilər. Buna görə də, 744-cü ildə imperiyalılara təslim olmuş türk yabqusu Abusi 752-ci ildə üsyana qalxaraq Şofanı darmadağın etdiyi vaxt, karluklar 753-cü ildə ona qarşı çıxdılar, qərbdən ona zərbə endirərək türk üsyançıları üzərində tam qələbə qazandılar. Abusi karluklara əsir düşdü və çinlilərə verildi, o zindana atıldı. Karlukların yabqusu «Altayın hökmdarı» elan edildi.

Həmin vaxtdan etibarən karluklar dağlara çəkildilər. Onların yeganə rəqibi olan türkeş xanlığı durmadan süquta uğrayırdı. 756-cı ildə sarı və qara nəsil arasında qanlı düşmənçilik yarandı. Bu düşmənçilik türkeşləri tamamilə qana boyadı, odur ki, 759-cu ildə karluklar hücum edərkən türkeşlər müqavimət göstərə bilmədilər. 766-cı ildə karluklar Yeddisuyu, Talası, Çu çayının vadilərini zəbt etməyi başa çatdırdılar və Qərbi Tyan-Şana qədər gəlib çıxdılar. Türkeşlərin bir hissəsi karluklara tabe oldular, bir hissəsi şərqə mühacir getdilər və uyğurların təbəəliyini qəbul etdilər. Artıq karluklar Orta Asiyada çöl mədəniyyətinin yeganə mühafizəçisi kimi qaldılar. Onlar 200 il islam dininin təzyiqinə davam gətirdilər, 960-cı ildə isə onlar müsəlman etiqadını qəbul etdilər. Karluklar artıq Çin ilə münasibətlərini davam etdirmirdilər, görünür, bu münasibətləri saxlamağa ehtiyacları yox idi.

Lakin Çinlilər Qərb diyarında «Dörd qala» — Kuçu, Qaraşar, Xotan və Qaşqar qalalarını, habelə Cunqariyada Beytini saxlayırdılar. Onlar imperatora sədaqətli idilər, amma uyğurlar tərəfindən Çindən ayrı düşmüşdülər və onların topladıqları vergidən əziyyət çəkirdilər. Bu karluklar qalib gəlmiş Tibetə tabe oldular.

Tan imperiyasının qərb siyasəti süquta uğradı. VIII əsrin ikinci yarısından etibarən Çin və Böyük çöl bir-birinə qarşı düşmənçilik edən iki dünya kimi yenə də üzbəüz durdular.

## XXVII fəsil

## UYĞUR XAQANLIĞININ YARADILMASI

**Uyğurlar.** Uyğurlar türklərdən fərqlənərək öz dövlətlərini tamam başqa prinsiplər üzrə qurmuşdular. Doqquz nəsil xüsusən doqquz-oğuz tayfasını təşkil edirdilər, bu tayfa aparıcı olsa da hökmran tayfa deyildi. Basmaları və şərq karluklarını özünə tabe edərək, uyğurlar onları bərabər üzvlər kimi öz sıralarına qəbul etdilər.

Digər altı teles tayfası — buqu, Hun, bayırk, tonqra, sıke və kibi tayfalarının hüquq və vəzifələri doqquz-oğuzlar ilə bərabər tutuldular. Xanın iqamətgahı Xanqay və Orxon çayı arasında idi. Şərqdə onların sərhədləri Qərbi Mancuriyanı əhatə edirdi. Karluklar və uyğurlar arasında sərhəd 745-ci ildə hərbi toqquşma nəticəsində müəyyən olundu. Karluklar türkləri darmadağın elədikdən sonra uyğurlara qarşı türkeşlərlə ittifaq bağladılar, lakin məğlub edildilər.* Bunun nəticəsində karlukların şərq köçəriliyi Qara İrtışda Uyğur xaqanlığı tərkibinə gəlib çıxdı.

Uyğurlar Qobidən cənuba doğru uzanan çölləri İmperiya üçün qoyub gəldilər. Onlar bir qədər sonra öz malikanələrini şimali-qərbə tərəf genişləndirdilər, lakin uyğurlar ərazi tutmağa can atmırdılar. Tayfaların birliyini təmsil edən Uyğur xaqanlığının bütün strukturu xana böyük qoşun toplamağa və onlara nəzarətsiz sərəncam verməyə imkan vermirdi. Tayfalar isə bir-birinə qarşı dinc münasibətdə yaşayırdılar. Onlar türklərin saldığı çaxnaşmalardan yorulmuşdular və qiyamsız rahat yaşamaq istəyirdilər. Peylo bu əhval-ruhiyyəyə müvafiq olaraq lazımsız mürəkkəb vəziyyət yaratmamaq üçün özünü imperiyanın vassalı elan etdi. Onun oğlu, 747-ci ildə taxt-taca varis olmuş Moyançur Gele xan hər il Çanyan səfirliyini təchiz edir, hədiyyə alır və İmperiyaya loyal münasibət göstərirdi.*

**Vətəndaş müharibəsi.** Şad Moyançurun qanuni varisi, şahzadənin Uyğur taxtına oturmasını xalq nədənsə müqavimətlə qarşıladı. Qiyamçıların başında mərhum xanın öz əlindən yaxın vaxtlarda rütbə almış yabqu Tay Bilgə-tutuk dururdu. «Qara xalq təslim olmuşdu, lakin bəziləri Aay Bilgə-tutukun tərəfini saxlayırdı, onlar onu xaqan elan etdilər.* Üsyançılara kidanlar* və tatarlar da

---

* Q. İ. Ramstedt. Перевод надписи.. «Селенгинского камни», стр. 41; S. E. Malov, Памятники..., 1959, стр. 39: Mətndə on tayfa, yəni qərb türkləri haqqında danışır. Lakin sonuncu qərbi türk xanı olan Aşina Xin 740-cı ildə öldürülmüşdür və qərb türklərinin qalıqları türkeşlərlə birləşdi. Mən 745-ci ildə «on tayfa» altında qara türkeşlərin xanlığını başa düşməyi düzgün hesab edirəm.

* Tanşuda Peylonun ölümünün ildönümü və Moyançurun taxta oturması göstərilməmişdir (Bax: N. Y Biçurin. Собрание сведений..., т. I. стр. 309). E. Bretşneyder açıq-aşkar düzgün olmayan il göstərir. 756-cı il, lakin düzgün tarix «Selengin daşın»da verilmişdir: donuz ili = 747-ci il (Q. İ. Ramstedt. Перевод надписи.. «Селенгинского камни», стр., 41. S. E. Malov. Памятники. 1959: стр. 39).

* Bu Q. İ. Ramstedtin əsərində belədir. (Перевод «Селенгинского камни», стр. 41). Ramstedt belə hesab edir ki, qara xalq bəzi istisnalara görə Moyançura təslim olmuşdur. S. E. Malovun əsərində isə

qoşulmuşdur; xanın tərəfində, əgər belə demək olarsa, onun atasının uyğur drujinaları vuruşurdu, lakin bir çox əyanlar onun düşməni idilər. Türkləri yenicə məğlubiyyətə uğratmış veteranlar xalq kütlələrinə nisbətən daha dəhşətli qüvvə idilər, onlar şərq qonşuları tərəfindən müdafiə olunurdular. Böyükeqyuke yaxınlığında aparılan ikigünlük döyüşdə Moyançur kidan və tatarları qaçmağa məcbur elədi, bundan sonra həmtayfalarını bütünlüklə özünə tabe etdi. Əyanlar ağır cəzaya düçar oldular, daha doğrusu hamısı qətlə yetirildilər.* Sadə xalq bağışlandı. Buna baxmayaraq, xan köçüb gedən kimi üsyan yenidən baş qaldırdı, həm də üsyançılar yenidən kidanları və tayfaları köməyə çağırdılar. Lakin köməyə dəvət olunanlar düz 1 ay gecikdilər. Xan özünə itaət etməyənlərə qalib gələ bildi və cəza əlaməti olaraq mal-qaralarını və qadınlarını onlardan aldı.

Uyğur qoşunları ilə kidanlar və tatarlar Selengidən şimali-qərbdə toqquşdular. Uyğurlar düşmənlərini əzdilər və onları çayın sahilinə tərəf sıxışdırdılar. Kidanlar və tatarlar uyğurlar tərəfindən təqib edilə-edilə geri çəkildilər. Yolda onlar iki hissəyə ayrıldılar: kidanlar sağ-salamat geri çəkildilər, tatarlar isə Keyr çeşməsinin və Üç Birkyu çayının yaxınlığında mühasirəyə düşərək qoşunun yarısını itirdilər».

Eyni zamanda xan bu yürüşlə birgə öz xalqının yeni üsyan dalğasını yatırtmalı oldu. Qeyd etmək lazımdır ki, xan hər vasitə ilə barışığa can atırdı. O, əsir aldığı üsyançıları buraxdı və onlara müraciət edib dedi: «Tay Bilgə-Tutukun alçaqlığına, bir-iki nəfər adlı-sanlı əyanın alçaq hərəkətinə görə mənim qara camaatım ölüm və fəlakətə düşdü, lakin sən ölməməlisən, sən əzab çəkməməlisən, — deyə mən dedim. — Yenə öz qüvvəni mənə sərf et, məni müdafiə elə». Lakin sonra o qəmgin halda deyir: «Onlar gəlmədilər».

Üsyançılar yenə də Duzlu Artır gölü yaxınlığında məğlub edildi və sülh yaradıldı.

Bu daxili müharibənin mahiyyəti və səbəbləri qətiyyən aydın deyildi, lakin vətəndaş müharibələrinin bilicisi olan Farinat delli Uberti təsdiq edir ki, belə hallarda «hər hansı bir döyüşçü səbəb olmadan döyüşə çətin gedərdi». Təkrar hiddətlərində ifadə olunan kəskin hərəkətlər göstərir ki, burada xalq kütlələrinin ciddi mənafelərinə toxunulmuşdur.

Biz bu müharibəyə aşağı təbəqələrin əyanlara qarşı mübarizəsi kimi baxa bilmərik, çünki abidələrdə əyanların üsyana rəhbərlik etməsi iki dəfə qeyd olunur.

---

deyilir ki, «sadə xalq mənim hakimiyyətimə sadiqdir. Yazılarda verilən hadisələrin bütün gedişi isə bu fikrə ziddir, çünki məhz qara camaat xana daha çox müqavimət göstərmiş və qəddarcasına sakitləşdirilmişdir.

* Burada səkkiz oğuz haqqında, yəni səkkiz tayfalı xalq haqqında söhbət gedir. Bu dövrdə yalnız kidanlar belə idilər.

* Fikri mən belə başa düşürəm: «cinayətkar əyanlar (yaxud adlı-sanlı əyanlar) səmanı mənim əllərimə verdi» (Bax: Q. İ. Ramstadtda. Перевод надписи.. «Селенгинского камни», стр. 41 — 42; S. E. M a l o v. Памятники..., 1959, стр. 40.

Bununla belə xan qoşunları yəqin ki, təkcə zadəganlardan ibarət deyildi. Buna görə də hadisələrin gedişinə aid digər səbəbləri axtarmaq lazımdır.

VII və VIII əsrlərdə bütün Asiya yeni əqidələrin yayılması meydanına çevrildi. Qərbdə sürətlə islam, şərqdə buddizm inkişaf edirdi, şimalda isə İrandan sıxışdırılıb çıxarılan nestorian xristianlığı və manikeyçilik özünə yer tapırdı.

Türk xaqanlığında xristianlığın təbliği cüzi nəticələr verirdi, çünki türklər öz xüsusi dünyagörüşlərini dövlət prinsipi səviyyəsinə qaldırmışdılar, lakin xaqanlığın süqutu və müharibə və qələbə ideologiyasında ümidsizliyə qapılan, qırğından xilas olan xalqlar arasında xristianlığın təbliğinin uğur qazanmasında stimul rolunu oynadı. Karluklar və basmalar türklərin çöldə varisləri idi, basmalar xaqanlığın daha çox qalıqlarını öz tərkibinə daxil etmişdilər. Məhz burada xristianlıq daha çox uğur qazanmışdı, o, basmaların, arqınların gələcək nəsilləri arasında XII əsrə qədər qorunub saxlanmışdı. Lakin şərqdə yaşayan uyğurlar arasında da xristianlıq meydana gəlmişdir, sonra biz bunu görəcəyik.

**Sərhədlər problemi və onun həlli.** Moyançur xan vətəndaş müharibəsini qələbə ilə başa vuraraq ikinci bir siyasi vəzifə qarşısında durdu: hansı tayfaları öz dövlətinə daxil etməli və hansı tayfaları onun sərhədlərindən kənarda qoymalı? Çöl landşaftı və köçəri məişəti şəraitində bu vəzifə xüsusilə mürəkkəbləşdi, çünki təbii mövqelər əldə etmək lazım idi. Məsələn, dağ silsilələrini əldə etmək üçün Sayandan cənuba və Altaydan qərbə doğru uzanan çöllərdə məskunlaşmış tayfaları mütləq özünə tabe etməli idi. Əks halda, keçən müharibənin göstərdiyi kimi uyğurların köçəriliyi qonşuların yürüşlərinə imkan yaradırdı.

Moyançur özünə xas olan bir çeviklikIə işə başladı. 750-ci ilin yazında Kem çayı ətrafında, yəni Yeniseyin yuxarı qolları əhatəsində yaşayan çin tayfasına zərbə endirib, onları özünə tabe elətdirdi. Elə həmin ilin payızında o şimali-qərbi Mancuriyada tatarları məğlub etdi. Amma artıq o biri il hansı bir tayfa isə uyğurlara qarşı mübarizə aparmaq üçün qırğızlar və çik tayfaları ilə birləşdilər. Başlıca təhlükə onda idi ki, karluklar qırğızları və çikləri müdafiə etməyə hazırlaşırdılar, lakin uyğurların xoşbəxtliyindən onlar çıxış etməkdə gecikdilər. Moyançur çiklərin üzərinə min nəfərlik dəstə göndərdi. Həmin dəstə üsyanı tez yatırtdı. Uyğurlar az bir qüvvə ilə qırğızların «uçan» dəstələrini qovdular, xanın özü isə əsas qüvvələrlə Qara İrtış çayını sal ilə keçərək karluklara zərbə endirdi və onları Bolçu çayı yaxınlığında məğlub elədi. Vaxtilə Kül-tigin və Tonyukuk da burada türkeşlərə zərbə endirmişdilər. Lakin müharibə bununla qurtarmırdı, çünki bizə məlum olmayan qrup, yəni üsyanı başlamaq istəyən təşəbbüsçülər hələ məhv edilməmişdi.

Abidələrdə qələbənin tarixi göstərilmişdir; on birinci ayın 18-ci günü. Uyğurlar ayı necə hesablayırdılar? Nə çinlilər, nə də avropalılar kimi, hər iki halda İrtış çayı on birinci ayda buz bağlayır. Bu mətn V. V. Bartoldun və P. M. Melioranskinin fərziyyəsini nəzərə almağa imkan verir. Onlar deyirdilər ki, «qədim uyğurlarda ayların hesablanması yəqin ki, çinlilərlə uyğun gəlir». Türklərin vaxt

hesablamasında yalnız rəqəmlərin adı ilə 10 ay məlum idi, həm də birinci türk ayı çinlilərin üçüncü ayına uyğun gəlirdi, birinci iki ayın isə xüsusi adları var idi: uluq ay və kiçik ay — böyük və kiçik deməkdir. Deməli, bu da yaramır.

Yəzdəgird dövründəki fars təqvimi də uyğun gəlmir, çünki bu təqvimdə il martın 15-dən başlanır, on birinci ay — bəhmən ayıdır ki, bu da 9 yanvar tarixinə uyğun gəlir.

Manixeylilər Qabil təqvimini tətbiq edirdilər, bu təqvimə görə ilin birinci ayı olan nisan aprelin 3-dən başlanır, on birinci ay olan şubat isə fevral ayına uyğun gəlir; deməli, bu təqvim də uyğun gəlmir. Şərq xristianları, yəni nestorianlar tərəfindən işlənən Suriya təqvimi ilin əvvəlini oktyabrın 1-dən hesab edirlər, on birinci ay olan — abisə avqust ayına uyğun gəlir. Yalnız bu təqvim bizim qeyd etdiyimiz fakta uyğun gəlir. Lakin əgər belədirsə, onda belə görünür ki, Moyançurun yazılı abidələrinin tərtibçisi xristian olmuşdur, şübhəsiz ki, o, uyğur olub. Buradan belə nəticə alınır ki, uyğur xalqı arasında da xristian icması varmış. Bu fikirdə düzgün olmayan heç nə yoxdur. Nestorian yepiskopları V əsrdən etibarən Mərvdə və Heratda məşhur idilər. 635-ci ildə xristian vaizi Alopyan Çinə gələrək orada icmanın əsasını qoydu. Xristian tacirləri müəyyən vaxt yəhudi tacirləri ilə rəqabət aparırdılar, onlar axırda Çin və Provans arasındakı ticarəti öz əllərinə aldılar. Ticarət o qədər qızğın gedirdi ki, çin dili Xəzər vilayətində də məşhurlaşmışdı. Türk xaqanlığında özünün bitkin ideoloji və siyasi təlimi olduğuna görə yad dillərə yer yox idi, amma karvan yolları və ticarət şəhərləri ilə sıx əlaqəsi olan Cunqariya türklərinin köçlərində bütün dünyanı mallar ilə gəzən ideyalar da var idi.

Bu fikir hadisələrin gedişində özünü təsdiq elədi. 752-ci ildə müharibə yenidən başladığı vaxt uyğurların əleyhinə olan koalisiyada basmalar, türkeşlər və «üç müqəddəs»* göründü. Bu qəribə, açıq-aşkar qeyri-etnik adı yalnız bir üsulla şərh etmək olar: bu xristian icmasıdır ki, Üç üqnumun* sitayişçiləridir. Güman etmək olar ki, məhz onlar 751-ci ildə çik tayfasını və qırğızları üsyana qaldırmış və bütpərəst xana çox gərgin müqavimət göstərmişlər. Yalnız belə halda yazılı

* «Üç-ıduk» hərfi. Bütün mətn belədir: «Xarici (düşmənlərdən): üç karluk, üç ıduk, tat... (yeddi hərf düşmüşdür), türkeşlər...» Şübhəsiz ki, uyğur xanın düşmənləri sadəcə sadalanır, deməli, ıduk sözü sonrakı sözə, yəni tat. — hərfi ilə başlayan sözə epitet deyildir». Sonuncu, yarımçıq qalmış söz növbəti etnik adın fraqmenti kimi «üç-ıduk» sözündən vergül ilə ayrılmalıdır. «Tat» sözü «tatar sözünün ilk hecası ola bilməz (S. E. M a l o v. Памятники…, 1959, стр. 36, 41) çünki koalisiya uyğuriyanın qərb sərhədlərinə toplandığı halda, tatarlar şərqdə məskunlaşmışdılar. Çox təəssüf ki, «türkeş» sözünə yaxın olan bir tayfanın adı itib-batmışdır. Güman etmək olar ki, bu hansısa kiçik cunqariya tayfasından olub. Qədim türk mətnlərində «ıduk» sözu ilahiləşdirilmiş vətən sözünə: müqəddəs torpaq» (Gültəkin, 10; Tonyukuk, 38) uyğurlarda isə «göydən göndərilmişdir», «taleyin allahı tərəfindən göndərilmişdir», «xoşbəxt» kimi verilir (V. R a d l o v. Опыт словаря тюркских наречий. 1, 2, стр. 1382). Üç sayının əlaqələndirilməsi və xristian təbliğatının digər mənbələrinə əsasən, demək olar ki, türkdilli tayfalar arasında bu yeni əqidə—xristianların «müqəddəs» üçlüyü» çətin olmuşdur.

* Xristian dinində: üç sifətdə birləşmiş allah —tərcüməçi.

abidədə bu sözləri başa düşmək: olar: «o öz adamlarını karlukların yanına göndərdi... o dedi: Mən gizlincə üsyanı hazırlaram, siz isə xaricdən başlarsınız... mən sizinlə birləşmək istəyirəm.*

Vəziyyət çox ciddi idi, lakin Moyançurun ixtiyarında veteranlardan ibarət qoşun var idi. Ərəb tarixçisi Kudama məlumat verir ki, on nəfər doqquz-oğuz yüz nəfər karluk ilə bacara bilərdi.

Döyüş Ötükən düzündə, yəni Uyğurstanın ürəyi hesab olunan Xanqayda baş verdi. Müttəfiqlər darmadağın edildilər. Uyğurlar karlukları və türkeşləri təqib edib çatdılar, bütün əmlaklarını onlardan aldılar. «Üç üqnum» haqqında mənbədə daha heç nə deyilmir, görünür bu dəfə ona son qoyulmuşdu.

Sonra yazı çox pis korlanmışdır. Görünür ki, yalnız 753-cü ildə basmalar və karluklarla kəskin mübarizə davam etmişdir, üsyançılara bəzi türklər, bəlkə də 650-ci ildən Altayda gizlənən türklər də kömək etmişdir. 755-ci ildə müharibə uyğurların tam qələbəsi ilə başa çatdı, onlar Saur və Tarbaqataya qədər karlukların şərqi köç yerlərini zəbt elədilər. Uyğurları qərbə tərəf irəliləməyə peçeneqlər qoymadılar, onların köçləri Volqa çayı ətrafına qədər yayılmışdı. Bu davakar xalq bütün qonşuları — xəzərlər və quzlar ilə savaşmışdı. Buna görə də ağır müharibə bir dəqiqə belə dayanmırdı, bu isə uyğurlara əl verirdi və qərb sərhədlərini müəyyənləşdirməyə imkan yaratdı.

Kidanların könüllü olaraq tabe edilməsi Uyğur xaqanlığının şərq sərhədlərini möhkəmləndirdi, An Luşan üsyanı və Çinə sonrakı yürüşlərdə qazanılmış hərbi qənimətlər hesabına cənub əyalətləri zənginləşdi. 758-ci ilə qədər qırğızların müqavimət göstərdiyi şimal hələ də qalırdı. Qırğızlar məğlubiyyətə uğramaqla və itaət etməklə özlərini idarə etməyi də istəmədilər. Onların başçısı uyğur xanından «Kexan»lıq verilmədən «Bilgə-tonq-erkin» titulunu aldılar. Görünür, burada hansısa asılılıq forması olmuşdur, onu vassal forması kimi də adlandırmaq olmaz, çünki icmanın azad üzvlərindən (oğuzlardan) və hərbi əsir qullardan ibarət olan bir cəmiyyətdə feodal münasibətlərinin axtarışına imkan verilmir.

Təbii sərhədlərə çataraq şimal və qərb ekspansiyası dayandırıldı. Uyğurların özləri birləşmiş tayfaları «qonaq adlandırırdılar; türklər üzərində qələbəyə öz dövlətlərinin ikinci dəfə ucaldılması kimi baxırdılar, belə hesab edirdilər ki, «xan taxt-tacda xalqı uşaqlar kimi idarə edir» və yaxud «kürt toyuq kimi öz yumurtaları üstündə oturur».

---

* Q. İ. Ramstedt (Перевод надписи. «Селенгинского камня, стр. 44) güman edir ki, bu basmaların başçılarının sözüdür, lakin orada deyilir ki, basmalar Uyğuriyaya birləşmədikləri vaxt, deməli onların xaricdə düşmənləri idi. Burada isə daxildə yaşayan düşmən, sui-qəsdçi, sərhədlərdən kənarda yaşayan tərəfdarlarına müraciət edir.

Şübhəsiz ki, onların çəkdikləri çiçəklənmə və xoşbəxtlik mənzərəsi şişirdilmişdir, lakin bu da vacibdir ki, partriarxal məişət burada ideal kimi hər yeri zəbt edən ordanın əvəzinə irəli sürülmüşdür.

**Uyğurlar və onların qonşuları.** Yuxarıda göstərildi ki, uyğurlarda tayfa birləşməsi hakim, daha doğrusu, doqquz-oğuz rəhbər tayfalarından ibarət idi, burada basmalar və şərq karlukları, özlərini hüquqi cəhətdən bərabər hesab edən, habelə haqlarında sonra söhbət açacağımız bir neçə tabe edilmiş tayfadan ibarət altı teles tayfası (buqu, hun, bayırk, tonqre, sıqe və kibi) var idi. Tabe olmuş tayfalar doqquz-oğuz tayfasından olan Yaqlakar xan familiyasının xeyrinə xərac verirdilər. Bu tayfa nəinki müttəfiq tayfalar ilə müqayisədə, həm də «döyüşlərdə daim irəli gedən» basmalar və karluklara nisbətdə də imtiyazlı vəziyyətdə idi, çünki onlara, yəni basmalara və karluklara az yazıqları gəlirdi, onları az qoruyurdular.

Federasiyaya daxil olmayan tayfalarla uyğurların qarşılıqlı münasibətləri ən mühüm məsələdir — bu, artıq dəfələrlə bizim tərəfdən göstərilən, yalnız VIII əsr tibet coğrafi sənədi sayəsində izah olunur.

Bu abidəyə müvafiq olaraq qeyd etmək olar ki, nonni sahillərində yaşayan kidanlar məşhur müstəqilliklərini qoruyub saxlamışdılar. Onların başçılarına xaqan titulu verilirdi və onlar bəzən uyğurlarla savaşırdılar, lakin çinlilərə qarşı köhnə düşmənçilikdən çox vaxt onlarla ittifaq bağlayırdılar. Tatablar və qara-kiblər, yəni uyğur federasiyasına daxil olmayan kibi tayfasının bir hissəsi də özlərini bu cür aparırdılar. Bu tayfalardan şimalda, Amur çayı ətrafında o dövrdə balıq tutmağı üstün tutan tatarlar, Zabaykalyedə isə heyvandarlıqla məşğul olan doleman (interpretasiyaya düşməyən ad) tayfası yaşayırdı. Uyğurstanın şimal sərhədlərində Qırğız xaqanlığı yerləşmişdir, onlar uyğurlara samur xəzi ilə xərac verirdilər. Görünür, qırğızlar 711-ci ildə darmadağın edildikdən sonra bir neçə tayfaya* parçalanmışdılar, bu da uyğurlara onlar ilə münasibətlərin yaradılmasını asanlaşdırmışdır. Lakin Qərbi Sibirdə qırğızlardan başqa bir neçə iri tayfa və uyğurlarla daim müharibədə olan kuçuqur tayfası — (yeddi yedre tayfası (görünür, siyan altay tayfasıdır, şortsların əcdadıdır) və kuçuqur — ku kijilər — altayın qu quşlarıdır).

Bu müharibə Uyğurstanı cana yığmışdı və sərhədin digər sahələrində diqqətlərini cəmləşdirmək üçün uyğur xanlarına imkan vermirdi, onların vəziyyəti çox gərgin idi. Şimalda yaşayan öküzayaqlı adamyeyənlər, ölməz nəhənglər və adamlara hücum edən dəhşətli heyvanlar haqqında fantastik hekayətlər Sibir tərəfindən edilən təhlükənin həcmi haqqında təsəvvür yaradır. Bu hekayətlərin

---

* C. Kloson göstərir ki, Khe-rged, Hir-kis, Cir-tis, Hir-tis müxtəlif transkripsiyada işlənən «qırğız» deməkdir. Lakin bir halda ki təkcə xalqın adının yazılması deyil, həm də coğrafi yeri müxtəlifləşir, mən belə hesab edirəm ki, VIII əsrin ortalarında vahid qırğız xanlığı mövcud olmamışdır və transkripsiyanın müxtəlifliyinə qırğız xalqının siyasi dağınıqlığının miqdarı ilə haqq qazandırılır.

ümumi mənası yalnız birdir: şimaldan yaxınlaşan fəlakəti göstərmək lazımdır, uyğurlar bu məsələdə həqiqətdən uzaq deyildilər.

Tibet coğrafiyaçısı Altayda və ondan bir qədər cənubda iki xalqı yerləşdirir.

Onlardan biri ölkədə o qədər qapalı yerləşdirilmişdir ki, karluklar bir o qədər də əla müdaxilə edə bilmirlər. O, iki il kur erkin* titullu başçıya tabe edilmişdir. Şübhəsiz ki, onlar cənubi Altay dağlarında gizlənən və orada onlar üçün adi hesab olunan «tolistarduş» sistemini təsis edən türklərin qalıqlarıdır. Teles gölü yaxınlığında və Çui vadisində yaşayan tolis və todaş sümüyü onların əksi olmuşdur.

İkinci xalq — türk Gülyük Gülçurdan yaranan ibil-kur xalqıdır, karluklar və türkeşlər arasında olmasına baxmayaraq, VIII əsrin ortalarına qədər müstəqilliklərini saxlayan, yalnız çuy tayfalarından ibarət olan bu xalq çumuqun xalqıdır. Bu tayfanın malikanələri Tarbaqatayın qərbində yerləşirdi.* Cunqariyada bizə yaxşı məlum olan, basmalardan və karluklardan başqa, bayırklar, yəni 747-ci ildə basmalar tərəfində uyğurlara qarşı vuruşan və öz dostları ilə birlikdə keçən bu çoxsaylı tayfanın müəyyən hissəsi yaşayırdılar. İkinci tayfa türkeşlərdən şərqdə yaşayan oqrak tayfasıdır, o Cunqariyanın əsl tayfalarından biri olub, hələ eramızdan əvvəl uqe adı ilə I əsrdə məşhur idi. Türkeşlər, daha doğrusu, bu xalqın qalıqları Orta Asiya vadilərində hökmranlıq edən ərəblərə qarşı yaranmış düşmənçiliklərini saxlayaraq uyğurların sadiq müttəfiqləri idi. Qərbdə uyğurlara düşmən olan tayfalar: peçeneqlər və qara süvarilər* yerləşmişdilər, burada qara türkeşlər, daha dəqiq desək, uyğurlara könüllü tabe olmaq istəməyən türkeşlər nəzərdə tutulur.

Hər yerdə — şərqdə, şimalda və qərbdə — VIII əsrdə tayfalar parçalanır, ayrılır və yeni variantlarda birləşirdilər, çünki İrandan çölə daxil olan mədəniyyət adamların birləşməsi üçün qarşıya yeni vəzifələr qoyur və başqa prinsiplər irəli sürür. Dini etiqad belə bir prinsip oldu.

**Etiqadın dəyişilməsi.** Güman etmək olar ki, Uyğur xaqanlığının meydana gəlməsi ilə müşahidə olunan hadisələr ideologiyanın dəyişməsi ilə əlaqədardır. Belə ki, bu dövrdə Uyğuriyada dövlət dili meydana çıxdı ki, bu da daxili Asiya

---

* Qum səhrası təpələrindən şimalda məskunlaşan it xalq haqqında hekayətdir, türkyutların onları istila etmək cəhdlərinə baxmayaraq, onlar müstəqilliklərini saxlayan quzlar idi.

* Qardizi bu rayonda kimakları göstərir. «Kimaki» adı orta əsr Çin coğrafiyaçılarına məlum deyildi, həmçinin çumuqun adını da fars və ərəb coğrafiyaçıları bilmirdilər. Ona görə də güman etmək olar ki, onların hər ikisi eyni, həmin tayfanı nəzərdə tuturmuşlar. Qardizi göstərir ki, tatarlardan əmələ gələn kimakların hakim nəslinin mənşəyi X əsrin əvvəllərinə aiddir və bu mənşə tatarlarla deyil, tatablarla əlaqədardır. Bu dövrdə kidanlar tatabları istila etmişdilər.

* Tibet mətnində: «Na-la-yun çoxsaylı və inkişaf edən türk tayfasıdır. Buradan da ən yaxşı türk atları götürülür». Kloson bu tayfanın Usruşanda və Fərqanədə, yəni bu vaxt türkeşlərə məxsus olan onun vilayətlərində olduğunu göstərir. Güman edirəm ki, mətn belə oxunmalıdır: «Qara yun (t)lıq», burada yunt at deməkdir. Deməli, qara atlı süvarilər, bu vaxt bu yerdə yalnız türkeşlər ola bilərdilər.

üçün yenilik idi. Hunlar, türklər və qədim monqollar «Əbədi səmanı» — həyatın qanuni mənbəyini, dünyəvi qayda-qanunu üstün tutur, onu maddi «Mavi səma»dan fərqləndirir və ona pərəstişi ilə eyniləşdirmirdilər. Öz təbiətinə görə hər iki pərəstiş obyekti yeni əqidə ola bilməzdi: Əbədi səma bəşəridir və ona bütün xalqın etiqadı vardır, əcdadlarımız özümüzküdür, yadlar onlara hörmət etməməlidir. Səma — Yerə aid oxşar sitayişlər uyğurlarda da var, lakin İdigan xanın vaxtında bu manixeyçiliklə əvəz olunmuşdu.

Uyğur xristianları vətəndaş müharibəsi vaxtı xanın düşmənləri sırasında qalmaqla böyük bir səhvə yol verdilər. Onların nüfuzu azaldı, bu da manixeyçilərin yolunu təmizlədi.

Moyançur xanının özü köhnə dinə sitayiş edirdi. Bu, onun yazdığı mətndən də görünür: «Mən yayı öz malikanəmdə keçirmişəm, mən orada yaka (yaka yakalaladım) qurdum. «Yaka» sözü Ramstedt tərəfindən tərcüməsiz verilmişdir, lakin onun mahiyyəti S. E. Malov tərəfindən açılmışdır — haqq vermək, bəzən isə «icarə» deməkdir. Mövcud mətndə bu, uğurlu yürüş üçün təşəkkürlə dua etmək deməkdir.

Orxon çindilli yazılarda qəbul edilmiş manixeyçilik «Deni loqu (yuy) Momişisyedu den mişi xe Qyuylu» xanına aid edilir, 763-cü ildən sonra baş vermiş Şi Çao-i üsyanının yatırılmasından sonra gəlir. Bu, Xuay Enya üsyanı zamanı çin-uyğur ittifaqının pozulmasına uyğundur. Belə ki, Çində manixeyçilik iyrənc təlim hesab olunurdu, xristianlığa isə yol verilirdi, bu da təsadüfi deyildir ki, dini və siyasi görüşlər bir-birinə uyğun gəlirdi. Beləliklə, biz uyğurların müraciətini 766—767-ci ilə aid edə bilərik. Doğrudur, VII—VIII əsrlərdə manixeyçilik bütün Asiyada təbliğ olunurdu, lakin manixeyçilik yalnız uyğurlarda möhkəmlənirdi. Özü də uyğur xanları Çində və Orta Asiyada öz tərəfdarlarını əzmlə müdafiə edirdilər.

Beləliklə, Uyğurlarda ideologiyanın radikal şəkildə dəyişilməsi faktı tam yəqinliklə müəyyən olunur. Təəssüf ki, bu dəyişikliklərin nə vaxt və hansı şəraitdə baş verməsini özümüz üçün aydınlaşdırmaq sahəsində çin və ərəb müəlliflərinin verdikləri məlumatlar çox natamamdır. Lakin Orxon çayı vadisində uyğurların Çindilli abidəsi yeni dinin tətbiq edilməsi haqqında daha çox və maraqlı məlumat verir. Abidənin pis saxlanmasına baxmayaraq, o bizi maraqlandıran qiymətli məlumatlar verir, bu sətirləri bərpa etmək mümkün idi. Görünür, İdikyan* din təbliğatçılarını öz yanına çağırmış və məmurlar qarşısında təbliğat aparmaq üçün

* Pelyo və Vasilyev güman edirdilər ki, Moyançur deyil, məhz odur. Soqdiaların mətni bu haqda söhbət açır. «Parlaq dini» qəbul edən xan — Gül-Bilgəxanın oğlu, yəni Moyançurun oğlu «Tenqride bolmış il-itmiş bilgə xaqan», yəni «Səmada yaranan dövlətquran müdrik xaqan» titulunu daşıyır. Soqdio mətni yarımçıqlığına baxmayaraq, çin mətnindən aydındır:» «...biz kafir qanununa malikdik. Səma hökmdarı... ilahi Mananın odlu-işıq təlimini qəbul etmişdir. Bundan sonra səma hökmdarı orda... Hamıya demişdir: «Qəbul edin!» Buna görə də.. biz itaət etməyi gətirdik».

onları ali qanun təlimçisinə vermişdir. O, gözəl natiq idi: «onun mühakimələri çay kimi axırdı, odur ki, o uyğurlarda əsl təlimi aşkara çıxara bilirdi».

Uyğurların əyanları əvvəlki səhvlərini başa düşərək... bu təlimi yaymaq, yad əxlaqı ölkədə mənimsəmək, qətlin yerinə yetirildiyi malikanəni xeyirxahlığı yayan hökmdarlığa dəyişmək» barədə əmr aldılar.

Dini islahat baş tutdu. «Yuxarı vəzifədə duranlar necə fəaliyyət göstərirlərsə, aşağıdakılar da eləcə (elə) hərəkət edirlər. Babilistanda manixey patriarxı kimi başa düşülən «Etiqad şahı» baş vermiş hadisəni bəyəndi və «bütün ruhanilərə və manixeylilərə təbliğat aparmaq üçün dövlətə daxil olmağa əmr verib».

Abidənin mətninə müvafiq olaraq, Cüveyni uyğurların müraciətini təsvir edir. O, «onlarda» cadugərlik elminin olmasını qeyd edir, bu sahədə çalışan mütəxəssisləri isə «kama» adlandırır. O, uyğurların baxışlar sistemini din deyil, yalnız ruhlar — iblislər ilə ünsiyyətdə olan praktik fəaliyyət hesab edir. Biz də bunu həmçinin din deyil, cadugərlik adlandırarardıq. Kamların təsiri çox böyük idi, belə ki, onlar xəstələri müalicə edir, falçılıqla məşğul olurdular. Özü də sonuncu vəzifələri onları xanın məsləhətçiləri sırasına çıxarıb, knyaz edirdi. Bu, şamanizmin yaxşı öyrənilmiş və orijinal olmayan klassik forması idi.

Cüveyni manixeyləri «tuinlər, «nome» — qanun kitabından xəbər verən adamlar adlandırır. «Nom» — fars sözüdür və bu günə qədər monqol dilində müqəddəs kitablar adı kimi qorunub saxlanmışdır. Görünür, manixeyçiliyin təbliğatçısı Xətaidən gəlib, Cüveyninin dövründə isə Yeddisunu Xətai adlandırırdılar.

Kamlar və manixeyçilər arasındakı disput Cüveyninin mənbəyində ətraflı təsvir edilmişdir: «...Hər cür, qalib gələcək din təlimini öyrənmək üçün hər iki partiyanı bir-birinə qarşı qoyurdular. Nomçular özlərinin «Nom» kitablarını oxumağa başladılar. «Nom» onların bilik və ehkamı deməkdir, o, uydurma əfsanə və rəvayətləri özündə əks etdirir, bütün peyğəmbərlərin verdikləri göstəriş və təlimlərlə əlaqədar olaraq onun məzmununda yaxşı nəsihətlər də vardır, orada deyilir ki, inciklik və haqsızlıqdan və ona bənzər xüsusiyyətlərdən özünü saxlamaqla şər işlərə görə xeyirxahlığı heyvanlara və digər canlılara əzab verməkdən çəkinməyi üstün tutun. Onların dini təlimi və inamları çoxtərəflidir, lakin daha çox ruhun köçürülməsi təliminin tərəfdarları onlara bənzəyir. Onlar «Nom» kitabını bir qədər oxuduqda kamlar lap mat qaldılar. Bu səbəbə görə də (uyğurlar) bütpərəstliyi (manixeyçilik, yaxud şamanizmi Cüveyni hətta bütpərəstlərin dini hesab etmir) mənimsədilər və tayfanın böyük bir hissəsi onların ardınca getdi.*

* V. V. Radlovun «К вопросу об уйгурах, стр. 60—61» kitabından sitat gətirirəm. Cüveyni uyğur xanını Buku xan adlandırır, o, Soqdia yazılı mənbələrində Buqu xan adlanır. Bu onu göstərir ki, Cüveyni bizə qədər gəlib çatmayan Soqdiya mətnlərindən uyğurların fikrini gətirir.

Cüveyninin mətnləri və yazılı abidələr bir-birinə yaxındır və şübhəsiz bir hadisə barədə söz açır. Tamamilə aydındır ki, XIII əsrin tarixçisi artıq o dövrdə Orta Asiya sönməkdə olan manixeyçiliyi və yayılmaqda olan buddizmi bir yerdə qarışdırır. «Kamil» manixeyçiləri o türk sözü olan «tuinlər» adlandırır, bu söz çin dilindəki Sao — yen sözündən yaranmışdır.. yəni «insan yoldadır» (budda kamilliyi) deməkdir.. Sonra o öz müasirləri olan uyğurları — buddaçıları qədim dövrün manixeyçilərindən fərqləndirmir, təsdiq edir ki, təsvir edilmiş müraciətin səbəbinə görə onlar şərqdə islama qarşı daha düşməndirlər və ona nifrət edirlər. Lakin narrativ və epiqrafik mənbələrin verdiyi məlumatlar bu müraciətin buddizmə deyil, manixeyçiliyə aid edildiyini müəyyən etmək imkanı verir.*

Dönmənin çox sürətlə baş verməsini belə bir faktdan görmək olar ki, artıq 768-ci ildə uyğurlar dörd vilayətdə manixeyçiliyin yayılmasını çinlilərdən xahiş edirdilər. Çinlilər bu xahişi həvəssiz yerinə yetirirdilər. Manixeyçilik çinliləri daha çox ona görə pərt edirdi ki, onlar bu dini seçmiş ailələrə onu qadağan edirdi, çünki bu din kollektiv pozğunluğu yaymaq yolu ilə əldən düşməyə icazə verirdi. Lakin bundan başqa manixeylərin özləri özlərinə qarşı münasibətlərin kəskinləşməsinə imkan verdilər. Hətta ən çətin vaxtlarda belə onlar dini dözülməzlik nümunəsi göstərdilər.

İlk növbədə yazılı abidə mətninin özü bu haqda söhbət açır: «Kafirlər bilmədən şeytanı budda hesab edirdilər. Bu, buddaçıları şeytanın pərəstişkarları yox, bütpərəst hesab edən xristian yaxud müsəlmanlara nisbətən son dərəcə başqa dünyagörüşü idi. Sonra belə bir məlumat verilir ki, guya manixeylərin bütxanalarında iblis təsvir edilir ki, Budda onun ayaqlarını yuyur. Görünür, buddaçılar bunu eşidilməmiş hörmətsizlik kimi qəbul edirdilər.

Lakin bu azmış kimi manixeylər üstünlük qazanaraq onların özlərinə qarşı tətbiq edilmiş tədbirləri məğlub olmuş rəqiblərinə qarşı tətbiq etdilər. «İblislərin həkk olunmuş və çəkilmiş təsvirləri hər şeyi yandırmağı, ruhlara dua oxumağı, iblisə itaət etməyi əmr edir...».* Güman etmək olar ki, buddaçıların Uyğuriyada yaşaması asan olmamışdır.

Manixeyçiliyin təntənəsi uyğurları bütün qonşularla dalaşdırdı. Orta Asiyada müsəlmanlar, Tibetdə buddaçılar, Çində konfutsililər, Qırğız xaqanlığında şaman tərəfdarları — hamı yeni təlimi vəhşi pozğunluq kimi qəbul edirdilər. Uyğur xanlığının özündə aşağı təbəqələr öz bədənlərini taqətdən salmağı saxlamağa və

---

* Radlovun güman etdiyi kimi N. Rissh uyğurların müraciətinin 763-cü ilə aid edildiyini göstərir. Lakin öz tarixini əsaslandırmaq üçün heç bir əsas gətirmir.

* O vaxt Uyğur xanlığı hüdudlarında bir çox türk qəbirüstü abidələri dağıdıldı. Bununla əlaqədar olaraq A. D. Qraqın konsepsiyasını yada salmaq lazımdır, onun fikrincə «balban» sözü türk qəbirlərində guya öldürülmüş düşmənləri təsvir edən daşa deyilirdi. (A. D. R a ç, Древне-тюрские изваяния, стр. 76—77). Birincisi, uyğurlar öz əcdadlarının heykəllərini çətin məhv edərdilər. Sonuncu ad öldürülmüş düşmənləri təsvir edən yalnız saldaşlara aiddir.

üzücü əxlaqsızlığa qarşı mübarizə aparmaq üçün çətin ki, doktrina qəbul edərdilər. Lakin «tarix göstərir ki, Monidən olan kuyxus kexanı ümumi dövlətdir, yəni uyğur xanı manixeylərin iclası ilə özünü o qədər bağlayırdı ki, onun eli taxt-tac və səcdəgah arasında müqavilə bağlanmasına çevrildi.

Uyğuriyada manixeyçiliyin tətbiq edilməsi yazının dəyişməsinə səbəb oldu, uyğur əlifbası adlanan yeni əlifba yarandı. Bu əlifba yeni Soqidian yazıları əsasında yaradılıb və öz sadəliyi, rahat olması ilə fərqlənir. Sətirlər yuxarıdan aşağı və soldan sağa yazılır. Manixey, xristian və müsəlman mətnləri, habelə Turfandakı hüquqi sənədlər bu əlifba ilə yazılmışdır. Onlardan ən qədimi manixey sənədləridir, belə ki, budda uyğur və uyğur-müsəlman abidələrinə nisbətən manixeylərin fonetika və qrammatikası orxon-yenisey daş abidələrindəki yazılara yaxındır. 795-ci ilin abidəsində orxon-çin dilində verilmiş dörd sətir tarixi məlum olan ən erkən mətndir. Yazı çox pis qorunub saxlanmışdır, lakin o şübhəsiz ki, yuxarıda göstərilmiş, yəni daş üzərində həkk olunmuş çin mətni ilə əlaqədardır.

Bizim sərəncamımızda mətn — orta əsrlərdə iran adı — Xuastuanift ilə, daha doğrusu, onun manixey — Suriya dilindən uyğur dilinə tərcümə olunmuş peşmançılıq duası vardır. S. E. Malov belə hesab edir ki, tərcümə hələ V əsrdə edilmişdir, amma tarixin bütün gedişi bunu istisna edir. Uyğurlarda manixeyçilik yalnız VIII əsrdə qeydə alınmışdır və türklərdə manixeyçilik olmamışdır. Deməli, manixeyçilik Böyük çölə VIII əsrin ikinci yarısından etibarən daxil edilmişdir, bu vaxt ərəblər soqdiyalıların müqavimətini qırmışdı və manixeylər həyatı xilas etmək naminə çiçəklənən vadilərdən vəhşi çöllərə qaçmaq məcburiyyətində qalmışdılar. Duanın imzası vardır. «Betyurmiş — tarxan Xuastuanifti — dinləyicilərin günahı haqqında dua oxumağı qurtarmışdır». Görünür, Betyurmiş tarxan «kamil» şəxs imiş (manixey ierarxiyasının ən yüksək rütbəsi) və tamamilə əlamətdar haldır ki, manixeyçiliyin təbliği zadəganların nümayəndələri vasitəsi ilə aparılırdı.

Lakin sadə uyğurlar da yeni dinin gücünü öz üzərlərində hiss edirdilər. Manixeylərin qanunu pəhriz saxlama günlərini nəzərdə tutur, bu qanuna görə hətta yağ və süd belə yemək qadağandır. Uyğur çobanları və ovçuları acından ölməmək üçün dirrik yaratdılar. Çöldə bu yol ilə əkinçilik yayılmağa başladı.

Manixeyçiliyin öz təbliğatçıları əldə etdikləri müvəffəqiyyətlərdə öz məmnunluqlarını belə sözlərlə ifadə etmişdilər: «Buğlanan qan ilə dolu, vəhşi əxlaqlı bir ölkə tərəvəzli bir ölkəyə, ölüm hadisələri olan bir ölkə — xeyirxah işlərə can atan bir ölkəyə çevrildi». Bu geniş mənalı deklemasiyanın şeylərin həqiqi vəziyyətini əks etdirməsi şübhəlidir. Uyğurların təbii davakarlığı orucluq və ibadətdən silinib getməmişdir, Uyğuriyanın xarici siyasəti fəal olaraq qalmaqdadır.

**Başlanmış tərəqqi.** Çöldə yeni qaydaların tətbiq edilməsi ticarətin inkişafına faydalı təsir göstərdi. Doğrudur, salnamələrdə bu haqda birbaşa göstəriş olması da, numizmatika bu barədə inandırıcı məlumat verir. Minusin hövzəsində Tan dövrünə aid çoxlu sikkələri tapılmışdır. 621-ci ildə zərb edilmiş 45 sikkə Sibirə gəlib çıxmışdır, görünür, türklər Tan imperiyasına tabe olduğu vaxt, yəni

630—680-ci illərdə ora düşmüşdür. Sonra İkinci xaqanlıq dövrünə aid fasilə olur, sonra isə 758—759-cu illərə aid 12 sikkə, daha sonra isə IX əsrə yaxın olan dövrə aid cəmi 6 sikkə tapılır.

VIII əsrin sonunda ticarətin dayandırılması barədə fikirləşmək düzgün olmazdı. Əksinə, ticarət genişləndi, amma ərəb və turfan tacirləri çin rəqabətçilərini döydülər. Hər üç ildən bir Minusin hövzəsindən xilafətin 20—24 dəvəyə naxışlı parçası yüklənmiş karvanı gəlib keçirmiş. Əgər uyğuriyanın vilayətlərinin yalnız birinə bu qədər dəvə gedirdisə, onda bəs mərkəzə nə qədər karvan yola düşürdü.

Uyğurların paytaxtı türk xanlarının qərargahına bənzəyən gecə çadırlarından ibarət düşərgə deyildi. Türklərdən fərqli olaraq uyğurlar şəhərlərdə geniş quruculuq işi aparırdılar, həm də bu iş soqdiyalılara və çinlilərə tapşırılırdı. 758-ci ilə qədər Selengi çayının sahillərində Baybalıq şəhəri tikildi. Bu dövrə yaxın vaxtda isə Uyğuriyanın paytaxtında — Qaraqurumda çin yazısı ilə sütun ucaldıldı.

Uyğuriya son dərəcə sürətlə mədəni bir ölkəyə çevrildi.

## XXVIII fəsil

## AN LUŞAN ÜSYANI

**Böyük Çin.** 751-ci ildəki uğursuzluq həm Şərqdə, həm də Qərbdə İmperiyaya çox güclü təsir göstərdi. 754-cü ildə yağan yağışların və daşqınların — təbii fəlakətlərin sayəsində yaranmış vergilərin və aclığın artmasından bütün ölkənin narazı olması ordunu bürüyən narazılıq kimi hökuməti heç də narahat etmirdi. İmperiya ordusu zərbəçi dəstələrdən — süvari ox atanlardan və dəmir geyimli döyüşçülərdən, habelə çoxsaylı köməkçi vasitələrdən: piyadalardan, araba nəqliyyatından, xidmət sahələrindən, intendant qoşunlarından və s.dən ibarət idi. Qoşunların nəhəng miqdarda olması onunla izah olunur ki, bütün bu döyüş qabiliyyəti olmayan dəstə onların sırasına daxil idi. Lakin köməkçi vasitələr olmadan süvari oxçular və dəmir geyimli döyüşçülər vuruşa bilməzdilər, çünki əgər döyüşçülər özləri öz atlarına qulluq etsələr, silahlarını təmizləsələr, odun daşısalar və yemək hazırlasalar onda onlar oxun yayını qulaqlarına qədər çəkmək və ağır qılıncla vuruşmaq üçün kifayət dərəcədə dincələ bilməzlər.

VIII əsrdə yerinə yetirilən taktika şəraitində döyüş bir an içində həll olunur, ordunun zərbə hissəsinin bütün qüvvələri məhz bu an üçün toplanırdı. Məlumdur ki, zərbəçi dəstənin böyük bir hissəsi köçərilərdən ibarətdir, onlar uşaq yaşlarından başlayaraq at minməyi və ox atmağı öyrənirlər. Bu qoşunun bir hissəsi 682-ci ildə Ordosdan Qütlüğ ilə birgə getmişdilər, amma onları əvəz edənlər də köçərilər*

* 718—720-ci illərdə sərhəd qoşunları Xebydə Xedunun qoşunundan az idi, lakin An Luşan başçı olduqdan sonra ilk növbədə qoşununu köçərilərlə artırdı.

olmuşdu. 75 il bundan əvvəl türkləri hansı hisslər bürümüşdüsə onlara da həmin hisslər hakim kəsilmişdi.

Qələbə, mükafat və qənimət əldə etmək ərəfəsində köçərilər vicdanla vuruşurdular, lakin qələbənin qazanılmadığı zaman onlar təqsirkarları axtarmağa başlayır, çox vaxt olduğu kimi, hökuməti günahlandırırdılar.

Çanyandakı Çin məmurları və əyanları sərhəd qoşunlarına yad və xoşagəlməz adamlar idilər, sərkərdələr isə köçərilərdən, yəni onların özlərindən qoyulmuşdu. Onlar uzun müddət xidməti vəzifələrini yerinə yetirmək işi ilə məhdudlaşırdılar, əyalətlərdə qoşuna başçılıq etməyi də onlara etibar etmirdilər, bu da onların mənliyinə ciddi təsir göstərirdi. Odur ki, sərhəd qoşunları bütövlükdə saray müxalifətinin ixtiyarında idi.

Sərhəd qoşunlarından başqa, paytaxtın ətrafında qvardiya saxlanırdı, burada vaxtilə Tan sülaləsinə yaxınlaşmış zadəgan ailələrindən olan çinlilər qulluq edirdilər. Qvardiyada döyüşçülərin miqdarı xeyli çox idi və onlar yaxşı silahlanmışdılar, amma hələ döyüş görməmişdilər. Üzdəniraq şimal qoşunları onlara qoşulmuşdular, bu qoşunlar əvvəlcə imperator Taytszunun tərəfdarlarından ibarət idi. Taytszun məhz onların köməyi ilə 619-cu ildə taxt-taca sahib olmuşdu. Sonralar isə qoşun veteran döyüşçülərin övladları hesabına komplektləşdirilir, ona görə də onları «atalar və oğullar ordusu» adlandırırdılar. Bu qoşun hər hansı saray sui-qəsdinin, yaxud çevriliş etmək cəhdinin müvəffəqiyyətini təmin edir, ya da üstün açıb iflasa uğradırdı. Şimal ordusundan əlavə isə Li familiyasına mənsub olan mühafizəçilərdən ibarət xüsusi süvari dəstəsi mövcud idi. Bu dəstə hərbi əsirlərdən və ev qullarından təşkil edilmişdir.

Beləliklə, daxili qoşunlar çox idi, lakin onların siyasi mövqeyi daim şübhə doğururdu. Bu qoşunlar saraya və oradakı fitnə-fəsada çox yaxın idilər, bəzən imperatorun özü ilə belə razılaşmırdılar. Məsələn, hökumətin fikrincə, 731-ci ildə mükafatlandırılmaq üçün gələk yolunu tutmuş bir sıra zabitlər özünəqəsdə məhkum edilmişdilər.

Tibet cəbhəsində yaranmış çətinliklər imperatoru xarici düşmənə qarşı Şimal ordusunu göndərmək məcburiyyətində qoyur, amma o az müvəffəqiyyət qazanır. Bununla əlaqədar olaraq VII əsrdə Çin poeziyasında hər iki qoşun barədə verilmiş fikri müqayisə etmək yerinə düşər.

Sərkərdə An Luşanın rəhbərliyi altında olan nizami yabançı qoşuna Du Fu şer həsr etmişdir, o bu şerdə 751-ci ildə qoşunda mövcud olan intizamı və döyüş ruhunu təsvir edib. Şer bu qoşunların 755-ci ildə üsyanından bir neçə ay əvvəl yazılmışdır. Onların başçısı hunlara qalib gələn məşhur xan sərkərdəsi, başqa şerdə isə şahin ilə müqayisə olunur.

749-cu ildə tibetlilərə qarşı çıxış edən Qe Şulinin ordusunda səfərbərliyə alınmış Çin döyüşçülərinin hissləri və əhval-ruhiyyəsi Du Funun təsvir etdiyinə bənzəmir.

Dəmir geyimli döyüşçülər «qüssə içində doğma yerlərlə vidalaşır», məmurlar isə fərariləri ölümcül döyürlər. Çox süvariçi təlim vaxtı fəxrlə bildirir ki, o «sürətlə at çaparkən» belə yaydan tutmur. Bu sadəcə olaraq köçərilər üçün deyil, elə bizim üçün də gülməlidir. Doğrudan da bu nailiyyətdir. Sonra sərkərdəyə əxlaq dərsi verilir: «O bilməlidir ki, biz insanıq, heyvan deyilik... bizə qarı şallaq işlədilməməlidir». Sonra dağ keçidlərinin çətinliyindən şikayət olunur, nəhayət, düşmən ilə toqquşma təsvir edilir ki, burada da əzab-əziyyət çəkmiş əsgərlər düşmən süvarilərinin təzyiqini dəf edirdilər. Lakin sonra acı ümidsizlik gəlir:

On ildir mən döyüşlərdəyəm.
On ildir mən axı əsgərəm, —
Yəni bu müddətdə mənim
Heç bir xidmətim olmayıb?

Adi tarixdir. Əsgərlər rütbə və mükafat uğrunda apardıqları vuruşmada daim məğlub olurlar. Son dərəcə ziddiyyətlidir. Yox, VIII əsrdə çinlilərin qorxaq olduğunu fikirləşmək lazım deyildir, amma cənublular xeyli dərəcədə qeyri-adi təsir bağışlayırlar, onlarda türklərin, kidanların və dağlı-tibetlilərin malik olduğu dözüm çatmırdı. Çinlilər qalalarda müdafiə olunmaq bacarığını itirməmişdilər, lakin manevrlə müharibə aparmaq onların xarakterinə uyğun deyildi. Taxt-tac və saray öz qüdrətini çin qoşunlarına bağlaya bilməzdi.

Sarayda isə uğursuzluq hökm sürürdü. Qoca Syuantszun gözəl çin qızı Yana aşiq olmuşdu. Məşuqə bundan istifadə edib öz qohumlarını - çinliləri dövlət vəzifələrinə yerləşdirirdi, onun ətrafında taxt-tacdan tamamilə döyüş sərkərdələrini uzaqlaşdıran əyanlar yaranmışdı. Hakimiyyət qərargahlardan dəftərxanaya, sərkərdələrdən xacələrə keçirdi. Vergilərdən və məğlubiyyətlərdən, rüşvətçilikdən və özbaşınalıqdan, öz xidmətlərinə qarşı diqqətsizlikdən və məşuqənin qohumlarının cah-cəlalından narazı qalanların hamısı yekdilliklə Yan quyfeyi lənətləyirdilər.* Lakin bu fəlakətli vəziyyəti aradan qaldırmaq üçün bir nəfər tapıldı, bu An Luşin idi.*

---

* O, adlı-sanlı ailədən çıxmış Syuantezunun on səkkizinci oğluna nişanlanmış qız idi. İmperator öz sevimli xacəsi olan Qao Li-şiylə əmr etmişdi ki, gözəl bir qız axtarıb tapsın, o da şahzadənin nişanlısını imperatorun hərəmxanasına götürüb aparmışdı. 745-ci ildə Yan «Quy-fey» adını, yəni birinci dərəcəli kəniz adını aldı və hakimiyyəti yarımimperatriça hüququ əsasında bölməyə başladı (Ç e n X u n. Повесть о бесконечной тоске, стр. 125.).

* Siyasi cəhətdən hazırlığı olmayan Yan Quy-fey zabit An Luşanın yuxarı vəzifələrə qalxmasına kömək edirdi, məşuqə onun kobud zarafatlarından və etiketləri bilməməsindən təskinlik alırdı. Məşuqənin qardaşı yan Qoçjun imperatorun baş müşaviri olduqdan sonra o An Luşanı xəyanətkarlıq fikirlərinə görə günahlandırdı. Yan Quy-fey An Luşanı oğulluğa götürdü. Belə deyirdilər ki, imperatriça sərkərdənin məşuqəsidir.

**Sərhəd yaxınlığında.** An Luşan Çinin təsir altına düşən köçərilərdən idi.*
O, 736-cı ildə diviziyaya başçılıq edərək döyüşü kidanlılara uduzmuşdu. O buna görə ölümə məhkum olsa da imperatorun qarşısında özünə haqq qazandırmışdı. An Luşan türk çəldliyi ilə çin hiyləgərliyini özündə birləşdirmişdi, o eyni vaxtda hiylə işlətməyi və vuruşmağı, məkrlilik etməyi və əmr verməyi bacarırdı. Saray müftəxorlarının satqınlığını bildiyinə görə, An Luşan rüşvət vermək üçün pullarına heyfi gəlmirdi, elə buna görə də o sürətlə yuxarı vəzifələrə qalxırdı.

Bu zaman sarayda zadəganlar, yəni yüksək mənsəbli ailələrin üzvləri, imtahan vermək yolu ilə rütbə almış «alimlər» arasında mübarizə gedirdi. Sonuncuların rəhbəri hesab olunan Li Lin — fu, hökumətin başçısı öz rəqiblərinə qalib gələrək tamamilə savadsız köçəriləri hərbi vəzifələrə irəli sürməyə başladı, onları təhlükəli hesab etmədi. Bu dalğa An Luşanı ayağa qaldırdı. O, 742-ci ildə hərbi islahat vaxtı Mancuriyada, Pinlunda korpus aldı; 744-cü ildə Ordosun mərkəzi hissəsində olan Fanyanda daha bir korpus, 752-ci ildə isə Ordosun şimalındakı Xedunda korpus almağa nail oldu. 754-cü ildə o süvari qoşunlarını ilxılarla təmin etmək məqsədilə özünə hüquq verilməsini xahiş elədi. An Luşan ona tabe olan vilayətlərdən böyük gəlir əldə edərək, kidanlardan, tatablardan və tonqra tayfasından ibarət səkkiz min seçmə döyüşçü topladı. Həmçinin başçı Abusun salamat qalmış türk silahdaşlarını öz ordusuna daxil elədi. Yuxarıda qeyd edildiyi kimi, Abus 753-cü ildə Çinlilərin zindanında ölmüşdü.

An Luşana sadiq olan soqdiyalı tacirlər onun özü tərəfdən «hər yerə ticarət etməyə, həm də onun üçün pul qazanmağa və şəraiti öyrənməyə göndərildilər. Hətta Çin məmurları arasında belə An Luşan özünə dayaq və həmfikir tapdı.

Həddən artıq qızğın fəaliyyət, qoşunun artması, sərhədyanı malikanələrin bir əldə birləşməsi, bəlkə də bizə gəlib çatmayan kəşfiyyat məlumatları nazir Yan Qo-çjunu An Luşana qarşı məhkəmə işi qaldırmağa məcbur etdi. An Luşan işin təhqiqatından yayınmadı, şəxsən paytaxta gəldi, özünə çox gözəl haqq qazandırdı və 2500 nəfər zabitə vermək üçün mükafat da əldə etdi ki, bu da üsyanqabağı ona lazım idi. O, 755-ci ildə 32 nəfər yüksək rütbəli çin zabitini özünün təqdim etdiyi köçəri namizədlərlə əvəz olunmasını xahiş elədi. Yan Qo-çjunun müqavimətinə baxmayaraq imperator bu xahişi yerinə yetirdi. Lakin An Luşan başa düşdü ki, daha məsələni uzatmaq olmaz, odur ki, 755-ci ilin noyabr ayında Xebey əyalətinin Yuyyun adlı kəndində təbillər çalındı və Yan nəslini devirmək üçün üsyana çağırış elan edildi. 150 minlik sərhəd qoşunu əsgər və zabitlərin tam yekdilliyilə üsyana

---

* Q. E. Qrumm-Qrjimaylo belə güman edir ki, o hundur. (Западная Монголия, стр. 336); Kordye onu kidan hesab edir; Pyulley-blank onu ata xətti ilə soqdiyalı hesab edir, o göstərir ki, onun anası tanınmış Aşin de adlı türk nəslindəndir. Başqa mənbəyə görə, An Luşanın atası şimalda yaşayan xu köçəri tayfasındandır, o, varlı soqdiyalı tərəfindən oğulluğa götürülübmüş. Guya o, cavanlığında qoyun sürüsünə görə ilişmiş, ölüm cəzasının ləğvinin əvəzinə qoşuna götürülmüşdür, elə buradan da onun yüksəlişi başlanmışdır.

qalxdı. An Luşanın müşavirləri arasında hətta türk şahzadəsi Aşina Çen-Tsin də var idi. Belə güman etmək olar ki, çox ciddi olan bir proqram—Yan Quy-feyin devrilməsi heç kimi aldatmırdı. Əsgərlər başa düşürdülər ki, onlar öz hüquqlarını müdafiə etmək üçün hakimiyyəti ələ keçirməyə gedirlər; çinlilər isə başa düşürdülər ki, onların üzərinə xu adlı barbarlar gəlirlər, onları qırmaq lazımdır. İmperiyanın birliyi hər tərəfdən dağılırdı.

Hökumət üsyana An Luşanın Çanyanda yaşayan oğlunu qətlə yetirməklə, üsyanı yatırtmaq üçün iki ordu göndərməklə cavab verdi. Ordunun birində 60 min nəfər, digərində isə 110 min nəfər döyüşçü var idi. Hər iki ordu darmadağın edildi.*

An Luşan dərhal paytaxtın üzərinə hücuma başladı. Şərqi paytaxt olan Loyan şəhəri dərhal onun əlinə keçdi. Şensiyə, Çanyana doğru gedən yolu dağlıq keçidi tunqundakı zastava tutmuşdu, şərqdə, Xebey və Xedunda isə kidan knyazının oğlu Li Quan-bi üsyançılara qarşı güclü müdafiə təşkil eləmişdi. O, 756-cı il üsyançıların sərkərdəsi Şi Sımini məğlubiyyətə uğrada bildi, bununla da Xebeyin bir hissəsi An Luşana qarşı çıxdı.

Lakin Lanbao yaxınlığındakı vuruşmada Çin hökumətinin qoşunları tamamilə darmadağın edildilər, bu Tunquan qarnizonu arasında çaxnaşmaya səbəb oldu. Keçidi müdafiə edən əsgərlər geri çəkildilər və üsyançılar 756-cı il iyulun 10-da Şensi şəhərinə daxil oldular.

Amma bu peşəkar əsgərlərin törətdikləri vəhşiliklər Çin əhalisini sülalənin möhkəm müdafiəsinə qaldırdı. Halbuki üsyana qədər münasibət skeptik və yaxşı deyildi.

Şair yenicə vəsf elədiyi orduya qarşı münasibətini necə də kəskin dəyişdi. O, artıq onun əsgərlərini vəhşi adlandırır, onlar dərhal qatı düşmənə çevrilmişdilər. Saraya və hökumətə qarşı olan bütün inamsızlıq bir anlığa yox oldu. «Bu dönüş bütün Çin cəmiyyətində baş vermişdi, çünki onlar imperatorun və saray əyanlarının qabiliyyətsizliyini görərək üsyançılarla mübarizə aparmaq təşəbbüsünü öz əllərinə aldılar. Lakin Çin vətənpərvərlərinin An Luşanın döyüşlərdə bərkimiş və qələbədən ilhamlanmış veteran döyüşçülərinə qarşı çıxara biləcək heç bir real qüvvəsi yox idi.

İmperator məşuqəsi ilə paytaxtı tərk elədi, lakin onun şəxsi qvardiyaçıları, xüsusi mühafizə dəstəsi tabeliyindən çıxdılar. Onlar hadisələrin gedişini nəzərə alaraq islahatların keçirilməsini yaxud sülalənin dəyişdirilməsini istəmirdilər, amma daha çox bütün fəlakətlərin səbəbkarı hesab elədikləri Yan quy — feya görə ölmək istəmirdilər.

---

* Vilayətlərdə elə bir vəziyyət yaranmışdı ki, hərbi işləri görmək üçün əsgər çatışmırdı... Əsgərlər və zabitlərin adı yalnız kağız üzərində idi. Silahlar, atlar, yeməklər bişirmək üçün iri qazanlar, çadırlar hazırlanmışdı. Əsləhələr saxlanan anbardan verilmiş zirehlər sıradan çıxmış, nizələr və qılınclar pas atmış, kütləşmişdi. Varlı ailələrdən olub imperatorun qvardiyasını təşkil edən cavanlar həm intizamsız idilər, həm də təlim keçməmişdilər (B a x: həmçinin Şan Que, Очерки., səh.. 236—237).

İmperatoru müşayiət edən əyanların dediyinə görə nazir Yan Qo çjun narazılıq alovunu sakitləşdirmək məqsədilə özünə qəsd etmək barədə göstəriş almışdı. O, borcuna sadiq qalaraq yolda özünü asdı. Əyanlar bundan məmnun oldular, lakin əsgərlər Yan quy-feyin həyatını tələb etdilər. Onu imperatorun karetasından çıxarıb nazik ipək qaytanla boğdular. Qocalıb əldən düşmüş imperatorun özünü isə oğlu Li Xenin (Əbədi titulu — Sutszun) xeyrinə taxt-tacdan əl çəkməyə məcbur etdilər. İmperator yalnız bununla öz həyatını xilas eləmiş oldu.

Taxt-tacdan əl çəkmiş imperatoru Sıçuana apardılar və keçilməz dağ başındakı qəsrdə gizlətdilər. Çanyan isə An Luşana döyüşsüz verildi. Paytaxtın Çin əhalisi vahimə içində gözü baxdıqca hara gəldi qaçmağa başladı.

Hətta Çanyanda yaşayan türklər belə üsyançılardan qaçırdı. Onlar başda knyaz Aşina Tszin-li olmaqla Ordosa gəldilər, orada yaşayan köçəriləri ayağa qaldırdılar və hücum edən üsyançılara Şensi üzərinə arxadan yürüş etmək üçün onları razılığa gətirdilər. Bu təxribatçılar hücumun qarşısını aldı, mahiyyət etibarilə yürüşün taleyini həll etdi, meydana yeni qüvvələrin daxil edilməsinə imkan verdi.

Qərbdəki hərbi korpuslar taxt-taca sadiq qaldılar. Şofondakı ordu komandiri Qo-Tszı-i, Qərbi əyalətdəki qoşunun sərkərdəsi Li Sı-ye və taxt-tac varisi olan Li Xen müqavimət hərəkatına başçılıq etdilər. Lakin onların qüvvəsi az idi, buna görə də qonşu ölkələrdən kömək almaq məqsədilə dərhal səfirlər göndərildilər. 756-cı ilin sentyabrından etibarən uyğurlar və tibetlilər üsyanı yatırmaq üçün öz köməklərini təklif etdilər. Mövcud halda siyasi məsələ şəxsi məsələ ilə uyğun gəlirdi. Üsyançıların məhv edilməsi imperator ordusunun məhv edilməsi demək idi. Çinin daxilində müharibə etmək isə zəngin qənimət əldə etməyi vəd edirdi. Li Sı-ye özünün nizami qoşunundan başqa 5 min nəfər xotanlı şato türklərini və qara köynəkli daşiləri, yəni abbası ərəblərini gətirmişdi. Sutszun cənubda yarımvəhşi maniləri muzdla tutmuşdu. 756-cı ilin oktyabr ayında uyğurlar yürüşə çıxdılar. Moyançur xan əvvəlcə kömək göstərmək məqsədilə razılaşdığı şərtləri bildirdi: o sülh və qohumluq barədə müqavilə bağlamağı tələb etdi. Onun süni vassallığı bu müqaviləni ləğv elədi və onu bərabərhüquqlu müttəfiq mövqeyinə çıxardı.

Yeni imperator olan Sutszun bütün şərtləri qəbul etdi, özü uyğurlardan qız aldı və onu «müdrik (bilgə) qadın» səviyyəsinə qaldırdı. Bundan sonra xan An Luşana birləşmiş olan tonqra tayfasını da darmadağın elədi və 756-cı ilin dekabr ayında Xuyanqu vadisində Qo-Tszı-i ilə birləşdi.

Tonqra tayfası daxilindəki parçalanma onu göstərir ki, üsyanın çöldə də özünəməxsus əks-sədası olmuşdur. Üsyan etmiş tonqralıların başında imperatorun generalı Puqu Xuay-enyanın oğlu Puqu Bin dururdu. General öz oğlunu əsir alaraq xəyanət etdiyinə görə onu öldürdü: vətəndaş müharibəsinin şiddətlənməsi onun iştirakçılarının əsəblərini son dərəcə gərginləşdirdi. Lakin tonqralıların üsyanının uğursuzluğa düçar olması təsadüfi deyildir: imperiyanın səhra ordusunun məhv edilməsi Uyğur xanlığına tam müstəqillik verirdi, bu məqsədə çatmaq üçün isə Tan

sülaləsini xilas etmək və üsyanı yatırtmaq lazım idi. Uyğur xanları bunu başa düşdülər və məqsədlərini həyata keçirdilər.

Xan Çin sərkərdəsini əvvəlcə «qurd bayrağına» təzim etməyi məcbur elədi və bu adətə riayət olunduqdan sonra onu öz yanına buraxdı. Mərasimkeçirmə vaxtı ona verilmiş yerdən narazı qalan uyğurların elçisini imperator taxtda oturtmağa əmr etdi və onun könlünü aldı. Bundan sonra Cəbqu (yabqu), uyğur taxt-tacının varisi 4 min seçmə süvari gətirdi. Çin taxt-tacının varisi onunla qardaşlaşdı. Sadə qəlbli uyğurlar riqqətə gəldilər və onlara göstərilmiş şərəfdən məmnun oldular, səxavətli sahiblərinə təşəkkür etmək arzusu ilə yaşadılar. Onların fəaliyyətinə rəhbərlik etmək üçün süvarilərin sərkərdəsi Puqu Xuay-en təyin olundu. Xuay-en buqu tayfasının ağsaqqalının oğlu idi, o, yəni ağsaqqal öz tayfası tərəfindən öldürülmüşdü. Qatil edam olundu. Öldürülən ağsaqqalın oğluna isə rütbə və çin tərbiyəsi verdilər; o, çox istedadlı və sadiq adam çıxdı.

Lakin yadellilərin köməyi Çin əhalisinə baha başa gəldi.

Muzdla tutulmuş müttəfiqlər nə düşmənə, nə də dostlara aman verirdilər. Onlar Çinə varlanmaq üçün gəlmişdilər, sonralar bu məqsədlərinə yeganə məlum olan talançılıqla məşğul oldular.

Bununla belə üsyançıların düşərgəsində hər şey yaxşı getmirdi. An Luşan görmə qabiliyyətini itirdi və buna görə də əsəbi və qəddar oldu. O, öz tabeliyində olanları təhqir edir, vurur, bəzən isə hətta xırda müstəqillik göstərdiklərinə görə edam elətdirirdi. Lakin onlar cəsur adamlar idilər, 757-ci il yanvarın 30-da müşavir Yan Çjuan və xacə Li Çju-er sərkərdənin çadırına daxil olub onu öldürdülər. Qatillər bu ölümü qısa müddət ərzində gizlədə bildilər, xotanlar Şato türkləri və birmanlılar imperiyalı zəif olan oğlunu isə onun varisi elan etdilər, sonra imperatorun ölümünü bildirdilər və oğlunu taxt-taca oturtdular. Yan Çjuan hər şeyin sahibi oldu.

Bu vaxt hökumət qoşun toplaya bildi: uyğurlar, ərəblər, xotanlar Şato türkləri və birmanlılar imperiyanın nizami qoşunlarına qarşı Çinin müdafiəsinə qalxdılar. 757-ci ilin sentyabr ayında Finşuy çayının sahilində düşmənlər qarşılaşdılar. Xuay-en uyğurlara başçılıq edərək üsyançıların ordusunun arxasına keçdi. O, bu zaman pusquda duranlarla qarşılaşdı, onları axırıncı süvariyə qədər qırdı və sonra isə arxadan zərbə endirdi. Eyni zamanda xotanlılara, ərəblərə və şatolara başçılıq edən Li Sıye üsyançılara üzbəüz hücum elədi. Üsyançılar darmadağın edildilər, onların itkisi 60 min nəfər oldu, lakin bu rəqəm adi şişirtmə idi. Çünki kampaniya başa çatmamışdı. Əgər üsyançıların ordusu həqiqətən şəxsi heyətin 40 faizini itirmişdilərsə onda kampaniya davam edə bilməzdi. Burada onu da nəzərə almaq lazımdır ki, onun arxa cəbhəsini uyğurlardan və kidanlardan mühafizə etmək lazım idi.

Şi Sımin şərq ordusuna başçılıq edərək Xebey şəhərini tutdu və imperiya sərkərdəsi kidanların knyazı Li Quan-bini Tayyuan qalasında mühasirəyə aldı. Qalanı mühasirədə saxlamaq ona baha başa gəldi, çoxlu adamı qırıldı, lakin o,

qalanı ala bilmədi və üsyançılar paytaxtı və üsyanın mərkəzi olan Fayan şəhərinə geri çəkildi. Onun müstəqilliyi və müstəqil hərəkət etməsi Yan Çjuanda şübhə oyatdı. Yan Çjuan Şi Sımini müşahidə etmək məqsədilə bir neçə zabit göndərdi. Lakin Şi Sımin casusları görmək belə istəmirdi. O, göndərilmiş müşahidəçiləri həbs etdirdi və Sutszuna itaət eləməyi, Fanyan şəhərini və 80 min nəfər döyüşçünü təklif elədi. Sutszun təklifi məmnuniyyətlə qəbul etdi və Şi Sımınə təmtəraqlı titul verdi, onun sərkərdəliyini təsdiq etdi.

Üsyançıları Xenyanda qırmaq qalırdı. Xuay-en Fınşue yaxınlığında qələbə qazanaraq uyğur, ərəb və birma qoşunları ilə birlikdə Çanyanı tutdu,* sonra Şançjuya gedib Sin-dyan karvansarası ətrafında üsyançılarla vuruşdu. Mənbələr bu döyüşün nəticələri barədə susurlar.

Bununla bərabər müstəqil uyğur dəstəsi Nanşanyanın cənub yamaclarında (görünür, Sinin yaxınlığındadır) üsyançıların qoşununu məhv etmək üçün tapşırıq aldı. O, bu tapşırığı yerinə yetirdi və yenidən şimala qayıtdı. Bu vaxt Qo Tszı-i-nin qoşunu hərəkətə gəldi. Üsyançılar bu qoşunu sıxışdırdılar. Uyğurlar bunu bilib onların arxasına keçdilər və zərbə endirdilər. Qəfil zərbə qoşun arasında çaxnaşmaya səbəb oldu və üsyançılar qaçmağa başladılar. Yan Çjuan Loyan şəhərini ataraq An Luşanın zəif ağıllı oğlu ilə birlikdə Sarı çayın arxa tərəfinə geri çəkildi. Burada uyğurlar nə üçün Çinə gəlmələrini göstərdilər: hər yerdə qarət və zorakılıq başlandı. Sakinlər budda monastırlarında öz «xilaskarlarından» qaçıb gizlənirdilər. Uyğurlar iki monastırı yandırdılar və 10 min nəfərə yaxın adamı qılıncdan keçirdilər. Çinlilər arasında onlara yol göstərənlər də tapıldı. Qocalar uyğurların başçılarına 10 min top ipək gətirib verdikdən sonra onlar qarəti saxladılar və çıxıb getdilər. 757-ci ildə olmuş kampaniya belə qurtardı.

Sutszun qələbə qazanaraq öz atasını paytaxta göndərdi, hakimiyyət və taxt-tacı ona verdi. Lakin taxt-tacın varislik üzrə verilməsinə görə dərhal didişmələr başlandı. Şi Sıminin hərəkətləri barədə xəbər vermək üçün onun yanına da çuğulçular göndərildi. Şi Sımin dözməyib onların hamısını qətlə yetirdi ki, bu da hökumətlə əlaqəni kəsmək və üsyanı yenidən başlamaq demək idi.

Bu faktın özü göstərir ki, üsyanın kökləri sərkərdələrin şöhrətpərəstliyi ilə bağlı deyildir, çünki belə hallarda qoşunu uzun illər boyu ölüm-dirim mübarizəsinə cəlb etmək mümkün olmazdı. Görünür, təkcə Şi Sımin deyil, həm də onun bütün döyüşçüləri çuğulların və bürokratların pəncəsinə keçməkdənsə döyüş meydanında əldə silah olmağı daha üstün tuturdular. Güman etmək olar ki, onlar əfv olunma

* Uyğurların yabqusu Çanyanı qarət etmək istədi, lakin o, Çin şahzadəsinin şəhərə qoşun daxil olmaması barədə xahişi ilə razılaşdı. Yabqunun özü isə silahdaşlarını qarət və zorakılıqdan saxlamağı mümkün hesab eləmirdi.

vədlərinə inanmırdılar və dəyişən hərbi səadətlərini bir də sınaqdan keçirməyi üstün tuturdular.*

Beləliklə, müharibə yeni qüvvə ilə başladı.

758-ci ildə uyğurlar qırğızların üstünə yürüş etməklə məşğul oldular, onları bir kompaniya müddətində tabe elədilər. Bu zaman üsyançılar yenidən hücuma keçdilər və hərbi əməliyyatlar Xenyanda inkişaf etməyə başladı. İmperator uyğurlardan kömək almaq üçün yenidən müraciət elədi, o bunu da yaxşı bilirdi ki, müttəfiqlər əhali ilə üsyançılardan da qəddarcasına rəftar edirlər.

**Çinin alçaldılması.** Hadisələr uyğurlar üçün nəzərdə tutulduğundan da yaxşı oldu. Çinlilərin qalib gəlməsi üçün uyğurlara hər il 20 min ton ipək verilməliydi. 758-ci ildə imperator özünün kiçik yaşlı qızını qoca uyğur xanına ərə verdi və onun xan titulunu, yeni Uyğuristan və Çinin bərabərliyini tanıdı. Belə qeyd edildi ki, imperator və xan doğma qardaşdırlar.

Xan razı qaldı və imperatora 500 at, samur xəzi və ağ rəngli yun parça və bundan əlavə üsyançılarla mübarizə aparmaq üçün 3 min süvari göndərdi.

759-cu ilin baharında Qo-Tszı-i və səkkiz sərkərdə An Luşanın oğlunu Xenandakı Yeçen şəhərində mühasirəyə aldılar. Üsyançılar möhkəm müdafiə olunur, kömək gözləyirdilər. Şi Sımin onlara köməyə gəldi. Onun süvari qoşunu düşməni arxadan narahat etdi, arabaları ələ keçirərək imperator ordusunu bütünlüklə taqətdən saldı. Nəhayət, döyüş baş tutdu. Döyüşün qızğın vaxtında ağacların kökünü yerindən çıxaran qasırğa - tufan oldu. Hər iki ordu idarə olunmağı itirdi. Əsgərlər qaçmağa başladılar: üsyançılar şimala, imperator ordusu isə cənuba qaçdılar. Təcrübəli sərkərdə olan Şi Sımin qoşunda birinci olaraq qayda yaratdı və düşməni təqib etdi. Qo Tszı-i qaçıb soyğunçuluqla məşğul olan əsgərlərini toplaya bilmədi. O, Loyan şəhərini tərk elədi və qərbə doğru getdi. Şi Sımin An Luşanın ağıldan zəif olan oğlunu öldürtdü və 759-cu ilin may ayında özünü imperator elan elədi.

Şərqdə imperiya qüvvələrinin komandanı Li Quan-bi Xeyan ətrafında üsyançıları dağıtdı, lakin Şi Sımin onu məğlub edib Xeyan və Xuayçjou şəhərinə yiyələndi. Onsuz da üzülüb əldən getmiş ölkənin bütün qüvvələrinin yenidən gərginliyi tələb olundu.

Çinlilərin vəziyyətinin çətinliyi bir də onunla izah olunur ki, taxtdan əl çəkmiş imperator Syuan-tszun Çanyana gəlib öz oğlunu şan-şöhrət qazanmış Sutszunu hakimiyyətdə sıxışdırmağa başlamışdı. Syuan-tzun hökmdar ata titulunu qəbul etdi və əvvəlcə Loyan şəhərinə getdi, sonra isə Çanyan yaxınlığında yerləşən qərb sarayında yerləşdi. O, idarəetmə işlərinə başlıcası ona görə fəal münasibət göstərməyə başladı ki, onun özünü və sülaləni xilas etmək naminə Yan-Quy-feyi

* Bunu belə bir faktla müqayisə etmək olar ki, An Luşan və Şi Sımin əbədi olaraq Xebeyin sərhədyanı sakinləri tərəfindən ilahiləşdirilmişdir, onları «iki müdrik» ruh — ölkənin himayədarı hesab edirdilər.

öldürən tərəfdarları ilə haqq-hesab çəkə bilsin. O qocalıqdan çox qəddarlaşmışdı. Bundan əlavə, müasirlərinin dediyinə görə o, ağlını itirmişdi: «Hamını öldürürdü, tək özü yaşamaq istəyirdi». Vətəndaş müharibəsinin sönməkdə olan alovunu üfürüb alışdırmaq işində çətin ki, kimsə daha Şi Sıminə kömək edə bilərdi.

Lakin buna baxmayaraq üsyançıların hücumu dayandırıldı. Çinlilər Sıçuanda güclü səfərbərlik keçirdilər. Du Fu yeniyetmələrin, demək olar ki, uşaqların cəbhəyə yola salınmasını və xidmət etmək məqsədilə müharibəyə könüllü gedən qadınların vətənpərvərliyini göstərən qəlbağrıdıcı səhnələrini təsvir edir. Sərkərdə Qo-Tszı-i artıq yeni çağırışçılara qırmancsız olaraq tələsik təlim keçdi və əsgərlər arasında ata və oğul adı almağa layiq görüldü. Üsyançıların dəstəsi xalq qoşununa qarışdı və müharibə yalnız Xenanda başladı, amma Şensi şəhərinə keçmədi.

759-cu ilin baharında uyğurların Moyançur xanı öldü. Taxt-tac varisi olan xanın böyük oğlu hansı bir əməlinə görə isə edam oldu və taxta ikinci oğlu — İdigan Meuyuy çıxdı*. O, Puqu Xuay-enyanın qızı ilə evlənmişdi, lakin Tan sülaləsi naminə mübarizəyə qalxmış qaynatasına düz iki il idi ki, kömək etməyə tələsmirdi. Bu vaxt isə Şi Sımin mürgüləmirdi. Yeçen üzərindəki qələbədən sonra o qərbə hücum elədi, bu zaman tibetlilər burada qalanı və Şançjou (yəni Qansuda) şəhərini aldılar. 761-ci ilin aprel ayında isə o sui-qəsdçilər tərəfindən öldürüldü, onun böyük oğlu Şi-Çao-i üsyançılara rəhbərlik etməyə başladı. Şi Çao-i uyğur xanına imperatorun ölümündən xilas etmək və xəzinədən dəfinəni və tacı götürmək, torpaq və xalqı onun üçün qoymaq təklifini verdi. Xan yoldan çıxdı və cənuba doğru hərəkət etməyə hazır oldu. Bu vaxt Çindən elçi gəldi, 757-ci ildə uyğurlarla birgə üsyançılara hücum edən Day tszunun yeni imperator taxtına oturmasını xana bildirdi.[65]

762-ci ilin payızında uyğur qoşunları yürüşə çıxdılar, heç kim bilmirdi ki, onun qurbanı kim olacaqdır. Çində dəhşətli bir xəbər yayılmışdı ki, 100 min nəfər uyğur sərhədə doğru gəlir. Əslində isə uyğurların cəmi 4 min nəfərlik zərbəçi qoşunu və 10 min nəfər köməkçi süvarisi, dəyişmək üçün at tabunları var idi. Puqu Xuay-en danışıqlar aparmağa göndərildi, o öz qohumunu üsyançıların üzərinə yerimək üçün dilə tuta bildi. Taxt-tacın varisi çinlilərə başçılıq edirdi, 762-ci ilin yayında o Şançjoudan şimalda uyğur qoşunları ilə görüşdü.

---

* Görünür, bu çevrilişi Qardizi təsvir edir: onun verdiyi məlumata görə, manieylərin ölümündən xilas olunan kiçik oğul Kür-təkin üsyan qaldırmış və öz böyük qardaşını öldürtmüşdü. Lakin Qardizi çevrilişi elə təsvir edir ki, onun hekayəti inandırıcı təsir bağışlamır.

[65] Uyğur yazıları da Şi Çao-i-nin təklifi barədə məlumat verir. Lakin təəssüf ki, bu yazılarda uyğur xanının imtina etməsinin inandırıcı olmayan motivlərini gətirir. Guya ki, uyğur xanının imperator mərhəmətini yaddan çıxardıqlarına görə üsyançılara acığı tutmuşdur. Daha doğrusu burada düzgün siyasi haqq-hesab var idi.

Xan özünü diktator kimi aparırdı. Taxt-tacın varisi uyğur adət-ənənəsinə görə onun qarşısında təzim etməkdən imtina etdikdə, xan iki nəfər çin əyanını ölənə qədər çubuqla döymək barədə əmr verdi. Çinlilər təhqiri uddular. Uyğur — Çin qoşunları 762-ci ilin payızında üsyançılara zərbə endirdilər və onların qoşunlarını darmadağın etdilər. Qanmuya görə, üsyançılardan 60 min nəfər öldürüldü və 20 min nəfər isə əsir düşdü. Noyabrın 20-də uyğurlar Loyan şəhərinə basqın etdilər. Şi-Çao-i Moçjouya qaldı, lakin sonra orada komandantı qoyaraq kömək toplamağa getdi. Komendant qalanı Puqu Xuay-enyuya təslim verdi. Bundan sonra Fanyan komendantı da təslim oldu və üsyançıların başladığı iş uduzuldu. Vəhşi kimi qovulmuş Şi Çao-i meşədə özünü asdı və vətəndaş müharibəsi başa çatdı.

Çin dağıntı içindəydi. Uyğurlar əhalini talan edir, kəndlərdə evləri dağıdırdılar, sağ qalmış sakinlər isə bütün pal-paltarlarını itirdiklərinə görə əyinlərini kağızla örtürdülər. Əhaliyə dəyən ziyan çox böyük idi. 754-cü ilin siyahıya alınmasına görə İmperiyada 52880488 nəfər insan olmuşdur. 764-cü ildə isə əhalinin sayı 16900000 nəfərə çatıb. Lakin nəzərə almaq lazımdır ki, sərhəddəki malikanələrin böyük əksəriyyəti Çindən uzaqlaşmışdı. Tan sülaləsinin fəxri olan ordu bütünlüklə məhv olmuşdu, qeyri-nizami qoşun və muzdla tutulmuş dəstələr qalmışdılar. İmperiya ideyası bütünlüklə yoxa çıxmışdı, çünki bu ideyanı həyata keçirmək üçün nə qüvvə, nə vəsait, nə də iradə qalmışdı. Vətəndaş müharibəsinin nəticələrini böyük Çin şairi Bo Tszyuy-i gözəl təsvir etmişdir*.

**Tibetlilər şərqə doğru gedirlər.** An Luşanın üsyanı tibetlilərin xeyrinə oldu. Taxt-taca çıxmağını adamöldürmə ilə qeyd edən yeni manarx Tisrondetsan əvvəlcə bu canüzücü müharibəni gözəl sülhlə başa vurmaq istədi, 755-ci ildə sülh təklifini etdi və təklifi rədd olundu.

Lakin bu imperatorun səhvi idi və bu səhv Çinə çox baha başa gəldi. Elə ki, üsyan qalxdı, vətəndaş müharibəsi aparmaq üçün ən yaxşı qoşunlar tibet sərhədlərindən götürüldü və tibetlilər xüsusi çətinlik çəkmədən yeddi il ərzində Xesi və Lunyu adlı qərb vilayətlərini Çindən ayırdılar.

763-cü ildə onlar hücumu davam etdirdilər. Tibetlilərdən, toğonlardan (monqollardan) və dansyanlardan ibarət olan qoşun Şensiyə daxil oldu və paytaxtın özünə yaxınlaşdı, burada heç kim onu gözləmirdi. Tibetlilər iki günlük müharibədən sonra Çin qoşunlarını öz müttəfiqləri ilə birlikdə qaçmağa məruz qoydular və imperatorun tərk elədiyi şəhərə daxil oldular. Çanyan şəhəri talan və dağıntıya məruz qaldı, şəhərin kənarında isə Tibet qoşunlarından daha çox məğlubiyyətdən sonra qaçıb dağılmış Çin döyüşçüləri azğınlıq edirdilər. Lakin paytaxtı talan edərək tibetlilər geriyə çəkildilər və bu da şərqdən gələn Çin

---

* İmperiyanın səhra ordusunu darmadağın edən uyğurlar öz ölkələrinə daxil olmağa çəkinməməliydilər, çünki müharibə aparmaq üçün bundan daha əlverişli imkan ələ düşə bilməzdi.

qoşunlarına qayda-qanun yaratmağa imkan verdi. Tibetlilərin geri çəkilməsində çinlilərin davakar sərhəd qoşunları başlıca rol oynadılar, onlar Tibet ordusunun arxasında qalmış olan Fensyan şəhərini öz həqiqi düşmənlərindən qoruya bildilər. Yerli əhalinin müqavimətini tez qırmağa qadir olmayan tibetlilər əməliyyatı Sıçuan şəhəri üzərinə keçirdilər. Əvvəlcə onlar müvəffəqiyyət qazandılar, lakin 764-cü ildə cənubi Çin qoşunları onları məğlubiyyətə uğratdı və geri çəkilməyə məcbur elədi.

Adama elə gəldi ki, cəbhələrdə vəziyyət yenə də sabitləşməyə hazırlaşır, lakin yeni üsyan Çini lərzəyə gətirdi və onu yenidən uçurum qarşısında qoydu.

**Qəhrəmanın taleyi.** Çində hamıya aydın idi ki, Tan sülaləsini sərkərdə Puqu Xuay-en xilas etmişdir. Bu vəhşi knyaz sülaləyə sədaqətlə xidmət edirdi, gücünə, şücaətinə və istedadına görə onun tayı-bərabəri yox idi. O, özü daim ön cərgədə vuruşurdu. Onun qırx altı nəfər qohumu döyüş meydanında həlak olmuşdu. O, düşmənə satıldığına görə öz oğlunu qoşunun qabağında öldürtmüşdü, şahzadə qızların əvəzinə özünün iki qızının uzaq bir məmləkətə ərə vermiş və öz kürəkəni olan uyğur xanını paytaxtın qaytarılacağına iki qat inandırmışdı. Lakin hər bir kəsin düşməni vardır, Tayyuan qalasının komendantı bir dəfə Xuay-enin başçılığı altında olan uyğur qoşunlarını qəbul etməkdən və yedizdirməkdən imtina etmişdi. Bununla da o, çöldə yaşayan tayfaların adətini pozmaqla onu öldürücü şəkildə təhqir eləmişdi, müqəddəs qonaqpərvərlik adəti pozulmuşdu. Xuay-en uyğurları qonaq etmək iqtidarında deyildi. Xuay-en şikayət elədi, işi aydınlaşdırmaq məqsədilə paytaxtdan elçi göndərildi. Elçi rüşvət aldı və bildirdi ki, Xuay-enin xəyanətkarlıq niyyətləri aydındır. Xuay-en ona böhtan atıldığını bilərək elçinin və komendantın qətlə yetirilməsini tələb elədi, lakin müharibənin sonuna qədər bu məsələyə baxılmadı, sonra isə mühakimə etmək üçün sərkərdəni paytaxta çağırdılar. Lakin Xuay-en çinlilərin əxlaqını kifayət qədər bildiyindən üsyan qaldırmağı daha üstün tutdu (764-cü ilin may ayında).

O, əvvəlcə müvəffəqiyyət qazana bilmədi. Tayyuan qalasını qəfildən hücumla almaq cəhdi dəf olundu, onun qoşunundakı Çin hissələri Qo Tszı-inin tərəfinə keçdi. Lakin elə ki, Puqu Xuay-en Xuanxe çayını keçdikdən sonra çöldə yaşayan köçəri tayfalarla görüşdü, könüllülərdən ibarət böyük bir qoşun onunla birləşdi. 765-ci ildə isə o tibetliləri və uyğurları köməyə çağırdı. Hər ikisi öz razılıqlarını bildirdi. Puqu Xuay-en öz müttəfiqlərini yaxşı tanıdığından onları birləşdirmədi, amma Çanyanın üzərinə üç dəstə də buraxdı, şimaldan dansyanlar, qərbdən tibetlilər, cənub-qərbdən isə toqonlılar hücum etdilər; uyğurlar isə ehtiyata saxlanmışdılar, onların arxasında isə Xuay-en ordu qoşunları ilə özü gəlirdi.

Döyüşə birinci tibetlilər başladılar, lakin Çinin daşatan mancanaqları və oxları onların basqınının qarşısını aldı. Tibetlilər xeyli adam itirərək geri çəkildilər və uyğurlarla birləşdilər. Sonrakı təzyiq birdəfəlik olmalı idi. Paytaxtda hamıya səfərbərlik elan edildi, səfərbər olunanların onda səkkiz hissəsi qaçdı və vəhşilərdən müdafiə olunmağa adam qalmadı. Bu vaxt Puqu Xuay-en öldü.

Onun ölümü Çini xilas elədi, çünki yalnız onun adının nüfuzu bir-birinə bənzəməyən tayfaları bu qədər bir yerdə saxlaya bilmişdi. Tibetlilər və uyğurlar arasındakı düşmənçilik yeni qüvvə ilə baş qaldırdı. Köçərilərin hörmətini qazanmağa müvəffəq olan Qo Tszı-i də həmçinin bundan istifadə elədi. O qorxu bilmədən uyğurların məskəninə gəldi və Çin imperatoru ilə ittifaqı pozmamağı onlara inandırdı, bunun əvəzində isə uyğurlara hədiyyələr və güzəştlər verməyi vəd etdi. Tibetlilər danışıqlardan xəbər tutaraq onlardan şübhələndilər və uyğurlardan ayrılaraq qərbə doğru getdilər ki, bu da öz növbəsində uyğurların heç xoşuna gəlmədi. Onlar Çin sərkərdəsinin təklifini qəbul elədilər və tibetlilərin üzərinə gecə vaxtı hücum edib onları darmadağın elədilər. Xuay-enin qohumu olan Puqu Min çen tabe oldu və bağışlandı, rütbə aldı. Xuay-enin qızı saraya gətirildi, burada onu şahzadə kimi tərbiyə edib uyğur xanına ərə verdilər. Xuay-enin bioqrafiyası saray ziddiyyətlərini göstərən nümunə kimi Çin tarixinə daxil edildi. Lakin bizi başqa şey maraqlandırır: Xuay-enin işində iştirak edən çinlilərin və köçərilərin bir-birini qarşılıqlı başa düşməməsi və ikrah doğurması şüurlu deyil, kortəbii şəkildə baş verirdi. Bir tərəfdə müqayisəolunmaz xidmətlər, digər tərəfdə isə imperatorun azad iradəsi dururdu, lakin onlar arasında elə düşmənçilik var idi ki, onun üzərindən adlayıb keçmək mümkün olmadı. Məhz bunun sayəsində, Tan sülaləsini ucaldan köçərilər üsyançıların sırasında başlarından keçməli oldular, yaxud Çölə qaçaraq özlərinin təzə düşmənləri olan uyğurların və kidanların yanında sığınacaq tapdılar.

Çalxalanmış su və yağ öz xüsusi çəkisinə görə yayılıb dağıldığı kimi Tan imperiyası da eləcə dağıldı və Çin bütün yadelli qatışıqları məhv elədi.

Antik dövrdə böyük imperiya süquta uğradığı kimi «dünya imperiyası» da bir daha dağıldı, yüz il sonra da Böyük Karlın imperiyası da süquta uğradı. An Luşanın və Xuay-enin üsyanı Qütlüğün başladığı üsyan dövrünü başa çatdırır. Bu dövrü mərkəzə meylli və mərkəzdən qaçan qüvvələrin mübarizəsi dövrü adlandırmaq olar. Sonuncu qüvvələr qalib gəldilər, lakin qeyd etmək lazımdır ki, məhz bu orta Asiyanın mədəni inkişafına və çiçəklənməsinə geniş imkanlar vermişdi, bu vaxt Orta Asiya hələ Çingiz xanın silahdaşlarının nallanmamış yüngül atlarının ayağı altında əzilməmişdi. Lakin bu başqa xüsusiyyəti və başqa ahəngi olan yeni dövr idi, onu başa düşmək üçün yeni açar lazım idi.

**Tarixi panorama:** Dövr başa çatdı. Tan imperiyasının dəmir intizamı dağıldı, yüz əlli il buxov altında saxlanan xalqlar dağıldılar, hər biri öz inkişaf yoluna qədəm qoydu. Çinin də özünün orijinal mədəniyyəti «dirçəlməyə» və təşəkkül tapmağa başladı. Tibet inkişafda olan buddizmi mənimsədi və ondan öz təsəvvürləri, tələbatları üçün istifadə etdi. Uyğurlar maniey kamillərinin, nestor rahiblərinin, budda monarxlarının və müsəlman mollalarının moizələrinə qulaq asaraq acgözlüklə yad mədəniyyəti mənimsədilər. Keçmiş müharibələrdə qan ilə yuyulmuş çöl sakitcə dincəlməyə və zəif xanların zəif hakimiyyəti altında nisbətən azad nəfəs almağa başladı.

Soqdiana can verirdi; qalib gəlmiş ərəblər onun təkrarolunmaz mədəniyyətindən daşı daş üzərində qoymadılar, lakin yanğın külünün üzərində böyük gələcəyi olan tacik xalqı təşəkkül tapmağa başladı. Qərbdəki çöllər qıpçaqların və karlukların qılınclarının parıltısı qarşısında tabe oldular, Volqada isə qərbi türk xanlarının varisləri qüdrətli Xəzər səltənətini yaratdılar. Xəzərlər və karluklar Çöl mədəniyyətinin köçəri ənənələrini saxlamaqla islamın təzyiqini də dayandırdılar.

Mənsurun güclü əli ilə sıxılmış xilafət yeni qüvvəyə malik oldu; ərəb tayfa başçılarının oturaq həyat keçirməsi başa çatdı, hakimiyyətə yol tapan farslar Bağdad xilafətində mədəniyyətin inkişafı üçün yeni perspektivlər açıldı. 756-cı ildə qopub ayrılan İspaniya istisna olunmaq şərtilə mərkəzi sistem Hibraltardan Pamirə qədər olan torpaqları birləşdirdi və heç kim gələcəkdə olacaq süqutu qabaqcadan görə bilməzdi.

Qalibiyyət qazanmış Bizans ərəblərin və bolqarların təzyiqini dayandıraraq ikonborçuluq xəstəliyinə tutulmuşdu. Konstantin Kopronim kiçik Asiya mədəniyyəti və hərb ənənələrinə arxalanaraq ellinizmin son izlərini belə məhv etdi, heç nə ona qarşı dura bilməzdi.

Qərbi Avropa yüksəliş yoluna çıxmışdı: frank kralı roma papası ilə birləşərək orada hegemonluğa başladı. Böyük köçdə iştirak edən xalqların qalıqları — lanqobardlar, avarlar və sakslar nahaq müqavimət göstərirdilər, onların ömrünə az qalmışdı. Böyük Karl 768-ci ildə taxta çıxaraq 140 il ondan əvvəl Taytszun Li Şi-minin yaratdığı kimi, müxtəlif tayfalardan ibarət imperiyanın yaradılmasına çalışdı. Böyük Karlın bu cəhdi uğursuz olsa da, o, Avropanın vəhşilikdən ayrılaraq geniş orijinal mədəniyyət yoluna çıxmasına səbəb oldu. Labı çayından Dnepr və Oki çayına qədər mürgüləyən meşələrdə isə slavyan tayfalarının qüvvələri toplanırdı, onlar üçün hər şey hələ qabaqda dururdu.

Çiçəklənməkdə olan Uyğuristanı əhatə edən dünyada vəziyyət belə idi.

## XXIX fəsil

## TİBET VIII ƏSRDƏ

**767—781-ci illərdə olan müharibə.** Hər bir dövrü öyrənmək üçün xüsusi açar lazımdır. Əgər VIII əsrin I yarısında Tan imperiyasının hər şeyə üstün gələn tendensiyalarına türk xaqanlığının müqaviməti Asiyanın siyasi tarixinin müəyyənedici anı idisə, türklərin məhvindən və An Luşandan sonra Tibetin artmaqda olan fəallığı siyasi dominant rolunu oynadı.

İmperiya ordusu Xebeyt və Xenan döyüş meydanında məhv olduqdan, türk ordusu isə dağıldıqdan sonra tibet qoşunları ən dəhşətli qüvvəyə çevrildilər. Nə səfərbərliyə alınmış çin kəndliləri, nə də uyğurların çoxsaylı dəstələri bu qüvvəyə

qarşı dura bildilər. Bu dövrdə Çin və Uyğuristan 765-ci ildə bağladıqları müvəqqəti sazişdən sonra heç də səmimi müttəfiq olmadılar.

İstedadlı və çalışqan tsenpo Tisrondatsan bu vəziyyətdən istifadə etdi və Qərb diyarının zəbt olunmasını bərpa elədi. O, müvəffəqiyyət qazanacağı halda karvan yollarını öz əlinə keçirmək və Şərq və Qərbin bütün ticarətinin sahibi olmaq ümidində idi. Bu əlverişli vəziyyətdən irəli gələn maddi imkanlar əvvəllər türk xaqanı kimi Tibetə də Mərkəzi Asiyada hegemon olmağa imkan verərdi.

Tibetlilər də çox fəallıqla cənuba can atırdılar, onlar burada qan qohumluğu çatan və Çindən öz istiqlaliyyətlərini qoruyub saxlamağa cəhd göstərən Nançjao çarlığı tərəfindən müdafiə olunurdular. Bu çox da böyük olmayan, lakin möhkəm dövlət idi, onun hökmdarlarının orientasiyası ya tibetlilərin müvəffəqiyyətlə irəli çəkilməsini, ya da cənubi çin əyalətlərinin tam sakitliyini təmin edirdi.

767-ci ilin payızında iyirmi minlik Tibet ordusu Xuanxe çayı boyunca aşağılara - şimala tərəf hərəkət etdi və Linçjou qalasını mühasirəyə aldı. 30 minlik seçmə qoşunu olan Qo Tszı-i tibetliləri geri oturtdu. Lakin tibetlilər az itkilərlə geri çəkildilər və o biri il Linçjounun mühasirəsini bərpa etdilər. Tibet baş komandanının «qocalığa görə» vəzifədən götürülməsi çinliləri xilas elədi. Mənə elə gəlir ki, qocalıq yalnız bir vasitə idi, Tisrondetsan sarayında partiyalar arasındakı mübarizə bu işdə həlledici rol oynadı. Lakin necə olursa-olsun, yeni baş komandan hücumun istiqamətini dəyişdi. O, çöldə arxaya keçmək üçün hərəkət etmək əvəzinə cəbhənin mərkəzi hissəsinə, yəni Şensi əyalətinə (Xaçjou Lunsi, Binçjou və Ninçjou) zərbə endirdi. Lakin Şensi əyalətinin sakinləri sərhədçi çinlilərdən, tibetlilərin qatı düşmənləri olan Çin hökmdarlığı başkəsənlərinin varislərindən ibarət idi. Nizami çin qoşunları onların köməyilə əhali arasında dayaqları olmayan tibetliləri iki dəfə darmadağın etdilər. Tibetlilərin on minlik ordusunun Cənub Çinə soxulması da uğursuz oldu. Birbaşa zərbə vurmaq strategiyası özünü doğrultmadı.

773-cü ildə 60 mindən ibarət Tibet süvariləri şimali Qansuya soxuldular və tarlada taxılı ayaqladılar. Sonra onlar yenə də mərkəzi cəbhəyə atıldılar. İki Çin ordusu möhkəm silkələndi, lakin özlərinə gələrək əks hücuma keçdilər və tibetliləri sıxışdırdılar. Tibetlilər geri çəkilərkən əsirlər də daxil olmaqla bütün əldə etdikləri qənimətləri itirdilər. Vətəndaş müharibəsi sayəsində taqətdən düşmüş Çin sülh istəyirdi. 774-cü ildə vuruşan tərəflər arasında elçilərin dəyişdirilməsi baş verdi ki, bu da hərbi hərəkətləri dayandırdı. Lakin danışıqların nəticəsi olmadı və 775-ci ildə müharibə bərpa oldu.

Beş il çinlilər və tibetlilər bir-birinin üzərinə ağır zərbələr endirdilər, lakin qələbələrin və məğlubiyyətlərin balansı saxlanırdı. Əvvəlcə Nançjao knyazlığı Çini müdafiə edirdi, lakin 778-ci ildə Tibet tərəfinə keçdi. 779-cu ildə çinlilər tibetliləri cənubda darmadağın etdilər və onların hücumunun qarşısını aldılar. Lakin Çin və Uyğuriya arasındakı konflikt tibetlilərə şimalda hücumu genişləndirməyə imkan verdi. Uyğurlar Şimali Çinə daxil olub, çin ordusunun əl-qolunu bağladıqları vaxt

tibetlilər qərbə tərəf Nanşan dağının şimal yamacları boyu keçib Dunxuanı mühasirə etdilər.

Uyğurlar çıxıb getdilər, lakin tibetlilər qaldılar və 780-ci ildə Dunxuan süqut etdi.

Çin işin mahiyyətinə görə müharibəni uduzdu, yeni imperator Detszun bunu başa düşdü. O, tibet əsirlərini yığdı, bu əsirlər hərbi əsirlər deyildi, elçiliyin tutulmuş üzvləri idi, onlara pal-paltar verib evlərinə buraxdı. Onları müşayiət etmək üçün göndərilmiş məmur Tisrondetsana sülh bağlamaq təklifini verdi.

Tibet hökuməti əvvəlcə öz xoşbəxtliyinə inanmadı, lakin sonra sülhün şərtlərini saydı. Tibetlilərin tələbləri ərazi güzəştliyinə və Tibet və Çinin bərabərliyinin qəbul edilməsinə əsaslanırdı.

Çin üçün sülhün şərtləri rüsvayçı idi, lakin Detszun bu şərtləri qəbul etdi. Bəli, o başqa cür hərəkət edə bilməzdi: çünki 780-ci ildə sərhəddə yaşayan məmurlar tərəfindən uyğur tacirlərinin döyülməsi nəticəsində bütün Uyğuriyanı at belinə qaldırdı. Xan müharibəyə başlayacağı ilə qorxudurdu, şimal sərhədlərdə isə qoşun çatmırdı, çünki qərb sərhədlərinə çoxlu qoşun toplanmışdı. Bu azmış kimi, 781-ci ilin fevralında Xebeydə üsyan baş qaldırdı. Üsyanı məmurlar qaldırdılar, onlar öz varisləri üçün vəzifələrin təsbit olunmasını tələb edirdilər. Taxt-tac yenidən laxladı, buna görə də sülhün hər hansı şərtləri məğlubedilməz kimi ad çıxarmış tibetlilər üçün son nəticədə məqbul hesab olundu.

Çin çayı sahilində sülh müqaviləsi bağlandı. Müqavilə qurban verilən heyvanların - itin, donuzun və qoyunun qanı ilə, sonra isə qurbangah ilə yanaşı tikilmiş budda bütxanasında aid içməklə möhürləndi. Müqavilə Çayanda imperator tərəfindən «Qərbi Predqradiyanın Böyük Məbədində» təsdiq edildi. Bu təkcə sülh deyil, həm də müttəfiq qazanmaq demək idi.

Tibetin qələbəsi həqiqətən böyük idi: karvan yolunun mühüm bir parçası və Xotan və Kuçu tərəfə tam yayılmaq imkanı tibetlilərin əlinə keçdi. Çin və Uyğuriya arasındakı düşmənçilik hər iki tərəfi zəiflətmişdi, xebey üsyanı və Nançjaonun sədaqətliliyi Tisrondetsanın qarşısında sərhədlərin daha da genişləndirilməsi perspektivlərini açmışdı. Tibetin qüdrəti öz yüksək zirvəsinə çatmışdı.

**Uyğuriya.** Moyançurun yürüşləri sayəsində Uyğuriya son dərəcə əlverişli şəraitə malik oldu. Onun ətrafında güclü düşmənlər yox idi. Şərqdə kidanlar, şimalda qırğızlar uyğur xanına tabe idilər. 766-ci ildən etibarən qərbdə karluklar güclənmişdilər, amma onlar özlərinin bütün diqqətlərini cənub-qərbə doğru cəmləmişdilər və təbii sərhədləri olan Tarbaqatayı keçmirdilər. Cənubda Çin xarabalıqlar içində idi, lakin buna baxmayaraq Çin qarnizonları Kuçe, Qaraşar, Xotan, Qaşqar və Beytində durmuşdular. Bu qalalar uyğurlar və tibetlilər arasında bufer* idi. Bu qalaları tibetlilər 755—760-cı illərdə Çinin (Qansu və Şensi

* Bufer – iki vuruşan tərəf arasında qalan dövlət – tərcüməçi.

əyalətləri) şimali-qərb bucağında ələ keçirmişdilər və indi isə Qərb diyarının zəbt edilməsinə başlamışdılar.

Çinlilər və tibetlilər bir-birinin qatı düşmənləri idilər, uyğurlar onlardan birini seçməliydilər. Uyğurlar Çinə sağmal inək kimi baxırdılar və ondan bacardığı qədər çox şey almağa can atırdı, lakin Tibetlə İttifaqa onlar heç vaxt girmədilər. Manixeyçilik və buddizm arasında ideoloji ziddiyyət son dərəcə böyük idi. Manixey müəllimlərin sözünə görə, təsadüfi deyildir ki, tibetlilər «şeytanı budda» adlandırırdılar.

Sonrakı müharibələrdə hər iki tərəfin ağlasığmaz qəddarlıqlar törətməsinin dərin kökləri vardır. Orta Asiyada dini müharibələrin islahatlarla deyil, kilsələrdə parçalanmanın yaranması və səlib yürüşlərinin sonrakı dövrü ilə əlaqəsi mövcuddur. Bu vaxt latınlar, yunanlar, qarmatlar və müsəlmanlar, hətta bəzən siyasi ittifaq bağlayaraq psixoloji cəhətdən bir-birinə o qədər yad və qarşılıqlı düşmən idilər ki, tək-tək xainlik halları istisna olunmaqla onlar arasında heç bir barışıq etmək mümkün deyildi. Həm də xainlik heç cürə dövrün xarakterini müəyyən etmirdi. Bəzi məsələlərdə Asiya Avropanı 300 il qabaqlamışdı: Tibet artıq VIII əsrdə teokrat dövlət olmuşdu. Uyğuriya isə VIII əsrin ikinci yarısında belə bir dövlətə çevrilmişdi.

Manixey təbliğatçılarının fəallığına baxmayaraq Uyğuriya dərhal yeni siyasi xətt götürmədi. Uyğur dövlətinin yaradıcıları olan ilk xanlar Peylo (744—745), Moyançur (745—759) və İdiqan (759—780) öz tayfalarına arxalanaraq göytürklərin xanlarından nümunə götürməyə çalışırdılar. Onlar vətəndaş müharibəsi dövründə Çini talan edərək özlərini oranın sahibi bildilər. Çanyan şəhərinə gələrək, onlar bazarda qızları tutur, dövlət atlarını alır, hər cür biabırçılıq edirdilər. 762-ci ilin müqaviləsinə əsasən uyğurlar gizli haqq alırdılar, hər gətirilmiş ata görə onlara 40 kəsik ipək parça verirdilər. Bir dəfə uyğurlar 6 min yaxşı at əvəzinə 10 min yabı qovub gətirmişdilər, amma onların haqqının ödənilməsindən imtina edildi. 775-ci ildə uyğur tacirləri çinlilərin hövsələsinin həddini aşdılar. Uyğurlar bazarda məmuru öldürdülər, onları tutdular və ömürlük həbslə cəzalandırdılar, belə olduqda uyğurların başçısı qoşunla gələrək həbsxanaya soxuldu və öz həmyerlilərini xilas etdi, uyğurlar həbsxananın gözətçilərini döydülər və yaraladılar. Nəinki paytaxtın əhalisinə, həm də Çin hökmdarının özünə də aydın oldu ki, vəziyyət bu cür davam edə bilməz.

778-ci ildə Çin taxt-tacında Detszun oturdu, o öz müşavirlərinin taxtalarla döyüldüyünə görə uyğur xanına itaət etməkdən boyun qaçıran həmin Detszun idi. Aydındır ki, o uyğurlara meyl etmirdi. İdiqan xan bunu bilərək yeni imperatoru itaətə məcbur etməyi qərara alır və 778-ci ildə Şimali Çinə hücum edir. Yankyuy altındakı döyüşdə uyğurlar qələbə qazanırlar. Çinlilər 10 min nəfər döyüşçü itirirlər. Lakin Dançjou şəhərinin canişini çinliləri darmadağın elədi və onları geri çəkilməyə məcbur etdi. Uyğurlar cəmi «bir neçə on min qoyun apara bildilər ki, onlar da yolda öldülər». Xan başa düşdü ki, Çin möhkəmlənmişdir, öz statusunu

saxlamaq üçün böyük müharibəyə hazırlaşmaq lazımdır. Həqiqətən, 764-cü ildən 780-ci ilə qədər Çinin əhalisi yarım milyon nəfər artmışdır (dəqiq desək, 85 min ailəyə — 485 min insan) ki, bu da 768 min nəfərdən ibarət yeni ordunun yaradılmasına imkan vermişdir.

Detszun özünün artmaqda olan qüvvəsini nəzərə alaraq daha ağır bir vəzifə ilə qurtardı. Doqquz-oğuzlar bir qonaq kimi dövlət hesabına paytaxtda yaşamaq üstünlüyünə malik idilər. 780-ci ildə Detszun onları Çindən qovdu. Sərhəddə aşkar oldu ki, onlar yol kilsələrində çin qızlarını aparırlar. Axtarış aparmaq hüququ olmayan sərhəddəki hərbi rəis öz məmurunu çaxnaşma salmağa göndərdi. Onu şallaqla döydülər. Hərbi rəisə də elə bu lazım idi. Qoşun doqquz-oğuzların çadırlarını dövrəyə aldı, axtarış aparıldı, qızları tapdılar və bütün «qonaqları» danışıqsız qətlə yetirdilər.

İmperator bunu bilərək, sərhəd rəisini başqa vəzifəyə keçirməklə kifayətləndi və hadisəni izah etmək üçün uyğur xanının yanına elçi göndərdi. O, çox gözəl başa düşürdü ki, uyğurlar öz qohumlarının qanına görə çin qanı tələb edəcəklər: onlar Çinin alçaldıcı ticarət müqaviləsinin verdiyi faydadan imtina etməyəcəklər, buna baxmayaraq, Detszun müqavimət göstərmək üçün özündə qüvvə hiss edərək həmin addımı atdı.

Bu müddətdə Uyğuriyada son dərəcə mühüm dəyişikliklər olmuşdu. 779-cu ildə Çin ilə münasibət kəskinləşdikdə qarşıdakı müharibə münasibətilə fikirlər haçalanmışdı. Doqquz-oğuzlar müharibənin başlanmasını istəyirdilər, yəqin ona görə ki, onlara az qənimət çatmışdı. Müttəfiq tayfalar isə müharibədə özləri üçün heç bir fayda görmürdülər, onlar yalnız təhlükəni hiss edirdilər. Xan əksəriyyətin fikri ilə razı olmadığına görə, Dunma qatarxan adlı əyan qiyam qaldırdı. Xan, onun müşavirləri və 2 min nəfər doqquz-oğuz əyanı öldürüldü, qəsbkar Qat Qütlüğ Bilgə xan titulu ilə taxtda oturdu, tərcümədə onun adının mənası «çox xoşbəxt müdrik xan» deməkdir.

Əlbəttə, bu, Çin diplomatiyasının köməyi olmadan baş verə bilməzdi. Qəsbkar çin elçisindən qiyam qaldırmaq üçün pul almışdı. Lakin bununla uyğurların geniş kütlələri arasında xan sarayının cah-cəlalına adi alaçıqlar əvəzinə xanın hərəmləri üçün tikilmiş bər-bəzəkli alaçığına və bu təmtəraqlı sıxmaq üçün ağır vergini ödəmək zəruriliyinə görə narazılıq mövcud idi. Doqquz-oğuzların narazılıqları əsl qırğınla nəticələndi; buna görə də çinlilərin «qonaqlarla» törətdikləri özbaşınalıq nəticəsiz qaldı.

Yeni xan həqiqətən sülh istəyirdi. O, 781-ci ildə «qonaqların» ölümünə görə vergi aldı. 783-cü ildə aşağıdakı şərtlərlə sülh müqaviləsi bağlandı: 1. Xan Çinin vassalı hesab edildi; 2. Uyğurların səfarətxanası 200 adamdan artıq olmamalıdır; 3. Məcburi satış üçün 1000-dən artıq at götürməməli. 4. Çinliləri sərhəddən kənara aparmaq qadağandır. Müqavilə 788-ci ildə nigah bağlamaq və Tibetə qarşı ittifaqa girmək yolu ilə imzalandı. Vəziyyət sabitləşdi.

Dunmaqa ölkənin daxilində möhkəm və qəddarcasına hökmdarlıq edirdi. Onun əmrinə əsasən əvvəlki sülalədən olan şahzadənin iki oğlu öldürüldü. Yazılı abidələr Dunmaqanı mərd bir insan kimi səciyyələndirir. Görünür, o kifayət qədər məşhur idi, çünki onun ölümündən sonra 789-cu ildə taxt-taca oğlu Dolos oturdu. Amma o taxt-tac varisliyi qaydası ilə ona sahib olmadı. Yeni xan əyanlar tərəfindən taxt-taca oturduldu və «Aydınlıq uluq Kuç-munmış Kuçluk Bilgə xan», yəni «əla, hündürboy, qüvvəsi artan, qüdrətli müdrik xan» titulunu da onlardan aldı.

Uyğuriya seçkili mütləqiyyət üsul-idarəsinə çevrildi.

**Müharibənin bərpası.** Tez yatırılmasına baxmayaraq Çin feodallarının üsyanı xarici müharibələrə nisbətən Çini daha çox laxlatdı. Heç kim hakimiyyətə tabe olmaq istəmirdi. Detszun 783-cü ildə Çayan şəhərinə qaçmaq məcburiyyətində qaldı. Tisrondetsan işə qarışmaqdan müdaxilə üçün istifadə etdi və Çin imperatoruna kömək məqsədilə qoşun göndərdi. 784-cü ildə Utinçuan yaxınlığında hökumətin və tibet qoşunlarının birgə qüvvəsi üsyançıları darmadağın edib paytaxta qayıtmağa hazırlaşırdılar, lakin bədbəxt Çində baş qaldırmış qırğın epidemiyası tibetlilərə müvəffəqiyyəti genişləndirmədən geri qayıtmaq imkanı verdi. Çində belə hesab etdilər ki, tibetlilər üsyançılarla danışığa girmişlər.

İmperatorun xoşbəxtliyindən, üsyana qalxmış feodalların başçısı 786-cı ildə öz həkimi tərəfindən zəhərləndi və bununla da üsyan yatdı.

Paytaxta qayıdacaqları ilə əlaqədar olaraq tibetlilərə ilkin müqaviləyə əsasən kömək məqsədilə yeni ərazi güzəştləri vəd edilmişdi. Çin hökuməti onların vaxtından əvvəl çıxıb getməsinə vədi yerinə yetirməkdən imtina etmək üçün əsas kimi baxırdılar, lakin tibetlilər belə hesab edirdilər ki, onlar Utinçuani yaxınlığında üsyançılara zərbə endirməklə xeyli əziyyətə qatlaşmışlar. İmtina etməni onlar yalan kimi qəbul etdilər və bundan qəzəblənərək sərhəddəki vilayətlərə basqın edib adamları, heyvanları götürüb apardılar və əkini tapdalayıb yararsız hala saldılar. Bu dəfə onlar qəflətən hücum etdiklərinə görə öz qatı düşmənləri olan sərhəddə yaşayan çinlilərin böyük bir hissəsini məhv edə, habelə o vaxta qədər şimalda və qərbdə tibet ekspansiyası üçün sədd olan Yançjou və Syaçjou qalalarını ələ keçirə bildilər.*

Tibetlilər onlara lazım olduqları şeyi əldə etdikdən sonra yenidən sülh təklif etdilər. Tibet sərkərdəsi tərəfindən ələ alınan çin generalı Ma Suy sülh bağlamağa razılaşdı və məlumat vermək üçün paytaxta getdi. Tibetin baş komandanı Şan Qetszan yenidən təşkil etmək və əldən düşmüş qoşun hissələrini arxaya çəkmək üçün bundan istifadə etdi.

Çanyanda danışıqlara razılaşdılar və məqbul sülh şərtlərini yerinə yetirmək və ələ keçirilmiş əraziləri tibetlilərdən geri almağa nail olmaq üçün ən adlı-sanlı əyanlardan və sərkərdələrdən ibarət xüsusi komissiya göndərdilər. Üsyanı yatıran

* Bu qalalar Xuanxe çayının sola buruldugu yerdə, müasir Qansu əyalətində yerləşirdi.

qoşun başçısı Xuan Syan da komissiyanın üzvləri arasında idi: tibetlilər müqavilənin pozulmasında məhz onu günahlandırdılar. Barbarlarla danışıqlara onların şəxsi düşmənlərini göndərmək imperator tərəfindən buraxılmış bağışlanmaz bir səhv idi, hadisələrin gedişinə elə bu güclü təsir göstərdi.

Şan Qetszan qisas almağa səy göstərərək xəyanətə keçdi: pusquda saxlanmış süvarilər çin nümayəndələrinə hücum etdilər və onları əsir aldılar. Lakin Xuan Syan təsadüfi bir at tutaraq ona mindi və hərbi düşərgəyə çapıb gələ bildi: onu təqib etdilər, amma atılan oxların heç biri ona dəymədi. Daha bundan sonra sülh haqqında söhbət belə ola bilməzdi.

Şan Qetszan istedadlı sərkərdə idi. O, bütün cəbhə boyu Çinin üzərinə geniş hücumun inkişaf etdirilməsində qazanılmış müvəffəqiyyətlərdən istifadə etdi. Çin qoşunları geri çəkildikcə və təslim olduqca tibet süvariləri hər yerdə talançılıqla məşğul olurdular. Şensi şəhərinin qərb əyalətlərində yaşayan əhalinin demək olar hamısı məhv edildi, yaxud Tibetə aparıldı. İndiyədək məhz onlar tibet yürüşlərinin qarşısını alırdılar.

Aydın oldu ki, Çin yenə də müharibəni uduzdu. Lakin burada Çin diplomatiyası işə başladı. 788-ci ildə Çin Uyğuriya ilə müdafiə ittifaqı bağladı, çünki Uyğuriya da həmçinin Tibetin güclənməsindən, onun şimal-qərb genişlənməsindən ehtiyat edirdi. Cənubda yerləşən Sıçuan əyalətində iki cəbhədə mübarizə gedirdi: qərbdən tibetlilər basqın edirdi, Tibetlə ittifaq bağlamış Nançjao cənubdan qoşun çıxardı. Müttəfiqlər tərəfindən sıxışdırılan Çin sərkərdəsi Vey Qao düşmənin aldadılması metodundan istifadə etdi. O, Nançjao çarına onun səmimiyyətinə minnətdarlıq əlaməti olaraq məktub yazdı və onu göndərdi ki, tibetlilərin əlinə düşsün. Onlar məktubu aldıqdan sonra öz müttəfiqlərindən xəyanətkarlıqda şübhələndilər və Sıçuana gedən yolu kəsmək üçün bir qoşun bölməsi göndərdilər. Bu, müttəfiqlər arasında düşmənçiliyi artırdı. Nançjao qoşunları çıxıb getdi, tibetlilər isə tək qalaraq 789-cu ildə məğlub oldular. Sıçuan xilas edildi.

Vey Qao bununla kifayətlənmədi: kiçik qalaları mühasirə etməklə kiçik müharibələri davam etdirirdi, o, Nançjao çarı İmosunun yanına elçi göndərdi. Elçi İmosunu inandıra bildi ki, Çinin tərəfinə keçib cənubda fəaliyyət göstərən tibet ordusuna arxadan zərbə endirsin. Arxadan zərbə gözləməyən tibetlilər 793-cü ildə darmadağın edildilər və yeni uğursuzluqlar qazandıqdan sonra ertəsi il öz ərazilərinə tərəf geri çəkilməyə başladılar.

Uyğuriyanın müharibəyə qoşulması şimalda da hadisələrə yeni şəkil verdi.

**Müharibənin qızğın çağı.** Uyğuriya özünün tabe vəziyyətində olduğunu qəbul etməklə uduzmaqdan daha çox udmuşdu. Faktiki olaraq uyğurlar çinlilərdən deyil, çinlilər onlardan asılı idi. Qərb diyarının Çinin paytaxtı ilə yazışması tibet qoşunlarının xəbəri olmadan uyğur torpaqları vasitəsilə aparılırdı. Müharibə aparmaq üçün Çinin qərbdə kifayət qədər süvarisi yox idi. Vəziyyəti yalnız uyğurlar xilas edə bilərdi, onlar kömək etməyə hazır idilər, lakin hər şeyə görə

haqq tələb edirdilər. «Köçərilərin tələblərinin hüdudu yox idi». Çin qoşuna haqq verir, uyğurlar isə tibetlilərlə müharibə aparırdılar. Lakin tibet diplomatiyası da tam fəal idi: tibetlilər müttəfiqlərini tapdılar. Uyğurların köhnə rəqibləri olan qərbi karluk, həmçinin Cənubi Cunqariyada köçəri vəziyyətdə yaşayan və ağır vergilərdən əzab çəkən şato tayfası da onların tərəfində çıxış edirdilər.

Türklər tərəfindən istila olunan şərq karlukları* və bayan tayfası daha çox əziyyət çəkirdilər: Bir xilasedici kimi tibetlilər bunu gözləyirdilər. Nəhayət, istila edilmiş, lakin Moyançur xan tərəfindən sındırılmamış qırğızlar arasında tibetofil meylləri artmışdı. Uyğur zülmünü atmağa çalışaraq, onlar karluklar və ərəblərlə həmçinin dostluq etmək istəyirdilər, lakin ərəblər uzaqda, karluklar isə zəif idilər, yalnız tibetlə əlaqə uyğur zülmünün devrilməsi ümidini verirdi.

Bundan əlavə, tibetlilər Pamirin qərb yamaclarında öz hegemonluqlarını yaratdılar, Qibin və eftalitləri özlərinə tabe etdilər. Onların tibetlilərə verdikləri vergilər dərmanlardan və ərzaq ehtiyatlarından ibarət idi, görünür, bunlar tibet ordusunun təchizinə gedirdi.

Cənubi-qərbdə tibetlilər Kəşmir hökmdarı ilə dostluq əlaqəsi yaratmışdılar, o onların dininə etiqad göstərirdi. Bu dövrdə Kəşmir Şimali İrlandiyada fəal qəsbkarlıq siyasəti aparırdı, o, Tibetə sakit arxa cəbhəni təmin edirdi.

789-cu ilin axırlarında tibet qoşunları Bişbalığa (Beytin) tərəf getdi. «Qyeqyanqyas» titulunu daşıyan uyğur qoşun başçısı şəhərin köməyinə gəldi və tam məğlubiyyətə uğradı, bu vuruşmada şatosluların xəyanətlarlığı həlledici rol oynadı. 790-cı ildə Beytin məğlub oldu. Bu, Kuçi, Qaraşar, Xotan və Qaşqar şəhərlərinin taleyini həll etdi. Burada çinlilər şəhər əhalisi ilə qaynayıb qarışmışdılar. Çində bu ayrı düşmüş malikanələr barədə heç bir məlumat yox idi, lakin görünür ki, onlar özləri öz müdafiələrini təşkil etmişdilər və tibetlilər cənubi Tyanşan ətrafı regionlarının sahibi ola bilmədilər. Əvəzində Turfan vadisi də daxil olan Siçjou vilayəti metropoliyaya sədaqətini qoruyub saxlayırdı. Bu onunla asanlıqla izah olunur ki, çinlilər V əsrdən başlayaraq Turfanda məskunlaşaraq yerli əhalini də məskunlaşdırmışdılar. Lakin Siçjou köçərilərin ləngər vuran dənizində bir ada idi, çin qarnizonu həlledici əhəmiyyətə malik deyildi.

Sonrakı ildə tibetlilər öz əlaqələrini təmin etməyə çalışaraq Xuanxe çayı boyunca şimali-şərqi aşağı istiqamətdə hücumlarını davam etdirdilər, lakin uyğur qoşunları Linçjou yaxınlığında onları darmadağın etdi. Uyğurlar getdikdən sonra

* Bu qelu tayfası idi, onlar haqqında heç bir məlumat yoxdur. Bu tayfanın təkcə Cunqariyada yaşaması barədə məlumatımız vardır. Qelu tayfasının karluklarla eyniləşdirilməsi fikri deyilmişdir: V. P. Vasilev. (Китайские надписи…, стр. 25-26): Qrumm-Qrjimaylo (Западная Монголия…, стр. 341—342) belə hesab edir ki, Qelu müstəqil türk tayfasıdır, o digər tayfalara nisbətən Altaydan daha gec düşmüşdür. Yəqin digər razılaşdırıcı qərarlar qəbul etmək olar: qelu-karluklardır, amma onların şərqi qolu, yəni uyğurlara tabe olan hissəsi qelulardır. Qardizi belə variant haqqında danışır, o, bir karlukun uyğurların vilayətinə qaçması və Uyğur xanlığında yaşayan karluklar üzərində onun rəis (yabqu) təyin edilməsi haqqında danışır. (B. Bartold. Отчет…, стр. 104:).

tibetlilər hücumu davam etdirdilər, Şuykeuçjay qalasını aldılar və ətrafı elə qarət etdilər ki, oralar Çinin əks-hücumu üçün daha heç vaxt plasdarm rolunu oynaya bilmədi. Sərhəd müharibələri yürüşlərin dəf edilməsinə və dağıdılmış qalaların bərpasına gətirib çıxardı.

Qeser* varislərinin çarlığı da qurbanlar arasında idi, tibet mənbələri onları nədənsə türk* adlandırır. «Qırmızıəbalı tibetin iblis qoşunları bu türk hökmdarlığına soxuldular və öz qara çadırlarını onların torpağında qurdular. Talan olmuş əhalini monların ölkəsinə apardılar, onlara orada yaşayış yeri verdilər. Bundan sonra Qərbi Tibetdə knyazlar sülaləsi meydana çıxdı ki, o da öz mənşəyini Qeserdən götürürdü.

Elə 791-ci ildə digər tibet ordusu Xotanı* tabe etdi, bununla da Cunqariyada fəaliyyət göstərən qoşunların arxasını təmin elədi. Çinlilər öz qüvvələrinə inamı itirdikləri vaxt ərəblərə yardım haqqında müraciət etdi. Harun-ər-Rəşid son dərəcə güclənmiş tibetlilərə qarşı hərbi əməliyyata başlamaq qərarına gəldi, onun qoşunu tibet qüvvələrinin yarıdan çox hissəsini buxovladı ki, bu da hadisələrin sonrakı inkişafına mühüm təsir göstərdi.

**Şimalda müharibə.** Cunqariya — Beytin qalası uğrunda aparılan müharibə yenidən bərpa oldu. 790-cı ildə darmadağın edilmiş Çin generalı və Beytin canişini Yan Si-qu öz qoşunu ilə Çiçjouya qaçdı (Bəlkə də, bu çiqu İssıq-göl dağındakı «Qırmızı vadi»dir. Qyeqyanqyas tibetliləri birgə səylərlə qovmaq barədə Yan Si-çuya təklif etdi, lakin tibetlilər bu döyüşdə tam qələbə qazandılar. Uyğur — çin qoşunun üçdə iki hissəsi döyüş meydanında qaldı. Qyeqyanqyas yerdə qalan qoşunu toplayaraq Siçjou adlı çin qalasını talan etmək istədi, Çin canişininə isə Çinə getmək təklifini verdi. Vicdanlı məmur olan Yan Si-çu vəziyyəti düzəltməyin mümkün olmadığını görərək özünə qəsd etdi, tibetlilərin müttəfiqi olan şərqi karluklar isə Cunqariyanı zəbt etdilər. Uyğurlar cənuba qovuldular, burada çinin «dörd qalası» möhkəm durmuşdu. Onlara güvənərək, uyğurların güclü dəstəsi tibet ordusunun arxasına zərbə endirdi və üç il onların şimala hücum etmələrinə mane oldular. Onlar Buğur yaxınlığında tibet ordusunu at ilə təchiz edən ilxını ələ keçirdilər, bunun ardınca da Tsiktam və Çonqi yaxınlığında tibet dəstələrini darmadağın etdilər. Xotan tərəfə edilən əlverişli təxribat cənubdan ehtiyat qüvvələrini gətirməkdə tibetlilərə mane oldu. Nəhayət, 795-ci ildə uyğur qoşunları

* Bahadır Qeser Amdodakı köçəri kyan tayfalarından birinci bir dəstə igidinin başçısıdır, IV—V əsrlərdə yaşayıb. Onun adı ilə çox əfsanə və «Qeseriada» epik romanı yaradılmışdır.

* Bəlkə də tibet müəllifi bu tayfanın uyğurları müdafiə etdiyindən çıxış edir.

* Xotanın tabe edilməsi tarixi mənbədə göstərilməyib, belə qeyd edilib: Xotana yürüş barədə məlumat Samye monastırının əsasının qoyulması haqqında məlumatdan sonra, yəni 787-ci ildə olmalıdır. 792—793-cü illərdə isə uyğurlar Xotana hücum etmişlər, görünür, Xotan onların düşmənlərinin, tibetlilərin malikanəsində imiş.

tam güclənərək Beytin yaxınlığında tibetliləri məğlub etdi və bununla da tibet hücumunun qarşısı alındı.

Uyğurlar doğma düzləri əldə edərək, Uyğur xaqanlığının[*] tərkibinə daxil olan karluklar və türkeşlər arasında tibet əhval-ruhiyyəsini aradan qaldırmaq zəruriyyəti ilə qarşılaşdılar. Tibet müdaxiləsi bu tayfalara azadlıq gətirdi və uyğur qoşunlarının qayıtmasını onlar sevinclə qarşıya bilməzdilər. Görünür, onlar tibetliləri müdafiə etməyə çalışırdılar, lakin onlar kimi Bolçu[*] çayı yaxınlığında darmadağın edildilər. Uyğurlar üçillik kampaniyanı uddular.[*]

Vuruşan hər iki dövlət arasında yaranan fasilələr belə müharibəni dayandıra bilmədi. 796-cı ildə Tibetdə böyük sərkərdə Şan Qetszan və 797-ci ildə Tisrondetsan vəfat etdi; Uyğuriyada Yoloce sülaləsinin kökü kəsildi. 795-ci ildə əyanlar istedadlı sərkərdə Qutluğu xan seçərək hakimiyyəti məhdudlaşdıracağı barədə onun razılığını aldılar.[*] O taxta çıxaraq nəzərdə tutulmayan çətinliklərlə qarşılaşdı.

_ Tibet diplomatiyası öz işini gördü. 758-ci ildə tabe olduğu zaman öz muxtariyyətini qoruyub saxlayan qırğızlar uyğurların arxasında üsyan qaldırdılar. «Qütlüq qırğızların üsyanını yatıra bildi, onların ölkəsini dağıtdı və onların dövlət işləri dayandı, onların torpaqlarında canlı insan qalmadı». Əlbəttə, sonuncu fikir xeyli şişirdilmişdir, lakin bununla bərabər darmadağın edildikdən 20 il sonra hələlik yeni nəsil yaranmamışdır, qırğızlar haqqında heç nə eşidilməmişdir. Hazırda Minusin muzeyində 22-ci nömrə altında Tuvada qorunub saxlanan sütunun müəyyən olunması üçün bu hadisə əsas rol oynamamışdırmı? Bu, özlüyündə hündürlüyü 3,4 metr olan dörd tərəfli sütundur. Sütunun geniş tərəflərinin birində üç şaquli sətirdə run yazısı verilmişdi. Sətirlərin altında ucları aşağı düşən dirsəkvari xətt yazılmışdır, yuxarıdan xəttin ortasına xaç nişanı birləşmişdir. Yazının məzmunu belədir:

«Sizdən, mənim yüz yoldaşımdan, xalqımın altı nəslindən, sizdən mən ayrıldım (yəni öldüm). Mənim qəhrəmanlıq adım Akbaşatıxdır. Mən Inal oqya yetmiş yaşındaydım.

Mənim qəhrəmanlıq şücaətim! Mənim qayışım 42 qaşdaşla bəzənib. Düşmənlər arasında mən 30 qəhrəman öldürmüşəm!».

---

[*] Xaqanlıq süquta uğradıqdan sonra türkeşlərin bir hissəsi uyğurlara tabe olmuşdu.

[*] Qırğıznor gölünə axan Urunqu çayı.

[*] Ulankom yazıları canlı xronologiyaya malikdir. Boğaztəkinin 17 yaşı olduqda Bur-Uluc üzərinə yürüş oldu. Bolçu çayı yaxınlığında isə türkeşlərin istilasından sonra Omoz üzərinə yürüş zamanı onun 21 yaşı var idi.

[*] Q. E. Qrumm-Qrjimaylo. Западная Монголия, стр. 345. Mən bu xanı Açjo deyil, Qutluğ hesab edən «Изунлиямын» fikrini düzgün hesab edirəm. Yazılı abidədə xanın sadalanan keyfiyyətləri Açjoya aid edilə bilməz. Sonra, o uyğur xanının titulunu almamış, yalnız çin dilində Fın-çen əlavə sini daşımışdır, Qutluğun bu vaxt təmtəraqlı adı olmuşdur: «Aydınlıq ulukmış, ket Xuçluq Bilgə xaqan», yəni əla, yüksəkdə oturan, çox güclü müdrik xan» (V. V. Radlov. Титулы и имена...).

Sütunun yan tərəfində yazıya belə bir əlavə vardır: «O, xalqımın altı nəslinin gücü ilə burada daş qoymuşdur...».

Əgər aşağıda verilən fərziyyəni qəbul etsək, onda abidənin məzmunu aydın olar. Altı-bağ-budun, yəni altı bəylik xalqı — bu 780-ci ildən sonra uyğurlardır. Görünür, Ak-baş-at-ıx yüz nəfərə başçılıq edib və döyüşdə həlak olub, qalib gəlmiş altı bəylik xalqının, yəni uyğurların xanı isə onun xatirəsini əbədiləşdirmişdir. Bunu yalnız qələbə qazanıldığı hallarda etmək olardı, IX əsrdə isə qırğızlar uyğurlara qalib gəlmişdi. Sütunda həkk olunmuş xaç nişanı bizim fərziyyəmizə heç də zidd gəlmir, çünki manixeylər İsa peyğəmbərin xatirəsini əziz tuturdular, elə Maninin özü də çarmıxa çəkilmişdi. Sütundakı şaquli vəziyyətdə yazılmış sətirlər də səciyyəvi mahiyyət daşıyır, belə ki, erkən dövrdə (X—XI əsrlər) uyğurların manixey yazıları məhz bu cürdür. «Abidənin hərfləri orxon əlifbası deyildir». Əgər yuxarıda verilən nöqteyi-nəzəri qəbul etmiş olsaq, onda sütun döyüş yerini bizə göstərə bilərdi, lakin döyüş yeri sütundan çıxarılmış və Minusin muzeyinə aparılmışdır.

Sonra qoşun yenə də Beytin əyalətinə keçdi, burada tibetlilər və karluklar hərəkət edirdilər.* Uzun və çətin döyüşlərdən sonra, yazılarda bu hadisələr dumanlı şəkildə verilir, uyğurlar qalib gəldilər və Beytin qalasının qalıqları onların əlinə keçdi, o yenə də Bişbalıq şəhəri adlandırıldı. Uyğur xanı hücum üçün ehtiyat bazası alaraq tibetlilər* tərəfindən mühasirədə olan Kuziyə kömək etməyə tələsdi. Uyğurlar pusquda gizlənərək düşmənlərin bütün korpusunu qırdılar. Lakin xilas olmuş Kuçi çinliləri nankor çıxdılar və verginin həcmi haqqında danışığa başladılar. Bunu şanlı xilaskarın özü onlardan tələb edirdi. Xan şəxsən özü xəsis müttəfiqlərinə qarşı təşkil edilmiş hərbi ekspedisiyaya başçılıq etdi. Çinlilər müqavimət göstərməyə çalışdılar, lakin darmadağın edildilər və qərbə tərəf Fərqanəyə qədər qaçdılar. Uyğurlar orada, Narın* çayının sahillərində qaçqınlara çatdılar və onları tam taladılar. Bundan sonra, sağ qalanlar «göz yaşı tökərək və yalvararaq» onlardan vergi qəbul etməyi xahiş etdilər, uyğur xanı mərhəmətlik göstərib razılaşdı. Beləliklə, qərbdə Çin malikanələrinin qalıqları Uyğur xanlığının tərkibinə daxil oldu.

Tezliklə o qərb karlukları* ilə toqquşmalı oldu, lakin bu toqquşma uyğurların xeyrinə qurtardı. Qutluğ xanın sonuncu qəhrəmanlığı şərq karluklarını sakitləşdirmək və onları müdafiə edən tibet ordusunu darmadağın etmək olmuşdur.

---

* Güclü tibet qoşunu və dörd tohar və bir çox başqaları... Hakimiyyət... Həmçinin karluklar... Tibet. Aşağıda hələ türkeşlərin ağalığı xatırlanır. Ulankomsk yazılarında deyilir: Mən, Tibeti, Tyunlyuqu, sonra Bolçu çayı yanında türkeşləri ələ keçirdim. Burada dəqiq tarix göstərmək qeyri-mümkündür.

* Görünür, elə o vaxt onun varisi Boğaz-təkin öz dəstəsini Omaz şəhərinə tərəf aparmışdır.

* Yazılarda çayın adı Çjen-çju adlanır.

* «Ta-şi-li qanadı» — üç qərbi karluk tayfasından biridir. B a x: N. Y. B i ç u r i n. Собрание сведений, т. I, стр. 347).

Şərqi karlukların Cabqusu hakimiyyətdən məhrum olundu və qovuldu. Bu döyüşlər Tyan-Şandan cənubda baş verirdi, çünki göstərilirdi ki, xan qaçanları təqib edərək Fərqanəyə çatmışdı.

Bütün bu hadisələr bir onillikdə — 795—805-ci illərdə baş vermişdi. Yazılar mütləq xronologiyanı dəqiqləşdirmək üçün əsas vermir, çin salnamələrində isə bu faktdan danışılmır. Yazılar tarixdəki boşluqları doldurur, artıq aydındır ki, uyğurlar tibetlilərin qərbi hücumlarını nəinki dayandıra bilmişdilər, həm də tibetliləri Cunqariyadan sıxışdırıb çıxarmışdılar. Tibetlilər gedən vaxtı öz müttəfiqləri olan şatoları özləri ilə apardılar və onları Tançjou vilayətindəki Nanşan dağının ətəklərində yerləşdirdilər. Bu, şatoluları qırılmaqdan xilas elədi, çünki uyğurlar Beytin şəhərinin süquta uğramasını ədalətli olaraq onların xəyanətkarlığının bəhrəsi hesab edirdilər.

Beləliklə, qanlı döyüşlərin və insanın qəlbini və bədənini didib parçalayan yürüşlərdən sonra aydın edir. Kabul hökmdarı yürüşə hazırlıq görür: Otrar hökmdarı vergi verməkdən imtina edir. Karlukların cabqusu uyğur xanı, tibet hökmdarı və Çin imperatoru dedikdə, bu cür adamlara münasibətdə «itaətlilik» termini altında diplomatik münasibətlərin sadəcə olaraq qurulması, «itaətsizlik» sözü altında müharibəyə hazırlıq başa düşülür. Verilmiş mətn tibet xarici siyasətinin genişliyi haqqında təsəvvür yaradır, çünki burada ərəblərin əleyhinə olan koalisiyanın üzvləri sadalanır. Lakin şərqdə baş verən hadisələr tibet ekspansiyasının bərpasını qeyri-mümkün etdi.

806-cı* ilə yaxın uyğurlar hücumu davam etdirərək Lyançjou qalasını ələ keçirdilər və bununla tibetlilərin əl-qolunu bağladılar. Tibetlilər dayaq hesab etdikləri şatolulardan şübhələndilər ki, bu tayfa onlara sadiq deyildir, odur ki, həmin tayfanı Tsaydım adlı dağlıq yerə köçürmək istədilər. Şatolular özlərinin Çindəki xidmətlərini xatırladılar, onlar burada şərafətlə əhatə olunmuşdular və qəsbkarlara qarşı ayağa qalxmışdılar. 808-ci ildə bütün xalq — 30 min nəfər kibit Nanşan dağının şimal yamacları boyu və sonra isə Taoşuy çayı ilə Çinə getmək üçün səpələndilər. Tibetlilər onların üzərinə hücum etdilər və Çin sərhəddinə qədər izlədilər. Hər gün amansız vuruşma olurdu. Çinə qədər cəmi 2 min nəfər süvari və azacıq mal-qara gətirildi. Çinlilər sağ qalmış qəhrəmanları qəbul edib onları azuqə və mal-qara ilə təchiz etdilər və onlardan xüsusi sərhədyanı korpus yaratdılar.

Şatoluların müdafiəsindən məhrum olan tibetlilər öz təcavüzkarlıqlarını dayandırdılar. Uyğurlar bu müddətdə Çin ilə mübahisə etdi. Müharibə ruhu öz-özünə söndü.

Uyğurlar və çinlilər arasına ixtilafı tatablar saldılar. 788-ci ildə onlar tatarlar (şiveysamlar) ilə birlikdə Çinin üzərinə yürüş etdilər. 795-ci ildə çinlilər onların

* Tarix belə hesablanmışdır: «Qutluğa həsr olunmuş yazıda bu yürüş xatırlanmır, deməli, bu tarix 805-ci ildə onun ölümündən sonradır. 806-cı ildə uyğurlar Çinin üzərinə yürüş edirlər, deməli, Lyançjou 806-cı ilin başlanğıcında, iyun çin konflikti başlanana qədər alınıb.

dərsini verərək «60.000 nəfərə» qədər öldürdülər. Bu, tatabların uyğurların himayəsinə oldu ki, rəqiblərin qüvvəsi bərabərdir: uyğurlar Kuçu və Qaraşarı, tibetlilər isə Xotan və Qaşqarı əllərində saxladılar.

**Şərqdə və Qərbdə müharibə.** Tibetlilərin qüvvəsinin çox hissəsinin qərbdə olmasından istifadə edərək, çinlilər sülh bağlamaq haqqında yeni hökmdar Muni Dzenbonun təklifini rədd etdilər və bütün cəbhə boyu əks hücuma keçdilər.

798-ci ildə tibetlilər şimalda Xuamaçi yaxınlığındakı Yançjouda, 800-cü ildə isə, Linçjouda məğlubiyyətə uğradılar. Vey Qao cənubda Sıçuanda iki tibet qalasını ələ keçirdi. Tibetlilər 801-ci ildə buna qəti hücumla cavab verdilər, bunun nəticəsində Linçjou qalası silahı yerə qoydu və çinlilər hücum eləmək üçün ehtiyat bazasından məhrum oldular.

Ölkənin daxilinə soxulmaqdan qorxaraq çin hökuməti Cənubi Tibetə soxulmaq barədə Vey Qaoya əmr verdi: bu əməliyyatın yalnız bir məqsədi — düşmənin qüvvələrini həlledici istiqamətdən yayındırmaq məqsədi var idi. Vey Qao iyirmi minlik ordu ilə Tibetin Sıçuan malikanəsinə soxuldu, müdafiəni yardı və yeddi şəhər və beş qala aldı, lakin Veyçjou və Kunmində qurulmuş istehkamlarda dayandırıldı. Tibet sərkərdəsi Madinde aldığı məğlubiyyətə görə qəzəbə düçar olmaqdan qorxaraq çinlilər tərəfə keçdi, şərq qoşunları komandlığı vəzifəsini tutmuş onun varisi Lunmanjo Mulun-tsi-sima çinlilərin qurduğu pusquya düşdü, tam məğlubiyyətə uğradı və əsir alındı. Lakin qalalar mühasirədə möhkəm dururdu, cənubda isə çin hücumu müvəffəqiyyət qazanmadı.

Bununla belə 802-ci ildən başlayaraq tibetlilər Çin ilə sülhə can atırdılar. 806-cı ildə hətta əsirlərin mübadiləsi həyata keçirildi. Məsələ bundadır ki, tibetlilərin ərəblərlə münasibəti pisləşmişdi. Əgər 777-ci ildə tibet hökmdarı xəlifəni tanıyırdısa, 806-cı ildə isə tibetlilər və karluklar Rəfi ibn Lyaysın Səmərqəndə qaldırdığı üsyanı hərbi qüvvə ilə müdafiə etdilər.

Sonra nə hadisə olmuşdur — məlum deyildir, lakin 811-ci ildə Məmun öz qardaşı Əmin ilə vətəndaş müharibəsinə başlanmazdan əvvəl acı-acı şikayət etmişdir: Karlukların cabqusu itaətdən çıxmışdır, Tibetin hökmdarı, xaqan da belə itaətsizlik hiss keçirməyə imkan yaratdı. 806-cı ildə onlar növbəti yürüşü uyğurlarla birgə etdilər. Tatabların uyğurlara itaət etməsi 830-cu ilə qədər davam elədi. Elə həmin il növbəti yürüş zamanı Çin qoşunu tərəfindən tatablar darmadağın edildi və başçıları əsir düşdü. İmperator əsirin şlyapasını, kəmərini və hərbi rütbəsini özünə qaytardı. Bununla da əsirlikdən azad edilən başçı Çinin vassalı oldu. Uyğurlar bu xəbəri çox laqeydcəsinə qarşıladılar, çünki, onların diqqəti bütünlüklə öz daxili işlərinə qarışmışdı.

809-cu ildə tibet-çin sülh danışıqları bərpa oldu, lakin tibetlilər Uyğuriya ilə özlərinə sülhü təmin etməyi arzulayaraq yürüşə çıxdılar, Çində tutulub-saxlanmış uyğurları axtarıb taparaq onları öz vətənlərinə azad olmuş kimi gətirib gəldilər. Uyğurlar tibetlilərə minnətdarlıqlarını bildirərək, 813-cü ildə Qərb divarları yaxınlığında yerləşən «İvov vadisinə» təxribat etdilər. Bu da uzanmaqda olan

danışıqlar zamanı Çinin xeyli dərəcədə güzəştə getməsinə təsir göstərdi. Çin Tibetin sərhəddə mübadilə yolu ilə ticarət etmək barədə təklifini qəbul etdi. Mübadilə ticarəti tibetlilər üçün faydalı idi, çünki onlar Çin məmurları vasitəsilə yox, lazım olan malları birbaşa əhalidən ucuz qiymətə almaq imkanı əldə edirdilər. Lakin çinlilər üçün ən xoşagəlməz xüsusiyyətlərdən biri bu idi ki, tibetlilər Şofan yaxınlığında Xuanxe çayı üzərindən körpü salmışdılar, onu bəndlərlə möhkəmləndirmişdilər və bununla da istədikləri vaxt Ordosa gəlmək, oradan isə Çinin müdafiə olunmayan vilayətlərinə hücum etmək imkanı əldə etmişdilər. Lakin çinlilər bununla barışmalı oldu, çünki ildən-ilə əyalətlərdə qubernatorların iştirak elədiyi üsyanlar nə səfərbərlik aparmağı, nə də müharibəni davam etdirməyi qeyri-mümkün etmişdi.

**Müharibənin sonu.** Tibet ordusu uyğur-Çin ittifaqını dağıda bilmədi, lakin bu işə tibet diplomatiyası kömək etdi: o bir-birinə düşmən olan iki dövləti parçaladı və Tibetə onları bir-bir vurmaq imkanı verdi. Tibetlilər özlərini şərqdən təmin edərək və uyğurların köməyi ilə Çini sülh danışıqları bağlamağa məcbur edərək, 816-cı ildə şimala, birbaşa uyğurların paytaxtı Qarakorum üzərinə basqın etdi. Bu vaxt uyğurların arxasında qırğızların yeni üsyanı baş verdi, bu dəfə üsyan uğurlu oldu. Müttəfiqlərin fəaliyyətinin əlaqələndirilməsini qeyd edə bilmərik.

Yürüş yalnız nəzərdə tutulmayan vəziyyətin yarandığına görə tam müvəffəqiyyət qazana bilmədi: 816-cı ildə tibetlərin «adsız qambosu» öldü və sərkərdə Şan Şatszan özünün istədiyi şahzadəni taxt-taca oturmaqda iştirak etmək məqsədilə Tibetə qayıtmağa məcbur oldu. Lakin uyğurlar 20 il ərzində qırğızlarla müharibə apardıqlarına görə bundan istifadə edə bilmədilər.

Çində Uyğuriyanın müttəfiqlərini əziyyətə düşmək nəticələrindən xilas etmək üçün onu alçaltmaqdan istifadə edirdilər. 806-cı ildə dünyəvi ruhanilərindən deyil, manixey ruhanilərindən* ibarət uyğur elçiləri ilk dəfə olaraq Çayana gəldi. «Kamil adamların» bu tövbəsinə nə təbliğatçılıq fəaliyyətinə mənfi münasibət göstərilməsinə baxmayaraq, çinlilər Uyğurlarla münasibətlərini korlamamaq məqsədilə paytaxtda onların iştirakına dözməyə məcbur idilər. Elə ki, uyğurların qüdrətinin zəifləməsi aydın oldu ki, Tibetlə sülh bağlandı, Çin hökuməti manixeyləri uyğur tacirlərinə kömək göstərməkdə və ticarət qayda-qanunun pozulmasında təqsirləndirdi və onları 817-ci ildə sərhəddən kənara çıxardı. İttiham hətta uydurulmamış olsa da işin mahiyyətini əks etdirmirdi. Konfutsiyaçılar mistika və köçəri mədəniyyətlə fəal mübarizə aparırdılar, bu mübarizədə hər ikisi bir-birilə əlaqələndirilirdi. Elçilərin sürgün olunması çin-uyğur ittifaqı arasında uçurum yaratdı.

---

* N. Y. B i ç u r i n. Собрание сведений…, 1, стр. 331. Bu ifadəni mən belə başa düşürəm. «O zaman Moniyə öz qanunlarını gətirdilər». Manixeylər əvvəllər də Çində olmuşlar, lakin məhz indi onlara açıq təbliğat aparmağa icazə verilmiş və dövlət diplomatik tapşırıqları etibar edilmişdi.

Tibetlilər də elə bunu gözləyirdilər. Elə həmin il onlar Çayandan öz səfirliklərinin hətta qayıtmalarını belə gözləməyərək Çinin üzərinə basqın etdilər. Yenidən bütün sərhəd boyu döyüşlər başladı, lakin Çin qoşunları tibetlilərin hücumlarını dayandırdılar. Çin və uyğur hökmdarları belə bir nəticəyə gəldilər ki, təhlükəli düşmən qarşısında birləşmək lazımdır. 821-ci ildə hər iki dövlətin ittifaqı nigah bağlamaqla bərpa olundu. Tibet sərkərdəsi Şan Tsisir Orxon vadisinə hücum etmək qərarına gəldi, lakin hücum uğursuz oldu. Çünki Tibetin müttəfiqləri olan karluklar bu vaxt Fərqanədə ərəblərlə müharibə etməklə məşğul idilər, ona görə də uyğurlar tibet hücumunu dəf etdilər.

Daha bundan sonra vuruşmağın mənası yox idi, tibetlilər əldə etdikləri bütün əraziləri özləri üçün saxlamaq şərtilə Çinə sülh bağlamağı təklif etdi. Bir halda ki, Çinin süvariləri olmadığına görə onun əks-hücuma keçməsi üçün heç bir imkanı yox idi, həmin şərtlər qəbul edildi və 821-ci ilin axırlarına yaxın müharibə qurtardı.

**821-ci ildə Tibet-Çin arasında bağlanmış sülh müqaviləsi.** Bu müqavilə Lxasedə olan sütunda qorunub saxlanmışdır. Onun məzmununu veririk. «Maarifçi, davakar və ata hörmətini qazanmış Böyük-Txan imperatoru, müdrik və ilahi şəxs olan Böyük — Tibet kyabusu, iki hökmdar, əmi və qardaşoğlu iki dövlətin birləşməsi haqqında düşünərək böyük və əbədi dünya barədə aid içməklə müqavilə bağlamağı qərara aldılar.

Ruhlar və insanlar bu hərəkətin şahidi oldular; gələcək nəsillər bu haqda biləcəklər. Buna görə də bu hərəkəti gələcək nəsillərə çatdırmaq üçün yazılı daşı ucaltdılar. Maarifçi, davakar və ata hörmətini qazanmış imperator, müdrik və ilahi şəxs olan kyabu, dərin ağıla və idraka malik olan bu iki hökmdar xalqların əlbir yaşamasını istəyirlər, onlar təəssüf hissini yayır, bütün ölkələrə mərhəmətlə yanaşır, xalqlara əmin-amanlıq və xoşbəxtlik vermək və uzun müddət firavan yaşamaları üçün birgə məsləhətləşmələr keçirirlər. Onların qonşuluqda dostluğu təsdiq etməyə yekdil səy göstərməsi hər ikisinə həqiqi şan-şöhrət gətirir. Gələcəkdə iki dövlətin — Çin və Tibetin mövcud sahələrindən, yəni Txaoçju və Minçjeu şəhərlərindən şərqə doğru olan ərazi Böyük—Txan səltənətinə, sərhəddən qərbə tərəf olan ərazi isə Böyük Tibet dövlətinə məxsus olmalıdır.

Bu iki dövlət düşmənçiliklə qan tökməyi dayandırmağı, silah qaldırmamağı, qarşılıqlı hücumlar etməməyi üzərlərinə götürür. Əgər tərəflərdən hər hansı biri yad sahədə olarsa, onu diri tutmaq, sorğu-sual etdikdən sonra onu yedirdib-içirmək və öz vətəninə buraxmaq, öz vətəninin sakitliyini pozmamaq, ruhlara ehtiram göstərmək və insanları sevmək lazımdır. Əmi və qardaşoğlu arasındakı bu qarşılıqlı dostluq nəticəsində onlar rast gəldikləri çətinliklərdə bir-birinə müraciət etməli və kömək əli uzatmalıdırlar. Hər iki dövlət arasında daim əlaqə saxlanılmalı, hər iki tərəfdən göndərilən elçilərin atları Tsz-yantszyunçu vadisində dəyişdirilməlidir. Txaoçjsu və Minçjeudan şərqə doğru Böyük-Txan sarayı, qərbə doğru isə Böyük-Tibet sarayı poçt saxlamalıdır, Əmi və qardaşoğlu arasında

yaxınlıq tam mənada görünməlidir, od və kül mövcud torpaqlarda ucalmamalıdır,[*] hər ikisi xeyirxahlıqda ad çıxarmalı və ölkədə daim əmin-amanlığın hökm sürməsinə çalışmalıdır: səyyahlar qorxmamalı, əhali sakitlikdən həzz almalı və qarşılıqlı hücumlar olmamalıdır. Bu cür yaxşılıqları yerinə yetirməklə şöhrət sədaları günəşin və ayın çıxdığı hər yerə yayılacaqdır. Tibetli Tibetdə, çinli isə Çində sakit və şən yaşamalıdır, hər biri bu and müqaviləsinə riayət etməli, onu heç vaxt pozmamalıdır. Tanrıların və müdriklərin surətləri, günəşin, ayın və ulduzların şahidliyi ilə qurbanlıq göndərilmiş heyvanlar üzərində andı təsdiq edirik.

Bu müqaviləni kim pozarsa, o öz andına cinayətkarcasına yanaşır, qoy o fəlakətlərlə qarşılaşsın. Tibet hökmdarı və Çin elçiləri yerə qədər təzim etdilər ki, burada təsvir olunan kimi müqaviləni təsdiq edirlər. İki hökmdarın səxavəti əbədi olaraq nəsillərdə yaşayacaq və təbəələr onların yaratdıqları rifahı tərifləyəcəklər.

Müqavilənin məzmununa əlavə edilmiş kiçik göstəriş çox mühüm əhəmiyyət kəsb edir, bunun əsasında 821-ci ildə Qaşqarda Çinin hakimiyyəti bərpa oldu və ora general-qubernator təyin edildi. Bu, Tibetin qərb sərhədlərində baş verən hadisələrin üzərinə işıq salır. Tamamilə aydındır ki, çinlilər bu vaxt nə özləri, nə də şimalda qırğızların üsyanı ilə başları qarışmış olan uyğurlar vasitəsilə Qaşqara yiyələnə bilməzdilər. Bununla belə, arxadan Tibetlilərə elə bir zərbə vuruldu ki, onlar Qaşqarda öz hakimiyyətlərini bərpa edə bilmədilər. Yeganə mümkün olan izah budur ki, qaşqarlar özləri tibetliləri qovdular və uyğur torpaqları vasitəsilə Çin ilə əlaqə yaratdılar. Güman etmək olar ki, əvvəllər uyğur xanından qaçan, Qərb diyarlarında yaşayan Çin müstəmləkəçiləri burada az rol oynamamışdır. 821-ci ildə Xotanın da vəziyyəti tamamilə aydın deyildi, amma tibetlilər də orada öz yerlərini möhkəmlətməmişdilər. Görünür, Xotan vuruşan tərəflər arasında manevr etməyi bacarırdı və bununla da öz istiqlaliyyətini xilas etdi.

Lakin verdiyi az itkilər bağlanmış sülhün əhəmiyyətini Tibet üçün heç də azaltmadı.

Budda istiqamətli Tibet tarixçisi bu sülhə lakonik, həm də tam qiymət verir: «Lap uzaqlarda bir-birinin yanına düzülmüş, ağ pərdəyə bənzər dağ silsilələrin boyunca, yerin orta nöqtəsində əldən düşmüş çinlilər diz çökərək sülh xahiş edir və daş ucaltmağa tələsirdilər. Daşın üzərində yazı həkk olunmuşdu. Cənubda Tibetin qüdrətinə Hindistan (Bahar və Benqaliya) tabe edilmiş, qərbdə Bruşal (İran ilə sərhəd olan vilayət) zəbt olunmuş, şimalda bütün monqol dövlətləri (cənubda yaşayan monqollar xorlar - nəzərdə tutulur — L. Q.) istila edilmişdi.

Həqiqətən, bu dəhşətli müharibədə Tibet qələbə qazandı. Karvan yolu möhkəm zəbt edildi. Keçmiş Çin knyazlığında sərhəddəki döyüşkən çinlilər

[*] Od və kül — hündür yerlərdə gözətçi tonqalları və yürüşə çıxan süvarilərin atlarının ayaqları altından göyə qalxan kül.

qırıldılar, Çinin içərilərinə doğru hücum etməyin isə heç bir mənası yox idi, çünki Çinlə mübarizə aparan bir ölkəyə Çin ünsürünün tətbiq edilməsi onun daxili qüdrətini yalnız azalda bilərdi. Uyğuriyanın qırğızlarla müharibədə həm əlləri, həm də ayaqları bağlanmışdı. Qırğızların başçısı Ako özünü xan elan etmişdi, o, qazandığı qələbələrdən qürrələnərək uyğur xanına bildirmişdi: «Sənin həyatın sona yetmişdir. Mən tezliklə sənin qızıl ordanı ələ keçirəcəyəm, öz atımla onun qarşısına çıxacaq, öz bayrağımı sancacağam. Əgər mənimlə vuruşmağı bacararsansa, onda dərhal gəl, əgər bacarmırsansa, onda çıx get». Tibet hökmdarının ikinci müttəfiqi olan karlukların cabqusu ərəbləri sıxışdırırdı, o islamın çöldə yayılmasının qarşısını aldı.

Tibet özlüyündə Şərq və Qərbi iki yerə böldü və onlara bərabər olan üçüncü bir ölkə kimi aralarında durdu. Onun ətrafında daha təhlükəli düşmən yox idi, lakin əsil təhlükə ölkənin öz daxilində gizlənirdi.

**Bon və Buddizm.** Tibetdə Tisrandetsanın və onun varislərinin hakimiyyətində nələr baş verdiyinə nəzər salaq. Zəif hökmdarların (tsenpo) öz təbəələrinə qarşı budda icmalarında kömək axtarmalarını xatırlayaq, amma əslində isə həmin icmaları özlərindən başqa heç kim nə sevir, nə də hörmət edirdi. Müharibə vaxtı qüvvə daim zəfər çalan sərkərdənin əlində olur, orduda isə ruhanilər deyil, bon etiqadının tərəfdarları olan silahlı xalq döyüşür. Nə qədər ki, tsenpo Meaqtsom sağ idi, o budda ruhanilərinin təhlükəsizliyini təmin və onları müdafiə edə bilirdi, lakin 755-ci ildə onun ölümündən sonra kiçik yaşlı Tisrandetsan taxta çıxdığı vaxt hakimiyyəti faktiki olaraq buddizmin qatı düşməni olan əyan Majan öz əlinə almışdı. Majan budda ədəbiyyatının yayılmasına ardıcıl olaraq mane olurdu, o hökmdar tərəfindən əsası qoyulmuş iki monastırı qovdu. Böyük Lavran sitayişgahı qırğın yerinə çevrildi. Bunu görən budda əyanları sui-qəsd hazırladılar, hökmdarın özü də bu sui-qəsddə iştirak edirdi: Majan tutuldu və sərdabəyə salındı, çünki dindar buddaçılar heç kimi öldürməməli idilər. Majan orada özü öldü. Hökmdar yenidən hakimiyyəti öz əlinə aldı və Tibetdə buddizmin çiçəklənməsi yenidən başladı. Yenidən Lxas meydanında sitayişgah açıldı, qara etiqad (bon) və buddizm tərəfdarları arasında söhbətlər təşkil edildi. Əlbəttə, axırıncılar qalib gəldilər, lakin məğlub olmuşlarla çox mərhəmətlə davrandılar: bon kitablarının yalnız bir hissəsi yandırıldı, qalan hissəsini isə buddaçılar qəbul etdilər.

Əldə edilmiş saziş Tisrandetsana bir tərəfdən şərqə, şimala və qərbə doğru əlaqələri genişləndirməyə, digər tərəfdən isə artıq təhlükəsizliklərini təmin etmək şərti ilə yeni budda təbliğatçılarını çağırmağa imkan verdi. Tezliklə, müxtəlif təriqətlərə mənsub olan budda ruhaniləri üstünlük qazanmaq uğrunda mübarizəyə başladılar, nəticədə çinli hindliyə məğlub oldu və Tibeti atmaq məcburiyyəti qarşısında qaldı. Lakin bir neçə il keçdikdən sonra qalib məğlub olanların şagirdləri tərəfindən öldürüldü.

Tsenpo Ralpaçanın (816—839) dövründə uzunmüddətli mübarizə nəticəsində sarvastivadilərin xinayani təriqəti qalib gəldi. Bu qələbə o qədər böyük

idi ki, hökmdar başqa təriqətə aid əsərlərin tərcümə olunmasını və maxayani və tantri buddizminin təbliğ olunmasını qadağan etdi. Bu siyasətin nəticəsi əhəmiyyətli oldu.

Tibetdə üstünlük qazanmaq uğrunda mübarizə aparan üç təriqətdən biri olan sarvastivadi təriqəti daha az yayılmışdı. Tibetlilər belə bir fikirlə razılaşırdılar ki, qəzəbli ruhları qovan tantri ovsunçuları faydalı ola bilərlər, çünki qəzəbli ruhların və caduların gücünə inam olmalıdır. Maxayançıların təlimi daha çox xilas olma adlanır, bu təlim mütləq mənada avaralıqdan, iş görməməkdən ibarətdir. Belə ruhanilər tibetli üçün təhlükəli deyildi, çünki onun keçirdiyi asket həyat tərzi heç nəyə dəymir. Sarvastivadilər «yavaş-yavaş xilasolmanı» təbliğ edirdilər, onlar «xeyirxah işlər» görməyə çağırırdılar. «Xeyirxah işlər» dedikdə məbədgahların, monastırların, sitayişgahların, sütunların tikintisini və qanunun təbliğini nəzərdə tutulurdu. Təbiidir ki, bu tikintilərin xərcləri xalq kütlələrinin üzərinə düşürdü. Onlar isə yeni etiqadın çiçəklənməsindən yoxsul və dilənçi vəziyyətinə düşürdülər. Tibetlilər deyinməyə başladılar. «Bizim yoxsullaşmağımızdan və istismar olunmağımızdan kim faydalanacaqdır?» — deyə onlar sual verir, ruhaniləri göstərərək deyirdilər: «Baxın, onlar». Hökmdar ruhanilərə nifrətlə baxmağı və onları barmaqla göstərməyi qadağan etdi; buna görə gözü çıxarmaq, şəhadət barmağını kəsmək cəzası verilirdi, lakin bu cəza tədbiri kömək etmədi. Hökmdar öz arvadı tərəfindən təqsirləndirilən birinci nazirini öldürmək əmri verdikdə, saraydakı əyanlar buna dözməyib, onun yataq otağına soxuldular və hökmdarın boynunu qırdılar.

Öldürülmüş qardaşının yerinə taxta çıxan Lanqdarm buddizmin düşməni idi. O, ölkədəki aclıqdan, heyvanların tələf olmasından və digər fəlakətlərdən istifadə edərək, bu bədbəxtliklərə görə günahı Budda dininin üzərinə yıxdı və hamını onun təqibinə qaldırdı. Sitayişgahlar dağıdıldı, kitablar və ikonalar ya yandırıldı, ya da suya atıldı, ruhanilər ovçulara və qəssablara çevrildilər. Bu peşələrdən imtina edənlər qətl olundular. Qısa müddət ərzində Tibetdə buddizm məhv edildi.

842-ci ildə Lanqdarma budda tərəfdarları tərəfindən öldürüldü. Ədalət və üsyan başladı, daxili müharibə 20 il davam etdi və ölkənin elə bir tam əldən düşməsi ilə başa çatdı ki, çinlilər Tibet işlərinə daha diqqət yetirmirdilər. Bunun da nəticəsində Tibetin X—XI əsrlərdə tarixinə aid məlumat çox azdır. Lakin ümumi mənzərə hər halda aydındır: hökumət məhv edilmiş, tayfa başçıları isə daim bir-birilə müharibə edən xırda knyazlıqlar yaratmışdı.

## XXX fəsil

## VIII—IX ƏSRLƏRDƏ UYĞURİSTAN

**Yeni qayda.** 780-ci ildə baş verən çevriliş doqquz-oğuz tayfasının üstün vəziyyətini aradan qaldırdı. Qalib gəlmiş altı tayfa əldən getmiş vəziyyətin yenidən qayıtmasını daha heç arzulamırdılar. Mahiyyətə görə uyğur xanlığı monarxiya olmaqdan qalmışdı, ömürlük hökmdarı olan bir respublikaya çevrilmişdi. Hakimiyyət xanları seçən tayfa başçılarının əlində cəmləşmişdi. Bu xanlar o qədər çox olmuşdur ki, tarixdə heç bir izləri qalmamışdır. 789-cu ildən 794-cü ilə qədər uzurpatorun oğlu Panquan hökmdarlıq etmişdir. Lakin o taxtı varisliyə görə almamışdır, «əyanlar tərəfindən taxtda oturdulmuşdur». 794-cü ildə arvadı onu zəhərləmiş və taxta özü çıxmışdır, zəhərlənən hökmdarın kiçik qardaşının buna hüququ yox idi. Bu, siyasi dramadan daha çox ailə dramasıdır, lakin əyanlar işə qarışdılar, taxtı ələ keçirəni öldürdülər və onun kiçik yaşlı oğlunu taxtın varisi elan etdilər.

Hakimiyyət güc ilə bölündü: qüvvə isə bu vaxt tibetlilərlə vuruşan, adı «Qyeqyanqyas» mənbəyində çəkilən, bizə naməlum olan bir sərkərdə də var idi. O, qoşun ilə qayıtdığı vaxt xan və əyanlar onu qarşılamağa çıxdılar, üzü üstə yerə yatıb onları öldürməyi yalvardılar. Qyeqyanqyasın rəğbətini qazanmaq məqsədilə xan Tibetlə müharibədə iştirak etdiyinə görə Uyğuriyanın aldığı bütün Çin şeylərini ona verdi. Məmnun olmuş və vəcdə gəlmiş Qyeqyanqyas cavan xanı bağrına basdı və onu müdafiə edəcəyini bildirdi, şeyləri isə qoşuna payladı, hamı razı qaldı. Lakin bir il keçdikdən sonra xan öldü (əlbəttə, qocalığına görə yox), Qyaqyanqyas tarix səhnəsində yoxa çıxdı, əyanlardan birinin götürüb saxladığı oğul Qutluğ xan oldu. O əvvəlki xanın vaxtında özünə hərbi ad-san qazanmışdı.

Bu, varislik üzərində seçki əsaslarının nəinki təntənəsi demək idi, həm də elə o vaxt konstitusiya yaradılmışdı: «Sən göylər hökmdarı deyilsən, ləl-cəvahiratla bəzədilmiş taxtda əlini aşağı salmış vəziyyətdə otur, dənizdən hətta dağı belə tədbirlə idarə etmək qabiliyyətinə malik olan köməkçi olmalısan; dövlət işlərinə müdaxilə etməlisən; qanun və sərəncamlar verməlisən; göyün mərhəmətinə və iltifatına inanmalısan. Biz çinovniklər, bax, bunu xahiş edirik».

Bu mətn çox vacibdir. Burada xanın hakimiyyətinin məhdudlaşmasından söhbət aparılır, çünki xana hökumətin başçılığı verilir, bu, ərəblərdə vəzir, çinlilərdə isə qensyan adlanır. İkinci tələb məhkəmə hakimiyyətinə aiddir: qanunların möhkəm yerinə yetirilməsi özbaşınalığa son qoymalıdır. Nəhayət, dövlət işlərinin kilsə işləri ilə əlaqələndirilməsinə, yəni manixey icmasının başçıları ilə hesablaşmasına aid qəti tələb irəli sürülür. Xan yalnız müharibə apara bilərdi, həqiqətən, biz daim Qutluğ xanı qoşunun başında görürük.

Lakin elə burada da onu rahat buraxmadılar. Yazılı abidələr ondan nə istənildiyini izah edir: «Bütün yer üzərində sadə insanlar və canlı varlıqlar, təmiz

və xeyirxah adamlara himayədarlıq etməli, pis adamlar isə məhv olunmalıdır». Bu terminologiya bütövlükdə manixey leksikonundan götürülmüşdür. «Xuastanıft»in müəllifi Betyurmiş tərxan da həmçinin belə dəqiq ifadə olunmuşdur. Biz həmçinin onu da bilirik ki, manixeylər xeyir və şər adı altında nəyi nəzərdə tuturlar, bu mətn bizə əsas verir təsdiq edək ki, Qutluğ zəbt etdiyi vilayətlərdə dini təqiblər həyata keçirirdilər, sanki məhz bu istər Kuçedə, istərsə də Çanyanda çinlilərdə uyğurlara qarşı mənfi münasibət yaradırdı.

Bununla belə, ərəblər çinlilərdən geri qalmırdılar. Xorasan əmiri bildi ki, onun torpağında bir neçə yüz nəfər zindiklər, yəni manixeylər yaşayır, o onları öldürtmək istədi. O, bunu etməyə hazırlaşana qədər doqquz-oğuzların xaqanının yanından elçi gəldi və aşağıdakı fikri bildirdi: Sənin malikanəndə yaşayan zindiklərə nisbətən mənim malikanəmdə üç dəfə çox müsəlman yaşayır. Əgər sən bircə nəfər zindikə əl vursan, mən bütün müsəlmanları qıracağam. Həm onlar, həm də o birilər sağ qaldılar.

Beləliklə, biz bir-birindən asılı olmayan iki mənbəyi izləyib görə bilərik ki, uyğur xanı xristianlığın müsəlmançılığın nə zərdüştlüyün yayıldığı ölkələrdə təqib edilən və öldürülən manixeylərin himayəndarı kimi çıxış edir: əvəzində Uyğuriyada manixeylər kafirlərə qarşı təqibi təşkil etmək üçün öz nüfuzundan istifadə edirdilər.

Təkcə Tibetdə və Ərəb xilafətində deyil, həm də Hindistanda, Çində və Uyğuristanda dözülməzlik dövrün bayrağına çevrilmişdi. Görünür, uyğurlar buna görə də türklərə nisbətən qonşu tayfaların son dərəcə güclü müqavimətinə rast gəlirdilər. Türklər itaət etməyi və vergi verməyi tələb edirdilər, uyğurlar isə məğlub olmuşları bütün psixika quruluşunu və bütün həyat tərzlərini qırmağa və dəyişdirməyə məcbur edirdilər: onlar köçərilərdə elə təsəvvür yaratmağa çalışırdılar ki, köçərilər nə bir şey başa düşsünlər, nə də onu qəbul edə bilsinlər. Buna görə də Uyğuriya düşmənlərlə əhatə olunmuşdular, onlarla barışmaq isə qeyri-mümkün idi.

**Manixeyçilik və uyğurlar.** Uyğuristanda manixey kilsəsinin məhv edilməsini heç cürə tarixi təsadüf hesab etmək olmaz. Manixeyçilik dini şəhvətə, maddi əsaslara qarşı ardıcıl mübarizə aparırdı, işin mahiyyətinə görə onun qələbə çalması onun tərəfdarlarının fiziki cəhətdən mövcudluqlarını dayandırmaq demək olardı. Doğrudur, özünü öldürmə prosesi süni olaraq yubadılırdı, lakin bütün bunlar hər halda zahirən özünə qəsdetmə idi.

Manixeylərin ən ali məziyyəti həyatı tanımamalarıdır, labüdən ümidsizlik doğuran yarıtmazlığıdır.

İkinci məziyyət — bütün şəhvəti hisslərə qarşı barışmazlığıdır — bu məziyyətə görə əzab çəkmə və mərhəmət olmamalıdır, deməli, qəddarlığı prinsip səviyyəsinə qaldıraraq ona meydan verməyi üstün tutur.

Üçüncü məziyyət — asketçiliyin və pozğunluğun şəhvət vasitəsilə əlaqələndirilməsi ailənin mövcudluğunu qeyri-mümkün etmişdir, ailənin mövcudluğu dözümlü idi, amma o uğurlu deyildi.

Bu üç prinsip xristianlığa tam ziddir, burada ümidsizliyə qapılmaq ölüm günahı deməkdir, mərhəmətli olmaq xeyirxahlıqdır, monoqam ailənin yaradılması etiqadlılıq və müəmmalıq aktıdır. Manixeyçilik kilsəsinə tabe olan bir cəmiyyətdə manixeyçilik doktrinasının ardıcıl tətbiq olunması nəticələrini təsəvvür etmək çətin deyildir.

Ən əvvəl onu qeyd etmək lazımdır ki, əsl manixeyçilər az qisim adam, başlıca olaraq zadəganlar içərisindən çıxmış şəxslər ola bilərdi. Məgər uyğur çobanına, savadsız olan cəsur döyüşçüyə onun doğma rayihəli çölünün, sevimli arvadının və şən qırmızıyanaq uşaqlarının qorxunc bəla olduqlarını, onlardan əl çəkmələrini demək olarmı? O, oxu atarkən qulaqlarına qədər yayı çəkən öz möhkəm əllərinə, şən və özü seçdiyi həyatını dəfələrlə xilas edən ağ atına nifrət edə bilərmi? O, İşığın və Zülmətin mücərrəd mübarizəsini özü üçün təsəvvür edə bilərmi? Tamamilə aydındır ki, uyğur köçərilərinin böyük bir hissəsi yalnız adlarına görə manixey hesab olunurdular, onlar əvvəlki adi məişətlə yaşayır və adi təsəvvürləri rəhbər tuturdular. Manixeyçiliyin pozğunluq stixiyası onlara az təsir etmişdi.

Lakin bu şərait nəticəsində adlı-sanlı şəxslər və xalq arasında uçurum yaranmalı idi: xalq öz başçılarına daha inanmadı, xan və bəylər isə savadsız kütlə ilə heç cür danışığa girmədi. Bu, ölkənin möhkəmlənməsinə təsir göstərməyə bilməzdi. Uyğur cəmiyyətinin aparıcı hissəsi qızğıncasına neofitlərin yeni etiqadını qəbul etdi, onları uyğurların təbii davakarlıqdan çıxmasından ötrü dözümsüzlüyün təbliğ edilməsi daha çox qane edirdi.

Tibetlilər, karluklar və qırğızlar ilə müharibə indi uyğurlar üçün yüksək məna daşıyırdı: bu müharibə din uğrunda mübarizə məqsədilə aparılırdı. Bu müharibə nəticəsində xarici siyasətin bütün problemləri son dərəcə kəskinləşdi. Müharibə xalq qüvvəsi ilə aparılmalı idi, o, vuruşduğu tərəfin dininə qarşı yad münasibət bəsləməli idi. Daxili və xarici siyasətdə baş verən fəlakət xeyli dərəcədə bu istiqamətlə şərtlənirdi.

Lakin manixeyçiliyin ən pis nəticələrindən biri ailənin pozulması idi. Bu, əsasən uyğur cəmiyyətinin yuxarı təbəqələrinə — sosial səbəblər ucbatından İran və Aralıq dənizi ölkələrinin yüksək mədəniyyətini qəbul edən və artıran şəxslərə aiddir. Nigahlıq müddətini pozan qeydkeşlik və eyş-işrət sağlam nəslin alınmasına gətirib çıxara bilməzdi. Uyğurların mədəniyyətə daha çox yiyələnmiş hissəsi qeyri-sağlam nəsil verə bilərdi. Qısaca desək, belə nəsil yaranırdı.

Yaranma prosesi sürətlə getmir, onun nəticələrini hiss etmək üçün aşağısı üç nəsil, yəni 80 il keçməlidir. Manixeyçilik Uyğuriyası məhz bu qədər davam gətirmişdi.

Lakin manixeyçiliyi qəbul etməyin bu mənfi xüsusiyyətləri özünü büruzə verməzdən əvvəl onun müsbət tərəfləri - qərb mədəniyyətinə yiyələnmə özünü göstərdi.

Çin mənəvi mədəniyyəti o qədər spesifikdir ki, köçərilər bu mədəniyyəti istəmirdilər və onu qəbul edə bilməzdilər. Biz Tonyukukun nümunəsində gördük ki, hətta çin təhsili almış türklər öz dünyagörüşlərini çin dünyagörüşünə qarşı qoymağa səy göstərirdilər. Tibetlilər də özlərini bu cür aparırdılar, uyğurlar da istisna deyildilər. Lakin bu, onlarda mədəni mübadilənin olmasına gətirib çıxarmışdı, yalnız Soqda və İrandan çıxanların dalğası Çin mədəniyyətinə nisbətən heç də az kamil olmayan mədəniyyətə yiyələnmək üçün imkanlar açmışdır.

İbn Xordadbeq türk ölkələri arasında Uyğuriyanı ən böyük bir ölkə kimi təsvir edir. «Doqquz oğuzların xaqanı 12 dəmir darvazalı böyük şəhərə daxil olur, şəhərin sakinləri manixeyçiliyə etiqad edirlər. Hündür, uca bir yerdə xaqanın qızılı rəngli çadırı salınmışdır, bu çadıra 900 nəfər adam sığışır; o beş fərsəng məsafədən görünür». Bu təmtəraqlı sarayda zəif, bacarıqsız xanlar otururdular, onlardan yalnız dəbdəbəli titulları qalmışdır. Ölkəni tayfa ağsaqqalları yaxud manixey «kamilləri» idarə edirdilər, onların adı tarixdə qalmamışdır.

839-cu ilə qədər Uyğuristanda qırğızların üsyanından və tatar tayfalarının Amurdan İnşara (820-ci ilə qədər) keçməsindən başqa heç bir böyük hadisə olmamışdır. Bu dolayısı yol ilə dövlətin qüdrətinin zəifləməsini göstərir, güman etmək olar ki, zəif hökmdarın vaxtında daim olduğu kimi ölkənin daxilində müəyyən qruplaşmalar mübarizə aparırdı, lakin onların hansı qruplaşmalardan ibarət olduğunu biz hətta tapa da bilmirik. 832-ci ildə Qesa adlı xan «öz tabeliyində duran şəxslər» tərəfindən öldürüldü» və Xu adlı əmisi oğlu onu taxtda əvəz etdi. Elə fəlakət də onun vaxtında başladı.

**Uyğur xanlığının məhvi.** IX əsrin ortalarına yaxın Uyğuristanın qüvvəsi artıq tükənmişdi. Zadəganlar arasında pozğunluğun olması öz bəhrəsini verdi. Əyanlar bir-birilə rəqabət aparırdılar, tabe edilmiş tayfalar isə sıradan çıxırdı. Yuxarıda 794-cü ildə Şatonun ayrılması qeyd olunmuşdu. 835-ci ildə tatablar çəkilib getdilər. Lakin qırğızların üsyana başlaması Uyğuristan üçün daha dəhşətli oldu. Qırğız knyazı istiqlaliyyət qazanmaq arzusu ilə ərəblər, tibetlilər və karluklar ilə dostluq əlaqəsi saxlayırdı. 818-ci ilə yaxın qırğız knyazı Ajo özünü xan elan etdi. Onun anası türkeş knyazının qadını, arvadı isə tibet sərkərdəsinin qızı idi, deməli, onun həm onlar ilə, həm o birilər ilə qohumluq əlaqəsi var idi. Uyğurların Baoxanının üsyanı yatırmaq cəhdi müvəffəqiyyət qazanmadı. Ajo yadellilərin əsarətindən xilas olmaqla kifayətlənməyərək düşmənin danışıqsız olaraq tam təslim olmasını tələb edirdi. «Sənin həyatın başa çatmışdır, — deyə o, Uyğur xanına müraciət edirdi. — Mən tezliklə sənin Qızıl ordanı ələ keçirəcəyəm, atımı onun qarşısında qoyub bayrağımı sancacağam. Əgər mənimlə yarışa girməyi bacararsansa, onda gəl; əgər bacarmazsansa, onda tez çıx get». Eyni zamanda

cənubda davakar şatolular öz qüvvələrini bərpa etdilər və həmçinin uyğurları hədələdilər.

Uyğurların belə çətin bir vəziyyətə düşməsinə səbəb elə onların özləri idi. Onlar öz azadlıqları uğrunda göy türklərə qarşı böyük canfəşanlıqla mübarizə aparırdılar, amma bu azadlığı qazandıqdan sonra onu tətbiq edə bilmədilər. Onların azadlıqsevərliyi dialektcəsinə inkişaf edərək hər cür təşkilediciliyin əsaslarını inkar edirdi. Uyğurlar xan hakimiyyətini elə məhdudlaşdırmaq istəyirdilər ki, istədiklərinə nail olduqda bu hakimiyyət özünün bütün mənasını itirmiş olsun. Buradan da uyğurların hətta bilavasitə təhlükə qarşısında belə qüvvələri birləşdirmək sahəsində tam qabiliyyətsizliyi özünü biruzə verir. Şimalda və cənubda düşməni dəf etmək əvəzinə uyğur əyanları arasında qırğızlara və şatolara qarşı rəğbət hissi yaranmışdı.

832-ci ildə Aydınlıq uluq Munmiş Gülyuq Bilgə Çjan-sin xan titulunu daşıyan Küttəkin (çin dilində Xu-dele; farsca Xütuqlan xaqan deməkdir)* Qaraqorumda qızıl taxtda oturdu. O, özündən əvvəlki sələflərindən fərqli olaraq Çin şahzadəsini və həll olunmamış ziddiyyətlər topasını aldı.* Sonrakı hadisələr «Tanşu»da o qədər xəsiscəsinə təsvir olunmuşdur ki, bu hadisələrin səbəbini deyil, yalnız gedişini bərpa etmək mümkündür.

839-cu ildə Gülyuqun əyanları (çin dilində Qyuylofu deməkdir) onun köməyinə gəlmiş şatolulara arxayın olaraq Qaraqoruma basqın etdi. Xan özünə qəsd etdi, üsyanın başlanacağını hiss edən əyanlar xanın kiçik yaşlı oğlu Kesitəkini taxta çıxardılar.*

Qış çox sərt keçdi, çoxlu qoyun və at qırıldı, aclığa öldürücü xəstəlik də əlavə olundu. 840-cı ilin baharında uyğurlar aclıqdan, epidemiya və çevriliş nəticəsində yaranmış çaxnaşmadan zəiflədilər. Gülyuqbəyin düşməni olan ağsaqqal Gülyuq bağa qırğızları köməyə çağırdı və Qaraqorumu geri aldı. Xan və Gülyuq bəy öldürüldü, onların tərəfdarlarının alaçıqları yandırıldı. Uyğurlar çaxnaşmaya düşərək dağıldılar. Onların bir hissəsi cənuba qaçaraq tibetlilərə tabe oldular. Pan Tore adlı əyan 15 aymakı Cunqariyaya apardı və karluklara tabe oldu, xan aymakından olan 13 nəsil isə (görünür, doqquz-oğuzların varisləri imiş) 841-ci ilin mart ayında Ugetəkini xan elan edib qırğızlara qarşı mübarizəni davam etdirməyi qərara aldılar. Lakin bütün Xəlx, Qaraqorum, habelə uyğurların bütün xəzinəsi düşmənin əlində idi, yalnız təbiətən davakar olmaqları və müharibənin ətaləti uyğurları müqavimət göstərməyə sürükləyirdi.

---

* Görünür Kütoğlan deməkdir.
* Uyğurlar qədim adət olan arvadalma adətini saxlamışlar.
* Qardizi məlumat verir ki, Uyğuriyada yaşayan karluklar üsyanda iştirak etdilər. Onlar Xutuqlan xaqan adlı uyğur xanının 12 nəfər rəisini və onun bütün tərəfdarlarını qırdılar, bundan sonra çöldə karluk İlmalmasın cabqu hakimiyyəti öz əlinə addı (В.Бартолд. Отчет…стр. 105).

Qırğızların Qaraqorumda əldə etdiyi qənimətlər arasında çin şahzadəsi, üç uyğur xanının arvadı da var idi. Qırğızlar Çin ilə münasibətlərini pozmaq istəməyərək şahzadəni lazımi təmtəraqla və məiyyətləri ilə birgə evlərinə yola saldı. Ugetəkin karvana basqın edib bütün qırğızları öldürdü və şahzadəni xilas etdi, onu özünə arvad elədi. Lakin Uge Xəlxdə davam gətirə bilməyəcəyini nəzərə alaraq Qobi səhrasını keçib, nəhəng və dağınıq bir ordanın başında Xuanxe çayının sahillərinə gəlib çıxdı. Çin hökuməti uyğurların başçıları ilə danışığa girmək istədi, o uyğurların müharibə etməyəcəyini bilirdi. Lakin aclıq çəkən köçərilər danışıqların qurtarmasını gözləməyərək basqınçılıq yolu ilə özlərinə azuqə əldə etməyə başladılar. Əyanlar vəziyyətin faciə ilə qurtaracağını gördülər, odur ki, Ugetəkinin qardaşı Umus bütün günahları onun üstünə yıxmaq üçün müttəfiqləri olan alatonun başçısı İnsinyanı edam etdi.* Belə olduqda Naseçur adlı başqa bir başçı Çinsinyanın qoşununa başçılığı üzərinə götürüb 7 min nəfər kibitlini — öz tərəfdarlarını Mancuriyaya apardı. O, çinlilər tərəfindən darmadağın edildi və geriyə, Ugenin yanına qaçdı. O isə Naseçuru öldürdü. Digər uyğur əyanları Çin imperatoruna tabe olmağı təklif etdilər.

Uge öz təbəələrini yedirmək üçün azuqəsinin olmamasına görə onlara Şansi (841-ci il) üzərinə hücum etməyə icazə verdi. Çin qoşunları darmadağın edildi, Şimali Şansi və Ordos talan olundu. Bu uyğurların taleyini müəyyən etdi — Çin hökuməti onları müdafiə eləməkdən imtina etdi və onlara qarşı qoşun səfərbər eləməyə başladı. 842-ci ildə uyğurlar darmadağın edildilər və Ordosun şimali-şərq tərəfindən Mancuriyaya qovuldular. Uyğur xanına qarşı öz sədaqətlərini qoruyub saxlamış olan kidanlar hamını soyub-talan edən ağ qaçqınlar kütləsini görüb ayağa qalxdılar və Çinə tabe olduqlarını bildirdilər. 843-cü ilin əvvəllərində uyğurlar yenidən darmadağın edildilər və yaralanmış Uge öz tərəfdarları ilə birlikdə «qara araba» tayfasına qaçdı, lakin bu tayfa uyğurları ələ verdi. Uge öldürüldü, onun tabeliyində olanların çox hissəsi dağılıb səpələndilər.

Ugenin qardaşı Enyantəkin uyğurların qalıqlarına başçılıq etdi. O, tatabların ağsaqqallarının könüllü yardımı əsasında yaşayırdı, lakin 847-ci ildə Çin qoşunları tatabları darmadağın etdi və Enyan tatarların (şivələrin) yanına qaçdı. Çinlilər onun verilməsini tələb etdilər və uyğurların sonuncu başçısı arvadı, oğlu və doqquz nəfər atlı ilə birlikdə hara isə getdi və xəbər-ətərsiz itkin düşdü.

Qırğız xanı sonuncu uyğurların tatarların yanında gizlənməsindən xəbər tutaraq on min nəfərlik qoşunla Mancuriyaya gəldi və qaçqınları tutdu. Xilas olanların bir hissəsi «meşələrdə və dağlarda gizlənərək» qərbə Pan Torenin yanına gedib çıxdılar.

* Uyğurların naziri Çisinyanın şatoluların başçısı Çisin ilə eyniləşdirilməsi müəllifin fikridir. Bəlkə də onlar müxtəlif adamlardır, amma çətin.

**Nəticə.** Uyğur dövlətinin məhv edilməsi təkcə hərbi siyasi aksiya deyildi. Təsadüfi deyildir ki, uyğurların qoşunları darmadağın edildikdən dərhal sonra çin hökuməti manixeyçilərin və bütpərəstlərin kitablarını bir yerə yığdı və yandırdı, əmlakı isə xəzinəyə verildi. Dinə dözən çinlilər tərəfindən belə qətiyyətliliyin olması göstərir ki, məsələ çox ciddi dururdu, çox təəssüf ki, çinlilərin manixeyçiliyə bu münasibət göstərməsi səbəbləri haqqında bizim az məlumatımız vardır. Hər halda aydındır ki, manixeyçilik icması dağıdıldı, bu da budda təbliğatına yol açmış olur.

X əsrdə «Qızıl parıltı» adlı sutra uyğur dilinə tərcümə olunur ki, bu cür ədəbiyyata xeyli oxucunun üzə çıxmasını göstərir. Sonralar buddizm manixeyçiliyi bütünlüklə sıxışdırır.

Uyğurlar darmadağın edildikdən sonra Çin və qırğızlar arasında münasibət pisləşdi, çünki çinlilər qırğız xanlığının qüvvətlənməsinə kömək etməkdən imtina etmişdilər. Lakin müharibə olmadı.

Qırğızlar uyğurlar üzərindəki qələbəni məşhur «Yenisey abidəsi»ndə qəbirüstündəki iki misra ilə qeyd etdilər. «Sizdən, mənim elim, xanımım, oğlanlarım, xalqım, 60 yaşında sizin hamınızdan (mən ayrılıb — öldüm). Mənim adım El-Tuğan-tutukdur. Mən ilahi elin elçisiyəm. Mən altı bəy xalqının bəyi olmuşam».

«Altı bəy xalqı» yaxud, «altı tərkibli xalq» — bu, 780-ci ildən sonrakı uyğurlardır. El-Tuğan-tutuk onların üzərində bəy və «älci» olmuşdur; «älci» sözü, ümumiyyətlə «elçi» deməkdir, lakin, görünür ki, burada «səlahiyyətli» mənasında işlənmişdir, belə olduqda onun eyni zamanda elə həmin xalqın həm rəisi, həm də elçisi olduğuna heç bir ziddiyyət yaranmır. O, xana deyil, ripsi — xanıma müraciət edir (çin dilində olan bu termin göy türklər tərəfindən işlənirdi). Bu, tarixin müəyyənləşdirilməsi üçün vacibdir. Ajo 847-ci ildə ölüb, deməli El-Tuğan-tutuk ondan çox yaşamış və onun varisinə müraciət etmişdir. Beləliklə, biz Xəlxdə qalmış uyğurların hansı vəziyyətə düşməsini öyrənirik, onlar tabe edilmiş xalq kimi qırğız elinin tərkibinə daxil olurlar. Yalnız tutuk titullu məmurlardan onları idarə etmək üçün təyin edilirdilər.

Uyğur dövlətinin «ilahi el» kimi adlandırılması çox mühüm haldır, yuxarıda göstərildiyi kimi, qırğız yazıları Uyğur xanlığının teokratik xarakterdə olmasını göstərir.

Pan Torenin qərb əyalətlərinə apardığı digər uyğur qrupunun vəziyyəti müqayisə olunmaz dərəcədə daha uğurlu olmuşdur. Karlukların yanında sığınacaq tapan uyğurlar tezliklə iki qrupa bölündülər: böyük qrup Kuçedə qalmalı oldu, onlar vaxtilə özlərini tibetlilərdən müdafiə edə bilmişdilər, digər qrup isə Tibet sərhədində Bişbalığın yanında özünə yer etdi.

Tibeti didib-parçalayan daxili müharibə onların qüdrətli olduğu vaxtlarda istila etdikləri vilayətlərə öz təsirini göstərməyə bilməzdi. 848-ci ildə Dunxuanda yerli əhalinin (yəni çinlilərin) üsyanı baş qaldırdı. Bacarıqlı zabit Çjan İ-çao

üsyançıların başında durdu. O, «borcuna sadiq qalan qoşunu» öz tərəfdarları adlandırdı və uyğurların köməyi ilə 850-ci ildə Xami və Turfanı tutdu. Lakin o, Qanvjounu tutmuş tibetliləri tam qova bilmədi, təqribən 10 il qırğın davam etdi.

Uyğurlar bu dövrdə qüvvə toplayırdılar. Çinə daxil olan məlumatlar ara verməsinə baxmayaraq yeni Uyğur xanlığının yaşamağa qadir bir xanlıq olması haqqında fikir yürütmək imkanı verir. 856-cı ildə artıq Çin ilə müttəfiqliyi bərpa etmək istəyən Manli adlı yeni xan Kuçedə oturmuşdu. Lakin artıq bir ildən sonra Uyğuriyaya gedən yol kəsilmiş oldu, görünür, tibetlilər əks hücuma keçmişdilər. Belə olduqda cunqar uyğurları da işə qarışdılar. Bişbalıqda özünə yer etmiş knyaz Buğu Tszun Tibet hökumətinin düşməni olan çinlilərə kömək etdi. Tibet hökumətinə tibet budaçılarının başçısı Şan-Bibinin tərəfdarı olan toton sərkərdəsi Toba Xuay Qaun başçılıq edirdi, o, bon dinini müdafiə edirdi. Davakar bon qarşısında manixeylər, buddaçılar və konfutsiyalılar aralarındakı ixtilafları unudaraq birləşdilər və yalnız cəsurluq göstərməkdə rəqabətə girdilər. Tibet diktatoru olan sərkərdə Şan Kunjo düşmənin müqavimətini qüvvə ilə qırmağa çalışdı, lakin «tayfalar onun ardınca getmədi», tibet hücumu bununla da dayandı. Buqu Tszun Siçjouda (Turvan vadisində), Beytində (görünür, Bişbalıqdakı sərhəd istehkamları), Luantayda (Urumçi yaxınlığında), Tszinçendə (Urumçidən qərbə doğru 250 il Tibet çalalarını aldı və bununla da Tyan-şan ətrafında tibetlilərin üstünlük qazanmasına son qoydu.

Çin sərkərdəsi Çjan Ki-yun Qansuda Şan Kunjonun özünü məğlub etdi, çoxlu əsir aldı və o vaxt tapılmayan bir çox ləvazimatları ələ keçirdi. Şan Kunje Xuanxe çayının yuxarı qolları tərəfdən cənuba doğru geri çəkildi, lakin görünür onun düşmənləri yerli əhalidən olduğuna görə Toba Xuay Quana qəsbkarın pis vəziyyətdə olması barədə xəbər gətirdilər və toqanların sərkərdəsi ona Tibetin içərilərinə çəkilməyə imkan vermədi. Uyğurlar və çinlilər tələsik olaraq cənuba, Kukunora doğru çəkildilər və Quo şəhərində (Sinindən cənuba doğru) qəti döyüş oldu. Şan Kunjo tam darmadağın edildi və əsir düşdü. Əvvəlcə onun ayaqlarını kəsdilər, sonra onun bütün günahlarını sadaladılar, bundan sonra isə başını bədənindən ayırdılar. 866-cı ilin dekabr ayında Tibetin tam darmadağın olması haqqında xəbər ilə birlikdə Çayana Şan Kunjonun başını da gətirdilər.

Beləliklə Tibet və Çin arasında mövcud olan iki əsrlik mübarizə qurtardı, lakin artıq Çin qələbənin bəhrələrini dada bilmirdi. Tan monarxiyasının daxilən pozulması elə dərinləşmişdi ki, bu, qarşısıalınmaz bir prosesə çevrilmişdi. Bunun da nəticəsində sonuncu Tan imperatorlarının yeritdiyi xarici siyasət ona gətirib çıxarmışdı ki, yadellilərin Çinin daxili işlərinə qarışmasına yol verilmirdi.

Uyğurlar bu məsələdə uddular. Buqu Tszun çox da böyük olmayan, lakin Bişbalıqdan və Turfan vadisindəki Kuçudan başqa həm də Lobnor gölünün şimal sahilinin və Manas çayına qədər Cunqariyanın da daxil olduğu möhkəm knyazlıq yaratdı. Bu kiçik malikanəyə xanlıq adının verilməsi düzgün olmazdı, onun sahibi «idıkut» titulunu daşıyırdı. Lakin bu toxumdan orta əsr Uyğuriyası cücərdi.

# ƏLAVƏLƏR

## Sinxron cədvəli

| İl | Uzaq Şərq | Orta Asiya | Yaxın Şərq |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 545 | Vey imperiyasında Şərqi və Qərbi imperiya arasında müharibə | Türkyutlar jujanlara tabe oldular. Qərbi Vey elçisi Bumına gəlmişdir. | İranın Bizansla müharibəsi. |
| 546 | Qərbi Vey əyalətinə eftalitlərin elçisi gəlir. | Qərbi Vey əyalətinə cavab olaraq elçi göndərilir. | |
| 547 | | Teleutların tabe edilməsi. | Bizans tərəfindən Şimali Afrikanın zəbt edilməsi. |
| 550 | Bey Tsi imperiyasının əsasının qoyulması. | | Lazların İrana qarşı Bizans tərəfindən çıxış etməsi. |
| 551 | | Bumın Qərbi Vey şahzadəsi ilə evlənir. | Quturqurların Bizans üzərinə və uturqurların kuturqurlar üzərinə yürüşü. |
| 552 | | Bumın Jujanlara qarşı üsyan edir. Məğlub olmuş Anakuan qəsd edib özünü öldürür. Bumının ölümü. Taxta Qara İssıq xan çıxır. | İrandan Bizansa verilmiş sabirlər tərəfindən Ağvaniyanın zəbt edilməsi. İtaliyanın Bizanslar tərəfindən zəbt edilməsi. |
| 553 | Tsistslər tərəfindən kidanların darmadağın edilməsi. Qərbi Veyə eftalitlərin səfirlərinin getməsi. | Qara İssıq xan jujanları məğlub etdikdən sonra vəfat edir. Onun qardaşı Muğan xan jujanları Tsiyə qovur. | Bizansda ipək toxunulmasına başlanılması. |
| 554 | Jujanlar Tsidə talançılığa başlayırlar, lakin çinlilər tərəfindən darmadağın edilirlər. | İsteminin Qərbə yürüşü. | Ağvaniyada farslar sabirləri məğlub etdilər. İspaniyanı Bizansların zəbt etməsi (cənubi-şərqi). |
| 555 | Jujanlar Bey-Tsidən qovulmuşlar, Qərbi Vey əyalətinə qaçırlar, orada türkyutlara verilir və qırılırlar. Lyanın Vey-Tsi üzərinə hücumu. | Bey-Tsiyə qarşı xaqanlıq və Qərbi Vey arasında ittifaqın bağlanması. Eftalitlər ilə ilk toqquşma. | İrandan Qərbi Veyə elçilərin göndərilməsi. |
| 556 | Toğan üzərinə yürüş. | Toğan üzərinə yürüş. Şadun şəhəri alınmışdır. | |
| 557 | Qərbi Vey əyalətinin yerində Bey-Çjou imperiyasının əsası qoyulmuşdur. | Türkyutlar tərəfindən var, hun və oqorların darmadağın edilməsi. | |
| 558 | | Oqorların zəbt edilməsi: var və hunipsevdoavaların Qərbə qaçması. | Avarların Bizansa elçi göndərməsi. Avarlar tərəfindən sabirlər və antların darmadağın |

| | | | |
|---|---|---|---|
| | | | edilməsi. |
| 559 | Bey-çjouslular toqonları darmadağın etmişlər. Bey-Çjouya Qaoçandan elçi göndərilmişdir. | | Quturqurların Bizans üzərinə yürüşü. |
| 560 | Türkyut elçiləri İrana gedərkən eftalitlər tərəfindən yolda öldürülmüşlər. | | |
| 561 | Kuçidən Bey-Çjoya elçi getmişdir. | Bey-Tsiyə qarşı türkyutların Bey Çjou ilə ittifaq bağlaması. | Xosrov Ənuşirvanın sabirləri darmadağın etməsi. |
| 562 | | Türkyutlar tərəfindən eftalitlərin ilk dəfə məğlubiyyətə uğraması. Eftalitlərə qarşı İranla ittifaqın bağlanması. | İranın Bizansla sülh bağlaması. Avarların Bizansa ikinci dəfə elçilərini göndərməsi. |
| 563 | Bey-Çjou və Bey-Tsinin müharibəsi. | Bizansda türkyutların elçiləri. Türkyutların Bey-Tsi üzərinə yürüşü. | Farslar eftalitləri darmadağın etmişlər. |
| 564 | Qaraşardan Bey-Çjouya elçi getmişdir. Tsislər tərəfindən Bey-çjous qoşunları darmadağın edilir. | Türkyutlar Çaçı almışlar. | |
| 565 | | Nesefin vaxtında türkyutlar tərəfindən eftalitlərin darmadağın edilməsi. | Avar elçiləri hədiyyələri artırmaq tələbi ilə Bizansa gəlirlər. |
| 566 | | İran və xaqanlıq arasında eftalitlər dövlətinin bölünməsi. | |
| 567 | | Türkyut elçiləri İrana gəlmişdir və elçilərin ölümü. | Avarların lanqobardamlarla ittifaq bağlaması. |
| 568 | | Maniax elçilərinin Bizansa gəlməsi. | Avarlar Pannoniyunu tutmuşlar. |
| 569 | | Türkyutların İrana yürüşü. | Zemarx elçilərinin türkyutların yanına gəlməsi. |
| 570 | | | Farslar Yəməni ələ keçirmişlər. |
| 571 | | İranın Xaqanlıq ilə sülh bağlaması. | Ermənilər İrana qarşı ayağa qalxmışlar. |
| 572 | Bey-Tsi türkyutlarla sülh bağlamışdır. | Muğan xan vəfat etmişdir. Tobo xan taxta çıxmışdır. | Ermənilərə görə Bizansın İranla müharibə etməsi. |
| 573 | | Bizansdan elçilər gəlib: Yevtixiya-İrodiona və Pavel Kilikiyski. | |
| 574 | Xotondan Bey-Çjouya elçinin gəlməsi. | | |
| 575 | | Uturqurlar türkyutlarla ittifaq bağlamışlar. | Bizans və İran arasında danışıqlar aparılmışdır. |
| 576 | Çjouslular tərəfindən Bey- | Türkyutlar tərəfindən | Farsların Ermənistana |

| | | | |
|---|---|---|---|
| | Tsinin darmadağın edilməsi. | Bosforun mühasirəyə alınması və ələ keçirilməsi. Valentinin elçisi türkyutların yanına getmişdir. | hücumu. |
| 577 | Bey-Tsinin süqutu. | Türkyutların Krıma hücumu. | |
| 578 | Çaxara Qao Baonin gəlmişdir. | Xaqanlığın Bey-Çjou ilə müharibə etməsi. | |
| 579 | | Türkyutların Çinə hücumu. | Xosrov Ənuşirvanın vəfatı. |
| 580 | Bey-Çjo ilə Xaqanlıq arasında sülh bağlamışdır. | Türkyutların Lazikə hücum etməsi. | |
| 581 | Yan Tszyanyanın çevriliş etməsi. Suy sülaləsinin əsasının qoyulması. Toğanların yürüşü dəf edilmişdir. | Tobo xan vəfat edir. Toremenin kənar edilməsi, Əmrakın əl çəkməsi. Şabolionun taxta çıxması. | Avarlar tərəfindən Sirmiyanın ələ keçirilməsi. |
| 582 | Suya qarşı Baoninin üsyan etməsi. | Çinə basqın dəf edilmişdir. | |
| 583 | Lintao yaxınlığında toanların darmadağın edilməsi. | Toremen məğlubiyyətə uğramış, Şabolio qələbə qazanmışdır. Çuloxou Çinə verilmişdir. | Avarların Bizans üzərinə hücum etməsi. |
| 584 | | Xaqanlıqda ədavət başlanmışdır. Şabolio və Qara-Çurin Çin ilə sülh bağlamışdır. | |
| 585 | Kidanlar Çinə verilmişdir. | Abarların üsyanı. Şabolio abarları və Toremeni parçalayır. | |
| 586 | | Toremenin Buxaraya geri çəkilməsi. | |
| 587 | Suy Xou-Lyan imperiyasını zəbt edir. | Şabolio vəfat edir. Çuloxou taxta sahib olur. Toremen darmadağın edilir, əsir alınır və öldürülür. Çuloxou «qərb yürüşündə» öldürülür. | Bizansın avarlarla sülh bağlaması. |
| 588 | Türkyutlarla ticarət etmək üçün bazarların açılması. | Yun uluğun taxta çıxması. | Bosfor Bizansa qaytarılmışdır. |
| 589 | Suy imperiyası tərəfindən Çen imperiyasının zəbt edilməsi. | İrana yürüş və Herat döyüşü olmuşdur. Paykənd farslar tərəfindən alınmışdır. İranla sülh bağlanmışdır. | Xəzərlərin, yunanların və gürcülərin Ağvaniyaya basqını farslar tərəfindən dəf edilmişdir. |
| 590 | | Türkyutlar tərəfindən Qaoçanın tabe edilməsi. | Bəhram Çubinin üsyanı. |
| 591 | Toğon xanı Kualyuy vəfat etmişdir. | | Bəhram Çubinin mərlubiyyətə uğraması. Xosrov Pərvizin təntənəsi. |
| 593 | | Qərbi və Şərqi türkyutlar arasında sülh bağlanmışdır və Xaqanlıq yenidən birləşmişdir. | Bistamın üsyanı |

| | | | |
|---|---|---|---|
| 594 | Çində aclıq başlamışdır. | Türkyutların yanına Çjansun Şenin elçiləri gəlmişdir. | |
| 596 | | | Bistamın ölməsi. |
| 597 | Çinin cənubunda kəndli üsyanı olmuşdur. Toğen Çinə neytrallığı təminat verir. | Janqarın xəyanət etməsi və Çjou evindən şahzadənin öldürülməsi. Çin ilə müharibənin başlanması. Üsyana qalxmış ubravların türkyutlar tərəfindən sakitləşdirilməsi. | |
| 598 | Koqreslilər (koreyalılar) Lyaosini zəbt etmişlər. Çinlilər darmadağın edilmişlər. | Çin qoşunlarının türkyutlara qarşı çıxışı. | Qara-Çurin Türkün Konstantinopola elçilərinin getməsi. |
| 599 | Ordosda uğurlu döyüş olmuşdur. | Janqarın darmadağın edilməsi. Yun Uluğun öldürülməsi. Qara — Çurin Türkün «Boke xan» titulu ilə taxta oturması. | |
| 600 | Anxoyda kəndli üsyanı yatırılmışdır. | Türkyutların Çin üzərinə yürüşü. | |
| 601 | | Çinlilərin Çanyan yaxınlığında darmadağın edilməsi. | Bizansların avarlar üzərində qələbəsi. |
| 602 | | Çin üzərinə uğursuz yürüş olmuşdur. | Foki üsyanı. Mərakeşin məhvi. Bizansın İranla müharibəsinin başlanması. |
| 603 | | Qara-Çurinə qarşı on teles tayfasının üsyanı. Nili xanın məhv olması. | Türkyutların köməyi ilə kuşanların İrana qarşı üsyanı olmuşdur. Toharistanın İrandan uzaqlaşması. |
| 604 | Yan Tszyamanın qəflətən vəfat etməsi. Yan Di taxta oturmuşdur. | Qara Çurin Toğona qaçmışdır. Xaqanlığın bölünməsi: şərq xanı — Janqar: Qərb xanı — Taman. Basıl Təkin Çində tutulmuşdur. | Farsların Bizans üzərinə hücumu. Dara tutulmuşdur. |
| 605 | Kidanların üsyanının yatırılması. | Cunqariyada teles xanlığının yaradılması. | |
| 606 | | Qərb türkləri — dulular teleslilər — kibi və seyantolular tərəfindən darmadağın edilmişlər. | |
| 607 | Türkyutlarla azad ticarətin qadağan olunması haqqında Fərman verilmişdir. | Loyanda Janqarın qəbulu. | Farslar Mərd və Amid qalalarını tutmuşlar. |
| 608 | Qaoçan hakimi Boya Çinlə danışıqlara girir. | Janqar xan vəfat edir. Taxta Şibirxan çıxır. Cunqar teleslilərі qərbi türkyutlarla ittifaq bağlamış və Toğon | Farslar Suriyanı tutmuşlar və Xalkedona qədər gedib çıxmışlar. |

| | | | |
|---|---|---|---|
| | | üzərinə birgə basqın etmişlər. | |
| 609 | Yandi Toğonu, Qaoçanı və 27 kiçik əyaləti özünə tabe etmişdir. | | |
| 610 | Loyanda baş qaldırmış xalq üsyanı yatırılmışdır. Qibindən elçi gəlmişdir. | Loyanda türkyutlar üçün dəbdəbəli bayram keçirilmişdir. | İraklinin üsyanı və Fokinin məhvi. |
| 611 | Yandinin Koğureyə yürüşü. | Şequyun üsyanı və Tamanın Qaoçana qaçması. | |
| 612 | Koğuredə çin qoşunlarının məğlubiyyəti. | Tamanın tərəfdarları Çinə tabe olmuş və üç ordaya parçalanmışlar. | Farslar Kesara Kappadokiyanı tutmuşlar. |
| 613 | Koğureyə ikinci yürüş. Yan Syuan-qanın əsgər qiyamı. Hər yerdə kəndli üsyanı başlanmışdır. | Şibir xan sərhəd voevodalar Boyuy-so, Van Syu-ba və Vey Daoeranın qaldırdığı qiyamı yatırmışdır. Türkyut knyazları arasında çin kəşfiyyatının ədavəti aşkar edilmişdir. | |
| 614 | Koquredə sülh bağlanmışdır. | | |
| 615 | Çində xalq üsyanı genişlənmişdir. Toqon azad edilmişdir. | Şibir xanın Yaymın üzərinə yürüşü. Müharibə. | Farslar tərəfindən Yerusəlmin tutulması. |
| 616 | Yandi cənuba qaçmışdır və Tsz-yandu qalasında gizlənmişdir. | | Misirin farslar tərəfindən tutulması. |
| 617 | Lyan Şi-dunun, Lyu U-çjonun, Li Yuanyanın və başqalarının hərbi üsyanı. | Kidan, Şivey, Toğon və Qaoçan Şibir xana tabe olub. | |
| 618 | Tan sülaləsinin əsasını qoyulması. | Şequyxan vəfat etmişdir. Tun cabqu-xan taxta çıxmışdır. | |
| 619 | Türkyutlarla Tanın ittifaqının pozulması. Xesi tabe edilmişdir. Şansidə Van Şi-qunun və Xebeydə Dou Qyan-denin Tana qarşı üsyanı. Lyan Şidunun basqını və Lyu Uçjonun Şimali Çinə türkyutların köməyi ilə basqını. | Şibir xanın Ordasa basqını və onun ölümü. Çulo xan taxta oturmuşdur. Cunqariya teleslilări — seyanto və kibilər Tun cabqu xanına tabe edilmişdir. Şərq teleslilări olan uyğurlar Çulo — xana qarşı üsyana qalxmışdır. | Konstatinopolda «Hun knyazının» xaç suyuna çəkilməsi. Avarlar Konstantinola qədər gəlib çıxmışlar. |
| 620 | Lyu-Uçjounun Li Şi-min tərəfindən darmadağın edilməsi və onun məhvi. | Çulo xanın Suy sülaləsinin tərəfdarları ilə ittifaq bağlanması. Çulo xan vəfat etmişdir. Qat-İl xan taxta çıxmışdır. Lyançjou üzərinə yürüş. | Avarların geri çəkilməsi. |
| 621 | Van-Şi-çunun və Dou Qyan denin Loyan yaxınlığında Li Şi-min | Dayçjou və Yuançjou üzərinə türkyutların yürüşü. | |

| | | | |
|---|---|---|---|
| | tərəfindən darmadağın edilməsi. | | |
| 622 | Türkyutlarla Lyu Xey-danın ittifaqı | Türkyutların şimali-şərqi Çinə basqını. | İraklinin farslar üzərinə əks-hücumu. |
| 623 | Lyu-Xey-da darmadağın edilmişdir. Toğonluların çinlilər tərəfindən məğlub edilməsi. | Şansiyə basqın. | İraklinin Atrpatakana basqını. |
| 624 | Tan sülaləsi altında Çinin birləşməsi başa çatmışdır. | Şərqi türkyutların Çin üzərinə hücumu və geri çəkilməsi. Qərbi türkyut xaqanlığının Çin ilə ittifaqı. | İraklinin Kilikiyaya geri çəkilməsi. |
| 625 | | Şansiyə basqın. | Bizans və Qərbi türkyut xaqanlığı arasında elçilərin dəyişdirilməsi. |
| 626 | Li-Şi-Minin çevrilişi olmuşdur. Vey çayı üzərində türkyutlarla sülh bağlanmışdır. | Qərbi türkyutların Dərbənddən keçib Zaqafqaziyaya daxil olması. | Yunanlar və türkyutlar Tiflisi mühasirəyə almışlar. |
| 627 | Qat-İl-xan tərəfindən Tun-Caquxanın yanına elçilərin getməsi dayandırılmışdır. | Qərbi türkyutlarda olan Syanto şərqi türkyutlara verilmişdir. Qar uçqunlarına görə aclıq olmuşdur. | Avarlar və farslar Konstantinopolu mühasirəyə almışlar. Nineviya yaxınlığında farslar üzərində yunanların qələbə qazanması. |
| 628 | Lyana Şidu məhv edilmişdir. | Qərbi türkyutlar və xəzərlər tərəfindən Tiflisin alınması. Ağvaniyanın zəbt edilməsi. Qat İl-xana qarşı seyantoluların, uyğurların, bayırkların, kidanların üsyanı. Uyğurlar tərəfindən Yükükşadın və Tolis xanın məğlub olması. Qat İl-xana qarşı Tolis xanın üsyanı. | Xosrov Pərvizin öldürülməsi. Bizans qoşunlarının Ktezifondan, fars qoşunlarının isə Konstantinopoldan geri çəkilməsi. İranda şəhr-vəraz diktaturası vaxtında Kavad Şiro taxta çıxmışdır və saray çevrilişləri başlanmışdır. |
| 629 | Ordosda Man qalasının alınması. Bütün cəbhə boyu türkyutların üzərinə əks-hücum başlamışdır. Tibet taxt-tacına Srontsanqambonun yiyələnməsi. | Aşina Şeni Bişbalığı almışdır və Tun-cabqu xana qarşı karlukları qaldırmışdır. Seyantolu İnan «xan» titulunu qəbul etmişdir. Bayırki buğu və tunqra tayfaları Çinə verilmişdir. Linçjou yaxınlığında Qat İl-xan darmadağın edilmişdir. Şahzadələrin xəyanət etməsi Oyanlin dağı yaxınlığında məğlubiyyət. | Bizansın İranla sülh bağlaması. |
| 630 | Hamilər Tan imperiyasına tabe edilmişlər. | Qat İl-xan darmadağın edilmiş və əsir alınmışdır. Şərqi türkyut xaqanlığının sonu. Gülyuq—Sibir xan tərəfindən | Qərbi türkyutların Ermənistana basqını və farsların məğlub olması. Qərbi türkyutlar |

| | | | |
|---|---|---|---|
| | | Tun-cabqu xanın öldürülməsi. Nuşibilərin ona qarşı üsyanı. | Zaqafqaziyanı təmizləmişlər. |
| 631 | Türkyutların yanında yaşayan 80 min nəfər çinli aşkara çıxarılıb tutulmuşdur. | Sibir xan öldürülmüşdür. Sı cabqu-xan taxta oturdulmuşdur. Hamilərin darmadağın edilməsi. Çibi xan Altaya yol açmışdır. | Avarlara qarşı kuturqurların üsyan etməsi və avarlar tərəfindən kuturqurların üsyanı. |
| 632 | Qaraşar və Xotandan elçi gəlmişdir. | Kibilər Tyan-Şandan Çinə köçmüşlər. | |
| 633 | Tibetdən Çinə elçi gəlmişdir və ziddiyyət yaranmışdır. | Çuyua və çumilər İlidən Çinə köçmüşlər. Sı-cabqu devrilmişdir. Nişu Dulu-xan taxta oturmuşdur. | Bolqarların türkyutların hakimiyyətindən azad olması və onların Qüdrət tayfası ilə birləşməsi. |
| 634 | Tibet və Tan imperiyası arasında müharibə olmuşdur. | Nişu Dulu xan vəfat edir, Işbara Tolisşad — xan taxta oturmuşdur. Aşina Şeni uyğurlar tərəfindən darmadağın edilmişdir. | Ərəblərin Suriya və Mesopotamiyaya basqını. |
| 635 | Toqonun və tibetlilərin imperiya süvariləri tərəfindən darmadağın edilməsi. | Qərbi türkyut xaqanlığında islahat: dulu və nuşibi tayfaları arasında bağlanmış ittifaqın hüququnun tanınması. | Dəməşq ərəblər tərəfindən tutulmuşdur. |
| 636 | | Aşina Şeni Tan imperiyasına tabe edilmişdir. | Yarmuk yaxınlığında döyüş olmuşdur. |
| 637 | | | Kadesi yaxınlığında döyüş olmuşdur. Yerusəlimin tam təslim olması. |
| 638 | İrandan elçi gəlmişdir. | Yükük — şadın türkyutları və qaoçanlılar Qaraşarı darmadağın etmişlər. Qərbi türk — dulular Yükük İrbis — Dulunu xan elan etmişlər. Qərbi türk xaqanlığında vətəndaş müharibəsi olmuşdur. | Ərəblər Suriyadakı bizans qalalarını tutmuşlar və Mesopotamiyanı və Xuzistanı tabe etmişlər. |
| 639 | Srontsanqambo Nepal knyazının qızı ilə evlənmnşdir. | Əsir düşmüş türkyutlar arasında sui-qəsdin hazırlanması. Aşina Sı-monun əsir alınmış türkyutlara xan təyin edilməsi. Qovulmuş Işbara—Tolis xan vəfat etmişdir. Nuşibilər İl-Gülyuqşad İrbis xanı taxta oturtmuşlar. | |
| 640 | Qaoçan alınmışdır. | İl-Gülyüq-şad İrbis xan ölmüşdür. İrbis Işbara cabqu xan taxta çıxmışdır. | Ərəblər Misirə basqın etmişlər. |
| 641 | Tan imperiyasının Tibetlə müqavilə bağlaması və Srontsanqambonun çin şahzadəsi ilə evlənməsi. | İrbis Işbara Cabqu-xan tərəfindən öldürülmüşdür. Şərqi türkyutlar çölə qayıtmışlar. Onların üstünə | |

| | | | |
|---|---|---|---|
| | | hücum edən seyantolular darmadağın edilmişlər. | |
| 642 | Hamidə olan imperiya qarnizonu İrbis—Dulu xan başda olmaqla qərbi türkləri darmadağın etdi. | İrbis Şequy-xanın başçılığı altında İrbis Dulu xana qarşı üsyan başlamışdır. | Neqavənd yaxınlığında döyüş olmuşdur. İsgəndəriyyənin süqutu. |
| 643 | Koqure və Pekçe Sillaya qarşı müharibəyə başlamışlar. | İrbis Dulu xan Toharistana geri çəkilmişdir. | |
| 644 | Srontsanqambo Qədim Tibetdə şan-şunq tayfalarını tabe etdirmişdir. | | Ərəblər İsfahanı tutmuşlar. |
| 645 | Koqure üzərinə yürüş. | Seyantoluların Çin üzərinə yürüşü. | Ağvanlı Cavanşirin farslara qarşı üsyanı. |
| 646 | Qərbi türkyut xaqanlığı ilə əlaqələrin kəsilməsi. | İmperiyalılar və uyğurlar tərəfindən seyant ordasının darmadağın edilməsi. | |
| 647 | Koqureyə qarşı müharibə bərpa olmuşdur. | Uyğurlar, bayırklar və kurıkanlar Tan imperiyasına tabe edilmişdir. İbn xan elçi göndərmişdir. | Ərəblər Şimali Afrikaya basqın etmişlər. |
| 648 | Tibetlilərin Hindistan üzərinə yürüşü. Aşina Şeninin Qərbi diyarlara yürüşü. Kuça zəbt edilmişdir. | Aşina Xallıq Tan imperiyasına tabe olmuşdur. | |
| 649 | Xotan zəbt edilmişdir. Taytszun Li Şimin vəfat etmişdir. Qaotszun taxta çıxmışdır. | Çebi xana qarşı qoşun göndərilmişdir. | Ərəblər Kipri ələ keçirmişlər |
| 650 | | Çebi-xan əsir alınmışdır. | Ərəblər İstəhri (Persepol) tutmuşlar. |
| 651 | Qərbi türklər Tinçjounu (Bişbalıq) tutmuşlar. | İrbis Şequy xanı öldürən Xallıq Işbara xan titulunu qəbul etmişdir. | Qoşunları Bijan və Mahuey tərəfindən məğlubiyyətə uğramış III Yəzdəgird həlak olmuşdur. Ərəblər Xorasanı tutmuşlar. |
| 652 | İmperiyalılar çuyue və çumiləri darmadağın etmişlər. | Işbara xan tərəfindən Mahuya Surinin darmadağın edilməsi və qətlə yetirilməsi. | Ərəblər Cüzdan və Toharistana basqın etmişlər. |
| 653 | İmperiyalılar Bişbalığı geri qaytarmışlar. | Yükük İrbis Dulu-xan vəfat etmişdir. | |
| 654 | Karluklar və çumuğunlar üzərinə imperiyalıların yürüşü. | Çjençunun uğursuz üsyanı olmuşdur. | Ərəblərin Maymurq, Bəlx və Xarəzm üzərinə yürüşü olmuşdur. |
| 655 | | Işbara-xan imperiyalı qoşunlarının qarşısını almışdır. | Piruz ərəbləri Senstandan qovmuşdur. |
| 656 | İmperiyalıların Qərbi Türkyut xaqanlığı üzərinə | İli çayı üzərində Işbara xanın məğlub olması. Nuşibi və | Osmanın öldürülməsi. Xilafətdə vətəndaş |

| | | | |
|---|---|---|---|
| | hücumu. Tan imperiyasına qarşı bayırki, siqə, buğu və tonqra tayfalarının qiyam qaldırması. | duluların təslim olması. Qərbi türkyutların darmadağın edilməsi. | müharibəsi. Xəzər xaqanlığının yaradılması. |
| 657 | | Işbara xanın qaçması və əsir düşməsi. | |
| 658 | | Ebinor və Kuçi yaxınlığında sonuncu müqavimət ocaqlarının darmadağın edilməsi. | |
| 659 | | Çjençu darmadağın edilmiş və qətlə yetirilmişdir. | |
| 660 | Koqure və Pekçi Silla üzərinə basqın etmişlər. | Mərkəzi Tyan-Şan nuşibiləri imperiyaya tabe edilmişdir. | Ağvanlı Cavanşir Xəzərləri darmadağın etmişdir. |
| 661 | İmperiya ordusu Koqureyə basqın etmişdir. Pxenyanın uğursuz şəkildə mühasirəsi. | | Ağvanın ərəblər tərəfindən tutulması. Əməvilər hakimiyyətinin qurulması. |
| 662 | Qiyam qaldırmış türkləri müdafiə etmək üçün tibetlilərin Qərb diyarlarına daxil olması. | Teles tayfalarının üsyanı yatırılmışdır. Mişe qətl edilmişdir. Qunyue və yaqmanın üsyanı. | Dərbənd uğrunda ərəblərin xəzərlərlə müharibəsi. Ərəblər Kabulu ələ keçirmişlər. |
| 663 | Tibetlilər tərəfindən Toqonun zəbt edilməsi. | Turfan və Xaqan üzərinə qərbi türk üsyançılarının hücumu. | |
| 664 | | Qərbi türklərin üsyanı yatırılmışdır. | Ərəblər Pəncaba basqın etmişlər. |
| 665 | Tibet-Çin müharibəsi. | | |
| 666 | Koquredə tayfalararası müharibə. | Buçjen vəfat etmişdir. | |
| 667 | Tibetlilər köçəri kyanları tabe etmişlər. | | |
| 668 | İmperiyalılar tərəfindən Koqurenin özünə tabe etdirilməsi. | | Ərəblər Xalkedonu tutmuşlar. |
| 669 | Koquredə üsyan yatırılmışdır. | | |
| 670 | Tibetlilər Buhayn-qolda imperiya qoşunlarını darmadağın etmişlər. | Tibetlilər və xotanlılar Kuçunu dağıtmışlar. | Bolqarların xəzərlər tərəfindən darmadağın edilməsi. |
| 671 | | Duçji qərbi türkyutların başçısı qoyulmuşdur. | Ərəblər Mərv, Bəlx və Herat şəhərlərin də «sakitləşdirilmişlər». |
| 672 | Tibet Tan imperiyasına sülh təklif etmişdir. Təklif rədd edilmişdir. | | |
| 673 | | | Ərəblər Konstantinopolu mühasirəyə almışlar. |
| 674 | Koquredə xalq üsyanı. | | Ərəblərin Paykəndə yürüş etməsi. |
| 675 | Tibet imperiyaya sülh | | Bolqar Asparunun Dunay |

| | | | |
|---|---|---|---|
| | təklif etmişdir. Təklif rədd edilmişdir. | | üzərində görünməsi. |
| 676 | Çin üzərinə Tibet yürüşü. | Duçji Tibetlə ittifaq bağlamış və özünü xan elan etmişdir. | Ərəblərin Səmərqənd və Xarəzm üzərinə yürüşü. |
| 678 | Tibetlilər Kuçunu imperiyanın əlindən almışlar. | | Bizans və xilafət arasında sülh bağlanmışdır. |
| 679 | Manromantsan ölmüşdür. Dudsron taxta çıxmışdır. Kukunor yaxınlığında imperiya qoşunları dağıdılmışdır. | İmperiyalılar tərəfindən Duçji həbs olunmuşdur. Aşin — Nişu bəyin üsyanı. | |
| 680 | Tibetlilər tərəfindən Yunnaninin zəbt edilməsi. | Nişu bəyin üsyanı yatırılmışdır. Funyanya üsyanı. | |
| 681 | Tibetdə Vençen vəfat etmişdir. | Funyanya üsyanı yatırılmışdır. Qutluğun uyğurlar üzərinə yürüşü. | Səlim ibn Ziyadın Mavəreünnhərə yürüşü. |
| 682 | | Kibuçur üsyanı yatırılmışdır. Qutluğun üsyanı uğurlu olmuşdur. | |
| 683 | İmperator Qaotszun vəfat etmişdir. | Qutluğun üsyanı inkişaf edir | Xəzərlərin Ermənistana yürüşü. |
| 684 | Dövlət çevrilişi olmuşdur. Çjuntszunun devrilməsi və sürgün olunması. İmperatriça U-nun xəyanətkarlığı. | | Xəzərlərin Zaqafqaziya üzərinə basqını. |
| 685 | | | Bizans və Xilafət arasında sülh müqaviləsi bağlanmışdır. |
| 686 | | Sinçjou çin qoşunu darmadağın edilmişdir. | |
| 687 | | Qutluğ darmadağın edilmiş və Qabiyə geri çəkilmişdir, orada da təqib edən dəstə onları qırmışdır. | |
| 688 | Qanları bir olan şahzadələrin sui-qəsdinin üstü açılmışdır. | Türklər türkeşlər tərəfindən dağıdılmışdır. Türklər uyğurları zəbt etmişlər. | Zaqafqaziyanın yunanlar tərəfindən zəbt edilməsi |
| 689 | Çinlilərin Tibetə basqın etməsi və onların darmadağın olunması. | | Xəlifə Abdu əl-Məlikə qarşı Abdullah ibn-Xazimin üsyan qaldırması. |
| 690 | İmperatriça U Tan sülaləsini ləğv edərək imperator titulunu qəbul etmişdir. | | Abdullah ibn-Xazim Xorasanda türklərin yığılmasını dağıtmışdır. |
| 691 | Dansyanlar və Manilər Çinə verilmişlər. | | Abdullah ibn-Xazimin Mavəreynnəhrə keçməsi. Xorasanda Xəlifə |

| | | | |
|---|---|---|---|
| | | | hökumətinin bərpa edilməsi. |
| 692 | Qərb diyarında tibetlilər imperiyalılar tərəfindən darmadağın edilmişlər. | | Ərəblərin Dərbəndə basqını. |
| 693 | Tibetlilərin Qərb diyarından imperiyalılar tərəfindən qovulması. | Qutluğ vəfat edir, Moçur daxil olmuşdur. Uyğurlar, sıqye ilə Hun Xesiyə köçmüşlər. | |
| 694 | Kurıkanların Çinə elçi göndərməsi. Aşina Suytszının üsyanı və onun tibetlilərlə ittifaqı. İmperiya qoşunları tibetliləri, türkeşləri və qərbi türkyutları darmadağın etmişlər. | Moçuranın Linçjouya yürüşü. | |
| 695 | Tibetlilərin Qansuya basqını. | Moçur İmperiyanın təbəəliyinə daxil olmaq təklifini vermişdir. | II Yustinianın taxtdan devrilməsi. |
| 696 | Tibetlilər Lyançjunu tutmuşlar. İmperiya və Tibet arasında danışıqlar olmuşdur. | Kidanların və Xilərin Çinə qarşı üsyanı. | |
| 697 | Bahay dövlətinin əsası qoyulmuşdur. | Moçurun Çin üzərinə hücumu. Kidanlar türklərə tabe olmuşlar və Lyu-çeni tutmuşlar. | |
| 698 | Çjuntszunun sürgündən qayıtması. | Moçurun Çinə basqını və İmperiya qoşunlarının darmadağın edilməsi. Türklərin qənimətlərlə birgə geri çəkilməsi. | |
| 699 | Tibetdə çevriliş. Kidanlar imperiyalılar tərəfindən darmadağın edilmişlər. | Fuqyuyun kiçik xan təyin edilməsi. 70 min nəfər qərbi türk Çinə köçmüşlər. Türkeş xanlığının əsası qoyulmuşdur. | Ərəblər Kəş üzərinə basqın etmişlər. |
| 700 | İmperiyalılar tibetliləri darmadağın etmişlər. | | |
| 701 | | Moçurun Çin üzərinə yürüşü. Gültə-kinin Cunqariyaya yürüşü. Iduk-baş yaxınlığında döyüş olmuşdur. | |
| 702 | Beytində hərbi vilayətin (Cunqariya) təsis edilməsi. | Moçurun Çin üzərinə yürüşü. | |
| 703 | Tibet hökmdarı Dusron Nepal üzərinə yürüşdə ölmüşdür. Taxta onun oğlu Meaqteom yeddi yaşında çıxmışdır. Çjuntszun taxta çıxmışdır. | Moçur öz qızı ilə Çjuntszunun nigah bağlanmasını təklif edir. Danışıqlar başlanmışdır. Türklər basmalları tabe etmişdir (Cunqariyanı). | |
| 704 | Aşina Xyan imperiya üçün | | Termezin xəlifənin qoşunu |

| | | | |
|---|---|---|---|
| | Yeddisuyu tabe etmişdir. Şatolar döyüşsüz təslim olmuşlar. Qərbi türklər tabe olmuşlar və karluklar, xuvu və şunişlər təslim edilmişlər. | | tərəfindən tutulması və Abdullah ibn Xazimin məhvi. Qüteyb ibn — Müslimin Xorasanın canişini təyin edilməsi. |
| 705 | Çində çevriliş: imperatriça U-nun ölümü. Tan imperiyasının bərpası. | | |
| 706 | Türklərlə danışıqlar kəsilmişdir. Çanyanda çevriliş uğursuz olmuşdur. | İmperiya ilə müharibə bərpa edilmişdir. Minşa yaxınlığında Şaça çjunu (Qaçasenqun) Gültəkin darmadağın etmişdir. | Qüteybə Paykəndi tutmuşdur. |
| 707 | Tibetdən Çinə elçi gəlmişdir. İmperiyalılar manları sakitləşdirdilər. | Türklər bayırkiləri tabe etmişlər. | Qüteybə Ramitanı tutmuşdur, lakin soqdiyalılar fərqanəlilər və türkeşlər tərəfindən sıxışdırılmışdır. |
| 708 | Xuanxedən şimala doğru türklərə qarşı qala tikilmişdir. | Türkeşlərin xanı Uçjile ölmüşdür. Taxta onun oğlu Soqe oturmuşdur. | Məhəmməd ibn-Mərvan Dərbəndi almışdır. Qüteybə Buxaradan geri oturdulmuşdur. |
| 709 | | | Qütbeybə Buxaranı almışdır. İşhid Tarkun ərəbçilik üstündə devrilmişdir, taxta Qurək çıxarılmışdır. |
| 710 | İmperatriçanın sui-qəsdi. Çjuntszunun zəhərlənməsi. Tan tərəfdarlarının qətli və sui-qəsdçilərin döyüşçülər tərəfindən döyülməsi. Manilərin üsyanı yatırılmışdır. | Türklər qırğızları və azları darmadağın etmişlər. Yeddi Suda türkeşləri və soqdiyalıları darmadağın etmiş və moqeləri, tatabları və kidanları özlərinə tabe etmişlər. | Qüteybə Şoumanı, Nesef və Kəşi tutmuşlar. Kenqereslər türkeşlərin üzərinə hücum etmişlər. |
| 711 | İmperiyanın Tibetlə sülh və nigah müqaviləsi. | Karlukların, azların və izgillərin türklərə qarşı üsyanı. | Üsyan etmiş türkeşlərin türklər tərəfindən sakitləşdirilməsi. Xarəzmdə çəkişmə. |
| 712 | Juytszunun üz döndərməsi. Syuantqzunun taxta çıxması. | Tatablar imperiya ordusunu dağıtmışlar. | Qüteybə Xarəzmi özünə tabe etmişdir və Səmərqəndi almışdır. İmperator Mohedə tutuku Səmərqəndin hakimi təyin etmişdir. |
| 713 | Bolyuya və Kəşmirdən elçi gəlmişdir. | | Qüteybə Xocənti və Fərqanəni tutmuşdur. |
| 714 | Buddizmə qarşı qanun. Türklər Bişbalıq yaxınlığında darmadağın edilmişlər. Şato Tan imperiyasına tabe edilmişdir. Tibetlilərin | Kidanlar və tatablar Tan imperiyasına verilmişdir. Moçur oğlunu Çinə xidmət etmək üçün göndərmişdir. Xaqanlığın bütün tayfaları üsyan etmişlər. | Qüteybə Çaç üzərinə hücum etmişdir. |

| | | | |
|---|---|---|---|
| | basqını dəf edilmişdir. | | |
| 715 | Türklərin Beytin üzərinə, ərəblərin və tibetlilərin isə Fərqanə üzərinə yürüşləri dəf edilmişdir. | Uyğurların və karlukların üsyanı yatırılmışdır. | Qüteybə qarşı üsyan və onun öldürülməsi. |
| 716 | Kidanlardan Lyuçen alınmışdır. Türkeşlər İmperiyaya qarşı çıxış edərək çinliləri və karlukları darmadağın etmişlər. | Bayırkılar yatırılmışdır, lakin Moçur pusquda öldürülmüşdür. Bilgə xan təntənə etmişdir. Gültəkin Moçurun ailəsini qırmışdır. | |
| 717 | Sulu İmperiyaya sülh təklif etmişdir. Ərəblər və tibetlilər Qaşqara hücum etmişlər. | | Ərəblər tərəfindən Konstantinopolun mühasirəyə alınması. |
| 718 | Tibet və Tanın sülh bağlaması. | Kidanlar üsyana qalxmış, çinliləri və Xiləri darmadağın etmişlər. Barışıq olmuşdur. | Xəzərlərin Azərbaycana basqını |
| 719 | Qaraşar birləşdirilmişdir. | Sulu, xan kimi tanınmışdır. | Ərəblərin Akvitaniyaya basqını. |
| 720 | Türklərin üzərində imperiyalıların qələbəsi. Kəşmirin Racına van titulu verilmişdir. | Basmalların, imperiyalıların, kidakların və xilərin birləşməsi. Basmalların darmadağın edilməsi. | |
| 721 | | Çin ilə sülh bağlanmışdır. | |
| 722 | Tibetlilərin Bolyuy üzərinə basqını. Tan imperiyası ilə müharibənin bərpası. | | Ərəblərə qarşı Soqdda baş qaldırmış üsyan darmadağın edildi. Divaştiç məhv oldu. |
| 724 | İmperiyalılar Tibetə basqın etmişlər. | | |
| 725 | | | Əsəd ibn-Abdullah dağlılar tərəfindən Xuttalyanda məğlub edilmişdir. Türkeşlərin ərəb dəstələrinə hücumu. Bəlxin bərpası. |
| 726 | Tibetlilərin Qançjouya basqını. | Tibetlilər türklərdən Çinə qarşı ittifaq bağlamağı xahiş etmişlər. | |
| 727 | Tibetlilərin geri çəkilməsi. | Qansuya köçmüş uyğurlar üsyan etmiş və Qərb diyarına gedən yolu kəsmişlər. Sonra türklərin yanına getmişlər. | Xəzərlərin Azərbaycana basqını. Maslam xəzərlərə qarşı yürüş etmişdir. |
| 728 | Tibetlilərin Lunyuda məğlub olması. | | Ərəblərə qarşı Soqdda baş qaldırmış üsyanı türkeşlər müdafiə etmişlər. |
| 729 | Xuanxey yanında olan Tibet qalası imperiyalılar tərəfindən alınmışdır. | | Ərəblər Buxaranı tutmuşlar. |
| 730 | Çin və Tibet arasında sülh | Kidanlar və xilər türklərə | Azərbaycan üzərinə |

| | | | |
|---|---|---|---|
| | bağlanmışdır. | verilmişlər. | xəzərlərin basqını ərəblər tərəfindən dəf edilmişdir. |
| 731 | Tibetlilər Bolyuyu tabe etmişlər. | Gültəkin vəfat etmişdir. | |
| 732 | | Kidanlar məğlub edilmişlər, tatablar isə imperiyalılara tabe olmuşlar. | İmperator Konstantinin xəzərlərin şahzadə qızı ilə nigahı. |
| 733 | Çin və Kəşmirin Tibetə qarşı ittifaqı. | Kidanlar və Türklər imperiyalıları və tatabları məğlub etmişlər. Kidanlar çinlilər tərəfindən darmadağın edilmişlər. | Mərvanın Biləncər üzərinə yürüşü. |
| 734 | | Bilgə xan zəhərlənmişdir. Taxta İjan xan çıxmışdır. | Xorasanda Xarisin üsyanı. |
| 735 | | | Soqdiyalıların və türkeşlərin ərəblərə qarşı cəsarətlə mübarizə aparması. |
| 736 | | Kidanlar çinliləri darmadağın etmişlər. | Mərvanın Alaniyaya yürüşü. Mərvanın lakları özünə tabe etdirməsi. |
| 737 | İmperiyalıların Tibet üzərinə, türkeşlərin isə Kuçu üzərinə hücumu. | Kidanlar iki dəfə çinliləri darmadağın etdilər. | Volqa üzərində xəzərləri Mərvan darmadağın etmişdir. Mərvanın Sərir üzərinə yürüşü. |
| 738 | Tibetlilərin Xesi üzərinə basqını dəf edilmişdir. İmperiyalıların Tibetə basqını dəf edilib. | Sulu öldürülmüşdür. Sarı və qara türkeşlər öz aralarında düşmənçilik edirlər. İmperiyalılar sarıları müdafiə edirlər. | Nəsr ibn-Səyyar Səmərqənddə, Çaçda və Fərabda üsyanı yatırtmışdır. |
| 739 | Tibetlilərin Çinə basqını dəf edilmişdir. | İjan-xan ölmüşdür. Taxta Bilgə Qutluğ xan çıxmışdır. | |
| 740 | Aşina Sin on oxların hökmdarı təyin olunmuşdur, qərbə göndərilmiş və orada öldürülmüşdür. | «Sarı» — mukrilərin tarxanı türkeşlərin xanı olmuşdur. Tezliklə o imperiyalılar tərəfindən qətlə yetirilmişdir. | |
| 741 | Onun ölümü ilə dumançji üç nəslin cabqusu təyin olunmuşdur. | Türk xaqanlığında nifaq salmışdır. Vətəndaş müharibəsi başlamışdır. Bilgə—Qutluğ və Syuan xan öldürülmüşdür. | |
| 742 | Sərhəd qoşunlarının yenidən təşkil olunması. Uyğurlar Tan imperiyasına tabe olmuşlar. | «Qara» türkeşlərin üsyanı. İl-İtmiş Bilgə xan. Uyğurlar. karluklar və basmallar üsyan etmişlər. Qaçmış olan Ozmış, xan seçilmişdir. | |
| 743 | İmperiyalılar Tibetə basqın etmişlər. Fasilə ilə müvəffəqiyyət qazanılmışdır. | Basmallar Ozmış xanı öldürmüşlər. Taxta Baymeyxan çıxmışdır. | Mərvan Zaqafqaziyanı tərk edir. |

| | | | |
|---|---|---|---|
| 744 | Tibetlilər məğlub edilmişdir. | Çin korpusu türkləri darmadağın etmişdir. Uyğurlar və karluklar basmalları darmadağın etmişlər. | |
| 745 | Kidanlar İmperiyaya tabe edilmişlər, üsyana qalxmış və yatırdılmışlar. | Baymey uyğurlar tərəfindən öldürülmüşdür. Türk xaqanlığının məhvi. Uyğur xaqanlığının məhvi. Uyğur xaqanlığının əsası qoyulmuşdur. | |
| 746 | | Karluklar və türkeşlər uyğurlar tərəfindən darmadağın edilmişlər. | |
| 747 | İmperiyalılar Bolyuyu tabe etmişlər. | Peylo vəfat etmişdir. Moyançur taxta çıxmışdır. Karlukların bir hissəsi uyğurlara tabe olmuşlar. | Əbu Müslimin üsyanı. |
| 748 | İmperiyalılar Kukunor, Suyabom və Çiça yiyələnmişlər. | | |
| 749 | İmperiyalılar Tibet qalasını almışlar. | | |
| 750 | Tibetlilər imperiyalıları Kukunordan dəf etmişlər. | | |
| 751 | Yuknani də mənilərin üsyanını müdafiə etmişlər. Kidanlar imperiyalıları məğlub etmişlər. | Doqquz — tatarlar tabe edilmişlər. | Karlukların müdafiəsi ilə Talas yaxınlığında Ziyad ibn-Salah Qao Syançjini məğlub etmişdir. |
| 752 | | Çiklər, qırğızlar, karluklar, basmallarla mübarizə. | Buhar-kudat və Usruşan şah ərəblərə qarşı yardım almağı xahiş etmişlər. İmperator imtina edir. |
| 753 | Manların üsyanı yatırılmışdır. | | Türkeşlərdə İlmış Qutluq «qara» xan olmuşdur. |
| 754 | Meaqtsom vəfat etmişdir. Tisrondetson taxta çıxmışdır. | Kidanlar könüllü olaraq uyğurlara tabe olmuşlar. | |
| 755 | An-Luşanın üsyanı. Syuantszunun əl çəkməsi. Tibetlilər şərqi Qansunu, Sıçuan və Sinin bir hissəsini tutmuşlar. | Karluklar və basmallar zəbt edilmişlər. | Əbu-Müslimin qanı uğrunda Sumbatın üsyanı. |
| 756 | Sutszun taxta çıxmışdır Uyğurlardan, tibetlilərdən və ərəblərdən kömək alınmışdır. | Uyğurlar An-Luşana qarşı ittifaq bağlamağı Tan imperiyasına təklif etmişlər. Türkeş xanlığının «sarı» və «qara»ları parçalaması. Onlar arasında mübarizə. | |
| 757 | Qiyamçılar Fın çayı | | |

| | | | |
|---|---|---|---|
| | üzərində darmadağın edilmişlər. An Luşan öldürülmüşdür, onun kəmağıl oğlu taxta oturdulmuşdur. | | |
| 758 | Tibetlilər cənubi Şensini ələ keçirmişlər. Ərəb dəniz quldurları Kantonu yandırmışlar. | Uyğurlar qırğızları tabe etmişlər. «Qara» türkeşlərin qələbəsi. | |
| 759 | Üsyançıların Yeçen altında qələbə qazanması. Onların başçısı Şi-Sımin hakimiyyəti ələ almışdır. | Moyançur ölmüşdür, İdikyan onu əvəz etmişdir. Karlukların güclənməsi, onların cənuba hücumu. | |
| 760 | Tibetlilər Qansuda Şan-çjounu tutmuşlar. | | |
| 761 | Şi Sımın öldürülmüşdür, onun oğlu Şi Çao-i hakimiyyəti qəbul etmişdir. | | |
| 762 | Üsyançılar məğlub edildilər və Loyanı itirdilər. Dayatszun taxta çıxmışdır. | Şi-Çao-inin qaldırdığı qiyamın yatırılmasında uyğurların iştirakı. | Xəzərlərin Zaqafqaziyaya basqını. |
| 763 | Tibetlilər Lunyunu və Xesi tutmuşlar və Çanyanı almışlar.<br>Üsyan yatırılmışdır. | | Xəzərlər Tiflisi ələ keçirmişlər. |
| 764 | Çinlilər tibetliləri Tszyannanidən çıxarmışlar. Xua-enya üsyan etmişdir. | | |
| 765 | Xua-enyanın qaldırdığı üsyan yatmışdır. Lyançjou Tibetə güzəşt edilmişdir. | Tibetlə ziddiyyət və tibetlilərin məğlubiyyəti. | |
| 766 | | Karluklar Yeddi sunu ələ keçirmişlər. | |
| 767 | Tibetlilərin Linçjouya basqını dəf edilmişdir. | | |
| 768 | Tibetlilərin Qansuya basqını. Tibetlilər Sıçuanda dağıdılmışdır. | | |
| 772 | | Karluklar Fərqanədə ərəblər tərəfindən məğlub olmuşdur. | Yunanların bolqarlarla müharibə aparması. |
| 773 | Tibetlilərin Qansuya basqını dəf edilmişdir. | | Xəzərlərin Alanlarla birləşməsi. |
| 774 | Çin və Tibet arasında danışıqlar. | | |
| 775 | Tibetlilərin Sıçuana basqını. | | Soqdianda Mukannanın üsyanı. |
| 776 | Tibetlilər Tszinyanı ələ keçirmişlər. Çinlilər manları məğlub etmiş və | | |

| | | | |
|---|---|---|---|
| | Nançjao ilə ittifaqa girmişlər. | | |
| 777 | Tibetlilər bütün cəbhə boyu dəf edilmişdir. | Karluklar, Uyğuriya, Tibet, Çin, Soqd, Fərqanə, Usruşan və Çaç xilafəti tanımışlar. | |
| 778 | Detszun taxta çıxmışdır. Tibetlilərin Qansuya basqını. Nançjao yenidən tibetlilərin əlinə keçmişdir. | Uyğurların Çinlilərlə ziddiyyəti: qənimətlə birgə yürüş və geri çəkilmə. | |
| 779 | Nançjao və Tibetin cənubda qoşunlarının məğlub olması. | | |
| 780 | Əmlakda birgə vahid vergi tətbiq edilmişdir. Tibetlilər Dunxuanı almışlar. Çində yaşayan uyğur tacirləri qətl edilmişlər. | Dunmağa xanı və 2 min nəfər ağsaqqalı öldürmüşdür və özünü xan elan etmişdir. | |
| 781 | Çin və Tibetlə ittifaq bağlanmışdır. | | |
| 782 | Xebeydə üsyan olmuşdur. | | |
| 783 | | Uyğurların Çinlə sülh müqaviləsi bağlaması. | |
| 784 | Tibetlilər Çində üsyanı yatırmağa çalışırlar. | | Kukanna üsyanı yatırılmışdır. |
| 786 | Çinin Tibetlə müharibəsi. Tibetlilərin Qansuya basqını. | | |
| 787 | Tibetlilərin Şensiyə basqını. | | |
| 788 | Tibetlilərin Sıçuana basqını. Nançjao siyasətinin enib-qalxması. | Tatablar və tatarlar Çinə basqın etmişlər. | |
| 789 | Tibetlilər Sıçuanda dəf edilmişdir, lakin Beytin altında uyğurları məğlub etmişlər. | Dunmağa ölmüşdür: onun oğlu Tanquan xan seçilmişdir. | |
| 790 | Şato Tibetə tabe edilmişdir. Tibetliləri Beytin və Kuçunu (Ansi) almışlar. | | |
| 791 | Tibetlilər Xotanı tutmuşlar. | Uyğurlar Qansuda tibetliləri məğlub etmişlər. | |
| 792 | Tibetlilər Qansunu bir daha darmadağın etmişlər. | Karluklar Fərqanədə ərəbləri məğlub etmişlər. | |
| 793 | Nançjaonun Çin tərəfinə keçməsi və tibetlilərin cənubda məğlubiyyətə uğraması. | | |
| 794 | Tibetlilər uyğurları məğlub etmişlər. | Xan zəhərlənmişdir, onun qardaşı öldürülmüşdür, onun azyaşlı oğlu — Açjo taxta | |

| | | | |
|---|---|---|---|
| | | çıxmışdır. | |
| 795 | Tatablar və tatarlar çinliləri məğlub etmişlər. | Uyğurlar tibetliləri məğlub etmişlər. Açjo xan ölmüşdür, taxta əyan Qütlüğ hakimiyyəti məhdudlaşdırılmaq şərtilə çıxarılmışdır. O, qırğızların üsyanını yatırmışdır, tibetlilərin və karlukların əlində olan Bişbalığı ələ keçirmişdir, tibetliləri kuçidən çıxarmışdır, çinlilərin Kuçedə müqavimətini qırmışdır. | |
| 796 | Tibetlilərin Çinə basqını. | | |
| 797 | Tisrondetsan ölmüşdür, onun oğlu Muki Dzenbo taxta çıxmışdır. | | |
| 798 | Tibetlilərin Yançjouya yürüşü dəf edilmişdir. | Qərbi karluklara taşililər qalib gəlmişlər. | |
| 799 | | Si—yuy Fərqanəyə daxil olmuş və tibetliləri şimal hissəsindən qovmuşdur. | |
| 800 | Tibetlilər Linçjouda məğlub olmuşlar. | | Böyük Karlın tacqoyma mərasimi. |
| 801 | Tibetlilərin Yan və Linçjouya, çinlilərin Sıçuana basqın etməsi. | | |
| 802 | Çin və Tibet arasında danışıqlar. | | |
| 804 | Mutuq Dzenbo ölmüşdür, onun qardaşı Tidesrontsan taxta çıxmışdır. | | Avar xaqanlığının frank və bolqarların birgə səyləri ilə məğlub və məhv edilməsi. |
| 805 | Şuntszun ölmüşdür, yerinə Syan-tszun çıxmışdır. Çin və Tibet arasında danışıqlar olmuşdur. | Qutluq xan ölmüşdür; Gülyuk—Bilgə xaqan seçilmişdir. Uyğurlar Lyançjounu almışlar. | |
| 806 | Uyğurlar tərəfindən göndərilən manixeylər Çanyana gəlmişlər. | Tatablar tatarlar və uyğurlarla ittifaqa girərək Çinin üzərinə hücum etmişlər. | Səmərqənddə xəlifəyə qarşı Rəfi ibn-Lyaysın üsyanı, tibetlilər tərəfindən müdafiə olunmuşdur. |
| 807 | | | Bolqarların Bizansla müharibəsi. |
| 808 | Şatolar tibetlilərə qarşı üsyan etmiş və Çinə gedib çıxmışlar. | Kyulyuk Bilgə xan olmuşdur. Bao-i-xan. | |
| 809 | Çin və Tibetin sülh haqqında danışıqları. | | |
| 810 | Van Çen-tszunun üsyanı yatırılmışdır. Tibetlilərlə ticarət mübadiləsi yolu açılmışdır. | | Rəfi ibn-Lyaysın üsyanı yatırılmışdır. |

| | | | |
|---|---|---|---|
| 812 | Tibetin xilafətlə münasibətlərinin kəskinləşdirilməsi. | Karluklar ərəblərə qarşı çıxış etmişdir. | |
| 813 | Tibetlilər tərəfindən Xuanxe çayı üzərində körpü tikilmişdir. | Qansuda İvov vadisinə uyğurların yürüşü. | Bolqarlar Adrianopolu tutmuşlar. |
| 814 | Şato qoşunları tərəfindən Yunantszi üsyanının yatırılması. | | |
| 815 | | | Bolqar-bizans sülh müqaviləsi. |
| 816 | «Adsız» Tidesrontsamqambo ölmüşdür, Ralpaçan taxta çıxmışdır. | | |
| 817 | Manixey təbliğatçıları Uyğuriyaya köçürülmüşlər. Tibetlilərin Linçjouya basqını dəf edilmişdir. | | |
| 818 | Tibetlilərin Syaçjouya basqını. | Qırğızlar Uyğuriyaya qarşı çıxış etmişlər, məğlub olmuşlar. | |
| 819 | Tibetlilər Yançjounu mühasirə etmişlər, lakin qovulmuşlar. | | |
| 820 | Tibetlilərin Çinə basqını. | Çin ilə sülh və nigah qohumluğunun yaradılması. | |
| 821 | Mutsun taxta çıxmışdır. Xebeydə üsyan. Tibetlilərin basqını dəf edilmişdir. | Baoxan ölmüşdür, Çinde xan olmuşdur. Tibetlilərin Uyğuriyaya basqını. | Tahir Xorasan əmiri təyin olunmuşdur. |
| 822 | Çin Tibetlə ittifaq bağlamışdır. | | Tahirilər Xorasanı və Mavəreynnəhri xilafətdən ayırmışlar. |
| 824 | Qaotszun taxta çıxmışdır. | Çin-de ölmüşdür, onun qardaşı Çjaoli xan taxta çıxmışdır. | |
| 827 | | | Bolqarların franklara qarşı müharibəsi. |
| 830 | Çinlilər tatabları məğlub etmişlər. | | |
| 832 | | Çjaoli xan sui-qəsdçilər tərəfindən öldürülmüşdür. Onun qohumu taxta çıxarılmışdır. | Bolqarlar franklarla sülh bağlamışdır. |
| 835 | Tatablar Çinə tabe olublar. | | |
| 839 | Ralpaçan boğulmuşdur, Lantdarma taxta çıxmışdır. | Üsyan: Külük-bəy şatolulara arxalanaraq xanı öldürmüşdür. Ağsaqqal Qyuylu Moxe qırğızların köməyilə Qara — | Afşin Heydərin prosesi; orta Asiya zərdüştliyinin sonu. İsfica bın Nuh Samanid tərəfindən zəbt edilməsi. |

| | | | |
|---|---|---|---|
| | | qorumu almış və Külyük bəyi öldürmüşdür. Pan dele 15 aymakla Qərbə çıxıb getdi, bəziləri Tibetə qaçdı, yerdə qalanları Uke xanın yanına gəldilər ki, öz qaçqınlarını yedizdirmək üçün Çin sərhədlərini talasın. | |
| 841 | Utsun taxta çıxmışdır. Qırğız səfiri Çinə gəlmişdir. | | |
| 842 | Lanqdarm öldürülmüşdür. | Uke xan çinlilər tərəfindən məğlub olmuşdur. Kidanlar uyğurlara qarşı üsyan etmişlər. | |
| 843 | Tibetdə tayfalararası müharibə başlamışdır. Bibi və Kunjo. | | Verden andı. |
| 845 | Budda monastırlarının dünyəviləşdirilməsi. | | |
| 846 | Utsyun ölmüşdür. Syuantszun taxta çıxmışdır. Manixey kitabları və təsvirləri yandırılmışdır. | Uke xan öldürülmüşdür. Enyan dele xan olmuşdur. | |
| 847 | Tatabların üsyanı çinlilər tərəfindən yatırılmışdır. | Enyen dele itkin düşmüşdür, onun uyğurları hər tərəfə səpələnmişdir. Pan dele Dunxuanda yeni xanlığın əsasını qoymuşdur. Qırğız Ajo öldürüldü. | |
| 851 | Tszinyan tibetlilərdən alınmışdır. Tibet canişini Xesi Çinə verilmişdir. | | |
| 861 | Çinlilər Lyançjounu tibetlilərdən aldılar. | Uyğur Buğu Tszun tibet uzurpatoru Kunjonu darmadağın etdi. Ağsaqqal Buqu Tezun tibetlilərdən Turfan, Beytin, Qaraşar, Buğur şəhərlərini almış və Uyğur xanlığının əsasını qoymuşdur. Karluklar Qaşqarı ələ keçirmişlər. | |

## KİTABIN İÇİNDƏKİLƏR

*G İ R İ Ş*........................................................................................................10

Birinci hissə
Böyük türk xaqanlığı
Tərcüməçi *Vilayət Quliyev*

**I f ə s i l**. ƏRƏFƏ........................................................................................13

**II f ə s i l.** ƏCDADLAR.................................................................................18

**III f ə s i l**. AŞİNA NƏSLİNİN BÖYÜK DÖVLƏTİNİN YARANMASI *(545-581-ci illər)*..........................................................................................26

**IV f ə s i l.** İPƏK VƏ KARVAN YOLU ........................................................39

**V f ə s i l.** XAQANLIĞIN DAXİLİNDƏ.........................................................48

**VI f ə s i l.** TÜRKYUTLAR ÖZ EVLƏRİNDƏ ..............................................58

**VII f ə s i l.** TÜRKYUTLARIN DİNİ ..............................................................65

**VIII f ə s i l.** FİKİRLƏR VƏ ŞÜBHƏLƏR.......................................................74

**IX f ə s i l.** BÖYÜK HƏRC-MƏRCLİK *(581—593-cü illər)*..........................88

**X f ə s i l.** İRANA YÜRÜŞ.............................................................................102

**XI f ə s i l.** AŞİNA VƏ SUY...........................................................................113

**XII f ə s i l.** QƏRB XANLIĞI .......................................................................124

**XIII f ə s i l.** TAN İMPERİYASININ YARANMASI ......................................138

**XIV f ə s i l.** ŞƏRQ XAQANLIĞI..................................................................149

**XV f ə s i l.** VII ƏSRİN DÜNYA MÜHARİBƏSİ .........................................162

**XVI f ə s i l.** ON OX .......................................................................................176

**XVII f ə s i l.** TABQAÇ XANI........................................................................185

**XVIII f ə s i l.** TÜRKYUTLARIN SONU.........................................................199

İkinci hissə
Göy türklər və uyğurlar yaxud ikinci xaqanlıq dövrü
Tərcüməçi *Vəli Həbiboğlu*


**XIX f ə s i l.** QƏRB XAQANLIĞINDA ÇƏKİŞMƏLƏR VƏ TİBET EKSPANSİYASI ........ 208

**XX f ə s i l.** XALQIN DƏYİŞMƏSİ ........ 215

**XXI f ə s i l.** QUTLUĞUN ÜSYANI ........ 223

**XXII f ə s i l.** YENİDƏN YARADILMIŞ XAQANLIQ ........ 236

**XXIII f ə s i l.** FƏLAKƏT ........ 255

**XXIV f ə s i l.** GÖY TÜRKLƏR ÖZLƏRİ HAQQINDA ........ 269

**XXV f ə s i l.** TİBETLİLƏR VƏ TÜRKEŞLƏR ........ 285

**XXVI f ə s i l.** XAQANLIQ VƏ İMPERİYA ........ 296

**XXVII f ə s i l.** UYĞUR XAQANLIĞININ YARADILMASI ........ 303

**XXVIII f ə s i l.** AN LUŞAN ÜSYANI ........ 314

**XXIX f ə s i l.** TİBET VIII ƏSRDƏ ........ 327

**XXX f ə s i l.** VIII—IX ƏSRLƏRDƏ UYĞURİSTAN ........ 345

SİNXRON CƏDVƏLİ ........ 353

*YENİYETMƏLƏR ÜÇÜN*

LEV NİKOLAYEVİÇ QUMİLYOV
(azərbaycan dilində)

Bakı – Gənclik – 1993.

Nəşriyyatın direktoru: *Ə.T.Əliyev.*
Mətbəənin direktoru: *M.N.Nəbiyev*
Rəssamı: *F.Əfəndi*

Bədii redaktoru: *T.Qasımov*
Texniki redaktoru: *N.Şərifova*
Korrektorları: *S.Musayeva, A.Quliyeva.*

ИБ № 6023
Yığılmağa verilmiş 26.06.92. Çapa imzalanmış 3.02.93.
Kağız formatı 84X108$^{1}/_{32}$. Mətbəə kağızı № 2. Ədəbi qarnitur. Yüksək çap üsulu.
Şərti ç/v. 28,14. Uçot nəşr v. 29,0. Tirajı 11 000. Sifariş № 144.

Azərbaycan Respublikası Dövlət Mətbuat və İnformasiya Nazirliyi.
«Gənclik» nəşriyyatı, Bakı, Hüsü Hacıyev küçəsi, 4.
1 №-li kitab mətbəəsi, Bakı, Ə.Bayramov küç., 3.